# MEŞƏ SEKTORU İŞÇİLƏRİ ÜÇÜN HÜQUQİ-NORMATİV AKTLARINNIN TOPLUSU

# COMPILIATION OF LEGAL ACTS AND REGULATIONS FOR THE FOREST SECTOR SPECIALISTS

**Kitab Avropa Komissiyasının**
**ayırdığı vəsait hesabına dərc olunub**

**this book was published with the financial support of the European Commission in the framework of the ENPI/FLEG "Improving Law Enforcement and Forest Governance in the European Neighborhood East Countries and Russia"**

"Max-Offset"
Bakı-2011

**This book was developed in the framework of the ENPI/FLEG "Improving Law Enforcement and Forest Governance in the European Neighborhood East Countries and Russia" Program with the financial support of the European Commission**

As a present to the regular readers of publications developed by Society of Legal and Sociological Studies "ZIYA" this book represents a significant interest to learn more about the ecological law and foresters' activities.

The aim of the Society in working out of this book which was part of its activities within the ENPI/FLEG Program was combating and preventing the illegal logging in the country.

The author of the book is chair of the Society of Legal and Sociological Studies "ZIYA" and PhD in Law, Yegana Balakishyeva.

---

**Kitab ENPİ/FLEG - "Avropa İttifaqının Qonşuluq Siyasəti Şərq Ölkələri və Rusiyanın Meşə Sektorunda Hüquq Tətbiqi və Idarəetmə Sisteminin Təkmilləşdirilməsi" proqramı cərcivəsində Avropa Komissiyasının ayırdığı vəsait hesabına dərc olunub**

**Tərtib etdi:**

**Balakişiyeva Yeganə Nəsir qızı**

"Ziya" hüquq və sosioloji araşdırmalar cəmiyyətinin oxucularına növbəti töhfəsi olan bu kitabın ekologiya hüququnun tədrisi və öyrənilməsi baxımından, həmçinin meşəçilərin fəaliyyətində əhəmiyyəti böyükdür.

"Ziya" hüquq və sosioloji araşdırmalar cəmiyyəti ENPİ-FLEG Proqramı çərçivəsində layihəni həyata keçirərkən və bu kitabı hazırlayarkən qanunsuz meşəqırmaların aradan qaldırılması və qarşısının alınması məqsədi güdürdi.

Kitabın müəllifi "Ziya" hüquq və sosioloji araşdırmalar cəmiyyətinin sədri hüquq elmləri namizədi Balakişiyeva Yeganə Nəsir qızıdır.

O, 1989-ci ildən 1999-ci ilə qədər Azərsu ASC-nin baş hüquqşunası vəzifəsində çalışmışdır. 1996-ci ildən Azərbaycan Universitetində əvvəl müəllim kimi, sonradan həmin universitetdə hüquq fakultəsinin dekanı vəzifəsində çalışmışdır. 2003-ci ildən Vergilər Nazirliyinin Tədris Mərkəzində "Hüquqi biliklərin əsasları" fənnini tədris edir. 2005-ci ilin sentyabr ayından Azərbaycan Respublikasının Milli Elmlər Akademiyasının Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun "Cinayət hüququ və cinayət prosesi" şöbəsinin böyük elmi işçisi vəzifəsində çalışır. O, 1 elmi monoqrafiyanın, 4 dərsliyin (birgə müəlliflik lə), 2 kitabın (birgə müəlliflik lə), 5 dərslik proqramının, 20-dən çox məqalənin müəllifidir. Hal- hazırda doktorluq dissertasiyası üzərində işləyir. Çoxsaylı layihələrin (beynəlxalq və dövlət daxili) iştirakçısıdır: Xəzər Ekoloji Proqram çərçivəsində - Azərbaycan Respublikası tərəfindən hüquqi məsələlər üzrə ekspert; "Böyük Bakının su təchizatının rekonstruksiyası Layihəsinin"- hüquqi məsələlər üzrə ekspertı və s.

## Beynalxalq FLEG prosessi haqqında ümumi məlumat

Meşə resurslarının idarə edilməsində mövcud nöqsan və boşluqlar, həmçinin meşə sektoru ilə əlagəli qanunların tətbigində olan problemlər, ölkədə davamlı iqtisadi inkişafın, sosial bərabərliyin və ətraf mühitin qorunmasının təmin edilməsində çətinliklər yaradır. Meşələrin qeyri davamlı istifadəsi və dövlət meşə fondunun ərazilərində qeyri-qanuni fəaliyyətin nəticələri arasında bunları qeyd etmək olar: kənd əhalisinin sosial iqtisadi mühitə gələcəkdə zərər vurulması; ətraf mühitin və meşə ekosistemin degradasiyası; biomüxtəlifliyin, karbon ehtiyatlarının azalması və iqlim dəyişməsinin daha da kəskinləşməsi.

## ENPİ/FLEG Proqramı haqqında

ENPİ/FLEG - "Avropa İttifaqının Qonşuluq Siyasəti Şərq Ölkələri və Rusiyanın Meşə Sektorunda Hüquq Tətbiqi və Idarəetmə Sisteminin Təkmilləşdirilməsi" proqramı iştirakçi dövlətlərin (Azərbaycan, Gurcustan, Ermənistan, Moldova, Ukrayna, Belorusiya və Rusiya) meşələrində olan qeyri-qanuni fəaliyyətlərin saylarının artmasına qarşı mübarizə aparmaq məqsədi ilə yaradılmışdır.

Bu proqram Avropa İttifaqı tərəfindən maliyyələşdirilir. Bu təşəbbüs meşələrin qeyri-qanuni kəsilməsinə dair olan mürəkkəb və siyasi cəhətdən həssas məsələlərin aradan qaldırılması proseslırindən ibarətdir və aşağıdaki əsas subyektlər tərəfindən həyata keçirilir:

- dövlət strukturları (nazirliklər, departamentlər, parlament, ganunvericilik orqanlar, bələdiyyələr, gömrük təşkilatları)
- vətəndaş cəmiyyəti (QHT-lər, ictimayi təşkilatlar)
- özəl sektor (ağac materiallari istehsal edən müəsisələr, biznes strukturları)

Bəzən hətta ən mükəmməl hazırlanmış təşəbbüslər yüksək səviyyədə siyasi iradə

## ABOUT THE FLEG PROCESS

The Forest Law Enforcement and Governance (FLEG) Program was created to combat the threats posed to forests by illegal logging, trade, poaching and corruption. Poor governance of forest resources combines with weak rule of law to undermine sustainable economic growth, societal equity, and environmental conservation. The effects of unsustainable forest management and illegal forest activities include: significant loss of revenue to governments, the private sector and rural communities (especially forest-dependent communities); degradation of the environment and forest ecosystems; loss of biodiversity; and the loss of carbon stocks, further exacerbating climate change.

## ABOUT THE ENPI/ FLEG PROGRAM

The ENPI-FLEG - "Improving Forest Law Enforcement and Governance in the European Neighborhood Policy East Countries and Russia" Program has been initiated in response to the growing problem of illegal forest activities in the participating countries (Armenia, Azerbaijan, Georgia, Moldova, Ukraine, Belarus and Russia). This Program is funded by the European Union.

The initiative is comprised of processes which address the complex and politically-sensitive issues related to illegal logging at national and regional levels, and is implemented in cooperation with the major stakeholders: governments (Ministries, departments, parliaments, judiciary authorities, local authorities), civil society (NGOs, community organizations), private sector.

However, even well designed initiatives will fall short unless there is political commitment and cooperation at the highest levels. Improving forest law enforcement and governance will require collaboration across sec-

olmadığı halda tez bir zamanda iflasa uğraya bilər. Meşə sektorunda hüquq tətbiqi və idarəetmə sisteminin təkmilləşdirilməsinın uğurla həyata keçirilməsi üçün sektorlar arası əməkdaşlığa və maraqli tərəflərin fəal iştirakına ehtiyac vardir. Azərbaycanda ENPİ-FLEG proqramı 2009-cu ildə başlayaraq Dünya Banki, İUCN, WWF və Avropa Komissiyası kimi Beynəlxalq təşkilatlar tərəfindən həyata keçirilir.

Oxucuların diqqətinə təqdim edilən bu kitabın birinci hissəsinə meşə münasibətlərini tənzimliyən əsas meşə qanunvericiliyi aktları, ikinci hissəsinə meşə münasibətlərini tənzimləyən digər qanunvericilik aktları, üçüncü hissəsinə meşə münasibətlərini tənzimləyən beynəlxalq aktlar, dördüncü hissəsinə Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Meşələrin İnkişafı Departamentinin əsasnaməsi, strukturu və meşə təsərrüfatı ilə bağlı bəzi məsələlərin alimlər tərəfindən verilən izahı daxil edilib.

Kitaba 01 yanvar 2011-ci il tarixədək olan əlavə və dəyişiklərlə Azərbaycan Respublikasının meşə qanunvericiliyi daxil edilmişdir.

Vəsait Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Meşələrin İnkişafı Departamentinin və onun strukturlarında işləyən əməkdaşlar, bələdiyyə üzvləri, universitetlərin hüquq və meşəçilik ixtisası fakultəsinin müəllim və tələbələri, həmçinin ekologiya hüququnu öyrənən və tətbiq edən digər şəxslər üçün nəzərdə tutulub.

tors and stronger stakeholder involvement. In Azerbaijan the ENPI-FLEG Program started in 2009 and it is implemented by the World Bank , IUCN and WWF.

First part of this book features the primary national legislation regulating forest relations, the second part includes other legal acts regulating the forest relations, the third part consists of international legal acts regulating the forest relations, and, finally, the fourth part includes statute and structure of the Forests Development Department of the Ministry of Ecology and Natural Resources as well as a number of scientific interpretations to the forestry-related issues made by the scholars. This book includes current forest legislation with all changes and amendments done till 01/01/2011 inclusive.

This book is foreseen for the employees working in the Forests Development Department and its other structures of the Ministry of Ecology and Natural Resources, members of municipalities, professors and students of the law department of state universities as well as for the people interested in study and application of ecological law.

©”Ziya” hüquq və sosioloji araşdırmalar cəmiyyəti

…Mən dəfələrlə demişəm, bir də deyirəm, kim hansı bir sağlam ağacı kəsirsə hesab edirəm ki, o, mənim qolumu, barmaqlarımı kəsir... Hər bir insan ağac əkməlidir, becərməlidir, böyütməlidir. Əgər kimsə sağlam ağacı kəsirsə, o, nəinki xalqına, millətinə, ölkəsinə xəyanət edir, o, öz ailəsinə, özü-özünə xəyanət edir... İnsan qurmalıdır, yaratmalıdır... Mən istəyirəm ki, hamınız təbiəti qoruyanlar olasınız. Təbiətə zərər vuranlar, təbiəti çirkləşdirənlər,korlayanlar cəmiyyətimizin, hamımızın düşmənidir.

***Heydər Əliyev***

…I have repeatedly mentioned and I would like to stress it again that when you cut healthy trees you cut my arms, my fingers…

Every person has to plant and grow up a tree. When someone cut trees he not only betrays its people, nation and country, he betrays its family and himself first of all. The main task of an individual is to build and create… I want that all of you take care of nature… Those who make damages and pollute the nature are enemies… enemies of the society, enemies of all of us.

***Haydar Aliyev***

# GIRIŞ

Azərbaycan Respublikası ərazisinin ümumi sahəsi 8,6 miyon hektaqrdır. Azərbaycan meşə fondu torpaqlarının ümumi sahəsi 1,214 min hektardır. Bundan meşə ilə örtülü sahə 1021 milyon hektar təşkil etməklə ümumi ərazinin 11,8 % -i qədərdir. Meşələrimizin 95%-ə qədəri dağlıq və dağətəyi ərazilərdə, qalan 5%-i isə əsasən çay vadilərində və düzən ərazilərdə yayılmışdır. Meşələrimiz yayıldığı əraziyə görə, sırf qoruyucu funksiyaları yerinə yetirir. Ona görə də 1-ci qrup meşələrə aid edilmişdir.

Ərazisinin 20-25% meşə ilə örtülü olan ölkələrdə su qıtlığına, qeyri-sabit iqlim şəraitinə, torpaqların deqradasiyasına və eroziyasına, bataqlıq və şoranlıq sahələrlə müqaisə ediləcək dərəcədə az təsadüf edilir. Bu baxımdan meşələrimiz Respublikada ekoloji tarazlığı qoruyub saxlamaq üçün yetərincə deyil, ona görə ciddi mühafizə olunmalı, qorunmalı və onun sahələri artırılmalıdır.

Ekologiya və Təbii Sərvətlər Nazirliyi bu istiqamətdə son illərdə xeyli məqsədyönlü işlər görmüşdür. Azərbaycan Respublikası Prezidenti 18 fevral 2003-cü il tarixli 1152 saylı Sərəncamı ilə "Meşələrin bərpa edilməsinə və artırılmasına dair" Milli Proqramı təsdiq etmişdir.

Milli Proqramda 2003-2008- ci illərdə Respublikanın dağ və dağətəyi ərazilərində, yarımsəhra və arid zonalarında, Xəzər dənizi sahil qumluqlarında, avtomobil və dəmir yollarının kənarlarında, Kür-Araz çaylarının vadilərində, su hövzələrinin və su kanallarının ətraflarında 69700 hektar sahədə meşəbərpa və meşəsalma işləri aparılması nəzərdə tutulmuşdu ki, bunun da 25 000 hektarı təbii bərpaya kömək tədbirləri idi.

Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Proqramın təsdiq edildiyi gündən onun icrasına başlamış və 2008-ci ildə başa çatdırmısdır. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Meşələrin İnkişafı Departamenti və onun yerli qurumları 2003-cü ilin yaz mövsümündən

başlayaraq 2008-ci il də daxil olmaqla hər ildə nəzərdə tutulan meşəbərpa və yeni meşə salınması işlərinin plan-proqnozlarını artıqlaması ilə icra etmişlər. Belə ki, keçən bu müddət ərzində cəmi 59 184 ha səhədə meşəbərpa tədbirləri, o cümlədən 36 369 ha sahədə təbii bərpaya kömək tədbirləri, 22 815 ha sahədə isə meşə əkini və səpini işləri aparılmışdır. Ən ağır meşəbitmə şəraitinə malik, təbii bitki landşaftından məhrum arid və yarım-səhra ərazilərdə , ərazinin torpaq və iqlim şəraitini nəzərə almaqla, eroziya proseslərinin qarşısını almaq və səhralaşmaya qarşı mübarizə aparmaq məqsədilə Cəngi, Qaradağ, Giləzi, Zərdəb Regional Meşəsəlma, Abşeron, Quba, Kür və Lənkaran Regional Meşə Tingiliyi Müəssisələri yaradılmışdır. Yarandıqları ildən bu günə kimi Meşəsalma Müəssisələri tərəfindən 1813 hektar sahədə yeni meşə əkini sahələri salınmışdır, o cümlədən Zərdab RMSM üzrə 414 ha, Cəngi RMSM üzrə 347 ha, Qaradağ RMSM üzrə 293 ha, Giləzi RMSM üzrə 759 ha.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeli qurumları tərəfindən 2001-2010-cu illər ərzində cəmi 93 118 ha sahədə meşəbərpa, o cümlədən 35 183 ha sahədə meşə əkini və səpini işləri aparılmışdır.

Meşələr ölkəmizin milli sərvətidir. Onun əhəmiyyəti insan cəmiyyəti üçün böyükdür və çoxtərəflidir. İstehsalatın, iqtisadiyyatın, elmin, sağlamlığın. tərbiyənin, estetikanın inkişafında meşələrin əvəzsiz rolu var. Elmin və texnikanın müasir inkişafı, yeni və ən müxtəlif materialların peyda olması (o cümlədən plastic kütlə) oduncağın əhəmiyyətini azaltmamışdır, əksinə onun tətbiq sahələrini genişləndirmişdir.Oduncaq, əvvəlki kimi geniş yayılmış ən müxtəlif tikinti materialı və istilik mənbəyi kimi qalır. Bununla əlaqədar ölkəmizdə qanunsuz meşəqırmalar hələ də mövcuddur. Qanunsuz qırıntı, mal-qara otarılması və digər səbəblərdən Respublikada meşə sahələri azalır, onların məhsuldarlığı aşağı düşür, cins tərkibi pisləşir və torpaqların münbitliyi azalır. Ona görə meşələrin bərpası yollarını axtarmaq, o cümlədən meşənin oduncaq hesab olmayan sərvətini artırmaq (torpaq qoruyucu, mühit əmələgətirici və rekreasiya funksiyası) vacibdir. Bu tədbirlərin qanunvericilik bazası öz əksini meşə münasibətlərini tənzimliyən qanunlar, Prezidentin fərmanlarında, Nazirlər Kabinetinin qərarlarında, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Meşələrin İnkişafı Departamentinin təlimat və tövsiyyələrində və digər normativ aktlarda tapmışdır.

Lakin təəsüf ki, bu qanunvericilikdəki boşluqlar, ziddiyyətlər qanunların tətbiqində, tədrisində problemlər yaratdığı kimi, bu vəsaitin hazırlanmasında da müəllif qarşısında ciddi çətinliklər yaradıb. Bununla belə, əgər nəzərə alsaq ki, bu sahədə respublikamızda meşə qanunvericiliyinin kitab şəklındə toplusu yox dərəcəsindədir, bu cür topluya ciddi ehtiyac var. Kitabın meşə münasibətlərini tənzimləyən hüquq normativ aktların toplusu və meşə təsərrüfatı ilə bağlı bəzi məsələlərə dair alimlər tərəfindən verilən izahı şəklində ilk dəfə hazırlandığını, qanunvericiliyin qeyri-təkmilliyini, ziddiyyətliliyini nəzərə alsaq, o yəqin ki, qüsurlardan hali deyil. Odur ki, kitabla bağlı rəy və təklifləriniz bizim üçün çox maraqlı və gərəkli olardı. Onlar müəllif tərəfindən diqqətlə araşdırılacaq və bunlar kitabın yenidən nəşri üçün əhəmiyyətli olacaqdır.

[1] Meşəbərpa və meşəsalma sektorunun arayışı

# AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYASINDAN çıxarış

Maddə **14. Təbii ehtiyatlar**

Təbii ehtiyatlar hər hansı fiziki və ya hüquqi şəxslərin hüquqlarına və mənafelərinə xələl gətirmədən Azərbaycan Respublikasına mənsubdur.

Maddə 39. **Sağlam ətraf mühitdə yaşamaq hüququ**

I. Hər kəsin sağlam ətraf mühitdə yaşamaq hüququ vardır.

II. Hər kəsin ətraf mühitin əsl vəziyyəti haqqında məlumat toplamaq və ekoloji hüquqpozma ilə əlaqədar onun sağlamlığına və əmlakına vurulmuş zərərin əvəzini almaq hüququ vardır.

III. Heç kəs ətraf mühitə, təbii ehtiyatlara qanunla müəyyən edilmiş hədlərdən artıq təhlükə törədə və ya zərər vura bilməz.

IV. Dövlət ekoloji tarazlığın saxlanılmasına, yabanı bitkilərin və vəhşi heyvanların qanunla müəyyən edilmiş növlərinin qorunmasına təminat verir.

Maddə 78. **Ətraf mühitin qorunması**

Ətraf mühitin qorunması hər bir şəxsin borcudur.

Maddə 112. **Fövqəladə vəziyyət tətbiq edilməsi**

Azərbaycan Respublikasının Prezidenti təbii fəlakətlər, epidemiyalar, epizootiyalar, böyük ekoloji və başqa qəzalar baş verdikdə, habelə Azərbaycan Respublikasının ərazi bütövlüyünün pozulmasına, dövlətə qarşı qiyama və ya dövlət çevrilişinə yönəldilən hərəkətlər edildikdə, zorakılıqla müşayiət olunan kütləvi iğtişaşlar yarandıqda, vətəndaşların həyatı və təhlükəsizliyi yaxud dövlət təsisatlarının normal fəaliyyəti üçün qorxu törədən digər münaqişələr meydana gəldikdə Azərbaycan Respublikasının ayrı-ayrı yerlərində fövqəladə vəziyyət tətbiq edir və bu barədə qəbul etdiyi fərmanı 24 saat müddətində Azərbaycan Respublikası Milli Məclisinin təsdiqinə verir.

**Azərbaycan Respublikası Meşə Məcəlləsinin təsdiq edilməsi haqqında**

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

1. Azərbaycan Respublikasının Meşə Məcəlləsi təsdiq edilsin.
2. Azərbaycan Respublikasının Meşə Məcəlləsi dərc edildiyi gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

**Bakı şəhəri, 30 dekabr 1997-ci il**
**№ 424-IQ**

# AZƏRBAYCAN RESPUBLIKASININ MEŞƏ MƏCƏLLƏSI

## MÜNDƏRICAT


FƏSİLLƏR (MADDƏLƏR)

1. ÜMUMİ MÜDDƏALAR ........................................ (1-10)

2. MEŞƏ FONDU VƏ AĞAC-KOL BİTKİLƏRİ ÜZƏRİNDƏMÜLKİYYƏT, ONLARDAN İSTİFADƏ HÜQUQU ................ (11-26)

3. MEŞƏ FONDUNDAN İSTİFADƏ, ONUN MÜHAFİZƏSİ, QORUNMASI VƏ MEŞƏLƏRİN BƏRPASI SAHƏSİNDƏ DÖVLƏT İDARƏETMƏSİ ................ (27-29)

4. MEŞƏ TƏSƏRRÜFATININ TƏŞKİLİ ................ (30-46)

5. MEŞƏLƏRİN VƏ MEŞƏ BİTKİLƏRİ İLƏ ÖRTÜLÜ OLMAYAN MEŞƏ FONDU TORPAQLARININ İSTİFADƏSİ, MÜHAFİZƏSİ, QORUNMASI VƏ BƏRPASI................ (47-53)

6. MEŞƏLƏRİN BƏRPASI VƏ MEŞƏSALMA ................ (54-57)

7. MEŞƏ FONDUNUN MÜHAFİZƏSİ VƏ QORUNMASI................ (58-63)

8. MEŞƏ FONDUNDAN İSTİFADƏNİN, ONUN MÜHAFİZƏSİ, QORUNMASI VƏ BƏRPASININ İQTİSADİ TƏNZİMLƏNMƏSİ ................ (64-66)

9. MEŞƏ FONDUNDAN VƏ AĞAC-KOL BİTKİLƏRİNDƏN İSTİFADƏNİN XÜSUSİYYƏTLƏRİ................ (67-77)

10. MEŞƏLƏRİN İSTİFADƏSİ, MÜHAFİZƏSİ, QORUNMASI VƏ BƏRPASI SAHƏSİNDƏ MÜBAHİSƏLƏRİN HƏLLİ, MEŞƏ QANUNVERİCİLİYİNİN POZULMASINA GÖRƏ MƏSULİYYƏT ................ (78-80)

# AZƏRBAYCAN RESPUBLIKASININ MEŞƏ MƏCƏLLƏSİ

Bu Məcəllə Azərbaycan Respublikasının ərazisində meşə münasibətlərinin tənzimlənməsinin, meşələrdən istifadənin, onların mühafizəsinin, qorunmasının, bərpasının, ekoloji və ehtiyat potensialının yüksəldilməsinin hüquqi əsaslarını müəyyən edir.

Meşə münasibətlərinin tənzimlənməsi meşə bitkilərinin, torpağın, heyvanat aləminin və ətraf mühitin mühüm ekoloji, iqtisadi və sosial əhəmiyyət kəsb edən digər komponentlərinin vəhdəti olan meşə anlayışı nəzərə alınmaqla həyata keçirilir.

## I fəsil
## ÜMUMİ MÜDDƏALAR

Maddə 1. **Əsas anlayışlar**

Bu Məcəllədə işlədilən əsas anlayışlar aşağıdakılardır:

**meşə** — bioloji cəhətdən qarşılıqlı əlaqəli və öz inkişafında bir-birinə təsir göstərən, torpağın, suyun, ağac, kol və ot bitkilərinin, heyvanların, mikroorqanizmlərin və ətraf mühitin digər tərkib hissələrinin vəhdəti;

**meşə fondu sahələri** — meşə sahələri, habelə meşə bitkiləri ilə örtülü olmayan meşə və qeyri-meşə torpaq sahələri;

**meşə münasibətləri** — meşələrin, meşə fondu torpaqlarının istifadəsi, mühafizəsi, qorunması və bərpası sahəsində münasibətlər;

**xüsusi qiymətli meşə massivləri** — tərkibində relikt və endemik ağac və kol cinsləri olan nadir meşələr, məhsuldarlığı və genetik keyfiyyəti ilə fərqlənən, habelə estetik cəhətcə nadir mənzərəli meşə sahələri;

**yaşıllıq zonalarının meşələri** — şəhərlərin və digər yaşayış məntəqələrinin sərhədləri xaricində və ya onlara yaxın olan sahələrdə yerləşən, mühüm qoruyucu, sanitariya-gigiyena, sağlamlaşdırma funksiyalarını yerinə yetirən və əhalinin istirahəti üçün istifadə edilən meşələr;

**yabanı meyvə meşələri** — meşə fondu ərazisində təbii bitən, yaxud süni yolla yaradılan və tərkibində təsərrüfat əhəmiyyətli miqdarda qiymətli meyvə, giləmeyvə və qərzəklilər olan meşələr, meşə-bağlar, bağlar və həmin cinslərin plantasiyaları;

**dövlət qoruyucu meşə zolaqları** — xətti qaydada süni salınan, iqlimtənzimləyici, torpaqqoruyucu və suyu mühafizə funksiyalarını yerinə yetirən meşələr;

**qeyri-meşə torpaqları** — meşə təsərrüfatının ehtiyacları üçün nəzərdə tutulmuş torpaqlar, habelə meşə fondunun sərhədləri daxilində yerləşən digər torpaqlar;

**meşəbərpa qırması** — meşələrin vəziyyətini yaxşılaşdırmaq və təbii qoruyucu funksiyaları gücləndirmək məqsədilə qırma yaşı çatmış və ya ötmüş ağaclarda aparılan qırma;

**aralıq istifadə üçün qırma** — meşəyə qulluq, seçmə sanitariya və yenidənəkmə ilə əlaqədar qırmalar, az qiymətli ağaclıqların, habelə qoruyucu, suyu mühafizə və başqa funksiyalarını itirmiş ağac və kolluqların kəsilməsi ilə əlaqədar olan digər qırmalar;

**relikt bitkilər** — keçmiş geoloji dövrlərin florasından qalmış və yeni yaşayış mühitinə uyğunlaşaraq müasir biosenozun tərkibinə daxil olan bitki növləri;

**arid bitkilər** — buxarlanan rütubətin miqdarının yığıntı miqdarından çox olduğu quraq iqlimli ərazilərin bitkiləri.

Maddə 2. **Azərbaycan Respublikasının meşə qanunvericiliyi**

Azərbaycan Respublikasının meşə qanunvericiliyi bu Məcəllədən, Azərbaycan Respublikasının digər qanunvericilik aktlarından ibarətdir.

Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq dövlətlərarası müqavilələrdə Azərbaycan Respublikasının meşə qanunvericiliyindən fərqli qaydalar müəyyən edilmişdirsə, beynəlxalq müqavilələrin tələbləri tətbiq edilir.

Maddə 3. **Azərbaycan Respublikası meşə qanunvericiliyinin məqsəd və vəzifələri**

Azərbaycan Respublikası meşə qanunvericiliyinin məqsəd və vəzifələri meşələrin əhəmiyyətini nəzərə almaqla onları elmi əsaslarla idarə etmək, meşə ekosisteminin bioloji müxtəlifliyini saxlamaq, meşələrin ehtiyat potensialını yüksəltmək prinsipləri əsasında onlardan səmərəli istifadəyə, meşələrin mühafizəsini, qorunmasını və bərpasını təmin etməyə yönəldilmişdir.

Maddə 4. **Meşə qanunvericiliyi ilə tənzimlənən münasibətlər**

Meşələrin, meşə fondu torpaqlarının istifadəsi, mühafizəsi, qorunması və bərpası sahəsində münasibətlər (meşə münasibətləri) Azərbaycan Respublikasının meşə qanunvericiliyinin və torpaq qanunvericiliyinin müvafiq normaları ilə tənzimlənir.

Meşə fonduna daxil olmayan ağac-kol bitkilərinin (bundan sonra - ağac-kol bitkiləri) istifadəsi, mühafizəsi, qorunması və bərpası sahəsində münasibətlər Azərbaycan Respublikasının mülki, bitki aləmi, torpaq və su qanunvericilikləri, habelə bu Məcəllənin müvafiq maddələri ilə tənzimlənir.

Meşə fondu ərazisində heyvanat aləminin, su obyektlərinin, yerin tərkinin, atmosfer havasının istifadəsi və mühafizəsi sahəsində münasibətlər Azərbaycan Respublikasının meşə qanunvericiliyi ilə meşələrin, habelə meşə bitkiləri ilə örtülü olmayan meşə fondu torpaqlarının səmərəli istifadəsi, mühafizəsi, qorunması və bərpası üçün lazım olan həddə tənzimlənir.

Meşələrin, habelə meşə fondu torpaqlarının istifadəsi, mühafizəsi, qorunması zamanı yaranan əmlak münasibətləri, əgər bu Məcəllədə başqa hal nəzərdə tutulmamışdırsa, Azərbaycan Respublikasının mülki qanunvericiliyi ilə tənzimlənir.

Meşələrin, habelə meşə bitkiləri ilə örtülü olmayan meşə fondu torpaqlarının istifadəsi, mühafizəsi, qorunması zamanı yaranan inzibati münasibətlər, o cümlədən maliyyə münasibətləri bu Məcəllə ilə Azərbaycan Respublikasının inzibati və maliyyə qanunvericiliklərinə uyğun olaraq tənzimlənir.

Maddə 5. **Meşə münasibətlərinin obyektləri**

Meşə münasibətlərinin obyektləri Azərbaycan Respublikasının meşə fondu (bundan sonra - meşə fondu), meşə fondunun sahələri, ağac-kol bitkiləri və onlardan istifadə hüquqlarıdır.

Maddə 6. **Meşə fondu, meşə fondunun torpaqları və sahələri**

Azərbaycan Respublikasının ərazisindəki bütün meşələr, habelə meşə bitkiləri ilə örtülü olmayan meşə fondunun torpaqları (meşə və qeyri-meşə torpaqları) Azərbaycan Respublikasının meşə fondunu təşkil edir.

Meşə fondunun sərhədləri meşə fondunun torpaqlarını digər torpaqlardan ayıran hüdudlarla müəyyən edilir.

Torpaqların meşə fonduna daxil edilməsi və oradan çıxarılması Azərbaycan Respublikasının meşə qanunvericiliyi və torpaq qanunvericiliyi ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

Meşə torpaqlarına meşə bitkiləri ilə örtülü olan torpaqlar və bu bitkilərlə örtülü olmayan, lakin meşələrin bərpası üçün nəzərdə tutulmuş torpaqlar (meşələşməmiş qırma sahələri, yanğın yerləri, seyrəkliklər, talalar, qurumuş ağaclıqlar, tinglik sahələri, çətiri birləşməmiş meşə əkinləri və digərləri) aid edilir.

Qeyri-meşə torpaqlarına meşə təsərrüfatının ehtiyacları üçün nəzərdə tutulmuş torpaqlar (kənd təsərrüfatı torpaqları, meşə mərzləri, yollar altında olan torpaqlar və digər torpaqlar), habelə meşə fondunun sərhədləri daxilində yerləşən sair torpaqlar (bataqlıqlar, daşlıqlar, qayalıqlar yerləşən və istifadə üçün əlverişsiz başqa torpaq sahələri) aid edilir.

Meşə fondunun sahələrinə meşə sahələri, habelə meşə bitkiləri ilə örtülü olmayan meşə və qeyri-meşə torpaq sahələri aid edilir.

Meşə fondu sahələrinin sərhədləri meşə təsərrüfatı işarələri ilə naturada nişanlanmalı və plan-xəritə materiallarında (meşə xəritələrində) göstərilməlidir.

Maddə 7. **Meşə fonduna daxil olmayan ağac-kol bitkiləri**

Aşağıdakı ağac-kol bitkiləri meşə fonduna daxil deyildir:

kənd təsərrüfatı torpaqlarındakı ağaclar və ağac qrupları, tarlaqoruyucu meşə zolaqları, habelə digər ağac-kol bitkiləri;

dəmir yolları və avtomobil yollarını, kanalları və digər su obyektlərini ayıran zolaqlardakı qoruyucu ağaclar;

şəhərlərdə və digər yaşayış məntəqələrində olan ağaclar və ağac qrupları, habelə yaşıllıqlar;

həyətyanı sahələrdə, yaylaq, qışlaq və bağ sahələrində olan ağaclar və ağac qrupları.

Maddə 8. **Meşə münasibətləri obyektlərinin dövriyyəsi**

Meşə fondunun dövriyyəsinə, həmçinin meşə fondu sahələrinin özgəninkiləşdirilməsinə gətirən və gətirə bilən alqı-satqıya, girov qoymaya və digər əqdlərə yol verilmir.

Meşə fondu sahələrinin və onlardan istifadə hüququnun dövriyyədə olmasına isə yalnız bu Məcəllə ilə nəzərdə tutulmuş həddə yol verilir.

Meşə fondu sahələrindən istifadə hüququ ilə bağlı əqdlər Azərbaycan Respublikasının meşə qanunvericiliyində müəyyən edilmiş qaydada, onunla tənzimlənməyən hissədə isə mülki qanunvericiliklə həyata keçirilir.

Ağac-kol bitkiləri bir şəxsdən başqasına Azərbaycan Respublikasının mülki qanunvericiliyində və torpaq qanunvericiliyində nəzərdə tutulmuş qaydada verilə bilər.

Maddə 9. **Meşə münasibətlərinin subyektləri**

Meşə münasibətlərinin subyektləri Azərbaycan Respublikası, Naxçıvan Muxtar Respublikası, bələdiyyələr, fiziki və hüquqi şəxslərdir.

Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası adından meşə münasibətlərində öz səlahiyyətləri daxilində dövlət hakimiyyəti orqanları iştirak edirlər.

Bələdiyyələr meşə münasibətlərində onların statusunu müəyyən edən qanunvericilik aktı ilə verilən səlahiyyət daxilində iştirak edirlər.

Meşə təsərrüfatının aparılmasını həyata keçirən və meşə fondundan istifadə edən fiziki və hüquqi şəxslər meşə münasibətlərinin iştirakçılarıdır.

Meşə münasibətləri obyektlərinin istifadəsi, mühafizəsi, qorunması və bərpası zamanı yaranan əmlak və inzibati münasibətlərində Azərbaycan Respublikasının, Naxçıvan Muxtar Respublikasının, bələdiyyələrin, fiziki və hüquqi şəxslərin iştirakı həmin münasibətlər bu

Məcəllə ilə tənzimlənmədiyi hallarda Azərbaycan Respublikasının mülki və inzibati qanunvericilik aktları ilə müəyyən edilir.

Maddə 10. **Meşə istifadəçiləri**

Meşə fondu sahələrindən istifadə hüququ verilən fiziki və hüquqi şəxslər meşə istifadəçiləridir.

## II fəsil
## MEŞƏ FONDU VƏ AĞAC-KOL BİTKİLƏRİ ÜZƏRİNDƏ MÜLKİYYƏT, ONLARDAN İSTİFADƏ HÜQUQU

Maddə 11. **Meşə fondu üzərində mülkiyyət**

Azərbaycan Respublikasında meşə fondu dövlətə mənsubdur və onun mülkiyyətidir.
Meşələr və meşə fondunun torpaqları özəlləşdirilmir.

Maddə 12. **Fiziki və hüquqi şəxslərin ağac-kol bitkiləri üzərində mülkiyyət hüquqları**

Fiziki və hüquqi şəxslərin xüsusi mülkiyyətində olan torpaq sahələrində yerləşən ağac-kol bitkiləri, qanunvericiliklə digər hallar müəyyən edilmədikdə, onların xüsusi mülkiyyətinə aid edilir.

Göstərilən ağac-kol bitkiləri üzərində sahiblik, istifadə və sərəncam hüquqları Azərbaycan Respublikası meşə qanunvericiliyinin və digər qanunvericilik aktlarının tələblərinə uyğun olaraq mülkiyyətçi tərəfindən həyata keçirilir.

Maddə 13. **Meşə servitutları (meşə sahələrindən başqasının müəyyən dərəcədə istifadə etmək hüququ)**

Azərbaycan Respublikasının qanunvericiliyi ilə başqa hallar nəzərdə tutulmamışdırsa, fiziki şəxslər sərbəst surətdə meşələrdə olmaq hüququna malikdirlər (kütləvi meşə servitutu).

Meşə fondu sahələrindən və meşə fonduna daxil olmayan sahələrdən fiziki və hüquqi şəxslərin istifadə hüquqları müqavilələr, habelə məhkəmə qərarları əsasında başqa maraqlı şəxslərin xeyrinə məhdudlaşdırıla bilər (xüsusi meşə servitutu).

Azərbaycan Respublikasının mülki, torpaq və başqa qanunvericilik aktlarının müddəaları meşə servitutlarına bu Məcəllənin tələblərinə zidd olmayan həddə tətbiq edilir.

Maddə 14. **Meşə fondu sahələrindən istifadə hüququ**

Meşə fondu sahələrindən istifadə hüququ meşələrin çoxfunksiyalı mahiyyəti nəzərə alınmaqla həyata keçirilir (müxtəlif şəxslər tərəfindən və müxtəlif məqsədlər üçün eyni vaxtda istifadə).

"Torpaq islahatı haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş qaydada meşə bitkiləri ilə örtülü olmayan meşə və qeyri-meşə torpaqları meşələrin bərpası məqsədilə təyinatı üzrə bu Məcəllə ilə müəyyən edilmiş şərtlərlə fiziki və hüquqi şəxslərə müqavilə əsasında icarəyə verilə bilər.

Bu Məcəllə ilə nəzərdə tutulmamış hallarda meşə fondu sahələrindən istifadə hüququna dair mülki və torpaq qanunvericiliklərinin normaları tətbiq edilir.

Maddə 15. **Meşə fondu sahələrindən istifadə hüququnun əsasları**

Meşə fondu sahələrindən istifadə hüququnun əsasları aşağıdakılardır:
müqavilələr;
məhkəmə qərarları;
bu Məcəllə ilə yol verilən digər əsaslar.

Meşə sahələrindən istifadə hüququ, kütləvi servitut istisna olmaqla, meşə fondu sahələrinin icarə müqaviləsinin dövlət qeydiyyatından keçdiyi, meşəqırma bileti, order, meşə bileti alındığı vaxtdan əldə edilir.

Maddə 16. **Meşə fondu sahələrindən istifadə hüququnun yaradılması**

Meşə fondu sahələrindən istifadə hüququ meşə fondu sahəsinin (torpaqlarının) icarə müqaviləsinin, meşəqırma biletinin, orderin, meşə biletinin əsasında yaranır.

Meşə istifadəçisi Azərbaycan Respublikasının meşə qanunvericiliyi ilə müəyyən edilmiş hallarda və şərtlərlə istifadəyə verənin razılığı ilə meşə fondu sahəsindən istifadə hüququnu özünün hüquqi varisi olmayan şəxsə müqavilə əsasında verə bilər.

Meşə istifadəçisi olan şəxs vəfat etdikdə ona məxsus istifadə hüququ qanunvericilikdə müəyyən edilmiş qaydada başqa şəxslərə keçə bilər.

Meşə istifadəçisi olan hüquqi şəxs yenidən təşkil edildikdə ona məxsus istifadə hüququ Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş qaydada yeni yaranan hüquqi şəxsə keçir.

Meşə fondu sahələrindən (torpaqlarından) istifadə hüququnun başqasına keçməsi müqaviləyə, meşəqırma biletinə, orderə, meşə biletinə dəyişikliklər etmək yolu ilə rəsmiləşdirilir.

Maddə 17. **Meşə fondu sahələrindən istifadə hüququnun həyata keçirilməsi**

Meşə istifadəçiləri meşə fondu sahələrindən istifadə hüququnu o vaxt sərbəst həyata keçirirlər ki, bu, meşələrin və meşə fondu torpaqlarının vəziyyətini pisləşdirməsin, ətraf mühitə zərər vurmasın, habelə başqa şəxslərin qanuni mənafelərinə xələl gətirməsin.

Azərbaycan Respublikasında meşə qanunvericiliyinin tələblərinə zidd məqsədlər və üsullar ilə meşə fondu sahələrindən istifadə qadağandır.

Bu Məcəllədə və digər qanunvericilik aktlarında nəzərdə tutulmuş hallar istisna olmaqla, dövlət hakimiyyəti orqanlarının meşə fondu sahələrindən istifadə sahəsində meşə istifadəçilərinin fəaliyyətinə qarışmasına yol verilmir.

Maddə 18. **Meşə fondu sahələrindən istifadə hüququnun məhdudlaşdırılması və ya dayandırılması**

Meşələrin, habelə meşə ilə örtülü olmayan meşə fondu torpaqlarının səmərəli istifadəsini, mühafizəsini, qorunmasını və bərpasını, ölkənin müdafiəsini və dövlətin təhlükəsizliyini təmin etmək, əhalinin sağlamlığını, ətraf mühiti, tarixi-mədəni və təbii irsi, fiziki şəxslərin hüquqlarını və qanuni mənafelərini qorumaq zərurililiyi yarandığı hallarda meşə fondu sahələrindən istifadə hüququ qanunvericiliklə müəyyən olunmuş qaydada məhdudlaşdırıla və dayandırıla bilər.

Maddə 19. **Meşə fondu sahələrindən istifadə hüququnun məhdudlaşdırılması və ya dayandırılması qaydaları**

Meşə fondu sahələrindən istifadə hüququ müvafiq icra hakimiyyəti orqanının qərarı ilə aşağıdakı hallarda məhdudlaşdırıla və ya dayandırıla bilər:

meşə istifadəçisi tərəfindən Azərbaycan Respublikası meşə qanunvericiliyinin tələbləri pozulduqda;

meşə istifadəçisi tərəfindən icarə müqaviləsinin, meşəqırma biletinin, orderin, meşə biletinin şərtlərinə əməl edilmədikdə.

Meşə fondu sahələrindən istifadə hüququnun məhdudlaşdırılmasına və ya dayandırılmasına səbəb olan şərait və şərtlər aradan qaldırıldıqda bu hüquq tam həcmdə bərpa olunur.

Meşə istifadəçisi onun meşə fondu sahəsindən istifadə hüququnun məhdudlaşdırılması və ya dayandırılması barədə qərarla razılaşmadıqda məhkəməyə şikayət edə bilər.

Meşə fondu sahələrindən istifadə hüququnun məhdudlaşdırılması və ya dayandırılması meşə istifadəçisini Azərbaycan Respublikasının meşə qanunvericiliyini pozduğuna görə intizam, inzibati, mülki və cinayət məsuliyyətindən azad etmir.

### Maddə 20. **Meşə fondu sahələrindən istifadə hüququna xitam verilməsinin əsasları**

Meşə istifadəçisi meşə fondu sahələrindən istifadə hüququndan imtina etdikdə, istifadə hüququnun müddəti başa çatdıqda meşə istifadəçisi olan hüquqi və fiziki şəxsin fəaliyyəti dayandıqda, bu Məcəllə və Azərbaycan Respublikasının başqa qanunvericiliyi ilə nəzərdə tutulmuş digər hallarda onun meşə fondu sahələrindən istifadə hüququna xitam verilir.

Meşə fondu sahələrindən istifadə hüququna məcburi xitam verilməsi yalnız aşağıdakı hallarda həyata keçirilir:

meşə istifadəçisi tərəfindən Azərbaycan Respublikasının meşə qanunvericiliyi pozulduqda;

fövqəladə vəziyyət törədən qəza, təbii fəlakət və bu kimi başqa hadisələr baş verdikdə;

meşə istifadəçisi tərəfindən meşə fondu sahələrindən istifadə üçün haqq müəyyən olunmuş müddətdə ödənilmədikdə;

meşə istifadəçisi tərəfindən meşə fondu sahələrindən (torpaqlarından) istifadə qaydaları və ya icarə müqaviləsində, meşəqırma biletində, orderdə, meşə biletində nəzərdə tutulmuş şərtlər pozulduqda;

meşə istifadəçisi tərəfindən yanğın təhlükəsizliyi sahəsində normaların, standartların və qaydaların tələblərinə əməl edilmədikdə;

meşə fondu sahələri dövlət ehtiyacları üçün geri alındıqda.

Meşə fondu sahələrindən istifadə hüququna xitam verilməsi Azərbaycan Respublikasının meşə qanunvericiliyinə görə meşə istifadəçisinin intizam, inzibati, mülki və cinayət məsuliyyətindən azad etmir.

### Maddə 21. **Meşə fondu sahələrindən istifadə hüququna xitam verilməsinin qaydaları**

Meşə fondu sahələrindən istifadə hüququna meşə fondu sahəsinin (torpaqlarının) icarə müqaviləsinin, meşəqırma biletinin, orderin, meşə biletinin ləğvi nəticəsində xitam verilir.

Meşə istifadəçisi meşə fondu sahəsindən istifadə hüququndan imtina etdikdə bu hüquq onun rəsmi ərizəsi əsasında dayandırılır.

Meşə fondu sahələrindən istifadə hüququna xitam verilməsi bu barədə meşə istifadəçisinə rəsmi xəbər verməklə müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir.

### Maddə 22. **Meşə fondu torpaqlarının icarəyə verilməsi**

Bu Məcəllənin 14-cü maddəsinə uyğun olaraq meşə bitkiləri ilə örtülü olmayan meşə və qeyri-meşə torpaqları meşələrin bərpası məqsədilə təyinatı üzrə meşə istifadəçisinə (icarəçi) icarəyə müqavilə əsasında müvafiq icra hakimiyyəti orqanı (icarəyə verən) tərəfindən bir ildən on ilədək verilə bilər.

Meşə fondu torpaqlarının icarə müqaviləsi əsasında əldə edilmiş meşə sərvətləri (məhsul) icarəçinin mülkiyyətidir.

Meşə fondu torpaqlarının subicarəsi qadağandır.

Meşə fondu torpaqlarının icarəyə verilməsi bu Məcəllə və Azərbaycan Respublikasının müvafiq qanunvericilik aktları ilə tənzimlənir.

Maddə 23. **Meşə fondu torpaqlarının icarə müqaviləsinin şərtləri**

Meşə fondu torpaqlarının icarə müqavilələrində aşağıdakılar göstərilir:
icarəyə verilən sahənin sərhədləri;
işin həcmi (ölçüləri);
icarənin müddəti;
icarə haqqının miqdarı və onun ödənmə qaydası;
icarəyə verilən sahənin mühafizəsi, qorunması və bərpası sahəsində tərəflərin öhdəlikləri;
Azərbaycan Respublikasının meşə qanunvericiliyi və tərəflərin razılığı ilə nəzərdə tutulmuş başqa şərtlər.

Maddə 24. **Meşə fondu torpaqlarının icarəyə verilməsi qaydası**

Meşə fondu torpaqlarının icarəyə verilmə qaydası Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Meşə fondu torpaqlarının icarəyə verilməsi aşkarlıq şəraitində, müvafiq ərazidə yaşayan əhalinin mənafeyini nəzərə almaqla həyata keçirilməlidir.

Maddə 25. **Meşəqırma bileti, order və meşə bileti**

Meşəqırma bileti oduncaq və ikinci dərəcəli meşə materiallarının tədarükü, daşınması üçün hüquq verən sənəddir. Meşəqırma biletində meşə quruluşu layihələri əsasında meşə fondundan istifadə üçün ayrılmış sahənin yeri, oduncağın və ikinci dərəcəli materialların miqdarı, keyfiyyəti, onların qiyməti, işin aparılma müddəti, qırma yerlərinin təmizlənməsi, meşənin bərpa edilməsi şərtləri və qaydaları göstərilir.

Order özü yıxılmış və (və ya) qurumuş ağaclardan oduncaq hazırlamaq, ağac tör-töküntüsü və ikinci dərəcəli meşə materiallarının tədarükü, daşınması üçüq hüquq verən sənəddir. Order meşəqırma bileti əsasında verilir.

Meşə bileti onun sahibinə əlavə meşə istifadələri üçün hüquq verən sənəddir. Meşə biletində meşə fondundan istifadənin növü, yeri, miqdarı, vaxtı, şərtləri və qiyməti göstərilir.

Meşəqırma biletinin, orderin və meşə biletinin formaları, onların uçotu, saxlanılması, doldurulması və verilməsi qaydaları Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Maddə 26. **Meşə fondu sahələrinin qısamüddətli istifadəyə verilmə qaydası**

Meşə fondu sahələrinin bir ilə qədər qısamüddətli istifadəyə verilməsi Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada həyata keçirilir.

## III fəsil
## MEŞƏ FONDUNDAN İSTİFADƏ, ONUN MÜHAFİZƏSİ, QORUNMASI VƏ MEŞƏLƏRİN BƏRPASI SAHƏSİNDƏ DÖVLƏT İDARƏETMƏSİ

Maddə 27. **Meşə fondundan istifadə, onun mühafizəsi, qorunması və meşələrin bərpası sahəsində dövlət idarəetməsi və onun əsas prinsipləri**

Meşə fondundan istifadə, onun mühafizəsi, qorunması və meşələrin bərpası sahəsində dövlət idarəetməsini Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı həyata keçirir. Bu məqsədlə:

meşə təsərrüfatının aparılması sahəsində dövlət siyasətinin əsas istiqamətlərini müəyyənləşdirir;

meşə qanunvericiliyinə riayət edilməsinə, həmçinin meşə fondundan istifadəyə, onun mühafizəsinə, qorunmasına və meşələrin bərpasına dövlət nəzarətini həyata keçirir, onun aparılması qaydalarını müəyyən edir;

meşə fondundan istifadə və meşə fondu barəsində sərəncam verir;

investisiya siyasətini həyata keçirir;

meşə fondundan istifadənin, onun mühafizəsinin, qorunmasının və meşələrin bərpasının dövlət proqramlarını təsdiq edir;

meşə fondundan istifadənin norma və qaydalarını müəyyənləşdirir;

hesablanmış meşəqırma həcmini müəyyənləşdirir və təsdiq edir;

meşə fondundan istifadəyə görə ödəniş növlərini, habelə kötükstə buraxılan oduncağın minimum ödəniş tarifini, ayrı-ayrı meşə istifadəçiləri üçün tədiyə güzəştlərinin həcmini və onların ödəmə qaydalarını müəyyən edir. Meşə materiallarına qiymət qoyur;

meşələrin qorunub saxlanılması və təkrar istehsalı üzrə respublika fondunu yaradır, ondan istifadə qaydalarını müəyyən edir;

kötükstə oduncaq buraxılması, meşəqırma, meşə fondunun mühafizəsi, qorunması və meşələrin bərpası qaydalarını təsdiq edir;

meşə təsərrüfatının aparılması üzrə elmi tədqiqat və layihə axtarış işlərini təşkil edir və əlaqələndirir;

meşələrin dövlət uçotunun, dövlət meşə kadastrının, meşələrin monitorinqinin və meşə quruluşu işlərinin aparılması qaydalarını müəyyən edir;

meşə fondundan istifadə, onun mühafizəsi, qorunması və meşələrin bərpası sahəsində beynəlxalq əməkdaşlığı həyata keçirir, müqavilələr bağlayır və onların yerinə yetirilməsini təşkil edir;

meşə təsərrüfatı sahəsində dövlət statistika hesabatının aparılması qaydasını müəyyən edir;

meşə fondu sahələrindən istifadə hüququnu, habelə meşələrin vəziyyətinə və bərpasına təhlükə yaradan işləri dayandırır, məhdudlaşdırır, bunlara xitam verir;

meşə təsərrüfatının aparılması və meşədən istifadə ilə əlaqədar olmayan məqsədlər üçün meşə torpaqlarını qeyri-meşə torpaqlarına keçirir, meşə fondu torpaqlarını geri alır;

meşə fondu sahələrini fövqəladə ekoloji vəziyyət və ekoloji fəlakət zonaları elan edir;

qanunvericiliklə müəyyən edilmiş digər səlahiyyətləri həyata keçirir;

meşə fondundan istifadə, onun mühafizəsi, qorunması və meşələrin bərpası sahəsində dövlət idarəetməsi aşağıdakı prinsiplərə əsaslanır:

iqtisadiyyatın inkişafı;

ətraf mühitin mühafizəsi;

ölkənin mənafeyinə uyğun olaraq meşə fondundan səmərəli istifadə edilməsi.

Maddə 28. **Naxçıvan Muxtar Respublikasının meşə fondundan istifadə, onun mühafizəsi, qorunması və meşələrin bərpası sahəsində fəaliyyəti**

Naxçıvan Muxtar Respublikasının meşə fondundan istifadə, onun mühafizəsi, qorunması və meşələrin bərpası sahəsində həyata keçirdiyi fəaliyyət bu Məcəllə ilə tənzimlənir.

Maddə 29. **Meşə fondundan istifadə, onun mühafizəsi, qorunması və meşələrin bərpası sahəsində yerli özünüidarənin səlahiyyətləri**

Meşə fondundan istifadə, onun mühafizəsi, qorunması və meşələrin bərpası sahəsində yerli özünüidarənin səlahiyyətləri Azərbaycan Respublikasının Konstitusiyası və Azərbaycan Respublikasının müvafiq qanunvericilik aktları ilə müəyyən edilir.

IV fəsil

# MEŞƏ TƏSƏRRÜFATININ TƏŞKİLİ

Maddə 30. **Meşə təsərrüfatının təşkilinə qoyulan əsas tələblər**

Meşə təsərrüfatının təşkili və meşə fondundan istifadə ətraf mühitə, təbii ehtiyatlara və insanların sağlamlığına zərər gətirməyən prinsiplərə əsasən həyata keçirilməlidir.

Meşə təsərrüfatı işləri aparılarkən aşağıdakılar təmin olunmalıdır:

insanların sağlamlığı naminə meşələrin mühityaradıcı, suyu mühafizə, qoruyucu, sanitariya-gigiyena, sağlamlaşdırıcı və digər faydalı təbii xüsusiyyətlərinin saxlanılması və gücləndirilməsi;

oduncaq və başqa meşə sərvətlərinin tədarükü üçün meşə fondundan məqsədli və səmərəli istifadə;

meşələrin bərpası, onların cins tərkibinin, keyfiyyətinin yaxşılaşdırılması, məhsuldarlığın yüksəldilməsi, mühafizəsi və qorunması;

meşə fondu torpaqlarından səmərəli istifadə;

meşə təsərrüfatı işlərinin səmərəliliyinin vahid siyasət, elm, texnika və qabaqcıl təcrübənin nailiyyətlərindən istifadə əsasında yüksəldilməsi;

bioloji müxtəlifliyin saxlanılması;

tarix-mədəniyyət və təbii irs obyektlərinin qorunması.

Maddə 31. **Meşə fondunun meşə qrupuna və qoruyucu kateqoriyalara aid edilməsi**

Azərbaycan Respublikasının meşə fondu dağ və düzən meşələrindən ibarətdir.

İqtisadi və ekoloji əhəmiyyətinə, yerləşməsinə və yerinə yetirdiyi funksiyalara görə ölkənin meşə fondu birinci qrup meşələrə aid olub aşağıdakı qoruyucu kateqoriyalara bölünür:

qoruq meşələri;

kurort meşələri;

xüsusi qiymətli meşə massivləri;

şəhərlərin və digər yaşayış məntəqələrinin ətrafındakı yaşıllıq zonalarının meşələri;

yabanı meyvə meşələri;

dövlət qoruyucu meşə zolaqları;

sair meşələr.

Zəruri hallarda göstərilən kateqoriyalara aid edilmiş meşələrdə xüsusi qoruyucu meşə sahələri (eroziyadan mühafizə meşələri, çayların, göllərin və digər su obyektlərinin sahillərində olan meşə sahələri, dəmir yollarının və avtomobil yollarının kənarlarındakı meşələr və s.) və xüsusi qorunan meşə sahələri (elmi və mədəni-tarixi əhəmiyyət kəsb edən meşələr və meşə-parklar, seyrək arid meşələri, ziyarət edilən yerlərdəki meşələr və s.) müəyyən edilir.

Meşələrin qoruyucu kateqoriyalara aid edilməsi, habelə bir qoruyucu kateqoriyadan başqa qoruyucu kateqoriyaya keçirilməsi Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunmuş qaydada meşə quruluşu işləri və ya xüsusi müşahidə materialları əsasında həyata keçirilir.

Maddə 32. **Qoruyucu kateqoriyalara görə meşə torpaqları hüdudlarının müəyyən edilməsi**

Meşələri qoruyucu kateqoriyalara aid edərkən eyni zamanda meşə fondu sahəsinin hər bir kateqoriya üzrə hüdudları bu Məcəllədə nəzərdə tutulmuş qaydada müəyyən edilir.

Xüsusi qoruyucu meşə sahələrinin göstəriciləri meşə quruluşu işləri və ya xüsusi müşahidə materiallarına əsasən Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir. Xüsusi qoruyucu meşə sahələrinin siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Maddə 33. **Meşənin qırma yaşının təyini**

Meşənin qırma yaşı meşələrin əhəmiyyətindən, məhsuldarlığından, yerinə yetirdiyi funksiyalardan, habelə orada bitən ağac cinslərinin bioloji xüsusiyyətlərindən asılı olaraq müəyyən edilir.

Meşələrin qırma yaşı meşə quruluşu işləri aparılarkən və ya elmi tədqiqat işlərinin nəticəsi ilə əsaslandırılır.

Qırma yaşı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Maddə 34. **Hesablanmış meşəqırma həcmi və onun təsdiq edilməsi qaydası**

Hesablanmış meşəqırma həcmi meşə fondundan səmərəli, uzunmüddətli istifadənin zəruriliyi nəzərə alınmaqla meşə quruluşu işləri aparılarkən müəyyən edilir.

Təbiəti mühafizə orqanı ilə razılaşdırılmış meşəqırma həcmi müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir.

Meşə fondunun sərhədi, meşənin qırma yaşı, meşə kateqoriyası dəyişdikdə və meşə fondunda digər dəyişikliklər baş verdikdə hesablanmış meşəqırma həcmi müəyyən edilmiş qaydada yenidən təsdiq edilir.

Maddə 35. **Meşə təsərrüfatının idarə edilməsi və meşə fondundan istifadə ilə əlaqədar olmayan məqsədlər üçün meşə torpaqlarının qeyri-meşə torpaqlarına keçirilməsi (və ya) meşə fondu torpaqlarının geri alınması**

Meşə təsərrüfatının idarə edilməsi və meşə fondundan istifadə ilə əlaqədar olmayan məqsədlər üçün meşə fondu torpaqlarının qeyri-meşə torpaqlarına keçirilməsi (və ya) meşə fondu torpaqlarının geri alınması Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir.

Bu halda meşə fondundan torpaq ayrılan fiziki və hüquqi şəxslər həmin torpaqların kadastr qiyməti əsasında hesablanmış dəyəri müvafiq meşə təsərrüfatına ödəyirlər.

Meşə fondu torpaqlarının geri alınması ilə əlaqədar meşə istifadəçilərinə dəyən ziyan Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada tam həcmdə ödənilir.

Maddə 36. **Meşələrin vəziyyətinə və bərpasına təsir edən obyektlərin tikinti yerlərinin razılaşdırılması**

Meşələrin vəziyyətinə və bərpasına təsir edən obyektlərin tikinti yerləri dövlət ekoloji ekspertizasından keçirilməklə müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılır.

Maddə 37. **Meşə fondunda meşə təsərrüfatının aparılması və meşədən istifadə ilə əlaqədar olmayan işlərin görülməsi qaydası**

Meşə fondunda meşə təsərrüfatının aparılması və meşədən istifadə ilə əlaqədar olmayan tikinti və mədən işlərinin aparılmasına, kommunikasiyaların çəkilməsinə və digər işlərin yerinə yetirilməsinə icazə (meşə fondu torpaqlarının qeyri-meşə torpaqlarına keçirilməsi və

(və ya) meşə fondu torpaqlarının geri alınması tələb olunmadıqda) müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilir.

İcazədə görülən işlərin adı, müddəti və yerinə yetirilmə şərtləri, ətraf mühitin mühafizəsi barədə tələblər göstərilir.

Bu işlərin yerinə yetirilməsi qırma ilə əlaqədar olduqda meşə təsərrüfatı müəssisəsi meşəqırma bileti yazır.

Göstərilən işlərin yerinə yetirilməsində tətbiq olunan üsullar meşə fondunun vəziyyətinə və meşələrin bərpasına mənfi təsir göstərməməlidir.

Maddə 38. **Meşə fondunun dövlət uçotu**

Meşə fondunun dövlət uçotu meşə fondundan səmərəli istifadəni, onun mühafizəsini, qorunmasını və meşələrin bərpasını təşkil etmək, meşə fondunun kəmiyyət və keyfiyyət dəyişmələrinə müntəzəm nəzarət etmək, dövlət orqanlarını, bələdiyyələri, əlaqədar fiziki və hüquqi şəxsləri meşə fondu barədə məlumatla təmin etmək məqsədilə aparılır.

Meşə fondunun dövlət uçotunun məlumatları dövlət meşə kadastrının aparılmasında istifadə edilir.

Meşə fondunun dövlət uçotu göstəricilərinin siyahısını, habelə müvafiq sənədlərin formalarını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

Meşə fondunun dövlət uçotunun aparılma qaydası Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən müəyyən edilir.

Maddə 39. **Dövlət meşə kadastrı**

Dövlət meşə kadastrı meşə fondunun qeydiyyatı, onun ekoloji, iqtisadi, kəmiyyəti və keyfiyyət cəhətdən qiymətləndirilməsidir.

Dövlət meşə kadastrı meşə təsərrüfatının idarə edilməsində, onun təşkilində və meşə fondundan istifadə ilə əlaqədar olmayan məqsədlər üçün meşə torpaqlarının qeyri-meşə torpaqlarına keçirilməsində və (və ya) meşə fondu torpaqlarının geri alınmasında, meşə fondundan istifadə üçün ödəmələrin miqdarının müəyyən edilməsində, meşə istifadəçilərinin və meşə təsərrüfatı işləri aparan şəxslərin təsərrüfat fəaliyyətinin qiymətləndirilməsində istifadə olunur. Dövlət meşə kadastrının aparılmasını müvafiq icra hakimiyyəti orqanı həyata keçirir.

Dövlət meşə kadastrı göstəricilərinin siyahısı və meşələrin iqtisadi qiymətləndirilməsinin metodikası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Dövlət meşə kadastrının aparılması qaydasını Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

Maddə 40. **Meşələrin monitorinqi**

Meşələrin monitorinqi meşə fondundan istifadə, onun mühafizəsi, qorunması və meşələrin bərpası, onların ekoloji funksiyalarının aparılması sahəsində dövlət idarəetməsi məqsədilə meşə fondunun vəziyyətinin və dinamikasının qiymətləndirilməsi və proqnozlaşdırılması sistemindən ibarətdir.

Meşələrin monitorinqinin həyata keçirilməsi qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Maddə 41. **Meşə fondundan istifadənin, onun mühafizəsinin, qorunmasının və meşələrin bərpasının dövlət proqramları**

Meşə fondundan istifadə, onun mühafizəsi, qorunması və meşələrin bərpası üçün dövlət proqramları hazırlanır.

Meşə fondundan istifadənin, onun mühafizəsinin, qorunmasının və meşələrin bərpasının dövlət proqramları müvafiq icra hakimiyyəti orqanı tərəfindən hazırlanır və həyata keçirilir.

Maddə 42. **Məcburi sertifikatlaşdırılan meşə ehtiyatları**

Kököstə buraxılan oduncaq və ikinci dərəcəli meşə ehtiyatları məcburi sertifikatlaşdırılır. Göstərilən ehtiyatların məcburi sertifikatlaşdırılmasının təşkili və aparılması Azərbaycan Respublikası müvafiq icra hakimiyyəti orqanının müəyyənləşdirdiyi qaydada həyata keçirilir.

Maddə 43. **Meşə quruluşu işləri və onun aparılması**

Meşə quruluşu işləri meşə fondundan səmərəli istifadə, meşə təsərrüfatının effektli aparılması, bu sahədə vahid elmi-texniki siyasətin həyata keçirilməsini təmin etməyə yönəldilmiş tədbirlər sistemindən ibarətdir.

Meşə quruluşu işləri aparılan zaman aşağıdakılar həyata keçirilir:

müəyyən edilmiş qaydada meşə təsərrüfatlarının, milli parkların, dövlət təbiət qoruqlarının, digər meşə təsərrüfatı müəssisələrinin, meşə fondu sahələrinin və ərazilərinin təsərrüfatdaxili təşkilinin müəyyən edilməsi;

topoqrafiya-geodeziya işlərinin görülməsi və meşənin xüsusi xəritələrinin hazırlanması;

meşələrin cins və yaş tərkibini, vəziyyətini, habelə meşə ehtiyatlarının keyfiyyət və kəmiyyət göstəricilərini müəyyən etməklə meşə fondunun inventarlaşdırılması;

relikt (qədim dövrdən dəyişməmiş) meşə bitkilərinin, xüsusi qoruyucu və xüsusi qorunan meşə sahələrinin aşkara çıxarılması;

meşələrin bərpası və aralıq istifadə üçün qırılmasını, meşəsalma, meliorasiya, meşələrin mühafizəsi, qorunması, digər meşə təsərrüfatı tədbirlərinin görülməsini tələb edən meşə fondu sahələrinin aşkara çıxarılması, habelə bu tədbirlərin aparılması qaydaları və üsullarının müəyyən edilməsi;

meşələrin qoruyucu kateqoriyalara aid edilməsinin və bir qoruyucu kateqoriyadan digərinə keçirilməsinin əsaslandırılması, meşə ilə örtülü olmayan torpaqların meşə ilə örtülü olan torpaqlara, qeyri-meşə torpaqlarının meşə torpaqlarına keçirilməsi;

hesablanmış meşəqırma və aralıq istifadə üçün qırma həcminin müəyyən edilməsi;

meşəbərpa, meşəsalma, meşələrin mühafizəsi və qorunması tədbirlərinin, həmçinin digər meşə təsərrüfatı işlərinin həcminin müəyyən edilməsi;

meşədən əlavə istifadənin və ikinci dərəcəli meşə ehtiyatları tədarükü miqdarının, meşə fondundan ovçuluq təsərrüfatının ehtiyacları, mədəni-sağlamlaşdırma, turizm və idman məqsədləri üçün istifadənin müəyyən edilməsi;

meşə-bioloji və digər xüsusi müayinələrin aparılması;

meşə quruculuğu layihələrinin həyata keçirilməsinə nəzarət;

digər meşə qoruyucu işləri.

Meşə quruluşu işləri zamanı meşə fondunun meşə quruluşu layihələri tərtib edilir. Layihələrdə ötən dövr ərzində meşə təsərrüfatlarının aparılması və meşə fondundan istifadə qiymətləndirilir, onun təşkilinin və aparılmasının əsas müddəaları hazırlanır. Həmin layihələr, ona əlavələr müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada təsdiq edilir və meşə təsərrüfatının aparılması, onun cari və perspektiv proqnozlaşdırılması, habelə meşə təsərrüfatı işlərinin maliyyələşdirilməsi üçün məcburi normativ texniki sənəd sayılır.

Meşə quruluşu işləri meşə fondu ərazisində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada vahid sistem üzrə aparılır.

Meşə quruluşu işləri aparılmadan meşə təsərrüfatı və meşədən istifadə işlərinin həyata keçirilməsi qadağandır.

Maddə 44. **Meşə fondu haqqında məlumat**

Meşə fondu haqqında məlumat, meşələrin dövlət uçotu, dövlət meşə kadastrı, meşələrin monitorinqi, meşə quruluşu işləri göstəricilərindən və sairədən ibarətdir.

Meşə fondu haqqında məlumat Azərbaycan Respublikası müvafiq icra hakimiyyəti orqanının xüsusi sərəncamında olmaqla, onun müəyyən etdiyi qaydada fiziki və hüquqi şəxslərə verilir.

Maddə 45. **Meşə fondunun vəziyyətinə, istifadəsinə, mühafizəsinə, qorunmasına və meşələrin bərpasına dövlət nəzarəti**

Meşə fondunun vəziyyətinə, istifadəsinə, qorunmasına və meşələrin bərpasına dövlət nəzarətinin vəzifəsi fiziki və hüquqi şəxslər tərəfindən meşə fondundan istifadənin, kötüstə oduncaq buraxılışını, meşəbərpa və aralıq istifadə qırmaları və digər qırma qaydalarını Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun təmin etməkdən ibarətdir.

Bu sahədə dövlət nəzarətini müvafiq icra hakimiyyəti orqanları səlahiyyətləri daxilində həyata keçirirlər.

Meşə fondunun vəziyyətinə, istifadəsinə, mühafizəsinə, qorunmasına və meşələrin bərpasına dövlət nəzarətinin həyata keçirilməsi qaydası Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Maddə 46. **Meşə fondunun mühafizəsinə tələblər**

Meşə fondunun mühafizəsi dövlət tərəfindən həyata keçirilir.

Bu məqsədlə aşağıdakı tədbirlər görülür:

meşə fondunun vəziyyətinə, istifadəsinə, mühafizəsinə, qorunmasına, meşələrin bərpasına nəzarətin təşkili;

meşə fondundan istifadə edilməsi, onun mühafizəsi, qorunması, bərpası sahəsində hüquq pozuntularının qarşısının alınması, onların aradan qaldırılması;

təqsirkar fiziki və hüquqi şəxslərin qanunvericilikdə müəyyən edilmiş qaydada məsuliyyətə cəlb edilməsi;

meşə fonduna zərər vuran təsərrüfat və başqa fəaliyyət növlərinin məhdudlaşdırılması, dayandırılması, qadağan edilməsi;

Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş digər tədbirlərin həyata keçirilməsi.

Meşə fondunun mühafizəsinin təşkili Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

V fəsil

## MEŞƏLƏRİN VƏ MEŞƏ BİTKİLƏRİ İLƏ ÖRTÜLÜ OLMAYAN MEŞƏ FONDU TORPAQLARININ İSTİFADƏSİ, MÜHAFİZƏSİ, QORUNMASI VƏ BƏRPASI

Maddə 47. **Meşədən istifadəyə qoyulan əsas tələblər**

Meşədən istifadəyə qoyulan tələblər aşağıdakılardır:

meşələrdən fasiləsiz və səmərəli istifadə;

əhalinin sağlamlığının qorunması, ətraf mühitin yaxşılaşdırılması və iqtisadiyyatın inkişafı üçün meşələrin mühityaradıcı, suyu mühafizə, qoruyucu və digər funksiyalarının saxlanması və gücləndirilməsi;

meşədən istifadə qaydalarının meşələrin əhəmiyyətindən, yerinə yetirdikləri funksiyalarından, yerləşməsindən, təbii və iqtisadi şəraitdən asılı olaraq müəyyənləşdirilməsi;

meşələrin bərpası üçün şəraitin yaradılması;
meşədən istifadənin ödənişli olması;
meşədən istifadənin elmi cəhətdən əsaslandırılmış normalarına riayət edilməsi.

Maddə 48. **Meşə fondundan istifadə növləri**

Meşə fondundan istifadə növləri aşağıdakılardır:
oduncaq tədarükü;
ikinci dərəcəli meşə ehtiyatları tədarükü (kötük, lif, qabıq və başqaları);
meşədən əlavə istifadə (ot çalını, pətəklərin və arıxanaların yerləşdirilməsi, yabanı meyvə, göbələk, giləmeyvə, gərzəkli və digər məhsullar, palıd qozası, dərman bitkiləri, texniki xammal, mamır, meşə döşənəyi, tökülmüş yarpaq, qarğı, qamış, gil və digərlərinin tədarükü və yığılması, müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş siyahı ilə müəyyənləşdirilən başqa əlavə istifadə);
elmi-tədqiqat məqsədləri üçün;
mədəni-sağlamlaşdırma, turizm və idman məqsədləri üçün;
ovçuluq təsərrüfatı.
Meşə fondu sahələrindən istifadə meşə sərvətlərini götürməklə və ya götürmədən həyata keçirə bilər.
Meşə fondu sahələri bir və ya bir neçə meşə istifadəsinə bir və ya bir neçə növ əlavə istifadə üçün verilə bilər.

Maddə 49. **Meşə fondundan istifadə zamanı meşə istifadəçilərinin hüquqları**

Meşə fondundan istifadə zamanı meşə istifadəçiləri aşağıdakı hüquqlara malikdirlər:
onların istifadəsinə verilmiş meşə fondu sahələri barədə məlumat almaq;
müəyyən edilmiş həddə meşə fondundan istifadə;
meşədən istifadə müddətində meşə fondundan istifadə ilə bağlı məqsədlər üçün müəyyən edilmiş qaydada tikililər, qurğular, oduncaq saxlamaq üçün yerlər düzəltmək;
Azərbaycan Respublikasının meşə qanunvericiliyinə zidd olmayan digər hüquqlar.

Maddə 50. **Meşə fondundan istifadə zamanı meşə istifadəçilərinin vəzifələri**

Meşə fondundan istifadə zamanı meşə istifadəçiləri aşağıdakılara əməl etməyə borcludurlar:
meşə fondu sahələrindən Azərbaycan Respublikasının meşə qanunvericiliyinə uyğun olaraq istifadə etmək;
meşə fondu sahələrinin (torpaqlarının) icarə müqaviləsinin, meşəqırma biletinin, orderin, meşə biletinin şərtlərinə əməl etmək;
əhalinin sağlamlığına, ətraf mühitə ziyan vurmamaq;
meşə fondundan torpaq eroziyasına səbəb olmayan, meşənin vəziyyətinə və bərpasına, habelə suyun və digər təbii obyektlərin vəziyyətinə mənfi təsir göstərməyən üsularla istifadə etmək;
istifadəyə verilmiş meşə fondu sahələrində meşə yanğını təhlükəsizliyi qaydalarına riayət etmək və həmin sahələrdə yanğın baş verməməsi üçün tədbir görmək, meşə yanğını baş verdikdə onun söndürülməsini təmin etmək;
qırılma üçün ayrılmış ağacları tam kəsib götürmək, oduncağın tədarükü və daşınmasını müəyyən edilmiş müddətdə başa çatdırmaq;
oduncaq tədarükü ilə bir vaxtda sahələri qırma qalıqlarından təmizləmək;
meşə fondu sahələrinin (torpaqlarının) icarəsi barədə müqavilədə, meşəqırma biletində,

orderdə, meşə biletində göstərilmiş müddətdə və şərtlərlə meşəbərpa tədbirlərini həyata keçirmək;

istifadəyə verilmiş meşə fondu sahələrini (torpaqlarını) öz hesabına meşə fondu sahələrinin icarəsi barədə müqavilədə, meşəqırma biletində, orderdə, meşə biletində göstərilmiş vəziyyətə gətirmək;

meşə fondu sahələrində işlər başa çatdıqdan sonra onları müvafiq meşə təsərrüfatı müəssisələrinə təhvil vermək;

meşə təsərrüfatına vurulmuş zərər və itkini müəyyən edilmiş qaydada ödəmək;

meşə fondundan istifadə üçün haqları vaxtında ödəmək;

meşələrdə sanitariya qaydalarına riayət etmək, müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş digər rəsmi tələbləri yerinə yetirmək;

başqa meşə istifadəçilərinin hüquqlarını pozmamaq;

meşə fondundan istifadə barədə, habelə meşə fondundan istifadəyə görə ödəmələrin miqdarını müəyyən etmək üçün lazımi məlumatları müəyyən edilmiş qaydada meşə təsərrüfatı müəssisələrinə, dövlət statistika orqanlarına vermək;

Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

Maddə 51. **Meşə fondu istifadəçilərinin hüquqlarının müdafiəsi**

Meşə fondu istifadəçilərinin pozulmuş hüquqları bərpa olunmalı və onlara vurulan zərər ödənilməlidir. Zərərin ödənilməsi ilə bağlı mübahisələr məhkəmə qaydasında həll edilir.

Dövlət ehtiyacları və ya ictimai ehtiyaclar üçün meşə fondu torpaqlarının özgəninkiləşdirilməsinə Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş hallarda və şərtlərlə yol verilir.

Maddə 52. **Meşə təsərrüfatına dəyən zərər və itkinin ödənilməsi**

Meşə təsərrüfatına dəyən zərər və itkilər Azərbaycan Respublikası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada ödənilir.

Maddə 53. **Fiziki şəxslərin meşələrdə olması**

Azərbaycan Respublikasının qanunvericiliyi ilə başqa hallar nəzərdə tutulmadıqda, fiziki şəxslər haqqı ödənilmədən meşələrdə olmaq, şəxsi istifadələri üçün yabanı meyvə, giləmeyvə, göbələk, qərzəklilər və digər meşə sərvətləri, dərman bitkiləri, texniki xammal yığmaq, mədəni-sağlamlaşdırma, turizm və idman tədbirlərində iştirak etmək hüququna malikdirlər.

Azərbaycan Respublikasının Qırmızı kitabına düşmüş bitki və göbələk növlərinin, habelə təbii narkotik tərkibli bitki və digər xammalın yığılması, tədarükü qadağandır.

Fiziki şəxslər meşədə yanğın təhlükəsizliyi qaydalarına əməl etməyə, ağacların və kolların zədələnməsinə, sındırılmasına, kəsilməsinə, meşə əkinlərinin korlanmasına, meşələrin zibillənməsinə, qarışqa və quş yuvalarının dağılmasına yol verməməyə, habelə Azərbaycan Respublikası qanunvericiliyinin digər tələblərinə riayət etməyə borcludurlar.

Fiziki şəxslərin ov etmək məqsədilə meşələrdə olması bu Məcəllə və Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə tənzimlənir.

Fiziki şəxslərin meşədə olması və meşə sərvətləri yığması Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada yanğın təhlükəsizliyi, meşə toxumçuluğu, yabanı meyvə və digər meşə sərvətləri tədarükü ilə əlaqədar olaraq qoruq meşələrində milli parklarda və xüsusi mühafizə edilən ərazilərdə isə onlar üçün müəyyən edilmiş xüsusi qaydaya müvafiq olaraq məhdudlaşdırıla və qadağan edilə bilər.

## VI fəsil
## MEŞƏLƏRİN BƏRPASI VƏ MEŞƏSALMA

Maddə 54. **Meşələrin bərpasının və meşəsalmanın məqsədi**

Meşələrin bərpasının məqsədi meşə ilə örtülü olmayan torpaqlarda meşələrin vaxtında bərpa olunmasından, onların cins tərkibinin yaxşılaşdırılmasından, məhsuldarlığının artırılmasından, meşə fondu torpaqlarından səmərəli istifadə etməkdən ibarətdir.

Meşəsalmanın məqsədi qeyri-meşə torpaqlarında meşələr salmaqdan, meşə fondunun məhsuldar olmayan torpaq sahələrini minimuma endirməkdən, meşə fonduna daxil olmayan torpaqlarda qoruyucu əkinlər yaratmaqdan ibarətdir.

Maddə 55. **Meşəbərpa qaydası**

Meşəbərpa işlərinin həcminin, onların aparılma üsullarının və bərpa olunacaq ağac cinslərinin müəyyənləşdirilməsi, həmçinin meşəbərpa tədbirlərinin, meşə toxumları tədarükü və əkin materialları yetişdirilməsi işlərinin aparılması, meşə fondunda baş vermiş dəyişiklikləri nəzərə almaqla meşə quruluşu layihələrinə uyğun olaraq meşə təsərrüfatı müəssisələri tərəfindən yerinə yetirilir.

Maddə 56. **Meşələrin məhsuldarlığının artırılmasına qoyulan əsas tələblər**

Meşələrin məhsuldarlığının artırılması, meşə fondu sahələrindən səmərəli istifadə və meşə təsərrüfatı işlərinin məqsədyönlü aparılması yolu ilə təmin edilir.

Meşələrin məhsuldarlığının artırılması elmi cəhətdən əsaslandırılmış qırma sisteminin tətbiqi, meşələrin bərpası, onların cins tərkibinin yaxşılaşdırılması, seleksiya-genetika əsasında daimi meşə toxumçuluğu bazasının yaradılması və ondan səmərəli istifadə, hidromeşəmeliorasiya tədbirləri, meşələrə qulluq, digər meşə təsərrüfatı işləri aparmaq yolu ilə həyata keçirilir.

Meşələrin məhsuldarlığının artırılması tədbirləri meşə quruluşu layihələrinə uyğun olaraq meşə təsərrüfatı müəssisələri tərəfindən görülür.

Maddə 57. **Meşələrin məhsuldarlığının artırılması**

Meşələrin məhsuldarlığının artırılması məqsədilə aşağıdakılar həyata keçirilməlidir:

meşələrə qulluq, seleksiya, meşə toxumçuluğu, qiymətli ağac cinslərinin sort-sınağı üzrə işlər aparmaq, torpaqların münbitliyini artırmaq, onların su və külək eroziyasının, bataqlaşmasının, şoranlaşmasının və torpaqların vəziyyətinin pisləşməsinə səbəb olan digər proseslərin qarşısını almaq, habelə meşələrin cins tərkibini yaxşılaşdırmaq, onların məhsuldarlığını və qoruyucu xüsusiyyətlərini artırmaq (bu zaman palıd, fıstıq, qoz, şam və başqa qiymətli ağac cinslərinin saxlanması və onların vaxtında bərpası təmin olunmalıdır);

aralıq istifadə üçün qırmalar aparmaq;

meşələrin bərpası, yeni meşələr salınması, çox rütubətləşmiş torpaqların hidromeşəmeliorasiyası sahəsində tədbirlər görmək;

meşə təsərrüfatı təmayüllü yollar çəkmək.

## VII fəsil
## MEŞƏ FONDUNUN MÜHAFİZƏSİ VƏ QORUNMASI

Maddə 58. **Meşələrin mühafizəsinin və qorunmasının məqsəd və vəzifələri**

Meşələr yanğından, qanunsuz qırılmadan, meşədən istifadənin müəyyən edilmiş qaydalarının pozulması hallarından və meşəyə zərər vuran digər hərəkətlərdən, zərərvericilərdən və xəstəliklərdən mühafizə edilməlidir.

Meşələrin mühafizəsi və qorunması, onların bioloji və digər xüsusiyyətlərini nəzərə almaqla həyata keçirilir, meşə fondundan səmərəli istifadə, meşələri məhv olmaqdan, zədələnmədən, zəifləmədən, çirklənmədən və digər mənfi təsirlərdən mühafizə sahəsində təşkilati, hüquqi və başqa tədbirlər sistemindən ibarətdir.

Meşələrin mühafizəsi və qorunması meşə təsərrüfatı müəssisələri tərəfindən, yerüstü vasitələrdən və müəyyən edilmiş qaydada aviasiyadan istifadə etməklə həyata keçirilir.

Maddə 59. **Meşələrin mühafizəsi və qorunması tədbirlərinin həyata keçirilməsi qaydası**

Müvafiq icra hakimiyyəti orqanları və meşə təsərrüfatı müəssisələri meşələrin mühafizəsi və qorunması, zərərvericilər, xəstəliklər və yanğınlarla mübarizə tədbirləri həyata keçirirlər.

Müvafiq icra hakimiyyəti orqanları və meşə təsərrüfatı müəssisələri zəruri hallarda, yüksək yanğın təhlükəsi dövründə əhalinin, nəqliyyat vəsitələrinin meşəyə girməsini, habelə ayrı-ayrı meşə fondu sahələrində müəyyən iş növlərinin aparılmasını məhdudlaşdırır və ya qadağan edir.

Meşə zonalarında istehsalat və məişət tullantılarının basdırılması qadağandır.

Fiziki və hüquqi şəxslərin meşə yanğınlarının söndürülməsinə cəlb olunması Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Maddə 60. **Meşələrin yanğından mühafizəsində meşə istifadəçilərinin vəzifələri**

Meşə istifadəçiləri meşə yanğınlarına qarşı müvafiq meşə təsərrüfatı müəssisələri ilə razılaşdırılmış tədbirlər planı hazırlayıb təsdiq etməli və nəzərdə tutulmuş müddətdə yerinə yetirməlidir. Meşə yanğınlarına qarşı tələblər müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Fiziki və hüquqi şəxslərin meşə fondu ərazisində iş apardıqları, mədəni-kütləvi və sair tədbirlər keçirdikləri yerlərdə müvafiq icra hakimiyyəti orqanları tərəfindən təsdiq edilmiş normalara uyğun və yanğın təhlükəsi dövründə istifadə etməyə yararlı yanğınsöndürən vasitələr olmalıdır.

Maddə 61. **Meşə fondunda yanğın nəzarəti**

Meşə fondunda yanğına nəzarət fiziki və hüquqi şəxslərin yanğın təhlükəsizliyi sahəsində normaların, standartların və qaydaların tələblərinə riayət etmələri, onların pozulmasının qarşısının alınması məqsədilə müvafiq icra hakimiyyəti orqanı tərəfindən aparılır.

Meşə istifadəçiləri, meşə fondu sahələrində və meşə fondu ilə həmhüdud torpaqlarda iş aparan digər fiziki və hüquqi şəxslər, habelə meşə fondunda mədəni-kütləvi və sair tədbirlər keçirilməsinə cavabdeh olanlar yanğın təhlükəsizliyi sahəsində normaların, standartların və qaydaların tələblərinin pozulmasına görə Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq inzibati, cinayət və sair məsuliyyət daşıyırlar.

Maddə 62. **Meşə fondunun zərərvericilərdən və xəstəliklərdən mühafizəsi**

Meşə fondunun zərərvericilərdən və xəstəliklərdən mühafizəsi meşə fondunun vəziyyəti üzərində müntəzəm müşahidə aparmaq, zərərvericilərin və xəstəliklərin mənbələrini aşkara çıxarmaq, həmin yerlərdə profilaktik tədbirlər aparmaq, bu halların yayılmasının qarşısını almaq və onları aradan qaldırmaq yolu ilə təmin edilir.

Meşə fondunun zərərvericilərdən və xəstəliklərdən mühafizəsi aşağıdakı tədbirlərdən ibarətdir:

cari, ekspedisiya aviavizual və sair meşəpatologiya müşahidələri;

zərərvericilərin və xəstəliklərin əmələ gəlməsinin ümumi, ilkin yoxlanışı və onun dəqiq müşahidəsinin aparılması;

zərərvericilər və xəstəliklər ilə aviasiya və yerüstü vasitələrlə mübarizə tədbirlərinin hazırlanması;

meşə xəstəliklərinə qarşı profilaktik tədbirlərin, zərərvericilərin və xəstəliklərin mənbələrinin ləğv edilməsi işlərinin təşkili;

bu tədbirlərin yerinə yetirilməsi üzərində nəzarət.

Meşə fondunun zərərvericilərdən və xəstəliklərdən mühafizəsi tədbirləri müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş fitosanitariya qaydaları ilə nizamlanır.

Maddə 63. **Meşə fondunun səmərəli istifadəsi, mühafizəsi, qorunması və bərpasının təmin olunmasında fiziki və hüquqi şəxslərin, ictimai birliklərin iştirakı**

Meşə fondunun mühafizə olunması hər bir vətəndaşın, fiziki və hüquqi şəxslərin borcudur.

Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq fiziki və hüquqi şəxslər, ictimai birliklər meşələrin səmərəli istifadəsi, qorunması və bərpasının təmin olunmasında iştirak edə bilərlər.

## VIII fəsil
## MEŞƏ FONDUNDAN İSTİFADƏNİN, ONUN MÜHAFİZƏSİ, QORUNMASI VƏ BƏRPASININ İQTİSADİ TƏNZİMLƏNMƏSİ

Maddə 64. **Meşə fondundan istifadəyə görə ödəmə**

Bu Məcəllədə və Azərbaycan Respublikasının digər qanunvericiliyində nəzərdə tutulmuş hallardan başqa meşə fondundan və meşə sərvətlərindən istifadənin bütün növləri ödənişlidir.

Meşə təsərrüfatının ümumi gəliri meşə gəlirlərindən və meşə təsərrüfatının fəaliyyəti nəticəsində əldə edilən gəlirdən ibarətdir.

Meşə gəliri kököstü oduncaq buraxılışı və meşədən digər istifadələrə görə, habelə meşə fonduna vurulan zərər və itkiyə görə ödəmələrdən ibarətdir. Ödəmələr meşə məzənnələri əsasında hesablanır.

Meşə təsərrüfatının fəaliyyəti nəticəsində əldə edilən gəlirlərə meşə təsərrüfatı istehsalından, meşə sənayesi və qeyri-sənaye meşə istehsalından daxil olan vəsaitlər aid edilir.

Maddə 65. **Meşələrin qorunub saxlanması və təkrar istehsalı fondu**

Meşələrin bərpasının mühafizəsinin və qorunmasının, meşə təsərrüfatı istehsalının digər tədbirlərinin, habelə meşə təsərrüfatının inkişafı proqramlarının maliyyələşdirilməsini təmin etmək məqsədilə meşələrin qorunub saxlanması və təkrar istehsalı fondu yaradılır.

Fondun maliyyə mənbələri meşə gəlirlərindən, meşə təsərrüfatına ictimai yardımlardan və digər vəsaitlərdən ibarətdir.

Meşə təsərrüfatı istehsalı meşələrin qorunub saxlanması və təkrar istehsalı fondu, eləcə də büdcə vəsaiti hesabına maliyyələşdirilir.

Sənaye və qeyri-sənaye istehsalı özünümaliyyələşdirmə (təsərrüfat hesabı) prinsipi əsasında həyata keçirilir.

Maddə 66. **Meşə təsərrüfatı sahəsində həvəsləndirmə və güzəştlər**

Meşə təsərrüfatı işçilərinə Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə müəyyən edilmiş qaydada həvəsləndirmə və güzəştlər (otlaq, biçənək sahələri təhkim etmək, meşədən mal-qara üçün ot biçmək, yanacaq kimi istifadə üçün güzəştli qiymətlərlə odun, xüsusi geyim və s.) nəzərdə tutulur.

## IX fəsil
## MEŞƏ FONDUNDAN VƏ AĞAC-KOL BİTKİLƏRİNDƏN İSTİFADƏNİN XÜSUSİYYƏTLƏRİ

Maddə 67. **Oduncaq tədarükü**

Oduncaq tədarükü meşəbərpa və aralıq istifadə üçün qırma, habelə başqa qırmalar (başdan-başa sanitariya qırmaları, su qovşaqlarının, boru kəmərlərinin, yolların, elektrik xətlərinin tikintisi, habelə mərzlərin, yanğından mühafizə keçidlərinin açılması və digər belə məqsədlər üçün aparılan qırmalar) qaydasında aparılır.

Maddə 68. **Kateqoriyalarından asılı olaraq meşələrin qırma üsulları**

Dövlət qoruqlarının meşələrində yalnız qoruq rejiminə müvafiq olan qırmaların aparılmasına yol verilir.

Kurort meşələrində, xüsusi qiymətli meşə massivlərində, şəhərlərin və digər yaşayış məntəqələrinin ətrafındakı yaşıllıq zonalarının meşələrində, yabanı meyvə meşələrində və dövlət qoruyucu meşə zolaqlarında aralıq istifadə üçün qırmalar və başqa qırmalar aparılır.

Xüsusi qoruyucu meşə sahələrindən istifadənin bütün növləri məhdudlaşdırıla və qadağan edilə bilər.

Meşəbərpa və aralıq istifadə üçün qırmalar müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilən qırma qaydaları (əsasnamə) üzrə aparılır.

Maddə 69. **Qırma zamanı oduncaq tədarükünün təşkili və qaydası**

Meşəqırma sahələrinin ayrılması, onların meşə istifadəçilərinə verilməsi, habelə meşəqırma tələblərinin pozulmasına görə cərimənin miqdarı Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilən Azərbaycan Respublikası meşələrində köküstü oduncaq buraxılışı qaydaları ilə müəyyən edilir.

Maddə 70. **Qırmalar zamanı oduncaq tədarükü həcminin müəyyən edilməsi**

Meşədən oduncaq tədarükü hər bir meşə təsərrüfatı müəssisəsinin ərazisi üzrə hesablanmış meşəqırma həcmində aparılır. Hesablanmış meşəqırma həcmindən artıq miqdarda oduncaq tədarükü qadağandır.

Meşəbərpa və aralıq istifadə üçün qırma qaydası ilə oduncaq tədarükünün həcmi meşələrin vəziyyətinə, meşəyə qulluq, seçmə sanitariya və yenidənəkmə ilə əlaqədar qırmaların müəyyən edilmiş normalarına əsasən meşə quruluşu işləri aparılarkən müəyyənləşdirilir və müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir.

Başqa qırma qaydaları ilə oduncaq tədarükünün həcmi meşə fondunun ağac-koldan təmizlənməsi ilə bağlı olan layihələrdən asılı olaraq müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Maddə 71. **İkinci dərəcəli meşə sərvətlərinin tədarükü və meşədən əlavə istifadə qaydası**

Meşə fondu sahələri ikinci dərəcəli meşə sərvətlərinin tədarükü və meşədən əlavə istifadə üçün fiziki və hüquqi şəxslərin istifadəsinə bu Məcəllə ilə müəyyən edilmiş qaydada verilir.

Meşə fondundan ikinci dərəcəli meşə sərvətlərinin tədarükü və meşədən əlavə istifadə qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir.

Maddə 72. **Meşə fondu sahələrindən elmi tədqiqat, mədəni-sağlamlışdırma, turizm və idman məqsədləri, ovçuluq təsərrüfatının ehtiyacları üçün istifadə qaydaları**

Müvafiq təşkilatlar tərəfindən meşə fondu sahələrində elmi tədqiqat işləri aparıla bilər. Bu meşə istifadəsi həmin məqsədlərə uyğun gəlmədikdə, meşə təsərrüfatı müəssisəsi fiziki və hüquqi şəxslərə meşə fondu sahəsindən istifadəni məhdudlaşdırır və ya qadağan edir.

Mədəni-sağlamlaşdırma, turizm və idman məqsədləri üçün verilmiş meşə sahələrində meşə istifadəçiləri təbii landşaftın saxlanılması, yanğın təhlükəsizliyi və meşələrdə sanitariya qaydalarına əməl etmək şərtilə abadlıq tədbirləri görə bilərlər.

Meşə fondu sahələri ov yerləri kimi qanunvericilikdə müəyyən edilmiş qaydada ovçuluq təsərrüfatının ehtiyacları üçün fiziki və hüquqi şəxslərin istifadəsinə və ya icarəsinə verilə bilər.

Meşə fondu sahələrindən elmi tədqiqat mədəni-sağlamlaşdırma, turizm və idman məqsədləri, ovçuluq təsərrüfatının ehtiyacları üçün istifadə qaydaları Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Maddə 73. **Sərhəd zonalarında meşə fondu sahələrindən istifadə qaydası**

Sərhəd zonalarında meşə fondu sahələrindən bu Məcəllə ilə müəyyən olunmuş qaydada istifadə edilir.

Sərhəd zonalarında meşə fondu sahələrindən istifadənin xüsusiyyətləri Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilir.

Maddə 74. **Meşə fondu ərazisində yerləşən dövlət təbiət qoruqları, milli parklar və təbiət parkları**

Meşə fondu sahələri meşə fondu ərazisində yerləşən dövlət təbiət qoruqlarına Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada təhkim edilir və onlar bu sahələrdə dövlət idarəetmə funksiyasını həyata keçirir.

Dövlət təbiət qoruqlarının, milli parkların və təbiət parklarının ərazilərindəki meşələrin istifadəsi, mühafizəsi, qorunması və bərpası bu Məcəlləyə və Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə uyğun olaraq həyata keçirilir.

Maddə 75. **Kənd təsərrüfatı təyinatlı torpaqlarda yerləşən ağac-kol bitkiləri**

Kənd təsərrüfatı təyinatlı torpaqlarda yerləşən ağac-kol bitkiləri torpaqqoruyucu, sutənzimləyici və meşə bitkilərinə xas olan digər xüsusiyyətləri ilə torpaqları mənfi təbii, antropogen və texnogen hadisələrin təsirindən qorumaq üçündür.

Bu torpaqlarda yerləşən ağac-kol bitkilərində aparılan qırmalar bu bitkilərin vəziyyətinin yaxşılaşdırılmasını və funksiyalarının yerinə yetirilməsini təmin etməlidir. Ağac-kol bitkilərində qulluq, sanitariya, yenidənəkmə məqsədilə qırmaların, habelə başqa qırmaların aparılmasına yol verilir.

Kənd təsərrüfatı təyinatlı torpaqlardan meşə salınması, ağac-kol bitkilərinə qulluq edilməsi, onların istifadəsi, mühafizəsi, qorunması, habelə bunlarla bağlı dövlət nəzarəti Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilir.

Maddə 76. **Dəmir yoluna aid torpaqlarda yerləşən ağac-kol bitkiləri**

Dəmir yoluna aid torpaqlarda yerləşən ağac-kol bitkiləri dəmir yolu magistralını mənfi təbii hadisələrdən qorumaq, ətraf mühitin çirklənməsinin qarşısını almaq, dəmir yolu nəqliyyatının səsinin təsirini azaltmaq üçündür.

Müvafiq icra hakimiyyəti orqanı göstərilən ağac-kol bitkilərinin istifadəsi, mühafizəsi, qorunması və bərpası sahəsində dövlət idarəetməsini həyata keçirir.

Dəmir yoluna aid torpaqlarda yerləşən ağac-kol bitkilərində qulluq, sanitariya, yenidənəkmə məqsədilə xüsusi təyinatlı və başqa qırmaların aparılmasına yol verilir. Bu qırmaların aparılması qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Dəmir yoluna aid torpaqlarda yerləşən ağac-kol bitkilərinin vəziyyəti, istifadəsi, mühafizəsi və qorunması üzərində dövlət nəzarəti müvafiq icra hakimiyyəti orqanları tərəfindən müəyyən edilir.

Maddə 77. **Avtomobil yollarına aid torpaqlarda və su fondu torpaqlarında yerləşən ağac-kol bitkiləri**

Avtomobil yollarına aid torpaqlarda və su fondu torpaqlarında (avtomobil yollarını və kanalları ayıran zolaqlarda) yerləşən ağac-kol bitkiləri avtomobil yollarını və kanalları mənfi təbii, antropogen və texnogen hallardan mühafizə etmək üçündür.

Avtomobil yollarını və kanalları ayıran zolaqlardakı ağac-kol bitkilərində sanitariya və yenidənəkmə ilə əlaqədar qırmaların və başqa qırmaların aparılmasına yol verilir.

Avtomobil yollarına aid torpaqlarda və su fondu torpaqlarında meşəsalma, habelə ağac-kol bitkilərinin istifadəsi, mühafizəsi və qorunması qaydaları Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilir.

Avtomobil yollarına aid torpaqlarda və su fondu torpaqlarında yerləşən ağac-kol bitkilərinin istifadəsi, mühafizəsi və qorunması üzərində dövlət nəzarəti müvafiq icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilir.

## X fəsil
## MEŞƏLƏRİN İSTİFADƏSİ, MÜHAFİZƏSİ, QORUNMASI VƏ BƏRPASI SAHƏSİNDƏ MÜBAHİSƏLƏRİN HƏLLİ, MEŞƏ QANUNVERİCİLİYİNİN POZULMASINA GÖRƏ MƏSULİYYƏT

Maddə 78. **Meşələrin istifadəsi, mühafizəsi, qorunması və bərpası sahəsində mübahisələrin həlli qaydası**

Meşələrin istifadəsi, mühafizəsi, qorunması və bərpası sahəsində mübahisələr məhkəmə qaydasında həll edilir.

Maddə 79. **Meşə qanunvericiliyinin pozulmasına görə məsuliyyət**

Meşə qanunvericiliyinin pozulmasında təqsiri olan şəxslər Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun intizam, inzibati, mülki və cinayət məsuliyyəti daşıyırlar.

Meşə fondu sahələrinin özbaşına tutulmasına (zəbt edilməsinə) görə inzibati və cinayət məsuliyyətinə cəlb edilmiş şəxslər həmin torpaqları müəyyən edilmiş müddətdə azad etməlidirlər.

Maddə 80. **Meşə qanunvericiliyinin pozulması ilə bağlı əqdlərin etibarsızlığı**

Meşə qanunvericiliyini pozmaqla bağlanmış əqdlər etibarsızdır.

30 dekabr 1997-ci il tarixli N 424-IQ nömrəli "Azərbaycan Respublikası Meşə Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə təsdiq edilmişdir. (Azərbaycan Respublikasının qanunvericilik toplusu, 1998-ci il, № 3, maddə 139)

## Azərbaycan Respublikasının 1997-ci il 30 dekabr tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikası Meşə Məcəlləsinin tətbiq edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikasının 1997-ci il 30 dekabr tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikası Meşə Məcəlləsinin qüvvəyə minməsi ilə əlaqədar həmin Məcəllənin tətbiq olunmasını təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Nazirlər Kabineti iki ay müddətində:

qüvvədə olan qanunvericilik aktlarının Azərbaycan Respublikasının Meşə Məcəlləsinə uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Məcəlləyə uyğunlaşdırılmasını təmin etsin və bu haqda Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

Azərbaycan Respublikası meşə qanunvericiliyinin pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanunvericilik aktlarının layihələrini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

Azərbaycan Respublikası Meşə Məcəlləsindən irəli gələn digər məsələləri öz səlahiyyəti hüdudlarında həll etsin.

2. Müəyyən edilsin ki:

Azərbaycan Respublikası Meşə Məcəlləsinin 27-ci maddəsinin birinci hissəsinin on səkkizinci abzasında nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

həmin Məcəllənin 24-cü maddəsinin birinci hissəsində, 25-ci maddəsinin dördüncü hissəsində, 26-cı maddəsində, 27-ci maddəsinin birinci hissəsinin ikinci, üçüncü (meşə qanunvericiliyinə riayət edilməsinə, həmçinin meşə fondundan istifadəyə, onun mühafizəsinə, qorunmasına və meşələrin bərpasına dövlət nəzarətinin aparılması qaydalarının müəyyən edilməsinə aid hissədə), dördüncü, beşinci, altıncı, yeddinci, səkkizinci, doqquzuncu, onuncu, on birinci, on üçüncü, on dördüncü, on beşinci və on yeddinci abzaslarında, 31-ci maddəsinin dördüncü hissəsində, 32-ci maddəsinin ikinci hissəsində, 34-cü maddəsinin

ikinci hissəsində, 35-ci maddəsinin birinci və üçüncü hissələrində, 37-ci maddəsinin birinci hissəsində, 38-ci maddəsinin üçüncü hissəsində, 39-cu maddəsinin üçüncü və dördüncü hissələrində, 40-cı maddəsinin ikinci hissəsində, 41-ci maddəsinin ikinci hissəsində, 42-ci maddəsində, 43-cü maddəsinin üçüncü və dördüncü hissələrində, 44-cü maddəsinin ikinci hissəsində, 45-ci maddəsinin üçüncü hissəsində, 46-cı maddəsinin üçüncü hissəsində, 52-ci maddəsində, 59-cu maddəsinin üçüncü hissəsində, 62-ci maddəsinin üçüncü hissəsində, 68-ci maddəsinin dördüncü hissəsində, 69-cu maddəsində, 70-ci maddəsinin ikinci hissəsində və 72-ci maddəsinin dördüncü hissəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

həmin Məcəllənin 19-cu maddəsinin birinci hissəsində, 21-ci maddəsinin üçüncü hissəsində, 22-ci maddəsinin birinci hissəsində, 27-ci maddəsinin birinci hissəsinin üçüncü (meşə qanunvericiliyinə riayət edilməsinə, həmçinin meşə fondundan istifadəyə, onun mühafizəsinə, qorunmasına və meşələrin bərpasına dövlət nəzarətinin həyata keçirilməsinə aid hissədə), on ikinci, on dördüncü (öz səlahiyyəti hüdudlarında) və on altıncı abzaslarında, 33-cü maddəsinin üçüncü hissəsində, 36-cı maddəsində, 39-cu maddəsinin ikinci hissəsində, 48-ci maddəsinin birinci hissəsinin dördüncü abzasında, 50-ci maddəsinin on dördüncü hissəsində, 70-ci maddəsinin üçüncü hissəsində və 71-ci maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Ekologiya və Təbii Sərvətlər Nazirliyi həyata keçirir;

həmin Məcəllənin 45-ci maddəsinin ikinci hissəsində, 59-cu maddəsinin birinci və ikinci hissələrində və 61-ci maddəsinin birinci hissəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti həyata keçirirlər;

həmin Məcəllənin 60-cı maddəsinin birinci və ikinci hissələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi həyata keçirirlər;

həmin Məcəllənin 76-cı maddəsinin ikinci və üçüncü Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə razılaşdırmaqla) hissələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini Azərbaycan Dövlət Dəmir Yolu İdarəsi həyata keçirir;

həmin Məcəllənin 76-cı maddəsinin dördüncü hissəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini Azərbaycan Dövlət Dəmir Yolu İdarəsi və Ekologiya və Təbii Sərvətlər Nazirliyi həyata keçirirlər;

həmin Məcəllənin 77-ci maddəsinin dördüncü hissəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi və "Azərbmeşə" İstehsalat Birliyi həyata keçirirlər.

həmin Məcəllənin 27-ci maddəsinin birinci hissəsinin doqquzuncu abzasında nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası öz səlahiyyətləri daxilində həyata keçirirlər.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinə tapşırılsın ki, aşağıdakıların icrası barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat verməklə üç ay müddətində:

Azərbaycan Respublikası Meşə Məcəlləsinin 24-cü maddəsinin birinci hissəsində müəyyən edilməsi nəzərdə tutulmuş meşə fondu torpaqlarının icarəyə verməsi qaydasını;

həmin Məcəllənin 25-ci maddəsinin dördüncü hissəsində müəyyən edilməsi nəzərdə tutulmuş meşəqırma biletinin, orderin və meşə biletinin formalarını, onların uçotu, saxlanılması, doldurulması və verilməsi qaydalarını;

həmin Məcəllənin 26-cı maddəsində müəyyən edilməsi nəzərdə tutulmuş meşə fondu sahələrinin bir ilə qədər qısamüddətli istifadəyə verilməsi qaydasını;
həmin Məcəllənin 27-ci maddəsinin birinci hissəsinin on birinci abzasında nəzərdə tutulmuş meşə fondunun mühafizəsi, qorunması və meşələrin bərpası qaydalarını;
həmin Məcəllənin 27-ci maddəsinin birinci hissəsinin on beşinci abzasında müəyyən edilməsi nəzərdə tutulmuş meşə təsərrüfatı sahəsində dövlət statistika hesabatının aparılması qaydalarını;
həmin Məcəllənin 31-ci maddəsinin dördüncü hissəsində müəyyən edilməsi nəzərdə tutulmuş meşələrin qoruyucu kateqoriyalara aid edilməsi, meşələrin bir qoruyucu kateqoriyadan başqa qoruyucu kateqoriyaya keçirilməsi qaydasını;
həmin Məcəllənin 35-ci maddəsinin üçüncü hissəsində müəyyən edilməsi nəzərdə tutulmuş meşə fondu torpaqlarının geri alınması ilə əlaqədar meşə istifadəçilərinə dəyən ziyanın ödənilməsi qaydasını;
həmin Məcəllənin 38-ci maddəsinin üçüncü hissəsində müəyyən edilməsi nəzərdə tutulmuş meşə fondunun dövlət uçotu göstəricilərinin siyahısını, meşə fondunun dövlət uçotu sənədlərinin formalarını;
həmin Məcəllənin 39-cu maddəsinin üçüncü və dördüncü hissələrində müəyyən edilməsi nəzərdə tutulmuş Dövlət Meşə Kadastrı göstəricilərinin siyahısını, meşələrin iqtisadi qiymətləndirilməsinin metodikasını və dövlət meşə kadastrının aparılması qaydasını;
həmin Məcəllənin 40-cı maddəsinin ikinci hissəsində müəyyən edilməsi nəzərdə tutulmuş meşələrin monitorinqinin həyata keçirilməsi qaydasını;
həmin Məcəllənin 42-ci maddəsində müəyyən edilməsi nəzərdə tutulmuş kököstə buraxılan oduncaq və ikinci dərəcəli meşə ehtiyatlarının məcburi sertifikatlaşdırılmasının təşkili və aparılması qaydasını;
həmin Məcəllənin 43-cü maddəsinin dördüncü hissəsində müəyyən edilməsi nəzərdə tutulmuş meşə quruluşu işlərinin aparılması qaydasını;
həmin Məcəllənin 44-cü maddəsinin ikinci hissəsində müəyyən edilməsi nəzərdə tutulmuş meşə fondu haqqında məlumatın fiziki və hüquqi şəxslərə verilməsi qaydasını;
həmin Məcəllənin 45-ci maddəsinin üçüncü hissəsində müəyyən edilməsi nəzərdə tutulmuş meşə fondunun vəziyyətinə, istifadəsinə, mühafizəsinə, qorunmasına və meşələrin bərpasına dövlət nəzarətinin həyata keçirilməsi qaydasını;
həmin Məcəllənin 52-ci maddəsində müəyyən edilməsi nəzərdə tutulmuş meşə təsərrüfatına dəyən zərərin və itkilərin ödənilməsi qaydasını;
həmin Məcəllənin 59-cu maddəsinin üçüncü hissəsində nəzərdə tutulmuş meşə yanğınlarının söndürülməsinə fiziki və hüquqi şəxslərin cəlb olunması qaydasını;
həmin Məcəllənin 62-ci maddəsinin üçüncü hissəsində nəzərdə tutulmuş meşə fondunun zərərvericilərdən və xəstəliklərdən mühafizəsi üzrə fitosanitar qaydalarının;
həmin Məcəllənin 68-ci maddəsinin dördüncü hissəsində nəzərdə tutulmuş meşəqırma qaydalarının;
həmin Məcəllənin 69-cu maddəsində müəyyən edilməsi nəzərdə tutulmuş Azərbaycan Respublikası meşələrində kököstü oduncaq buraxılışı qaydalarının;
həmin Məcəllənin 72-ci maddəsinin dördüncü hissəsində müəyyən edilməsi nəzərdə tutulmuş meşə fondu sahələrindən elmi-tədqiqat, mədəni-sağlamlaşdırma, turizm və idman məqsədləri, ovçuluq və təsərrüfatın ehtiyacları üçün istifadə qaydalarını təsdiq etsin.

**Azərbaycan Respublikasının Prezidenti**
**HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 30 mart 1998-ci il
№ 693

## Azərbaycan Respublikası Nazirlər Kabineti
## «Azərbaycan Respublikasının meşələrində əsas meşə cinslərinin kököstü buraxılış nırxları haqqında»

## Qərar № 548

Bakı şəhəri, 26 oktyabr 1993-cü il

Azərbaycan Respublikasının dövlət meşələrinin xüsusi əhəmiyyətini, onların bütövlükdə dövlət mülkiyyətinə aid edilməsini nəzərə alaraq və qorunub saxlanılmasını, daha da inkişaf etdirilməsini təmin etmək məqsədilə, Azərbaycan Respublikası Nazirlər Kabineti **qərara alır:**

1. ~~Respublikanın əsas meşə cinslərinin kököstü buraxılış nırxları dövlət tərəfindən tənzimlənən qiymətlər sırasına daxil edilsin.~~
2. ~~Bununla əlaqədar olaraq, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 2 yanvar tarixli 3 saylı və 1992-ci il 23 aprel tarixli 226 saylı qərarlarında müvafiq dəyişiklik edilsin.~~
3. ~~Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi və «Azərbmeşə» İstehsalat Birliyi tərəfindən təqdim edilən «Azərbaycan Respublikasının meşələrində əsas meşə cinslərinin kököstü buraxılış nırxları» əlavəyə əsasən təsdiq edilsin və cari ilin 1 noyabr tarixindən tabeliyindən və mülkiyyət formalarından asılı olmayaraq respublikanın bütün meşələrində tətbiq edilsin.~~
4. Müəyyən edilsin ki, «Azərbmeşə» İstehsalat Birliyinin müəssisələri tərəfindən istehlakçılara qırıntı sahələrindən buraxılan və hazırki nırxlar əsasında tərtib edilən odunun və işlik ağacın müvafiq buraxılış qiymətləri yalnız Respublika İqtisadiyyat Nazirliyinin Baş Qiymətlər İdarəsi ilə razılaşdırıldıqdan sonra tətbiq edilir.
5. Azərbaycan Dövlət Neft Şirkətinə, Dövlətyanacaqkoma, «Azəriqaz» və «Azərenerji» Dövlət şirkətlərinə, «Azərbmeşə» İstehsalat Birliyinə tapşırılsın ki, respublikada əhalinin və təşkilatların istilik enerjisinə olan tələbatını ödəmək məqsədilə, respublikada olan məişət soba yanacağı, maye yanacağı, daş kömür, elektrik enerjisi, mayeləşdirilmiş qaz, odun və digər növ enerji daşıyıcıları ehtiyatları barədə 1 ay müddətinə Respublika İqtisadiyyat Nazirliyinə məlumat versinlər.
6. İqtisadiyyat Nazirliyinə tapşırılsın ki, mövcud ehtiyat mənbələrini nəzərə almaqla, respublika üzrə istilik balansının tərtib edilməsi və lazım gəldikdə tələbatın tam ödənilməsi üçün enerji daşıyıcılarının idxal yolu ilə kənardan gətirilməsi üçün Azərbaycan Respublikası Nazirlər Kabinetinə 2 ay müddətində konkret təklif versin.
7. Səhiyyə Nazirliyinə, Təhsil Nazirliyinə, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə tapşırılsın ki, məktəbləri, xəstəxanaları, uşaq bağçalarını və s. vaxtında müxtəlif növ enerji daşıyıcıları ilə təmin etmək üçün təxirəsalınmaz və konkret tədbirlər görsünlər.
8. Daxili işlər Nazirliyinə tapşırılsın ki, meşələrin qorunub mühafizə edilməsini gücləndirmək məqsədi ilə meşə mühafizə orqanlarının müvafiq qaydada təchiz olunması üçün «Azərbmeşə» İstehsalat Birliyinə lazımi kömək etsin.
9. Yerli icra hakimiyyəti orqanlarına tapşırılsın ki, yerlərdə əlillərə, məcburi köçkün və qaçqınlara, habelə imtiyaz hüququ olan digər vətəndaşlara odunun və digər oduncaq növlərinin dəyərinin bir qismini yerli büdcə hesabına kompensasiya etmək üçün müvafiq tədbirlər görsünlər.

*Baş nazir* *S. HÜSEYNOV*

24 avqust 1994-cü il tarixli, 312 nömrəli; 1 oktyabr 2007-ci il tarixli, 153 nömrəli qərarlara əsasən dəyişikliklərlə.

*Azərbaycan Respublikası*
*Nazirlər Kabinetinin*
*1993-cü il 26 oktyabr tarixli*
*548 nömrəli qərarına*
*əlavə*

**Respublika meşələrindən əsas meşə və kol cinslərinin köküstü buraxılış nırxları**

| s. № | Oduncağın cinsi | Meşə nırx dərəcələri | Daşınma məsafəsi, km | 1 sıx kmb üçün nırxlar, min rublla<br>İşlik oduncaq (qabıqsız)<br>iri | orta | xırda | Odun qabıqlı min rubl |
|---|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
| 1 | Fıstıq | I<br>II<br>III | 0-10,0<br>10,0-25,0<br>25,1-40,0 | 74,3<br>53,0<br>31,8 | 72,9<br>52,1<br>31,3 | 37,2<br>26,6<br>15,9 | 5,2<br>3,7<br>2,2 |
| 2 | Şümşad, şabalıd, qoz, dəmirağacı, saqqızağacı, çinar, azadağacı, evkalipt, püstə | I<br>II<br>III | 0-10,0<br>10,0—25,0<br>25,1-40,0 | 297,0<br>212,2<br>127,3 | 291,8<br>208,4<br>125,0 | 148,8<br>106,3<br>63,8 | 5,2<br>3,7<br>2,2 |
| 3 | Qaraçöhrə (Tiss), ayı fındığı | I<br>II<br>III | 0-10,0<br>10,0-25,0<br>25,1-40,0 | 222,8<br>159,1<br>95,5 | 218,8<br>156,3<br>93,8 | 111,6<br>79,7<br>47,8 | 5,2<br>3,7<br>2,2 |
| 4 | Palıd, göyrüc, ağcaqayın, armud, dağdağan, sərv ağacı, tut ağacı, ardıc, qarağac, cökə | I<br>II<br>III | 0-10,0<br>10,1-25,0<br>25,1-40,0 | 95,5<br>69,0<br>41,1 | 94,8<br>67,7<br>40,6 | 48,4<br>34,5<br>20,7 | 5,2<br>3,7<br>2,2 |
| 5 | Ərik, heyva, alça, gilas, nar, gilənar, əncir, zoğal, dəfnə, şaftalı, əzgil | I<br>II<br>III | 0-10,0<br>10,1-25,0<br>25,1-40,0 | 126,2<br>90,2<br>54,1 | 124,0<br>88,6<br>53,1 | 63,2<br>45,2<br>27,1 | 5,2<br>3,7<br>2,2 |
| 6 | Ağ akasiya, şeytan ağacı, safora, güləbrişin (ipək akasiyası) | I<br>II<br>III | 0-10,0<br>10,1-25,0<br>25,1-40,0 | 52,0<br>37,1<br>22,3 | 51,0<br>36,5<br>21,9 | 26,0<br>18,6<br>11,2 | 5,2<br>3,7<br>2,2 |
| 7 | Zirinc, sumaq, gərməşov, sarağan, itburnu, yasəmən, yemişan, qaratikan, maklyura, kandalaş, cır (meşə) fındıq, murdarça, dəfnəgilas (lavrovişnya), meşəgilası, göyəm və digər kol cinsləri | I<br>II<br>III | 0-10,0<br>10,1-25,0<br>25,1-40,0 | 44,6<br>31,8<br>19,1 | 43,8<br>31,3<br>18,8 | 22,3<br>15,9<br>9,6 | 3,1<br>2,2<br>1,3 |
| 8 | Bütün növ qovaqlar / Qızılağac, yalanqoz | I<br>II<br>III | 0-10,0<br>10,1-25,0<br>25,1-40,0 | 37,1<br>26,5<br>12,7 | 36,5<br>26,0<br>12,5 | 18,6<br>13,7<br>6,4 | 4,7<br>3,4<br>2,0 |
| 9 | Aylant, söyüd, iydə | I<br>II<br>III | 0-10,0<br>10,1-25,0<br>25,1-40,0 | 29,7<br>21,2<br>12,7 | 29,2<br>20,8<br>12,5 | 14,9<br>10,6<br>6,4 | 4,7<br>3,4<br>2,0 |
| 10 | Eldar şamı və başqa növ şamlar | I<br>II<br>III | 0-10,0<br>10,1-25,0<br>25,1-40,0 | 66,8<br>47,7<br>28,6 | 65,7<br>46,9<br>28,1 | 33,5<br>23,9<br>14,4 | 4,7<br>3,4<br>2,0 |
| 11 | Vələs | I<br>II<br>III | 0-10,0<br>10,1-25,0<br>25,1-40,0 | 59,4<br>42,4<br>52,5 | 58,4<br>41,7<br>25,0 | 29,8<br>21,3<br>12,8 | 5,2<br>3,7<br>2,2 |

*İşlər müdiri* *İ. HACIYEV*

## Azərbaycan Respublikasının Nazirlər Kabineti Meşə təsərrüfatına dəymiş ziyana görə maddi məsuliyyətə cəlb edilmə qaydaları haqqında

## Qərar № 636

Bakı şəhəri, 27 dekabr 1993-cü il

Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Müəyyən edilsin ki, meşə qanunvericiliyinin pozulmasında təqsirkar olan müəssisələr, idarələr, təşkilatlar, kolxozlar, digər hüquqi şəxslər və vətəndaşlar aşağıdakı hallarda maddi məsuliyyət daşıyırlar:

   a) meşə qırma bileti (orderi) olmadan kököstə yaş ağacların və kolların kəsilməsi;
   b) kökü̈stə yaş ağac və kolların boy artımı dayanacaq və ya dayanmayacaq dərəcəyə qədər zədələnməsi;
   v) kökdən kəsilmiş, həmçinin külək, qar və başqa səbəblər nəticəsində sınmış və yerə yıxılmış ağac və kolların mənimsənilməsi və yaxud kökü̈stə quru ağac və kolların özbaşına qırılması;
   q) yandırılması və odla ehtiyatsız rəftar edilməsi nəticəsində meşənin, həmçinin tək-tək və qrup hallında olan ağac və kolların məhv edilməsi, yaxud zədələnməsi;
   ğ) meşənin, həmçinin tək-tək və qrup halında olan ağac və kolların quruyacaq və yaxud xəstələnəcək dərəcəyə qədər axar sular, kimyəvi maddələr, sənaye, kommunal-məişət və digər tullantılar ilə zədələnməsi və ya məhv edilməsi;
   d) lazımi icazə alınmadan dövlət meşə fondu torpaqlarında tikinti işləri aparılması, anbarlar tikilməsi, ağac emalı və digər işlərin görülməsi;
   e) meşə əkinlərində, meşə tingliklərində, böyütmə və plantasiya sahələrində toxmacarların və tinglərin, həmçinin meşənin bərpa edilməsi üçün müəyyən olunmuş sahələrdə təbii yeniyetmələrin və cücərtilərin məhv edilməsi, yaxud zədələnməsi;
   ə) meşələrdə və dövlət meşə fondunun meşəsiz torpaqlarında özbaşına ot çalınması, mal-qara otarılması, habelə biçənək və otlaq yerlərinin korlanması;
   j) qadağan edilən, yaxud yalnız meşədən əlavə istifadə biletinə əsasən icazə verilən sahələrdə özbaşına qoz, fındıq, şabalıd, yabanı (cır), habelə peyvənd çərdəkli meyvələrin və giləmeyvələrin, qamış və dərman bitkilərinin, meşə döşənəyinin, tökülmüş yarpaqların və bu müqabildən olan digər meşə məhsullarının tədarükü və yığılması;
   z) dövlət meşə fondu torpaqlarında məhdudlaşdırıcı nişanların məhv edilməsi və ya korlanması.

2. Tabeçiliyindən asılı olmayaraq, respublikanın bütün meşələrində meşə qanunvericiliyinin pozulması nəticəsində vurulmuş ziyana görə mülkiyyət formasından və fəaliyyət növündən asılı olmayaraq müəssisələrdən, idarələrdən, təşkilatlardan, kolxozlardan və digər hüquqi şəxslərdən və vətəndaşlardan alınan, habelə müsadirə (sekvestr) edilən oduncaq. Sair meşə məhsullarının satışından əldə olunan məbləğ və müəyyən edilmiş qayda üzrə daxil olan digər maliyyə mənbələri hesabına «Meşələrin qorunub saxlanması və təkrar istehsalı» Respublika fondu yaradılsın.

3. ~~«Azərbmeşə» İstehsalat Birliyinə tapşırılsın:~~
   - ~~«Meşələrin qorunub saxlanması və təkrar istehsalı» Respublika fondunun Əsasnaməsini 3 ay müddətinə hazırlayıb müəyyən olunmuş qaydada Nazirlər Kabinetinə təqdim etsin;~~
   - ~~Rüblük və illik mühasibat hesabatları ilə birlikdə həmin fondun istifadəsi barədə məlumatı Maliyyə Nazirliyinə təqdim etsin.~~
4. «Azərbmeşə» İstehsalat Birliyinə və Ədliyyə Nazirliyinə tapşırılsın ki, 1994-cü il aprelin 1-dək meşə qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlb olunma qaydalarına dair təlimatı hazırlayıb təsdiq üçün Azərbaycan Respublikası Nazirlər Kabinetinə təqdim etsinlər.
5. Mülkiyyət formasından və fəaliyyət növündən asılı olmayaraq müəssisələr, idarələr, təşkilatlar, kolxozlar və digər hüquqi şəxslər və vətəndaşlar tərəfindən meşə qanunvericiliyinin pozulmasına görə meşə təsərrüfatına vurulan ziyanın miqdarının hesablanması üçün nırx 1—8 saylı əlavələrə əsasən təsdiq edilsin. Bu qərarla təsdiq edilmiş nırxlar 1994-cü ilin yanvar ayının 1-dən tətbiq edilsin.

Bununla əlaqədar Azərbaycan SSR Nazirlər Sovetinin «Meşə təsərrüfatına dəymiş ziyana görə maddi məsuliyyətə cəlb edilmənin qaydaları və miqdarı haqqında» 1968-ci il 11 oktyabr tarixli, 423 saylı və həmin qərarda dəyişikliklər və əlavələr edilməsi barədə 1982-ci il 14 aprel tarixli, 202 saylı və 1989-cu il 20 yanvar tarixli, 35 saylı qərarları qüvvəsini itirmiş sayılsın.

*Baş nazir* *S. HÜSEYNOV*

*Azərbaycan Respublikası*
*Nazirlər Kabinetinin*
*1993-cü il 27 dekabr tarixli,*
*636 №-li qərarına*
*1 saylı əlavə*

**Meşə əkinlərinin, meşə bərpa işləri üçün nəzərdə tutulan sahələrdə təbii yeniyetmələrin və cücərtilərin məhv edilməsi və ya zədələnməsi nəticəsində vurulmuş ziyanın miqdarının hesablanması üçün**
**Nırx**

*minimum əmək haqqının misli ilə*

| | Hər hektar üçün ödənilən ziyanın miqdarı | |
|---|---|---|
| | **dövlət qoruqları, kurort və şəhərətrafı yaşıl zona meşələrində və meşəparklarda** | **qalan meşələrdə** |
| 5 yaşınadək | | |
| suvarılan torpaqlarda | 10,0 | 7,9 |
| dəmyə torpaqlarda | 8,6 | 6,4 |
| 6-10 yaşında: | | |
| suvarılan torpaqlarda | 14,3 | 10,0 |
| dəmyə torpaqlarda | 11,4 | 7,9 |

**Qeyd:**

1. Qaracöhrə, şümşad, dəmir ağacı, ipək akasiyası, qoz, şabalıd, badam, armud, zoğal, sərv və çinar cinslərindən ibarət meşə əkinləri, təbii yeniyetmələr və cücərtilər, habelə meşə toxumluq sahələri üçün ayrılmış meşə əkinləri və cavan bitkilər məhv edildikdə və ya zədələndikdə ziyanın miqdarı yuxarıdakı cədvəlin ikinci sütunundakı nırx iki dəfə artırılmaqla hesablanır.
2. Eldar şamı, palıd və digər bərkyarpaqlı meşə əkinləri, təbii yeniyetmələr və cücərtilər məhv edildikdə və ya zədələndikdə ödənilən ziyanın miqdarı yuxarıdakı cədvəlin ikinci sütunundakı nırx üzrə, dövlət qoruqları, kurort və şəhərətrafı yaşıl zona meşələrində və meşəparklarda yol verilmişdirsə, həmin nırxın bir dəfə yarım miqdarında hesablanır.

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin İşlər müdiri* *İ. HACIYEV*

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin*
*1993-cü il 27 dekabr tarixli, 636 №-li qərarına*
*2 saylı əlavə*

## Meşə tingliklərində, böyütmə və plantasiya sahələrində toxmacar və tinglərin məhv edilməsi və ya zədələnməsi nəticəsində vurulmuş ziyanın miqdarının hesablanması üçün Nırx

*minimum əmək haqqının misli ilə*

| Məhv edilmiş və ya zədələn -miş toxmacar və ting növləri | Ölçü vahidi | Ödənilən ziyanın miqdarı |
|---|---|---|
| **1. Tingliklərdə və böyütmə sahələrində** | | |
| Bir yaşlı toxmacarlar | 1 hektar | 107,0 |
| İki yaşlı toxmacarlar | 1 hektar | 121,0 |
| 3 yaşınadək yarpaqlı cinslərin tingləri | 100 ədəd | 4,3 |
| 3 yaşınadək iynəyarpaqlı cinslərin, qoz-fındıq və çinar tingləri | 100 ədəd | 6,4 |
| Gilə və çəyirdəkli cinslərdən calaq edilmiş bir illik tinglər | 100 ədəd | 4,3 |
| Həmçinin iki və daha çox yaşlı tinglər | 100 ədəd | 5,7 |
| **II.Plantasiyalarda** | | |
| Bütün cinslərdən olan tinglər | | |
| bir yaşlı | 100 ədəd | 2,1 |
| iki yaşlı | 100 ədəd | 3,6 |
| üç yaşlı | 100 ədəd | 5,0 |

**Qeyd:** Qoz, fındıq və sərv plantasiyalarının toxmacarları məhv edildikdə və ya zədələndikdə alınacaq ziyan bu nırxdan iki qat çox hesablanır

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin İşlər müdiri* *İ. HACIYEV*

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin*
*1993-cü il 27 dekabr tarixli,636 №-li qərarına*
*3 saylı əlavə*

## Meşələrdə və dövlət meşə fondunun meşəsiz torpaqlarında özbaşına ot çalınması, mal-qara otarılması, biçənəklərin və otlaq yerlərinin korlanması nəticəsində vurulmuş ziyanın miqdarının hesablanması üçün Nırx

*minimum əmək haqqının misli ilə*

| | Ödənilən ziyanın miqdarı | |
|---|---|---|
| | **dövlət qoruğu, kurort və şəhərətrafı yaşıl zona meşələrində, meşəparklarda** | **qalan meşələrdə** |
| **I. Özbaşına ot çalındıqda hər hektar üçün** | | |
| Biçənək və otlaq yerləri: | | |
| səpilmiş otlar | 5,0 | 4,6 |
| yaxşılaşdırılmış təbii otlar | 2,9 | 2,4 |
| yaxşılaşdırılmamış təbii otlar (bataqlaşmış sahələrdən savayı) | 1,7 | 1,4 |
| Bataqlaşmış sahələr | 1,0 | 0,9 |
| Biçənək və otlaq yerlərindən kənar sahələr | 2,6 | 2,1 |
| **II. Korlanmış biçənək və otlaq yerlərinin hər hektarı üçün** | | |
| səpilmiş otlar | 38 | 34 |
| yaxşılaşdırılmış təbii otlar | 25 | 20 |
| yaxşılaşdırılmamış təbii otlar (bataqlaşmış otlardan başqa) | 16 | 14,3 |
| bataqlaşmış otlar | 11 | 8,8 |
| **III. Özbaşına mal-qara otarıldıqda hər 10 baş heyvan üçün** | | |
| Biçənək və otlaq yerləri: | | |
| iki yaşından yuxarı qaramal və atlar | 2,1 | 1,9 |
| iki yaşınadək iri və xırda buynuzlu mal-qara və atlar | 0,9 | 0,6 |
| keçilər | 1,7 | 1,3 |
| Biçənək və otlaq yerlərindən kənar sahələr: | | |
| iki yaşından yuxarı qaramal və atlar | 2,9 | 2,4 |
| iki yaşınadək iri və xırda buynuzlu mal-qara və atlar | 1,3 | 0,9 |
| keçilər | 2,6 | 1,7 |

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin İşlər müdiri* *İ. HACIYEV*

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin*
*1993-cü il 27 dekabr tarixli,636 №-li qərarına*
*4 saylı əlavə*

## Ağac və kolların boy atmasının dayandırılmasına səbəb olmadan zədələnməsi nəticəsində vurulmuş ziyanın miqdarının hesablanması üçün
## Nırx

*minimum əmək haqqının misli ilə*

| | Ödənilən ziyanın miqdarı | |
|---|---|---|
| | **dövlət qoruqlarının meşələrində, kurort meşələrində, şəhərətrafı meşələrində və meşəparklarda** | **qalan meşələrdə** |
| **Yaşı 10-dan yuxarı olan korlanmış (boy artımı dayanmayacaq dərəcəyədək):** | | |
| hər 10 ağac üçün | 1,1 | 0,9 |
| hər 10 kol üçün | 0,8 | 0,6 |

**Qeyd:** Zədələnmiş (boy artımı dayanmayacaq dərəcəyədək) hər bir qaracöhrə, şümşad, dəmirağacı, ipək akasiyası, qoz, şabalıd, badam, armud, zoğal, sərv, çinar, habelə iynəyarpaqlı ağac və kollar üçün bütün meşələrdə ödənilən ziyanın miqdarı yuxarıdakı cədvəlin ikinci sütunundakı nırx iki dəfə artırılmaqla hesablanır.

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin İşlər müdiri* *İ. HACIYEV*

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin*
*1993-cü il 27 dekabr tarixli, 636 №-li qərarına*
*5 saylı əlavə*

**Qadağan edilən, yaxud yalnız meşədən əlavə istifadə biletlərinə əsasən icazə verilən sahələrdə özbaşına meşə məhsullarının tədarükü və yığılması nəticəsində meşə təsərrüfatına vurulmuş ziyanın hesabanması üçün**
**Nırx**

*minimum əmək haqqının misli ilə*

| | Ödənilən ziyanın miqdarı |
|---|---|
| **Hər kiloqramı üçün:** | |
| Yabanı (cır) meyvələr (alma, armud, zoğal, alça və s.) | 0,06 |
| Peyvənd meyvələr (alma, armud, zoğal, alça və s.) | 0,12 |
| İtburnu | 0,12 |
| Çaytikanı | 0,21 |
| Digər dərman bitkiləri | 0,10 |
| Şabalıd | 0,13 |
| Fındıq | 0,14 |
| Qoz | 0,17 |
| Fıstıq toxumu | 0,11 |
| Palıd | 0,05 |
| Cökə | 0,10 |
| Qamış, qarğı, meşə döşənəyi və tökülmüş yarpaqlar, hər yığım kubmetri üçün | 0,02 |

**Qeyd:** Meşələrdə bar gətirən meyvə ağaclarının məhsulunu qanuni əsas olmadan əldə edən şəxs, əsassız əldə etdiyi məhsulu geri qaytarmalıdır. Əsassız əldə edilmiş məhsulu eyni ilə qaytarmaq mümkün olmadıqda, dəymiş ziyanın məbləği hüquq pozuntusu baş vermiş tarixdə qüvvədə olan dövlət tərəfindən tənzimlənən qiymətlərlə, dövlət tərəfindən tənzimlənmədiyi hallarda isə, sərbəst satış qiymətləri ilə hesablanır.

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin İşlər müdiri* *İ. HACIYEV*

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin*
*1993-cü il 27 dekabr tarixli, 636 №-li qərarına*
*6 saylı əlavə*

**Meşələrdə məhdudlaşdırıcı nişanların məhv edilməsi və korlanması nəticəsində meşə təsərrüfatına vurulmuş ziyanın miqdarının hesablanması üçün**
**Nırx**

*minimum əmək haqqının misli ilə*

| | Məhv edilmiş və ya zədələnmiş hər məhdudlaşdırıcı nişan üçün ödənilən ziyanın miqdarı |
|---|---|
| Sərhəd və kvartal dirəkləri | 0,6 |
| Vizir və təsərrüfat (qırılacaq meşə sahəsi və s.) dirəkləri | 0,3 |

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin İşlər müdiri* *İ. HACIYEV*

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin*
*1993-cü il 27 dekabr tarixli, 636 №-li qərarına*
*7 saylı əlavə*

## Ağacların və kolların qanunsuz qırılması və zədələnməsi (boy artımının dayandırılması dərəcəsinədək) nəticəsində vurulmuş ziyanın miqdarının hesablanması üçün Nırx

*Vətəndaşlardan minimum əmək haqqının misli ilə*

| | **Ödənilən ziyanın miqdarı** | |
|---|---|---|
| | **dövlət qoruqları, kurort və şəhərətrafı meşələrdə, meşəparklarda və tarlaqoruyucu meşələrdə** | **qalan meşələrdə** |
| 4 santimetrədək (4 santimetr də daxil olmaqla) | 0,1 | 0,1 |
| 4,1-8 | 0,2 | 0,1 |
| 8,1-12 | 0,3 | 0,2 |
| 12,1-18 | 0,5 | 0,4 |
| 18,1-20 | 0,6 | 0,5 |
| 20,1-24 | 0,8 | 0,7 |
| 24,1-28 | 1,1 | 0,8 |
| 28,1-32 | 1,3 | 1,1 |
| 32,1-38 | 1,7 | 1,3 |
| 38,1-40 | 2,1 | 1,7 |
| 40,1-44 | 2,9 | 2,3 |
| 44,1-48 | 3,6 | 2,9 |
| 48,1-52 | 4,5 | 3,6 |
| 52 sm-dən yuxarı hər santimetr üçün | 0,3 | 0,2 |
| kol cinslərinin hər kolu üçün | 0,2 | 0,2 |
| 1 m2 yaşıllıqlar üçün (qazon, çiçək ləki və s.) | 0,2 | 0,2 |

**Qeyd:**

I. Şümşad, qaracöhrə, qoz, evkalipt, armud, zoğal, enliyarpaq, ağcaqayın, çinar, tozağacı, ardıc, habelə iynəyarpaqlı ağac və kolların qanunsuz qırılması və ya zədələnməsi (boy artımının dayandırılması dərəcəsinədək nəticəsində dəymiş ziyanın miqdarı yuxarıdakı cədvəlin ikinci sütunundakı nırx iki dəfə artırılmaqla, digər bərkyarpaqlı, qozmeyvəli və meyvə ağaclarının qanunsuz qırılması və ya zədələnməsi (boy artımının dayandırılması dərəcəsinədək) nəticəsində dəymiş ziyanın miqdarı isə yuxarıdakı cədvəlin ikinci sütunundakı nırx üzrə hesablanır.

Külək, qar və başqa səbəblərdən sınmış və ya yerə yıxılmış ağac və kolların mənimsənilməsi və kökündə olan quru ağac və kolların özbaşına qırılması hallarında bu əlavədə göstərilən nırx tətbiq edilmir, belə hallarda meşə təsərrüfatına dəyən ziyan isə kökündə oduncaq buraxılışının mövcud nırxının birinci dərəcəsinin iki qat miqdarında hesablanır

II. Mülkiyyət formasından və fəaliyyət növündən asılı olmayaraq müəssisələr, idarələr, təşkilatlar və digər hüquqi şəxslər dəymiş ziyanı meşə qanunvericiliyinin pozulmasının, hansı nırx qurşağında olmasından asılı olmayaraq, köküstə oduncaq buraxılışının mövcud nırxının birinci dərəcəsinin on qat miqdarında, kökdən kəsilmiş, külək, qar və başqa səbəblərdən sınmış və yerə yıxılmış ağac və kolların mənimsənilməsi və köküstə quru ağac və kolların özbaşına qırılması hallarında isə göstərilən nırxın iki qat miqdarında ödəyir.

III. Qanunsuz gətirilmiş oduncağın hansı meşə sahəsində qırılmasını müəyyən etmək mümkün olmadıqda, meşə qanunvericiliyini pozanlar, qanunsuz gətirilmiş oduncaq müsadirə edilən halda həmin oduncağın köküstə buraxılışının mövcud nırxının birinci dərəcəsinin üç qat miqdarında, müsadirə edilməyən halda isə həmin nırxın dörd qat miqdarında ziyanı ödəyir.

IV. Bakı, Gəncə və Sumqayıt şəhərlərində ağac və kol cinslərinin qanunsuz kəsilməsi, kökündən çıxarılması və ya boy artımının dayandırılması dərəcəsinə qədər zədələnməsi nəticəsində dəymiş ziyanın miqdarı yuxarıdakı nırx üç dəfə artırılmaqla hesablanır.

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin İşlər müdiri* *İ. HACIYEV*

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin*
*1993-cü il 27 dekabr tarixli,636 nömrəli qərarına*
*8 nömrəli əlavə*

**Meşənin yandırılması, odla ehtiyatsız rəftar edilməsi, axar sular, kimyəvi maddələr, sənaye, kommunal-məişət və digər tullantılarla meşənin, tək-tək və qrup halında olan ağac və kolların zədələnməsi və ya məhv edilməsi, həmçinin quruyacaq və yaxud xəstələnəcək dərəcəyə gətirilməsi, habelə lazımi icazə alınmadan dövlət meşə fondu torpaqlarında tikinti işlərinin aparılması, ağac emalı və digər işlərin görülməsi nəticəsində vurulmuş ziyanın miqdarının hesablanması**
**Qaydaları**

1. Meşənin yandırılması, odla ehtiyatsız rəftar edilməsi, axar sular, kimyəvi maddələr, sənaye, kommunal-məişət və digər tullantılarla meşənin, tək-tək və qrup halında olan ağac və kolların zədələnməsi və ya məhv edilməsi, həmçinin quruyacaq və yaxud xəstələnəcək dərəcəyə gətirilməsi nəticəsində vurulmuş ziyanı meşə qanunvericiliyini pozanlar aşağıdakı dəyər miqdarında ödəyirlər:
   - meşənin itirilmiş əmtəəlik dəyəri kötükstə oduncaq buraxılışının möcud nırxının birinici dərəcəsi miqdarında;
   - məhv olmuşları əvəz etmək üçün yeni meşə əkini və ya yeniyetmələri yetişdirmək üçün tələb olunan xərclər miqdarında;
   - ərazinin təmizlənməsi işlərinə tələb olunan, həmçinin yanğının söndürülməsinə sərf olunmuş xərclər miqdarında;
   - meşə qanunvericiliyinin pozulması nəticəsində baş verən yanğınların meşədə olan binaları, qurğuları və digər əmlakı məhv və yaxud xarab etməsinə görə alınacaq ziyan mülki qanunvericiliyin ümumi normalarında nəzərdə tutulmuş qaydada və miqdarda təyin edilib ödətdirilir.
2. Lazımi icazə alınmadan dövlət meşə fondu torpaqlarında tikinti işlərinin aparılması, ağac emalı və digər işlərin görülməsi nəticəsində vurulmuş ziyanı meşə qanunvericiliyini pozanlar ərazinin meşə təsərrüfatında istifadəsi üçün yararlı vəziyyətə salınması işlərinin dəyəri miqdarında ödəyirlər.

**Azərbaycan Respublikası Nazirlər Kabineti**

# «Respublika meşələrində əsas meşə və kol cinslərinin yeni kököstə buraxılış nırxlarının təsdiq edilməsi haqqında»

## Qərar № 312

Bakı şəhəri, 24 avqust 1994-cü il

Enerji daşıyıcılarının, materialların, ehtiyat hissələrinin qiymətinin və minimum əmək haqqının artması ilə əlaqədar, habelə meşə təsərrüfatının maliyyələşdirilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabineti qərara alır:

1. Respublika meşələrində əsas meşə və kol cinslərinin yeni kötüstə buraxılış nırxlarının təsdiq edilməsi haqqında «Azərbmeşə» İstehsalat Birliyinin Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi və Maliyyə Nazirliyi ilə razılaşdırılmış təklifi qəbul edilsin (əlavə olunur).
2. ~~Büdcədən maliyyələşdirilən təşkilatların maliyyə vəziyyətlərindəki çətinlikləri nəzərə alaraq və əhalinin sosial müdafiəsini təmin etmək məqsədilə müəyyən edilsin ki, büdcə idarələrinə və təşkilatlarına oduncaq buraxılışı həmin nırxlara görə 20 faiz, əhali üçün oduncaq buraxılışı isə 30 faiz güzəştlə hesablanır (əlavə olunur).~~
   ~~Bu güzəştlər Respublika büdcəsindən əlavə vəsait ayırmamaq şərti ilə «Azərbmeşə» İstehsalat Birliyinə 1994-cü il üçün ayrılmış büdcə təxsisatları və onun daxili maliyyə imkanları hesabına həyata keçirilsin.~~
3. Yeni nırxların təsdiq edilməsi ilə əlaqədar olaraq, Azərbaycan Respublikası Nazirlər Kabinetinin «Azərbaycan Respublikasının meşələrində əsas meşə cinslərinin kötüstə buraxılış nırxları haqqında» qərarının əlavəsi həmin tarixdən öz qüvvəsini itirmiş hesab edilsin.

*Baş nazir* *S. HÜSEYNOV*

*Azərbaycan Respublikası*
*Nazirlər Kabinetinin*
*1994-cü il 24 avqust tarixli,*
*312 nömrəli qərarı ilə*
***təsdiq edilmişdir***

## Respublika meşələrində əsas meşə və kol cinslərinin kötükstə buraxılış nırxları

| Sıra №-si | Oduncağın cinsi | Meşə nırx dərəcələri | Daşınma məsafəsi | 1 sıx kbm üçün nırxlar, manat işlik oduncaq, (qabıqsız) | | | Odun qabıqla, manat |
|---|---|---|---|---|---|---|---|
| | | | | Iri | orta | xırda | |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
| 1. | Fıstıq | I | 0 — 10 | 41411 | 36009 | 27007 | 2590 |
| | | II | 10,0 — 25 | 29579 | 25721 | 19291 | 1850 |
| | | III | 25,1 — 10 | 17747 | 15433 | 11575 | 1110 |
| 2. | Şümşad, şabalıd, qoz, dəmir ağacı, saqqızağacı, çinar, azad ağacı, evkalipt, püstə | I | 0 — 10 | 165322 | 144038 | 108028 | 2590 |
| | | II | 10,1 — 25 | 118087 | 102884 | 77163 | 1850 |
| | | III | 25,1 — 40 | 70852 | 61730 | 46298 | 1110 |
| 3. | Qaracöhrə (tiss), ayı fındığı | I | 0 — 10 | 124232 | 108028 | 81021 | 2590 |
| | | II | 10,1 — 25 | 88737 | 77163 | 58872 | 1850 |
| | | III | 25,1 — 40 | 53242 | 46298 | 34723 | 1110 |
| 4. | Palıd, köyrüc, ağcaqayın, armud, dağdağan, sərv ağacı, tut ağacı, ardıc, qarağac, cökə | I | 0 — 10 | 53833 | 46812 | 35109 | 2590 |
| | | II | 10,1 — 25 | 38452 | 33437 | 25078 | 1850 |
| | | III | 25,1 — 40 | 23071 | 20062 | 15047 | 1110 |
| 5. | Ərik, heyva, alça, gilas, nar, gilənar, əncir, zoğal, dəfnə, şaftalı, əzgil | I | 0 — 10 | 70399 | 61216 | 45912 | 2590 |
| | | II | 10,1 — 25 | 50285 | 43726 | 32794 | 1850 |
| | | III | 25,1 — 40 | 30171 | 26236 | 19676 | 1110 |
| 6. | Ağ akasiya, şeytan ağacı, safora, güləbrişin, (ipək akasiyası) | I | 0 — 10 | 28988 | 25207 | 18906 | 2590 |
| | | II | 10,1 — 25 | 20706 | 18005 | 13504 | 1850 |
| | | III | 25,1 — 40 | 12424 | 10803 | 8102 | 1110 |
| 7. | Zirinc, sumax, gərməşov, sarağan, itburnu, yasəmən, yemşan, qaratikan, maklyura, gəndəlaş, cır (meşə), fındıq, murdarça, dəfnəgilas, meşə gilası, göyəm və digər kol cinsləri | I | 0 — 10 | 24847 | 21606 | 16205 | 1554 |
| | | II | 10,1 — 25 | 17748 | 15433 | 11575 | 1110 |
| | | III | 25,1 — 40 | 10649 | 9260 | 6945 | 666 |
| 8. | Bütün növ qovaqlar, qızılağac, yalanqoz | I | 0 — 10 | 20705 | 18004 | 13503 | 2331 |
| | | II | 10,1 — 25 | 14789 | 12860 | 9645 | 1665 |
| | | III | 25,1 — 40 | 8873 | 7716 | 5787 | 999 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 9. | Ailand, söyüd, iydə | I | 0 — 10 | 16563 | 14403 | 10802 | 2331 |
| | | II | 10,1 — 25 | 11831 | 10288 | 7716 | 1665 |
| | | III | 25,1 — 40 | 7099 | 6173 | 4630 | 999 |
| 10. | Eldar şamı və başqa şamlar | I | 0 — 10 | 37269 | 32409 | 24307 | 2331 |
| | | II | 10,1 — 25 | 26621 | 23149 | 17362 | 1665 |
| | | III | 25,1 — 40 | 15973 | 13889 | 10417 | 999 |
| 11. | Vələs | I | 0 — 10 | 33130 | 28808 | 21606 | 2590 |
| | | II | 10,1 — 25 | 23664 | 20577 | 15433 | 1850 |
| | | III | 25,1 — 40 | 14198 | 12346 | 9260 | 1110 |

~~**Qeyd.** Büdcə idarələrinə və təşkilatlarına oduncaq buraxılışı hazırki nırxlara görə 20 faiz, əhali üçün oduncaq buraxılışı isə əlavə olaraq 30 faiz güzəştlə hesablanır.~~

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin*
*«Meşə təsərrüfatına dəymiş ziyana*
*görə maddi məsuliyyətə cəlb*
*edilmə qaydaları haqqında» 1993-cü il 27 dekabr tarixli,*
*636 nömrəli qərarına dəyişiklik və*
*əlavələr edilməsi barədə*

## Qərar

Azərbaycan Respublikası Nazirlər Kabineti qərara alır:

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin **«Meşə təsərrüfatına dəymiş ziyana görə maddi məsuliyyətə cəlb edilmə qaydaları haqqında»** 1993-cü il 27 dekabr tarixli, 636 nömrəli qərarına aşağıdakı dəyişiklik və əlavələr edilsin:

   5-ci bəndin 1-ci abzasında «1–7» sözləri «1–8» sözləri ilə əvəz edilsin.
   5 nömrəli əlavəyə aşağıdakı qeyd əlavə edilsin:

**«Qeyd:** Meşələrdə bar gətirən meyvə ağaclarının məhsulunu qanuni əsas olmadan əldə edən şəxs, əsassız əldə etdiyi məhsulu geri qaytarmalıdır. Əsassız əldə edilmiş məhsulu eyni ilə qaytarmaq mümkün olmadıqda, dəymiş ziyanın məbləği hüquq pozuntusu baş vermiş tarixdə qüvvədə olan dövlət tərəfindən tənzimlənən qiymətlərlə, dövlət tərəfindən tənzimlənmədiyi hallarda isə sərbəst satış qiymətləri ilə hesablanır.».

7 nömrəli əlavədəki qeydin 1-ci bəndinə aşağıdakı 2-ci abzas əlavə edilsin:

«Külək, qar və başqa səbəblərdən sınmış və ya yerə yıxılmış ağac və kolların mənimsənilməsi və kökübstə olan quru ağac və kolların özbaşına qırılması hallarında bu əlavədə göstərilən nırx tətbiq edilmir, belə hallarda meşə təsərrüfatına dəyən ziyan isə kökübstə oduncaq buraxılışının mövcud nırxının birinci dərəcəsinin ikiqat miqdarında hesablanır»;
yeni 8 nömrəli əlavə əlavə edilsin.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1995-ci il
1 dekabr tarixli, 259 nömrəli qərarı ilə təsdiq edilmişdir

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il*
*27 dekabr tarixli, 636 nömrəli qərarına 8 nömrəli əlavə*

## Meşənin yandırılması, odla ehtiyatsız rəftar edilməsi, axar sular, kimyəvi maddələr, sənaye, kommunal-məişət və digər tullantılarla meşənin, tək-tək və qrup halında olan ağac və kolların zədələnməsi və ya məhv edilməsi, həmçinin quruyacaq və yaxud xəstələnəcək dərəcəyə gətirilməsi, habelə lazımi icazə alınmadan dövlət meşə fondu torpaqlarında tikinti işlərinin aparılması, ağac emalı və digər işlərin görülməsi nəticəsində vurulmuş ziyanın miqdarının hesablanması

## Qaydaları

1. Meşənin yandırılması, odla ehtiyatsız rəftar edilməsi, axar sular, kimyəvi maddələr, sənaye, kommunal-məişət və digər tullantılarla meşənin, tək-tək və qrup halında olan ağac və kolların zədələnməsi və ya məhv edilməsi, həmçinin quruyacaq və yaxud xəstələnəcək dərəcəyə gətirilməsi nəticəsində vurulmuş ziyanı meşə qanunvericiliyini pozanlar aşağıdakı dəyər miqdarında ödəyirlər:
   meşənin itirilmiş əmtəəlik dəyəri kötükdə oduncaq buraxılışının mövcud nırxının birinci dərəcəsi miqdarında;
   məhv olmuşları əvəz etmək üçün yeni meşə əkini və ya yeniyetmələri yetişdirmək üçün tələb olunan xərclər miqdarında;
   ərazinin təmizlənməsi işlərinə tələb olunan, həmçinin yanğının söndürülməsinə sərf olunmuş xərclər miqdarında;
   meşə qanunvericiliyinin pozulması nəticəsində baş verən yanğınların meşədə olan binaları, qurğuları və digər əmlakı məhv və yaxud xarab etməsinə görə alınacaq ziyan mülki qanunvericiliyin ümumi normalarında nəzərdə tutulmuş qaydada və miqdarda təyin edilib ödətdirilir.
2. Lazımi icazə alınmadan dövlət meşə fondu torpaqlarında tikinti işlərinin aparılması, ağac emalı və digər işlərin görülməsi nəticəsində vurulmuş ziyanı meşə qanunvericiliyini pozanlar ərazinin meşə təsərrüfatında istifadəsi üçün yararlı vəziyyətə salınması işlərinin dəyəri miqdarında ödəyirlər.

## Meşə fondu torpaqlarının icarəyə verilməsi qaydası haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Azərbaycan Respublikasının 1997-ci il 30 dekabr tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikası Meşə Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 30 mart tarixli 693 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Meşə fondu torpaqlarının icarəyə verilməsi Qaydası" təsdiq edilsin (əlavə olunur).
2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

*Azərbaycan Respublikasının Baş naziri* *A. RASİZADƏ*

Bakı şəhəri 17 oktyabr 1998-ci il
№ 214

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin*
*1998-ci il 17 oktyabr tarixli 214 nömrəli qərarı ilə*

*TƏSDİQ EDİLMİŞDİR*

## Meşə fondu torpaqlarının icarəyə verilməsi

## QAYDASI

1. Bu Qayda meşə fondu torpaqlarının meşə istifadəçilərinə fiziki və hüquqi şəxslərə (bundan sonra icarəçi adlandırılır) icarəyə verilməsini tənzimləyir.
2. Meşə fondu torpaqlarının icarəyə verilməsini aşkarlıq şəraitində, müvafiq ərazidə yaşayan əhalinin mənafeyini nəzərə almaqla Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi həyata keçirir.
3. Meşə bitkiləri ilə örtülü olmayan meşə və qeyri-meşə torpaqları meşələrin bərpası məqsədilə təyinatı üzrə icarəçiyə müqavilə əsasında bir ildən on ilədək verilə bilər.
4. Meşə fondu torpaqlarının icarəyə götürülməsi üçün icarəçi Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə ərizə ilə müraciət etməlidir.
   Ərizəyə baxılarkən imtiyazlı şəxslərə üstünlük verilir.
   Ərizədə icarəçinin soyadı, adı, atasının adı, ünvanı, meşə fondu torpaqlarının istənilən yeri göstərilir.
   Təqdim olunan ərizə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən xüsusi kitabda qeydə alınmaqla qəbul edilir, baxılır və imtina üçün əsas olmadıqda qeydə alındığı gündən başlayaraq bir ay müddətindən gec olmamaqla icarəçi ilə icarə müqaviləsi bağlanılır.
   İcarə müqaviləsi üç nüsxədən ibarət tərtib olunur, onun iki nüsxəsi müvafiq olaraq Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyində və aidiyyəti yerli meşə təsərrüfatı orqanında saxlanılır, üçüncü nüsxəsi isə icarəçiyə verilir.
   Müqavilə əsasında torpaq üzərində icarə hüququ qanunvericiliklə müəyyən edilmiş qaydada daşınmaz əmlakın dövlət reyestrində dövlət qeydiyyatına alınır.
   Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ərizəyə baxarkən məsələyə dair yerli meşə təsərrüfatı orqanlarının rəyini və şərtlərini əsas tutmalıdır.
   İcarə müqaviləsi bağlanılmadığı halda icarəçiyə onun səbəbləri göstərilməklə rəsmi izahat verilir.
5. İcarə müqaviləsində aşağıdakılar göstərilir:
   icarəyə verilən sahənin sərhədləri (yerləşdiyi yer, meşəçilik, kvartal, bölmə);
   işin həcmi (ölçüləri);
   icarənin müddəti;
   icarəyə verilən sahənin miqdarı (hektarla);
   icarə haqqının miqdarı və onun ödənmə qaydası;
   icarəyə verilən sahənin mühafizəsi, qorunması, bərpası sahəsində tərəflərin öhdəlikləri və buna görə məsuliyyət;
   Azərbaycan Respublikasının meşə qanunvericiliyi və tərəflərin razılığı ilə nəzərdə tutulmuş başqa şərtlər.
6. Meşə fondu torpaqlarının icarə müqaviləsi əsasında əldə edilmiş meşə sərvətləri (məhsul) icarəçinin mülkiyyətidir.
7. İcarəçi olan fiziki şəxs vəfat etdikdə ona məxsus icarə hüququ mövcud qanunvericilikdə müəyyən edilmiş qaydada başqa şəxslərə keçə bilər.

İcarəçi olan hüquqi şəxs yenidən təşkil edildikdə ona məxsus icarə müqaviləsi mövcud qanunvericilikdə müəyyən olunmuş qaydada yeni yaranan hüquqi şəxsə keçir.

Meşə fondu torpaqlarından icarə hüququnun başqasına keçməsi Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən icarə müqaviləsinə dəyişikliklər etmək yolu ilə rəsmiləşdirilir.

8. Meşə fondu torpaqlarının subicarəyə verilməsi qadağandır.
9. Meşə fondu torpaqlarından icarə hüququ Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin qərarı ilə aşağıdakı hallarda məhdudlaşdırıla və ya dayandırıla bilər:

   icarəçi tərəfindən Azərbaycan Respublikası meşə qanunvericiliyinin tələbləri pozulduqda;

   icarəçi tərəfindən icarə müqaviləsinin şərtləri pozulduqda;

   meşə fondu torpaqlarının səmərəli istifadəsini, mühafizəsini, qorunmasını və bərpasını, ölkənin müdafiəsini və dövlətin təhlükəsizliyini təmin etmək, əhalinin sağlamlığını, ətraf mühiti, tarixi-mədəni və təbii irsi, fiziki şəxslərin hüquqlarını və qanuni mənafelərini qorumaq zəruriliyi yarandığı hallarda.

   Meşə fondu torpaqlarından icarə hüququnun məhdudlaşdırılmasına və ya dayandırılmasına səbəb olan şərait və şərtlər aradan qaldırıldıqda bu hüquq tam həcmdə bərpa olunur.

   İcarəçi onun meşə fondu torpaqlarından icarə hüququnun məhdudlaşdırılması və ya dayandırılması barədə qərarla razılaşmadıqda müəyyən olunmuş qaydada məhkəməyə şikayət edə bilər.
10. İcarəçi rəsmi ərizə əsasında meşə fondu torpaqlarından icarə hüququndan imtina etdikdə, icarə müqaviləsinin müddəti başa çatdıqda, fəaliyyəti dayandıqda, Azərbaycan Respublikasının Meşə Məcəlləsində və digər qanunvericilik aktlarında nəzərdə tutulmuş hallarda və qaydada onun meşə fondu torpaqlarından icarə hüququna Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən xitam verilir.
11. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi meşə fondu torpaqlarından icarə hüququna yalnız aşağıdakı hallarda məcburi xitam verə bilər:

   icarəçi tərəfindən Azərbaycan Respublikasının meşə qanunvericiliyi pozulduqda;

   fövqəladə vəziyyət törədən qəza, təbii fəlakət və bu kimi başqa hadisələr baş verdikdə;

   icarəçi tərəfindən meşə fondu torpaqlarının icarə haqqının müəyyən olunmuş müddətdə ödənilmədikdə;

   icarəçi tərəfindən icarə müqaviləsində nəzərdə tutulmuş şərtlər pozulduqda;

   icarəçi tərəfindən yanğın təhlükəsizliyi qaydalarına əməl edilmədikdə;

   (Çıxarılıb)

   Meşə fondu torpaqlarından icarə hüququna xitam verilməsi barədə icarəçiyə rəsmi xəbər verilir.
12. İcarə müqaviləsinin formasını Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi hazırlayır və təsdiq edir.
13. Bu Qayda ilə nəzərdə tutulmamış hallarda meşə fondu torpaqlarının icarəyə verilməsinə dair mülki və torpaq qanunvericiliklərinin normaları tətbiq edilir.

**Meşə fondu sahələrindən elmi-tədqiqat, mədəni-sağlamlaşdırma, turizm və idman məqsədləri, ovçuluq təsərrüfatının ehtiyacları üçün istifadə qaydaları haqqında**

**AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI**

"Azərbaycan Respublikasının 1997-ci il 30 dekabr tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikası Meşə Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 30 mart tarixli 693 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. Meşə fondu sahələrindən elmi-tədqiqat, mədəni-sağlamlaşdırma, turizm və idman məqsədləri, ovçuluq təsərrüfatının ehtiyacları üçün istifadə qaydaları təsdiq edilsin (əlavə olunur).
2. "Dövlət meşə fondunun ərazisində turizm düşərgələrinin və istirahət bazalarının yerləşdirilməsinə icazələrin verilməsi qaydası barədə" Azərbaycan SSR Nazirlər Sovetinin 1985-ci il 7 may tarixli 151 nömrəli qərarı öz qüvvəsini itirmiş hesab edilsin.
3. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

*Azərbaycan Respublikasının Baş naziri* *A. RASİZADƏ*

Bakı şəhəri, 30 oktyabr 1998-ci il
№ 219

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin*
*1998-ci il 30 oktyabr tarixli 219 nömrəli qərarı ilə*

*TƏSDİQ EDİLMİŞDİR*

## Meşə fondu sahələrindən elmi-tədqiqat, mədəni-sağlamlaşdırma, turizm və idman məqsədləri, ovçuluq təsərrüfatının ehtiyacları üçün istifadə

## QAYDALARI

1. Bu Qaydalar meşə fondu sahələrindən elmi-tədqiqat, mədəni-sağlamlaşdırma, turizm və idman məqsədləri, ovçuluq təsərrüfatının ehtiyacları üçün istifadəni tənzimləyir.
2. Mülkiyyət və təşkilati hüquqi formasından asılı olmayaraq hüquqi və fiziki şəxslər (bundan sonra meşə istifadəçisi adlandırılır) meşə fondu sahələrindən Azərbaycan Respublikası Meşə Məcəlləsinə uyğun elmi-tədqiqat, mədəni-sağlamlaşdırma, turizm və idman məqsədləri, ovçuluq təsərrüfatının ehtiyacları üçün istifadə edilməsi haqqında Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə ərizə ilə müraciət etməlidirlər.
   Təqdim olunmuş ərizə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən xüsusi kitabda qeydə alınmaqla qəbul edilir, baxılır və imtina üçün əsas olmadıqda qeydə alındığı gündən başlayaraq bir ay müddətindən gec olmamaqla meşə istifadəçisi ilə müqavilə bağlanılır.
   Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ərizəyə baxarkən məsələyə dair yerli meşə təsərrüfatı orqanlarının rəyini və şərtlərini əsas tutmalıdır.
   Müqavilə bağlanılmadığı halda meşə istifadəçisinə onun səbəbləri göstərilməklə rəsmi izahat verilir.
   Ovçuluq təsərrüfatlarının aparılması məqsədilə meşə fondu sahələrinin ov yerləri azı 10 il müddətində hüquqi və fiziki şəxslərin istifadəsinə verilə bilər.
3. Müqavilə, kütləvi meşə servitutu istisna olmaqla, meşə fondundan istifadənin növü, yeri, miqdarı, vaxtı, şərtləri və qiyməti göstərilməklə meşə istifadəçisinə əsaslı tikinti aparılmadan meşə fondu müvafiq sahələrindən müvəqqəti istifadə hüququ verir.
4. Meşə fondu sahələrindən elmi-tədqiqat, mədəni-sağlamlaşdırma, turizm və idman məqsədləri, ovçuluq təsərrüfatının ehtiyacları üçün istifadə zamanı meşə istifadəçisi aşağıdakılara əməl etməyə borcludur:
   meşə fondu sahələrindən mövcud qanunvericiliyə uyğun istifadə etmək;
   müqavilənin şərtlərinə əməl etmək, meşə fondundan istifadə üçün haqları vaxtında ödəmək;
   istifadə olunan sahənin və onun ətrafının zibillənməsinə yol verməmək, digər sanitariya qaydalarına əməl etmək;
   sahəyə mal-qaranın buraxılmasına yol verməmək;
   istifadə olunan sahəyə bitişik meşənin qanunsuz qırılmasına yol verməmək;
   istifadəyə verilmiş meşə fondu sahələrindən meşə yanğını təhlükəsizliyi qaydalarına riayət etmək və ərizədə yanğın baş verdikdə onun söndürülməsini təmin etmək;
   meşə təsərrüfatına vurulmuş zərər və itkini müəyyən qaydada bərpa etmək və ya dəymiş ziyanı ödəmək.
5. Meşə fondu sahələrindən elmi-tədqiqat, mədəni-sağlamlaşdırma, turizm və idman

məqsədləri, ovçuluq təsərrüfatının ehtiyacları üçün istifadə hüquqi Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin qərarı ilə aşağıdakı hallarda məhdudlaşdırıla və ya dayandırıla bilər:

meşə fondu sahələrindən istifadə zamanı Azərbaycan Respublikasının meşə qanunvericiliyinə əməl edilmədikdə;

müqavilənin şərtləri pozulduqda;

meşə fondu sahələrinin səmərəli istifadəsini, mühafizəsini, qorunmasını və bərpasını, ölkənin müdafiəsini və dövlətin təhlükəsizliyini təmin etmək, əhalinin sağlamlığını, ətraf mühiti, tarixi-mədəni və təbii irsi, fiziki şəxslərin hüquqlarını və qanuni mənafelərini qorumaq zəruriliyi yarandığı hallarda.

Meşə fondu sahələrindən istifadə hüququnun məhdudlaşdırılmasına və dayandırılmasına səbəb olan şərait və şərtlər aradan qaldırıldıqda bu hüquq Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən tam həcmdə bərpa olunur.

Meşə istifadəçisi onun meşə fondu sahəsindən istifadə hüququnun məhdudlaşdırılması və ya dayandırılması barədə qərarla razılaşmadıqda məhkəməyə şikayət edə bilər.

6. Meşə istifadəçisi rəsmi ərizə əsasında meşə fondu sahələrindən istifadə hüququndan imtina etdikdə, müqavilənin müddəti başa çatdıqda, fəaliyyəti dayandıqda, Azərbaycan Respublikasının Meşə Məcəlləsində və digər qanunvericilik aktlarında nəzərdə tutulmuş hallarda onun meşə fondu sahələrindən istifadə hüququna Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən xitam verilir.

7. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi meşə fondu sahələrindən istifadə hüququna yalnız aşağıdakı hallarda məcburi xitam verə bilər:

   meşə istifadəçisi tərəfindən Azərbaycan Respublikasının meşə qanunvericiliyi pozulduqda;

   fövqəladə vəziyyət törədən qəza, təbii fəlakət və bu kimi başqa hadisələr baş verdikdə;

   meşə istifadəçisi tərəfindən meşə fondu sahələrinin istifadə haqqının müəyyən olunmuş müddətdə ödənilmədikdə;

   meşə istifadəçisi tərəfindən müqavilədə nəzərdə tutulmuş şərtlər pozulduqda;

   meşə istifadəçisi tərəfindən yanğın təhlükəsizliyi qaydalarına əməl edilmədikdə;

   (Çıxarılıb)

   Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi meşə fondu sahələrindən istifadə hüququna xitam verilməsi barədə meşə istifadəçisinə rəsmi xəbər verməlidir.

8. Meşə istifadəçisi Azərbaycan Respublikası qanunvericiliyi ilə müəyyən edilmiş hallarda və şərtlərlə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin razılığı ilə meşə fondu sahəsindən istifadə hüququnu özünün hüquqi varisi olmayan şəxsə müqavilə əsasında verə bilər.

9. Meşə istifadəçisi olan şəxs vəfat etdikdə ona məxsus istifadə hüququ qanunvericilikdə müəyyən olunmuş qaydada başqa şəxslərə keçə bilər.

   Meşə istifadəçisi hüquqi şəxs kimi yenidən təşkil edildikdə ona məxsus istifadə hüququ Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş qaydada yeni yaranan hüquqi şəxsə keçir.

   Meşə fondu sahələrindən istifadə hüququnun başqasına keçməsi müqavilədə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən dəyişikliklər etmək yolu ilə rəsmiləşdirilir.

10. Meşə fondu sahələrindən elmi tədqiqat, mədəni-sağlamlaşdırma, turizm və idman məqsədləri, ovçuluq təsərrüfatının ehtiyacları üçün istifadə müqaviləsinin forması Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən hazırlanır və təsdiq edilir.

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Azərbaycan Respublikasının 1997-ci il 30 dekabr tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikası Meşə Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 30 mart tarixli 693 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. "Meşə fondu sahələrinin bir ilə qədər qısamüddətli istifadəyə verilməsi qaydası", "Meşələrin monitorinqinin həyata keçirilməsi qaydası", "Meşə quruluşu işlərinin aparılması qaydası" və "Meşə fondu haqqında məlumatın fiziki və hüquqi şəxslərə verilməsi qaydası" təsdiq edilsin (əlavə olunur).
2. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

*Azərbaycan Respublikasının Baş naziri* *A. RASİZADƏ*

Bakı şəhəri, 7 dekabr 1998-ci il
№ 230

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin*
*1998-ci il 7 dekabr tarixli 230 nömrəli qərarı ilə*

*TƏSDİQ EDİLMİŞDİR*

**Meşə fondu sahələrinin bir ilə qədər qısamüddətli istifadəyə verilməsi**

## QAYDASI

1. Mülkiyyət və təşkilatı hüquqi formasından asılı olmayaraq hüquqi və fiziki şəxslər (bundan sonra istifadəçi adlandırılır) bu Qayda əsasında meşə fondu sahələrini bir ilə qədər qısamüddətli istifadə edə bilərlər.
2. Meşə fondu sahələrinin bir ilə qədər qısamüddətli istifadəyə götürülməsi üçün istifadəçi Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə ərizə ilə müraciət etməlidir.
   Ərizədə istifadəçinin soyadı, adı, atasının adı (hüquqi şəxslərin hüquqi adı), ünvanı, meşə fondu sahələrinin istənilən yeri və istifadə növləri göstərilir.
   Təqdim olunan ərizə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən müvafiq qaydada qeydə alınır və imtina üçün əsas olmadıqda bir ay müddətində meşə istifadəçisi ilə meşə fondu sahələrinin qısamüddətli istifadəyə verilməsinə dair müqavilə bağlanılır.
   Müqavilə bağlanılmadığı halda istifadəçiyə onun səbəbləri göstərilməklə rəsmi izahat verilir.
3. Meşə fondu sahələrindən istifadə hüququ meşə fondu sahələrinin bu məqsəd üçün müqavilə bağlanıldığı vaxtdan və orada göstərilən müddətə qədər əldə edilir.
4. Meşə fondu sahələrindən istifadə zamanı istifadəçinin hüquqları Azərbaycan Respublikasının Meşə Məcəlləsi ilə tənzimlənir.
5. Meşələrin, habelə meşə ilə örtülü olmayan meşə fondu torpaqlarının səmərəli istifadəsini, mühafizəsini, qorunmasını və bərpasını, ölkənin müdafiəsini və dövlətin təhlükəsizliyini təmin etmək, əhalinin sağlamlığını, ətraf mühiti, tarixi-mədəni və təbii irsi, fiziki şəxslərin hüquqları və qanuni mənafelərini qorumaq zəruriliyi yarandığı hallarda meşə fondu sahələrindən istifadə hüququ qanunvericilikdə müəyyən olunmuş qaydada məhdudlaşdırıla və ya dayandırıla bilər.
6. Meşə fondu sahələrinin bir ilə qədər qısamüddətli istifadəyə verilməsinə dair müqavilə forması Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən hazırlanır və təsdiq edilir.

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin*
*1998-ci il 7 dekabr tarixli 230 nömrəli qərarı ilə*

*TƏSDİQ EDİLMİŞDİR*

**Meşələrin monitorinqinin həyata keçirilməsi**

## QAYDASI

1. Meşələrin monitorinqi meşə fondundan istifadənin, onun mühafizəsinin, qorunmasının və meşələrin bərpasının, ekoloji və ehtiyat funksiyalarının artırılması məqsədilə aparılır.
2. Meşələrin monitorinqi meşə fondunun vəziyyətinin və dinamikasının qiymətləndirilməsi və proqnozlaşdırılması sistemindən ibarətdir.
3. Meşələrin monitorinqi Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən həyata keçirilir.
4. Meşə monitorinqi aşağıdakı prinsiplər əsasında aparılır:
   meşələrin ekoloji funksiyalarını tam öyrənmək məqsədilə müşahidə yerlərinin, təbiət və təbii amillər nəticəsində geosistemdə gedən dəyişikliklərin istiqamətinin və dinamikasının müəyyənləşdirilməsi;
   meşələrin əhəmiyyətini, bioloji xüsusiyyətlərini, təbii və iqtisadi şəraitini nəzərə almaqla səmərəli istifadəsi meşə təsərrüfatının effektli aparılması;
   müşahidələrin aparılmasında, məlumatların toplanmasında təhlilində, ümumiləşdirilməsində yeni texnologiyalardan, yerli və aerokosmik üsullardan, müxtəlif xəritə materiallarından istifadə edilməsi.
5. 5. Monitorinq müşahidələrin nəticələri təhlil olunaraq meşələrin vəziyyəti, bitki örtüyünün deqradasiyasına səbəb olan əsas amillər öyrənilir, meşə fondunun kəmiyyət və keyfiyyət dəyişmələri qiymətləndirilir, proqnozlaşdırılır və məhsuldarlığının yüksəldilməsinə düzgün istiqamət veriləcək xəritə, sxemlər, texnologiya və tövsiyələr hazırlanır.

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin*
*1998-ci il 7 dekabr tarixli 230 nömrəli qərarı ilə*

*TƏSDİQ EDİLMİŞDİR*

## Meşə quruluşu işlərinin aparılması

## QAYDASI

1. Meşə fondu ərazisində meşə quruluşu işləri bu Qayda əsasında vahid sistem üzrə aparılır.
2. Meşə quruluşu işləri meşə fondundan səmərəli istifadəsini, meşə təsərrüfatının effektli aparılmasını, bu sahədə vahid elmi-texniki siyasətin həyata keçirilməsini təmin etməyə yönəldilmiş tədbirlərdən ibarətdir.
3. Meşə quruluşu işləri meşə fondu ərazisində perspektiv dövr üçün meşə təsərrüfatının aparılmasının təşkili və onun inkişafı üçün tədbirlərin hazırlanması yollarını göstərmək, meşələrin bərpasını, qorunmasını, səmərəli istifadəsini təmin etmək və onların məhsuldarlığını və mühitqoruyucu rolunu artırmaq məqsədilə aparılır.
4. Meşə quruluşu işlərinin aparılması Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən aşağıdakı əsas tələblərə riayət etməklə həyata keçirilir:
   ötən dövrün meşə quruluşu materiallarının, meşələrin inventarlaşdırma sənədlərinin, meşə təsərrüfatı üzrə elm və istehsalat nailiyyətlərinin istifadə edilməsi;
   meşə təsərrüfatının təşkili və inkişafı üzrə layihələrin hazırlanması;
   meşə təsərrüfatının sərhədlərinin təyin olunması, ərazinin təsərrüfatdaxili təşkili, meşə ilə örtülü sahələrin araşdırılması;
   meşəbərpa qırıntısını və meşədən istifadənin digər növlərini, qırma qaydalarını və qırıntının həcmini təyin etmək üçün meşə sərvətlərinin cins, yaş tərkibinin, vəziyyətinin habelə meşə ehtiyatlarının keyfiyyət və kəmiyyət göstəricilərinin təhlili;
   relikt (qədim dövrdən dəyişməmiş) meşə bitkilərinin, xüsusi qoruyucu və xüsusi qorunan meşə sahələrinin aşkara çıxarılması;
   meşələrin aralıq istifadə üçün qorunmasını, meşəsalma, meliorasiya, meşələrin mühafizəsi, qorunması, digər meşə təsərrüfatı tədbirlərinin görülməsini tələb edən meşə fondu sahələrinin aşkara çıxarılması və bu tədbirlərin aparılması üsullarının müəyyən edilməsi;
   meşəbərpa, meşəsalma, meşələrin mühafizəsi və qorunması tədbirlərinin, həmçinin digər meşə təsərrüfatı işlərinin həcminin və bu tədbirlərin aparılması üçün müvafiq sahələrin müəyyənləşdirilməsi;
   meşələrin bərpası və onların yetişdirilməsi məqsədilə meşə-bioloji və digər xüsusi müayinələrin aparılması və meşəbərpa yollarının təyin edilməsi;
   meşələrin qoruyucu kateqoriyalara aid edilməsinin və bir qoruyucu kateqoriyadan digərinə keçirilməsinin əsaslandırılması;
   topoqrafik-geodeziya işlərinin görülməsi, meşələrin xüsusi xəritələrinin hazırlanması, meşə xəstəliklərinin və ziyanvericilərinin öyrənilməsi;
   qanunvericilikdə nəzərdə tutulmuş digər meşəquruluşu işlərinin həyata keçirilməsi.
5. Meşə quruluşu zamanı meşə fondunun meşə quruluşu layihələri tərtib edilir. Layihələrdə ötən dövr ərzində meşə təsərrüfatının aparılmasına və meşə fondunun istifadəsinə qiymət verilir, onun gələcək dövrdə təşkilinin və aparılmasının əsas müddəaları göstərilir.
   Meşəquruluşu layihələri və ona əlavə edilən sənədlər Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən təsdiq edilir və meşə təsərrüfatının aparılması, onun cari və perspektiv proqnozlaşdırılması üçün məcburi normativ texniki sənəd sayılır.
6. Meşə quruluşu işləri aparılmadan meşə təsərrüfatı və meşədən istifadə işlərinin həyata keçirilməsi qadağandır.

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin*
*1998-ci il 7 dekabr tarixli 230 nömrəli qərarı ilə*

*TƏSDİQ EDİLMİŞDİR*

## Meşə fondu haqqında məlumatın fiziki və hüquqi şəxslərə verilməsi

## QAYDASI

1. Bu Qayda "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanununa və digər hüquqi normativ aktlara əsasən, informasiya məhdudlaşdırılmış məlumatlar istisna olmaqla, meşə fondu barədə bütün növ məlumatlara şamil edilir.
2. Meşə fondu haqqında məlumata meşələrin dövlət uçotu, dövlət meşə kadastrı, meşələrin monitorinqi, meşə quruluşu işlərinin göstəriciləri, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və onun tabeçiliyində olan təsərrüfatlar tərəfindən öz funksiyalarını yerinə yetirdikləri zaman əldə olunan sair məlumatlar daxildir.
3. Meşə fondu haqqında məlumat Azərbaycan Respublikası Nazirlər Kabinetinin xüsusi sərəncamında olmaqla, bu Qaydaya uyğun olaraq Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən fiziki və hüquqi şəxslərə verilir.
4. Meşə fondu haqqında məlumat fiziki və hüquqi şəxslərə arayış, hesabat, cədvəl və sair materiallar şəklində təqdim oluna bilər. Tərkibindən, mahiyyətindən, təhlil dərəcəsindən, istifadəçilərin kateqoriyasından və sair amillərdən asılı olaraq, əvvəlcədən tirajını təyin etmə və başqa şəxslərə verilməmək şərti ilə, meşə fondu barədə məlumat ödənişsiz və ya ödənişli verilir.
5. Meşə fondu haqqında məlumat Azərbaycan Respublikasının dövlət idarəetmə orqanlarına ödənişsiz verilir.
   Bu məlumat elmi-tədqiqat, tədris və qeyri-kommersiya məqsədləri üçün də ödənişsiz verilə bilər.
   Digər hallarda meşə fondu haqqında məlumat fiziki və hüquqi şəxslərə ödənişli verilir.
6. Meşə fondu haqqında məlumatın ödəmə dərəcələri Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və İqtisadiyyat Nazirliyi ilə razılaşdırılaraq Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən təsdiq edilir. Ödənişli məlumatdan əldə olunan vəsait meşələrin qorunub saxlanması və təkrar istehsalı fonduna daxil edilir.
7. Fiziki və hüquqi şəxslər meşə fondu haqqında məlumatı almaq məqsədilə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə rəsmi müraciət etməlidirlər və bu məlumatı tərəflər arasında bağlanmış müqavilələr əsasında (istifadə şərtləri göstərilməklə) istifadə edirlər.

**Meşə fondunun zərərvericilərdən və xəstəliklərdən mühafizəsi üzrə fitosanitar Qaydalarının təsdiq edilməsi haqqında**

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

«Azərbaycan Respublikasının 1997-ci il 30 dekabr tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikası Meşə Məcəlləsinin tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 30 mart tarixli 693 nömrəli Fərmanının icrası ilə əlaqədar Nazirlər Kabineti **qərara alır:**

1. 1. «Meşə fondunun zərərvericilərdən və xəstəliklərdən mühafizəsi üzrə fitosanitar Qaydaları» təsdiq edilsin (əlavə olunur).
2. 2. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

*Azərbaycan Respublikasının Baş naziri* *A. RASİZADƏ*

Bakı şəhəri, 9 fevral 1999-cu il
№ 16

*Azərbaycan Respublikasının Nazirlər Kabinetinin*
*1999-cu il 9 fevral tarixli 16 nömrəli qərarı ilə*

*TƏSDİQ EDİLMİŞDİR*

**Meşə fondunun zərərvericilərdən və xəstəliklərdən mühafizəsi üzrə fitosanitar**

## QAYDALARI

1. Bu Qaydalar meşə fondunun zərərvericilərdən və xəstəliklərdən mühafizəsini tənzimləyir.
2. Meşə fondunun zərərvericilərdən və xəstəliklərdən mühafizəsi meşə fondunun vəziyyəti üzərində müntəzəm müşahidə aparmaq, zərərvericilərin və xəstəliklərin mənbələrini aşkara çıxarmaq, həmin yerlərdə profilaktik və fitosanitar tədbirləri aparmaq, bu halların yayılmasının qarşısını almaq və onları aradan qaldırmaq yolu ilə təmin edilir.
3. Meşə fondunun zərərvericilərdən və xəstəliklərdən mühafizəsi üzrə profilaktik və fitosanitar tədbirləri Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və öz səlahiyyətləri daxilində Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti həyata keçirirlər.
4. Meşə fondunun zərərvericilərdən və xəstəliklərdən mühafizəsi aşağıdakı tədbirlərdən ibarətdir:
   cari, ekspedisiya, aviavizual və sair meşəpatologiya müşahidələri;
   zərərvericilərin və xəstəliklərin əmələ gəlməsinin ümumi, ilkin yoxlanışı və onun dəqiq müşahidəsinin aparılması;
   zərərvericilər və xəstəliklər ilə aviasiya və yerüstü vasitələrlə mübarizə tədbirlərinin hazırlanması;
   meşə xəstəliklərinə qarşı profilaktik tədbirlərin, zərərvericilərin və xəstəliklərin mənbələrinin ləğv edilməsi işlərinin təşkili;
   bu tədbirlərin yerinə yetirilməsi üzərində nəzarət.
5. Meşə fondunun zərərvericilərdən və xəstəliklərdən mühafizəsini təşkil etmək məqsədilə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin yerli nümayəndələrinin vəzifələri:
   meşələrdə, meşə əkinlərində və tingliklərdə zərərverici həşəratların və xəstəliklərin kütləvi baş verməsinin və yayılmasının qarşısının alınması məqsədilə meşə təsərrüfatı, sanitar-sağlamlıq və digər tədbirləri həyata keçirmək;
   meşə zərərvericilərinin və xəstəliklərinin yayılmasının vaxtında aşkar olunması üçün meşəpatologiya yoxlamalar aparmaq;
   meşəpatologiya müşahidələrin və meşəquruluşu işləri nəticəsində aşkar olunmuş meşə zərərvericilərinin mənbələrinin ləğv edilməsini və ya məhdudlaşdırılmasını vaxtında təmin edən mübarizə tədbirlərini aparmaq, müvafiq tövsiyyələr hazırlamaq;
   meşə zərərvericilərinə və xəstəliklərinə meşəpatoloji nəzarəti təşkil etmək və bilavasitə həyata keçirmək, zəruri hallarda zərərverici həşəratların müxtəlif mərhələlərdə həyat qabiliyyətini və xəstəlik mənbələrini müəyyən etmək üçün laboratoriya analizləri aparmaq;
   meşə fondunun fitosanitar vəziyyəti barədə qısa məlumat tərtib etmək, həmçinin

zərərverici həşəratların və xəstəliklərin yayılmasını proqnozlaşdırmaq;
meşə fondunda zərərvericilərin və xəstəliklərin qabağını almaq və geniş yayılmasına yol verməmək məqsədilə meşə əkinlərinin davamlığının artırılmasına yönəldilən fitosanitar, meşə təsərrüfatı və aqrotexniki tələblərin yerinə yetirilməsinə nəzarət etmək;
xidmət etdikləri ərazidə meşə zərərvericilərinə qarşı mübarizə tədbirlərində aviasiya və yerüstü vasitələrdən istifadə etmək məqsədilə iş planı hazırlamaq, bu işə texniki rəhbərlik etmək, həmçinin zəhərli kimyəvi maddələrin daşınmasında və zərərvericilərə, xəstəliklərə qarşı tətbiq edilməsində müvafiq qaydalara riayət etmək.

6. Meşə fondunun zərərvericilərdən və xəstəliklərdən mühafizəsi üzrə fitosanitar nəzarəti, onun aparılmasının məqsəd və üsulundan asılı olaraq, kəşfiyyat yolu ilə həyata keçirilən və hərtərəfli nəzarətə bölünür.
Kəşfiyyat yolu ilə həyata keçirilən nəzarət zamanı məlum ərazinin şəraiti üçün təhlükəli olan meşə zərərverici həşərat və xəstəlik mənbələri aşkar edilir, meşələr üçün yaranmış təhlükə gözəyarı qiymətləndirilir və bu mənbələrin vəziyyətinə nəzarət edilir.
Nəzarətdə olan sahə (dolayının və kvartalın nömrələri), zərərvericilərin və xəstəliklərin adları, təyin olunan nəzarətin üsulu və müddəti göstərilir, həmçinin nəzarət üçün ayrılmış meşənin təsviri verilir.
Kəşfiyyat yolu ilə nəzarət meşə zərərverici həşəratlarının mənbələrini aşkar etmək məqsədilə, xüsusi seçilmiş meşə sahələrində və ya belə meşə sahələrində xüsusi marşrut yollarının kəsişməsində müayinə etmək yolu ilə həyata keçirilir.
Hərtərəfli nəzarətdə meşə zərərverici həşəratların miqdarının dəyişməsi, bu dəyişmənin səbəbi müəyyən edilir, aydınlaşdırılır və alınan dəlillərə əsasən, onların kütləvi yayılma partlayışlarının, inkişafının qısa və uzun müddətli proqnozu işlənilir.
Hərtərəfli nəzarət zamanı meşə təsərrüfatı müəssisələri hər növ ziyanverici üçün bir neçə sahə seçir və ildə iki dəfə zərərvericilərin biologiyasına müvafiq yoxlama keçirirlər.
Verilən proqnoza görə bu və ya digər növ zərərvericinin kütləvi artması gözlənilərsə, hərtərəfli nəzarət üçün ayrılmış sahələrə, zərərvericinin artması ehtimal edilən meşə massivləri də daxil edilir və orada mükəmməl müayinələr keçirilir.

7. Meşə fondunun zərərvericilərdən və xəstəliklərdən aviasiya və yerüstü vasitələrlə kimyəvi və bioloji mühafizə tədbirləri mövcud qanunvericiliyə uyğun və Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə razılaşdırılmaqla həyata keçirilir.

8. Fəaliyyətdə olan təhlükəli meşə zərərverici və xəstəlik mənbələrinin uçotunun aparılmasını, həmçinin görülən tədbirlərin və təbii amillərin təsiri nəticəsində ləğv edilmiş mənbələrin vaxtında uçotdan çıxarılması məqsədilə hər il payızda mənbələrin inventarlaşması aparılır.
İnventarlaşmanın aparılma qaydasını Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi müəyyən edir.

9. İnventarlaşmanın aparılmasında, keçən illərdə aşkar olunan meşə zərərverici və xəstəlik mənbələrinin miqdarı haqqında məlumatlardan, nəzarətin və meşəpatologiya müşahidələrinin nəticələrindən istifadə edilir.

10. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi:
meşə fondunda zərərvericilərin və xəstəliklərin çoxalması və yayılması icmalına və proqnozuna dair məlumatlara əsasən meşə zərərverici həşəratlara və xəstəliklərə qarşı profilaktik və fitosanitar tədbirlərin perspektiv planını, həmçinin meşələrin fitosanitar vəziyyəti barədə yekun materialını hazırlayır;
bu Qaydalardan irəli gələn fitosanitar tədbirləri həyata keçirmək məqsədilə müvafiq hesabat sənədləri tərtib edir, onların istifadəsi üzrə təlimatlar hazırlayır və təsdiq edir.

**Azərbaycan Respublikası meşələrində kötüküstü oduncaq buraxılışı Qaydalarının təsdiq edilməsi haqqında**

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

«Azərbaycan Respublikasının 1997-ci il 30 dekabr tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikası Meşə Məcəlləsinin tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 30 mart tarixli 639 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası meşələrində kötüküstü oduncaq buraxılışı Qaydaları təsdiq edilsin (əlavə olunur).
2. «SSRİ meşələrində kötüküstü oduncaq buraxılışı Qaydalarının təsdiq edilməsi barədə» SSRİ Nazirlər Sovetinin 1981-ci il 30 oktyabr tarixli 1045 nömrəli qərarı haqqında» Azərbaycan SSR Nazirlər Sovetinin 1981-ci il 25 noyabr tarixli 510 nömrəli qərarının 1-ci bəndi qüvvədən düşmüş hesab edilsin.
3. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

*Azərbaycan Respublikasının Baş naziri* *A. RASİZADƏ*

Bakı şəhəri, 15 mart 1999-cu il
№ 38

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin*
*1999-cu il 15 mart tarixli 38 nömrəli qərarı ilə*

*TƏSDİQ EDİLMİŞDİR*

# AZƏRBAYCAN RESPUBLİKASI MEŞƏLƏRİNDƏ KÖKÜSTÜ ODUNCAQ BURAXILIŞI QAYDALARI

## 1. ÜMUMİ MÜDDƏALAR

1.1. Bu Qaydalar Azərbaycan Respublikası meşələrində kököstü oduncaq buraxılışını tənzimləyir və meşədə oduncaq tədarükü və daşınması zamanı tətbiq olunur.

1.2. Kököstü oduncaq buraxılışı meşədən istifadə rejiminə uyğun olaraq aşağıdakı kimi aparılır:

meşəbərpa qırması bərpası ilə - kurort meşələri, xüsusi qiymətli meşə massivləri, şəhərlərin və digər yaşayış məntəqələri ətrafındakı yaşıllıq zonalarının meşələri və dövlət meşə zolaqları istisna olmaqla, digər meşələrdə bərpa məqsədi lə aparılan qırmalar;

aralıq istifadə qırması ilə - meşələrdə qulluq, sanitariya və az qiymətli meşəliklərin rekonstruksiyası (yenidən əkmə qırmaları) ilə əlaqədar aparılan qırmalar;

başqa qırmaları ilə - başdan-başa sanitariya qırmaları (su qovşaqlarının, boru kəmərlərinin, yolların, rabitə və elektrik xətlərinin tikintisi və digər işlərlə əlaqədar, meşə sahələrinin müəyyən olunmuş qaydada qeyri-meşə sahələrinə keçirildiyi zaman), həmçinin yanğından mühafizə keçidlərinin açılması və digər belə məqsədlər üçün aparılan qırmalar.

Göstərilən qırmalar təsdiq olunmuş layihələr və aparılan işlərin texniki şərtlərinə uyğun olaraq yalnız meşəqırma bileti və order əsasında aparılır.

1.3. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin razılığı ilə aşağıdakı hallarda kököstü oduncaq buraxılışı rəsmiləşmədən aparıla bilər və 1 ay müddətində bu əməliyyata meşəqırma bileti və order yazılır:

ağacların rabitə və elektrik xətlərinin üstünə düşmək təhlükəsi olduqda və yaxud həmin xətlərdə qəzanın aradan götürülməsi vacibliyi yarandıqda;

meşə yanğınlarının söndürülməsi və qəza xilasetmə tədbirləri həyata keçirildikdə.

1.4. Meşə istifadəçiləri kököstü oduncaq buraxılışı haqqında yerli meşə təsərrüfatı müəssisəsinə ərizə ilə müraciət etməlidir.

Meşə təsərrüfatı müəssisəsi meşə istifadəçisinin tələbatını, istifadəsinin məqsədyönlüyünü və qırmanın miqdarını nəzərə almaqla bir ay müddətində qırma sahəsinin ayrılması haqqında ərizəçiyə rəsmi məlumat verir.

Qırma sahəsi ayrılmadığı halda meşə istifadəçilərinə səbəbi izah olunmaqla rəsmi cavab verilir.

Meşə təsərrüfatı müəssisəsi ayrılmış qırma sahələri ilə (künc dirəkləri, nəql edilmə yolları, müvəqqəti quraşdırma yerləri) meşə istifadəçilərini yerində tanış edir.

Meşə istifadəçiləri ayrılmış sahəyə texnoloji xəritəni hazırlayır, onu meşə təsərrüfatı müəssisəsi ilə razılaşdırır və kököstü oduncaq buraxılışına meşəqırma bileti, order alır. Meşəqurma sahələri meşə istifadəçisinə verildiyi gündən onun mühafizəsində sayılır və həmin gündən bu Qaydalarda nəzərdə tutulmuş bütün öhdəliklər meşə istifadəçilərinə həvalə edilir.

Müstəsna hallarda, istifadəsinə başlanmamış qırma sahələrinin başqa sahə ilə əvəz edilməsinə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin razılığı ilə yol verilir.

1.5. Meşə istifadəçiləri qırmalara başlamazdan əvvəl aşağıdakı hazırlıq işləri aparırlar:
oduncağın doğranması və ilkin emalı üçün qurğuların quraşdırılması:
müxtəlif tipli müvəqqəti yaşayış və təsərrüfat tikililərinin quraşdırılması;
meşə anbarları üçün sahənin təmizlənməsi və onların yerləşdirilməsi;
meşə daşıma yollarının çəkilməsi;
işin təhlükəsizliyinə mane olan ağacların götürülməsi və hazırlıq ilə əlaqədar digər işlər.
Hazırlıq işləri görülərkən hazırlanmış oduncaq meşə istifadəçiləri üçün ayrılmış meşəqırma həcminə daxil edilir.
Meşə istifadəçisi qırma sahələrində bütün işlər (qırma, tədarük, daşıma və s.) başa çatdıqdan sonra 6 ay ərzində sahədəki qurğuları, müvəqqəti tikililəri götürməlidir.
Qeyd olunan müddətdə meşə istifadəçiləri tərəfindən sahədən çıxarılmayan müvəqqəti tikililər, qurğular meşə təsərrüfatı müəssisələrin sərəncamında qalır.
Zəruri hallarda Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin sərəncamı ilə sahədə qalan müvəqqəti tikililər, qurğular daha uzun müddət üçün meşə istifadəçilərinin ixtiyarında saxlanıla bilər.

1.6. Meşə təsərrüfatı müəssisə tərəfindən kötüstü oduncaq buraxılışı aşağıdakı hallarda dayandırıla bilər:
meşə istifadəçisinin rəsmi ərizəsi əsasında;
meşə istifadəsinin müddəti başa çatdıqda;
idarə, təşkilat, müəssisə ləğv olunduqda, müəyyən olunmuş qaydada onun varisi elan olunmuş fiziki və ya hüquqi şəxsin ərizəsi əsasında;
dövlət ehtiyacları üçün meşə torpaqları geri alındıqda;
meşədən istifadə meşəqırma biletində və orderdə göstərilən məqsədlərə və tələblərə uyğun gəlmədikdə;
meşəqırma bileti, order yazılarkən bu Qaydalar və digər meşə istifadəsi ilə bağlı qaydalar pozulduqda;
qırma sahələri meşə təsərrüfatı müəssisələri tərəfindən dəyişdirildikdə.

1.7. Meşə istifadəçiləri kötüstü oduncaq buraxılışı zamanı aşağıdakı tələblərə əməl etməlidirlər:
meşəqırma biletində və orderdə müəyyən olunmuş qırma sahələrindən tam və səmərəli istifadə etmək;
tədarük və daşınmanın müddəti başa çatdıqdan sonra, qırıntı yerlərində (sahələrində) və meşədə hazır oduncağın, habelə qırıntıya təyin edilmiş ağacların kök üstə saxlanılmasına yol verməmək;
torpağın eroziyaya uğramasına yol verməyən, meşənin vəziyyətinə və təkrar istehsalına (bərpasına), həmçinin sulara və təbii guşələrə mənfi təsir göstərməyən, meşə istifadəsini məhdudlaşdırmayan və ya istisna etməyən üsulları tətbiq etmək;
işlik oduncaqdan təyinatı üzrə istifadə etmək, həmçinin oduncaq itkisinə, işlik oduncağın oduna çevrilməsinə yol verməmək;
qırma sahələrini qırıntı qalıqlarından təmizləmək və strukturu pozulmuş torpaq sahələrini öz hesabına təyinatı üzrə istifadə etmək üçün yararlı vəziyyətə gətirmək;
oduncaq tədarükü zamanı alınan tullantının istifadəsini təşkil etmək;
meşə ilə örtülü olmayan sahələrin zibillənməsinə yol verməmək;

qırma sahəsinə bitişik 50 metrlik zolaqlarda ağacların, həmçinin sərhəd, kvartal, qırma sahələrini göstərən künc dirəkləri, ağac və kötüklərdəki damğaların saxlanılmasını təmin etmə;
oduncaq daşınması zamanı dağılmış yolları, körpüləri və cığırları, həmçinin qurulma şəbəkəni və sair qurğuları yararlı vəziyyətə salmaq və saxlamaq;
meşələrdə yanğın təhlükəsizliyi qaydalarına, habelə meşə istifadəsi ilə bağlı digər qayda və təlimatlara əməl etmək.

## 2. MEŞƏQIRMA HƏCMİ

2.1. Meşədən oduncaq tədarükü hər bir meşə təsərrüfatı müəssisəsinin ərazi üzrə hesablanmış meşəqırma həcmində aparılır. Hesablanmış meşəqırma həcmindən artıq miqdarda oduncaq tədarükü qadağandır.
Meşəbərpa və aralıq istifadəsi üçün qırma qaydası ilə oduncaq tədarükünün həcmi meşələrin vəziyyətinə, meşəyə qulluq, seçmə sanitariya və yenidənəkmə ilə əlaqədar qırmaların müəyyən edilmiş normalarına əsasən meşə quruluşu işləri aparılarkən müəyyənləşdirilir və Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təqdimatına uyğun olaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilir.
Meşə fondunun sərhədi, meşənin qırma yaşı, meşə kateqoriyası dəyişdikdə və meşə fondunda digər dəyişikliklər baş verdikdə hesablanmış meşəqırma həcmi müəyyən olunmuş qaydada yenidən təsdiq edilir.
Təsdiq edilmiş meşəqırma həcmi Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən meşə təsərrüfatı müəssisələri arasında bölüşdürülür.
Əvvəlki ildə qırıntıya təyin edilmiş, lakin istifadə olunmayan kötüküstü oduncağın həcmi cari ilin meşəqırma həcminə daxil edilir.

2.2. Başdan-başa sanitariya qırmaları ilə oduncaq tədarükünün həcmi meşə fondunun ağac-koldan təmizlənməsi ilə bağlı olan layihələrdən asılı olaraq Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən müəyyən edilir.
Bu qırmalar nəticəsində tədarük olunan oduncaq ilk növbədə yerli tələbat və həmin qırmanı aparan təşkilatların ehtiyacları üçün istifadə olunur.

2.3. Meşə qırmasına ayrılmış sahələrin pul-qiymət cədvəli işə başlanmasına 6 ay qalmış meşə təsərrüfatı müəssisələri tərəfindən tərtib edilir.

## 3. KÖKÜSTƏ BURAXILAN ODUNCAĞIN TƏDARÜKÜ VƏ DAŞINMASI

3.1. Oduncaq tədarükünün müddəti, qırma sahəsinin təyin olunduğu il ərzində, daşınma müddəti isə növbəti ilin mayın 1-nə qədər müəyyən edilir.
Qırma sahəsinə müayinə aktı yazılanadək buraxılan oduncağın meşəqırma biletində, orderdə göstərilən müvəqqəti meşə anbarına daşınmasına yol verilir.
Meşə təsərrüfatı müəssisələri oduncaq buraxılışı zamanı meşə istifadəçilərinə, meşə tədarükü həcmindən asılı olaraq, onun tədarükü və daşınmasının daha qısa müddətini təyin edə bilərlər.

3.2. Qırıntı miqdarını cari ildə tam istifadə etmiş meşə istifadəçiləri oktyabrın 1-nə qədər növbəti ilin qırma sahələri hesabına vaxtından əvvəl qırıntı aparılması haqda müvafiq meşə təsərrüfatı müəssisələrinə yazılı müraciət etməlidirlər. Meşə təsərrüfatı müəssisəsi bu məsələyə dair Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rəsmi razılığından sonra növbəti ilin qırma həcminin 30 faizi miqdarında cari ildən vaxtından əvvəl qırıntı aparılmasına icazə verə

bilər. Belə halda növbəti ilin qırma həcmi həmin miqdarda azaldılmalıdır və bu əməliyyat müvafiq qaydada rəsmiləşdirilməlidir. [7]

3.3. Meşə təsərrüfatı müəssisəsi tərəfindən meşə istifadəçiləri üçün nəzərdə tutulmuş qaydada oduncaq tədarük edilərkən, meşəyə xidmət və sanitariya qırmaları, yanğın əleyhinə və sair meşə təsərrüfatı tədbirləri aparılarkən və qırma yerlərində oduncaq alıcıya satılarsa, oduncağın daşınma müddəti meşə qırma biletində, orderdə göstərilməsi nəzərdə tutulmur.

Alıcılar tərəfindən, habelə meşə təsərrüfatı müəssisəsinin sərəncamına daxil olan (sahibsiz, özbaşına kəsilmiş, meşə istifadəçiləri tərəfindən müəyyən olunmuş müddətdə daşınmayan) oduncağın daşınma müddəti meşə təsərrüfatı müəssisəsi tərəfindən müəyyən edilir.

3.4. Meşə təsərrüfatı müəssisələri meşə istifadəçiləri tərəfindən bu Qaydalara əməl edilməsinə sistematik nəzarəti həyata keçirir, işlər qurtardıqdan sonra qırma sahələrindən düzgün və tam istifadə edilməsini, oduncağın tədarükünün həmçinin, kötüstə qalmış, daşınmamış oduncağın yerinə müayinə edir.

Qırma yerlərinin (sahələrinin) müayinəsi müəyyən edilmiş oduncağın daşınma müddəti başa çatdıqdan sonra 30 gün ərzində aparılır.

Qırma yerlərinin (sahələrinin) və tədarük olunmuş oduncağın müayinəsi günü barədə meşə istifadəçi meşə təsərrüfatı müəssisəsi tərəfindən təyin olunan gündən 15 gün qabaq məlumatlandırılır.

Oduncaq tədarükü və daşınması meşə qırma biletində, orderdə müəyyən edilmiş müddətdən tez qurtardıqda, meşə istifadəçisi 10 gün əvvəl müvafiq meşə təsərrüfatı müəssisəsinə işlərin qurtarma müddəti barədə məlumat verir.

Hava şəraiti qeyri-qənaətbəxş olduqda (qar yağarsa, çaylar daşarsa və s.) müayinə meşə təsərrüfatı müəssisəsi tərəfindən təyin olunan vaxta keçirilə bilər.

3.5. Qırma yerlərinin (sahələrinin) tədarük olunmuş oduncağın müayinəsi meşə təsərrüfatı müəssisəsi və meşə istifadəçisi tərəfindən 2 nüsxədən ibarət tərtib olunmuş akta qeyd olunur və müayinənin nəticələri 15 gün müddətində Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə təqdim olunur.

Meşə istifadəçisi aktın tərtib olunmasından imtina etdikdə, meşə təsərrüfatı müəssisəsi müayinəni onun iştirakı olmadan aparmaq hüququna malikdir. Akt tərtib olunduğu gündən qüvvəyə minir.

Müayinə aktının forması «Azərbmeşə» İstehsalat Birliyi tərəfindən müəyyən olunur.

3.6. Meşə istifadəçilərinə qırma sahələri ayrıldıqda meşə təsərrüfatı müəssisələri qırıntı zamanı alınacaq oduncağın dəqiq hesablanması üçün nümunə sahələri ayırır. Sahə uçota alındıqda, nümunə hesablama sahələrində faktiki hazırlanmış oduncağın miqdarı meşəqırma biletində, orderdə göstərilən miqdardan 10 faizdən çoxdursa, meşə istifadəçisi əlavə tədarük edilmiş oduncağın miqdarının dəyərini ödəyir. Oduncaqdan səmərəli istifadə nəticəsində meşəqırma biletində göstəriləndən artıq işlik oduncaq alınarsa, bu halda meşə istifadəçilərindən əlavə pul tutulmur.

3.7. Meşədə hazır oduncaq qaldıqda və obyektiv səbəblərdən təyin olunmuş müddətə daşınmadıqda, meşə istifadəçiləri oduncağın daşınmasına 3 ay ərzində möhlət almaq hüququna malikdirlər.

Kötüstü oduncaq buraxılışına, onun tədarükünə və ya daşınmasına 5 aydan artıq olmamaq şərtilə meşə istifadəçilərin yazılı ərizələri əsasında meşə təsərrüfatı müəssisələri tərəfindən möhlət verilə bilər.

Oduncağın tədarükünə möhlət verildikdə meşə istifadəçisindən kököstə qalmış oduncağın nırx dəyərinin 1,5 faiz miqdarında cərimə tutulur.

Oduncağın daşınmasına möhlət verildikdə meşə istifadəçiləri hər ay möhlət üçün daşınmayan oduncağın preskurant qiymətinin 1,5 faiz miqdarında cərimə ödəyirlər.

Möhlətin verilməsi haqqında meşə təsərrüfatı müəssisəsi meşəqırma biletində, orderdə müvafiq qeydlər aparır.

3.8. Müəyyən olunmuş müddətlərdə (verilmiş möhlətdə nəzərə alınmaqla) daşınmayan oduncağın həmçinin özbaşına tədarük olunmuş oduncaq əvəzsiz olaraq meşə təsərrüfatı müəssisəsinin sərəncamına daxil olur, ümumi qayda üzrə satılır və əldə olunmuş vəsait hesabına meşələrin qorunub saxlanması və təkrar istehsalı fonduna mədaxil olunur.

Oduncaq anbara, dəmir və şose yollarına, qurğu və emal üçün nəzərdə tutulan yerlərə, meşə yollarının yanındakı anbarlara, başqa düzəldilmiş və meşəqırma biletində, orderdə göstərilən yerlərə daşınarsa, daşınmış hesab olunur.

3.9. Meşə istifadəçiləri Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş nırx dəyərinə uyğun olaraq kököstü buraxılan oduncağın qiymətini ödəyirlər.

Meşə təsərrüfatı müəssisələri meşəyə xidmət və sanitariya qırmaları apararkən, habelə meşə quruluşu və başqa meşə təsərrüfatı tədbirləri həyata keçirərkən alınan oduncağın dəyərini ödəməkdən azad olunurlar.

Meşə yanğınları, göbələk xəstəlikləri nəticəsində və həşəratlarla zədələnmiş, tufan, külək tərəfindən yıxılmış və kököstə qurumuş meşə qırılarkən oduncaq güzəştlə buraxılır.

3.10. Oduncaq ödənişsiz və ya güzəştlə buraxılarsa meşəqırma biletində və orderdə nırx qiymətlərindən başqa güzəştli və ödənişsiz buraxılmasının əsası göstərilməlidir.

3.11.Kököstü oduncaq buraxılışının dəyərinin hesablanmasında səhvlərə yol verilmişdirsə növbəti ödəniş zamanı bu hesablamalar yenidən aparılır. Meşə istifadəçisi hesablaşmanın fərqinin ödənilməsindən azad olunmurlar.

3.12.Oduncaq tədarükü qurtardıqda meşə istifadəçiləri ilə aşağıdakı sənədlərə əsasən qarşılıqlı hesablaşmalar aparılır:

meşəqırma biletləri, orderlər;

qırıntı yerlərinin (sahəsinin) pul-qiymət cədvəli;

qırıntı yerlərinin (sahələrinin) müayinə aktı.

Ödənişlər yenidən hesablanarsa və bu Qaydaların pozulması barədə meşə təsərrüfatı müəssisələri, «Azərbmeşə» İstehsalat Birliyi və digər səlahiyyətli orqanlar tərəfindən müvafiq aktlar tərtib edilərsə qeyd olunan materiallar hesablaşma sənədlərinə əlavə edilir.

## 4. BU QAYDALARIN POZULMASINA GÖRƏ MƏSULİYYƏT.

4.1. Meşə istifadəçisi meşəqırma biletini, orderi müəyyən olunmuş müddətdə almadıqda ayrılmış meşəqırma həcminin nırx dəyərinin 10 faizi məbləğində cərimə olunur.

4.2. Meşə qırmaları və tədarükü zamanı bu Qaydaların pozulmasına yol verən meşə istifadəçilərinə aşağıdakı miqdarda cərimə hesablanır:

meşə qırmaları aparılarkən toxumluq ağacların və qırıntıya təyin edilməmiş ağacların kəsilməsinə və ya zədələnməsinə görə hər bir kəsilmiş və ya zədələnmiş toxumluq və sair ağacların nırx dəyərinin üç misli qədər;

qadağan olunmuş vaxtda oduncaq hazırlanarsa və ya sürüdülərsə hər bir kəsilmiş və ya sürüdülmüş ağacın nırx dəyərinin üç misli qədər;

istifadəyə verilmiş qırma sahələrində meşəqırma bileti, order alınmadan və ya qırma müddəti qurtardıqdan sonra oduncaq hazırlanarsa, hazırlanmış oduncağın nırx dəyərinin üç misli qədər;

qırıntıya təyin edilmiş, lakin kəsilməmiş ağaclar üçün nırx dəyərinin bir misli qədər;

ağacların qeyri səmərəli doğranması nəticəsində qırma sahəsi üzrə işlik oduncağın çıxışı meşəqırma biletində, orderdə göstəriləndən 10 faiz az olduqda, səmərəsiz istifadə olunmuş oduncağın preyskurant qiymətinin iki misli qədər;

müəyyən edilmiş müddətdə (verilmiş möhlət nəzərə alınmaqla) qırıntı yerində, anbar yerində, ağac daşınan yollarda, tikililərdə və sair yerlərdə daşınmamış oduncaq qalarsa həmin oduncağın satış dəyərinin bir misli qədər;

meşə yolları və ona bitişik 50 metrlik zolaq müəyyən olunmuş müddətdə qırıntı qalıqlarından qeyri qənaətbəxş təmizlənərsə, təmizlənməmiş sahənin hər hektarına 1 kub.m odunun nırx dəyərinin iki misli qədər;

ağacların kötükləri diametrinin üçdə birindən hündür kəsildikdə, diametri 30 santimetrədək olan ağacların kötükləri isə 10 santimetrdən hündür saxlandıqda, ağaclar və kötüklərdəki damğalar və nömrələr məhv edildikdə hər bir kötük , damğa və nömrə üçün 0,2 kub.m. oduncağın nırx dəyəri miqdarında;

hər bir asılı qalmış ağac üçün 1 kub.m. oduncağın nırx dəyəri miqdarında;

tədarük və oduncağın sürüdülməsi zamanı dağ şəraitində torpaq eroziyası baş verən sahələrdə torpağın üst qatı məhv edildikdə eroziyaya məruz qalmış hər hektar üçün 1 kub.m. oduncağın nırx dəyərinin 30 misli qədər.

Bu bəndin 5-ci və 6-cı abzaslarındakı cərimələr meşə təsərrüfatı müəssisələri tərəfindən franko qırma sahəsindən preyskurant qiyməti ilə hesablanır.

4.3. Meşə əkinləri, meşə bərpa işləri üçün nəzərdə tutulan sahələrdə təbii bərpanın və cücərtilərin məhv edilməsi və ya zədələnməsi, ağac və kolların boy artımının dayandırılmasına səbəb olmadan zədələnməsi, meşələrdə məhdudlaşdırıcı nişanların, kvartal dirəklərinin, vizir xətlərinin məhv edilməsi və korlanması, ağacların və kolların qanunsuz qırılması və zədələnməsi (boy artımının dayanması dərəcəsinədək) nəticəsində meşə təsərrüfatına vurulmuş ziyanın miqdarı Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş nırx dəyərləri ilə hesablanır.

4.4. Bu Qaydaların pozulmasına görə cərimələr ağacların nırx dəyərinə güzəşt edilmədən hesablanır.

4.5. Bu Qaydalar üzrə nəzərdə tutulmuş cərimələrin təyin olunmasında yaranmış mübahisəli məsələlər müəyyən olunmuş qaydada mövcud qanunvericiliyə uyğun olaraq həll olunur.

4.6. Oduncaq tədarükünü aparan meşə təsərrüfatı müəssisələri bu Qaydaları pozarkən meşə istifadəçiləri üçün nəzərdə tutulmuş məsuliyyətə cəlb edilirlər.

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Azərbaycan Respublikasının 1997-ci il 30 dekabr tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikası Meşə Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 30 mart tarixli 693 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Meşələrin qoruyucu kateqoriyalara aid edilməsi, meşələrin bir qoruyucu kateqoriyadan başqa qoruyucu kateqoriyaya keçirilməsi Qaydası", "Meşəqırma Qaydaları", "Meşə fondunun dövlət uçotu göstəricilərinin Siyahısı" və meşə fondunun dövlət uçotu sənədlərinin formaları təsdiq edilsin (əlavə olunur).
2. "Meşələrin eroziya əleyhinə, xüsusi qiymətli meşə massivlərinə və digər qoruyucu kateqoriyalara aid edilməsi qaydası barədə" Azərbaycan SSR Nazirlər Sovetinin 1979-cu il 8 fevral tarixli 58 nömrəli qərarı qüvvədən düşmüş hesab edilsin.
3. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

*Azərbaycan Respublikasının Baş naziri* *A. RASİZADƏ*

Bakı şəhəri, 26 aprel 1999-cu il
№ 70

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin*
*1999-cu il 26 aprel tarixli 70 nömrəli qərarı ilə*

*TƏSDİQ EDİLMİŞDİR.*

**Meşələrin qoruyucu kateqoriyalara aid edilməsi, meşələrin bir qoruyucu kateqoriyadan başqa qoruyucu kateqoriyaya keçirilməsi**

**QAYDASI**

1. Meşələrin daşıdığı torpaqqoruyucu, susaxlayıcı, iqlimtənzimləyici, kurort və sair funksiyalar nəzərə alınmaqla meşə fondunun qoruyucu kateqoriyalara aid edilməsi, meşələrin bir qoruyucu kateqoriyadan başqa qoruyucu kateqoriyaya keçirilməsi bu Qayda ilə tənzimlənir.
2. Azərbaycan Respublikasının meşə fondu dağ və düzən meşələrindən ibarətdir. İqtisadi və ekoloji əhəmiyyətinə, yerləşməsinə və yerinə yetirdiyi funksiyalara görə respublikanın meşə fondu birinci qrup meşələrə aid olub aşağıdakı qoruyucu kateqoriyalara bölünür:
qoruq meşələri;
kurort meşələri;
xüsusi qiymətli meşə massivləri;
şəhərlərin və digər yaşayış məntəqələrinin ətrafındakı yaşıllıq zonalarının meşələri;
yabanı meyvə meşələri;
dövlət qoruyucu meşə zolaqları;
sair meşələr.

Qoruq meşələri — meşə fondunun tərkib hissəsi olmaqla xüsusi qorunma və təsərrüfat aparılma rejiminə malik, nadir bitki və heyvanat aləminin və digər təbii komplekslərin saxlanılmasını, artırılmasını və qorunmasını təmin edən, eyni zamanda bu amillərin elmi əsaslarla dinamikasının öyrənilməsi məqsədilə yaradılan meşə sahələridir.

Kurort meşələri — sağlamlıq ocaqlarının və istirahət yerlərinin ətrafındakı təbii amillərin qorunmasını və yaxşılaşdırılmasını təmin edən, ətraf mühitin çirklənməsinin və vaxtından əvvəl sıradan çıxmasının qarşısını alan, əhalinin müalicəsi üçün əlverişli mikroiqlim şəraiti yaradan meşə sahələridir.

Xüsusi qiymətli meşə massivləri — tərkibində relikt və endemik ağac və kol cinsləri olan nadir meşələr, yüksək məhsuldarlığı və genetik keyfiyyəti ilə fərqlənən, habelə estetik cəhətdən nadir mənzərəli və xüsusi torpaqqoruyucu, susaxlayıcı, sutənzimləyici və digər qoruyucu əhəmiyyətli meşə sahələridir.

Yabanı meyvə meşələri — buraya meşə fondu ərazisində təbii bitən, yaxud süni yolla yaradılmış, tərkibində qiymətli meyvə, giləmeyvə və qərzəkli ağac və kol cinsləri olan meşələr, meşə-bağlar, bağlar və həmin cinslərdən salınmış plantasiyalar daxildir. Bu meşə sahələrindən meşə toxumçuluğunda və yeyinti sənayesində də istifadə olunur.

Dövlət qoruyucu meşə zolaqları — xətti qaydada süni salınmış iqlimtənzimləyici, torpaqqoruyucu və susaxlayıcı funksiyaları yerinə yetirən meşələr bu kateqoriyaya aiddir. Qoruyucu meşə sahələri kənd təsərrüfatı bitkilərini külək və su eroziyasından qoruyur, məhsuldarlığın artırılmasına imkan yaradır.

Sair meşələr — bu meşələrə yuxarıda göstərilən kateqoriyalara aid olmayan meşə sahələri

daxildir. Bu meşə sahələrində meşəbərpa tədbirləri, plantasiya salınması, xidməti və sanitariya qırmaları aparılması və sair meşə təsərrüfatı tədbirləri aparılır.

3. Meşə fondunun qoruyucu kateqoriyalara aid edilməsi, onların hüdudları meşə təsərrüfatı müəssisələrinin ərazilərində aparılan meşəquruluşu işləri, meşə monitorinqi müşahidələri və elmi-tədqiqat işləri əsasında və meşə ekosistemində gedən dəyişiklikləri nəzərə almaqla Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən müəyyənləşdirilir və müvafiq qaydada Azərbaycan Respublikasının Elmlər Akademiyası ilə, habelə digər aidiyyəti təşkilatlarla razılaşdırılır və təsdiq üçün Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilir.
4. Zəruri hallarda müvafiq qaydada qoruyucu kateqoriyalara aid edilmiş meşələrdə xüsusi qoruyucu meşə sahələri (eroziyadan mühafizə meşələri, çayların, göllərin və digər su obyektlərinin sahillərində olan meşə sahələri, dəmir yollarının və avtomobil yollarının kənarlarındakı meşələr və s.) və xüsusi qorunan meşə sahələri (elmi və mədəni-tarixi əhəmiyyət kəsb edən meşələr, meşə-parklar, seyrək arid meşələri, ziyarət edilən yerlərin meşələri və s.) müəyyən edilə bilər.
   Xüsusi qoruyucu meşə sahələrinin göstəriciləri meşə quruluşu işləri və ya xüsusi müşahidə materiallarına əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilir.
5. Meşələrin bir qoruyucu kateqoriyadan başqa qoruyucu kateqoriyaya keçirilməsi elmi-tədqiqat, meşə-quruluşu təşkilatları və meşə təsərrüfatı müəssisələrinin mütəxəssisləri tərəfindən əsaslandırılmış təkliflər əsasında aparılır. Təklifləri hazırlamaq və əsaslandırmaq məqsədilə müxtəlif qoruyucu kateqoriyalara aid edilmiş meşə sahələrinin tipik yerlərində nümunə sahələri salınır. Nümunə sahələrində ayrı-ayrı fəsillərdə uzunmüddətli (2—3 il ərzində) meşə monitorinqi müşahidələri və hesablamaları aparılır. Müşahidələr və hesablamalar aparılarkən aşağıdakı əsas müddəalar nəzərə alınmalıdır:
   meşələrdə antropogen təsirləri yaradan amillər;
   meşələrin cins tərkibinin dəyişməsi;
   meşələrdə kütləvi quruma hallarının, xəstəlik və ziyanvericilərin artması;
   yeraltı suların səviyyəsinin dəyişməsi;
   meşəquruluşu işlərinin aparılması;
   meşə altında yeniyetmələrin inkişaf dərəcəsi;
   meşələrin məhsuldarlığının aşağı düşməsi səbəbləri;
   digər amillər.

Göstərilənlər və meşə ekosistemində gedən dəyişikliklər nəzərə alınmaqla Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi meşələrin bir qoruyucu kateqoriyadan başqa qoruyucu kateqoriyaya keçirilməsi barədə təkliflər hazırlayır, onları müvafiq qaydada Azərbaycan Respublikasının Elmlər Akademiyası ilə digər aidiyyəti təşkilatlarla və yerli icra hakimiyyəti orqanları ilə razılaşdırır və təsdiq üçün Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edir.

6. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi bu qaydadan irəli gələn işlərin yerinə yetirilməsi məqsədilə müvafiq müşahidə və hesablama sənədlərini tərtib edir, onların istifadəsi üzrə təlimatlar hazırlayıb təsdiq edir.

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin*
*1999-cu il 26 aprel tarixli 70 nömrəli qərarı ilə*

*TƏSDİQ EDİLMİŞDİR*

## Meşəqırma qaydaları

### I. ÜMUMİ MÜDDƏALAR

1.1. Bu Qaydalar qiymətli cinslərdən ibarət meşələrin formalaşmasını, oduncaq ehtiyatından səmərəli istifadə olunmasını, meşələrin bərpasını, davamlıqlı və yüksək məhsuldarlıqlı ağaclıqların yetişdirilməsini, onların qoruyucu funksiyalarının artırılmasını tənzimləyir.

1.2. Meşələrdə (qoruq meşələri istisna olunmaqla) bitmə şəraitindən, sahənin relyefindən, mailliyindən, vəziyyətindən, doluluğundan, cins tərkibindən, yaşından, bonitetindən və digər əlamətlərindən asılı olaraq aşağıdakı qırma növləri tətbiq olunur:
meşəbərpa qırmaları;
aralıq istifadə üçün qırmalar.

1.3. Dövlət qoruqlarının meşələrindən yalnız qoruq rejiminə müvafiq olan qırmaların aparılmasına yol verilir.

1.4. Meşəbərpa qırmaları — yetişmiş və yaşı ötmüş meşələrdə meşələrin doluluğunu 05—06-dan aşağı salmamaq və ümumi ehtiyatı 30 faizdən çox qırmamaq şərti ilə (təbii bərpaya şərait yaratmaq məqsədilə), qrup-qırma, könüllü-qırma və tədrici-seçmə üsulu ilə aparılır. Mailliyi 30 faizdən artıq olan sahələrdə meşəbərpa qırmalarının aparılması qadağandır.
Meşəbərpa qırmaları aparılan sahələrdə azad ağacı, ayı fındığı, alma, ardıc, armud, çökə, dağdağan, dəmir ağac, eldar şamı, güləbrişin, yabanı gilas, qaraçöhrə, qarmaqlı şam, qoz, quş armudu, saqqız, şümşad, şabalıd, şabalıd yarpaqlı palıd, şərq palıdı, şərq çinarı, tut, ipəkvariyarpaqlı qızıl ağac, yalanqoz cinslərinin kəsilməsi qadağan olunur.

1.5. Aralıq istifadə üçün qırmalar — meşələrin cins tərkibini yaxşılaşdırmaq, onların məhsuldarlığını, keyfiyyətini və davamlığını artırmaq, mühitqoruyucu rolunu saxlamaq və gücləndirmək, vahid meşə sahəsindən istifadə olunacaq oduncağın miqdarını artırmaq, onun texniki cəhətdən yetişməsini sürətləndirmək məqsədilə aparılır. Bu qırmalar zamanı aşağıdakı şərtlərə əməl olunmalıdır:
qırma üçün seçilən sahələrdə ağaclıqların bioloji təsnifatının aparılması;
sağlam, düzgövdəli, toxumdan əmələ gəlmiş dolğun və digər müsbət ağacların saxlanılması;
zədələnmiş, xəstə, davamlığını və texniki oduncaq keyfiyyətini itirmiş, yaşı ötmüş, gələcəyi gözlənilən qiymətli cinslərin inkişafına mane olan ağac və kolların qırıntıya təyin edilməsi;
ilk növbədə yuxarı bonitetli (məhsuldar) meşələrdə qırmaların aparılması;
qarışıq və bir cinsli meşələrdə qiymətli yerli cinsdərin sahədə saxlanılması, davamlığının artırılması və gələcəyi gözlənilən müsbət ağacların inkişafına əlverişli şərait yaradılması, ağaclığın doluluğunu (hər qırmadan sonra 06-dan, dağ yamaclarında isə 07-dən) aşağı salınmaması, onların sutənzimedici, torpaqqoruyucu funksiyalarının gücləndirilməsi.

1.6. Aralıq istifadə üçün qırmaların növləri və məqsədi:

işıqlandırma qırması — 10 yaşına qədər cavan ağaclığın tərkibini formalaşdırmaq, sıxlığını nizama salmaq və qiymətli cinslərin inkişafını yaxşılaşdırmaq;
təmizləmə qırması — 11—20 yaşına qədər meşə sahələrindəki əsas cinslərin yayılmasını nizama salmaq, onların cins tərkibini formalaşdırmaq;
seyrəltmə qırmaları — 21—40 yaşınadək ağacların gövdələrinin və çətirlərinin düzgün formalaşmasına nail olmaq;
keçid qırması — 41 yaşdan yetişmə yaşına qədər ağaclığın illik orta artımına əlverişli şərait yaratmaq;
yenidənəkmə (rekonstruksiya) qırmaları — düzən və dağətəyi meşələrdə azqiymətli, alçaq boylu, pozulmuş ağac və kol cinslərinin məhsuldarlığını artırmaq, cins tərkibini yaxşılaşdırmaq.

1.7. Düzən meşələrdə (suvarılan meşələrdə) aralıq istifadə üçün qırmalar dağ meşələrinə nisbətən tez-tez aparılır. Bütün hallarda meşənin qoruyucu funksiyalarını zəiflətməmək üçün ağaclığın doluluğu normal saxlanmalıdır. Gövdələrində quş və vəhşi heyvanat yuvaları olan ağaclar qırıntıya təyin edilmir.
Qırmalar ilk növbədə kifayət qədər gələcəyi gözlənilən yeniyetmələr, sahələrdə saxlanılmış tək-tək toxumluq və yaşı ötmüş ağaclar, ikinci dərəcəli ağac və kol cinsləri olan yüksək bonitetli meşələrdə aparılır. Sıxlığı 0,9-dan yuxarı olan cavan ağaclıq sahələrində inkişafdan geri qalmış, əyrigövdəli, çətiri pis olan və digər yararsız ağaclar qırıntıya təyin olunur.
Qırmalar aparılarkən aşağıdakı ardıcıllıq təmin olunmalıdır:
mədəni meşə əkinlərində və əvvəlki illərdə qırıntı yerlərində qalmış əsas cinsin yeniyetmələri (əgər ikinci dərəcəli ağac cinsləri sürətlə inkişaf edirsə) olan sahələrdə;
qiymətli cinslərin yeniyetmələrinin, ikinci dərəcəli ağacların çətirləri altında qalmaq qorxusu olan qarışıq cinsli az qiymətli meşələrdə;
eyni hündürlükdə olan əsas və ikinci dərəcəli cinslərdən ibarət qarışıq meşələrdə;
yüksək sıxlığı və doluluğu (0,8—1,0) olan qiymətli cinsli meşələr, toxumdan və pöhrədən əmələ gəlmiş ağaclıqlarda.
Göstərilən sahələrdə ağaclığın yaşından asılı olaraq işıqlandırma, təmizləmə və seyrəltmə qırmaları aparılır. Yetişmə yaşına qədər olan eyni cinsli və qarışıq meşələrdə əsasən keçid qırmaları aparılır.

## II. QIRMALARIN APARILMA VAXTI

2.1. Qırmaların başlanması və qurtarması vaxtı meşəbitmə şəraiti, ağac cinslərinin bioloji xüsusiyyətləri və ərazisinin iqtisadiyyatı nəzərə alınmaqla müəyyənləşdirilir.

2.2. Yerli iqlim və digər şəraitdən asılı olaraq işıqlandırma və təmizləmə qırmaları adətən ağaclar yarpaqladıqdan sonra vegetasiyanın müxtəlif dövrlərində aparıla bilər.

2.3. Dağətəyi və düzən zonalarda seyrəltmə qırmaları (güclü boy inkişafına malik və gövdəsi möhkəm olmayan sıx cavan ağaclıqda) əsasən yaz dövründə aparılır.
Dağ meşələrində seyrəltmə və keçid qırmaları qış dövrü başlayana qədər aparılır.
Bütün hallarda qırılacaq sahələrin seçilməsi və qırıntının aparılma vaxtı ovçuluq təsərrüfatı, meşədən əlavə istifadə və təbiəti mühafizə tələbləri və şərtləri nəzərə alınmaqla müəyyənləşdirilir.

2.4. Qarışıq bərkyarpaqlı cinslərdən ibarət meşələrdə meşəbərpa qırmaları aparmaq yaşına 20 il qalmış, yumşaq yarpaqlı və pöhrədən əmələ gəlmiş bərkyarpaqlı cinslərdən ibarət ağaclıqlarda isə 10 il qalmış qurtarır.

## III. QIRMALARIN MİQDARI, İNTENSİVLİYİ VƏ TƏKRAR MÜDDƏTİ

3.1. Qırmaların miqdarı qırıntının başlanması və qurtarması vaxtından, qırmanın intensivliyindən, təkrar olunma müddətindən, meşə tiplərindən, inkişafından, doluluğundan, vəziyyətindən və ərazisinin ekoloji şəraitindən asılıdır.

3.2. Qırmaların intensivlik dərəcəsi ağaclığın hansı məqsəd üçün yetişdirilməsindən, meşənin tipindən, tərkibindən, yaşından, bonitet sinifindən, quruluşundan, ağaclığın vəziyyətindən, qırmanın növündən, maillikdən, relyefdən və digər amillərdən asılı olaraq müəyyən edilir. Qırmaların intensivlik dərəcələri aşağıdakılardır:

zəif — 3—15 faiz;
orta dərəcə — 16—25 faiz;
güclü — 26 faizdən yuxarı.

Orta yaşlı və yetişməkdə olan ağaclıqda qırmalar zəif intensivlikdə, cavan ağaclıqda isə daha güclü intensivliklə aparılır.

3.3. Kurort meşələrində, xüsusi qiymətli massivlərdə, şəhərlərin və digər yaşayış məntəqələrinin ətrafındakı yaşıllıq zonalarının müşahidələrində, yabanı meşələrdə və dövlət qoruyucu meşə zolaqlarında, habelə daşlı, həddindən çox rütubətli və torpağın qalınlığı az olan meşələrdə qırmalar zəif intensivlikdə aparılır.

3.4. Quru torpaq şəraitində qırmanın təkrar müddəti və intensivliyi torpağı rütubətli olan meşələrə nisbətən daha gec aparılır. Bu növ qırmaların aparılması gələcəkdə yüksək keyfiyyətli qiymətli ağac cinslərinin formalaşdırılmasına və yetişdirilməsinə şərait yaradır. Bu zaman meşənin sıxlığının aşağı salınma həddi qarşıya qoyulmuş məqsədlə müəyyənləşdirilir (1 hektarda ağacların sayı və en kəsik sahələrinə görə). Eyni qırma sahəsində qırmaların təkrar müddəti sahədəki ağacların ümumi inkişaf vəziyyətindən, böyüməsindən və digər təbii amillərdən asılıdır.

3.5. Meşənin tipindən və qırma növündən asılı olaraq təkrar qırma müddətləri aşağıdakı kimi müəyyən edilir:

işıqlandırma qırması — 3—5 ildən bir;
təmizləmə qırması — 6—8 ildən bir;
seyrəltmə qırması — 5—15 ildən bir;
keçid qırması — 8—15 ildən bir.

## IV. QIRMALARIN TƏŞKİLİ VƏ TEXNOLOGİYASI

4.1. Qırmalar texnoloji xəritələr əsasında təşkil edilir və ağaclığın bütün meşəçilik xüsusiyyətləri, yaşı, yerin relyefi, qırıntının növü, işin aparılma texnologiyası, oduncağın daşınması, nəqliyyat və qoşqu vasitələrinin istifadəsi, qıtıntı yerinin təmizlənməsi üsulu, qırma üçün ayrılmayan ağacların zədələnmədən və meşə mühitinin qorunmasını təmin edən tədbirlər, texniki-iqtisadi və digər göstəricilər nəzərə alınmalıdır. Qırma sahəsinin sxematik xəritəsində yükləmə yerləri, əsas və köməkçi texnoloji (daşıma) dəhlizlər göstərilməlidir. Oduncağın daşınması üçün texnoloji dəhlizlər və yükləmə yerləri müəyyənləşdirilməlidir. Bu məqsədlə ilk növbədə mövcud olan yollardan, talalardan, meşə ilə örtülü olmayan torpaq sahələrindən istifadə edilməlidir. Bu hallarda dəhlizlərin açılması üçün ağaclar kəsilmir. Süni surətdə yaradılan ağaclıqda (əkinlərdə) cərgə araları texnoloji dəhliz kimi istifadə olunur.

4.2. Qırma zamanı tətbiq olunan maşın və mexanizmlər meşə mühitinin saxlanılması, torpaq örtüyünün az korlanmasını təmin etməlidir. Maşın və mexanizmlərin

torpağa etdiyi təzyiqin azaldılması məqsədilə daşınma yollarının qırıntı qalıqları ilə bərkidilməli, texnoloji dəhlizlərinin uzunluğu azaldılmalı, qırılan ağacların baş hissəsi tərəfə sürüdülüb aparılmalıdır. Dağ şəraitində qırıntı aparmaq üçün hava daşıyıcı qurğularından da istifadə edilir. Nəqliyyat (sürütmə) və yükləyici vasitələri tətbiq etmək üçün sahədə texnoloji dəhlizlər sistemi (sürütmə yolları) və yükləyici yerlərin yaradılması nəzərdə tutulmalıdır.

4.3. Qırıntı üçün müəyyən edilmiş sahələrdə kəsiləcək oduncağın ümumi miqdarı, həmin sahələrdəki bütün ağacların hesaba alınması ilə təyin edilir.

4.4. Hesabat zamanı qırılacaq ağacların döş hündürlüyündəki diametrində 2—4 santimetrlik pilləyə görə ölçü aparılır, işlik, yarım işlik və odunluq çıxımının həcmi hesablanır.

4.5. Seyrəltmə, keçid və seçmə qırmaları üçün nümunə sahələrinin salınması, ağacların seçilməsi meşə təsərrüfatı müəssisələrinin rəhbərliyi altında aparılır.

4.6. Qırma sahələrinin texnoloji xəritələri meşəbəyilik tərəfindən tərtib olunur və meşə təsərrüfatı müəssisəsi tərəfindən təsdiq olunur. Texnoloji xəritəsiz qırmaların aparılması qadağandır.

4.7. Hər meşəbəyilikdə qırmaların hesabat kitabı aparılır. Kitabda qırmaya ayrılan yerlərin sahəsi və qırıntının nəticəsi qeyd olunur. Hər bir qırma sahələrinə plan, xəritədən başqa hesablama cədvəli də əlavə edilir.

Ayrılmış qırma sahəsinin künclərində diametri 12—16 santimetr olan göstərici dirəklər basdırılır. Göstərici dirəklərdə düzəldilmiş “aynacıqlarda” qırıntının ili, sahəsi, növü, başlanma müddəti göstərilir.

## V. MEŞƏ QIRMA YAŞI

5.1. Meşə qırma yaşı meşələrin əhəmiyyətindən, məhsuldarlığından, yerinə yetirdiyi funksiyalardan, habelə orada bitən ağac cinslərinin bioloji xüsusiyyətlərindən asılı olaraq müəyyən edilir.

5.2. Meşə qırma yaşı meşə quruluşu işləri aparılarkən və ya elmi tədqiqat işlərinin nəticəsi ilə əsaslandırılır.

5.3. Meşələrin qırma yaşı aşağıdakı qaydada müəyyən edilir:

cavan yaşlı meşələr 80 yaşa qədər (I—IV yaş sinifi);

orta yaşlı meşələr 81—120 yaşa qədər (V—VI yaş sinifi);

yetişməkdə olan meşələr 121—160 yaşa qədər (VII—VIII yaş sinifi);

yetişmiş meşələr 161—200 yaşa qədər (IX—X yaş sinifi);

yaşı ötmüş meşələr 201 yaşdan yuxarı (XI və yuxarı).

5.4. Meşəbərpa qırmaları sənaye əhəmiyyətli qırmalar olduğu üçün ancaq yetişmiş və yaşı ötmüş ağaclıqda aparılır.

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin*
*1999-cu il 26 aprel tarixli 70 nömrəli qərarı ilə*

*TƏSDİQ EDİLMİŞDİR*

**Meşə fondunun dövlət uçotu göstəricilərinin**

## SİYAHISI

Meşə fondunun torpaq kateqoriyalarına və qoruyucu kateqoriyalara bölünməsi;
meşələrin üstünlük təşkil edən cinslər və yaş qruplarına görə bölünməsi;
meşə fondunun inzibati rayonlar ərazisində yerləşməsi haqqında məlumat;
uçotarası dövrdə meşə fondu torpaqları sahəsində və oduncaq ehtiyatında baş vermiş dəyişikliklər;
yanğına qarşı qurğuların səciyyəsi;
meşə bitkiləri ilə örtülü olmayan və qeyri-meşə torpaqlarının meşəbərpa və meşəsalma üsullarına görə bölünməsi;
uçotarası dövrdə meşənin bərpası;
aralıq istifadə üçün qırmalar haqqında məlumat;
meşələrin doluluğa və bonitet siniflərinə bölünməsi;
meşə fondunun hidromeliorasiya səciyyəsi;
nəqliyyat yollarının səciyyəsi;
meşə fondunun vəziyyətinin öyrənilməsi.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
1999-cu il 26 aprel tarixli 70 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**1 nömrəli forma**

19—-cu il 1 yanvar vəziyyətinə meşə fondunun dövlət uçotu
Meşə fondunun torpaq kateqoriyalarına və qoruyucu kateqoriyalara bölünməsi
Meşə təsərrüfatı müəssisəsi (MMS, meşə tingliyi, dövlət qoruğu və s.) ______________
Meşənin qrupu ______________
Relyef ______________

sahə, hektarla

| Meşələrin qoruyucu kateqori-yaları | Sətrin kodu | Meşə fondu torpaq kate-qoriyalarının ümumi sahəsi | Meşə torpaqları | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | Meşə bitkiləri ilə örtülü torpaqlar | | Meşə bitkiləri ilə örtülü olmayan torpaqlar | | | | | | | |
| | | | cəmi | o cümlə-dən meşə əkinləri | çərti birləş-məmiş me-şə əkinləri | meşə ting-liyi, planta-siyalar | təbii sey-rəkliklər | meşə bərpa fondu | | | qırma yer-ləri | cəmi |
| | | | | | | | | yanğın yerləri | qurumuş ağaclıqlar | talalar, boş yerlər | | |
| A | B | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 |

**Direktor** ______________ **Baş meşəbəyi** ______________

**(cədvəlin davamı)**

| | Qeyri-meşə torpaqları | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| meşə torpaqları, cəmi | əkin yerləri | biçənəklər | örüşlər | su altındakı sahələr | bağlar, üzümlüklər və sair | yollar, mərzlər | həyətyanı torpaqlar və sair | bataqlıqlar | qumluqlar | digər torpaqlar | qeyri-meşə torpaqları, cəmi |
| 12 | 13 | 14 | 15 | 16 | 17 | 18 | 19 | 20 | 21 | 22 | 23 |

**Rayon torpaq şöbəsi** ____________________

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
1999-cu il 26 aprel tarixli 70 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**2 nömrəli forma**

19—cu il 1 yanvar vəziyyətinə meşə fondunun dövlət uçotu
Meşələrin üstünlük təşkil edən cinslər və yaş qruplarına görə bölünməsi
Meşə təsərrüfatı müəssisəsi (MMS, meşə tingliyi, dövlət qoruğu və s.)———
Meşənin qrupu ___________
Qoruyucu kateqoriya ___________
Relyef ___________

sahə hektarla, ehtiyat, min kub. m

| Üstünlük təşkil edən ağac və kol cinsləri | Sətrin kodu | Qırıntı yaşının (yetişkənliyin) aşağı həddi | Meşə bitkiləri ilə örtülü torpaqlar | | | | | | | | Meşənin ümumi ehtiyatı | | | | | | | ümumi orta artım | orta yaş, il |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | cəmi | o cümlədən yaş qrupları üzrə | | | | | | | cəmi | o cümlədən yaş qrupları üzrə | | | | | | | |
| | | | | cavanlar | | orta yaşlılar | | yetişməkdə olanlar | yetişmiş və yaşı ötmüşlər | o cümlədən yaşı ötmüşlər | | cavanlar | | orta yaşlılar | yetişməkdə olanlar | yetişmiş və yaşı ötmüşlər | o cümlədən yaşı ötmüşlər | | |
| | | | | I sinif | II sinif | cəmi | o cümlədən hesaba daxil edilmiş | | | | | I sinif | II sinif | | | | | | |
| A | B | V | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 | 16 | 17 |

**Direktor** ___________ **Baş meşəbəyi** ___________

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
1999-cu il 26 aprel tarixli 70 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**3 nömrəli forma**
**Bölmə 1**

19—cu il 1 yanvar vəziyyətinə meşələrin dövlət uçotu
Meşə fondunun inzibati rayonlar ərazisində yerləşməsi haqqında məlumat
Meşə təsərrüfatı müəssisəsi (MMS, meşə tingliyi, dövlət qoruğu və s.) ________________

sahə hektarla, ehtiyat, min kub. m

| Sətrin kodu | İzibati rayon | İnzibati rayonun ərazisi kv. km | İstifadəsində meşə fondu olan orqanlar | Meşə fondu torpaqlarının sahəsi | | | | | meşəlikliyin faizi | oduncaq ehtiyatı | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | meşə bitkiləri ilə örtülü | | | | | o cümlədən yetişmiş və yaşı ötmüşlər | |
| | | | | Cəmi | meşə torpaqları | cəmi | o cümlədən yetişmiş və yaşı ötmüşlər | onlardan iynəyarpaqlılar | | ümumi | cəmi | onlardan iynəyarpaqlılar |
| A | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 |

**Direktor** ____________ **Baş meşəbəyi** __________

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
1999-cu il 26 aprel tarixli 70 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**3 nömrəli forma**
**Bölmə 2**

Uçotarası dövrdə meşə fondu torpaqları sahəsində
və oduncaq ehtiyatında baş vermiş dəyişikliklər

Meşə təsərrüfatı müəssisəsi (MMS, meşə tingliyi,
dövlət qoruğu və s.) ______________

| Göstəricilər | Sətrin kodu | 01.01.19—cu il vəziyyətinə | 01.01.19—cu il vəziyyətinə | Əvvəlki ilin uçotuna nisbətən fərq+,- |
|---|---|---|---|---|
| A | B | 1 | 2 | 3 |

**Direktor** ____________ **Baş meşəbəyi** ____________

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
1999-cu il 26 aprel tarixli 70 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**3 nömrəli forma**
**Bölmə 3**

Yanğına qarşı qurğuların səciyyəsi
Meşə təsərrüfatı müəssisəsi (MMS, meşə tingliyi,
dövlət qoruğu və s.) ____________

| Yanğına qarşı qurma elementlərinin adları | Sətrin kodu | Faktiki mövcudluğu | Layihə üzrə |
|---|---|---|---|
| A | B | 1 | 2 |

**Direktor** ____________ **Baş meşəbəyi** ____________

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
1999-cu il 26 aprel tarixli 70 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**3 nömrəli forma**
**Bölmə 4**

Meşə bitkiləri ilə örtülü olmayan və qeyri-meşə torpaqlarının meşəbərpa və meşəsalma üsullarına görə bölünməsi

Meşə təsərrüfatı müəssisəsi (MMS, meşə tingliyi, dövlət qoruğu və s.) ____________________

sahə, hektarla

| Göstəricilər | sətrin kodu | Meşəbərpa fondu | | | | | Qeyri-meşə torpaqları | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | yanğın yerləri | qurumuş ağaclıq | qırıntı yerləri | talalar, boş yer | cəmi | bataqlıq | qumluqlar | digər torpaqlar | cəmi |
| A | B | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 |

**Direktor** ____________ **Baş meşəbəyi** ____________

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
1999-cu il 26 aprel tarixli 70 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**3 nömrəli forma**
**Bölmə 5**

Uçotarası dövrdə meşənin bərpası
Meşə təsərrüfatı müəssisəsi (MMS, meşə tingliyi, dövlət qoruğu və s.) ______________

**sahə, hektarla**

| Meşəbərpanın növləri | Sətrin kodu | Əvvəlki uçota görə 01.01.19— cu il vəziyyətə meşə əkinləri | | 01.01.19—cu ildən 01.01.19—cu ilədək uçotarası dövrdə meşə əkinlərində və meşəbərpanın başqa növlərindəki dəyişikliklərin səciyyəsi | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | 01.01.19—cu il vəziyyətə salınmış meşə əkinlərindən | | | başqa təşkilatlardan qəbul edilmişdir | | başqa təşkilatlara verilmiş və ya təmizləmə aparılmışdır | | meşə bərpa tədbirləri aparılmışdır | meşə bitkiləri ilə örtülü torpaqlara keçirilmişdir | onlardan çərti birləşməmiş meşə əkinləri | | |
| | | Meşə bitkisi ilə örtülü torpaqlara keçirilmişdir | çərti birləşməmiş meşə əkinləri | meşə bitkisi ilə örtülü torpaqlara keçirilmişdir | qurumuş | qırılmış | meşə bitkiləri ilə örtülü torpaqlara keçirilmişdir | çərti birləşməmiş meşə əkinləri | meşə bitkiləri ilə örtülü torpaqlara keçirilmişdir | çərti birləşməmiş meşə əkinləri | | | cəmi | o cümlədən qeyri-kafi | silinmişdir |
| A | B | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 |

**Direktor** ____________ **Baş meşəbəyi** ____________

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
1999-cu il 26 aprel tarixli 70 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**3 nömrəli forma**
**Bölmə 6**

Aralıq istifadə üçün qırmalar haqqında məlumat
Meşə təsərrüfatı müəssisəsi (MMS, meşə tingliyi, dövlət qoruğu və s.) ________________

sahə, hektarla

| Göstəricilər | Sətrin kodu | Aralıq istifadə üçün qırmaların növləri | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | İşıqlandırma, təmizləmə | seyrəltmə | keçid | yeniləşdirmə | cəmi | seçmə sanitariya qırmaları | yenidənəkmə (rekonstruksiya) qırmaları |
| A | B | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| | | | | | | | | |

**Direktor** ____________ **Baş meşəbəyi** ____________

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
1999-cu il 26 aprel tarixli 70 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**3 nömrəli forma**
**Bölmə 7**

Meşələrin doluluğa və bonitet siniflərinə bölünməsi
Meşə təsərrüfatı müəssisəsi (MMS, meşə tingliyi, dövlət qoruğu və s.) ______________

sahə, hektarla

| Yaş qrupları və doluluq | Sətrin kodu | Cins qrupları və bonitet sinifləri üzrə meşələrin sahəsi | | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | iynəyarpaqlılar | | | | | | bərkyarpaqlılar | | | | | | yumşaqyarpaqlılar | | | | | |
| | | II və yuxarı | III | IV | V | VA-VB | cəmi | II və yuxarı | III | IV | V | VA-VB | cəmi | II və yuxarı | III | IV | V | VA-VB | cəmi |
| A | B | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 | 16 | 17 | 18 |

**Direktor** ____________ **Baş meşəbəyi** __________

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
1999-cu il 26 aprel tarixli 70 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**3 nömrəli forma**
**Bölmə 8**

Meşə fondunun hidromeliorasiya səciyyəsi
Meşə təsərrüfatı müəssisəsi (MMS, meşə tingliyi, dövlət qoruğu və s.) ____________

sahə, hektarla

| I qrup meşələr | Sətrin kodu | Cəmi | o cümlədən | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | meşə torpaqları | | | qeyri-meşə torpaqları | |
| | | | meşə bitkiləri ilə örtülü həddindən artıq rütubətli torpaqlar | meşə bitkiləri ilə örtülü olmayan torpaqlar | | əkin yeri, biçənək, örüş | bataqlıqlar |
| | | | | bataqlıqlar, qırıntı yerləri | sair torpaqlar | | |
| A | B | 1 | 2 | 3 | 4 | 5 | 6 |

**Direktor** ____________ **Baş meşəbəyi** ____________

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
1999-cu il 26 aprel tarixli 70 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**3 nömrəli forma**
**Bölmə 9**

Nəqliyyat yollarının səciyyəsi
Meşə təsərrüfatı müəssisəsi (MMS, meşə tingliyi, dövlət qoruğu və s.) ____________

| Yolların növləri | Sətrin kodu | Uzunluğu, km | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | Cəmi | o cümlədən | | | | |
| | | | meşə təsərrüfatı yollarının tipləri | | | meşə daşıma yolları | ümumi istifadə yolları |
| | | | I | II | III | | |
| A | B | 1 | 2 | 3 | 4 | 5 | 6 |

**Direktor** ____________ **Baş meşəbəyi** ____________

20. — 2730

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
1999-cu il 26 aprel tarixli 70 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**3 nömrəli forma**
**Bölmə 10**

Meşə fondunun vəziyyətinin öyrənilməsi
Meşə təsərrüfatı müəssisəsi (MMS, meşə tingliyi, dövlət qoruğu və s.)______________

saha hektarla

| Göstəricilər | Sətrin kodu | Cəmi | o cümlədən "Azərbmeşə" İstehsalat Birliyinin tabeliyində olan meşə fondu |
|---|---|---|---|
| A | B | 1 | 2 |

**Direktor** ______________ **Baş meşəbəyi** ______________

**Azərbaycan Respublikasının Nazirlər Kabineti**
**Meşələrin qorunub saxlanılması və**
**təkrar istehsalı fondunun istifadə Qaydalarının**
**təsdiq edilməsi haqqında**

**Qərar № 83**

Bakı şəhəri, 21 may 1999-cu il

Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. «Meşələrin qorunub saxlanılması və təkrar istehsalı fondunun istifadə Qaydaları» təsdiq edilsin (əlavə olunur).
2. «Meşə təsərrüfatına dəymiş ziyana görə maddi məsuliyyətə cəlb edilmə qaydaları haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 27 dekabr tarixli 636 nömrəli qərarının 3-cü bəndi və Respublika fondunun Əsasnaməsinin təsdiq edilməsi haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 18 may tarixli 199 nömrəli qərarı qüvvədən düşmüş hesab edilsin.
3. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

*Azərbaycan Respublikasının Baş naziri* *A.RASİ-ZADƏ.*

*Azərbaycan Respublikası*
*Nazirlər Kabinetinin*
*1999-cu il 21 may tarixli*
*83 nömrəli qərarı ilə*
*təsdiq edilmişdir.*

## Meşələrin qorunub saxlanılması və təkrar istehsalı fondunun istifadə

## Qaydaları

1. Meşələrin qorunub saxlanılması və təkrar istehsalı fondu (bundan sonra Fond adlandırılır) Azərbaycan Respublikası meşələrinin bərpasının, mühafizəsinin və qorunmasının, meşə təsərrüfatı istehsalının digər tədbirlərinin, habelə meşə təsərrüfatının inkişafı proqramlarının maliyyələşdirilməsini təmin etmək məqsədilə yaradılmışdır və onun maliyyə mənbələri meşə gəlirlərindən, meşə təsərrüfatına ictimai yardımlardan və digər vəsaitlərdən ibarətdir.
2. Meşə gəlirinin tərkibinə aşağıdakılar daxil olunur:
   - müqavilə ilə istifadəyə verilmiş meşə ehtiyatlarına görə alınan vəsait (oduncaq tədarükü istisna olunmaqla);
   - meşəqırma bileti və order əsasında kötükstə buraxılan oduncağa, habelə istifadə üçün yararlı olan, külək və tufan yıxan oduncağa, ikinci dərəcəli meşə ehtiyatlarının tədarükünə görə alınan vəsait;
   - meşədən əlavə istifadəyə görə daxil olan məbləğlər;
   - respublika meşələrində müsadirə (sekvestr) edilmiş, habelə sahibi məlum olmayan oduncağın, meşə materiallarının, ikinci dərəcəli meşə ehtiyatlarının, meşədən əlavə istifadəyə görə tədarük edilmiş məhsulların satışından daxil olan vəsait;
   - oduncağın və ikinci dərəcəli meşə ehtiyatlarının tədarükü və daşınma müddətinin uzadılmasına, habelə meşə gəlirinin vaxtında ödənilməməsi üçün hesablanan peniyalar;
   - Azərbaycan Respublikasının meşələrində kötükstü oduncaq buraxılışı qaydalarının pozulmasına görə ödənilən cərimələr;
   - meşə qanunvericiliyinin pozulmasına görə meşə fonduna dəyən ziyanın hüquqi və fiziki şəxslər tərəfindən ödənilən məbləğlər;
   - meşə fondu torpaqlarının birdəfəlik kənarlaşdırılması ilə bağlı olan ödəmələr;
   - meşə təsərrüfatına dəyən zərər və itkilərə görə ödəmələr;
   - sair daxilolmalar.
3. Fondun vəsaitləri Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən təsdiq edilən aşağıdakı istiqamətlərə sərf olunur:
   - meşələrin mühafizəsinə və qorunmasına;
   - meşələrin bərpasına və meşəsalma işlərinə;
   - ərazinin ekoloji cəhətdən sağlamlaşdırılmasına;
   - meşələrin monitorinqinə, meşə təsərrüfatı sahəsində aparılan elmi-tədqiqat və layihə axtarış işlərinə (meşə quruluşu, torpaqların inventarizasiyası, meşə fondunun uçotu);
   - turizm və rekreasiya xidməti üçün sahələrin yaradılmasına, bu sahənin inkişafına sərf olunan digər xərclərə;

- meşə təsərrüfatının idarə edilməsi və aparılması ilə bağlı olan tədbirlərin maliyyələşdirilməsinə, o cümlədən qanunvericilikdə nəzərdə tutulan qaydada əlavə əmək haqqının və mükafatların verilməsinə;
- meşələrin bərpasının, mühafizəsinin və qorunmasının, meşə təsərrüfatı istehsalının digər tədbirlərinin maliyyələşdirilməsinə; meşə təsərrüfatının inkişafı proqramlarında nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilməsinə.

4. Fondun maliyyə vəsaitləri müvafiq rayonlarda fəaliyyət göstərən meşə təsərrüfatı müəssisələri tərəfindən əldə edilir və Azərbaycan Respublikası Maliyyə nazirliyinin müəyyən etdiyi qayda üzrə yerli xəzinədarlıq orqanlarında açılmış cari hesablara toplanılır.
   Fonda toplanmış vəsaitin sərf edilməsi mövcud qanunvericiliyə uyğun olaraq həyata keçirilir.
5. Respublika meşələrinin ərazi üzrə bərabər paylanmadığını və bununla əlaqədar meşə təsərrüfatları tərəfindən əldə olunan vəsaitin Fondda rayonlar üzrə kəskin fərqləndiyini nəzərə alaraq və əldə olunan vəsaitləri daha səmərəli istifadə etmək məqsədilə Fond daxilində onların bir qismi mərkəzləşdirilmiş qaydada bölüşdürülə bilər. Bu bölüşdürmə Fonda toplanan vəsaitin məbləğindən və meşə təsərrüfatı istehsalı (büdcə fəaliyyəti) üzrə olan xərclərdən asılı olaraq, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən müəyyən olunmuş normativlər əsasında həyata keçirilir.
6. Fond daxilində mərkəzləşdirilmiş qaydada maliyyə əməliyyatlarının aparılması üçün Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin ona xidmət edən xəzinədarlıq orqanlarında Fond üzrə cari hesabı açılır.
7. Fondun vəsaitlərinin formalaşdırılması və sərf edilməsi üzərində nəzarət müvafiq qaydada Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Maliyyə Nazirliyi tərəfindən həyata keçirilir.
8. Fondun vəsaitlərinin formalaşdırılması və istifadə edilməsinə dair Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə müvafiq hesabat təqdim edir.
9. Fondun ilin axırına istifadə olunmamış vəsaiti toxunulmaz qalır və həmin vəsait növbəti ildə fondun gəlirlərinə daxil edilərək bu Qaydalar əsasında istifadə edilir.

## Meşə təsərrüfatı sahəsinə dair bəzi normativ-hüquqi aktların təsdiq edilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

«Azərbaycan Respublikasının 1997-ci il 30 dekabr tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikası Meşə Məcəlləsinin tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 30 mart tarixli 693 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. «Meşə təsərrüfatı sahəsində dövlət statistika hesabatının aparılması Qaydaları» və «Meşə yanğınlarının söndürülməsinə fiziki və hüquqi şəxslərin cəlb olunması Qaydası» təsdiq edilsin.
2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

*Azərbaycan Respublikasının Baş naziri* *A. RASİZADƏ*

Bakı şəhəri, 9 iyul 1999-cu il
№ 116

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin*
*1999-cu il 9 iyul tarixli 116 nömrəli qərarı ilə*

*TƏSDİQ EDİLMİŞDİR*

## Meşə təsərrüfatı sahəsində dövlət statistika hesabatının aparılması

## QAYDALARI

### 1. ÜMUMİ MÜDDƏALAR

1. Bu Qaydalar meşə təsərrüfatının spesifik xüsusiyyətləri nəzərə alınmaqla statistik hesabatın aparılmasını tənzimləyir və vahid dövlət məlumatlandırma sisteminin təşkilində istifadə olunur.
2. Meşə təsərrüfatı tərəfindən tərtib edilən statistik hesabatda aşağıdakı yerinə yetirilmiş işlər nəzərə alınır:
   meşə əkini və səpini, meşənin təbii bərpasına köməklik tədbirləri, qırıntı sahələrində qırma növləri üzrə istehsal olunan oduncaq kütləsi, meşələrin törtöküntüdən təmizlənməsi;
   yanğın mühafizə qaydalarının pozulması halları, yanğınların sayı, yanmış sahə, yanğının baş vermə səbəbləri;
   yerinə yetirilmiş meşə təsərrüfatı işlərinin həcmi və pul ifadəsi;
   meşələrin ziyanvericilərdən və xəstəliklərdən qorunması;
   qırma növləri üzrə oduncaq hazırlığı, istehsal olunmuş oduncaq qalığı, qırma qaydalarının pozulması, sahələrin qırıntı qalıqlarından təmizlənməsi;
   meşə təsərrüfatı müəssisələrində işçilərin ümumi sayı, əmək haqqı, işəmuzd görülən işlərin həcmi, vaxtı və dəyəri.
3. 3. Meşə təsərrüfatı müəssisələrində aparılan statistik hesabat ayrı-ayrı meşəbəyiliklər üzrə təsdiq edilmiş proqnoz və tapşırıqlara uyğun olaraq faktiki görülmüş meşə təsərrüfatı tədbirlərinin iş naryadları, meşəqırma bileti, order və meşə bileti, yaz, payız, qəfləti, növbəti, təhvil-təslim və sair yoxlama sənədləri əsasında hazırlanır.
   Meşə təsərrüfatı müəssisələri meşəbəyiliklər üzrə təqdim olunmuş ayrı-ayrı hesabatları təhlil edir, dürüstlüyünü yoxlayır və yekunlaşdırılmış statistik hesabatı müəyyən edilmiş vaxtlarda Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə və yerli statistika orqanlarına təqdim edir.
4. Meşə təsərrüfatı müəssisələri təqdim etdikləri statistik hesabatın dürüstlüyünə cavabdehdirlər.
5. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi meşə təsərrüfatı müəssisələrindən aldığı statistik hesabatı təsdiq edilmiş proqnoz və tapşırıqlarla üzləşdirir, təhlil edir və yekun sənədləri Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə müəyyən olunmuş vaxtlarda təqdim edir.
   Tərtib edilmiş ilkin statistik hesabat meşə təsərrüfatı müəssisəsinin fəaliyyətinin səciyyələndirilməsində istifadə olunur.
6. Meşə təsərrüfatı sahəsində dövlət statistika hesabatı Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən təsdiq edilir və bu zaman onun təqdim edilmə dövriliyi, vaxtı, həcmi və forması müəyyənləşdirilir.

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin*
*1999-cu il 9 iyul tarixli 116 nömrəli qərarı ilə*

*TƏSDİQ EDİLMİŞDİR*

**Meşə yanğınlarının söndürülməsinə fiziki və hüquqi şəxslərin cəlb olunması**

## QAYDASI

1. Bu Qayda meşə fondunda baş vermiş yanğınların söndürülməsində fiziki və hüquqi şəxslərin cəlb edilməsini tənzimləyir.
2. Meşə yanğını baş verdikdə meşə təsərrüfatı müəssisəsi təcili olaraq rayon (şəhər) icra hakimiyyəti orqanlarının fövqəladə hallar üzrə komissiyasına (bundan sonra Komissiya adlanacaq) , Fövqəladə Hallar Nazirliyinə və Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə xəbər verir.
3. Meşə yanğınlarının söndürülməsinə meşə təsərrüfatı müəssisənin könüllü yanğın mühafizə dəstələri, Komissiyanın və Fövqəladə Hallar Nazirliyinin tapşırığına əsasən dövlət yanğın təhlükəsizliyi xidməti, əhali, nəqliyyat, rabitə vasitələri, çaparlar və digər qüvvələr cəlb edilirlər.
4. Komissiya və Fövqəladə Hallar Nazirliyi meşə yanğının əhatə etdiyi ərazinin böyüklüyündən, yanğının növündən, meteoroloji və sair amillərdən asılı olaraq, onun tez müddətdə söndürülməsi üçün operativ tədbirləri müəyyənləşdirir, Azərbaycan Respublikası Fövqəladə Hallar üzrə Dövlət Komissiyasına və aidiyyəti nazirlik, komitə, idarə və təşkilatlara məlumat verir. Operativ tədbirləri hazırlamaq üçün aşağıdakı məsələlər dəqiqləşdirilir:
   yanğın söndürülməsinə cəlb ediləcək fiziki və hüquqi şəxslərin sayı və onlara radio, telefon və çaparlar vasitəsilə xəbərdarlıq olunmasının təşkili;
   yanğın baş vermiş əraziyə göndərilmək üçün bölgələrdə yanğınsöndürücü alət və vasitələrin miqdarı və vəziyyəti;
   təbii və süni su ehtiyatlarının mövcudluğu;
   rabitə vasitələri ilə təminat;
   yanğın yerlərində nəqliyyat yolları, relyef və torpaq örtüyü barədə məlumat;
   hüquqi və fiziki şəxslərin yanğın yerinə çatdırılması üçün nəqliyyat vasitələrinin təşkili;
   tibbi və iaşə xidmətinin təşkili.
5. Fövqəladə Hallar Nazirliyi meşə yanğınlarının yaşayış məntəqələrində və digər obyektlərdə yayılma təhlükəsi olan sahələri nəzarətdə saxlayır, yayılma dərəcəsindən asılı olaraq yanğının kəşfiyyatını təşkil edir və baş vermiş yanğınların daha geniş yayılması təhlükəsi olan hallarda əlavə qüvvələri, aviasiya vasitələrini və qonşu rayonların (şəhərlərin) dövlət yanğın təhlükəsizliyi xidmətlərini, mülki müdafiə dəstələrini, yerli radio qovşağı, telefon və digər rabitə vasitələri ilə elan etdirməklə meşə yanğınlarının söndürülməsinə cəlb edir.
   Digər fiziki və hüquqi şəxslər meşə yanğınlarının söndürülməsinə Fövqəladə Hallar Nazirliyi tərəfindən könüllü cəlb edilir.
6. Meşə yanğınlarının söndürülməsi üçün cəlb edilmiş fiziki və hüquqi şəxslərə tibbi xidmət göstərilməsi məqsədi ilə təcili yardımın, səhiyyə işçilərinin, nəqliyyat vasitələrinin, yanğınsöndürən avadanlıqların yanğın yerinə göndərilməsi müvafiq idarə, müəssisə və təşkilatların rəhbərliyi tərəfindən həyata keçirilir.
7. Meşə yanğını baş verən ərazilərdə rabitə vasitələrindən, nəqliyyatdan və yanğınsöndürən avadanlıqlardan növbədənkənar istifadə edilir.
8. Meşə yanğınlarının söndürülməsinə cəlb olunan fiziki və hüquqi şəxslər yanğın təhlükəsizliyi qaydalarına riayət etməlidirlər.

# Meşə təsərrüfatı ilə bağlı bəzi məsələlər haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

I. «Azərbaycan Respublikasının 1997-ci il 30 dekabr tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikası Meşə Məcəlləsinin tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 30 mart tarixli 693 nömrəli Fərmanının icrası ilə əlaqədar:

1. Meşəqırma biletinin, orderin və meşə biletinin formaları təsdiq edilsin (əlavə olunur).

2. «Meşəqırma biletinin, orderin və meşə biletinin uçotu, saxlanılması, doldurulması və verilməsi Qaydaları» və «Meşə təsərrüfatına dəyən zərərin və itkilərin ödənilməsi Qaydası» təsdiq edilsin (əlavə olunur).

II. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 17 oktyabr tarixli 214 nömrəli qərarı ilə təsdiq edilmiş «Meşə fondu torpaqlarının icarəyə verilməsi Qaydası»nın 4-cü bəndinin üçüncü abzasından «və ödənişsiz meşə bileti verilir» sözləri, 7-ci bəndinin ikinci abzasından «və meşə bileti» sözləri çıxarılsın.

III. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 30 oktyabr tarixli 219 nömrəli qərarı ilə təsdiq edilmiş «Meşə fondu sahələrindən elmi tədqiqat, mədəni-sağlamlaşdırma, turizm və idman məqsədləri, ovçuluq təsərrüfatının ehtiyacları üçün istifadə Qaydaları»nda aşağıdakı dəyişikliklər və əlavələr edilsin:

2-ci bəndin ikinci abzasında «müəyyən olunmuş qaydada meşə istifadəçisinə meşə bileti verilir» sözləri «meşə istifadəçisi ilə müqavilə bağlanılır» sözləri ilə, həmin bəndin üçüncü abzasında «meşə bileti verilmədiyi» sözləri «müqavilə bağlanılmadığı» sözləri ilə, 3-cü bənddə «Meşə bileti» sözləri «Müqavilə» sözü ilə, 4-cü və 5-ci bəndlərinin üçüncü abzaslarında və 6-cı bənddə «meşə biletinin» sözləri «müqavilənin» sözü ilə, 7-ci bəndin 5-ci abzasında «meşə biletində» sözləri və 9-cu bəndin üçüncü abzasında «meşə biletinə» sözləri «müqavilədə» sözü ilə əvəz edilsin.

Aşağıdakı redaksiyada yeni 10-cu bənd əlavə edilsin:

«Meşə fondu sahələrindən elmi tədqiqat, mədəni-sağlamlaşdırma, turizm və idman məqsədləri, ovçuluq təsərrüfatının ehtiyacları üçün istifadə müqaviləsinin forması Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən hazırlanır və təsdiq edilir.»

IV. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 7 dekabr tarixli 230 nömrəli qərarı ilə təsdiq edilmiş «Meşə fondu sahələrinin bir ilə qədər qısamüddətli istifadəyə verilməsi qaydası»nda aşağıdakı dəyişikliklər və əlavələr edilsin:

2-ci bəndin üçüncü abzasında «istifadəçiyə meşə fondu sahələrinin qısamüddətli istifadəsi üçün meşə bileti verilir» sözləri «meşə istifadəçisi ilə meşə fondu sahələrinin qısamüddətli istifadəyə verilməsinə dair müqavilə bağlanılır» sözləri ilə, həmin bəndin dördüncü abzasında «Meşə bileti verilməsindən imtina edildiyi» sözləri «Müqavilə bağlanılmadığı» sözləri ilə və 3-cü bənddə «meşə bileti alındığı» sözləri «müqavilə bağlanıldığı» sözləri ilə əvəz edilsin.

Aşağıdakı redaksiyada yeni 6-cı bənd əlavə edilsin:

«Meşə fondu sahələrinin bir ilə qədər qısamüddətli istifadəyə verilməsinə dair müqavilə forması Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən hazırlanır və təsdiq edilir».

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

*Azərbaycan Respublikasının Baş naziri* *A. RASİZADƏ*

Bakı şəhəri, 4 oktyabr 1999-cu il № 161

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin*
*1999-cu il 4 oktyabr tarixli 161 nömrəli qərarı ilə*

*TƏSDİQ EDİLMİŞDİR*

## Meşəqırma biletinin, orderin və meşə biletinin uçotu, saxlanılması, doldurulması və verilməsi

## QAYDALARI

### 1. ÜMUMİ MÜDDƏALAR

1.1. Bu Qaydalar Azərbaycan Respublikasının Meşə Məcəlləsinə uyğun meşəqırma biletinin, orderin və meşə biletinin uçotunu, saxlanılmasını, doldurulmasını və meşə fondu ehtiyatlarının istifadəsi üçün mülkiyyət və təşkilati hüquqi formasından asılı olmayaraq, hüquqi və fiziki şəxslərə (bundan sonra — meşə istifadəçiləri adlandırılır) verilməsini tənzimləyir.

1.2. Meşəqırma bileti oduncaq və ikinci dərəcəli meşə materiallarının tədarükü və daşınması üçün hüquq verən sənəddir.

1.3. Order özü yıxılmış və ya qurumuş ağaclardan oduncaq hazırlamaq, ağac tör-töküntüsü və ikinci dərəcəli meşə materiallarının tədarükü, daşınması üçün hüquq verən sənəddir. Order meşəqırma bileti əsasında verilir.

1.4. Meşə bileti onun sahibinə əlavə meşə istifadələri üçün (ot çalımı, pətəklərin və arıxanaların yerləşdirilməsi, yabanı meyvə, göbələk, giləmeyvə, qərzəkli və digər məhsullar, palıd qozası, dərman bitkiləri, texniki xammal, mamır, meşə döşənəyi, tökülmüş yarpaq, qarğı, qamış, çəkil, cil və digərlərinin tədarükü və yığılması, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən təsdiq edilmiş siyahı ilə müəyyənləşdirilən başqa əlavə istifadə) hüquq verən rəsmi sənəddir.

1.5. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi meşəqırma biletini, orderi və meşə biletini mərkəzləşdirilmiş qaydada hazırlayır və yerli meşə təsərrüfatı müəssisələrini təmin edir.

1.6. Meşəqırma bileti, order və meşə bileti zəruri hallarda Azərbaycan dili ilə birlikdə tələb olunan dildə də tərtib edilə bilər.

### 2. MEŞƏQIRMA BİLETİNİN, ORDERİN VƏ MEŞƏ BİLETİNİN UÇOTU VƏ SAXLANILMASI

2.1. Meşəqırma bileti, order və meşə bileti ciddi hesabat blanklarına aid edilir.

2.2. Ciddi hesabat blankları qanunvericilikdə nəzərdə tutulmuş qaydada müəssisənin anbarında saxlanılmaqla, uçota alınır. Müəssisə rəhbərinin icazəsi ilə təhtəlhesab şəxslərə (icraçılara) qaimə faktura əsasında verilir və onlarla tam maddi-məsuliyyət barədə nümunəvi fərdi müqavilə bağlanılır. Verilmiş ciddi hesabat blanklarının uçotu «Ciddi hesabat blankları» adlı balansarxası hesabda, mədaxil və məxaric üzrə hərəkətin qeydiyyatı isə əmlakın (qiymətlərin) uçot kartı FN-1Q-də materialların uçotu qaydasında aparılır.

2.3. Ciddi hesabat blanklarının cırılmasına, pozulmasına, ləkələnməsinə və onların üzərində düzəliş aparılmasına yol verilmir. Korlanmış ciddi hesabat blanklarının üzərində «etibarsızdır» sözü yazılaraq əvəzinə yenisi doldurulur. Korlanmış ciddi hesabat blankları müvafiq qaydada mühasibata təhvil verilir. Həmin blanklar

mühasibatda yoxlama (təftiş) keçirildikdən sonra sənədlərin arxivə verilməsi üçün mövcud olan qaydalar əsasında arxivə təhvil verilir.

## 3. MEŞƏQIRMA BİLETİNİN, ORDERİN VƏ MEŞƏ BİLETİNİN DOLDURULMASI VƏ VERİLMƏSİ

3.1. Meşəqırma bileti, order və meşə bileti meşə istifadəçilərinə yerli meşə təsərrüfatı müəssisələri tərəfindən verilir.

3.2. Meşəqırma biletində aşağıdakılar göstərilir:

Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin adı; meşəqırma biletinin nömrəsi və verilmə tarixi; hüquqi şəxslər üçün — meşəqırma bileti verilən müəssisə, təşkilat, idarənin adı və hüquqi ünvanı; fiziki şəxslər üçün — adı, atasının adı, soyadı, şəxsiyyəti təsdiq edən sənədin məlumatları (seriya, nömrə, kim tərəfindən və nə vaxt verilmişdir, yaşayış yeri); meşə qırmalarına icazə verən sənədin adı, tarixi və nömrəsi; meşə təsərrüfatı müəssisəsinin, meşəbəyliyin (meşə ustası sahəsinin) adı; meşə istifadəsinin növü; qırma və qeydə alma üsulu; meşənin qrupu, kvartalın və qırıntı yerlərinin nömrəsi, meşə quruluşu layihələri əsasında istifadə üçün ayrılmış sahə, əsas ağac cinsləri; oduncağın kütləsi və nırx üzrə qiyməti; hazırlanacaq oduncağın və ikinci dərəcəli meşə materiallarının dəyərinin ödəmə məbləği və müddəti; hər qırıntı sahəsi üzrə saxlanılacaq yeniyetmə, toxumluq və xüsusi qiymətli ağacların miqdarı; müvəqqəti anbarların yeri; oduncağın və ikinci dərəcəli meşə materiallarının tədarükü və daşınma müddəti; Azərbaycan Respublikasının meşə qanunvericiliyində nəzərdə tutulmuş və meşə istifadəsinə dair xüsusi şərtlər.

Meşəqırma bileti yerli meşə təsərrüfatı müəssisəsinin direktoru (o olmadıqda, onun müavini) və baş meşəbəyi (meşə ustası) tərəfindən imzalanır və bu müəssisənin möhürü ilə təsdiq edilir.

Oduncağın tədarük və daşınma üzrə möhlət verilərkən meşə təsərrüfatı müəssisəsi tərəfindən meşəqırma biletində müvafiq qeydlər aparılır və bu müəssisənin direktoru (o, olmadıqda, onun müavini) tərəfindən imzalanır və möhürlə təsdiq edilir.

3.3. Meşəqırma biletinin dəsti üç nüsxədən ibarətdir: birinci nüsxəsi meşə istifadəçisinə, ikinci nüsxəsi meşəbəyliyə və ya meşə ustası sahəsinə verilir, üçüncü nüsxəsi isə meşə təsərrüfatı müəssisəsində saxlanılır.

3.4. Orderdə aşağıdakılar göstərilir:

meşəqırma biletinin tarixi, seriyası, nömrəsi və bu bileti verən meşə təsərrüfatı müəssisəsinin adı; meşə dolayısının, kvartalın, qırıntı yerinin nömrəsi və sahəsi, qeydə alınma üsulu, hündürlük dərəcəsi və meşənin qrupu; tədarük edilmiş oduncağın və qırıntı yerinin müayinə aktları.

Orderin digər göstəriciləri meşəqırma biletinin uyğun göstəriciləri ilə eynidir.

Order yerli meşə təsərrüfatı müəssisəsinin direktoru (o olmadıqda, onun müavini) və baş meşəbəyi (meşə ustası) tərəfindən imzalanır və bu müəssisənin möhürü ilə təsdiq edilir.

3.5. Orderin dəsti üç nüsxədən ibarətdir: birinci nüsxəsi meşə istifadəçisinə, ikinci nüsxəsi meşə dolayısının gözətçisinə verilir, üçüncü nüsxəsi isə hazırlıq, tədarük və daşınma müddəti qurtarana kimi orderi verən məşəbəylikdə və ya meşə ustası sahəsində qalır. Mövsüm qurtardıqda orderin üçüncü nüsxəsi müvafiq meşə təsərrüfatı müəssisəsinə təhvil verilir.

3.6. Meşə biletində aşağıdakılar göstərilir:

Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin adı;

meşə biletinin nömrəsi, seriyası və biletin verilmə tarixi; hüquqi şəxslər üçün — meşə bileti verilən müəssisə, təşkilat, idarənin adı və hüquqi ünvanı; fiziki şəxslər üçün — adı, atasının adı, soyadı, şəxsiyyəti təsdiq edən sənədin məlumatları (seriya, nömrə, kim tərəfindən və nə vaxt verilmişdir, yaşayış yeri); meşə təsərrüfatı müəssisəsinin, meşəbəyliyin (meşə ustası sahəsinin) adı, meşə dolayısının, kvartalın, bölməsinin nömrəsi; meşə istifadəsinə icazə verən sənədin adı, tarixi və nömrəsi; meşə istifadəsinin növləri və ölçüləri; meşədən istifadə növünə görə nırx qiyməti; meşədən istifadəyə görə ödəmə məbləği; meşə istifadəsinin başlanma və qurtarma müddəti; Azərbaycan Respublikasının meşə qanunvericiliyində nəzərdə tutulmuş və meşə istifadəsinə dair xüsusi şərtlər.

Meşə bileti yerli meşə təsərrüfatının müəssisəsinin direktoru (o olmadıqda, onun müavini) tərəfindən imzalanır və bu müəssisənin möhürü ilə təsdiq edilir.

3.7. Meşə bileti üç nüsxədən ibarətdir: birinci nüsxəsi meşə istifadəçisinə, ikinci nüsxəsi məşəbəyliyə (meşə ustası sahəsinə) verilir, üçüncü nüsxəsi isə meşə təsərrüfatı müəssisəsində saxlanılır.

3.8. Meşəqırma bileti, order və meşə bileti «Azərbaycan Respublikası meşələrində köküstü oduncaq buraxılışı Qaydaları» və «Meşə fondundan ikinci dərəcəli meşə sərvətlərinin tədarükü və meşədən əlavə istifadə Qaydası» ilə müəyyən olunmuş müddətlərdə meşə istifadəçilərinə verilir.

Müddəti bitmiş meşəqırma bileti, order və meşə bileti, habelə mövcud qanunvericiliyə uyğun meşə istifadəçisi meşə fondu sahələrindən istifadə hüququna xitam verildikdə bu sənədlər etibarsız sayılır.

3.9. Meşəqırma bileti, order meşə bileti verilərkən meşə istifadəçiləri mövcud qanunvericilik, habelə meşə istifadəsinin növündən asılı olaraq, müvafiq normativ hüquqi aktları ilə tanış edilir və onların pozulmasına görə məsuliyyətə cəlb edilməsi barədə məlumatlandırılır.

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin*
*1999-cu il 4 oktyabr tarixli 161 nömrəli qərarı ilə*

*TƏSDİQ EDİLMİŞDİR*

## Meşə təsərrüfatına dəyən zərərin və itkilərin ödənilməsi

## QAYDASI

1. Bu Qayda meşə təsərrüfatına dəyən zərərin və itkilərin ödənilməsini tənzimləyir.
2. Meşə fondu torpaqlarının qeyri-meşə torpaqlarına keçirilməsi, habelə mülkiyyət və təşkilati hüquqi formasından asılı olmayaraq hüquqi və fiziki şəxslər tərəfindən (bundan sonra — fiziki və hüquqi şəxslər adlandırılır) meşə fondu ehtiyatlarının istifadəsi zamanı Azərbaycan Respublikası Meşə Məcəlləsinin pozulması ilə əlaqədar meşə təsərrüfatına dəyən zərər və itkilər tam şəkildə ödənilməlidir.
3. Meşə fondu torpaqlarının qeyri-meşə torpaqlarına keçirilməsi (su qovşaqlarının, boru kəmərlərinin, yolların, elektrik xətlərinin tikintisi zamanı və s.) Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə müəyyən olunur.
   Bu halda meşə fondu torpaqlarının kadastr qiyməti əsasında hesablanmış dəyəri onları istifadə edəcək fiziki və hüquqi şəxslər tərəfindən ödənilir.
4. Meşə fondunun vəziyyətinə, istifadəsinə, mühafizəsinə, qorunmasına və meşələrin bərpasına dövlət nəzarətini həyata keçirən səlahiyyətli şəxslər meşə qanunvericiliyinin tələblərinə fiziki və hüquqi şəxslər tərəfindən əməl edilməməsini aşkar edərkən bu barədə müvafiq qaydada akt tərtib edirlər və hüquqpozmalar nəticəsində meşə təsərrüfatına dəyən zərəri və itkiləri müəyyən olunmuş nırx dərəcələri və cərimələr üzrə hesablayaraq, ümumi məbləğin ödənilməsinə sərəncam verirlər.
5. Fiziki və hüquqi şəxslər meşə təsərrüfatına dəyən zərər və itkilər barədə tərtib olunmuş aktla razılaşmadıqları halda mövcud qanunvericiliyə uyğun aidiyyəti məhkəməyə şikayət edə bilərlər.
6. Meşə fondu torpaqlarının qeyri-meşə torpaqlarına keçirilməsi və Azərbaycan Respublikası Meşə Məcəlləsinin pozulması ilə əlaqədar müəyyən olunmuş zərərin və itkilərin dəyəri müvafiq meşə təsərrüfatına ödənilir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
1999-cu il 4 oktyabr tarixli 161 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

## Meşəqırma biletinin, orderin və meşə biletinin formaları

______ №-li MEŞƏQIRMA BİLETİ
seriya və nömrələr (mətbəə tərəfindən həkk edilir)

"____" ____________ il

______________________________________________
(kim tərəfindən verilir — nazirlik, komitə, birlik)

______________________________________________
(kimə verilir — müəssisə, təşkilat, idarənin adı və hüquqi ünvanı və ya fiziki şəxsin adı, atasının adı, soyadı, şəxsiyyəti təsdiq edən sənədin məlumatları)
________________________ əsasında oduncaq və ikinci dərəcəli meşə materiallarının tədarükünə _____ ilin
(meşə qırmalarına icazə verən sənədin adı, tarixi və nömrəsi)
meşəqırma fondu hesabına icazə verilir.
________________ meşə təsərrüfatı müəssisəsi
________________ meşəbəyiliyi (meşə ustası sahəsi)
Meşə istifadəsinin növü ____________

Qırma üsulu ________________
Qeydə alma üsulu ________________

________________________________________ əsasən güzəşt verilir.
(güzəştin edilməsinə əsas verən hüquqi sənəd)

| Meşənin qrupu | Kvartalların №-si | Qırıntı yerlərinin nömrəsi | Qırıntı yerlərinin sahəsi (hektarla) | Ağac cinsləri | Yeniyetmələrin qorunması təmin edilməlidir | | Oduncağın kütləsi (sıx kub. m.) | | | | Nırx üzrə qiyməti (manatla) | | | | ödənilməlidir (manatla) |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | sahə hektarla | 1 hektarda miqdarı | işlik | odun | şax və çırpı | cəmi | işlik | odun | şax və çırpı | cəmi | |
| | | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | | |
| Yekunu: | | | | | | | | | | | | | | | |

Hazırlanacaq oduncağın və ikinci dərəcəli meşə materiallarının dəyərinin ödənmə müddəti ______________
______________________________________________ qırılmamalıdır
(hər qırıntı sahəsi üzrə toxumluq ağacların və xüsusi qiymətli ağacların miqdarı)
"_____" ______________ il tarixə kimi oduncaq tədarükü qurtarmalıdır.

Müvəqqəti anbarların yeri ______________________________

"___" ______________ il tarixdən oduncaq daşınmasına icazə verilir.

"___" ______________ il tarixə kimi oduncaq daşınması qurtarmalıdır.

______________________________

______________________________ vaxtından əvvəl qırmağa icazə verilir.

Təmizləmə üsulu ______________________________

______________________________

Qırıntı sahəsindən istifadə təsdiq edilmiş texnoloji xəritəyə əsasən aparılır.

Xüsusi şərtlər ______________________________

______________________________

Azərbaycan Respublikası meşələrində kötüstə oduncaq buraxılışı qaydaları və yanğından təhlükəsizlik qaydaları ilə tanış edildim.

______________

(meşə istifadəçisinin imzası)

M.Y. Meşə təsərrüfatı müəssisəsinin direktoru ______________ Baş meşəbəyi (meşə ustası) ______________

(imza) (imza)

Tədarük və daşımaq üzrə möhlət verilməsi barədə qeydlər:

______________________________

______________________________

M.Y. Meşə təsərrüfatı müəssisəsinin direktoru ______________________________

(imza)

**№-li ORDER “___“ ________________il**

seriya və nömrələr (mətbəə tərəfindən həkk edilir)

____________________________________________________________

(kim tərəfindən verilir — nazirlik, komitə, birlik)

____________________________________________________________

(kimə verilir — müəssisə, təşkilat, idarənin adı, hüquqi ünvanı və ya fiziki şəxsin adı, atasının adı, soyadı, şəxsiyyəti təsdiq edən sənədin məlumatları)

______________________________ oduncaq və ikinci dərəcəli meşə materiallarının tədarükünə və müayinə aktı üzrə onların daşınmasına icazə verilir.

__________________ meşə təsərrüfatı müəssisəsi tərəfindən verilən _______ il tarixli _______ seriyalı _______ №-li meşəqırma biletinə əsasən ___________ meşəbəyiliyinin (meşə ustası sahəsinin) __________ №-li meşə dolayısının ___________ №-li kvartalındakı ________ №-li qırıntı sahəsinin _______ hektarında ________ hesabı ilə ________ hündürlük dərəcəsi ________ meşənin qrupu ______

| Ağacların | | | Oduncağın kütləsi (sıx kub. m.) | | | | Nırx üzrə qiymət (manatla) | | | | Güzəşt və yaxud əlavənin məbləği (manatla) | ödənilməlidir (manatla) |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Cinsi | Diametri (sm) | miqdarı (ədədlə) | işlik | odun | şax və çırpı | cəmi | işlik | odun | şax və çırpı | cəmi | | |
| | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | |
| Yekunu: | | | | | | | | | | | | |

Hazırlanacaq oduncağın və ikinci dərəcəli meşə materiallarının dəyərinin ödəmə müddəti ____________________

Təmizləmə tədarüklə eyni vaxtda ________________________________________ aparılmalıdır.

(üsulun növü)

“____“ ________________ il tarixə kimi tədarük qurtarmalıdır.

“____“ ________________________ il tarixdən “____“ ____________ il tarixə kimi oduncaq daşımasına icazə verilir.

Kötükdə oduncaq buraxılışı və yanğından təhlükəsizlik qaydaları ilə tanış edildim ________________________

(meşə istifadəçisinin imzası)

M.Y. Meşə təsərrüfatı müəssisəsinin direktoru _____________ Baş meşəbəyi (meşə ustası) _____________

(imza) (imza)

Oduncaq daşınmasına möhlət verilməsi haqqında qeyd ________________________________________

M.Y. Meşə təsərrüfatı müəssisəsinin direktoru _____________

(imza)

## TƏDARÜK EDİLMİŞ ODUNCAĞIN MÜAYİNƏ

**A K T I** “____“ ________il

Həmin order üzrə ________________________________________

________________________________________________________

________________________________________________________

________________________________________________________

________________________________________________________

_______________________________________________ hazırlanmışdır.

İmzalar:

________________________________________________________

________________________________________________________

## QIRINTI YERİNİN MÜAYİNƏ

**A K T I** “____“ ________il

Həmin order üzrə qırıntı sahəsini yoxlayarkən ____________________________

________________________________________________________

________________________________________________________

________________________________________________________

________________________________________________________

_______________________________________________ aşkar edilmişdir.

İmzalar: _________________________________________________

**Meşə təsərrüfatı sahəsinə dair bəzi normativ hüquqi aktlar haqqında**

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN

## QƏRARI

«Azərbaycan Respublikasının 1997-ci il 30 dekabr tarixli Qanunu ilə təsdiq edilmiş «Azərbaycan Respublikası Meşə Məcəlləsinin tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 30 mart tarixli 693 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. «Meşə fondu torpaqlarının geri alınması ilə əlaqədar meşə istifadəçilərinə dəyən ziyanın ödənilməsi Qaydası» və «Köküstə buraxılan oduncaq və ikinci dərəcəli meşə ehtiyatlarının məcburi sertifikatlaşdırılmasının təşkili və aparılması Qaydası» təsdiq edilsin (əlavə olunur).
2. «Məhsulların (işlərin, xidmətlərin) sertifikatlaşdırılmasının mərhələlər üzrə tətbiq edilməsi haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 1 iyul tarixli 343 nömrəli qərarı ilə təsdiq edilmiş «Təhlükəsizliyi təmin ediləcək məhsulların siyahısı»na «Köküstə buraxılan oduncaq və ikinci dərəcəli meşə ehtiyatları» sözləri əlavə edilsin.
3. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

*Azərbaycan Respublikasının Baş naziri* *A. RASİZADƏ*

Bakı şəhəri, 8 noyabr 1999-cu il
№ 174

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin*
*1999-cu il 8 noyabr tarixli 174 nömrəli qərarı ilə*

*TƏSDİQ EDİLMİŞDİR*

**Meşə fondu torpaqlarının geri alınması ilə əlaqədar meşə istifadəçilərinə dəyən ziyanın ödənilməsi**

# QAYDASI

1. Bu Qayda meşə fondu torpaqlarının geri alınması ilə əlaqədar mülkiyyət və təşkilatı hüquqi formasından asılı olmayaraq, meşə fondu sahələrindən istifadə hüququ verilən hüquqi və fiziki şəxslərə (bundan sonra - meşə istifadəçiləri) dəyən ziyanın ödənilməsini müəyyənləşdirir.
2. Meşə təsərrüfatının idarə edilməsi (meşə, habelə meşə ilə örtülü olmayan meşə fondu torpaqlarının səmərəli istifadəsi, mühafizəsi, qorunması və bərpası), meşə fondundan istifadə ilə əlaqədar olmayan məqsədlər üçün meşə fondu torpaqlarının qeyri-meşə torpaqlarına keçirilməsi və meşə fondu torpaqlarının dövlət ehtiyacları ilə əlaqədar meşə istifadəçilərinə müqavilə, meşəqırma bileti, order və ya meşə bileti əsasında verilən meşə fondu torpaqları geri alına bilər.
3. Meşə fondu torpaqlarının geri alınması ilə əlaqədar meşə istifadəçilərinə dəyən ziyanın müəyyənləşdirilməsi üçün Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarı əsasında 10 gün müddətində aşağıdakı tərkibdə komissiya yaradır:
   yerli meşə təsərrüfatı müəssisəsinin rəhbəri;
   Maliyyə Nazirliyinin yerli orqanının nümayəndəsi;
   Dövlət Torpaq Komitəsinin yerli orqanının nümayəndəsi;
   yerli icra hakimiyyəti orqanının nümayəndəsi.
   Meşə fondu torpaqları qeyri-meşə torpaqlarına keçirildikdə (su qovşaqlarının, boru kəmərlərinin, yolların, elektrik xətlərin tikintisi zamanı və s.) bu torpaqları istifadə edəcək fiziki və hüquqi şəxslərin nümayəndəsi komissiyanın tərkibinə daxil edilir.
4. Komissiya müvafiq meşə istifadəçisinin iştirakı ilə və onun təqdim etdiyi sənədlər əsasında (müqavilə, meşəqırma bileti, order, meşə bileti, meşə əkinlərinə, plantasiyalara, tingliklərə, meyvə bağlarına və yeniyetmələrin yetişdirilməsinə sərf olunan xərclər barədə sənədlər, geri alınan meşə fondu torpaqlarında meşə istifadəsi ilə bağlı tikilən müxtəlif tipli müvəqqəti yaşayış və təsərrüfat tikililərinin qurulması barədə məlumatlar və s.) bir ay müddətində yerlərdə lazımi müşahidələr apararkən meşə istifadəçisinə dəyən ziyanı müəyyənləşdirir və bu barədə üç nüsxədən ibarət akt tərtib edir (nümunəsi əlavə olunur). Həmin sənəd imzalanarkən yerli icra hakimiyyəti orqanının möhürü ilə təsdiq edilir.
   Aktın bir nüsxəsi komissiya tərəfindən yerli icra hakimiyyəti orqanına, bir nüsxəsi müvafiq meşə istifadəçisinə, bir nüsxəsi isə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə təqdim edilir.
   Komissiya üzvləri baxılmış məsələ ilə bağlı yekdil fikrə gəlmədikdə tərtib olunmuş akta fikir ayrılığına dair arayış əlavə olunur.
5. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi komissiyanın aktı əsasında bir ay müddətində müvafiq qərar qəbul edir və meşə fondu torpaqlarının geri alınması məqsədindən asılı olaraq aşağıdakı mənbələrdən meşə istifadəçilərinə dəyən ziyanı ödəyir:

meşə fondu torpaqları meşə təsərrüfatının idarə edilməsi ilə əlaqədar geri alındıqda-meşələrin qorunub saxlanması və təkrar istehsalı fondunun vəsaitləri hesabına;
meşə fondu torpaqları meşə fondundan istifadə ilə əlaqədar olmayan məqsədlər üçün qeyri-meşə torpaqlarına keçirildikdə - bu torpaqları istifadə edəcək fiziki və hüquqi şəxslər tərəfindən müvafiq meşə təsərrüfatının həmin torpaqların kadastr qiyməti əsasında hesablanmış və ödənilmiş dəyəri hesabına;
meşə fondu torpaqları dövlət ehtiyacları üçün geri alındıqda - Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən olunmuş mənbə hesabına.
Komissiyanın aktı ilə razılaşmadığı halda Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi həmin müddətdə meşə istifadəsinə və müvafiq yerli icra hakimiyyəti orqanına rəsmi məlumat verməlidir.

6. Meşə fondu torpaqlarının geri alınması ilə əlaqədar meşə istifadəçilərinə dəyən ziyanın ödənilməsinə dair tərtib olunmuş aktı və ya Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin bu barədə qərarı ilə razılaşmadığı halda meşə istifadəçisi inzibati qaydada və ya aidiyyəti məhkəməyə şikayət edə bilər.

*Meşə fondu torpaqlarının geri alınması ilə əlaqədar*
*meşə istifadəçilərinə dəyən ziyanın ödənilməsi*
*Qaydasına*

*ƏLAVƏ*

*Nümunə*

**Meşə fondu torpaqlarının geri alınması ilə əlaqədar meşə istifadəçilərinə dəyən ziyanın ödənilməsi üçün komissiyanın**
**AKT**

«____» _________________ 1999-cu il

________________________________
(rayon, şəhər)

Komissiyanın tərkibi:
yerli meşə təsərrüfatı müəssisənin rəhbəri;
Maliyyə Nazirliyinin yerli orqanının nümayəndəsi;
Dövlət Torpaq Komitəsinin yerli orqanının nümayəndəsi;
yerli icra hakimiyyəti orqanının nümayəndəsi.

Meşə fondu torpaqları qeyri-meşə torpaqlarına keçirildikdə, (su qovşaqlarının, boru kəmərlərinin, yolların, elektrik xətlərin tikintisi zamanı və s.) bu torpaqları istifadə edəcək fiziki və hüquqi şəxslərin nümayəndəsi.

____________________________________________________________ ünvanda yaşayan

meşə istifadəçisinin__________________________________________________________
(soyadı, adı, atasının adı)

iştirakı ilə geri alınan meşə fondu torpaqlarında müşahidələr aparılmışdır.

Geri alınan meşə fondu torpaqları (sahələri) haqqında məlumat:

1. Meşə fondu sahələrindən istifadə hüququnu müəyyən edən sənədlər (müqavilə, meşəqırma bileti, order, meşə bileti, qırıntı yerlərinin (sahələrinin) pul-qiymət cədvəli və müayinə aktı (əlavə olunur).
2. Meşə əkinlərinə, plantasiyaları, tingliklərə, meyvə bağlarına və yeniyetmələrin yetişdirilməsinə sərf olunan xərclər barədə sənədlər.
3. Meşə istifadəsi ilə bağlı tikilən müxtəlif tipli yaşayış və təsərrüfat tikililərinin qurulması və onların qiymətləndirilməsi barədə məlumat.

Geri alınacaq meşə fondu torpaqları (sahələri) _______________ hektar.

Digər sənədlər.

Komissiyanın rəyi:

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 8 noyabr tarixli 174 nömrəli qərarı ilə təsdiq edilmiş meşə fondu torpaqlarının geri alınması ilə əlaqədar meşə istifadəçilərinə dəyən ziyanın ödənilməsi Qaydasını rəhbər tutaraq komissiya ödəmə miqdarını

__________________________________________________________________________
(rəqəmlə və yazılı)

__________________________________________________________________________
manat müəyyən edir.

*Komissiyanın üzvləri:* *(imzalar)*
*Yerli icra hakimiyyəti orqanının möhürü*

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin*
*1999-cu il 8 noyabr tarixli 174 nömrəli qərarı ilə*

*TƏSDİQ EDİLMİŞDİR*

**Kökündə buraxılan oduncaq və ikinci dərəcəli meşə ehtiyatlarının məcburi sertifikatlaşdırılmasının təşkili və aparılması QAYDASI**

1. Bu Qayda kökündə buraxılan oduncaq və ikinci dərəcəli meşə ehtiyatlarının məcburi sertifikatlaşdırılmasının təşkili və aparılmasını tənzimləyir.
2. Kökündə buraxılan oduncaq və ikinci dərəcəli meşə ehtiyatları Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təqdimatı əsasında Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi tərəfindən sertifikatlaşdırılır.
   Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyi təqdim olunmuş sənədləri bir ay müddətində təhlil edərək müəyyən olunmuş qaydada dövlət sınağından keçmiş və qeydiyyata alınmış kökündə buraxılan oduncaq və ikinci dərəcəli meşə ehtiyatlarının sertifikatlaşdırılmasına dair qərar qəbul edir.
   Sertifikatlaşdırma Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 1 iyul tarixli 343 nömrəli qərarı ilə təsdiq edilmiş «Milli Sertifikatlaşdırma Sistemi haqqında Əsasnamə»yə uyğun aparılır.
3. Kökündə buraxılan oduncaq və ikinci dərəcəli meşə ehtiyatlarının məcburi sertifikatlaşdırılmasında əsas mənbə kimi onların bioloji xüsusiyyətləri, yüksək keyfiyyətli, fitosanitariya və ekoloji normativləri və digər parametrləri götürülür.
4. Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi tərəfindən qəbul olunmuş qərar əsasında Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi kökündə buraxılan oduncaq və ikinci dərəcəli meşə ehtiyatlarına uyğunluq nişanı və nişanlama hüququ verən sertifikat verir.
5. Kökündə buraxılan oduncaq və ikinci dərəcəli meşə ehtiyatlarının sertifikatı bu məhsulların satışı və istifadəsi üçün əsas sənəddir.
6. Kökündə buraxılan oduncaq və ikinci dərəcəli meşə ehtiyatlarının sertifikat formaları müvafiq qaydada Milli Sertifikatlaşdırma Sistemində qəbul edilmiş formada tərtib olunur, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi tərəfindən təsdiq edilir.

## Azərbaycan Respublikasının Nazirlər Kabineti
## Meşə fondunun vəziyyətinə, istifadəsinə, mühafizəsinə, qorunmasına və meşələrin bərpasına dövlət nəzarətinin həyata keçirilməsi qaydasının təsdiq edilməsi haqqında

### Qərar № 15

Bakı şəhəri, 3 fevral 2000-ci il

Azərbaycan Respublikası Meşə Məcəlləsinin 45-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. «Meşə fondunun vəziyyətinə, istifadəsinə, mühafizəsinə, qorunmasına və meşələrin bərpasına dövlət nəzarətinin həyata keçirilməsi Qaydası» təsdiq edilsin (əlavə olunur).
2. «Meşələrin vəziyyətinə, istifadəsinə, bərpasına, qorunmasına və mühafizəsinə dövlət nəzarəti haqqında Əsasnamənin təsdiq edilməsi barədə» SSRİ Nazirlər Sovetinin 1982-ci il 30 aprel tarixli 360 nömrəli qərarı haqqında» Azərbaycan SSR Nazirlər Sovetinin 1982-ci il 20 may tarixli 246 nömrəli qərarı qüvvədən düşmüş hesab edilsin.
3. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

*Azərbaycan Respublikasının Baş naziri* *A. RASİ-ZADƏ.*

*Azərbaycan Respublikası*
*Nazirlər Kabinetinin*
*2000-ci il 3 fevral tarixli*
*15 nömrəli qərarı ilə*
*təsdiq edilmişdir.*

# Meşə fondunun vəziyyətinə, istifadəsinə, mühafizəsinə, qorunmasına və meşələrin bərpasına dövlət nəzarətinin həyata keçirilməsi QAYDASI

1. Bu Qayda meşə fondunun vəziyyətinə, istifadəsinə, mühafizəsinə, qorunmasına və meşələrin bərpasına dövlət nəzarətinin həyata keçirilməsini tənzimləyir.
2. Meşə fondunun vəziyyətinə, istifadəsinə, mühafizəsinə, qorunmasına və meşələrin brpasına dövlət nəzarətinin (bundan sonra — dövlət nəzarəti) vəzifəsi fiziki və hüquqi şəxslər tərəfindən meşə fondundan istifadəni, kötükstə oduncaq buraxılışını, meşəbərpa və aralıq istifadə qırmaları və digər qırma qaydalarını Azərbaycan Respublikasının meşə qanunvericiliyinə uyğun təmin etməkdən ibarətdir.
   Bu sahədə dövlət nəzarətini Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi həyata keçirir.
3. Dövlət nəzarəti orqanları öz səlahiyyətləri daxilində aşağıdakıların yerinə yetirilməsi üzərində dövlət nəzarətini həyata keçirirlər:
   - meşə fondundan səmərəli istifadə olunmasına, meşə istifadəçiləri tərəfindən icarə müqaviləsinin, meşəqırma biletinin, orderin, meşə biletinin şərtlərinə əməl edilməsinə, həmçinin meşə fondundan istifadə üçün haqqın müəyyən olunmuş müddətdə ödənilməsinə;
   - meşələrin torpaqqoruyucu, susaxlayıcı, sanitar-gigiyenik, sağlamlaşdırıcı və digər funksiyaları gücləndirən tədbirlərin yerinə yetirilməsinə;
   - meşə fondu sahələrində meşə qanunvericiliyinin tələblərinə zidd məqsədlər və üsullarla istifadə olunmasına;
   - təbii mühitin ekoloji tarazlığın qorunmasına, bioloji müxtəlifliyin saxlanması tələblərinə cavab verən yeni texnikanın, texnologiyanın və qabaqcıl təcrübənin tətbiq edilməsinə;
   - meşələrin dövlət uçotunun, dövlət kadastrının, meşə monitorinqinin və meşə quruluşu işlərinin aparılmasının qaydalarına riayət edilməsinə;
   - istifadə ixtiyarını təsdiq edən sənədlərin olmasına, ölçülərin torpaqayırma sənədlərinə uyğunluğuna, torpaq uçotu sənədlərinin vəziyyətinə və saxlanmasına;
   - meşə təsərrüfatının və meşədən istifadənin həyata keçirilməsi ilə əlaqəsi olmayan inşaat və partlayış işlərində, faydalı qazıntılar aparılmasında, kabel, boru kəməri, digər xətlərin çəkilməsində, qazma və digər işlərin aparılmasında meşələrdən istifadə edilməsi və onların qorunması qaydalarına;
   - meşə fondu sahələrindən elmi-tədqiqat, mədəni-sağlamlaşdırma, turizm və idman məqsədləri, ovçuluq təsərrüfatının ehtiyacları üçün istifadə qaydalarına;
   - meşədən istifadə edən müəssisələrin, idarələrin, digər hüquqi və fiziki şəxslərin onlar üçün ayrılmış sahələrdə kötükstə oduncaq buraxılışı, digər qırmalar apararkən qırma sahələrindən istifadəyə aid texnoloji xəritələrin tələblərinə əməl edilməsinə, meşəqırma biletində, orderdə göstərilən tapşırıqdan artıq özbaşına

qırma hallarına, tədarük zamanı oduncaqdan və oduncaq tullantılarından səmərəli istifadə edilməsinə və digər meşəqırma qaydalarına riayət edilməsinə;

- qırma sahələrinin düzgün seçilməsinə, ayrılmasına oduncağın tədarükü və daşınması texnologiyasına, əməyin təhlükəsizlik qaydalarına, ikinci dərəcəli meşə ehtiyatlarının tədarükünün və meşədən əlavə istifadənin müəyyən edilmiş qaydalarına və şərtlərinə əməl olunmasına;
- qırıntı üçün təyin olunmuş ağacların həcm və nırx qiymətlərinin düzgün hesablanmasına, meşə məsarifi və xidməti qırıntılar kitabının, meşəqırma biletinin, orderin və meşə biletinin doldurulmasına, uçotuna, saxlanmasına, verilməsinə, ləğv olunmasına;
- istifadəsi qurtarmış sahələrin müayinə aktlarının yazılmasına, təhvil-təslim sənədlərinin düzgün tərtib olunmasına, meşəqırma qaydalarının pozulmasına görə cərimələrin vaxtında ödənilməsinə;
- meşəbərpa işlərinin, meşə əkini və səpini, əkin materiallarının yetişdirilməsi, qulluq edilməsi, təbii bərpaya köməklik, az əhəmiyyətli və aşağı sıxlıqlı ağacların rekonstruksiya edilməsi, hidromeliorativ tədbirlərin və torpaqların rekultivasiya olunması, habelə çay və göllərin kənarlarının, dərə-yarğan və qumluqların, digər qeyri-əlverişsiz torpaqların meşələşdirilməsi tapşırıqlarını meşə quruluşu və meşə əkini layihələrinin tələblərinə uyğun aparılmasına;
- meşə əkinlərinin texniki qəbul edilməsi, inventarlaşdırılması, meşə ilə örtülü sahəyə keçirilməsi sənədlərinin və digər sənədlərin müəyyən olunmuş qaydada tərtib olunmasına;
- daimi meşə toxumluq sahələrinin seçilməsinə, meşə toxumlarının tədarükü tapşırığına, onların keyfiyyəti, toxum ehtiyat fondunun miqdarı, toxumların hazırlanması, tənzimlənməsi və saxlanması qaydalarına, onların dövlət standartlarına uyğunluğuna və digər texniki şərtlərə əməl olunmasına;
- meşə fondunda zərərvericilərdən və xəstəliklərdən mühafizəsi üzrə fitosanitar qaydalarına riayət edilməsi və meşə yanğınlarına qarşı əhali arasında izahat işlərinin aparılmasına, təsərrüfatların yanğına qarşı yanğınsöndürən avadanlıqlarla, ləvazimatlarla, texniki təchizatlarla təmin olunmasına, yolkənarı yanğına qarşı zolaqların çəkilməsinə, təmir olunmasına və yanğına qarşı digər mübarizə tədbirlərinin yerinə yetirilməsinə;
- meşə fondunun vəziyyətinə, istifadəsinə, mühafizəsinə, qorunmasına və meşələrin bərpasına dair meşə qanunvericiliyində müəyyən edilən digər tələblərə riayət olunmasına.

4. Dövlət nəzarəti aylıq, rüblük və illik xüsusi iş planları əsasında həyata keçirilir. İş planlarında dövlət nəzarətinin məqsədi, vaxtı və aparılma müddəti göstərilir. İş planları dövlət nəzarətini həyata keçirən müvafiq orqanların rəhbərləri tərəfindən təsdiq edilir. Dövlət orqanlarının, ayrı-ayrı təşkilatların, digər hüquqi və fiziki şəxslərin müraciətləri əsasında da yoxlamalar aparıla bilər.
   Yoxlamanın nəticələrinə görə müvafiq protokol və ya akt tərtib edilir. Həmin sənədlərdə təsdiq edilmiş faktlar və məlumatlar göstərilir. Yoxlama əsasında meşə fondunun vəziyyətinin, istifadəsinin, mühafizəsinin, qorunmasının və meşələrin bərpasının yaxşılaşdırılması üçün müvafiq tədbirlər işlənib hazırlanır. Bu tədbirlərin həyata keçirilməsi bütün meşə fondu istifadəçiləri üçün məcburidir.
5. Dövlət nəzarətini həyata keçirən orqanlar öz səlahiyyətləri daxilində aşağıdakı hüquq və vəzifələrə malikdirlər:
   - ~~meşə qanunvericiliyinin pozulmasında təqsirkar olan vətəndaşları və vəzifəli şəxsləri inzibati məsuliyyətə cəlb etmək;~~

- meşə qanunvericiliyinin pozulması nəticəsində dövlətə vurulan zərərin ödənilməsi məqsədi ilə fiziki və hüquqi şəxslərə qarşı iddia qaldırmaq;
- meşə qanunvericiliyinin pozulmasında təqsirkar şəxsləri cinayət məsuliyyətinə cəlb etmək məqsədi ilə müvafiq sənədləri hüquq-mühafizə orqanlarına göndərmək;

meşə fondunun istifadəsinə və mühafizəsinə dair müəyyən edilmiş qaydalar pozulduqda meşə fondu ərazisində hüquqi və fiziki şəxslərin təsərrüfat və digər fəaliyyətlərinə məhdudiyyət qoymaq və ya dayandırmaq, xitam vermək barədə müəyyən edilmiş qaydada qərar qəbul etmək.

## Qərar № 45

Bakı şəhəri, 15 mart 2000-ci il

Azərbaycan Respublikası Meşə Məcəlləsinin 39-cu maddəsinə uyğun olaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. «Dövlət meşə kadastrı göstəricilərinin Siyahısı», «Meşələrin iqtisadi qiymətləndirilməsinin Metodikası» və «Dövlət meşə kadastrının aparılması Qaydası» təsdiq edilsin (əlavə olunur).
2. «Meşələrin dövlət uçotu, dövlət meşə kadastrının aparılması və dövlət meşə fondu torpaqlarının vəziyyətinə və istifadəsinə sahə uçotu barədə» SSRİ Nazirlər Sovetinin 1982-ci il 8 yanvar tarixli, 17 nömrəli qərarı haqqında» Azərbaycan SSR Nazirlər Sovetinin 1982-ci il 15 fevral tarixli, 79 nömrəli qərarı qüvvədən düşmüş hesab edilsin.
3. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

*Azərbaycan Respublikasının Baş naziri* *A. RASİ-ZADƏ.*

*Azərbaycan Respublikası*
*Nazirlər Kabinetinin*
*2000-ci il 15 mart tarixli,*
*45 nömrəli qərarı ilə*
*təsdiq edilmişdir*

## Dövlət meşə kadastrı göstəricilərinin Siyahısı

Meşə fondunun qoruyucu kateqoriyalara aid edilməsi, meşə fondu torpaqlarının qısa və uzunmüddətli istifadəyə verilməsinin, habelə torpaqların meşə fondundan çıxarılmasının və ya onun tərkibinə qəbul olunmasının hüquqi əsasları;

meşə fondunun inzibati ərazi üzrə torpaq kateqoriyalarına və meşələrin qoruyucu kateqoriyalara bölünməsi;

meşə əkinlərinin vəziyyəti haqqında məlumat;

meşə ilə örtülü sahələrin inzibati ərazi üzrə üstünlük təşkil edən cinslər və yaş qrupları üzrə bölünməsi;

meşələrin bonitet sinifləri üzrə bölünməsi;

meşələrin doluluq qrupları üzrə bölünməsi;

meşə fondunun inzibati ərazi vahidi daxilində idarə olunması üzrə bölünməsi;

meşə fondunun dövlət uçotunun məlumatları.

*Azərbaycan Respublikası*
*Nazirlər Kabinetinin*
*2000-ci il 15 mart tarixli,*
*45 nömrəli qərarı ilə*
*təsdiq edilmişdir*

# Meşələrin iqtisadi qiymətləndirilməsinin Metodikası

## I. Ümumi müddəalar və anlayışlar

1.1. Bu Metodika, meşə fondu sahələrindən istifadənin ödənişli olduğunu nəzərə almaqla (kütləvi meşə servitutları istisna olmaqla), meşə bitkilərinin, torpağın, heyvanat aləminin və ətraf mühitin, ekoloji, iqtisadi və sosial əhəmiyyət kəsb edən digər komponentlərinin vəhdətini təşkil edən meşələrin iqtisadi qiymətləndirilməsini tənzimləyir və tələb olunan ilkin məlumatların tərkibini, iqtisadi qiymətləndirmə göstəricilərinin hesablanmasını müəyyən edir.

1.2. Meşələrin iqtisadi qiymətləndirilməsinin nəticələri aşağıdakı məqsədlər üçün istifadə edilir:

- dövlət meşə kadastrının iqtisadi hissəsinin təmin edilməsində;
- meşə fondu torpaqlarının geri alınması, yaxud təbiətin və antropogen təsirlərin nəticəsində onlara dəyən zərərin və itkilərin müəyyən edilməsində;
- meşə təsərrüfatının aparılmasına və təsərrüfat fəaliyyətinin səviyyəsinin qiymətləndirilməsinə dair sistemin işlənib hazırlanmasında;
- meşələrin çoxməqsədli istifadəsinin təşkilində;
- meşə fondundan istifadəyə görə ödəniş növlərinin, kököstə buraxılan oduncağın nırx qiymətinin müəyyən edilməsinə dair layihələrin tərtib edilməsində;
- meşə təsərrüfatının qarşısında duran iqtisadi, sosial və ekoloji məqsədləri əlaqələndirən müasir meşə idarəetmə sisteminin təşkilində.

1.3. Meşələrin iqtisadi qiymətləndirmə obyektləri aşağıdakılardır:

- ilkin qiymətləndirmə obyekti—meşə fondu torpaqlarının taksasiya ayırması;
- aralıq qiymətləndirmə obyekti—meşəbəyliyin meşə fondu sahələrinin məcmui;
- yekun qiymətləndirmə obyekti—meşə təsərrüfatı müəssisəsinin fəaliyyət göstərdiyi ərazi.

1.4. Meşələrin iqtisadi qiymətləndirilməsi zamanı istifadə edilən əsas anlayışlar:

- meşə ehtiyatları—mövcud qanunvericilikdə müəyyən olunan və qiymətləndirilməsi mümkün olan meşə fondundan istifadə növləri;
- meşə ehtiyatlarının kompleks qiymətləndirilməsi—meşə fondundan istifadə növlərinin və xidmətlərin natural göstəricilərlə qiymətləndirilməsi;
- meşə ehtiyatlarının pul (dəyər) ifadəsi ilə qiymətləndirilməsi.

1.5. Meşələrin iqtisadi qiymətləndirilməsinin göstəriciləri:

- meşə fondundan kompleks istifadənin pul ifadəsi ilə qiymətləndirilməsi;
- meşə fondunda istehsal olunan məhsulun, istifadə növlərinin və xidmətlərin kompleks şəkildə pul ifadəsi, müəyyən keyfiyyətə malik və müvafiq ərazidə yerləşən meşə sahəsinin xərci ödəmə müddəti ərzində əldə oluna bilən potensial gəliri və hər il xalis gəlir (yaxud renta) ilə səciyyələndirilən meşə fondu torpaqlarının normativ qiyməti;

- meşə fondu torpaqlarının qiymətləndirilməsi.

1.6. Meşələrin iqtisadi qiymətləndirilməsi zamanı aşağıdakılar nəzərə alınır:
- təsərrüfat əhəmiyyətli meşələrdə meşə təsərrüfatının aparılmasının hazırki mərhələsində meşə fondundan istifadənin orta (model) səviyyəsi;
- meşə ehtiyatlarının dəyər ifadəsi (qiymətləndirilməsi tələb olunan meşə ehtiyatlarının istismara verilməsindən gözlənilən renta gəliri);
- meşə fondundan istifadənin mümkün olan səviyyəsi (konkret iqtisadi şəraitdə ayrı-ayrı növlər üzrə meşə fondundan istifadənin məcmu həcmindən mümkün olan faizi).
- 

## II. Meşə fondu sahələrindən istifadənin iqtisadi qiymətləndirilməsi

2.1. Meşə fondu sahələrindən istifadənin iqtisadi qiymətləndirilməsi iki mərhələdən ibarətdir:
- natural göstəricilərlə meşə fondundan istifadə növlərinin kompleks qiymətləndirilməsi;
- seçilmiş meşə fondundan istifadə növlərinin pul (dəyər) ifadəsi ilə qiymətləndirilməsi.

2.2. Meşə fondu sahələrindən istifadənin iqtisadi qiymətləndirilməsinin nəticələri meşə torpaqlarının normativ qiymətlərinin müəyyən edilməsinin əsasını təşkil edir.

2.3. Natural göstəricilərlə kompleks məhsuldarlığın elementlərinin iqtisadi qiymətləndirilməsinin əsasını meşələrin taksasiyası zamanı toplanmış məlumatlar, habelə meşə ehtiyatlarının kompleks qiymətləndirilməsinə dair normativ-sorğu məlumatları təşkil edir.

2.4. Meşə ehtiyatlarının kompleks qiymətləndirilməsinə dair normativ-sorğu məlumatlarının tərkibi, onların hazırlanması ilə bağlı texniki sənədlər və formalar Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən tərtib və təsdiq edilir.

2.5. Meşə fondundan istifadə növləri aşağıdakılardır:
- oduncaq tədarükü;
- ikinci dərəcəli meşə ehtiyatları tədarükü (kötük, lif, qabıq və başqaları);
- meşədən əlavə istifadə (ot çalımı, pətəklərin və arıxanaların yerləşdirilməsi, yabanı meyvə, göbələk, giləmeyvə, qərzəkli və digər məhsullar, palıd qozası, dərman bitkiləri, texniki xammal, mamır, meşə döşənəyi, tökülmüş yarpaq, qarğı, qamış, cil və digərlərinin tədarükü və yığılması, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən təsdiq edilmiş siyahı ilə müəyyənləşdirilən başqa əlavə istifadə);
- elmi tədqiqat məqsədləri üçün;
- mədəni-sağlamlaşdırma, turizm və idman məqsədləri üçün;
- ovçuluq təsərrüfatı ehtiyatları üçün.

2.6. Meşə fondundan istifadə növlərinin və kökü̈stə buraxılan oduncağın nırx qiymətləri bazar iqtisadiyyatı prinsipləri əsasında formalaşır.

2.7. Elmi tədqiqat, mədəni-sağlamlaşdırma, turizm və idman məqsədləri, ovçuluq təsərrüfatı ehtiyatları üçün istifadə olunan meşə fondu sahələrinin qiymətləndirilməsi müvafiq elmi tədqiqat təşkilatları tərəfindən tərtib edilmiş xüsusi təlimatlar əsasında aparılır.

Elmi tədqiqat təşkilatları tərəfindən tərtib edilən təlimatlar Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə razılaşdırılır və müvafiq qaydada tətbiq edilir.

2.8. Meşə fondundan istifadəyə görə ödəniş növləri, kötükstə buraxılan oduncağın nırx qiyməti Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən tərtib edilir, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi ilə razılaşdırılır və Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilir.

## III. Meşə torpaqlarının qiymətləndirilməsi

3.1. Meşə torpaqlarının, o cümlədən tinglik və plantasiyalar altında olan torpaqların qiymətləndirilməsi ərazinin meşəbitmə şəraitindən, meşələrin təyinatından asılı olaraq meşə torpaqlarının faktiki yerləşdiyi ərazidən və torpaq kateqoriyalarından asılı olaraq meşə torpaqlarının normativ qiymətlərinə dair regional şkalalardan istifadə edilməklə aparılır.

3.2. Meşə torpaqlarının normativ qiymətlərinin şkalaları zona-tipoloji əsasda tərtib edilir və Azərbaycan Respublikası Dövlət Torpaq Komitəsinin təqdimatı ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilir.

3.3. Meşə təsərrüfatının fəaliyyət göstərdiyi ərazidəki ağaclıqlar meşə torpaqlarının qiymətlərinə görə normativ tələblərə tam cavab vermədiyini nəzərə alaraq, əvvəlcədən istismar üçün nəzərdə tutulan meşələrə şamil edilməklə oduncaq ehtiyatına malik təsərrüfat əhəmiyyətli (modal) ağaclıqların seçilməsi ilə müvafiq hesablamalar aparılır.

Meşə torpaqlarının münbitliyinin daha yüksək keyfiyyət göstəricilərinə malik olduğunu nəzərə alaraq, onların, habelə tinglik və plantasiyalar altında olan sahələrin qiymətləndirilməsi respublikanın kadastr qiymət rayonları və yarımrayonları üzrə əkin çoxillik əkmələr və dincə qoyulmuş torpaqların normativ qiymətinin birinci keyfiyyət qrupuna 1,3 əmsal tətbiq olunmaqla müəyyən edilir.

3.4. İqtisadiyyatın cari vəziyyətini və meşələrin məqsədli təyinatını nəzərə almaq üçün meşə fondu istifadə növləri üzrə məcmu məhsuldan tam istifadə etməmək imkanları nəzərdə tutulur. Meşədən istifadənin ayrı-ayrı növlərindən istifadə etmə faizi Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən müəyyən edilir.

## IV. Qeyri-meşə torpaqlarının iqtisadi qiymətləndirilməsi

4.1. Meşə təsərrüfatının ehtiyacları üçün nəzərdə tutulmuş torpaqların (əkin, biçənəklər, örüş, bağlar, üzümlüklər və s.) normativ qiymətləri respublikada mövcud olan qayda üzrə kənd təsərrüfatında birinci keyfiyyət qrupuna aid edilən torpaqlar üçün hesablanan müvafiq normativ qiymətlərlə eyniləşdirilir.

4.2. Torpaqqoruyucu, rekreasiya, su tənzimedici, istehsalat və digər təyinatlı qeyri-meşə torpaqlarının qiymətləndirilməsi üçün respublikada bu qəbildən olan torpaqların qiymətləndirilməsinə dair qüvvədə olan normativlərdən istifadə olunur.

*Azərbaycan Respublikası*
*Nazirlər Kabinetinin*
*2000-ci il 15 mart tarixli,*
*45 nömrəli qəarı ilə*
*təsdiq edilmişdir*

## Dövlət meşə kadastrının aparılması
## Qaydası

1. Bu Qayda dövlət meşə kadastrının aparılmasını tənzimləyir.
2. Meşələrin dövlət kadastrı meşə fondunun qeydiyyatı, onun ekoloji, iqtisadi, kəmiyyət və keyfiyyət cəhətdən qiymətləndirilməsidir.
3. Dövlət meşə kadastrı təbii sərvətlər kadastrının tərkib hissəsini təşkil edən rəsmi dövlət sənədidir və meşə quruluşu, meşələrin inventarlaşdırılması və digər müayinə-təftiş sənədlərinin əsasında aparılır.
4. Dövlət meşə kadastrı vahid sistem üzrə meşə təsərrüfatının idarə edilməsində, onun təşkilində və meşə fondundan istifadə ilə əlaqədar olmayan məqsədlər üçün meşə torpaqlarının qeyri-meşə torpaqlarına keçirilməsində və ya meşə fondu torpaqlarının geri alınmasında, meşə fondundan istifadə üçün ödəmələrin miqdarının müəyyən edilməsində, meşə istifadəçilərinin və meşə təsərrüfatı işləri aparan şəxslərin təsərrüfat fəaliyyətinin iqtisadi qiymətləndirilməsində istifadə olunur.
5. Dövlət meşə kadastrı Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin meşə təsərrüfatı müəssisələri tərəfindən aparılır.
6. Meşə fondunun kadastr göstəricilərində gedən dəyişikliklər (artım və azalma) hər il dövlət meşə kadastrı kitabının müvafiq bölmələrində qeyd edilir və sonrakı ilin 1 yanvar vəziyyətinə yekunlaşdırılır.
   Dövlət meşə kadastrı kitabında edilən qeydlərin yekun nəticələri hesabat formalarında meşə təsərrüfatı müəssisələri tərəfindən hər ilin mart ayının 1-nə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə təqdim edilir.
7. Dövlət meşə kadastrının aparılması üçün verilmiş hesabatların düzgün tərtib olunmasına, vaxtında verilməsinə və saxlanılmasına Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və ona tabe olan müəssisələrin rəhbərləri məsuliyyət daşıyırlar.
8. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi əlaqədar orqanlarla birlikdə:

- meşə fondu sahələrinin istifadəyə və icarəyə verilməsinin dövlət qeydiyyatını, torpaqların qiymətləndirilməsini, geobotanik və digər tədqiqat və axtarışlar aparılmasını, torpaqların vəziyyəti üzərində operativ müşahidələrin, habelə dövlət meşə kadastrının aparılması üçün zəruri olan metodik göstərişlərini və təlimatların hazırlanmasını təmin edir;
- torpaq ehtiyatlarının miqdarı, vəziyyəti və qiyməti barədə uzunmüddətli və operativ məlumatlara olan tələb və ehtiyacın sistematik öyrənilməsini həyata keçirir, dövlət meşə kadastrının daim təkmilləşdirilməsi üzrə yaranan meşə təsərrüfatı, təbiəti mühafizə ehtiyaclarına dair məlumatların dövlət meşə kadastrı sənədlərinə daxil edilməsi üzrə tədbirlər görür;
- meşə fondu sahələri haqqında məlumatların sistemləşdirilməsini, öyrənilməsini və saxlanılmasını, habelə dərc edilməsi zəruri olan dövlət meşə kadastrı materiallarının nəşrini təmin edir.

9. Dövlət meşə kadastrının aparılması prosesini tənzimləyən dövlət meşə kadastrı kitabının, texniki (forma və ona əlavələr) sənədlərin nümunələri Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən təsdiq olunur, mərkəzləşdirilmiş qaydada çap edilir və aidiyyəti müəssisələrə çatdırılır.
10. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi dövlət meşə kadastrının yekun hesabatını hər il aprelin 30-dək birliyin Şurasında təsdiq edərək, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə, Dövlət Torpaq Komitəsinə və Dövlət Statistika Komitəsinə təqdim edir.

*Azərbaycan Respublikasının Nazirlər Kabineti*
*Meşə fondunun mühafizəsi, qorunması və*
*meşələrin bərpası Qaydalarının*
*təsdiq edilməsi haqqında*

## Qərar № 78

Bakı şəhəri, 1 may 2000-ci il

Azərbaycan Respublikası Meşə Məcəlləsinin 27-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. «Meşə fondunun mühafizəsi, qorunması və meşələrin bərpası Qaydaları» təsdiq edilsin (əlavə olunur).
2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

*Azərbaycan Respublikasının Baş naziri* *A. RASİ-ZADƏ.*

*Azərbaycan Respublikası*
*Nazirlər Kabinetinin*
*2000-ci il 1 may tarixli*
*78 nömrəli qərarı ilə*
*təsdiq edilmişdir*

# Meşə fondunun mühafizəsi, qorunması və meşələrin bərpası Qaydaları

## I. Ümumi müddəalar

1.1. Bu Qaydalar meşə fondunun mühafizəsi, qorunması və meşələrin bərpasını tənzimləyir.

1.2. Meşələrin mühafizəsi və qorunması onların bioloji və digər xüsusiyyətlərini nəzərə almaqla həyata keçirilir, meşə fondundan səmərəli istifadə, meşələrin məhv olmaqdan, zədələnmədən, zəifləmədən, çirklənmədən və digər mənfi təsirlərdən mühafizəsi və qorunması sahəsində təşkilati, hüquqi və başqa tədbirlər sistemindən ibarətdir.

1.3. Meşə fondunun mühafizəsi və qorunmasında məqsəd meşələrin yanğından, qanunsuz qırmalardan, meşə fondundan istifadənin müəyyən edilmiş qaydalarının pozulması hallarından və meşələrə zərərvuran digər hərəkətlərdən, zərərvericilərdən, xəstəliklərdən mühafizə etmək və qorumaqdır.

1.4. Meşələrin bərpasının məqsədi meşə ilə örtülü olmayan torpaqlarda meşələrin vaxtında bərpa olunmasını, onların cins tərkibinin yaxşılaşdırılmasını, məhsuldarlığının artırılmasını və meşə fondu torpaqlarından səmərəli istifadəni təmin etməkdən ibarətdir.

1.5. Meşə fondunun mühafizəsi, qorunması və meşələrin bərpası Azərbaycan Respublikasının Meşə Məcəlləsinə, bu sahə ilə əlaqədar digər qanunvericilik və normativ hüquqi aktların tələblərinə müvafiq olaraq həyata keçirilir.

## II. Meşə fondunun mühafizəsi və qorunması

2.1. Meşələrin mühafizəsi aşağıdakı tədbirləri nəzərdə tutur:

- meşə fondunun vəziyyətinə, istifadəsinə, mühafizəsinə, qorunmasına, meşələrin bərpasına dövlət nəzarətinin təşkili;
- meşə fondundan istifadə edilməsi, onun mühafizəsi, qorunması, bərpası sahəsində hüquq pozuntularının qarşısının alınması, onların aradan qaldırılması;
- təqsirkar fiziki və hüquqi şəxslərin qanunvericilikdə müəyyən edilmiş qaydada məsuliyyətə cəlb edilməsi;
- meşə fonduna zərər vuran təsərrüfat və başqa fəaliyyət növlərinin məhdudlaşdırılması, dayandırılması, qadağan edilməsi;
- Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş digər tədbirlərin həyata keçirilməsi.

2.2. Meşələrin mühafizəsi və qorunması məqsədi ilə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, onun yerli təşkilatları aidiyyəti orqanlarla birlikdə:

- meşə qanunvericiliyinə riayət edilməsini, meşə fondunun səmərəli istifadəsini, meşələrin qanunsuz qırılmasından qorunmasını təmin etmək üçün müəyyən olunmuş qaydada dövlət nəzarətini həyata keçirirlər;
- yerüstü vasitələrdən və müəyyən olunmuş qaydada aviasiyadan istifadə

etməklə meşələrin yanğından qorunması üçün profilaktiki tədbirlər görürlər;

- meşə fondunda yanğın əmələ gəlməməsi üçün meşədə əhalinin daha çox olduğu yerlərdə müvafiq elanlar və plakatlar asıb, papiros çəkmək üçün yerlər düzəldir, meşənin əhəmiyyətini və meşə yanğınlarının nəticəsində vurulan ziyanı izah edən sərgilər təşkil edir, kütləvi informasiya vasitələrindən — radio və televiziyadan geniş istifadə edərək xüsusi filmlər göstərir, ekskursiyalar təşkil edirlər. Meşə yanğınlarını vaxtında aşkar edərək onların ləğv edilməsi üçün müvafiq tədbirlər görürlər;
- meşə fondunda zərərvericilərin və xəstəliklərin mənbələrini aşkara çıxarır, onların yayılmasının qarşısını almaq üçün müvafiq fitosanitar tədbirləri həyata keçirir, meşə fondunun vəziyyəti üzərində müntəzəm müşahidə aparırlar.

2.3. Meşə fondunun mühafizəsini və qorunmasını həyata keçirən vəzifəli şəxslər öz səlahiyyətləri hüdudlarında aşağıdakı hüquqlara malikdirlər:

- meşə fondu ərazisində meşə qanunvericiliyinə riayət olunmasına nəzarət etmək;
- meşələrin istifadəsi, mühafizəsi, qorunması və bərpasında inzibati xətaları və cinayət törədilməsi hallarını aşkar etmək, müvafiq qaydada rəsmiləşdirmək, hüquq-mühafizə və məhkəmə orqanlarına göndərmək;
- meşə fonduna, əhalinin sağlamlığına və ətraf mühitə ziyan vuran təsərrüfat və başqa fəaliyyət növlərini, torpaq eroziyasına səbəb olan, meşənin vəziyyətinə və bərpasına, habelə suyun və digər təbii obyektlərin vəziyyətinə mənfi təsir göstərən üsulların istifadə edilməsini məhdudlaşdırmaq, dayandırmaq, qadağan etmək;
- istifadəyə verilmiş meşə fondu sahələrində meşə yanğını təhlükəsizliyi qaydalarına riayət edilməməsi ilə əlaqədar fiziki və hüquqi şəxslərin ayrı-ayrı təsərrüfat fəaliyyətinin, mədəni-kütləvi və sair tədbirlərin dayandırılması və ya qadağan olunması barədə qərar qəbul etmək;
- meşə istifadəçilərinə meşə fondunun mühafizəsinə, qorunmasına və bərpasına dair rəsmi göstərişlər vermək;
- fiziki və hüquqi şəxsləri meşə yanğınlarının söndürülməsinə cəlb etmək;
- meşə fondunun zərərvericilərdən və xəstəliklərdən mühafizəsini təşkil etmək;
- meşə fondunda meşələrin qanunsuz qırılmasından qorunmasını təmin etmək.

## III. Meşələrin bərpası

3.1. Meşələrin bərpası zonal-tipoloji əsaslarla aparılır.

3.2. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, onun yerli təşkilatlarının meşələrin bərpası sahəsində əsas vəzifələri:

- meşə fondu torpaqlarında meşəbərpa işlərinin aparılmasının uçotunu aparmaq;
- meşəquruluşu materiallarını və meşə fondunda dəyişiklikləri nəzərə alaraq ayrı-ayrı torpaq kateqoriyalarında meşəbərpa işlərinin həcmini, növbəliliyini, vaxtını, qaydasını və üsullarını müəyyənləşdirmək;
- meşə ağac cinslərinin seleksiyasını, meşə toxumçuluğunu və sınaq işlərini təmin etmək;
- qiymətli cinslərdən ibarət yüksək məhsuldarlıqlı, mühit əmələ gətirici və qoruyucu funksiyalara malik yeni meşə sahələrinin salınmasını təmin etmək;
- meşə fondu torpaqlarının məhsuldarlığının artırılmasını, su və külək

eroziyasından qorunmasını təmin edən tədbirləri həyata keçirmək;
- meşə istifadəçiləri tərəfindən aparılan işlər meşələrin inkişafına mənfi təsir göstərdiyi hallarda, müəyyən olunmuş qaydada müvafiq istifadə növlərini dayandırmaq və ya məhdudlaşdırmaq;
- meşələrin bərpası və inkişafı ilə bağlı olan işlərə nəzarət etmək.

3.3. Meşələrin bərpası meşə tiplərindən, ərazilərin meşəbitmə şəraitindən, ağac və kol cinslərinin meşəçilik xüsusiyyətlərindən və meşə yetişdirilməsinin məqsədindən asılı olaraq aşağıdakı şərtləri təmin etməlidir:
- meşə sərvətlərinin meşəçilik, ekoloji və iqtisadi cəhətdən ən qısa müddətdə daha səmərəli üsullarla bərpa olunmasını;
- meşə fondu torpaqlarından səmərəli istifadə edilməsini;
- meşələrin məhsuldarlığının və ağaclarının keyfiyyətinin yaxşılaşdırılmasını;
- ərazinin optimal meşəlik faizinin təmin edilməsini;
- meşələrin suqoruyucu, sanitar-gigiyena, mühit əmələ gətirən və sair qoruyucu funksiyalarının artırılmasını.

3.4. Meşələrin bərpası meşə fondunda baş vermiş dəyişiklikləri nəzərə almaqla meşə quruluşu layihələri əsasında hazırlanmış və müəyyən olunmuş qaydada təsdiq edilmiş dövlət proqramlarına uyğun aparılır. Bu proqramlar meşəbərpa işlərinin həcmini, onların aparılma üsullarını və bərpa olunacaq ağac cinslərini, həmçinin meşəbərpa tədbirlərini, meşə toxumlarının tədarükü və əkin materiallarının yetişdirilməsi işlərinin aparılmasını müəyyənləşdirir.

3.5. Meşə fondunda meşələrin bərpası məqsədi ilə meşə əkinlərinin salınması və meşələrin təbii bərpasına kömək tədbirlərinin həyata keçirilməsi üçün meşəbərpa fondu yaradılır.

Bu fond aşağıdakı kateqoriyalara bölünür:
- meşə əkini fondu;
- meşələrin təbii bərpası üçün torpaq fondu;
- meşə yetişdirilməsi üçün torpaq fondu.

3.6. Meşə əkini fonduna daxildir:
- təbii yolla meşələşməmiş qırma sahələri, yanğın yerləri, seyrəkliklər, talalar, qurumuş ağaclıqlar;
- batmış və müəyyən olunmuş qaydada silinmiş meşə əkini və qurudulmuş bataqlıq sahələri;
- kənd təsərrüfatı istifadəsi üçün yararsız, lakin meşə bərpası üçün yararlı olan torpaq sahələri;
- meşələrin bərpası üçün yararlı olan qumluqlar, dərə və yarğanlar və qeyri-meşə torpaqları. Bu sahələr torpaq və aqrokimyəvi tədqiqatlar aparıldıqdan sonra meşə əkini fonduna daxil edilir;
- meşə əkini və səpini üsulu ilə bərpa olunmalı azqiymətli meşə sahələri və doluluğu 0,6-dan aşağı olan pozulmuş meşə sahələri.

3.7. Meşə əkini fondundan ilk növbədə istifadə olunan sahələr:
- su və külək eroziyasına məruz qalmış sahələr;
- şəhərlərin (qəsəbələrin) yaşıl zonalarında, çayların və ya digər su obyektlərinin qadağan olunmuş zolaqlarında yerləşən sahələr;
- yüksək bonitetli ağaclıqların yetişdirilməsi üçün yararlı olan, meşə ilə örtülü olmayan sahələrin yüksək məhsuldar torpaqları;
- qiymətli ağac cinslərinin yetişdirilməsi üçün bərpa olunması (qırılması nəzərdə tutulmuş azqiymətli meşələr) sahələr;
- tikinti və mədən işlərinin aparılması nəticəsində pozulan və meşə

yetişdirilməsi üçün yararlı hala salınmış (rekultivasiya olunmuş) torpaqlar.

3.8. Meşə əkinləri üçün sahələrin hazırlanmasında, meşə əkinlərində aparılacaq əməliyyatların keyfiyyətlə yerinə yetirilməsi, onların yanğın təhlükəsinə məruz qalma ehtimalının azaldılması və sanitar vəziyyətinin yaxşılaşdırılması sahəsində aşağıdakı işlər nəzərdə tutulur:

- sahənin müayinə edilməsi;
- meşə əkini üçün sahənin ayrılması;
- meşə əkini üçün maşın və mexanizmlərin hərəkətinə maneçilik törədən sahələrin nişanlanması;
- sahənin tör-töküntülərdən, daşlardan, arzu olunmaz ağac bitkilərindən, xırda kötüklərdən və s. başdan-başa və ya zolaqlarla təmizlənməsi;
- sahənin hamarlanması, meliorasiyası, yamaclarda terrasların kəsilməsi;
- sahədə zərərverici həşəratlarla qabaqcadan mübarizə tədbirlərinin aparılması.

3.9. Meşə əkini üçün torpaq hazırlığı üsulu meşəbitmə şəraitindən, meşə tiplərindən, sahənin hazırlanması qaydasından, torpaq hazırlığının aqrotexniki tələblərindən və digər amillərdən asılı olaraq meşə təsərrüfatı müəssisəsi tərəfindən seçilir.

3.10. Meşə əkini üçün torpaq hazırlığı mexaniki üsulla başdan-başa və ya hissə-hissə zolaqlarla aparılır.

3.11. Külək və su eroziyasına məruz qalmayan, mailliyi 6 dərəcəyə qədər olan və mexanizmlərin işləməsi üçün maneçilik törətməyən sahələrdə başdan-başa şumlama üsulundan istifadə olunur.

3.12. Mexaniki üsulla hissə-hissə torpaq hazırlığı zolaqlarla, tranşeylər açılmaqla və çalalar qazılmaqla aparılır.

3.13.Hərəkətdə olan qumluqlarda meşə əkinləri aparılmasından əvvəl həmin sahələrdə kollardan, ot örtüyündən, qamışdan, qarğıdan, mexaniki çəpərlərdən və s. istifadə olunmaqla zolaqlar yaradılır. Bu halda əvvəldən əkilmiş kollar əsas cins əkilənə qədər meşə əkininin həcminə daxil edilmir.

3.14.Dağ və dağətəyi sahələrdə meşə əkini üçün torpaq hazırlığı üsulu sahələrin coğrafi zonalığından, ərazinin mailliyindən, torpağın daşlılığından, su hopdurma qabiliyyətindən, sahənin böyüklüyündən və istifadəsinin mümkünlüyündən, ərazidə eroziya başlaması və artması təhlükəsindən asılı olaraq seçilir.

3.15. Dağlıq ərazilərdə, yamacların maillik dərəcəsindən, torpaq şəraitindən və digər göstəricilərindən asılı olaraq torpaq hazırlığı aşağıdakı üsullarla aparılır:

- mailliyi 6 dərəcəyə qədər olan, az daşlı güclü torpaqlarda başdan-başa şumlama;
- mailliyi 12 dərəcəyə qədər az daşlı torpaqlarda zolaqlarla şumlama və ya terras açmaqla;
- mailliyi 12—40 dərəcəyə qədər və ana qatın su hopdurma qabiliyyəti normal olan torpaqlarda eni 2,5 metrdən 4,5 metrə qədər ölçüdə qazıb tökmə torpaq üsulu ilə, kiçik sahələrdə isə xırda zolaqlarla, çala və tranşeylər qazmaqla.

3.16.Meşə əkinləri tərkibinə görə bir əsas ağac cinsindən (bir cinsli əkin) və ya bir neçə əsas və köməkçi ağac cinslərindən (qarışıq əkin) ibarət yaradıla bilər. Bu zaman seçilən cinsləri meşəbitmə şəraitindən asılı olaraq meşə təsərrüfatının inkişaf etdirilməsi məqsədinə uyğun olmalıdır.

Köməkçi ağac və kol cinsləri seçildikdə onların əsas cinslə qarşılıqlı təsir əlaqələri nəzərə alınmalıdır.

3.17.Meşə əkinlərinin sıxlığı və qarışdırma sxemləri davamlı, yüksək məhsuldarlıqlı ağaclığın formalaşmasını təmin etməlidir. Ziyanvericilər və xəstəliklər yayılmış sahələrdə meşə əkinlərinin ilkin sıxlığı və cins tərkibi meşələrin mühafizəsi

haqqında verilmiş təkliflərə uyğun müəyyənləşdirilir.

3.18. Səpin üsulu ilə meşə əkinləri salındıqda səpin qaydası, ilkin sıxlıq norması və digər texnoloji tələblər, yolverilən cərgə aralarının eni və əkin (səpin) yerlərinin arası, meşəbitmə zonası Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən müəyyənləşdirilir.

3.19. Meşə əkinlərinin yaradılmasında əsas üsul olan əkin, müxtəlif növ əkin materialları (ting, toxmacar və qələm) ilə həyata keçirilir. Su və külək eroziyalarına məruz qalmış, rütubətliyi çox olan torpaqlarda, əkin yerlərini tez alaq bitkiləri basan sahələrdə, kifayət qədər nəmliyi olmayan rayonlarda əkin üsuluna üstünlük verilir. Bu zaman yalnız seleksiya əsasında seçilmiş əkin materiallarından istifadə olunur.

3.20. Meşə əkinlərinin etibarlılığını, aqrotexniki xidmətə olan tələblərinin azaldılmasını və meşə ilə örtülü sahəyə keçirilməsinin tezləşdirilməsini təmin etmək məqsədi ilə, əkin üçün davamlı, tezböyüyən yüksək məhsuldarlıqlı ağac cinslərinin tinglərindən, toxmacarlarından və qələmlərindən istifadə edilir.

3.21. Səpin üsulu ilə meşə əkininin yaradılmasında bu sahədə müsbət təcrübəsi olan, gəmiricilər tərəfindən qorxusu olmayan və torpaq örtüyü zəif inkişaf etmiş sahələrdə aparılır. Bu zaman palıd, şabalıd, qoz ağacı cinslərinin toxumlarından istifadə olunur.

3.22. Əkin və səpinin aparılma müddətləri torpaq, iqlim şəraitindən və ağac cinslərindən asılı olaraq erkən yazda və ya payızda aparılır.

3.23. Plantasiya tipli meşə əkinləri, onların yetişdirilməsinin bütün dövrlərində mövcud təkliflərin və standartların tələblərinə müvafiq hazırlanmış xüsusi layihələr və texnologiyalar üzrə oduncağın və digər meşə məhsullarının alınmasını tezləşdirmək təqsədi ilə salınır.

3.24. Meşələrin təbii bərpası üçün təbii yeniyetmələri olmayan və ya çox az olan sahələrdə bərabər yayılmayan, lakin təbii bərpaya kömək tədbirləri aparmaqla qiymətli cinslər hesabına bərpası mümkün olan yüksək keyfiyyətli məhsuldar meşə torpaqları daxildir.

3.25. Təbii bərpaya kömək tədbirləri aparılan meşə sahələri:

- qalın ölü örtüyə malik, yüksək doluluğu olan, təbii bərpası zəif gedən meşə sahələri;
- mal-qara otarılmasına məruz qalmış, kifayət qədər qiymətli cinsləri, yeniyetmələri və cücərtiləri olan meşə sahələri;
- toxumluq ağaclar qeyri bərabər yayılmış meşə sahələri;
- meşəbitmə şəraitinə görə məhsuldar meşə yetişdirilməsi mümkün olan, lakin meşələrin doluluğuna, yaşına və ərazinin relyefinə görə yeniyetmələri və cücərtiləri zəif olan və qeyri-bərabər yayılan meşə sahələri.

3.26. Təbii bərpaya kömək etmək məqsədi ilə aşağıdakı tədbirlər həyata keçirilir:

- qalın ölü örtüyə və kifayət qədər toxumluq ağaclar olan meşə sahələrində çürüməmiş xəzəl qatının torpaq qatına qədər dırmıxla aşılanması;
- əlverişli meşəbitmə şəraiti olan, doluluğu 0,4—0,6 və az toxumluq ağac olan sahələrdə (ərazinin relyefindən asılı olaraq) torpağın üst qatını dırmıxlanmaqla ağac toxumlarının səpilməsi.

3.27. Meşə yetişdirilməsi üçün torpaq fondu, meşə fondunun məhsuldar olmayan torpaq sahələrini minimuma endirmək, meşə fonduna daxil olmayan torpaqlarda qoruyucu meşə əkinləri yaratmaq, ərazinin meşəlik faizini artırmaq, ekoloji mühiti yaxşılaşdırmaq, torpaqları külək və su eroziyalarından qorumaq məqsədi ilə yaradılır.

Buraya daxildir:

- dağ yamaclarında və dərə yarğanlarında salınmış, su eroziyasını, su axımını tənzimləyən meşə əkinləri;
- torpaqların münbitliyini qoruyan, hidroloji və mikroiqlim şəraitini yaxşılaşdıran dövlət meşə zolaqları;
- təbii su mənbələrini, çay kənarlarını və sahil boyu qoruyucu meşələri, xırda çayları və digər su mənbələrini lilləşmədən, kimyəvi maddələrlə çirklənmədən qoruyan və su rejimini yaxşılaşdıran meşə əkmələri;
- qumluqların bərkidilməsi üçün külək eroziyasına qarşı salınmış yaşıllıq zolaqları;
- örüş və otlaqların yem bazasının yaxşılaşdırılması, ərazilərin sərt küləklərdən və qar çovğunlarından, günəş radiasiyasından qorumaq məqsədi ilə yaradılmış meşə zolaqları və massivləri.

3.28. Meşə yetişdirilməsi meşəhidromeliorativ tədbirlər nəzərə alınmaqla ərazi texnoloji xəritələri əsasında aparılır.

3.29. Meşələrin bərpasını tənzimləyən sənədlərin nümunələri, onların doldurulması və uçota alınması barədə təlimatlar və tövsiyələr Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən təsdiq olunur.

**Meşəqırma həcminin təstiq edilməsi barədə**
**Azərbaycan Respublikası Nazirlər Kabinetinin**
**Qərarı**

Azərbaycan Respublikası Meşə Məcəlləsinin 34-cü maddəsinə uyğun laraq Azərbaycan Respublikası Nazirlər Kabineti qərara alır:

1. "Azərbmeşə" İstehsalat Birliyi tərəfindən hesablanmış və Azərbaycan Respublikasının Dövlət Eklogiya və Təbiətdən İstifadəyə Nəzarət Kmitəsi ilə razılaşdırılmış illik meşəqərma həcmi 64 (altmış dörd) min kub metr təsdiq edilsin.
2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

*Azərbaycan Respublikasının Baş naziri* *A.RASIZADƏ*

Bakı şəhəri, 09 iyun 2000-ci il
№ 99

## Azərbaycan Respublikası prezidentinin bəzi fərmanlarında dəyişikliklər edilməsi barədə
## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin yaradılması və onun Əsasnaməsinin təsdiq edilməsi ilə əlaqədar olaraq **qərara alıram:**

I. «Azərbaycan Respublikası Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi haqqında Əsasnamənin təsdiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 1992-ci il 7 sentyabr tarixli, 176 nömrəli fərmanının 1-ci bəndi qüvvədən düşmüş hesab edilsin.

II. Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında aşağıdakı dəyişikliklər edilsin:

1. «Toxumçuluq haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 7 aprel tarixli, 569 nömrəli fərmanının 3-cü bəndinin ikinci və üçüncü abzaslarında «Azərbmeşə» İstehsalat Birliyi» sözləri «Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi» sözləri ilə əvəz edilsin.
2. Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 iyun tarixli, 609 nömrəli fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi qaydaları»nın 2 nömrəli əlavəsinin «ixrac» bölməsinin birinci, ikinci və altıncı abzaslarında, «idxal» bölməsinin isə dördüncü və səkkizinci abzaslarında «Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi» sözləri «Ekologiya və Təbii Sərvətlər Nazirliyi» sözləri ilə əvəz edilsin. Həmin əlavənin «ixrac» bölməsinin üçüncü abzasında «Dövlət Geologiya və Mineral Ehtiyatlar Komitəsi» sözləri «Ekologiya və Təbii Sərvətlər Nazirliyi» sözləri ilə əvəz edilsin.
3. «Pestisidlər və aqrokimyəvi maddələr haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 25 iyul tarixli, 618 nömrəli fərmanının 2-ci bəndinin dördüncü, beşinci və altıncı abzaslarında «Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi» sözləri «Ekologiya və Təbii Sərvətlər Nazirliyi» sözləri ilə əvəz edilsin.
4. «Azərbaycan Respublikasının 1997-ci il 26 dekabr tarixli, qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikası Su Məcəlləsinin tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 13 mart tarixli, 685 nömrəli fərmanının 2-ci bəndinin beşinci, yeddinci, səkkizinci, on birinci, on ikinci, on dördüncü, on beşinci, on səkkizinci, on doqquzuncu abzaslarında və 4-cü bəndində «Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi» sözləri «Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi» sözləri ilə əvəz edilsin. Həmin fərmanın 2-ci bəndinin beşinci, yeddinci, səkkizinci, on doqquzuncu abzaslarından və 4-cü bəndindən «Dövlət Geologiya və Mineral Ehtiyatlar Komitəsi sözləri çıxarılsın. Həmin fərmanın 2-ci bəndinin doqquzuncu, onuncu və on üçüncü abzaslarında «Dövlət Geologiya və Mineral Ehtiyatlar Komitəsi» və on yeddinci abzasında «Azərbalıq» Dövlət Balıqçılıq Təsərrüfatı Konserni» sözləri «Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi» sözləri ilə əvəz edilsin. Həmin fərmanın 2-ci bəndinin onuncu abzasından «Dövlət Hidrometeorologiya Komitəsi» sözləri çıxarılsın.
5. «Azərbaycan Respublikasının 1997-ci il 30 dekabr tarixli, qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikası Meşə Məcəlləsinin tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 30 mart tarixli, 693 nömrəli fərmanının

2-ci bəndinin beşinci və altıncı abzaslarında «Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi» sözləri, dördüncü, yeddinci və səkkizinci abzaslarında «Azərbmeşə» İstehsalat Birliyi» sözləri «Ekologiya və Təbii Sərvətlər Nazirliyi» sözləri ilə əvəz edilsin. Həmin bəndin beşinci və altıncı abzaslarından «Azərbmeşə» İstehsalat Birliyi» sözləri çıxarılsın.

6. «Yerin təki haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 27 aprel tarixli, 701 nömrəli fərmanının 2-ci bəndinin üçüncü, dördüncü, beşinci, altıncı, onuncu, on birinci, on ikinci, on üçüncü, on altıncı, on səkkizinci, iyirmi birinci, iyirmi üçüncü və iyirmi dördüncü abzaslarında «Dövlət Geologiya və Mineral Ehtiyatlar Komitəsi» sözləri «Ekologiya və Təbii Sərvətlər Nazirliyi» sözləri ilə əvəz edilsin, bu bəndin dördüncü və iyirmi birinci abzaslarından isə «Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi» sözləri çıxarılsın.
7. «Balıqçılıq haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 13 iyun tarixli, 722 nömrəli fərmanının 2-ci bəndinin dördüncü və altıncı abzaslarında «Azərbalıq» Dövlət Balıqçılıq Təsərrüfatı Konserni» sözləri «Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi» sözləri ilə əvəz edilsin. Həmin fərmanın 2-ci bəndinin beşinci abzasında «müvafiq olaraq «Azərbalıq» Dövlət Balıqçılıq Təsərrüfatı Konserni və Azərbaycan Respublikasının Dövlət Ekologiya və Təbiətdən istifadəyə Nəzarət Komitəsi həyata keçirirlər» sözləri «Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi həyata keçirir» sözləri ilə əvəz edilsin.
8. «Hidrometeorologiya fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 19 avqust tarixli, 747 nömrəli fərmanının 2-ci bəndinin beşinci, altıncı və yeddinci abzaslarında «Dövlət Hidrometeorologiya Komitəsi» sözləri «Ekologiya və Təbii Sərvətlər Nazirliyi» sözləri ilə əvəz edilsin.
9. «Əhalinin radiasiya təhlükəsizliyi haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 19 avqust tarixli, 758 nömrəli fərmanının 2-ci bəndinin altıncı abzasında «Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi» sözləri «Ekologiya və Təbii Sərvətlər Nazirliyi» sözləri ilə əvəz edilsin.
10. «1998-2002-ci illərdə Azərbaycan Respublikasının dövlət statistika sistemində islahatların aparılmasına dair Dövlət Proqramı haqqında» Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 20 avqust tarixli, 760 nömrəli fərmanı ilə təsdiq edilmiş «1998-2002-ci illərdə dövlət statistika sistemində islahatların aparılmasına dair Dövlət Proqramı»nın tədbirlər cədvəlinin I bölməsinin 3.3-cü yarımbəndindən və II bölməsinin 2.2-ci yarımbəndindən «Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi» sözləri çıxarılsın. Bu cədvəlin I bölməsinin 3.3-cü yarımbəndində və II bölməsinin 2.2 və 2.7-ci yarımbəndində «Dövlət Geologiya və Mineral Ehtiyatlar Komitəsi» sözləri «Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi» sözləri ilə əvəz edilsin.
11. «İstehsalat və məişət tullantıları haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 26 oktyabr tarixli, 3 nömrəli fərmanının 2-ci bəndinin üçüncü, dördüncü, beşinci, altıncı və yeddinci abzaslarında «Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi» sözləri «Ekologiya və Təbii Sərvətlər Nazirliyi» sözləri ilə əvəz edilsin və bu bəndin altıncı abzasından «Dövlət Geologiya və Mineral Ehtiyatlar Komitəsi» sözləri çıxarılsın.

12. «Tarixi «İpək yolu»nun bərpası üzrə Beynəlxalq Bakı Konfransının qərarlarının yerinə yetirilməsi ilə əlaqədar tədbirlər haqqında» Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 26 oktyabr tarixli, 4 nömrəli fərmanının 6-cı bəndində «Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi» sözləri «Ekologiya və Təbii Sərvətlər Nazirliyi» sözləri ilə əvəz edilsin.
13. «Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 noyabr tarixli, 23 nömrəli fərmanı ilə təsdiq edilmiş «Məlumatları dövlət sirrinə aid etmək səlahiyyəti verilmiş vəzifəli şəxslərin siyahısı»nın II bölməsinin iyirmi ikinci abzası aşağıdakı redaksiyada verilsin: «Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri», iyirmi üçüncü və otuzuncu abzasları isə çıxarılsın. Həmin fərmanla təsdiq edilmiş «Dövlət sirrinə aid edilən məlumatların siyahısı»nın I bölməsinin 4-cü bəndinin on səkkizinci abzasında «ETİNK» - Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi» sözləri «ETSN» - «Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi» sözləri ilə əvəz edilsin və cədvəlin 15-ci bəndində «Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət DK» sözləri «Ekologiya və Təbii Sərvətlər Nazirliyi» sözləri ilə əvəz edilsin. Bu cədvəlin 35, 45, 47 və 72-ci bəndlərində «Geologiya və Mineral Ehtiyatlar DK» sözləri və 7, 32, 33 və 34-cü bəndlərində «Hidrometeorologiya DK» sözləri «ETSN» sözləri ilə əvəz edilsin və 45-ci və 47-ci bəndlərindən «ETİNK» sözləri, 35-ci bəndindən isə «Hidrometeorologiya DK» sözləri çıxarılsın.
14. «Yol hərəkəti haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 noyabr tarixli, 24 nömrəli fərmanının 2-ci bəndinin beşinci abzasında «Dövlət Hidrometeorologiya Komitəsi» sözləri və on doqquzuncu abzasında «Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi» sözləri «Ekologiya və Təbii Sərvətlər Nazirliyi» sözləri ilə əvəz edilsin.
15. Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 noyabr tarixli, 26 nömrəli fərmanı ilə təsdiq edilmiş «Beynəlxalq (regional) və dövlətlərarası standartların, normaların, qaydaların və tövsiyələrin Azərbaycan Respublikası ərazisində tanınması və tətbiq edilməsi qaydaları»nın 10-cu bəndində «Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi» sözləri «Ekologiya və Təbii Sərvətlər Nazirliyi» sözləri ilə əvəz edilsin.
16. «Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 4 oktyabr tarixli, 637 nömrəli fərmanı ilə təsdiq edilmiş «Xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növlərinin və onları verən icra hakimiyyəti orqanlarının siyahısı»na dəyişikliklər və əlavələr edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 1 fevral tarixli, 83 nömrəli fərmanının 1-ci bəndinin doqquzuncu abzasında «Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi» sözləri «Ekologiya və Təbii Sərvətlər Nazirliyi» sözləri ilə əvəz edilsin.
17. «Yerin təki haqqında» Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə» Azərbaycan Respublikası prezidentinin 1999-cu il 13 fevral tarixli, 102 nömrəli fərmanının 2-ci bəndinin beşinci və on birinci abzaslarından «Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi» sözləri çıxarılsın və bu bəndin üçüncü, beşinci, yeddinci, doqquzuncu, onuncu, on birinci abzaslarında, 3-cü bəndinin ikinci abzasında «Dövlət Geologiya və Mineral Ehtiyatlar Komitəsi» sözləri «Ekologiya və Təbii Sərvətlər Nazirliyi» sözləri ilə əvəz edilsin. Həmin fərmanla təsdiq edilmiş «İstifadəyə verilən yer təki sahələri haqqında geoloji informasiyanın və faydalı qazıntı ehtiyatlarının dövlət geoloji ekspertizasının keçirilməsi qaydaları»nın 1.6-cı bəndində, 3.3-cü bəndinin on ikinci abzasında, 5.7, 5.10 və 6.3-cü bəndlərində «Dövlət Geologiya və Mineral Ehtiyatlar Komitəsi» sözləri «Ekologiya və Təbii

Sərvətlər Nazirliyi» sözləri ilə əvəz edilsin.

18. «Hidrometeorologiya fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 13 fevral tarixli, 103 nömrəli fərmanının 2-ci bəndinin on ikinci abzasından «Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi» sözləri çıxarılsın, bu bəndin ikinci, üçüncü, dördüncü, beşinci, altıncı, yeddinci, səkkizinci, doqquzuncu, onuncu, on birinci və on ikinci abzaslarında, eləcə də 3-cü bəndin ikinci abzasında «Dövlət Hidrometeorologiya Komitəsi» sözləri «Ekologiya və Təbii Sərvətlər Nazirliyi» sözləri ilə əvəz edilsin. Həmin fərmanla təsdiq edilmiş «Azərbaycan Respublikasında hidrometeorologiya fəaliyyətinə dövlət nəzarəti haqqında Əsasnamə»nin 2, 5, 6 və 7-ci bəndlərində «Hidrometeorologiya Komitəsi» sözləri «Ekologiya və Təbii Sərvətlər Nazirliyi» sözləri ilə əvəz edilsin.
19. «Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının bəzi məsələləri haqqında» Azərbaycan Respublikası prezidentinin 1999-cu il 17 iyun tarixli, 139 nömrəli fərmanının 1-ci bəndinin iyirmi ikinci abzasından «Musa Məmmədov - «Azərbmeşə» İstehsalat Birliyinin sədri» sözləri çıxarılsın.
20. «Dövlət büdcəsindən maliyyələşdirilən bir sıra müəssisə və təşkilatlarda işləyən fəhlə və qulluqçuların əmək haqqlarının artırılması haqqında» Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 31 iyul tarixli, 170 nömrəli fərmanının 1-ci bəndindən «Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsinin», «Azərbaycan Respublikası Dövlət Hidrometeorologiya Komitəsinin», «Azərbalıq» Dövlət Konserninin» və “Azərbmeşə” İstehsalat Birliyinin” sözləri çıxarılsın və bu bəndə «Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi» sözləri əlavə edilsin.
21. «Ekoloji təhlükəsizlik haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 4 avqust tarixli, 172 nömrəli fərmanının 2-ci bəndinin üçüncü, dördüncü, beşinci abzaslarında və 3-cü bəndində «Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi» sözləri «Ekologiya və Təbii Sərvətlər Nazirliyi» sözləri ilə əvəz edilsin.
22. «Ətraf mühitin mühafizəsi haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası prezidentinin 1999-cu il 4 avqust tarixli, 173 nömrəli fərmanının 2-ci bəndinin üçüncü abzasında və 3-cü bəndində «Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi» sözləri «Ekologiya və Təbii Sərvətlər Nazirliyi» sözləri ilə əvəz edilsin.
23. «Azərbaycan Respublikasının 1999-cu il 25 iyun tarixli, Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 4 avqust tarixli, 176 nömrəli fərmanının 2-ci bəndinin beşinci abzasında «Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi» sözləri «Ekologiya və Təbii Sərvətlər Nazirliyi» sözləri ilə əvəz edilsin.
24. «Qaz təchizatı haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə əlaqədar əlavə tədbirlər haqqında» Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 10 avqust tarixli, 178 nömrəli fərmanının 1-ci bəndinin yeddinci abzasında «Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi» sözləri «Ekologiya və Təbii Sərvətlər Nazirliyi» sözləri ilə əvəz edilsin.
25. «Heyvanlar aləmi haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 avqust tarixli, 186 nömrəli fərmanının 3-cü bəndinin ikinci, üçüncü, dördüncü, altıncı, yeddinci və səkkizinci abzaslarında «Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi» sözləri «Ekologiya və Təbii Sərvətlər Nazirliyi» sözləri ilə əvəz edilsin. Həmin fərmanın 3-cü bəndinin ikinci və üçüncü abzaslarından «və «Azərbalıq»

Dövlət Balıqçılıq Təsərrüfatı Konserni», yeddinci abzasından isə «və «Azərbalıq» Dövlət Balıqçılıq Təsərrüfatı Konserni öz səlahiyyətləri daxilində» sözləri çıxarılsın.

26. «Azərbaycan Respublikasının «Azərqızıl» Dövlət Şirkətinin ləğv edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 22 yanvar tarixli, 264 nömrəli fərmanının 2-ci və 3-cü bəndlərində «Dövlət Geologiya və Mineral Ehtiyatlar Komitəsi» sözləri «Ekologiya və Təbii Sərvətlər Nazirliyi» sözləri ilə əvəz edilsin.
27. «Torpaqların münbitliyi haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli, 290 nömrəli fərmanının 2-ci bəndinin dördüncü və beşinci abzaslarında «Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi» sözləri «Ekologiya və Təbii Sərvətlər Nazirliyi» sözləri ilə əvəz edilsin və beşinci abzasından «Dövlət Geologiya və Mineral Ehtiyatlar Komitəsi» sözləri çıxarılsın.
28. «Azərbaycan Respublikasının 1999-cu il 25 iyun tarixli, qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin icrasının təmin edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli, 291 nömrəli fərmanının 1-ci bəndinin on birinci abzasında «Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi» sözləri «Ekologiya və Təbii Sərvətlər Nazirliyi» sözləri ilə əvəz edilsin və onuncu abzasından «Azərbaycan Respublikasının Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi» sözləri çıxarılsın. Bu bəndin beşinci, onuncu, on üçüncü, on dördüncü, on beşinci və iyirminci abzaslarında «Azərmeşə» İstehsalat Birliyi» sözləri «Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi» sözləri ilə əvəz edilsin.
29. Azərbaycan Respublikası prezidentinin 2000-ci il 6 mart tarixli, 293 nömrəli fərmanı ilə təsdiq edilmiş «Faydalı qazıntı ehtiyatlarının dövlət balansının aparılası Qaydaları»nın 1.3-cü bəndində, 2.4.1-ci yarımbəndində, 3.3 və 3.6-cı bəndlərində «Dövlət Geologiya və Mineral Ehtiyatlar Komitəsi» sözləri «Ekologiya və Təbii Sərvətlər Nazirliyi» sözləri ilə əvəz edilsin.
30. «Heyvanlar aləmi haqqında» Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə» Azərbaycan Respublikası prezidentinin 2000-ci il 6 mart tarixli, 294 nömrəli fərmanının 2-ci bəndinin ikinci və üçüncü abzasları aşağıdakı redaksiyada verilsin:

    «- həmin qanunun 6-cı maddəsində nəzərdə tutulmuş heyvanlar aləminin mühafizəsi və istifadəsi ilə bağlı hüquq münasibətlərində Azərbaycan Respublikası adından Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi (o cümlədən, Naxçıvan MR üzrə Naxçıvan MR-nın Ekologiya və Təbii Sərvətlər Nazirliyi) iştirak edir;

    - həmin Qanunun 8-ci maddəsində nəzərdə tutulmuş heyvanlar aləminin mühafizəsi və istifadəsi sahəsində idarəetmə sisteminə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Naxçıvan MR-nın Ekologiya və Təbii Sərvətlər Nazirliyi daxildir;».

    Həmin fərmanın 2-ci bəndinin dördüncü abzasından «Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq, Azərbaycan Respublikasının Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi və «Azərbalıq» Dövlət Balıqçılıq Təsərrüfatı Konserni öz səlahiyyətləri daxilində həyata keçirirlər» sözləri «Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi həyata keçirir» sözləri ilə, altıncı abzasında isə «Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi» sözləri «Ekologiya və Təbii Sərvətlər Nazirliyi» sözləri ilə əvəz edilsin.
31. «Azərbaycan Respublikası prezidentinin 1997-ci il 4 oktyabr tarixli, 637 nömrəli fərmanı ilə təsdiq edilmiş «Xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növlərinin və onları verən icra hakimiyyəti orqanlarının siyahısı»na əlavələr və dəyişikliklər edilməsi haqqında» Azərbaycan Respublikası prezidentinin 2000-ci il 01 iyul tarixli, 358 nömrəli fərmanının 1-ci bəndinin üçüncü abzasında «Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi» sözləri «Azərbaycan Respublikasının

Ekologiya və Təbii Sərvətlər Nazirliyi» sözləri ilə əvəz edilsin.

32. «Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası prezidentinin 2000-ci il 15 iyul tarixli, 366 nömrəli fərmanının 2-ci bəndinin dördüncü və yeddinci abzaslarında «Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi» sözləri «Ekologiya və Təbii Sərvətlər Nazirliyi» sözləri ilə əvəz edilsin.
33. «Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası prezidentinin 2000-ci il 29 avqust tarixli, 389 nömrəli fərmanının 2-ci bəndinin on altıncı və 3-cü bəndinin doqquzuncu abzaslarında «Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi» sözləri, 3-cü bəndinin altıncı abzasında «Azərbmeşə» İstehsalat Birliyi» sözləri, yeddinci abzasında «Dövlət Geologiya və Mineral Ehtiyatlar Komitəsi» sözləri, on üçüncü və on dördüncü abzaslarında «Dövlət Hidrometeorologiya Komitəsi» sözləri, on altıncı abzasında isə «Azərbalıq» Dövlət Balıqçılıq Təsərrüfatı Konserni sözləri «Ekologiya və Təbii Sərvətlər Nazirliyi» sözləri ilə əvəz edilsin.
34. «Ətraf mühitin mühafizəsi haqqında» Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə» Azərbaycan Respublikası prezidentinin 2000-ci il 30 avqust tarixli, 392 nömrəli fərmanının 1-ci bəndinin dördüncü, on üçüncü, on beşinci, on səkkizinci, on doqquzuncu, iyirminci və iyirmi birinci abzaslarında, 2-ci bəndinin ikinci abzasında və 3-cü bəndinin ikinci abzasında «Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi» sözləri, 1-ci bəndinin altıncı abzasında "Azərbalıq" Dövlət Konserni" sözləri, 1-ci bəndinin səkkizinci, on ikinci və on altıncı abzaslarında «Dövlət Geologiya və Mineral Ehtiyatlar Komitəsi» sözləri və 1-ci bəndinin beşinci abzasında «Azərbmeşə» İstehsalat Birliyi» sözləri «Ekologiya və Təbii Sərvətlər Nazirliyi» sözləri ilə əvəz edilsin.
35. «Özəl tibb fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası prezidentinin 2000-ci il 6 mart tarixli, 296 nömrəli fərmanına dəyişiklik edilməsi haqqında» Azərbaycan Respublikası prezidentinin 2002-ci il 24 avqust tarixli, 761 nömrəli fərmanının 1-ci bəndinin ikinci abzasında «2-ci bəndi» sözləri «2-ci bəndinin üçüncü abzası» sözləri ilə əvəz edilsin.
36. «Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin tətbiqi ilə əlaqədar Azərbaycan Respublikası prezidentinin bəzi fərmanlarına dəyişikliklər edilməsi və bəzi fərmanlarının və sərəncamlarının qüvvədən düşmüş hesab edilməsi barədə» Azərbaycan Respublikası prezidentinin 2002-ci il 24 avqust tarixli, 767 nömrəli fərmanının 5-ci bəndi çıxarılsın və 7-ci bəndində «2-ci abzası» sözləri «üçüncü abzası» sözləri ilə əvəz edilsin.
37. Azərbaycan Respublikası prezidentinin 2000-ci il 15 iyul tarixli, 371 nömrəli fərmanı ilə təsdiq edilmiş «Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə Proqram»ın 2-ci bəndinin 2.15-ci yarımbəndində və 4-cü bəndinin 4.4-cü yarımbəndində «Azərbmeşə» İstehsalat Birliyi» sözləri «Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi» sözləri ilə əvəz edilsin.

III. Bu fərman dərc olunduğu gündən qüvvəyə minir.

*Azərbaycan Respublikasının Prezidenti* *Heydər ƏLİYEV*

Bakı şəhəri, 23 oktyabr 2003-cü il
№ 941

# Azərbaycan Respublikasının Nazirlər Kabineti
# Meşə qanunvericiliyinin pozulması hallarının qarşısının alınması tədbirləri haqqında
# Qərar № 145

Bakı şəhəri, 30 sentyabr 2004-cü il

Meşə qanunvericiliyinin pozulması hallarının qarşısının alınması və bu pozuntularda təqsirkar olan şəxslərin maddi məsuliyyətinin meşə fonduna vurduqları faktiki ziyana uyğunlaşdırılması məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. «Meşə təsərrüfatına dəymiş ziyana görə maddi məsuliyyətə cəlb edilmə qaydaları haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 27 dekabr tarixli, 636 nömrəli qərarı ilə təsdiq edilmiş «Meşə əkinlərinin, meşə bərpa işləri üçün nəzərdə tutulan sahələrdə təbii yeniyetmələrin və cücərtilərin məhv edilməsi və ya zədələnməsi nəticəsində vurulmuş ziyanın miqdarının hesablanması üçün nırx»a, «Meşə tingliklərində, böyütmə və plantasiya sahələrində toxmacar və tinglərin məhv edilməsi və ya zədələnməsi nəticəsində vurulmuş ziyanın miqdarının hesablanması üçün nırx»a, «Meşələrdə və dövlət meşə fondunun meşəsiz torpaqlarında özbaşına ot çalınması, mal-qara otarılması, biçənəklərin və otlaq yerlərinin korlanması nəticəsində vurulmuş ziyanın miqdarının hesablanması üçün nırx»a, «Ağac və kolların boy atmasının dayandırılmasına səbəb olmadan zədələnməsi nəticəsində vurulmuş ziyanın miqdarının hesablanması üçün nırx»a, «Qadağan edilən, yaxud yalnız meşədən əlavə istifadə biletlərinə əsasən icazə verilən sahələrdə özbaşına meşə məhsullarının tədarükü və yığılması nəticəsində meşə təsərrüfatına vurulmuş ziyanın hesablanması üçün nırx»a, «Meşələrdə məhdudlaşdırıcı nişanların məhv edilməsi və korlanması nəticəsində meşə təsərrüfatına vurulmuş ziyanın miqdarının hesablanması üçün nırx»a və «Ağacların və kolların qanunsuz qırılması və zədələnməsi (boy artımının dayandırılması dərəcəsinədək) nəticəsində vurulmuş ziyanın miqdarının hesablanması üçün nırx»a görə beş yüksəldici əmsal tətbiq edilsin.
2. «Respublika meşələrində əsas meşə və kol cinslərinin yeni kötükstə buraxılış nırxlarının təsdiq edilməsi haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 24 avqust tarixli, 312 nömrəli qərarı ilə təsdiq edilmiş «Respublika meşələrində əsas meşə və kol cinslərinin kötükstə buraxılış nırxları»nda işlik oduncağa (qabıqsız) görə altı yüksəldici əmsal və oduna (qabıqla) görə on yüksəldici əmsal tətbiq edilsin.
3. «Respublika meşələrində əsas meşə və kol cinslərinin yeni kötükstə buraxılış nırxlarının təsdiq edilməsi haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 24 avqust tarixli, 312 nömrəli qərarının 2-ci bəndi, həmin qərarla təsdiq edilmiş «Respublika meşələrində əsas meşə və kol cinslərinin kötükstə buraxılış nırxları»nın qeydi və «Respublika meşələrində əsas meşə və kol cinslərinin kötükstə buraxılış nırxlarına yüksəldici əmsalın tətbiq edilməsi haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1995-ci il 14 aprel tarixli, 85 nömrəli qərarının 1-ci bəndi qüvvədən düşmüş hesab edilsin.
4. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

*Azərbaycan Respublikasının Baş naziri* *A. RASİ-ZADƏ*

## Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarına və sərəncamlarına əlavə və dəyişikliklər edilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANINDAN ÇIXARIŞ

«Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 10 iyun tarixli 880 nömrəli Fərmanının tətbiqi ilə əlaqədar qərara alıram:

I. Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarına və sərəncamlarına aşağıdakı əlavə və dəyişikliklər edilsin:

8. Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 18 sentyabr tarixli 583 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi haqqında Əsasnamə»nin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 9, maddə 598; Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 12 fevral tarixli 33 nömrəli Fərmanı) 10.53-cü bəndi çıxarılsın.

13.Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 18 fevral tarixli 1152 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, № 2, maddə 107) ilə təsdiq edilmiş milli proqramlara aşağıdakı dəyişikliklər edilsin:

13.1. «Azərbaycan Respublikasında ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa dair Milli Proqram»ın 10-cu Bölməsinin 73-cü və 74-cü bəndlərindən «Azəravtoyol» Dövlət Şirkəti» sözləri çıxarılsın;

13.2. «Azərbaycan Respublikasında meşələrin bərpa edilməsi və artırılmasına dair Milli Proqram»da:

13.2.1. 1-ci Bölmənin 1.2.4-cü bəndinin üçüncü abzasında «Azəravtoyol» Dövlət Şirkəti» sözləri «Azərbaycan Respublikası Nəqliyyat Nazirliyi» sözləri ilə əvəz edilsin;

13.2.2. 4-cü Bölmənin 4.1.3-cü bəndindən «Azəravtoyol Dövlət Şirkəti» sözləri çıxarılsın. II. Bu Fərman dərc olunduğu gündən qüvvəyə minir.

*Azərbaycan Respublikasının Prezidenti* *İlham ƏLİYEV*

Bakı şəhəri, 10 dekabr 2004-cü il
№ 159

## Azərbaycan Respublikasının meşə fonduna daxil olmayan ağac-kol bitkilərinin istifadəsi, mühafizəsi və qorunması Qaydaları haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Meşə fonduna daxil olmayan ağac-kol bitkilərinin qorunmasını gücləndirmək, yaşıllıq sahələrini genişləndirmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. "Azərbaycan Respublikasının meşə fonduna daxil olmayan ağac-kol bitkilərinin istifadəsi, mühafizəsi və qorunması Qaydaları" təsdiq edilsin (əlavə olunur).
2. "Meşə təsərrüfatına dəymiş ziyana görə maddi məsuliyyətə cəlb edilmə qaydaları haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 27 dekabr tarixli 636 nömrəli qərarının 7 saylı əlavəsinin cədvəlinə sıra üzrə:

| | | |
|---|---|---|
| 1 m2 yaşıllıqlar üçün (qazon, çiçək ləki və s.) | 0,2 | 0,2 |

sözləri və Qeyd hissəsinə aşağıdakı məzmunda IV bənd əlavə edilsin:

"IV. Bakı, Gəncə və Sumqayıt şəhərlərində ağac və kol cinslərinin qanunsuz kəsilməsi, kökündən çıxarılması və ya boy artımının dayandırılması dərəcəsinə qədər zədələnməsi nəticəsində dəymiş ziyanın miqdarı yuxarıdakı nırx üç dəfə artırılmaqla hesablanır.".

3. "Dövlət meşə fonduna daxil olmayan ağac-kol bitkilərinin qorunması haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan SSR Nazirlər Sovetinin 1983-cü il 15 dekabr tarixli 493 nömrəli qərarının 1-ci bəndi qüvvədən düşmüş hesab edilsin.
4. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

*Azərbaycan Respublikasının Baş naziri* *A. RASİZADƏ*

Bakı şəhəri, 19 sentyabr 2005-ci il
№ 173

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin*
*2005-ci il 19 sentyabr tarixli 173 nömrəli qərarı ilə*

*TƏSDİQ EDİLMİŞDİR*

**Azərbaycan Respublikasının meşə fonduna daxil olmayan ağac-kol bitkilərinin istifadəsi, mühafizəsi və qorunması**

## QAYDALARI

1. Bu Qaydalar meşə fonduna daxil olmayan ağac-kol bitkilərinin istifadəsi, mühafizəsi və qorunmasını tənzimləyir.
2. Aşağıdakı ağac və kol bitkiləri meşə fonduna daxil deyildir:
   kənd təsərrüfatı torpaqlarındakı ağaclar və ağac qrupları, tarlaqoruyucu meşə zolaqları, habelə digər ağac-kol bitkiləri;
   dəmir yolları və avtomobil yollarını, kanalları və digər su obyektlərini ayıran zolaqlardakı qoruyucu ağaclar;
   şəhərlərdə və digər yaşayış məntəqələrində olan ağaclar və ağac qrupları, habelə yaşıllıqlar;
   həyətyanı sahələrdə, yaylaq, qışlaq və bağ sahələrində olan ağaclar və ağac qrupları.
3. Meşə fonduna daxil olmayan ağac-kol bitkilərinin mühafizəsinin məqsədi onları qanunsuz qırmalardan və köçürmələrdən, yaşıllıqlara zərər vura bilən digər hərəkətlərdən qorumaqdır.
4. Bu Qaydalar meşə fonduna, fiziki və hüquqi şəxslərin xüsusi mülkiyyətinə daxil olmayan torpaq sahələrində bitən ağac-kol bitkilərinə şamil edilir və onun tələblərinin yerinə yetirilməsi həmin torpaqların istifadəçiləri və icarəçiləri üçün məcburidir.
5. Meşə fonduna, fiziki və hüquqi şəxslərin xüsusi mülkiyyətinə daxil olmayan torpaq sahələrində bitən ağac-kol bitkilərinin qorunub mühafizə olunması həmin torpaqların istifadəçiləri və icarəçiləri tərəfindən həyata keçirilir və aşağıdakı tədbirlərin yerinə yetirilməsini nəzərdə tutur:
   ağac-kol bitkilərinin vəziyyətinə, səmərəli istifadəsinə, mühafizəsinə və qorunmasına nəzarətin təşkili;
   torpaqların münbitliyinin artırılması, su və külək eroziyasından qorunmasının təmin edilməsi;
   hüquq pozuntularının qarşısının alınması, onların aradan qaldırılması;
   qanunsuz qırılmış ağac-kol bitkilərinin və yaşıllıqların bərpa edilməsi;
   yaşıllıqların suqoruyucu, sanitar-gigiyena, mühit əmələ gətirən və digər qoruyucu funksiyalarının artırılması və s.
6. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi aidiyyəti orqanlarla birlikdə mövcud qanunvericiliyə riayət edilməsini, meşə fonduna daxil olmayan ağac-kol bitkilərinin səmərəli istifadəsini, onların qanunsuz qırılmasının qarşısının alınmasını təmin etmək məqsədilə müəyyən olunmuş qaydada dövlət nəzarətini həyata keçirirlər.
7. Aşağıdakı müstəsna hallarda meşə fonduna, fiziki və hüquqi şəxslərin xüsusi mülkiyyətinə daxil olmayan torpaq sahələrində bitən ağac-kol bitkilərinin həmin torpaqların istifadəçiləri və icarəçiləri tərəfindən qırılması və ya köçürülməsi Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin razılığı və müəyyən şərtləri ilə aidiyyəti yerli icra hakimiyyəti (şəhər rayonları istisna olmaqla)

və özünüidarəetmə (bələdiyyə) orqanlarının qərarları və sərəncamları əsasında yol verilir:

köküstə quruduqda;

yüksək gərginlikli elektrik xətlərinə toxunduqda;

təbii fəlakət nəticəsində, həmçinin xəstəlik və ziyanvericilərlə ciddi zədələndikdə;

axar sular, kimyəvi maddələr, sənaye, kommunal-məişət və digər tullantılar ilə zədələndikdə və ya məhv edildikdə;

ağacların yerə düşmək təhlükəsi yarandıqda;

qanunvericiliklə nəzərdə tutulan digər hallarda.

8. Dəmir yoluna aid torpaqlarda yerləşən ağac-kol bitkilərində qulluq, sanitariya, yenidənəkmə məqsədilə xüsusi təyinatlı və başqa qırmaların aparılması, avtomobil yollarına aid torpaqlarda və su fondu torpaqlarında meşəsalma, habelə ağac-kol bitkilərinin istifadəsi, mühafizəsi və qorunması qaydaları Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilir.
9. Şəhər və digər yaşayış məntəqələrindəki ağac və kol bitkilərində qulluq, sanitariya, yenidənəkmə məqsədilə xüsusi təyinatlı və başqa qırmalar Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə razılaşdırılmaqla yerli icra hakimiyyəti (şəhər rayonları istisna olmaqla) və özünüidarəetmə (bələdiyyə) orqanları tərəfindən aparılır.
10. Təbiət abidəsi elan edilən ağac-kol bitkilərinin və Azərbaycan Respublikasının "Qırmızı Kitabı"na daxil edilmiş nadir və nəsli kəsilməkdə olan ağac-kol bitkilərinin qorunub mühafizə olunması mövcud qanunvericilikdə müəyyən edilmiş qaydada aparılır.
11. Bu Qaydaların pozulmasına görə fiziki və hüquqi şəxslər qanunvericilikdə müəyyən olunmuş qaydada məsuliyyət daşıyırlar və meşə fonduna, fiziki və hüquqi şəxslərin xüsusi mülkiyyətinə daxil olmayan torpaq sahələrində bitən ağac-kol bitkilərinin qanunsuz kəsilməsi, boy artımının dayandırılması dərəcəsinə qədər zədələnməsi və yaşıllıqların məhv edilməsi nəticəsində təbiətə dəymiş ziyanın miqdarı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 27 dekabr tarixli 636 nömrəli qərarı ilə təsdiq edilmiş nırx dəyərləri ilə hesablanır.

**Toxumçuluq və tinglik təsərrüfatlarından satılan 1-ci və 2-ci reproduksiyalı toxumlara və tinglərə görə dövlət büdcəsindən təsərrüfatlara subsidiyanın ödənilməsi Qaydası»nın təsdiq edilməsi barədə**

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

«Toxumçuluq və tinglik təsərrüfatlarından satılan 1-ci və 2-ci reproduksiyalı toxumlara və tinglərə görə dövlət büdcəsindən təsərrüfatlara subsidiyanın ödənilməsi Qaydası»nın təsdiq edilməsi barədə

«Toxumçuluq haqqında» Azərbaycan Respublikasının Qanununa dəyişiklik və əlavə edilməsi barədə» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 12 mart tarixli 546 nömrəli Fərmanının 1.3-cü yarımbəndinin icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. «Toxumçuluq və tinglik təsərrüfatlarından satılan 1-ci və 2-ci reproduksiyalı toxumlara və tinglərə görə dövlət büdcəsindən təsərrüfatlara subsidiyanın ödənilməsi Qaydası» təsdiq edilsin (əlavə olunur).
2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

*Azərbaycan Respublikasının Baş naziri* *A. RASİZADƏ*

Bakı şəhəri, 25 iyun 2007-ci il
№103

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin*
*2007-ci il 25 iyun tarixli 103 nömrəli qərarı ilə*
*TƏSDİQ EDİLMİŞDİR*

# Toxumçuluq və tinglik təsərrüfatlarından satılan 1-ci və 2-ci reproduksiyalı toxumlara və tinglərə görə dövlət büdcəsindən təsərrüfatlara subsidiyanın ödənilməsi
# Q A Y D A S I

## I. Ümumi müddəalar

1.1. Bu Qayda «Toxumçuluq haqqında» Azərbaycan Respublikasının Qanununa dəyişiklik və əlavə edilməsi barədə» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 12 mart tarixli 546 nömrəli Fərmanının 1.3-cü yarımbəndinə əsasən hazırlanmışdır və toxumçuluq və tinglik təsərrüfatlarından satılan 1-ci və 2-ci reproduksiyalı toxumlara və tinglərə görə dövlət büdcəsindən təsərrüfatlara subsidiyanın ödənilməsi istiqamətlərini və şərtlərini tənzimləyir.

1.2. Dövlət büdcəsindən təsərrüfatlara subsidiyanın ödənilməsində əsas meyar Azərbaycan Respublikasının ərazisində rayonlaşdırılmış, dövlət reyestrində qeydiyyatdan keçmiş, sortluq və səpin keyfiyyətlərini təsdiq edən uyğunluq sertifikatı olan 1-ci və 2-ci reproduksiyalı toxumların və tinglərin istehsal olunaraq satılması və alıcı təsərrüfat tərəfindən bu toxum və tinglərin ona məxsus, habelə icarəsində və istifadəsində olan torpaq sahəsində əkilməsidir.

## II. Subsidiyanın verilməsi qaydası və şərtləri

2.1. Toxumçuluq və tinglik təsərrüfatlarından satılan 1-ci və 2-ci reproduksiyalı toxumlara və tinglərə görə dövlət büdcəsindən təsərrüfatlara subsidiyanın ödənilməsi üçün daxil olmuş müraciətləri araşdırmaq məqsədi ilə müvafiq rayon (şəhər) icra hakimiyyəti başçısının sərəncamı ilə aşağıdakı tərkibdə rayon (şəhər) komissiyası yaradılır:

- rayon (şəhər) icra hakimiyyəti başçısının müavini – komissiyanın sədri;
- Kənd Təsərrüfatı Nazirliyinin yerli nümayəndəsi;
- İqtisadi İnkişaf Nazirliyinin yerli şöbəsinin nümayəndəsi;
- Maliyyə Nazirliyinin müvafiq şəhər və rayon üzrə idarəsinin (şöbəsinin) nümayəndəsi;
- Dövlət Statistika Komitəsinin yerli şöbəsinin nümayəndəsi;
- rayon dövlət toxum müfəttişliyinin nümayəndəsi.

2.2. Rayon (şəhər) komissiyasının təqdimatı əsasında rayon (şəhər) icra hakimiyyəti başçısının sərəncamı ilə bələdiyyənin, toxum və ting istehsal edən və digər təsərrüfatların mütəxəssislərindən ibarət rayon (şəhər) komissiyasının ayrı-ayrı ərazilər üzrə işçi qrupları yaradılır.

2.3. Rayon komissiyası ayrı-ayrı və ərazilər üzrə işçi qrupların iş rejimini və istehsalçılardan müvafiq sənədlərin qəbul edilməsi qaydalarını, şərtlərini və sənədlərin təqdim edilmə tarixini göstərməklə, yerli mətbuatda məlumat dərc etdirir, habelə onların vasitəsilə istehsalçıları blanklar və ərizə forması ilə təmin edir.

2.4. Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada toxum və ting istehsalı ilə məşğul olan dövlət və özəl təsərrüfatlar (bundan sonra

– istehsalçı) istehsal etdikləri 1-ci və 2-ci reproduksiyalı toxumların və tinglərin satışına görə dövlət büdcəsindən subsidiya ödənilməsi üçün rayon komissiyasına ərizə ilə müraciət edir (1 nömrəli əlavə) və ərizəyə aşağıdakı sənədlər əlavə olunur:

- toxum və tinglərin istehsalı və satışı ilə məşğul olması barədə hüquqi və fiziki şəxslərin 2007-ci ilin 1 sentyabr tarixinədək və növbəti illərdə 1 iyul tarixinədək toxum istehsalçılarının reyestrlərinə daxil olunmasına dair sənədin surəti;
- 1-ci və 2-ci reproduksiyalı toxum və tinglərin alğı-satqısına dair qaimə və müqavilənin surəti:
- istehsal olunmuş toxum və tingin əsilliyini təyin edən sənədlərin (aprobasiya aktı, aprobasiya haqqında hesabat) surəti (bu zaman pambıq toxumuna dair ilkin sənədlər Respublika Pambıq Toxumuna Nəzarət Stansiyasının yerli laboratoriyaları tərəfindən istehsalçının sifarişi əsasında hazırlanmalıdır);
- satışa çıxarılan toxum və tinglərin keyfiyyətini təsdiq edən sertifikatın surəti;
- istehsalçılardan toxum və ting alan təsərrüfatlar tərəfindən həmin toxum və tinglərin əkilməsi barədə rayon toxum müfəttişliyi tərəfindən verilən arayış;
- subsidiyanın hansı hesablaşma və ya şəxsi hesaba köçürülməsi barədə məlumat.

2.5. Rayon komissiyası istehsalçıdan daxil olan sənədləri araşdırır və təhlil edir. Komissiyaya müraciət daxil olandan sonra 10 gün ərzində istehsal edildiyi təsərrüfatdan satışa çıxarılan 1-ci və 2-ci reproduksiyalı toxum və tinglərin həcmi (miqdarı) təqdim edilmiş sənədlərə uyğun olaraq müəyyən edilir və 3 nüsxədən ibarət akt (2 nömrəli əlavə) tərtib edir. Aktlara müəyyən olunmuş formada cədvəllər əlavə olunur.

2.6. Rayon (şəhər) komissiyası toxumçuluq və tinglik təsərrüfatlarından satılan 1-ci və 2-ci reproduksiyalı toxumlar və tinglərə görə subsidiya ödənilməsi barədə müraciəti müvafiq sənədlər əlavə olunmaqla aşağıda qeyd olunan müddətdən gec ol mayaraq Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinə təqdim edir:

- taxıl toxumu istehsalçıları üzrə - noyabrın -20-dək;
- yem bitkiləri toxumu istehsalçıları üzrə – noyabrın -20-dək;
- kartof toxumu və ting istehsalçıları üzrə – noyabrın -30-dək;
- tərəvəz toxumu və texniki bitkilər toxumu istehsalçıları üzrə – noyabrın - 15 -dək.

2.7. Azərbaycan Respublikasının kənd təsərrüfatı nazirinin əmri ilə rayon (şəhər) komissiyalarından daxil olmuş müraciətlərə rəy verilməsi məqsədi ilə Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavininin sədrliyi ilə Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin, Dövlət Statistika Komitəsinin, Milli Elmlər Akademiyasının nümayəndələrindən ibarət Ekspert Şurası yaradılır.

Ekspert Şurası təqdim edilmiş sənədlərin araşdırılması zamanı zərurət olduğu təqdirdə, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Elm Mərkəzindən ekspert kimi mütəxəssislər cəlb edə bilər.

2.8. Ekspert Şurası 10 iş günü ərzində Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyindən rəy üçün daxil olmuş rayon komissiyasının müraciətini və ona əlavə olunmuş sənədləri araşdırır, təsərrüfatlara subsidiya ödənilməsi ilə bağlı qərarını Nazirliyə qaytarır.

2.9. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi tərəfindən toxumçuluq

və tinglik təsərrüfatlarından satılan 1-ci və 2-ci reproduksiyalı toxumlara və tinglərə görə dövlət büdcəsindən həmin istehsalçılara subsidiya ödənilməsindən imtina edildiyi halda istehsalçıya imtinanın səbəbləri göstərilməklə, 10 iş günü ərzində müəyyən olunmuş qaydada yazılı məlumat göndərilir.

2.10.İstehsalçılara subsidiya verilməsindən aşağıdakı hallarda imtina edilir:

- bu Qaydanın 2.4-cü bəndində göstərilən sənədlər tam təqdim edilmədikdə;
- bu Qaydanın 2.6-cı bəndində göstərilən vaxtdan gec sənəd təqdim edildikdə.

2.11.Toxumçuluq və tinglik təsərrüfatlarından satılan 1-ci və 2-ci reproduksiyalı toxumlar və tinglərə görə subsidiya ödənilməsi müəyyən olunmuş qaydada təsdiq edilmiş kvota (sifariş) çərçivəsində həyata keçirilir.

2.12.Dövlət büdcəsindən subsidiya ödənilən təsərrüfatlar və bu təsərrüfatlardan 1-ci və 2-ci reproduksiyalı toxum və ting alan alıcılar tərəfindən həmin toxum və tinglərin təyinatdan kənar məqsədlərə istifadə edilməsinə və 3-cü şəxsə satışına yol verilmir.

2.13.Dövlət büdcəsindən subsidiyanın ödənilmə həcmi və həddi satılan məhsula görə aşağıdakı cədvəl üzrə müəyyən edilir:

| **Bitki və meyvə növləri üzrə toxumların və tinglərin adı** | **Ölçü vahidi** | **Satış qiyməti üzrə ödənilən subsidiyanın həcmi (faizlə)** | **Ödənilən subsidiyanın maksimal məbləği (manatla)** |
|---|---|---|---|
| 1-ci reproduksiyalı toxum üçün | | | |
| Dənli və dənli-paxlalı bitkilər üzrə: | | | |
| taxıl (buğda, arpa) | 1 kq | 40 | 0.10 |
| qarğıdalı | 1 kq | 40 | 0.32 |
| Noxud | 1 kq | 40 | 0.40 |
| Lobya | 1 kq | 40 | 0.72 |
| Tərəvəz-bostan bitkiləri üzrə: | | | |
| Pomidor | 1 kq | 40 | 21.68 |
| Xiyar | 1 kq | 40 | 14.28 |
| Soğan | 1 kq | 40 | 9.36 |
| kələm | 1 kq | 40 | 10.56 |
| Kartof | 1 kq | 40 | 0.36 |
| Pambıq | 1 kq | 40 | 0.36 |
| Yem bitkiləri üzrə: | | | |
| Yonca | 1 kq | 40 | 1.56 |
| Xaşa | 1 kq | 40 | 0.40 |
| 2-ci reproduksiyalı toxum üçün | | | |
| Dənli və dənli-paxlalı bitkilər üzrə: | | | |
| taxıl (buğda, arpa) | 1 kq | 30 | 0.07 |
| Qarğıdalı | 1 kq | 30 | 0.18 |
| Noxud | 1 kq | 30 | 0.24 |
| Lobya | 1 kq | 30 | 0.48 |
| Tərəvəz-bostan bitkiləri üzrə: | | | |
| Pomidor | 1 kq | 30 | 14.19 |
| Xiyar | 1 kq | 30 | 9.36 |

| | | | |
|---|---|---|---|
| Soğan | 1 kq | 30 | 6.12 |
| kələm | 1 kq | 30 | 6.93 |
| Kartof | 1 kq | 30 | 0.24 |
| Pambıq | 1 kq | 30 | 0.04 |
| Yem bitkiləri üzrə: | | | |
| Yonca | 1 kq | 30 | 0.78 |
| Xaşa | 1 kq | 30 | 0.24 |
| Tinglər | | | |
| Tumlu meyvələr üzrə: | | | |
| Alma | 1 ədəd | 30 | 0.54 |
| Armud | 1 ədəd | 30 | 0.54 |
| Çəyirdəkli meyvələr üzrə: | | | |
| Alça | 1 ədəd | 30 | 0.42 |
| Gavalı | 1 ədəd | 30 | 0.42 |
| Gilas | 1 ədəd | 30 | 0.60 |
| Çay | 1 ədəd | 30 | 0.60 |
| Üzüm | 1 ədəd | 30 | 0.51 |

2.14. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi 10 iş günü ərzində bu Qaydanın 2.13-cü bəndində göstərilən normalara əsasən subsidiyanın ödənilməsi barədə Ekspert Şurasının qərarını ətraflı təhlil və təsdiq etdikdən sonra tədbirin maliyyələşdirilməsi üçün təklifləri müvafiq sənədlərlə birlikdə Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim edir.

2.15. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi 1-ci və 2-ci reproduksiyalı toxumlara və tinglərə görə dövlət büdcəsindən təsərrüfatlara subsidiya ödənilməsinə dair Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin təqdim etdiyi sənədlərə baxır və vəsaitin həmin Nazirliyin müvafiq xəzinə hesabına köçürülməsini təmin edir. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ayrılmış vəsaitləri hüquqi və fiziki şəxslərin müvafiq müvəkkil banklardakı hesablaşma hesabına və ya ödəmə kartına köçürülməsini təmin edir.

2.16. Toxumçuluq və tinglik təsərrüfatlarından satılan 1-ci və 2-ci reproduksiyalı toxumlara və tinglərə görə dövlət büdcəsindən təsərrüfatlara subsidiyanın ödənilməsi funksional təsnifatın «Kənd təsərrüfatı, meşə təsərrüfatı, balıqçılıq, ovçuluq və ətraf mühitin mühafizəsi» bölməsində Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi üçün nəzərdə tutulmuş vəsaitlər hesabına həyata keçirilir.

2.17. Toxumçuluq və tinglik təsərrüfatlarından satılan 1-ci və 2-ci reproduksiyalı toxumlara və tinglərə görə dövlət büdcəsindən təsərrüfatlara subsidiyanın ödənilməsinin rəsmiləşdirilməsi ilə bağlı blank və formaların hazırlanması da bu vəsait hesabına həyata keçirilir.

## III. Hesabat və nəzarət

3.1. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi toxum və ting istehsalçılarına dövlət büdcəsindən ödənilmiş subsidiya haqqında məlumatı hər ilin yekununa görə 15 yanvar tarixinə kimi Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim edir.

3.2. İstehsalçılara satılan 1-ci və 2-ci reproduksiyalı toxumlara və tinglərə görə dövlət büdcəsindən subsidiyanın təyinatı üzrə ödənilməsi üzərində nəzarət Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən həyata keçirilir.

**IV. Məsuliyyət**

Bu Qaydanın tələblərini pozan şəxslər qanunvericilikdə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

## Azərbaycan Respublikasında yaşıllıqların salınması sahəsində idarəetmənin təkmilləşdirilməsi tədbirləri haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikasında qeyri-meşə fondu torpaqlarında, o cümlədən magistral avtomobil yollarının mühafizə zolaqlarında yaşıllıqların salınması, bərpası və becərilməsi sahəsinin davamlı inkişafını təmin edən idarəetmə sisteminin təkmilləşdirilməsi məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində ölkədə yaşıllaşdırma sahəsində xidmətlər göstərən, yaşıllıqların salınması, becərilməsi, bərpası və artırılması, müvafiq infrastrukturun inkişafı ilə bağlı digər işləri yerinə yetirən «Azərbaycan yaşıllaşdırma və landşaft quruluşu» Açıq Səhmdar Cəmiyyəti təsis edilsin.
2. «Azərbaycan yaşıllaşdırma və landşaft quruluşu» Açıq Səhmdar Cəmiyyətinin (bundan sonra - Cəmiyyət) səhmləri dövlətə məxsus olduğu üçün dövlətin adından müəyyən səlahiyyətlərin həyata keçirilməsi aşağıdakı dövlət orqanlarına həvalə edilsin:

   2.1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə:

   2.1.1. Cəmiyyətin Nizamnaməsinin təsdiq edilməsi;

   2.2. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə:

   2.2.1. Cəmiyyətin fəaliyyətinə dövlət nəzarətinin həyata keçirilməsi;

   2.2.2. Cəmiyyətin strukturunun, aparatının işçilərinin say həddinin və xərclər smetasının təsdiq edilməsi;

   2.2.3. Cəmiyyətin sədr müavinlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi;

   2.2.4. Cəmiyyətin nümayəndəlik və filiallarının, həmçinin tabeliyində olan hüquqi şəxs statuslu qurumların rəhbərlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsinə razılıq verilməsi;

   2.2.5. Cəmiyyətdən daxil olan təkliflərə baxılması və öz səlahiyyətləri daxilində müvafiq tədbirlərin görülməsi;

   2.2.6. Cəmiyyətin illik hesabatlarının, mühasibat balanslarının, mənfəət və zərər hesablarının təsdiq edilməsi;

   2.2.7. Cəmiyyətin xalis aktivlərinin dəyərinin iyirmi beş faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin) bağlanmasına razılıq verilməsi;

   2.3. Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinə:

   2.3.1. Cəmiyyətin nümayəndəlik və filiallarının yaradılması və ya ləğv edilməsinə, tabeliyində olan hüquqi şəxs statuslu qurumların yaradılması, yenidən təşkili və ya ləğv edilməsinə razılıq verilməsi;

   2.3.2. qanunvericiliklə nəzərdə tutulmuş digər səlahiyyətlərin həyata keçirilməsi.
3. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

   3.1. Cəmiyyətin Nizamnaməsini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

   3.2. qüvvədə olan qanunvericilik aktlarının bu sərəncama uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

   3.3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu sərəncama

uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.4. bu sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Vergilər Nazirliyi və Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi öz səlahiyyətləri daxilində Cəmiyyətin dövlət qeydiyyatına alınması üçün zəruri tədbirləri həyata keçirsinlər.
5. Müəyyən edilsin ki, Naxçıvan Muxtar Respublikasında bu sərəncamın 1-ci bəndində göstərilən işlər və xidmətlər Naxçıvan Muxtar Respublikasının müvafiq icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilir.
6. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

*Azərbaycan Respublikasının Prezidenti* *İlham ƏLİYEV,*

Bakı şəhəri, 13 iyun 2008-ci il
№ 2868

<table>
<tr>
<td>

**“Dövlət qeydiyyatına alınmışdır”**<br>**Azərbaycan Respublikasının**<br>**Ədliyyə Nazirliyi**<br>**Qeydiyyat N 2976**<br>**“08” may 2003-cü il**<br><br>**Nazir____________ F. Məmmədov**

</td>
<td>

**“Təsdiq edirəm” Azərbaycan**<br>**RespublikasıDİN Baş Dövlət**<br>**Yanğın Təhlükəsizliyi İdarəsi**<br>**Əmr N 44**<br>**“16” aprel 2003-cü il**<br><br>**Rəis ____________ M.Q. Hüseynov**

</td>
</tr>
</table>

| |
|---|
| **“Razılaşdırılmışdır” Azərbaycan**<br>**Respublikası Ekologiya və**<br>**Təbii Sərvətlər Nazirliyi**<br>**“15” aprel 2003-cü il**<br><br>**Nazir______________ H.S. Bağırov** |

## Azərbaycan Respublikası meşələrində yanğın təhlükəsizliyi

## QAYDALARI

**1. Ümumi müddəalar.**

1.1. Bu qaydalar “Yanğın təhlükəsizliyi haqqında” Azərbaycan Respublikası Qanununa əsasən hazırlanmış və Azərbaycan Respublikası Meşələrində yanğın təhlükəsizliyi qaydalarını müəyyən edir.

Meşələrdə və meşə zolaqlarında yerləşən təşkilati hüquqi və mülkiyyət formasından asılı olmayaraq ictimai iaşə müəssisələrinə, məişət xidmətlərinə, sağlamlıq ocaqlarına və digər obyektlərə bu qaydalarla yanaşı, həmin obyektlər üçün onların spesifik xüsusiyyətlərini nəzərə alan digər yanğın təhlükəsizliyi qaydaları da şamil edilir.

1.2. Azərbaycan Respublikası meşələrində yanğın təhlükəsizliyinin təşkil olunmasında məsuliyyət Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Meşələrin İnkişafı Departamentinin üzərinə düşür.

- yerlərdə bu qaydalara əməl olunmamasına görə məsuliyyət Meşə Mühafizəsi və Bərpası müəssisələrinin, dövlət qoruqlarının və yasaqlıqlarının direktorlarının və mühəndislərinin üzərinə düşür.
- bundan başqa digər nazirliklərin, komitələrin, idarələrin tabeçiliyində olan meşələrdə yanğın təhlükəsizliyinin təmin edilməsi həmin təşkilatların üzərinə düşür.
- Meşə Mühafizəsi və Bərpası müəssisələrinin, dövlət qoruqlarının və yasaqlıqlarının direktorları və mühəndisləri, meşələrdə bu qaydaların tələblərinin yerinə yetirilməməsinə görə məsuliyyət daşıyırlar.
- meşələrdə yanğın təhlükəsizliyinə cavabdeh olan şəxslər, meşə mühafizə mühəndisləri bu qaydaları bilməli və ona əməl etməlidirlər.

1.3. Meşə Mühafizəsi və Bərpası müəssisələrinin kollektivi, o cümlədən mühəndis-

texniki işçilər yerli Dövlət Yanğın Nəzarəti Orqanı (sonradan DYNO) ilə razılaşdırılmış xüsusi proqram üzrə yanğın təhlükəsizliyi qaydalarının tədrisi kursunu keçməlidirlər.

1.4. Yanğın baş verən zaman Meşə Mühafizəsi və Bərpası müəssisəsinin hər bir əməkdaşının birinci növbədə vəzifə borcları yanğının geniş sahəyə yayılmasının qarşısını almaqdan ibarətdir.

1.5. Meşə Mühafizəsi və Bərpası müəssisələrinin rəhbərləri borcludurlar:

1.5.1. Bu qaydaların öyrənilməsi və yerinə yetirilməsi üzrə cavabdeh şəxs təyin etmək;

1.5.2. Meşə sahələrində və zolaqlarında yanğına qarşı ciddi rejim təyin etmək və ona ciddi riayət olunmasını daima nəzarətdə saxlamaq;

1.5.3. Yanğınsöndürmə texnikalarının və vasitələrinin, təbii və süni su mənbələrinin, keçidlərin, yolların vəziyyətini daima yoxlamaq, kollektivin iş fəaliyyətinə nəzarət etmək;

1.5.4. Meşələrdə və meşə zolaqlarında müvəqqəti tikililərin aparılmasını qadağan etmək;

1.5.5. Yanğınsöndürmə texnikalarının və vasitələrinin (yanğınsöndürən avtomobil, yanğınsöndürən su nasosu, odsöndürənlər) texniki xidmətini, təmirini və daima işlək vəziyyətdə saxlanılmasını təmin etmək;

1.5.6. Yanğın texniki komissiya və könüllü yanğın dəstəsi yaradaraq, onların fəaliyyətini qüvvədə olan mövcud qanunvericiliyə uyğun olraq təşkil etmək;

1.5.7. Mütəmadi olaraq kollektivin yanğınla əlaqədar (yanğınsöndürmə xidmətinin çağırılması, yanğınsöndürmə avadanlıqların düzgün istifadə edilməsi) təlim məşqlərini təşkil etmək;

1.5.8. Meşə Mühafizəsi və Bərpası müəssisəsinin kollektivi ilə yanğına qarşı təlimatların, eləcə də yanğın texniki minimum üzrə dərslərin keçirilməsini təşkil etmək;

1.5.9. DYNO-nın və onun bölmələrinin vəzifəli şəxslərinin tələbinə əsasən müəssisənin yanğın təhlükəsizliyi vəziyyəti barədə, o cümlədən ərazidə baş vermiş yanğınlar və onların nəticələri barədə məlumatlar və sənədlər vermək.

1.6. Meşə Mühafizəsi və Bərpası müəssisəsinin mühəndisləri borcludurlar:

1.6.1. Meşə və meşə zolaqlarında yanğınların baş verməsinə səbəb ola bilən nöqsanların aradan qaldırılması üçün təxirə salınmaz tədbirləri həyata keçirmək;

1.6.2. Yanğınsöndürmə texnikasına və vasitələrinə vaxtlı-vaxtında texniki xidmətin göstərilməsini təşkil etmək;

1.6.3. Yanğın təhlükəsizliyi qaydalarına riayət olunmasına nəzarət məqsədi ilə meşə sahələrinə və zolaqlarına vaxtaşırı baxış keçirmək;

1.6.4. Meşə Mühafizəsi və Bərpası müəssisəsinin tabeliyində olan meşə sahəsində keçidlərin, yolların, su mənbələrinin vəziyyətinə nəzarət etmək;

1.6.5. Yanğın baş verən zaman yanğınsöndürmə xidmətinin hadisə yerinə çağırılması üçün tədbirlər görmək və dərhal yanğının söndürülməsini mövcud vasitələrlə təşkil etmək.

**2. Yanğın təhlükəsizliyinin əsas tələbləri.**

2.1. Meşədə aşağıdakılar qadağan edilir:

2.1.1. Meşə sahələrində söndürülməmiş kibritin, yanan siqaret qalığının və ya kötüyünün atılması, eləcə də tonqalların yandırılması və ağac kömürü istehsal etmək üçün xüsusi ocaqxanaların təşkil edilməsi;

2.1.2. Sürtkü yağı, benzin, ağ neft, dizel yanacağı, və digər yanar mayelərə bulaşmış əsgi və digər materialların atılması;
2.1.3. Müəyyən olunmamış yerlərdə avtomobil, traktor və digər daxili yanma mühərrikli aqreqatların yanacaqla doldurulması, eləcə də onların yaxınlığında siqaret çəkilməsi, tonqal yandırılması və s;
2.1.4. Dövlət meşə torpaq fondunun, habelə meşə torpaq fondu ilə həmsərhəd olan sahələrdə qurumuş otların, kövşənlərin müəssələr, idarələr, təşkilatlar və fermer təsərrüfatları, eləcə də əhali tərəfindən yandırılması;
2.1.5. Aparılmış hər hansı tikinti işləri yerində, tikinti materiallarının qalıqlarının atılması və yandırılması;
2.1.6. Yanacaq və sürtkü yağlarının açıq şəkildə saxlanılması.
2.2. Dövlət meşə fondunda yol, qaz kəməri, neft kəməri, yüksək gərginlikli elektrik xətləri (sonradan YGEX), rabitə xətləri və digər kommunikasiyaların tikintisini aparan, habelə neft-qaz çıxaran müəssisələr, təşkilatlar və idarələr tərəfindən iş görüləcək sahə və onun ətrafları ağac, kol və digər yanan materiallardan Meşə Mühafizəsi və Bərpası müəssisəsinin müəyyən etdiyi vaxtda təmizlənməlidir.
2.3. Meşə sahələrində YGEX çəkilərkən həmin xətlərin çəkildiyi yerlərdə ağaclar kəsilərək cığırlar açılmalıdır. Cığırların eni müəyyən edilərkən ağacların elektrik xəttinin üzərinə düşməsi, yıxılması təhlükəsi baxımından və YGEX-nin istismarı şəraiti, habelə meydana çıxan hər hansı bir nasazlığın tez bir zamanda aradan qaldırılması imkanları nəzərə alınmalıdır.
2.4. Meşə massivlərində və yaşıllıq salınan yerlərdə YGEX-nin çəkilməsi üçün nəzərdə tutulan cığırların eni aşağıdakı qaydada müəyyən edilməlidir:
Hündürlüyü 4 metrə qədər alçaq boylu ağac növləri olan sahələrdə:
- YGEX-nin qıraq naqilləri arasındakı məsafə daxil olmaqla 6-metrdən az olmamalıdır (YGEX-nin dirəyindəki, ən qıraqdakı naqillərdən hər tərəfə 3 metr).

Hündürlüyü 4 metrdən yuxarı ağac növləri olan sahələrdə:
- 330 kvt-dan - 500 kvt-a qədər olan bütün YGEX-nin, habelə istehlakçı üçün yeganə cərəyan mənbəyi kimi xidmət göstərən 220 kvt və aşağı gərginlikli elektrik xətləri çəkilərkən YGEX-nin qıraq naqillərinin hər tərəfində meşə massivindəki ağacların əsas hündürlüyünə bərabər olan məsafə daxil olmaqla qıraq naqillər arasındakı məsafədən az olmamalıdır.
- Əgər YGEX üçün meşədə salınan cığırların qıraqlarında bitən ayrı-ayrı ağacların və ya ağaclar qrupunun hündürlüyü üfüqi vəziyyətdə elektrik xəttindən ağaclara qədər olan məsafədən artıq olarsa, onda onlar kəsilməlidir.

2.5. Meşədə emal edilmiş hazır meşə materialları açıq sahədə aşağıdakı qaydada yığılıb saxlanılmalıdır:
2.5.1. Meşə materialları yığılan yerin sahəsi 8 hektara qədərdirsə, onda enliyarpaqlı meşə massivi kənarından həmin sahəyə qədər olan məsafə 20 metr, 8 hektar və ondan artıq olduqda isə məsafə 30 metr olmalıdır;
2.5.2. Meşə materialları yığılan yerin sahəsi 8 hektara qədərdirsə, onda iynəyarpaqlı və qarışıq meşə massivi kənarından həmin sahəyə qədər olan məsafə 40 metr, 8 hektar və ondan artıq olduqda isə məsafə 60 metr olmalıdır;
2.5.3. Meşə materialları yığılan yerlər və yanğına qarşı ara məsafələr yanar materiallardan təmizlənməli və eni 1,4 metrdən az olmayaraq minerallaşdırılmış zolaqlarla haşiyələnməlidir.
2.6. Geoloji axtarış işləri aparan təşkilatlar dövlət meşə fondu torpaqlarında geoloji

axtarış işlərinə başlamazdan əvvəl, ərazisində iş aparılacaq Meşə Mühafizəsi və Bərpası müəssisəsində qeydiyyatdan keçməlidir. İş marşrutu, yaradılacaq müvəqqəti düşərgə yeri onlarla razılaşdırılmalıdır.

2.7. Turist istirahət zonaları, gənclər və uşaq təşkilatları tərəfindən dövlət meşə fondu torpağında keçirilən kütləvi tədbirlərin vaxtı Meşə Mühafizəsi və Bərpası müəssisəsi ilə razılaşdırılmalıdır. Tonqalların yandırılması Meşə Mühafizəsi və Bərpası müəssisəsinin ayırdığı xüsusi yerlərdə aparılmalıdır.

2.8. Tullantıların yandırılması bütün hallarda Meşə Mühafizəsi və Bərpası müəssisəsi ilə razılaşdırılmalıdır.

2.9. Yanğın təhlükəsi olan meşə sahələri, meşə yolları və digər torpaqlarla həmsərhəd olan sahələr yanğın əleyhinə 2-3 metr enində şumlanmalı, meşənin tör-töküntülərdən təmizlənməsi təmin edilməlidir.

2.10. Meşənin ərazisində yerləşdirilən hər hansı tikilinin ətrafı 15 metr radiusunda şumlanmalı və ya yanğına qarşı minerallaşdırılmış zolaqlarla təmin edilməlidir.

2.11. Meşədən və ya meşə zolağından keçən avtomobil və dəmir yollarının hər iki tərəfi 10 metr məsafədə meşə tör-töküntülərindən, yanar materiallardan təmizlənməli və yanğına qarşı minerallaşdırılmış zolaqlarla təmin edilməlidir.

2.12. Meşə ilə əlaqəsi olan bütün müəssisələrdə, təşkilatlarda, idarələrdə, əhali arasında, məktəblərdə və meşə ilə həmsərhəd olan yaylaq otlaqlarında çobanlar, ov mövsümü zamanı ovçular arasında odla ehtiyatlı olmaq və yanğın baş verərsə onun söndürülməsi qaydaları barədə izahat işi aparılmalıdır.

2.13. Meşəyə yaxın olan yaşayış yerlərində, yol kənarlarında, meşədə müvəqqəti istirahət yerlərində, meşə ilə həmsərhəd olan və meşədə yerləşən bütün obyektlərdə odla ehtiyatlı olmaq və meşədə yanğın təhlükəsizliyi qaydalarının pozulması barədə məsuliyyət haqda dövlət standartına uyğun olaraq xəbərdaredici lövhələr qoyulmalıdır.

2.14. Meşə yanğınının söndürülməsi üçün Meşə Mühafizəsi və Bərpası müəssisəsinin işçilərindən könüllü yanğın dəstəsi yaradılmalı və onların siyahısı gözlə görünən yerlərdə asılmalı, habelə orada hər könüllünün ev ünvanı, telefon nömrəsi qeyd olunmalıdır.

**3. Meşə Mühafizəsi və Bərpası müəssisələrinə olan tələblər.**

3.1. Yanğın təhlükəsizliyi sahəsində Meşə Mühafizəsi və Bərpası müəssisələrinin borcudur:

3.1.1. Yanğın təhlükəsizliyi tələblərinə riayət etmək, habelə Dövlət Yanğın Nəzarəti Orqanının və onun bölmələrinin vəzifəli şəxslərinin göstərişlərini, qərarlarını və digər qanuni tələblərini yerinə yetirmək;

3.1.2. Meşələrin yanğın təhlükəsizliyinin təmin edilməsi tədbirlərini işləyib hazırlamaq və həyata keçirmək;

3.1.3. Yanğına qarşı təbliğat aparmaq, habelə öz işçilərinə yanğın təhlükəsizliyi qaydalarını öyrətmək;

3.1.4. Yanğından müdafiə sistemlərini və vasitələrini, o cümlədən ilkin yanğınsöndürmə vəsaitlərini saz vəziyyətdə saxlamaq, onların başqa məqsədlər üçün istifadə olunmasına yol verməmək;

3.1.5. Meşədə müvəqqəti istirahət yerlərində siqaret çəkənlər üçün xüsusi yer düzəldilməsini təşkil etmək;

3.1.6. Yanğınları söndürməkdə, onların törənməsi və yayılması səbəblərini, şəraitini müəyyənləşdirməkdə, habelə yanğın təhlükəsizliyi tələblərinin pozulmasında və yanğınların törənməsində təqsirli olan şəxslərin aşkar edilməsinə yanğın

təhlükəsizliyi orqanlarına və bölmələrinə köməklik göstərmək;

3.1.7. Meşədə baş vermiş yanğınların söndürülməsi zamanı yanğınsöndürmə üzrə əməliyyatların yerinə yetirilməsində iştirak edən yanğın təhlükəsizliyi xidmətinin şəxsi heyətinə və yanğının söndürülməsinə cəlb olunmuş qüvvələrə müəyyənləşdirilmiş qaydada zəruri qüvvə və vəsaitlər, yanacaq-sürtkü materialları, habelə ərzaq məhsulları və istirahət yerləri vermək;

3.1.8. Dövlət Yanğın Nəzarəti Orqanının və onun bölmələrinin vəzifəli şəxsləri öz xidməti vəzifələrini yerinə yetirərkən onların ərazilərə, binalara, qurğulara və müəssisənin başqa obyektlərinə daxil olmasını təmin etmək;

3.1.9. Baş vermiş yanğınlar, eləcə də mövcud yanğından müdafiə sistemlərinin və vasitələrinin nasazlığı, yolların və keçidlərin vəziyyətindəki dəyişikliklər barədə DYN orqanına və ya onun bölmələrinə ləngimədən məlumat vermək.

3.2. Meşə Mühafizəsi və Bərpası müəssisəsi meşə sahələrində baş verə biləcək yanğınların söndürülməsi üçün ərazidə yerləşən dövlət, kooperativ, şəxsi, idarə və müəssisələrin, mülki müdafiə birləşmələrinin, hərbi hissələrinin və dövlət yanğın təhlükəsizlik xidmətlərinin texnikasının və şəxsi heyətinin cəlb edilməsi planını işləyib hazırlamalıdır. Bu plan yerli İcra Hakimiyyəti başçısı tərəfindən təsdiq edilməlidir.

3.3. Meşə yanğınlarının təhlükəsi olan mövsümdə bir ədəd avtomobil, traktor, buldozer iş yerlərində tam hazır vəziyyətdə saxlanılmalı və meşəbəyilərinin növbə çəkmələri barədə müəssisə direktoru tərəfindən əmr verilməlidir.

**4. Yanğınsöndürmə vasitələri.**

4.1. Meşə Mühafizəsi və Bərpası müəssisələri 1 saylı qoşmaya yüğun olaraq yanğınsöndürmə vasitələri ilə təmin olunmalıdırlar.

4.2. Yanğın texnikasının və ilk yanğınsöndürmə vasitələrinin təyinatına uyğun olmayaraq istifadə edilməsi qəti qadağandır.

4.3. Meşədə baş verən yanğınların söndürülməsinə cəlb ediləcək yanğın avtomobillərinin meşəyə kifayət qədər yaxın olan su mənbəyindən tez bir zamanda istifadə etməsi məqsədi ilə rayon ərazisində yerləşən çayların, göllərin və süni su mənbələrinin yerləşdiyi yerləri göstərməklə xəritə tərtib olunmalı və ilin hər bir fəslində suyun götürülməsi üçün həmin su mənbələrinin üzərlərində bərk örtüklü meydançası olan pirslər (körpülər) quraşdırılmalıdır.

**5. Yanğın zamanı hərəkətlər.**

5.1. Yanğın aşkar edilən zaman aşağıdakılar tələb olunur:

5.1.1. Tez bir zamanda yanğından mühafizə orqanlarına xəbər vermək, habelə yanğının dəqiq yerini və orada insanların olması haqqında məlumat vermək;

5.1.2. Yanğınsöndürmə xidməti gələnə qədər mövcud vasitələrlə yanğının söndürülməsini təşkil etmək.

5.2. Meşədə yanğın baş verən zaman Meşə Mühafizəsi və Bərpası müəssisəsinin rəhbəri aşağıdakı vəzifələri yerinə yetirməlidir:

5.2.1. Yanğın təhlükəsizliyi xidmətinin çağrılmasını yoxlamalı;

5.2.2. Yanğın təhlükəsizliyi xidməti gələnə qədər yanğının söndürülməsinə rəhbərliyi öz üzərinə götürməli;

5.2.3. Yanğın təhlükəsizliyi xidmətini qarşılamaq üçün meşədə yolları, keçidləri yaxşı tanıyan şəxsi ayırmalı.

5.3. Yanğın zamanı könüllü yanğınsöndürmə dəstəsinin üzvləri öz aralarında bölüşdürülmüş vəzifələri yerinə yetirirlər.

5.4. Yanğın Təhlükəsizliyi xidməti yanğın yerinə gəldiyi zaman yanğının söndürülməsinə rəhbərlik edən şəxs yanğın təhlükəsizliyi xidmətinin yüksək vəzifəli şəxsinə yanğın haqqında məlumat verməlidir (yanğının mənbəyi, yanğının ləğv edilməsinə yönəldilmiş işlər haqqında məlumat).

5.5. Meşədə baş vermiş hər bir yanğın faktı üzrə Meşə Mühafizəsi və Bərpası müəssisəsinin nümayəndələri yanğının baş verməsinə səbəb ola bilən bütün amilləri aydınlaşdırmalı və belə halların təkrar olunması ehtimalını aradan qaldıran profilaktiki tədbirlər həyata keçirməlidirlər.

**6. Meşələrdə yanğın təhlükəsizliyi tələblərinin pozulmasına görə məsuliyyət.**

6.1. Meşələrdə yanğın təhlükəsizliyi tələblərinin pozulmasına görə:

6.1.1. Odvurma və ya odla ehtiyatsız davranma nəticəsində meşənin məhv edilməsinə və ya qismən yandırılmasına, habelə bu qaydada göstərilmiş yanğın təhlükəsizliyi tələblərinin pozulmasına, bununla da meşə yanğını törədilməsinə, yaxud onun geniş sahəyə yayılmasına görə təşkilati hüquqi və mülkiyyət formasından asılı olmayaraq idarə, müəssisə və təşkilatlar, vətəndaşlar və vəzifəli şəxslər Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən, müvafiq məsuliyyət daşıyırlar;

6.1.2. Bu Qaydaların 6.1.1 yarımbəndini pozan vətəndaşlar və vəzifəli şəxslərin hərəkətlərində cinayət tərkibi olarsa, onlar qüvvədə olan qanunvericiliyə uyğun olaraq cinayət məsuliyyətinə cəlb edilirlər.

6.2. Azərbaycan Respublikası meşələrində yanğın təhlükəsizliyi qaydalarını pozan təşkilat, idarə, vətəndaş və vəzifəli şəxslərin cərimə verməsi onları dəyən ziyanın bərpa edilməsindən azad etmir.

6.3. Bu Qaydaların tələblərinin pozulması qanunvericiliklə nəzərdə tutulan məsuliyyətə səbəb olur.

**Əlavə 1**

## Meşə Mühafizəsi və Bərpası müəssisəsində tələb olunan yanğınsöndürmə texnikası və vasitələrinin

## SİYAHISI

| Sıra sayı | Yanğının söndürülməsində istifadə olunan texnika və vasitələrinin adları | Ölçü vahidi | Meşə mühafizəsi və bərpası müəssisəsində | QEYD |
|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 |
| 1 | Yanğınsöndürən avtomobil | ədəd | 1 | |
| 2 | Motopompa | - | 2 | |
| 3 | Gəzdirilən radiostansiya | - | 5 | |
| 4 | Kimyəvi odsöndürənlər | - | 10 | |
| 5 | Yanğın şlanqı | m-lə | 500 | |
| 6 | Yanacaqla işləyən odun kəsən | ədəd | 2 | |
| 7 | Lapatka | - | 30 | |
| 8 | Çalğı | - | - | |
| 9 | Dırmıx | - | 10 | |
| 10 | Əlcək | - | 50 | |
| 11 | Vedrə | - | 10 | |
| 12 | Yanğı lövhəsi (şit) | - | 2 | |
| 13 | Balta | - | 10 | |
| 14 | Qoruyucu eynək | - | 30 | |
| 15 | Xüsusi geyim | - | 10 | |
| 16 | İlk tibbi yardım çantası | - | 10 | |

**Azərbaycan Respublikasının meşə fondu torpaqlarında**
**Meşəbərpa və meşəyetişdirilməsinə dair**

## ƏSAS MÜDDƏALAR

# 1. ÜMUMİ MÜDDƏALAR

1.1. Azərbaycan Respublikasının meşə fondu torpaqlarında meşəbərpa və meşəyetişdirmə» haqqında olan bu əsasnamə meşə fondu torpaqlarında meşəbərpa və meşə yetişdirilməsinə dair bir sıra ümumi təklif vo tövsiyyələri özündə cəmləşdirir və meşə təsərrüfatlarında təbii və sün»i yolla meşəbərpa işlərinin texnoloji qaydalarına ve üsullarına dair tə»limatların, qaydaların və s. normativ sənədlərin hazırlanması üçün əsas hesab edilir.

1.2. Meşəfondu ərazilərində meşəbərpa və meşəyetişdirmə müxtəlif meşəbitmə şəraitlərində yetişdirilən meşə ağaclarının təyyinatına və ətraf mühitin vəziyyətinə müvafiq olaraq, müxtəlif bölgələrdə zona meşə tipləri əsasında həyata keçirilir.
Bu aşağıdakıları təmin etməlidir:
- Meşə mənbələrinin təkrar istehsalının iqtisadı cəhətcə səmərəliliyinin maksimum qısa müddətdə temin edecek etibarlı əkin üsulu və texnologiyasını;
- Torpaqlardan səmərli istifadə edilməsini, meşelərin keyfiyyətinin daimi yaxşılaşdınlmasını ve onun məhsuldarlığının artınlmasını;
- Meşələrin suyu mühafizə, qoruyucu, sanitar-gigiyena və digər xeyirli funksiyalarının habelə yaradılan meşələrin mühitqoruyucu və mühit yaradıcı funksiyalannın yerinə yetirilməsini;
- Azmeşəli və meşəsiz ərazilərdə meşəsalma yolu ilə optimal meşəlik həddinə çatdırmasını;

1.3. Meşəbərpa və meşəyetişdirilməsində yerli meşəbitmə şəraitlərinə uyğun gələn tezböyüyən, uzun ömürlü, o şərait üçün davamlı oduncaq kütləsinə malik olan, iqtisadi cəhətcə səmərəli agac vo kol cinsləri seçilib istifədə olunur;
Başqa iqlim və torpaq şəraitlərindən gətirilib.konkret şəraitdə yoxlamadan keçmiş ağac və kol cinslərindən «introduksiya» yolu ilə artırılmasının məqsədə uyğunluğu nəzərə alınır.

1.4. Yeni meşələr salınması məqsədilə başqa torpaq istıfadəçilərindən dövlət meşə fonduna verilən torpaqlar evvəlcədən səlahiyyətli layihə-axtarış təşkilatları tərəfindən həmin sahələrin meşebitirmə vəziyyəti yoxlanılıb öyrənildikdən və ya mütəxəssislər tərəfindən (müstəsna hallarda) sadə tipli layihə hazırlandıqdan sonra.meşə fonduna qəbul edilir və bundan sonra meşəsalma işlərinə başlanılır.

1.5. Meşəqırma işlərinin texnologiyası tetbiq edilərkən, meşə mühitinin maksimum saxlanması, az zəhmət ve vesaitlə yeni meşə salmaq ve təbii berpaya kömək etmek yolu ile təsərrüfat əhəmiyyətlı qiymetli ağac cinslərindən ibarət meşələrin yeni nəslinin saxlanmasının vacibliyini nəzərdə tutan meşəbərpa tədbirləri ile mütləq elaqələndirilməlidir.

1.6. Meşə quruluşu, bölgələr üzrə olan elmi tövsiyyələri nəzərə almaqla, meşə tesərrüfatlarında illər üzrə meşəbərpa və meşəyetişdirmə işlərinin həcmini müəyyənləşdirir. Sonrakı dövrlərdə meşə təsərrüfatı müəssisələrinin idarə olunması məhz meşə quruluşu sənədləri əsasında həyata keçiriiir. Xüsusi qiymətli ağacların yetişdirilməsi üçün (plantasiya tipli əkinlər, vacib xalq təsərrüfatı obyektlərində qoruyucu meşəliklər və s.) meşəbərpa tədbirtəri, layihə təşkilatları

tərəfindən hazırlanmış xüsusi iayihələr əsasında həyata keçirilir.

Meşə təsərrüfatlarında meşəbərpa tedbirlərinin ümumi həcml tesərrüfat əhəmiyyətli qiymətli cinslərdən təbii artımın gedişi nezərə alınmaqla, meşənin bərpası meqsədilə qırılan sahə arasında fərq alınmasına yol verməməlidir.

1.7. Meşələrin təbii bərpasında aşağıdakılar nəzərdə tutulur;

- qırma zamanı təsərrüfat əhəmiyyətii, qiymətli, həyat fəaliyyətli yenl-yetmələrin miqdarı, konkret meşəbitmə şəraiti üçün müəyyən edilmiş şkala üzrə qənaətbəxş normadan bir yarım dəfe artıq olması;
- qırma sahələrində, yanğın yerlərində, açıq sahələrdə, yaxud meşə çətiri altında toxumluq ağacların miqdarı və torpağın üst səthinin mineral laşdınlması, cucərtitərin əmələ gəlməsi, boya görə inkişafı;
- qırma zamanı meşələrin toxumla bərpasının ümidverici olmadığı müəyyən edilərsə, təsrrüfatı- pöhrədən ve kök boğazında olan yatmış tumurcuqlardan əmələ gələn vegetativ çoxalma yolu ilə aparılmasına üstünlük veriiməsi.

1.8. Meşeqırma sahələrində və digər meşə ilə örtulü ölmayan sahələrdə müəyyən edilmiş vaxt ərzində təsərrüfat əhəmiyyətli cinslər hesabına meşənin təbii bərpası təmin edilmirsə bu halda belə sahələr yeni meşələr salınması və yetişdirilməsi hesabına bərpa olunur.

1.9. Meşəəkini yaradılması üçün müəyyən edilmiş torpaq sahələri meşə əkini fondu hesab edilir və aşağıdakı kateqoriyalara bölünür:

- üç il və qabaq qırılmış və müəyyən edilmiş müddət ərzində burada təsərrüfat əhəmiyyətli qiymətli cinslərdən təbii bərpa getməmiş və ya tebii bərpanın gedişinə kömək etmək mümkün olmamış meşə sahələri;
- batmış və ya müəyyən edilmiş qaydada silinmiş meşə əkini sahələri;
- meşə açıqlıqları, talalar, bataqlıq sahələri, habelə faydalı qazıntı işlərindən sonra emələ gələn və meşə əkini işiəri üçün yararlı hala salınan sahələr:
- kənd təsərrüfatı dövriyyəsindən çıxmış meşə əkini üçün yararlı olan torpaq sahələri;
- meşə əkini üçün yararlı olan qumluqlar, dərə və yarğanlar, başqa meşə olmayan torpaqlar ( bu kateqoriya torpaqlar aqrokimyəvi tədqiqatlar aparıldıqdan sonra meşə əkini fonduna daxil edilir);
- meşə əkini yolu ilə rekonstruksiya teləb edən azqiymətii meşəliklər;
- sıxlığı 0.3 - 0,5 olan təbii bərpası getməyən və gələcəkdə meşə kimi saxlanılmasının perspektivi olmayan sahələr.(Bu sahələr meşəquruluşu tərəfindən rekostruksiya yolu ilə meşə salmaq məqsədi ilə meşə əkini fonduna daxil edilir).

1.10. İlk növbədə aşağıda göstərilən meşə əkini fondları istifadə edilməlidir:

- su və külək eroziyasına meruz qalmış sahələr;
- şəhərətrafı yaşıllıq zonaları,çay vadilərində su tutarları ve başqa su obyektlərinin kənarında qadağan olunmuş ərazilər;
- yüksək bonitetli meşələr yetişdirmək mümkün olan meşə ilə örtülü olmayan yüksək məhsuldarlıqlı torpaqlar;
- azqiymətli meşələrin qiymətli ağaclıqlarla əvəz edilməsi üçün nəzərdə tutulan sahələr;
- meşə əkini üçün yararlı vəziyyətə çatdırılan faydalı qazıntılar altından çıxmış torpaqlar.

Konkret olaraq meşə əkini fondunun birinci növbədə istifadəsini yalnız müvafiq icra orqanları, qanunvericilik əsasında tənzimləyir.

1.11. Təbii bərpası kifayət qədər olmayan və ya təbii bərpanın qeyri bərabər paylandığı sahələrdə əsas cinsin toxmacar və tinglərindən əlavə əkin aparmaq yolu ile meşələrin bərpasını təmin etmək;

Əgər 1 ha sahədə olan əkin yerinin sayı başdan-başa qebul edilmiş normanın 25 %-ni və bundan çoxunu təşkil edərsə, onda sahə hissə-hissə meşə əkini sahələrinə, bundan az olduqda isə, tebii bərpaya kömək tədbirləri aparılan sahələrə aid edilir.

1.12. Meşəbərpa tədbirləri hər bir meşəbeyilik sahələri üçün əvvlcədən hazırlanmış və təsdiq edilmiş layihələr əsasında həyata keçirilir.

1.13.Təbii yeniyetmələrin və meşə əkinlərinin meşə ilə örtülü sahələrə keçirilməsi müvafıq icra hakimiyyəti orqanları tərəfındən təsdiq edilmiş normativlərin tələblərinə uyğun aparılmalıdır.

## 2. MEŞƏLƏRİN TƏBİİ BƏRPASINA KÖMƏK.

2.1. Meşələrin tebii bərpasına kömək esas etibarı ilə, meşələrdə qiymetli cinslərin hesabına yeni nesli saxlamaq üçün, eiverişli şerait yaradılmasına istiqamətienməlidir;

- təbii arttm meşənin ana çetiri altında onun qınlmasına qeder başlana biler (tebii berpasi əwəlcədən geden), sonradan bu saheierde yerli meşebitme şeraitine uyğun qrnntı növfəri tədbiq ediiir.
- belə qruppa tip meşelərdə təbii berpaya xüsusi kömek tedbirierinin öz müsbət nətlcəsini verə biləcəyinə ümid etmək olar.

2.2. Meşəbərpa tədbirləri planına daxil edilən tebii bərpaya kömək işlərinə aşağıdakılar aiddir:

- oduncaq hazırlığı işləri aparılan sahələrdə həyat qabiliyyətli cavan yeniyetmələrin və təsərrüfat əhəmiyyətli cinslərin saxlanması;
- torpağın üst qatının minerallaşdırılması;
- qırma sahələrinin çəpərlənməsi;
- baş cins hesabına təbii bərpası kifayət qəder getməyən və ya qeyri- bərabər gedən sahələrdə toxmacar ve tinglə baş cinslərdən ibarət əlavə əkin işləri aparılması;

  Qırma sahələrinin ayrılması və oduncaq hazırlığı işlərinin aparılması zamanı təsərrüfat tədbirləri kimi, meşənin tebii artımını təmin etmək məqsədilə toxumluq ağacların saxlanması vacib hesab edilir, ancaq bu sahələr müstəqil bir göstərici kimi meşələrin təbii bərpasına kömək tədbirləri planına daxil edilmir.
- sahədə saxlanılan toxumluq ağacların miqdarı meşə tiplərindən və aparılacaq meşə bərpa işlərinin üsullarından asılı olaraq müəyyənləşdirilir.

2.3. Oduncaq hazırlığı zamanı həyat qabiliyyetli yeniyetmələrin və cavan təsərrüfat əhəmiyyətli qiymətli cinslərin meşəbitmə şəraitinə uyğun olaraq saxlanılması, meşənin təbii bərpasına kömək tədbirlərinin ən vacibi hesab edilir.Bununla da qırma sahəsində meşə mühiti saxlanılmaqla və arzu olunmayan ağac cinsləri hesabına cins deyişikliyinin qarşısı alınmaqla, təkrar qırmanın vaxtı qısaldılır.

- Yeniyetmələrin və cavan qiymətli ağac cinslərinin sahədə saxlanması müvafiq meşəqırma texnalogiyasının tətbiqi ilə təmin edilməlidir.

2.4. Meşəqırma işləri aparan zaman birinci növbədə sahədə yeniyetmələrin qiymətli təsərrüfat əhəmiyyetli cavan ağaclıqların salamat qalmasına və zədələnməsinə yol verilməməIidir.Qırma sahəsində qırma texnologiyası elə təşkil edilməlidir ki, sahədə yeniyetmelərin və tesərrüfat əhəmiyyətli ağaclıqların miqdarı, onun qırmaya qədərki şayının 70 %-ə qədərindən aşağı olmasın.Qırma işləri

qurtardıqdan sonra zeruri hallarda sahədə əyilmiş cavan ağaclar düzəldilməli sahə yeniyetmələrin gələcək inkişafına maneçilik edən köi-koslardan təmizlənməlidir.

2.5. Şıxlığı 0,8-dən çox olmayan meşəqırma sahələrində toxumların cücərməsinə və yeni əmələ gəlmiş cücertilərin inkişaf etmesinə əlverişli şərait yaratmaq məqsədilə, torpağın üst hissəsində minerallaşdırma işiəri aparılır, meşənin ölü örtüyü torpaq səthinə çıxana qədər qarışdırılır.

2.6. Torpağın üst hissəsinin minerallaşdırılmasının optimal vaxtı ağac cinsinin növündən və toxumun yetişmə vaxtından asılı olaraq yayın son ayında və payızda aparılır.

- torpağın. üst hisəsinin minerallaşdırılması yalnız məhsuldarlıq III bal şkalasından aşağı olmadığı hallarda toxum tökülməzdən qabaq aparılmalıdır. Ana çətir altında torpağın üst səthində minerallaşdırma aparılması nəticəsində baş cinsin cücərtiləri əmələ gəlmişsə və bu sahədə qırıntı aparılması nəzərdə tutulmuşdursa cücərtilərin təmin edəcək həcmində sağ qalması temin edilməlidir.

2.7. Meşələrin vegetativ bərpa olunması o qırma sahələrində nəzərdə tutulur kl, burada ağaclar öz yaşına, olçüsünə və vəziyyətinə görə yalnız kötükdən və kök sistemindən pöhrə verə bilir. Ona görə meşənin qırılması yalnız qış dövründə aparılmalıdır.Kötüklər torpağın üst səthindən minimal hündürlükdən kesilməlidir. Qırma sahələri tör-töküntülərdən, kötükdən ve kök sistmindən pöhrə əmələ gələnə qədər təmizlənməlidir.

2.8. Meşələrin təbii bərpasına köməklik göstərilən sahələrdə cavan ağacların vəhşi ve ev heyvanları tərəfindən zədələnmə qorxusu vardırsa həmin sahələr çəpərə alınmalı və ya heyvanların meşəye giriş yolları kəsilməlidir.

2.9. Qırma sahələrində cücərtilərin miqdarı, yeniyetmələrin və kiçik diametrli cavan ağacların saxlanması, bütöv sahənin təbii bərpaya kömək tədbirlərinin müvəffəqiyyətlə başa çatmasını temin etmirsə belə hallarda sahələrdə ting və toxmacarlarla əlavə əkin işləri aparılır yaxud torpağın üst hissəsində minerallaşma aparılması istisna edilmir. Beləliklə əkin yerinin miqdarı başdan-başa əkin üçün qebul edilmiş normanın 25%-dən çox olmamalıdır.

2.10. Meşələrin təbii bərpası üçün aparılan tədbirlərin nəticəsi, qüvvədə olan texniki şərtlərə və təlimata müvafiq olaraq beşinci ilində qiymətləndirilir.

2.11.Təsərrüfat fəaliyyəti məhdud olan meşələrdə, meşə-parklarda, milli təbii parklarda, qoruqlarda və başqa ərazilərdə meşənin tebii bərpasına kömək tədbirləri burada təsərrufatın aparılma rejimi pozulmamaq şərtilə həyata keçirilə bilər.

## 3. MEŞƏ ƏKİNLƏRİNIN YARADILMASI.

3.1. Meşə ağac və kol cinslərindən əkin materialının yetişdirilməsi və səpin metodu ilə meşəyetişdirilməsində meşə toxumçuluğunun rayonlaşdınlması tələblərinə cavab verən, keyfıyyətli, yaxşı irsi mənşəyə malik olan toxumlardan istifadə edilməlidir. Nəzarət yoxlama laboratoriyasından keçməmiş və hansı irsi xüsusiyyətə malik olduğu yoxianılmamış ağaclardan tədarük edilmiş toxumların istifadə olunması yol verilməzdir.

3.2. Əkin materialının yetişdiriiməsi qüvvədə olan təlimat və tövsiyyələrə müvafiq olaraq daimi və müvəqqəti tinglik sahələrində həyata keçirilir.
Əkin materialının keyfiyyəti, onun çıxarılması (hazırlanması), saxlanması və bir yerdən başqa yerə daşınması qüvədə olan standartlara və texniki şərtlərə uyğun gəlib-gəlməməsi ilə müəyyən edilir.

3.3. Meşə əkinlərinin yaradılmasında əksər hallarda aqrotexniki xidməti azaltmaq, meşə ilə örtülü sahəyə keçmə müddətini qısaltmaq və keyfiyyətli meşə yetişdirilməsi imkanlarını artırmaq məqsədi ilə böyük ölçülü ting və toxmacarlardan istifadəyə üstünlük verilməlidir.

3.4. Meşe əkini üçün sahəlarin hazırlanması:

3.4.1 Sahələrin hazırlanması zamanı onun bütün ərazisində yol-meliorasiya tədbirləri aparılır. Bu tədbirlərin aparılması gələcəkdə bütün meşə əkini əməliyyatlarının keyfiyyətlə yerinə yetirilməsinə şərait yaratmaqla yanaşı yanğın təhlükəsini azaldır və əkinlərin sanitar vəziyyətinin yaxşılaşmasına səbəb olur.

3.4.2. Sahənin hazırlanmasına daxildir:
- Sahənin naturada müəyyən edilməsi;
- Meşə əkini üçün sahənin ayrılması;
- Sahələrin başdan-başa və ya zolaqlarla kol-koslardan, quru ağac və kötüklərdən, daşlardan və s. təmizlənməsi.
- Kötüklərin çıxarılması və ya texnikanın hərəkətinə maneçilik etməyəcək dərəcədə torpağın üst səthinə kimi kəsilməsi;
- Sahənin üst hissəsinin hamarlanması, ərazinin meliorasiyası və yamaclarda terrasların çəkilməsi;
- Torpaqda qəbul edilmiş normadan artıq zərərverici həşaratlara qarşı evvəlcədən mübarizə aparılması.

3.4.3. Meşə əkini üçün sahələr tədqiq edilən zaman ilk növbədə onun vəziy- yəti və meşə əkini üçün yararlılığı müəyyən edilir, sahədə həyat fəaliyyətli təsərrüfat əhəmiyyətli ağac və kol cinslərinin miqdan, qırıntı qalıqlarının, tör- töküntülərin yayılma dərəcəsi, kötüklərin miqdarı və hündüriüyü, sahədə texnikanın işləmə dərəcəsi, torpağın şoranlaşma dərəcəsi, həşaratlarla sirayətləşmə dərəcesi, meşəbitmə şəraiti dəqiqləşdirilir və meşəyetişdirmə üsulu müəyyənləşdirilir.

3.4.4. Meşə əkini üçün sahə ayrılarkən birinci növbədə geodezik çəkiliş aparılır və bu sahə meşə kvartal sərhədi yollarla və başqa yaşayış məntəqələri ilə uzlaşdırılaraq daimi planşetlərə köçürülür.

Meşə əkinlərinin texniki layihələşdirilməsi meşəbəyi tərəfindən həyata keçirilir və ya maliyyə imkanı olarsa müəssisə ilə müqavilə əsasında ixtisaslaşmış layihə təşkilatları tərəfındən hazırlanır. Bu layihələr baş meşəbəyi ilə razılaşdırılır və onun tərəfındən təsdiq edilir.

Hissə-hissə meşə əkini aparılması nəzərdə tutulan sahədə əkinyerinin sayı başdan-başa meşə əkinində nəzərdə tutulan normadan 25 % çox olarsa və belə sahələrdə az-çox təbii yeniyetmələr vardırsa bu sahələr hesabatda təbii bərpaya kömək tədbiriərinin aparıldığı sahə kimi uçota alınmır.(Yeni hissə-hissə meşə əkini sahəsi kimi uçota alınır),

3.4.5. Başdan-başa təmizlənməsi mümkün olmayan və ya təmizlənməsi məqsədəuyğun gəlməyən (dağ yamaclarında, ana süxur torpağın üst səthinə çıxan sahələrdə və s.) meşələr kol-kosdan hissə-hissə təmizlənir və burada meşə əkinləri hissə-hissə və ya kiçik açıqlıqlarda salınır.

3.4.6. Kötüklərin başdan-başa çıxarılması yalnız olduqca qiymətli meşə əkinləri və xüsusi əhəmiyyəli plantasiyalar salındığı hallarda aparılır.Belə sahələrdə torpaq güclü olmaqla yanaşı, heç bir alaq otlarının, kötükdən və kök sistemindən törəyən pöhrələrin inkişafı üçün təhlükə yaratmır.

Kötüklərin hissə-hissə çıxarılması sahənin meşəbitmə şəraitindən və meşə əkinində istifadə edilən ağac cinslərinin bioloji xüsusiyyətindən asılı olaraq eni 2 m-dən az olmayan zolaqlar şəklində aparılır. Az qiymətli ağacların

qiymətl meşə ağacları ilə rekonstruksiyası zamanı köklənilən sahənin eni elə götürulməlidir ki, onun ümumi sahəsi məşə əkini nəzərdə tutulan sahənin 50 %-dən az olmasın. Düzən sahələrdə texnikanın Işinə maneçilik edilməsin deyə, zolaqlar düz istiqamətdə, dağ yamaclarında köklənilən zolaqların İstiqaməti dağın yamacına şaquli istiqmətdə (horizontlarla) olmalıdır.

3.4.7. Sahələrin kol-kosdan və kötüklərdən təmizlənməsi elə aparılmalıdır ki, nəticədə torpağın üst mehsuldar qatının saxlanması maksimum təmin edilsin. Kasıb torpaqlarda və yamacın mailliyi 6 dərəcədən yuxarı olan qırma sahələrində başdan-başa kötük köklənməsinə yoi verilmir.

3.5. Torpağın hazırlanması.

3.5.1. Meşə əkini altında torpaq hazırlığı işiəri, meşə əkini zonalarıdan (meşə təsərrüfatı bölgələrindən),meşə əkini tipindən, meşə əkini fondunun kateqoriyasından, sahənin hazırlanma üsulundan və qəbul edilmiş meşə əkini tipindən asılı olaraq meşəbərpa tədbirləri üzrə müvafiq normativ sənədlər əsasında həyata keçirilir.

3.5.2. Torpaq hazırlığı işləri meşə sahələrinin bütün ərazilərində başdan-başa ve ya bir hissəsində (hissə-hissə torpaq hazırlığı) mexaniki, əl ilə, kimyəvi (arborisit və herbisit) üsullarla həyata keçirilə bilər. Əsas torpaq hazırlığı mexaniki üsulla hesab edilir və traktor alətleri ilə aparılır.

3.5.3. Mexanizmlər vasitəsilə torpaq hazırlığı o sahələrdə aparılır ki, orada mexaniki alətlərin hərəkətinə və işinə maneçilik törədə bilən amillər olmasın. Mexaniki yolla torpaq hazırlığı aşağıdakı kateqoriyalı sahələrdə həyata keçirilə bilər. tarlalarda, səhrada, köhnə əkin yerində, kötükləri çürümüş köhnə qırma sahələrində, təzə kötüklərdən təmizlənmiş qırıntı yerlərində, mailliyi 6 dərecəyə qədər olan yamaclarda, su və külək eroziyası təhlükəsi olmayan sahələrdə.

3.5.4. Hıssə-hissə torpaq hazırlığı zolaq şəklində, başdan-başa şumlama, zolaq şəkilli yumşaltma, şırim çəkmə və s. üsullarla həyata keçirilir. Zolaqlar və şırımlarla torpaq hazırlığı işləri aparılan zaman konkret meşəbitmə şəraitinə görə baş cinsin sahədə optimal sıxlığı nəzərə alınmalı və cərgə aralan ona uyğunlaşdırılmalıdır.

3.5.5. Şumun dərinliyi və ya onun yumşaldılması, şırımın və tranşeyin dərinliyi, sahəciklərin ölçüsü və onlann bir-biriylə olan məsafəsi müvafiq normativ sənədlər əsasında tənzimlənir (müəyyən edilir).

3.5.6. Bataqlıq sahələrdə torpaq hazırlığı, bataqlıq qurudulduqdan, şoranlıq sahələrdə drenaj-meliorasiya tədbirləri aparıldıqdan sonra həyata keçirilir.

3.5.7. Sovurulan qumlarda zəruri hallarda bərkitmə işləri kulis şəklində, hakim küləklərə qarşı şaquli istiqamətdə kollar əkmək, ot səpini aparmaq, yaxud mexaniki mühafizə üsulları vasitəsilə aparılır.

3.5.8. Dağlıq şəraitdə torpağın hazırlanma üsulu ərazinin coğrafı zonaya görə yerləşməsindən, relyef elementlərinə görə vəziyyətindən, yamacın cəhət və mailliyə görə vəziyyətindən, torpaq örtüyünün sukeçirtmə qabiliyyətindən, torpağın daşlılıq dərəcəsindən, sahənin ölçüsündən və onun gediş-gəliş üçün əlverişli mövqedə olmasından asılı olaraq seçilir. Şumlama, əkin şırımlarının və terrasların açılması yamacın horizontallarına görə aparılır və torpaq yamacın aşağı hissəsinə tökülür.Sürüşməyə, dağılıb parçalanmaya məruz qəlan daşlı dağ yamaclarında və digər təhlükəli sahələrdə terraslama aparılmır. Torpaq düzən ərazilərdə başdan-başa və ya zolaqlar şəklində qara və erkən herik sistemində şumlanılır.

3.5.9. Dağ yamaclarının mailliyindən, torpaq ve digər şəraitindən asılı olaraq aşağıdakı torpaq hazırlığı üsulları tətbiq edilə bilər

-Yamacın mailiiyi 6 dərəcəyə qədər olan güciü və zeif daşlı sahələrdə torpaqlar başdan-başa şumlanır;

- yamacın mailliyi 12 dərəceyə qədər olan zəif daşlı sahələrdə torpaq zolaqlar və ya terraslar şəklində hazırlanır;
- nəmli sahələrdə torpaqlar torpaq yığma şəklində, quru və güclü ot bitgiləri ilə örtülmüş təzə, daşlı sahələrdə ise zolaqlarla yumşaltma, dib hissesini yumşaltmaqla şırım açma, kiçik terras açma və ya uzun xendek qazmaq üsulu ilə hazırlanır,
- yamacın mailliyi 12-40 dərecə olan sahələrdə torpaqlar eni 2,5-dən 4,5 metrə qədər olan tökmə terras üsulu ilə, kiçik sahelərde xırda zolaqlar,çala və sahəciklər üsulu ilə hazırlanır.

3.6. Meşə akinlərinin tərkibi.

3.6.1. Meşə əkinləri bir baş cinsdən (təmiz tərkibli meşə əkini) və ya bir neçə baş və köməkçi cinslərdən və kollardan (qarışıq tərkibli meşə) ibarət salınır. Meşə əkinlərinin tərkibi ərazinin meşəbitmə şəraitindən, meşə əkini fondunun kateqoriyalarından və meşə əkini işlərinin aparılmasında əsas məqsədin nədən ibarət olmasından asılı olaraq müəyyən edilir. Meşə əkini işlərində istifadə olunan əsas, köməkçi və kol cınslərinin ekoloji xüsusiyyətləri ərazinin meşəbıtmə şəraitinə uyğun olmalıdır.

3.6 2. Baş cins yerli meşəəmələgətirən cinslərdən seçilməlidir. O, meşə təsərrüfatının aparılmasına və ərazinin təbii muhitinin yaxşılaşdırılması tələbinə cavab verməlidir.

Yerii cinslərdən başqa mövcud şəraitdə yaxşı inkişat edə bilən, təcrübədə gunaqdan çıxmış, başqa şəraitiərdən gətirilmiş (introduksıya edilmiş) ağac cınslərindən də istıfadə edilə bilər.

3.8.3. Koməkçi və kol cinsləri seçilərkən onların baş cinslə qarşılıqlı təsiri nəzərə alınmalıdır. Bu isə qarışdırılan cinslərin miqdarını və qarışdırma xüsusiyyətlərini, müxtəlif növ ağaclarda və kollarda xidməti qırma aparılması müddətininin və onların təkrarlanmasını nizamlamalıdır.

Köməkçi ağac cinsləri və kollar meşə əkinlərində baş cinslə əsas etibarı ilə cərgələrdə və cərgə aralarında növbələşdirilə bilər. Bunlar elə edilməlidir ki, baş cinsin miqdarı kifayət qədər olsun və sahədə bərbər paylanılsın.

3.7. Meşə əkin isrinin ilkin sıxlığı və əkin yerlerinin qarışdırılması.

3.7.1. Meşə əkini və səpini işləri layihələşdirilən zaman 1 hektardakı əkin yerinin miqdarı, ağac və kol cinslərinin bioloji xüsusiyyətləri, meşəbitmə şəraiti nəzərə alınmaqla meşə əkininin (səpinin) metodundan, əkin materialının növündən və onun ölçüsündən, sahədə təbii halda əmələ gələn və toxumdan törəyən baş cinsin miqdarından, gələcəkdə xəstəlik və zərərverici həşaratlarla zədələnmə ehtimalından, becərmə və xidmət işlərinin keyfıyyətlə aparılması imkanından asılı olaraq müəyyən edılir.

3.7.2. Meşə əkinlərinin ilkin sıxlığı, gələcəkdə davamlı, yüksək məhsuldarlıqlı ağaclığın əmələ gəlməsini təmin etməlidir.

Meşə əkinlərinin meşə ilə örtülü sahələrə keçirmə yaşında bir hektarda salamat qalmış ağacların miqdarı, konkret meşəbitmə şəraitine görə, qüvvədə olan standarta müvafıq qaydada müəyyən edilir.

Qırna sahələrindəki təzə, nəmli və yüksək nəmli meşə torpaqlannda və suvarılan torpaqlarda toxmacarla salınan meşə əkinlərinin sıxlığı hər hektarda 3,5-4,0 min ədəddən, quru torpaqlarda və meşəsəhra zonalarda (dəmyə) 4,0-

5,0 min ədəddən az olmamalıdır.

Toxumla ağaclandırma aparan zaman hər hektardakı səpin yerinin sayı əkinlə salınan meşə sahəsində nəzərdə tutulduğundan 20 % çöx götü rülür.

Tinglə salınan meşə əkinlərinin hər hektarda götürülən sıxlığı, meşə əkinlərinin meşə ilə örtülü sahələrə keçirilən zaman qüvvədə olan standartlara uyğun qəbul edilən normasından aşağı olmamalıdır.

3.7.3. Zərərverici həşaratların və xəstəliklərin yayıldığı meşələrdə meşə əkinlərinin ilkin sıxlığı meşə mühafizəsi haqqında tövsiyyələr və təkliflər nəzərə alınmaqla müəyyənləşdirilir.

3 7 4 Məqsədli plantasıya şəklində salınmış meşə əkinlərinin ilkin sıxlığj müəyyən edilmiş yaşda xüsusi oduncaq çıxımının həcmini və istehsalın yüksək rentabellı olması şərtini nezərə almaqla müəyyən edilir.

3 7 5 lntroduksiya edilmiş cinslərdən meşə əkini işləri aparan zaman onun ilkin sıxlığı və qarışdırma sxemi xüsusi tövsiyyələr və texniki tələblərə uyğun olaraq muəyyən edilır.

3.7.6. Meşə əkinlərinin ilkin sıxlığının konkret norması cərgə aralarının yol verilən eni, əkin və səpin yerinin cərgələrdə bir-birindən olan məsafəsi baş cinsin növündən, meşəbitmə şəraitindən, meşə əkinlərinin məqsədindən və metodundan, əkin materialının ölçüsündən asılı olaraq meşəbitme zoonaları üzrə, meşəbərpa tədbirlərinə dair tövsiyyə və təkliflər (rəhbərlik sənədlər) nəzərə alınmaqla müəyyən edilir.

3.8. Meşə əkinlərinin yaradılması metodları.

3.8.1. Meşə salınmasında esas etibarı ilə əkin metodu daha əlverişli hesab edilir. Meşə əkini işlərində müxtelif ağac ve kol cinslərinin toxmacar və tinglərindən istifadə edilir. Əksər hallarda əkin metodu ilə meşə salınıb yetişdirilməsinin səmərəliliyi səpin metodundan daha yüksək olur. Meşələrin əkin metodu ilə salınmasının əsas üstünlüyü su və külək eroziyasına məruz qalmış torpaqlarda, rütubətli torpaq şəraitlərində, əkindən qabaq alaq otlarının güclü inkişaf etdiyi sahələrdə, habelə nəmliyi çatışmayan quraqlıq sahələrdə xüsusilə nəzərə çarpır.

3.8.2. Əkin metodu ilə meşə salındıqda, əkin materialı kimi toxmacar və tinglərdən, köklәndirilmiş əkin materialından istifadə edilir. Istər toxmacar və ting, istərsə də köklәndirilmiş əkin materialları qüvvədə olan standartların tələblerinə və texniki şərtlərə cavab verməlidir.

Əkin materialı qurumaması, zererverici həşaratlar və xəstəliklərlə sirayətlənməməsi, həmçinin bitiş faizinin artırılması və boy artmının sürətləndirilməsi üçün müxtəlif maddələrlə işlənilə bilər.

3.8.3. Səpin metodu ilə meşə salınmasına yalnız bu şərtlə icazə verilə bilər ki, o şəraitdə toxumla meşə salınmasının bir çox cəhətcə əkin metodu ilə meşə salınmasından üstünlükləri olsun və təcrübədə bir daha özünü göstərsin, digər tərəfdən ərazidə toxumu məhv edə bilən gəmiricilər olmasın. Torpağın məhsuldar qatı zəif olan sahələrdə də meşə salınmasında toxumdan istifadə edilə bilər.

3.8.4. Sepin metodu ilə meşe salınmasında yuxarıda qeyd olunan şertlər nəzərə alınmaqla, yalnız aşağıdakı enli yarpaqlı ağac cinslərinin iri ölçüyə malik olan toxumlarından müxtəlif zonalar üzrə İstifadə edilə bilər. -palıd toxumu ilə meşəsəhra və səhra zonalarda;

- palıd, şabalıd, qoz, badam, püstə ilə Kiçik və Böyük Qafqazın dağ və dağətəyi meşələrində;

Toxumla meşə salınmazdan əvvəl, onların xüsusiyyetlərindən asılı olaraq

qurnda, qarda, suda və müxtəlif dərmanlarda islatmaqla stratifikasiya edilməlidir.

Payız səpinində toxumlar stratifikasiyanı torpaqda keçirirlər.Payız səpinində toxumlann yalnız müxtəlif göbələk xəstəliklərinə qarşı kimyəvi preparatlarda yuyulduqdan sonra istifadə edilməsi məsləhət bilinir.

3.8.5. Səpin sxeması və səpin norması ağac ve kol cinslərinin bioloji xüşusiyyətlərindən meşəbitmə şəraitinin tipindən, torpağın hazırlanma üsulundan, toxumun keyfiyyətindən ve s. asılı olaraq müəyyen edilir.

Toxumun torpağa hansı dərinlikdə basdınlması, toxumun ölçüsündən, səpin müddətindən, sahənin torpaq və iqlim şəraitindən, habelə proqnozlaşdınlmış hava şəraitindən asılı olaraq müəyyən edilir.

Yüngül və quru torpaqlarda, yaxud quraq şəraitlərdə toxumlar payız səpinində dərin, ağır və rütubətli torpaqlarda isə, nisbətən dayaz apanlır.

Səpin metodu ilə ağaclandırma zamanı səpin norması və başqa texnoloji tələblər, meşəbərpa işləri üzrə qüvvədə olan normativ aktlara və əsasnaməyə uyğun olaraq aparılır.

3.8.6. Əkin və səpinin bir yerdə aparılması o şərtlə ola bilər ki, torpağa lazımi miqdarda üzvi və mineral kübrə verilmə imkanı olsun, bitkilərin xəstəlliklərdən və ziyanverici həşəratlardan mühafızə etmək üçün vəsait, yaxud sahədə əmələ gələ biləcək güclü alaq otlarının qarşısını almaq üçün əvvəicədən lazımi tədbiriər apanlması mümkün olsun.

3.8.7. Meşə əkini və səpini üçün ən əlverişli vaxt dağ və dağətəyi dəmyə zonalarda payız mövsümü hesab edilir. Bu zonalarda yaz meşə əkini və səpini əksər hallarda lazımi nəticəni vermir. Bunun da əsas səbəbi erkən yazda bəzən hava şəraitinin quraq keçməsidir.

Suvarılan düzən rayonlarda istər payız, istərsə də yaz meşə əkini və səpini yaxşı neticə verə bilər. Bu şərtlə ki, əkin və səpin işiəri aparıldıqdan maksimum bir heftə sonra sahə suvarılsın. Nəzərdə saxlamaq lazımdır ki, əkin işləri, ting və toxmacarların yarpaq tumurcuqları açılmamışdan qabaq aparılmalıdır.

Örtülü qrunt şəraitində yetişdirilən ting və toxmacarlar meşə əkini işlərində uzun müddətə istifadə edilə bilər. Meşə əkini işləri seleksiya əsasında seçilmiş ağac və kol cinslərindən və introduksiya edilmiş ağaclarla aparıldıqda örtülü qrunt şəraitində yetişdirilən ting və toxmacarlardan istifadə edilməsi məqsədəuyğundur. Açıq qrunt şəraitində yetişdirilən ting və toxmacarlardan salınmış meşə əkinləririn yaxşı nəticə vermədiyi dağ yamaclarında və digər ərazilərdə örtülü qrunt şəraitində yetişdirilən ting və toxmacarlardan meşə salınmasına üstünlük verilməlidir.

Örtülü qrunt şəraitində yetişdirilən ağac və kollardan ibarət salınmış meşə əkinləri texniki şərtlərə və qüvvedə olan tövsiyyə və göstərişlərə cavab verməlidir.

3.9. Meşə əkinlərinə xidmət.

3.9.1. Meşə əkinlərinə aqrotexniki xidmət olaraq, torpaqda yumşaltma işləri həyata keçirilir, bununla yanaşı ot və alaq bitkiləri, xırda ağaclar və kollar sahədən götürülür. Bu tədbirin vaxtlı-vaxtında və aqrotexniki müddətlərdə aparılması meşə əkinlərinin bitiş faizinin yüksəlməsinə və normal inkişaf etməsinə şərait yaradır.

3.9.2. Aqrotexniki qulluğa aşağıdakılar alddir:

- ting və toxmacarları əkindən sonra qum gətirintilərindən, alaq otlarından, yuyulmadan və s. Sonra əl ilə düzəltmə və diblərini möhkəmlətmək;

- meşə əkini cərgələrində və cərgəaralarında ot və alaqları, kol-kosları məhv etməklə yanaşı yumşaltma işləri aparmaq;
- cərgə aralarında arzu olunmayan alaq, ot və ağac bitkilərinin sahədən kənarlaşdırılması.

Doldurma (əlavə əkin), mineral kübrə ilə yemləmə, meşə əkinlərinin suvarılması da aqrotexniki xidmətə aid edilir, ancaq xüsusi tədbir kimi planlaşdırılır və apanlır.

Aqrotexniki qulluq meşə əkinlərinin meşə ilə örtülü sahəyə keçirilənə qədər bütün yaşlarında aparılır. Suvarma aran rayonlarında iqtisadi imkanlar daxilində, meşəbitmə şəraitindən asılı olaraq bütün yaşlarda aparıla bilər.

3.9.3.Meşə zonalarında aqrotexniki xidmətə əsasən baş cinsin alaq ve başqa ot bitkiləri və sahədə arzu olunmayan ağac və kollar tərəfindən sıxışdırılmasının və məhv edilməsinin qarşısını almaq üçün aparılır.

Səhra, yarımsəhra və meşəsəhra zonalarında meşə əkinlərinə aqrotexniki xidmət əsas etibarı ilə torpaqda olan nəmliyi saxlamaq və ona qənaət etmək məqsədi ilə aparılır. Daha çox quraqlıq keçən şəraitlərdə becərmə işiəri meşə ilə örtülü sahəyə keçəndən sonra da bir müddət davam etdirilə bilər.

Meşə əkinlərinə aqrotexniki xidmətin müddəti, təkrar olunması və üsulu meşəbitmə şəraitində, yetişdirilən ağac və kol cinslərinin bioloji xüsusiyyətindən, torpaq hazırlığı üsulundan, meşə əkini yaradılması metodundan və əkin materialının ölçüsündən asılı olaraq müəyyən edilir.

3.9.4. Alaq otları və sahədə əmələ gəlmiş arzu olunmayan ağac bitkiləri ilə mübarizə etmək üçün kimyəvi vasitələrdən (arborisitlərdən) istifadə edilməsinə, təbii mühitə zerər vurmadan, yerli təbiəti mühafizə orqanlarının razılığı ilə müstəsna hallarda icazə verilir.

3.9.5. Mineral və üzvi kübrələr bir qayda olaraq kasıb torpaqlarda (yuyutmuş, qumsal, bataqlığı qurudulmuş, rekultivasiya olunmuş və s.) və xüsusi plantasiya şəkilli meşə əkinlərində istifadə edilir.

Mineral kübrələr o meşə əkinlərinə verilir ki, həmin sahələrdə ot bitkilərinin əmələgəlmə imkanı olmasın.

3.9.6. Torpağın məhsuldarlığını yüksəltmək üçün meşə əkini sahələrində bəzi hallarda torpaqda azotun miqdarını çoxaltmaq qabiliyyətinə malik olan paxlalı ot toxumları səpilir və ya ağac cinsləri əlavə edilir. (qızılağac, şeytan ağacı, akasiya və s.).

3.9.7. Müəyyən edilmiş normadan asılı olaraq bitişi 85%-dən aşağı olan bütün meşə əkinlərində doldurma işləri apanlır.

Müstəsna hallarda iqtisadi və meşəbitmə şəraitlərindən asılı olaraq meşə təsərrüfatı müəssisələrinin mərkəzi inventarlaşma komissiyası bitişi 25%-dən yuxarı olan meşə əkinlərində təmir, doldurma işlərinin aparılmasının məqsədəuyğun olmadığını və bu sahələrin hesabdan silinərək meşə əkini fonduna daxil edilməsinə və yaxud da bitişi 25 %-dən aşağı olan birillik meşə əkinlərinin hesabdan silinməsinin meqsədəuyğun olmadığını və bu sahələrdə yaz mövsümündən gec olmayaraq doldurma işləri aparılması barədə qərar qəbul edə bilər.

3.10. Meşə ilə örtülü sahələrdə meşə əkinləri

3.10.1.Meşə ilə örtülü sahələrdə meşə əkini işləri rekonstruksiya məqsədi ilə aparıla bilər.

3.10.2.Azqiymətli ağaclıqlığın qiymətli ağaclıqla əvəz edilməsi (rekonstruksiya) meşənin beş və yuxarı yaşlarıda aparılır ki, bu yaşlarda da meşənin sıxlığı

və yetişmə yaşında gözlənilən məhsuldarlıq, xeyirli funksiya yerinə yetirmə qabiliyyəti müvafiq meşəbitmə şəraitinə və meşənin meqsədli təyinatına cavab vermir.

Rekonstruksiya fonduna aşağıdakılar daxildir:

a) Sıx kol-kosla örtülmüş, məhsuldar meşə salıb yetişdirmək üçün əlverişli olan sahələr;
b) Meşəbitmə şəraitinə cavab verməyən azqiymətli cavan meşəlik sahələri;
v) Seyrəkləşmiş, aşağı sıxlıqlı (05-dən aşağı) yaxud zədələnmiş ağaclıqlar və aşağı məhsuldarlıqlı və arzu olunmayan II və yuxarı yaş sinfindən olan meşələr.

Rekonstruksiya üçün ilk növbədə intensiv təsərrüfat aparılmasının mümkün olduğu güclü torpaqlarda yetişən meşə sahələri ayrılır.

3.10.3.Meşənin tərkibindən, azqiymətli ağaclığın yaşından, burada olan baş cinsin miqdarından və onun sahədə bərabər yayılmasından asılı olaraq rekonstruksiya dəhliz, qruppa halında və başdan-başa üsulu ilə aparıla bilər. 3.10.4. Dəhliz üsulu ile rekonstruksiya azqiymətli cavan ağaclıqlarda və kol pöhrəliklərində aparılır. Bu zaman meşə sahəsi zolaqlarla ağaclardan, kollardan, kötüklərdən, yerə yıxılmış ağaclardan və tör-töküntülərdən təmizlənir ki, bunun da nəticəsində dəhlizlər yaranır. Dəhlizin eni rekonstruksiya aparılacaq sahədə olan ağacların hündürlüyündən, meşə tipindən, əkiləcək ağcın bioloji xüsuşiyyətlərindən asılı olaraq müəyyən edİIİr. Dəhlizin təxmini eni zolaq şəklində qırılacaq meşənin enindən az, cavan ağac və kolların hündürlüyündən çox olmamalıdır.

3.10.5.Dairəvi-qruppa şeklində aparılan rekonstruksiya aşağı sıxlığa malik, sahədə qeyri – bərabər paylanmış və kifayət qədər sayda baş cinsə malik olmayan meşələrdə tətbiq edilir. Qiymətli ağac cinslərindən olan ting və toxmacarlar pəncərə şəkilli ağaclıqlarda qruppa halında, yaxud tarlalarda perakəndə massiv şəklində salınır. Torpaq hazırlığı əsas etibarı ilə sahəciklər, çalalar və təpəciklər hazırlama üsulu ilə hazırlanır. Imkan daxilində torpaq hazılığı mexanizm tətbiq etmeklə şırımlarla, zolaqlarla və başqa üsullarla da aparıla bilər.

3.10.6.Başdan-başa rekonstruksiya sahədə az qiymətli ağac bitkiləri tamamilə təmizlənib götürüldükdən sonra həyata keçirilir. Buradan təmizlənən kol-koslar və yıxılmış, çürümüş ağaclar sahədə 25-50 m-den bir 4-7 m. enində val şəklində çekilib yığılır.Dağlıq şəraitində kol-kos yığıntıları yamaca şaquli xətt istiqamətdə toplanır. Sonrakı texnoioji proseslər meşə əkinlərinin yaradılmasındakı ardıcıllıqla həyata keçirilir.

3.10.7.Meşə çətiri altında meşə salınmasına müstəsna hallarda yalnız intensiv meşə təsərrüfatı rayonlarında, eroziyaya qarşı qoruyucu meşələrdə və yaşıl zonalarda sanitar-gigiyena funksiyasını yuksəltmək məqsədilə icazə verilir. Meşə əkini salındığı zaman meşənin doluluğu 06-dan yuxarı olmamalıdır.

3.10.8.Meşə ilə örtülü sahələrdə salınan meşə əkinlərinin sıxlığı bu meşəbitmə şəraitində başdan-başa salınan meşələrin normativ sıxlığının 50 %-den aşağı olmamalıdır.

## 4. PLANTASİYA TİPLİ MEŞƏ ƏKİNLƏRINİN YARADILMASI.

4.1. Plantasiya tipli meşə əkinləri xüsusi layihə və texnologiya esasında, qüvvədə olan tələb və tövsiyyələrə uyğun olaraq oduncaq və başqa növ meşə məhsullalrının alınmasını tezləşdirmek məqsədilə yetişdirilir.

4.2. Plantasiya tipli meşə əkinləri altında yüksək məhsuldarlıqlı meşəbitmə şəraitində yüksək bonitet sinifinə malik olan sahələr ayrılır ki, bu sahələr də öz ölçülərinə

görə işlərin maksimum mərkəzləşməsinə imkan vermeli və gələcəkdə nəqliyyat vasitələrinin hərəkəti üçün əlverişli olmalıdır.

Plantasiya salınmazdan qabaq sahədə başdan-başa dərin şum apa- nlmaiı, imkan daxilində sahəyə üzvi və mineral gübrə verilməlidir.

4.3. Plantasiya şekilli meşə əkini salmaq üçün perspektivli (gələcəyi olan) çeşidə, formaya, sorta, kolna malik olan yüksək keyfiyyətli əkin materialından istifadə edilməlidir. Plantasiya əkinində optimal sıxlıq və qarışdırma sxemi təmin edilməli, müntəzəm olaraq suvarma və beçərmə işləri aparılmalı, ağaclar xəsteliklərdən və zərərverici həşaratlardan mühafizə olunmalıdır.

Plantasiya şəkilli meşə əkini bir qayda olaraq eyni cinsdən (təmlz) salınır, xidmət və suvarma işləri xüsusi proqram üzrə bütün yetişdirmə dövründə aparılır.

4.4. Plantasiya şəkilli meşə yetişdirilməsi prinsipləri əsasında adi meşe ekinleri ve baş cinsin yaxşı bitdiyi ve beraber paylahdığı, sayının kifayət qədər olduğu təbii yeniyetməliklərdə də formalaşdırıla biIər. Belə sahələrdə sahənin ölçülərinə və meşəbitmə şəraitlərinə olunan tələblər plantasiya şəkilli meşə yetişdirilməsində olduğu kimidir.

## 5. MEŞƏSALMA (MEŞƏYETİŞDİRİLMƏSİ).

5.1. Meşəsalma meşə fondunun meşəsiz torpaqlarında ərazinin meşəlik faizini artırmaq, eroziya proseslərinin qarşısını almaq və ekoloji vəziyyəti yaxşılaşdırmaq məqsədi ilə aparılır.

5.2. Meşesalma zamanı aşağıdakı ağaclıqlar yaradıla bilər:

- dağ yamaclarında, dərə-yarğanlarda yerüstü su axınlarının tənzimlənməsi, su eroziyası ilə mübarizə və bərk axının qarşısının alınması üçün yaradılan ağaclıqlar;
- ərazinin hidroloji şəraitini, mikroiqlimini yaxşılaşdırmaq, yolların qar sovruntuları İlə örtülməsinin qarşısını almaq məqsədilə salınan dövlət meşə zolaqları;
- kiçik çayların və başqa su mənbələrinin eroziya məhsulları ilə lillənməsi, aqrokimyəvi maddələrlə çirklənməsi və onların su rejiminin yaxşılaşdırılması məqsədilə mənbə, çayqırağı, çaysahili ərazilərdə salınan meşəliklər;
- qumluqların bərkidilməsi, külək eroziyasından qorunması,oduncaq alınması, yaşıl zonalar yaradılması məqsədilə qumluqlarda massiv, hissə-hissə və zolaqlarla yaradılan meşə əkinləri.

5.3. Meşə əkinlərinin salınması ətrafda olan kənd təsərrüfatı torpaqlarında gələcəkdə aparılacaq meşə meliorasiya tədbirləri də nəzərə alınmaqla meşəbitmə zonaları üzrə müeyyən edilmiş texnologiya əsasında aparlır.

## 6. MEŞƏBƏRPA İŞLƏRİNƏ NƏZARƏT.

6.1. Qüvvədə olan Əsasnamə, təlimat, standart və digər təklif və tövsiyyələrə müvafiq olaraq meşəbərpa, meşəyetişdirmə işiəri üzrə aparılan tədbirlərin keyfıyyət və kəmiyyətcə yerinə yetirilməsinə nəzarət etmək üçün aşağıdakı tədbiriər aparılır:

- meşə əkinlərinin və meşələrin təbii bərpasına kömək tədbirləri aparılan sahələrin texniki qebulu;
- bir və üç illik meşə əkinlərinin payız inventarlaşması; -meşə əkinlərinin meşə ilə örtülü sahəyə keçirilməsi; -təbii bərpaya kömək tədbirlərinin nəticələrinin uçotu.

6.2. Ğöstəriləntədbirlərin apanlmaşı zamanı ilk növbədə kəmiyyət və keyfiyyət göstəriciləri dəqiqləşdirilir. Alınan rəqəmlər gələcekdə zəruri olan xidmət və

suvarma işlərinin həcmini müəyyən etmək üçün əsas götürülür və meşəbərpa işləri aparılan sahələrə sərf ediləcək maliyyə xerclərinin hecmini müəyyənləşdirir. habelə statistik hesabatlara və texniki sənədləşmələrə daxil edilir.

6.3. Göstərilənlərdən əlavə bütün meşə əkini və meşənin tebii bərpasına kömək tədbirləri aparılan sahələr növbəti meşə quruluşu işləri zamanı ətraflı tədqiq edilir və nəticəsinə görə müvafiq təsərrüfat tədbirləri layihələşdirilir.

6.4. Meşətəsərrüfatı üzrə yuxarı icra orqanlarının qərarı ilə müəyyən müddət ərzində salınmış və uçot tarixinə salamat qalmış (5 ildən az olmamaq şərtilə) bütün ağac cinslərinin və ya ayrıca cinslər üçün meşə əkinlərində məqsədli yoxlama və birdəfəlik uçot aparıla bilər.

## 7. MEŞƏBƏRPA İŞLƏRİNİN SƏMƏRƏLİLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİ.

7.1. Meşəbərpa işlərinin yekun mərhələsi meşə əkinlərini meşə ilə örtülü sahəyə keçirtməkdən və meşə ilə örtülü sahələrdə təsərrüfat əhəmiyyətli qiymətli cinslər hesabına meşənin təbii bərpasını təmin etməkdən ibarətdir.

Yeni yaradılan ağaclıqlar qiymetli cavan ağaclıqlar kateqoriyasına keçirilir ki, bu da gələcəkdə daha məhsuldar ağaclığın formalaşması üçün əsas götürülür.

Təsərrüfat əhəmiyyətli qiymətli cavan meşəliklərə meşə fondunu yaxşılaşdıran ən çox meşəbitmə şeraitinin göstəricilərinə, xalq təsərrüfatının və əhalinin iqtisadi tələblərinə cavab verə bilən iynəyarpaqlı, bərkyarpaqlı və digər ağac cinsləri aiddir.

7.2. Verilmiş müddətdə meşəbərpanın semərəliliyi və vəziyyəti aşağıdakı əmsallarla xarakterizə olunur:

- bərpa olunan sahənin başdan-başa qırılan sahəyə olan nisbətinə bərabər olan meşəbərpa əmsalı;
- təsərrüfat əhəmiyyətli ağaclıqlar kateqoriyasına keçirilmiş cavan ağaclıqların sahəsinin meşəbərpanın ümumi sahəsinə olan nisbətinə bərabər meşəbərpanın səmərəliliyi əmsalı.

Göstərilən əmsalların vahidə bərabər olması meşəbərpa İşlərinin müvəffəqiyyətlə getdiyini xarakterizə edir.

*1999-ci il*

*Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin «07» aprel 2006-cı il tarixli 171./Ü nömrəli Əmri ilə təsdiq edilmişdir.*

## Meşələrin qanunsuz qırıntılardan və digər meşə pozuntularından mühafizdsinin vəziyyətinə operativ nəzarətin təşkili harədə

## T Ə L 1 M A T

Meşələrin qanunsuz qırılmalardan, habelə digər pozuntulardan qorunub mühafızə olunmasma dair meşə mühafizə xidmətinin iş və icra intizamının möhkəmləndirilməsi və cavabdeh şəxslərin intizam məsuliyyətinin artırılması məqsədi ilə aşağıdakı tədbirlər həyata keçirilir:

### Meşə dolayılarına operativ nəzarət

Operativ nəzarətin məqsədi meşələrin qanunsuz qırıntılardan və digər pozuntulardan (mal-qara otarma, özbaşına ot çalma, torpaq zəbti və s.) qorunmasına, dair meşə gözətçilərinin fəaliyyətinin mütəmadi olaraq yerində (naturada) yoxlanmasıdır.

Operativ nəzarət hər bir dolayıda 2 ayda 1 dəfədən az olmayaraq ərazinin tam yoxlanması ilə həyata keçirilir.

Operativ nəzarət bilavasitə meşəbəyi köməkçisi və ya meşə ustası tərəfindən həyata keçirilir.

Meşəbəyi köməkçisi və ya meşə ustası operativ nəzarət zamanı birinci növbədə, meşə gözətçisi tərəfindən günahkarı bəlli olan və bəlli olmayan qanunsuz qırıntılar barədə tərtib olunmuş akt və protokolları yoxlayır, onların naturada (yerində) cinslərinin, ölçülərinin və sayının akt və ya protokollarda göstərilənlərlə uyğunluğunu tutuşduraraq həmin ağacların dib kötüklərini qanunsuz qırıntı («QQ») damğası ilə damğalayır.

Meşəbəyi köməkçisi və ya meşə ustası meşə dolayılarında operativ nəzarəti həyata keçirərkən meşə gözətçisi tərəfindən aşkar edilməmiş və aktlaşdırılmamış (protokollaşdırılmamış), qanunsuz qırıntılara akt tərtib edərək, dib kötüklərini qanunsuz qırıntı damğası ilə damğalayaraq aktı meşə gözətçisinin nəzarət kitabında qeydiyyata salmalıdır.

Meşəbəyi köməkçisi və ya meşə ustası operativ nəzarət zamanı meşə gözətçisi tərəfındən aktlaşdırılmamış başqa meşə pozulmalarına (mal otarma, tinglik sahələrinin və meşə əkinlərinin zədələnməsi, qanunsuz ot çalma, meşə torpaqlarının zəbt olunması və s.) və yanğınlara görə də akt və ya protokol tərtib etməlidirlər.

Meşəbəyi köməkçisi və ya meşə ustası, aktlaşıdırılmış meşə pozuntularını törətmiş səbəbkarların aşkara çıxarılması üçün tədbirlər görür və səbəbkar(lar) aşkar edildikdən sonra meşə gözətçisinin aktında qeyd olunmuş qanunsuz kəsilmiş ağacların diametrlərinə və cinslərinə əsasən yenidən akt tərtib edərək meşə gözətçisinin nəzarət kitabçasında müvafiq qeydiyyat aparmalıdır.

Başqa meşə pozulmalarına (mal otarma, meşə əkinlərinin, tingiik sahələrinin zədələnməsi v s.) görə səbəbkərlar aşkar edildikdə yeni akt tərtib olunaraq ilkin akt (səbəbkarı bəlli olmayan) ləğv edilir və bu barədə meşə gözətçisinin nəzarət kitabçasında müvafiq qeydlər aparılır.

Meşəbəyi köməkçisi, meşə ustası və istərsə də meşə gözətçisi tərəfindən tərtib olunmuş bütün aktlar meşə gözətçisinin nəzarət kitabçasında qeydə alındıqdan sonra müəyyən olunmuş müddətdə (3 gün) meşəbəyliyə təhvil verilir. Meşəbəyi meşəbəyi köməkçisi və ya

meşə ustasından daxil olmuş meşə pozuntularına dair akt və protokolların düzgünlüyünü yoxlayaraq qanunsuz kəsilmiş və ya zədələnmiş meşə məhsullarının həcmini və material qiymətləndirilməsini apararaq meşəbəyliyin nəzarət kitabında qeydə alıb meşə müəssisəsinə təhvil verir. Sonuncu isə tərtib olunmuş aktlann düzgünlüyünü yoxlayaraq müəssisənin nəzarət kitabına daxil edir və qanuna müvafiq tədbirlərin görülməsini (zəruri hallarda hüquq mühafizə orqanlanna göndərilməsini) təmin edir.

## Meşə dolaylarının təftişi

Meşə dolaylarının təftişi zamanı meşə gözətçilərinin meşələri meşə pozuntularından, meşə yanğınlarından qorunması sahəsindəki fəaliyyəti, həmçinin ərazidə xəstəlik və ziyanvericilərin yayılmasına dair, meşədə köküstə qurumuş, küləkdən yıxılmış və ya sınmış ağacların mövcudluğu barəsində məlumatlarının vaxtında meşəbəyliyə verilməsi və həm də dolayının pasportunda əks olunmuş mal və materialların saxlanması vəziyyəti əsaslı şəkildə araşdırılır.

Meşə dolaylarının təftişi növbəti, növbədən kənar, nəzarəti və qəfləti olaraq həyata keçirilir.

1. **Növbəti təftişlər -** ildə 2 dəfə aparılır:

a) yaz təftişi - mayın İ-nə qədər,

b) payız təftişi - noyabr ayının 1-nə qədər aparılır.

Növbəti təftişlər meşəbəyi, meşəbəyi köməkçiləri və ya direktorun sərəncamı ilə meşə mühafizəsi xidmətinin digər işçiləri tərəfindən həyata keçirilir.

Meşə mühafizəsi xidmətinin cavabdeh vəzifəli şəxsləri növbəti təftişləri həyata keçirərkən aşağıakıların icrasına borcludurlar:

1) Əvvəlki bütün növ təftiş, nəzarət, araşdırma və yoxlamalarda qeydə alınmamış və damğalanmamış ağacların dib kötüklərini uçota almalı və nəzarət damğası ilə damğalanmalı;

2) Aktlaşdırlmamış başqa meşə pozuntularının (meşə əkini sahələrinin və tingliklərin korlanması və məhv edilməsi, özbaşına otçalma, mal otarılması, meşələrin özbaşına köklənməsi, meşə torpaqlarının zəbt olunması, özbaşına tikinti işlərinin aparılması, meşələrdə sanitar qaydaların tələblərinin pozulması, və s.) mövcudluğunu yoxlamaq;

3) Ziyanverici və xəstəliklərin təbii və mədəni meşələrdə yayılması vəziyyətini və bu barədə meşə gözətçilərindən daxil olmuş xəbərdarlıqlan, həmçinin küləkdən yıxılmış və ya sınmış ağaclar nəticəsində vurulmuş və ya vurala biləcək ziyanların mövcudluğunu əsaslı şəkildə yoxlamaq.

4) Dolayın pasportunda qeyd olunmuş mal və materialların, tabel silahlarının, təsərrüfat əhəmiyyətli tikililərin, həmçinin kvartal dirəklərinin, təbliğat məqsədli lövhə və xəbərdaredici anşlaqların mövcudluğunu və saxlanılması vəziyyətini yoxlamaq;

2. **Növbədənkənar təftişlər** meşə gözətçisinin başqa işə keçməsi, məzuniyyətə çıxması və məzuniyyətdən qayıtması, xəstəliyi ilə bağlı işə çıxa bilməməsi və ya işdən azad olunması ilə əlaqədar olaraq dolayının mühafizəsinin başqa meşə gözətçisinə təhvil verildiyi hallarda keçirilir. Növbədənkənar təftişlər müəssisə rəhbərinin (direktorun) əmri ilə həyata keçirilir.

Meşə gözətçisinin adı çəkilən səbəblər üzündən dəyişdirilməsi ilə bağlı keçirilən təftiş zamanı meşədə qalın qar örtüyünün olduğu halda dolayda mövcud qanunsuz qırıntıların müəyyən olunmuş qaydada uçota alınaraq damğalanması mümkün olmadıqda bu barədə təftiş aktında müvafiq qeydlər aparılır və həmin ərazi ciddi nəzarətə götürülməklə qar örtyündən sonra təftiş olunur.

**3. Nəzarəti təftişlər -** ümumi dolayların 50%-indən az olmamaq şərti ilə, meşə qanunpozuntularına daha çox məruz qalmış dolaylarda keçirilmiş növbəti təftişlərin düzgünlüyünün, habelə keyfiyyətlərin müəyyənləşdirilməsi məqsədi ilə keçirilir və növbəti təftiş müddətinə (mayın 01-i və noyabrm 01-i tarixlərinə) başa çatdırılır.

Nəzarəti təftişlər müəssisənin direktoru, baş meşəbəyisi və meşə mühafizəsi üzrə mühəndisi tərəfindən həyata keçirilir.

Nəzarəti təftişlər həm də Respublika üzrə müəssisələrin 10%-dən az olmamaq şərti ilə meşə pozuntularına daha çox məruz qalmış ərazilərdə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Meşələrin İnkişafi Departamentini tərəfindən həyata keçirilir.

Dövlət meşə mühafizəsi xidmətinin nəzarət səlahiyyətlərinə malik olan vəzifəli şəxsləri aşağıda qeyd olunanların icrasına məcburdurlar:

1) Aşağıdakıları qeydə almalı və müəyyən olunmuş qaydada xüsusi nəzarət damğası ilə damğalamalı;

- sonuncu qəfləti, növbədənkənar və növbəti yoxlamalarda aşkar edilmiş ağacların dib kötüklərini;
- təftişlər arası dövrdə keçirilmiş operativ nəzarətlərdə aşkar edələrək aktlaşdırılmış və damğalanmış ağacların dib kötüklərini;
- əvvəlki yoxlamalarda akşkar olunmamış və damğalanmamış ağaclann dib kötüklərini;

2) Təftişlər arası müddətdə aktlaşdınlmamış, lakin növbəti yoxlamalarda qeydə alınmış digər meşə pozuntularının növünün, ölçülərinin və yerinin düzgünlüyünü yoxlamalı;

3) Dolayıya təhkim olunmuş mal və materialların, təsərrüfat əhəmiyyətli yardımçı binaların, mərz nişanlarının vəziyvətinin növbəti təftiş aktında göstərilənlərə uyğunluğunu yoxlamaq;

Nəzarəti təftişlər nəticəsində operativ nəzarətin, həmçinin meşəbəyi və ya meşəbəyi köməkçisi tərəfindən həyata keçirilmiş növbəti təftişin dolğunluğunu və həqiqətə uyğunluğu aşağıdakı göstəricilər əsasında qiymətləndirilir:

- təftişlər arası dövrdə aktlaşdırılmış, həmçinin növbəti, qəfləti və növbədənkənar yoxlamalarda aşkar edilmiş qanunsuz qırıntıların sayı və həcmi ilə, nəzarəti yoxlamada aşkar edilmiş qırıntıların sayının və həcminin fərq göstəricisinə görə:
- dolayıda operativ nəzarət növbəti, növbədənkənar və qəfləti təfitişlerdə aşkara çıxarılmamış digər meşə pozuntularının mövcud olması və ya bunlarla nəzarəti təftişlərdə aşkar edilmiş digər pozuntuların yerinin, növünün və ölçülərinin arasındakı fərq;
- növbəti təftiş zamanı dolayıda qeydə alınmamış mal və avadanlıqların, eləcədə yaşayış və təsərrüfat əhəmiyyətli tikililərin korlanması və ya zədələnməsi faktlanrım mövcud olması və s.

**4. Qəfləti təfitişlər -** operativ nəzarətin olmaması, meşə gözətçisinin və ya mühafizə xidmətinin digər cavabdeh şəxslərinin xidməti vəzifə səlahiyyətlərindən sui-istifadə etməsi halları və s. barəsində daxil olmuş yazılı və şifahi məlumatların yoxlanılması məqsədi ilə həyata keçirilir. Qəfləti təfltişler Meşələrin Inkişafi Departamentinin eləcədə, müəssisə rehbərinin xüsusi sərəncamı (tapşırığı) ilə departamentin mütəxəssisləri, yerlərdə isə meşəbəyi, meşə mühafizə mühəndisi, baş meşəbəyi və ya müəssisə rəhbərinin özü terəfindən həyata keçirilir. Qəfləti teftişlər növbəti təftişlərin keçirilmesi üçün müəyyən olunmuş qaydada keçirilir. Lakin ondan fərqli olaraq qefləti təftişlərdə dolayların müəyyən hissələri və ya meşə gözətçisinin fəaliyyətinin ayrı-ayrı məqamları əhatə oluna bilər.

Qəfləti təftişin sonunda müəyyən olunmuş qaydada təftiş aktı tərtib olunmalıdır. Təftiş aktına növbəti, növbədənkənar və nəzarəti yoxlamalarda aşkar olunmuş meşə pozuntuları haqqında olan göstəricilər də daxil edilır.

Qeyd: Növbədənkənar təftişlərin nəticələri də dolaylarrı təftişi aktı formasında doldurulur.

- Dolayıların növbəti təftişinin nəticəsi olaraq meşəbəyi hər bir meşə gözətçisinin fəaliyyəti barədə yekun rəyini verir.

Nəzarəti təftişlərdə onu keçirən cavabdeh vəzifəli şəxs operativ nəzarətin və növbəti təftişlərin keyfıyyəti barəsində yekun rəyini verir.

Təftişlərin nəticələri üzrə aşkar edilmiş qanunsuz kəsilmiş ağacların həcmi və nırx dəyəri, başqa meşə pozuntusu hallarında isə vurulmuş ziyanların miqdarı müəssisənin meşə pozuntularının qeydiyyat (nəzarət kitabı) kitabında qeydə alnıır.

Yaz təftişinin nəticəsində aşkar olunmuş meşə pozuntularının nəticələri 5-MT statistik hesabatı formasına daxil edilərək hesabat ilinin birinci yarısında - 01 iyul tarixinə;

Yaz, payız təftişlərinin nəticələri isə birlikdə 5-MT (növbəti ilin 01 yanvar tarixinə) hesabatına daxil edilir.

Təftişlər zamanı aşkar edilmiş vəzifə səhlənkarlıqlarına o cümlədən meşə pozuntularının təqsirkarlarının aşkar edilməsinə başdansovdu münasibətə görə meşə gözətçiləri cinayət məsuliyyətinə cəlb olunurlar.

Qanuna zidd hərəkətləri ilə meşə fonduna vurduğu ziyana görə meşə gözətçiləri Əmək Məcəlləsinin 199-200-cü maddələrinə əsasən tam həcmdə maddi məsuliyyət daşıyırlar.

Vəzifədən sui istifadə etməklə və öz vəzifə səlahiyyətlərinə məsuliyyətsiz münasibət nəticəsində meşə fonduna böyük miqdarda maddi ziyan vurulduqda meşə gözətçiləri barəsində Azərbaycan Respublikasmm Cinayət Məcəlləsinə əsasən mülki iddia qaldırılaraq cinayət işi açılır.

Dolayların təftişləri və operativ nəzarət zamanı vəzifə səlahiyyətlərindən sui-istıfadə edərək qanunsuz meşəqırma hallarının, meşə yanğınlarının və digər meşə pozuntularım gizlətməyə görə cavabdeh vəzifəli şəxslər qanunla müəyyən edilmiş qaydada cinayət, inzibati və mülki məsuliyyətə cəlb olunurlar.

# EKOLOGİYA VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRLİYİNİN MEŞƏLƏRİN İNKİŞAFI DEPARTAMENTİ

# ƏKİN MATERİALLARININ NÖVLƏRİNDƏN ASILI OLARAQ STANDARTLARIN TƏLƏBLƏRİNƏ UYĞUN OLMASI ŞƏRTLƏRİ BARƏDƏ

## TÖVSİYYƏ

**BAKI - 2007**

Bu Tövsiyyə Azərbaycan Elmi-Tədqiqat Meşəçilik İnstitutunun elmi-praktiki təcrübələri, təklif və tövsiyyələri nəzərə alınmaqla, Sovetlər Birliyi dövründə meşə işçilərinə metodiki, texniki və praktiki cəhətcə kömək məqsədilə dərc edilmiş texniki göstərişlərə və qüvvədə olan normativ sənədlərə əsaslanaraq, Ekologiya və Təbii Sərvətlər Nazirliyi Meşələrin İnkişafı Departamentinin. Meşəbərpa və Meşəsalma Sektorunun müdiri - Direktor müavini Şəkiliyev Musa Şaban oğlunun texnikiköməkliyilə, Əlaqələndirmə Mərkəzinin məsləhətçisi, Biologiya Elmləri Namizədi Bədəlov Hüseyn Əkbər oğlu, Tingçilik və Toxumçuluq Sektorunun məsləhətçisi Məmmədova Gülnarə Əjdər qızı tərəfindən hazırlanmışdır.

## Giriş

Azərbaycan Respublikası Prezidenitnin 30 mart 1998-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Meşə Məcəlləsi»nə görə Meşələrimiz torpaq qoruyucu, su saxlayıcı, iqlim tənzimedici, və digər faydalı funksiyalar yerinə yetirdiyinə görə birinci qrupp meşələrə aid edilmişdir. Ona görə meşələrimiz ciddi qaydada qorunmalı, mühafizə edilməli, pozuq meşələr bərpa olunmalı və yeni meşələr salınmalıdır.

Meşələrin bərpa olunmasında və yeni meşələrin salınmasında birinci növbədə əkin və səpin materiallarının keyfiyyətinə diqqət yetirilməli və onun genetik xüsusiyyətləri öyrənilməlidir.

Əkin materialları əsasən yüksək genetik xüsusiyyətlərə malik, uzun ömürlü, meliorativ əhəmiyyətli müsbət ağaclardan yığılan toxumlardan yetişdirilməlidir.

Yığılan toxumlar tinglik sahələrində səpin şöbəsində qüvvədə olan standartların tələblərinə cavab verən ölçüdə yetişdirildikdən sonra daimi meşə əkini sahələrinə köçürülməlidir.

Tinglik şöbəsində standartların tələblərinə cavab verməyən əsasən iynəyarpaqlı ağac və kol cinsləri, torpaq şəraitindən asılı olaraq 1-2-ci ilindən sonra böyütmə sahələrinə köçürülməlidir.

Böyütmə sahələrində yetişdirilən tinglər 2-3 ildən sonra meşəsalınması və yaşıllaşdırma işlərində istifadə etmək üçün tələb edilən standartlara çata bilər.

## Əkin materiallarının növlərindən asılı olaraq standartların tələblərinə uyğun olması şərtlərinə əməl edilməsi haqqında

## TÖVSİYYƏ

Meşə əkini əsas etibarilə süni yolla meşələrin bərpa edilməsi və yeni meşələrin salınması üsuludur. Əksər hallarda meşələrin əkin üsulu ilə salınması səpinlə meşə salınmasına nisbətən ən etibarlı üsul hesab edilir.

Meşə əkini işlərində ən çox 1-2 illik standarta çatmış müxtəlif növ toxmacarlardan istifadə edilir. Ağac və kol cinslərinin növündən asılı olaraq meşə əkinlərində böyütmə və kökləndirmə sahələrində yetişdirilən tinglərdən də istifadə edilir. Buraya əsasən həmişəyaşıl ağac və kollar aid edilir.

Meşə əkinlərində istifadə edilən ağac və kolların ting və toxmacarları yüksək keyfiyyətli olmalı və qüvvədə olan standartın tələblərinə cavab verməlidir (QOST-a). Ting və toxmacarların keyfiyyəti, onların standarta uyğunluğu, gövdənin kök boğazından diametrinə və boy hündürlüyünə, habelə qol budaqlarının müqaisəli inkişaf dərəcələrinə görə xarakterizə olunur.

Meşə əkinlərində istifadə olunan ting və toxmacarların gövdələri düz, axırıncı boy artımı tam odunlaşmış, sonuncu formalaşmış, gözcükləri tam yatmış, kök sistemi şaxəli, əmici telləri sağlam olmalıdır. Meşə əkinində iki gövdəli və ikiləşmiş uc hissənin artımı (pobeq) olan ting və toxmacarlardan istifadə edilməsinə yol verilmir.

Toxmacar - yerli şəraitdə əmələ gələn ağaclardan yığılan toxumlardan və yaxud meşə toxumluq sahələrinə görə rayonlaşdırılmış başqa regionlardan gətirilən və müvafiq yoxlama sertifikatı olan toxumlardan yetişdirilə bilər.

Bütün ağac və kol cinslərindən olan toxmacarlar yetişdirildiyi regionlardan və meşəbitmə şəraitindən asılı olmayaraq, gövdəsinin hündürlüyü 10 sm aşağı olmamalıdır. İynəyarpaqlıların və əsas yarpaqlı ağac cinsəlri toxmacarlarının hündürlükləri isə 60 sm-dən yuxarı olmamalıdır. Kök sistemlərinin uzunluğu yüksək nəmlik şəraitdə 10-20 sm, normal nəmlik şəraitində 15-25 sm, nəmlik dərəcəsi çatışmayan sahələrdə isə 20-30 sm civarında olmalıdır.

Açıq qrunt şəraitində yetişdirilən və dövlət meşə fondunda və qoruyucu meşə zolaqlarında əkilməsi nəzərdə tutulan əsas ağac və kol cinslərinin toxmacarları mövcud standartların tələblərinə cavab verməlidir (QOST-3317-77).

Tinglər - Açıq və örtülü qrunt şəraitində yetişdirilən ağac və kol toxmacarlarının digər sahələrə köçürülməsi yolu ilə yetişdirilir. Tinglər eyni zamanda ağac və kol qələmlərinin kökləndirmə yolu ilə də yetişdirilə bilir. Tinglərin yetişdirilməsində əsas etibarilə üstünlük o ağac və kol cinslərinə verilir ki, o ağac və kol cinsləri əkin zamanı yan və əsas zoğlarının kəsilib götürülməsinə davam gətirsin və bundan ziyan çəkməsin, həmçinin tinglərin torpaqdan qazılıb çıxarılan vaxtı zədələnmiş köklərinin kəsilməsi də, onun bitiş qabiliyyətinin aşağı düşməsinə o qədər ziyan gətirməsin. Normal nəmlik şəraitində yetişdirilən 1-ci dərəcəli iynəyarpaqlı ağac cinslərinin kök sistemlərinin uzunluğu 20 sm-dən aşağı olmamalıdır. Nəmlik dərəcəsi çatışmayan şəraitdə yetişdirilən yarpaqlı və iynəyarpaqlı ağac cinslərinin kök sisteminin uzunluğu isə 25 sm həddində olmalıdır. 2-ci dərəcəli tinglərin kök sistemləri isə 20 sm-dən aşağı olmamalıdır.

Qələm - düzən, səhra və yarım səhra suvarılan ərazilərdə, üstündə 4 göz olmaq şərtilə bir illik zoğlarından hazırlanır. Qələmin uzunluğu 25-30 sm, diametri yuxarı hissədən 0,8-2 sm olmalıdır. Meşə əkini sahəsinə gətirilən əkin materialı, günəş şuasından və küləkdən mühafizə olunan sahədə yerə basdırılmalıdır.

Əkin materialı çıxarılan zaman, çeşidlərə ayrılarkən və müvəqqəti basdırılarkən köklərin qurumasına yol vermək olmaz, əks halda onlardan salınan meşə əkinlərinin bitişi aşağı və əksər hallarda qeyri-qənaətbəxş olur, böyüməsi zəyif gedir. Bu onunla izah edilir ki, belə vəziyyətlərdə əmici köklər ölür və mikorizalar məhv olur. Hətta belə vəziyyətlərdə kök sistemi bitkiyə minimal nəmlik ötürmə qabiliyyətini itirir.

Meşə əkini işləri zamanı əkin materiallarını müəyyən müddətdə saxlamaq üçün, toxmacarlar və tinglər torpağa basdırılır. Toxmacarlar hündürlüklərinin j hissəsi qədər, tinglər isə gövdələrinin 20-30%-ə qədəri torpağa basdırılır.

Toxmacarları, salafan kisələrdə, taxta yeşiklərdə, zənbillərdə də müvəqqəti saxlamaq olar bu şərtlə ki, vaxtaşırı nəmləşdirilməsi və kölgələndirilməsi təmin edilsin. Eyni zamanda toxmacarların müvəqqəti saxlanılması zamanı onların istiqaməti cənuba tərəf yönəldilsin.

Şəhər və qəsəbələrin, rayonların və digər yaşayış məntəqələrinin yaşıllaşdırılmasında istifadə edilən ağac və kol tinglərinin standartların tələblərinə uyğunluğu şərtləri 3,4,5 saylı cədvəllərdə göstərilir.

Cədvəllərdən aydın görünür ki, meşə salınmasında istifadə edilən ting və toxmacarların standartların tələblərinə cavab verən göstəriciləri şəhər və qəsəbələrin, rayon və digər yaşayış məntəqələrinin yaşıllaşdırılmasında istifadə edilən tinglərin standart ölçüləri ilə tamamilə fərqlidir. Ona görə təsərrüfat tədbirlərinin gedişi zamanı bütün bunlar nəzərə alınmalıdır.

Ting və toxmacarların standart ölçüləri və şərtləri barədə məlumatlar 1, 2, 3, 4, 5 saylı cədvəllərdə göstərilir (cədvəllər əlavə edilir).

Cədvəl 1

**Meşə ağac və kol toxmacarlarının tələb olunan standartlara uyğunluğu (QOST 3317-77) şərtləri**

| S № | Cinsin adı | Toxmacarların yaşı | Kök boğazında olan diametri, mm | Kök boğazından hündürlüyü, sm |
|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 |
| 1 | Ərik (adi) | 1-2 | 5 | 30-40 |
| 2 | Fıstıq | 1 | 3 | 30-35 |
| 3 | Qarağac | 1-2 | 3 | 40-45 |
| 4 | Şeytan ağacı | 1 | 3 | 40-50 |
| 5 | Gürcü palıdı | 2 | 2 | 25-30 |
| 6 | Şabalıdyarpaq palıd | 1 | 4 | 30-40 |
| 7 | Qırmızı palıd | 1-2 | 3 | 25-30 |
| 8 | Küknar | 3-4 | 2,5 | 20-25 |
| 9 | Yeməli şabalıd | 1 | 3,0 | 40-50 |
| 10 | Cökə | 2 | 2,5 | 30-35 |
| 11 | Ardıc | 2 | 2,0 | 20-25 |
| 12 | Ağır iyli ardıc | 3 | 3 | 20-25 |
| 13 | Çay tikanı | 1-2 | 3 | 15-20 |
| 14 | Qoz | 1-2 | 7 | 25-40 |
| 15 | Sərv | 2 | 5 | 15-20 |
| 16 | Sarağan | 1-2 | 3 | 20-25 |
| 17 | Adi şam | 2-3 | 2-3 | 15-16 |
| 18 | Eldar şamı | 2 | 4 | 15-20 |
| 19 | Uzunsaplaq palıd | 1-2 | 4 | 10-15 |

| S № | Cinsin adı | Toxmacarların yaşı | Kök boğazında olan diametri, mm | Kök boğazından hündürlüyü, sm |
|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 |
| 20 | İydə | 1-2 | 4 | 10-15 |
| 21 | Maklyura | 1-2 | 3 | 25-30 |
| 22 | Şərq çinarı | 1-2 | 6 | 25-30 |
| 23 | Xurma | 1 | 4 | 25-40 |
| 24 | Adi göyrüş | 1-2 | 3 | 35-40 |
| 25 | Ağcaqayın | 1-2 | 3 | 35-40 |
| 26 | Alma | 1-2 | 4 | 25-30 |
| 27 | Qovaq | 1-2 | 8-10 | 40-45 |
| 28 | Ayı fındığı | 1-2 | 10-15 | 25-30 |
| 29 | Akasiya | 1-2 | 5-8 | 30-40 |
| 30 | Aylant | 1 | 5 | 30-40 |
| 31 | Dəfinə | 1 | 3 | 25-30 |
| 32 | Tut | 1 | 4 | 30-40 |
| 33 | Saqqız ağacı | 2-3 | 5-6 | 25-30 |

Cədvəl 2

**Meşə ağac və kol tinglərinin standartın tələblərinə uyğunluğu şərtləri (QOST 24835-81)**

| S № | Ağac və kolların adları | Yaşı | Sortu | Kök boğazında olan diametri, mm | Torpaqdan olan hündürlükləri, sm |
|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 |
| 1 | Himalay kedri | 4 | 1 | 9 | 50 |
| 2 | Sərv | 2-3 | 1 | 10 | 60 |
| 3 | Krım şamı | 4-5 | 1 | 8 | 20 |
| 4 | Adi şam | 4-5 | 1 | 6 | 20 |
| 5 | Eldar şamı | 3-4 | 1 | 10 | 50 |
| | | 3-4 | 2 | 8 | 35 |
| 6 | Lənkəran akasiyası | 3 | 1 | 15 | 90 |
| | | 3 | 2 | 10 | 55 |
| | Suvarılan zonada: | 3 | 1 | 15 | 100 |
| | | 3 | 2 | 10 | 60 |
| 7 | Fıstıq | 3-4 | 1 | 15 | 65 |
| 8 | Armud | 2-3 | 1 | 7 | 45 |
| 9 | Şərq palıdı | 3-4 | 1 | 10 | 50 |
| 10 | Gürcü palıdı | 4-5 | 1 | 12 | 60 |
| 11 | Qırmızı palıd | 2-3 | 1 | 8 | 40 |
| 12 | Aran palıdı | 2-4 | 1 | 9 | 40 |
| 13 | Dağdağan | 2-3 | 1 | 6 | 35 |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | 2-3 | 2 | 4 | 25 |
| 14 | Şabalıd (adi) | 2-3 | 1 | 10 | 45 |
| | | | 2 | 7 | 35 |
| 15 | Ağcaqayın | 2-3 | 1 | 10 | 55 |
| 16 | At şabalıdı | 2-3 | 1 | 15 | 40 |
| 17 | Ayı fındığı | 2-3 | 1 | 15 | 65 |
| 18 | Cökə | 2-3 | 1 | 9 | 45 |
| | | | 2 | 6 | 30 |
| 19 | İydə | 2 | 1 | 8 | 50 |
| 20 | Çay tikanı | 3-4 | 1 | 9 | 35 |
| 21 | Qoz | 3-4 | 1 | 15 | 60 |
| 22 | Çinar (şərq) | 2-3 | 1 | 10 | 50 |
| 23 | Ağ qovaq | 2 | 1 | 10 | 80 |
| 24 | Göyrüş | 2-3 | 1 | 10 | 60 |
| 25 | Zeytun | 2-3 | 1 | 10-12 | 35-40 |

## Şəhər və qəsəbələrin, rayonların və digər yaşayış məntəqələrin yaşıllaşdırılmasında istifadə edilən ağac və kol tinglərinin standartların tələblərinə uyğunluğu şərtləri

Cədvəl № 3

**İynəyarpaqlı cinslər**

| **Tinglərin əlamətləri** | **Hündürlükləri, m** | **Kök sisteminin ölçüsü, sm** | |
|---|---|---|---|
| | | **Uzunluğu** | **Diametri** |
| Ting 1-sort: | | | |
| kiçik ölçülü | 0,6-0,9 | 40 | 40 |
| orta ölçülü | 1-1,4 | 50 | 50 |
| böyük ölçülü | 2-2,5 | 80 | 100 |
| böyük ölçülü | 1,5-1,9 | 60 | 80 |
| Tuyanın bağ forması (piramidal və şargörünüşlü) | | | |
| kiçik ölçülü | 0,4-0,8 | 40 | 40 |
| orta ölçülü | 0,6-1,2 | 50 | 50 |
| böyük ölçülü | 0,8-1,8 | 60 | 60 |
| Küknarın forması | | | |
| kiçik ölçülü | 0,4-0,8 | 40 | 40 |
| orta ölçülü | 0,8-1,2 | 50 | 50 |
| böyük ölçülü | 1,2-1,8 | 60 | 60 |
| böyük ölçülü | 1,8-2,2 | 80 | 100 |

## Şəhər və qəsəbələrin, rayonların və digər yaşayış məntəqələrin

**yaşıllaşdırılmasında istifadə edilən ağac və kol tinglərinin standartların tələblərinə uyğunluğu şərtləri**

Cədvəl 4

**Yarpaqlı cinslər**

| Tinglərin əlamətləri | Hündürlükləri, m | Kök sisteminin ölçüsü, sm | | «Skelet» budaqlarının sayı, ədədlə |
|---|---|---|---|---|
| | | Uzunluğu | Diametri | |
| Böyük ölçülü torpaqla 1,2-1,2 m | | | | |
| I-sort | 3,5-4,0 | 50-60 | 100 | 7-8 |
| II-sort | 3-3,5 | 50-60 | 80-100 | 6-8 |
| Standartdan yüksək ölçülü (torpaqlı 0,7-0,4 m) sort | | | | |
| I-sort | 3-3,5 | 40 | 70 | 6-7 |
| II-sort | 3-3,5 | 40 | 70 | 6-7 |
| Çətiri original formalı, rəngli yarpaqlı, gözəl çiçəkli və dekorativ meyvəli sort: | | | | |
| I-sort | 1,5-3,0 | 35-40 | 50-60 | 5-7 |
| II-sort | 1,5-2,5 | 35-40 | 50-60 | 3-4 |

## Şəhər və qəsəbələrin, rayonların və digər yaşayış məntəqələrin yaşıllaşdırılmasında istifadə edilən ağac və kol tinglərinin standartların tələblərinə uyğunluğu şərtləri

Cədvəl 5

**Kol cinsləri**

| Tinglərin əlamətləri | Hündürlükləri, m | Kök sisteminin ölçüsü, sm | | «Skelet» budaqlarının sayı, ədədlə |
|---|---|---|---|---|
| | | Uzunluğu | Diametri | |
| Yarpaqlı iri ölçülü kol tingləri: Orta və yüksək boylu sort: | | | | |
| I-sort | 1,25-1,0 | 30-35 | 40-45 | 6 |
| II-sort | 1,25-10 | 30-35 | 40-45 | 4 |
| Alçaqboylu sort | | | | |
| I-sort | 0,75-1,0 | 30-35 | 40-45 | 6 |
| II-sort | 0,5-0,75 | 30-35 | 40-45 | 4 |
| Orta ölçülü yüksək orta boylu sortu | | | | |
| «Ekstra» | 0,6-1,0 | 25-30 | 25-30 | 5 |
| I-sort | 0,6-1,0 | 25-30 | 25-30 | 4 |
| II-sort | 0,6-0,8 | 25-30 | 25-30 | 2 |
| Alçaqboylu yarpaqlı cinslərinin tingləri sort: | | | | |

| | | | | |
|---|---|---|---|---|
| «Ekstra» | 64-05 | 25-30 | 25-30 | 5 |
| I-sort | 0,4-0,5 | 25-30 | 25-30 | 3 |
| II-sort | 0,3-0,4 | 25-30 | 25-30 | 2 |
| Həmişəyaşıl iynəyarpaqlı kolların tingləri sort: | | | | |
| «Ekstra» | 0,4-06 | 25-30 | 25-30 | 4 |
| I-sort | 0,4-0,6 | 25-30 | 25-30 | 3 |
| II-sort | 0,3-0,4 | 25-30 | 25-30 | 2 |

## II. Meşə münasibətlərini tənzimləyən digər qanunverici aktlar

## Fitosanitar nəzarəti haqqında

## Azərbaycan Respublikasının Qanunu

Bu qanun Azərbaycan Respublikasının ərazisində fitosanitar nəzarətinin təşkilinin və həyata keçirilməsinin hüquqi əsaslarını müəyyən edir, bitki mühafizəsi və karantini sahəsində fəaliyyət göstərən subyektlər arasındakı münasibətləri tənzimləyir.

### I fəsil.
### Ümumi müddəalar

Maddə 1. **Əsas anlayışlar**

1.0. Bu qanunda istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.0.1. fitosanitar nəzarəti—bitki mühafizəsi və karantini, pestisidlərin, bioloji preparatların və digər bitki mühafizə vasitələrinin istifadəsi sahəsində dövlət nəzarətinin həyata keçirilməsi;

1.0.2. bitki karantini—bitki və bitkiçilik məhsullarında karantin tətbiq edilən zərərli orqanizmlərin ölkə ərazisinə daxil olmasının və yayılmasının qarşısının alınmasına yönəldilmiş tədbirləri nəzərdə tutan hüquqi rejim;

1.0.3. bitki mühafizəsi—bitki və bitkiçilik məhsullarının zərərli orqanizmlərdən mühafizəsi məqsədi ilə kompleks tədbirlərin həyata keçirilməsi;

1.0.4. bitki—toxum və genetik material da daxil olmaqla, canlı bitkilər və onların hissələri;

1.0.5. bitkiçilik məhsulları—dən də daxil olmaqla, emal olunmamış bitki mənşəli materiallar, habelə öz təbiətinə və ya emal üsuluna görə zərərli orqanizmlərin məskunlaşması və yayılması riskini yarada bilən ilkin emal olunmuş bitki mənşəli məhsullar;

1.0.6. zərərli orqanizm—bitki və bitkiçilik məhsullarına zərər vuran heyvanların, bitkilərin və ya xəstəlik törədən mikroorqanizmlərin hər hansı növü, növün dəyişmiş forması, yaxud bioloji tipi (bitki xəstəlikləri, zərərvericiləri və alaq otları);

1.0.7. karantin tətbiq edilən zərərli orqanizm—ərazidə hələlik mövcud olmayan və yaxud mövcud olaraq məhdud dairədə yayılmış və rəsmi mübarizə obyektinə çevrilmiş, ətraf mühitə, ərazinin iqtisadiyyatına və əhalinin sağlamlığına potensial təhlükə yaradan zərərli orqanizm;

1.0.8. karantin nəzarətində olan material—zərərli orqanizmlərin məskunlaşmasına (gizlənməsinə) və yayılmasına şərait yaradan, fitosanitar tədbirlərin aparılmasını tələb edən (xüsusilə beynəlxalq yükdaşımaları zamanı) bitki və bitkiçilik məhsulları, onların saxlanma yeri, qablaşdırma materialı, nəqliyyat vasitələri, torpaq və hər hansı digər orqanizm, obyekt, yük;

1.0.9. bitki mühafizə vasitələri—bitki və bitkiçilik məhsullarının zərərli orqanizmlərdən qorunması məqsədi ilə istifadə olunan pestisidlər, bioloji preparatlar, canlı faydalı orqanizmlər və texniki vasitələr;

1.0.10. pestisidlər—zərərli orqanizmlərə qarşı mübarizə məqsədi ilə istifadə edilən

zəhərli kimyəvi maddələr;

1.0.11. aqrokimyəvi maddələr—torpaqların münbitliyinin artırılması, bitkilərin məhsuldarlığının yüksəldilməsi və məhsulun keyfiyyətinin yaxşılaşdırılması üçün tətbiq edilən üzvi, mineral və bakterial gübrələr, kimyəvi meliorantlar, bitkilərin boy artımı stimulyatorları və digər maddələr;

1.0.12. fitosanitar sertifikatı—Beynəlxalq Bitki Karantini və Mühafizəsi Konvensiyasına uyğun olaraq nümunəvi forma əsasında hazırlanmış və təsdiq olunmuş bitki və bitkiçilik məhsullarının fitosanitar vəziyyəti barədə rəsmi sənəd.

Maddə 2. **Fitosanitar nəzarəti haqqında Azərbaycan Respublikasının qanunvericiliyi**

2.1. Fitosanitar nəzarəti haqqında Azərbaycan Respublikasının qanunvericiliyi, bu qanundan, Azərbaycan Respublikasının digər qanunlarından və onlara uyğun olaraq qəbul edilmiş normativ hüquqi aktlardan, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir.

2.2. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə fitosanitar nəzarəti sahəsində müəyyən edilmiş qaydalar bu qanunda nəzərdə tutulmuş qaydalardan fərqli olduqda beynəlxalq müqavilələrin qaydaları tətbiq edilir.

Maddə 3. **Fitosanitar nəzarətinin əhatə dairəsi**

3.0. Fitosanitar nəzarəti aşağıdakıları əhatə edir:

3.0.1. hüquqi və fiziki şəxslər tərəfindən fitosanitar nəzarəti qanunvericiliyinin tələblərinə əməl olunmasını;

3.0.2. Azərbaycan Respublikasının ərazisinə başqa dövlətlərdən karantin tətbiq edilən zərərli orqanizmlərin daxil olmasının və yayılmasının qarşısını almaq üçün fitosanitar tədbirlərin təşkilini və həyata keçirilməsini;

3.0.3. bitki və bitkiçilik məhsullarının istehsalı, tədarükü, satışı, saxlanması və daşınması zamanı fitosanitar qaydalarına və normativlərinə əməl edilməsini;

3.0.4. fitosanitar nəzarətində olan karantin obyektlərinin təhlükəsizliyinə nəzarət edilməsini, zərərli orqanizmlərlə sirayətlənmənin başvermə və yayılma səbəbləri və şəraiti üzrə müşahidənin aparılmasını, onların qarşısının alınması və ləğvi üçün icrası məcburi olan fitosanitar tədbirlərin müəyyən edilməsini və həyata keçirilməsini;

3.0.5. dövlət büdcəsinin vəsaiti hesabına alınmış pestisidlərin, o cümlədən onların ehtiyatı da nəzərə alınmaqla bölgüsünü, saxlanmasını, daşınmasını və istifadəsini;

3.0.6. pestisidlərin, bioloji preparatların və digər bitki mühafizə vasitələrinin istehsalı, idxalı, ixracı, saxlanması, satışı və tətbiqi ilə məşğul olan hüquqi və fiziki şəxslərin fəaliyyətini;

3.0.7. qanunvericilikdə nəzərdə tutulan digər məsələləri.

Maddə 4. **Fitosanitar nəzarətində olan karantin obyektləri**

4.0. Fitosanitar nəzarətində olan karantin obyektləri aşağıdakılardır:

4.0.1. siyahısı qanunvericilikdə nəzərdə tutulmuş qaydada müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunmuş bütün növ bitkilər və bitkiçilik məhsulları;

4.0.2. canlı göbələklərin, bakteriyaların, virusların, nematodların, gənələrin, həşəratların və bitki xəstəlikləri törədicilərinin kolleksiyaları, onların zərər vurduğu bitki

nümunələri, habelə bitki herbariləri və kolleksiyaları;
4.0.3. zərərli orqanizmlərin daşıyıcısı olan kənd təsərrüfatı maşınları və alətləri, nəqliyyat vasitələri, bütün növ qab və qablaşdırma materialları, bitki və bitkiçilik məhsullarından hazırlanmış sənaye-məişət malları və məmulatları, torf, kompost, digər üzvi gübrələr, torpaq və torpaq monolitləri və nümunələri;
4.0.4. bitki və bitkiçilik məhsullarının istehsalı, emalı, tədarükü, saxlanması, satışı yerləri, kənd təsərrüfatı və meşə sahələri, həyətyanı və bağ sahələri, qeyri-kənd təsərrüfatı torpaqları.

Maddə 5. **Fitosanitar nəzarətinin əsas prinsipləri**

5.1. Azərbaycan Respublikasında fitosanitar nəzarəti bitki mühafizəsi və karantini sahəsində beynəlxalq standartların, qaydaların və tövsiyələrin tələblərinə uyğun qurulur və aşağıdakı prinsiplərə əsaslanır:
5.1.1. əlaqələndirmə;
Bitki və bitkiçilik məhsullarının karantin tətbiq edilən zərərli orqanizmlərdən mühafizəsinə yönəldilmiş fitosanitar tədbirlər beynəlxalq əməkdaşlıq çərçivəsində vahid metodika üzrə hazırlanmalı və tətbiq edilməlidir.
5.1.2. ekvivalentlik;
Bitki və bitkiçilik məhsullarının beynəlxalq ticarəti zamanı ölkədə mövcud olan fitosanitar vəziyyət və həyata keçirilən fitosanitar tədbirlər barədə xarici dövlətlərə obyektiv məlumat verilməli, həmin ölkələrdə tətbiq olunan fitosanitar tədbirlərin hüquqi qüvvəsinin bərabərliyi qəbul edilməlidir.
5.1.3. şəffaflıq;
Fitosanitar nəzarəti sahəsində Azərbaycan Respublikasında qəbul edilmiş normativ hüquqi aktlar, habelə onlara edilmiş dəyişikliklər və əlavələr barədə müvafiq beynəlxalq təşkilatlar məlumatlandırılmalı və həyata keçirilən fitosanitar tədbirlər üzrə informasiya mübadiləsi aparılmalıdır.
5.1.4. riskin qiymətləndirilməsi;
Azərbaycan Respublikasında həyata keçirilən fitosanitar tədbirlər elmi dəlillərə əsaslanmalı, müvafiq beynəlxalq təşkilatlar tərəfindən işlənib hazırlanmış riskin qiymətləndirilməsi texnikasını, istehsal, emal, nəzarət, ekspertiza və sınaq metodlarını nəzərə almalı, karantin tətbiq edilən zərərli orqanizmlərin ölkə ərazisinə daxil olması, məskunlaşması, yayılması və dövlət sərhədindən kənara çıxması riskini minimuma endirməli, insanların, ətraf mühitin və ərazinin iqtisadiyyatının təhlükəsizliyini təmin etməlidir.
5.1.5. fitosanitar mühafizənin səviyyəsinin müəyyənləşdirilməsi;
Bitki və bitkiçilik məhsullarının zərərli orqanizmlərdən qorunmasını təmin etmək məqsədi ilə fitosanitar mühafizənin səviyyəsinin konsepsiyası müəyyən olunmalı, tətbiqində daimilik, sabitlik və ardıcıllıq təmin edilməli, tətbiqi qaydaları beynəlxalq standartlara uyğunlaşdırılmalı, əsassız və ya özünü doğrultmayan məhdudiyyətlərə və fərqliliyə yol verilməməlidir.
5.1.6. regional şəraitə uyğunlaşma;
Regionun fitosanitar vəziyyəti və xüsusiyyətləri qiymətləndirilərkən, bitki və bitkiçilik məhsulları idxal və ixrac edən ölkələrin coğrafi mövqeyi, ekosistemləri, epidemioloji nəzarət faktorları, habelə fitosanitar tədbirlərin səmərəliliyi, əraziyə xas olan bitki xəstəliklərinin və zərərvericilərinin mövcudluğu, yayılma səviyyəsi, məhvetmə və nəzarət proqramları nəzərə alınmalı, fitosanitar mühafizənin səviyyəsini müəyyənləşdirən konsepsiyaları tanınmalıdır.

5.2. Fitosanitar nəzarətinin digər prinsipləri bitki mühafizəsi və karantini sahəsində Azərbaycan Respublikasının qanunvericiliyi və tərəfdar çıxdığı beynəlxalq müqavilələrin şərtləri ilə müəyyən olunur.

## II fəsil.
## Fitosanitar nəzarətinin təşkili

Maddə 6. **Fitosanitar nəzarətinin təşkilinin istiqamətləri**

6.1. Azərbaycan Respublikasının ərazisində fitosanitar nəzarətində olan karantin obyektlərinin mühafizəsinə yönəldilmiş fitosanitar nəzarəti aşağıdakı istiqamətlər üzrə təşkil edilir:
6.1.1. ölkə ərazisini karantin tətbiq edilən zərərli orqanizmlərdən qorumaq və onların mənbələrini vaxtında aşkar etmək məqsədi ilə karantin nəzarətində olan materiallarda müntəzəm olaraq müşahidələr aparılması, fitosanitar ekspertizaları keçirilməsi və profilaktik tədbirlər görülməsi;
6.1.2. bitki və bitkiçilik məhsullarında zərərli orqanizmlərin kütləvi yayılmasının qarşısının alınmasına, xəstəliklərin aradan qaldırılmasına, məhsul itkisinə yol verilməməsinə, ətraf mühitin və əhalinin sağlamlığının, habelə flora və faunanın pestisidlərin, digər zəhərli kimyəvi maddələrin zərərli təsirindən qorunmasına yönəldilmiş bitki mühafizəsi tədbirlərinin həyata keçirilməsi;
6.1.3. fitosanitar nəzarətində olan karantin obyektlərində karantin tətbiq edilən zərərli orqanizmlər aşkar olunduqda, müvafiq ərazidə karantin rejiminin tətbiq edilməsi, hüquqi şəxslərə və əhaliyə bu barədə məlumat verilməsi, habelə zərərli orqanizmlərlə mübarizə aparılması məqsədi ilə karantin məhdudiyyətlərinin müəyyən edilməsi və fitosanitar tədbirlərin həyata keçirilməsi.
6.2. Azərbaycan Respublikasının ərazisində fitosanitar nəzarətində olan karantin obyektlərinin mühafizəsinə yönəldilmiş profilaktik tədbirlərin görülməsi, bitki mühafizəsi tədbirlərinin həyata keçirilməsi və bitki karantininin tətbiq edilməsi qaydaları müvafiq ira hakimiyyəti orqanı (AzR Nazirlər kabineti) tərəfindən müəyyən olunur.

Maddə 7. **Fitosanitar nəzarəti sahəsində dövlətin vəzifələri**

7.0. Fitosanitar nəzarəti sahəsində dövlətin vəzifələri aşağıdakılardır:
7.0.1. fitosanitar nəzarəti sahəsində dövlət siyasətinin əsas istiqamətlərini müəyyən etmək və normativ hüquqi aktlar qəbul etmək;
7.0.2. bitki mühafizəsi üzrə respublika və regional əhəmiyyətli texnoloji reqlamentlər və proqramlar hazırlamaq və təsdiq etmək;
7.0.3. dövlət fitosanitar nəzarəti xidmətini təşkil etmək, onun əsasnaməsini və strukturunu təsdiq etmək;
7.0.4. fitosanitar nəzarəti sahəsində beynəlxalq əməkdaşlığı həyata keçirmək;
7.0.5. dövlət fitosanitar nəzarəti xidmətinin maliyyələşdirilməsi, inzibati və maddi-texniki təchizatının yaxşılaşdırılması və bu sahəyə investisiya qoyuluşu məsələlərini həll etmək;
7.0.6. Azərbaycan Respublikasında aşkar edilməyən, məhdud dairədə yayılmış və ölkə üçün potensial təhlükə törədə bilən karantin tətbiq edilən zərərli orqanizmlərin siyahısını təsdiq etmək;

7.0.7. dövlət fitosanitar nəzarəti xidmətinin beynəlxalq təşkilatların tələbləri və tövsiyələri əsasında formalaşdırılması, bu sahədə istifadə olunan normativ sənədlərin beynəlxalq normalara uyğunlaşdırılması üçün lazımi tədbirlər görmək;

7.0.8. dövlət fitosanitar nəzarəti xidmətinin işini digər dövlət orqanları ilə əlaqələndirmək;

7.0.9. qeyri-dövlət fitosanitar xidmətinin fəaliyyətinə dövlət nəzarətini həyata keçirmək.

Maddə 8. **Dövlət fitosanitar nəzarəti xidməti**

8.1. Dövlət fitosanitar nəzarəti xidməti bitki mühafizəsi və karantini, pestisidlərin, bioloji preparatların, digər bitki mühafizə vasitələrinin istifadəsi sahəsində dövlət nəzarətini həyata keçirən müvafiq icra hakimiyyəti orqanıdır.

8.2. Dövlət fitosanitar nəzarəti xidmətini Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fitosanitar nəzarəti sahəsində fəaliyyət göstərən müvafiq icra hakimiyyəti orqanıdır və tabeliyində olan təşkilatlar təşkil edir.

8.3. Dövlət fitosanitar nəzarəti xidmətinin müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş səlahiyyətli vəzifəli şəxsləri baş dövlət fitosanitar müfəttişləri, baş dövlət fitosanitar müfəttişlərinin müavinləri və dövlət fitosanitar müfəttişləri hesab edilirlər.

8.4. Dövlət fitosanitar nəzarəti xidmətinin işçiləri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada fərqləndirici nişanı olan geyim forması və xüsusi vəsiqələr ilə təmin edilirlər.

Maddə 9. **Dövlət fitosanitar nəzarəti xidmətinin vəzifələri**

9.0. Dövlət fitosanitar nəzarəti xidmətini həyata keçirən müvafiq icra hakimiyyəti orqanının vəzifələri aşağıdakılardan ibarətdir:

9.0.1. bitki və bitkiçilik məhsulları saxlanılan anbarlarda, bazarlarda, həyətyanı sahələrdə, fərdi və kollektiv bağ və bostan sahələrində, torpaqlarda, xüsusi mühafizə olunan təbiət ərazilərində və obyektlərində fitosanitar vəziyyəti araşdırmaq, müayinələr, müşahidələr aparmaq, profilaktik və bitki mühafizəsi tədbirləri həyata keçirmək;

9.0.2. pestisidlərin və bioloji preparatların istehsalına dair proqramlar hazırlamaq və onların bitkiçilikdə tətbiqi və dövriyyəsi qaydalarını, bitki mühafizəsi, o cümlədən fitosanitar nəzarəti üzrə proqramların və normativ sənədlərin layihələrini hazırlayıb təsdiq olunmaq üçün müvafiq icra hakimiyyəti orqanına (AzR Nazirlər Kabineti və AzR Kənd Təsərrüfatı Nazirliyi öz səlahiyyətləri daxilində) təqdim etmək;

9.0.3. qanunvericiliklə müəyyən olunmuş qaydada müvafiq fəaliyyət sahələrində ekspertiza, tədqiqat və qiymətləndirmə işlərinin aparılmasını, fitosanitar nəzarətində olan karantin obyektlərinə baxış keçirilməsini, həmçinin nümunələr götürülüb yoxlanılmasını həyata keçirmək;

9.0.4. fitosanitar nəzarətində olan karantin obyektlərində zərərli orqanizmləri vaxtında aşkar etmək, onların təcrid edilməsi və ləğvi üçün müvafiq tədbirlər görmək;

9.0.5. Azərbaycan Respublikasının ərazisində karantin tətbiq edilən zərərli orqanizmlərin yayılmasının qarşısını almaq, onların mənbələrini ləğv etmək üçün qanunvericiliklə müəyyən edilmiş karantin və digər məhdudiyyətlərin qoyulması barədə müvafiq icra hakimiyyəti orqanı (AzR Nazirlər Kabineti və AzR Kənd Təsərrüfatı Nazirliyi öz səlahiyyətləri daxilində)qarşısında vəsatət qaldırmaq;

9.0.6. karantin tətbiq edilən zərərli orqanizmlərin siyahısını hazırlamaq və müəyyən edilmiş ərazidə karantin rejiminin tətbiq edilməsi və götürülməsi barədə müvafiq icra hakimiyyəti orqanına (AzR Nazirlər Kabineti və AzR Kənd Təsərrüfatı Nazirliyi öz səlahiyyətləri daxilində) təkliflər vermək;

9.0.7. Azərbaycan Respublikasının ərazisində bitkilərin zərərli orqanizmlərlə sirayətlənmə dərəcəsini, onların əmələgəlmə səbəblərini müəyyənləşdirmək, kütləvi çoxalması və yayılması barədə məlumatlar əldə etmək, müşahidələr aparmaq, aqroekosistemlərdə fitosanitar vəziyyəti sabitləşdirmək və nəzarətdə saxlamaq üçün dövlət proqramlarının hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

9.0.8. karantin nəzarətində olan materialların zərərli orqanizmlərdən mühafizəsi, pestisidlərin, bioloji preparatların və aqrokimyəvi maddələrin toksikoloji təsirinin və ətraf mühitin çirklənməsinin qarşısının alınması, habelə keyfiyyətini itirmiş və istifadəsi qadağan olunmuş zəhərli kimyəvi maddələrin zərərsizləşdirilməsi üçün müvafiq dövlət orqanları ilə birgə tədbirlər görmək;

9.0.9. pestisidlərin, bioloji preparatların və aqrokimyəvi maddələrin dövlət sınağının və qeydiyyatının aparılmasında və istifadəsinə icazə verilmiş preparatların siyahısının hazırlanmasında iştirak etmək;

9.0.10. fitosanitar nəzarəti üçün dövlət büdcəsində müvafiq vəsaitlərin nəzərdə tutulmasına dair təkliflər vermək, ayrılmış vəsaitin səmərəli istifadəsini təmin etmək məqsədi ilə müvafiq proqramlar və xərclər smetalarını tərtib edib müvafiq icra hakimiyyəti orqanına (AzR Kənd Təsərrüfatı Nazirliyi öz səlahiyyətləri daxilində) təqdim etmək;

9.0.11. Azərbaycan Respublikasının ərazisində bitki mühafizəsi və karantini tədbirlərinin elmi-praktik əsaslarla həyata keçirilməsini təmin etmək və bu sahədə kadrların hazırlanması və ixtisaslarının artırılması ilə bağlı zəruri tədbirlər görmək;

9.0.12. fitosanitar nəzarəti sahəsində Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq müqavilələrdə nəzərdə tutulan öhdəlikləri yerinə yetirmək və səlahiyyətləri daxilində xarici ölkələrin müvafiq qurumları ilə və beynəlxalq təşkilatlarla qarşılıqlı əlaqələr qurmaq;

9.0.13. qanunvericilikdə nəzərdə tutulan digər vəzifələri yerinə yetirmək.

Maddə 10. **Dövlət fitosanitar nəzarəti xidmətinin hüquqları**

10.0. Dövlət fitosanitar nəzarəti xidmətini həyata keçirən müvafiq icra hakimiyyəti orqanının (AzR Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Fitosanitar Nəzarəti Xidməti) aşağıdakı hüquqları vardır:

10.0.1. fitosanitar nəzarəti sahəsində dövlət nəzarətini həyata keçirmək və bu sahədə qanunvericiliyin pozulması hallarının aradan qaldırılmasına yönəldilmiş tədbirlər görmək;

10.0.2. qanunvericiliklə müəyyən edilmiş qaydada hüquqi və fiziki şəxslərin obyektlərinə daxil olmaq üçün onlara müraciət etmək, obyektin fitosanitar vəziyyəti və karantin nəzarətində olan materiallar barədə lazımi məlumat almaq və həmin materialların sənədləri ilə tanış olmaq;

10.0.3. qanunvericiliklə müəyyən edilmiş qaydalara uyğun olaraq bitki və bitkiçilik məhsullarının idxalı və ixracına, Azərbaycan Respublikasının ərazisində tranzit daşınmasına və dövriyyəsinə idxal karantin icazəsi və fitosanitar sertifikatları vermək;

10.0.4. fitosanitar nəzarətində olan karantin obyektlərinə öz səlahiyyətləri daxilində rəy

vermək;

10.0.5. sanitariya-gigiyena qaydalarına və təhlükəsizlik texnikasının tələblərinə uyğun olmayan anbarlarda və satış yerlərində bitki mühafizə vasitələrinin saxlanılmasını və satışını qadağan etmək;

10.0.6. pestisidlərin, bioloji preparatların və aqrokimyəvi maddələrin idxalı, ixracı, istehsalı, saxlanması, satışı və tətbiqi ilə məşğul olan hüquqi və fiziki şəxsləri uçota götürmək;

10.0.7. pestisidlərin, bioloji preparatların və aqrokimyəvi maddələrin satışı və istifadəsi ilə məşğul olan hüquqi və fiziki şəxslərdən təhlükəsizlik qaydalarına riayət edilməsini, ətraf mühitin çirklənməsinə yol verilməməsini və çirklənmənin ləğv edilməsini tələb etmək, istifadəyə yararsız və yüksək toksiki xassəyə malik preparatların istifadəsinin qanunvericiliklə müəyyən olunmuş qaydada qadağan edilməsi və dövriyyədən çıxarılıb məhv edilməsi haqqında qərar qəbul etmək;

10.0.8. fitosanitar nəzarəti sahəsində qanunvericiliyin pozulmasının qarşısını almaq məqsədi ilə hüquqi və fiziki şəxslərə qanunvericilikdə nəzərdə tutulmuş qaydada məhdudiyyət qoymaq, xəbərdarlıq etmək və profilaktik tədbirlər görmək;

10.0.9. qanunvericiliyə uyğun olaraq dövlət sınağından keçməmiş, qeydiyyata alınmamış, habelə istifadəsi qadağan olunmuş pestisidlərin, bioloji preparatların və aqrokimyəvi maddələrin istehsalının, satışının, idxalının və ixracının qarşısının alınması üçün müvafiq tədbirlər görmək;

10.0.10.bitki və bitkiçilik məhsullarında, torpaqda, suda və ətraf mühit obyektlərində pestisidlərin, digər zəhərli kimyəvi maddələrin və onların birləşmələrinin qalıq miqdarına qanunvericiliklə müəyyən olunmuş qaydada dövlət nəzarətini həyata keçirmək;

10.0.11.torpaq istifadəçiləri tərəfindən aqrotexniki, kimyəvi, bioloji və digər tədbirlərin aparılmasına, bitki mühafizə vasitələrinin istifadəsi reqlamentinə riayət olunmasına nəzarəti həyata keçirmək;

10.0.12.karantin tətbiq edilən zərərli orqanizmlərin ölkə daxilində bir ərazidən digər əraziyə yayılmasının qarşısını almaq, həmin ərazidə fitosanitar tədbirləri həyata keçirmək üçün karantin postlarının qoyulması, onların sayı və yerləşməsi barədə müvafiq icra hakimiyyəti orqanına (AzR Nazirlər Kabineti və AzR Kənd Təsərrüfatı Nazirliyi öz səlahiyyətləri daxilində) təkliflər vermək;

10.0.13.fitosanitar nəzarəti sahəsində qanunvericiliyin pozulmasına görə hüquqi və fiziki şəxslərin məsuliyyətə cəlb olunması üçün qanunvericiliklə müəyyən edilmiş qaydada öz səlahiyyətləri daxilində müvafiq tədbirlər görmək;

10.0.14.fitosanitar xidmətinə dair təlimat, göstəriş, tövsiyə və qaydaların, uçot, hesabat, akt və protokol formalarının, idxal icazəsi sənədlərinin, sertifikatların və digər normativ sənədlərin qanunvericilikdə nəzərdə tutulan qaydada və müvafiq beynəlxalq təşkilatların tələblərinə uyğun hazırlanmasını və nəşr edilməsini təmin etmək;

10.0.15.ölkə ərazisinin fitosanitar vəziyyəti barədə qanunvericiliklə müəyyən edilmiş qaydada (ölkə ərazisinin fitosanitar vəziyyəti barədə hesabatın verilməsi qaydasının müəyyən edilməsi hissəsində AzR Kənd Təsərrüfatı Nazirliyi ) müvafiq icra hakimiyyəti orqanına (AzR Kənd Təsərrüfatı Nazirliyi) hesabat vermək;

10.0.16.fitosanitar tədbirlərinə ayrılan məqsədli dövlət vəsaitinə sərəncam vermək;

10.0.17.Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulan digər hüquqları həyata keçirmək.

Maddə 11. **Dövlət fitosanitar müfəttişlərinin səlahiyyətləri**

11.1. Dövlət fitosanitar müfəttişlərinin aşağıdakı səlahiyyətləri vardır:

11.1.1. qanunvericiliklə müəyyən olunmuş qaydada bitki və bitkiçilik məhsullarının istehsalı, emalı, tədarükü, saxlanması və satışı ilə məşğul olan hüquqi və fiziki şəxslərin obyektlərinə, habelə dəniz və hava limanlarına, dəmir yolu stansiyalarına, poçtamtlara, elevatorlara, anbarlara, gəmilərə, mülki təyyarələrə, qatarlara və digər nəqliyyat vasitələrinə, bazarlara, elmi-tədqiqat və sort-sınaq sahələrinə daxil olmaq və fitosanitar müayinələrin keçirilməsi üçün aidiyyəti dövlət orqanlarına, hüquqi və fiziki şəxslərə müraciət etmək;

11.1.2. Azərbaycan Respublikasına gətirilən və respublikadan aparılan karantin nəzarətində olan materiallara, o cümlədən baqajlarda, poçt bağlamalarında və sərnişinlərin əl yüklərində gətirilən bitki və bitkiçilik məhsullarına qanunvericiliklə müəyyən edilmiş qaydada fitosanitar karantin baxışı keçirmək və laboratoriya ekspertizasını aparmaq;

11.1.3. karantin nəzarətində olan materialları qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada saxlamaq, onların dövriyyədən çıxarılması, zərərsizləşdirilməsi və ya məhv edilməsi üçün tədbir görmək.

11.2. Dövlət fitosanitar müfəttişləri fitosanitar nəzarətində olan karantin obyektlərində fitosanitar nəzarəti keçirərkən öz səlahiyyətləri daxilində aşağıdakı məsələlər barədə qərarlar qəbul edirlər:

11.2.1. fitosanitar nəzarəti qanunvericiliyinin tələblərinin pozulmasının aradan qaldırılması;

11.2.2. fitosanitar nəzarətində olan karantin obyektlərində qanunvericiliklə müəyyən edilmiş qaydada fitosanitar ekspertizası və diaqnostikası aparılması;

11.2.3. aqroekosistemlərdə karantin tətbiq edilən zərərli orqanizmlərin daşıyıcısı olan obyektlərin zərərsizləşdirilməsi;

11.2.4. fitosanitar ekspertizasının nəticələri və ya laboratoriya müayinələri ilə təhlükəliliyi sübut edilmiş bitki və bitkiçilik məhsullarının qanunvericiliklə müəyyən edilmiş qaydada saxlanması, zərərsizləşdirilməsi, təkrar emalı, götürülməsi və ya məhv edilməsi;

11.2.5. müvafiq qaydada qeydiyyatdan keçməyən, standartlara və texniki şərtlərin tələblərinə cavab verməyən, mənşəyi məlum olmayan, saxta və keyfiyyətsiz pestisidlərin, bioloji preparatların, digər bitki mühafizə vasitələrinin qanunvericiliklə müəyyən edilmiş qaydada götürülməsi və ya məhv edilməsi;

11.2.6. bitki və bitkiçilik məhsullarının istehsalı ilə məşğul olan hüquqi və fiziki şəxslərə bitki mühafizəsi məsələlərinə, pestisidlərin, bioloji preparatların və digər bitki mühafizə vasitələrinin istifadəsi, saxlanması və daşınması texnologiyasına və reqlamentinə dair tövsiyələr verilməsi;

11.2.7. bitki mühafizəsi tədbirlərinin mövcud təlimat və tövsiyələrin, texnologiya və reqlamentlərin pozulması ilə aparıldığı hallarda, bu tədbirlərin, həmin nöqsanlar aradan qaldırılana qədər dayandırılması;

11.2.8. bitkilərin zərərli orqanizmlərlə sirayətlənmək təhlükəsi müəyyən edildikdə, bu təhlükəni yaradan subyektlər barədə tədbirlər görülməsi üçün aidiyyəti dövlət orqanlarına müraciət edilməsi;

11.2.9. sanitariya-gigiyena tələblərinə və təhlükəsizlik texnikasına uyğun olmayan anbar və digər istehsal binalarının pestisidlərin, bioloji preparatların və digər bitki mühafizə vasitələrinin, dərmanlanmış toxum və əkin materiallarının saxlanması üçün istifadə olunmasına yol verilməməsi;

11.2.10. fitosanitar nəzarəti qanunvericiliyinin pozulmasında təqsirkar olan hüquqi və fiziki şəxslərin qanunvericiliklə müəyyən olunmuş qaydada məsuliyyətə cəlb edilməsi üçün müvafiq tədbirlərin görülməsi.

11.3. Dövlət fitosanitar müfəttişlərinin qərarlarının və göstərişlərinin hüquqi və fiziki şəxslər tərəfindən icra edilməsi məcburidir.

11.4. Dövlət fitosanitar müfəttişlərinin icrası məcburi olan qərarlarının və göstərişlərinin forması, onların tərtib edilməsi və verilməsi qaydası müvafiq icra hakimiyyəti orqanı (AzR Nazirlər Kabineti) tərəfindən müəyyən edilir.

11.5. Dövlət fitosanitar müfəttişləri Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq fəaliyyət göstərirlər.

Maddə 12. **Hüquqi və fiziki şəxslərin fitosanitar nəzarəti sahəsində vəzifə və öhdəlikləri**

12.1. Hüquqi və fiziki şəxslərin fitosanitar nəzarəti sahəsində vəzifə və öhdəlikləri aşağıdakılardır:

12.1.1. zərurət olduğu hallarda öz ərazilərində və obyektlərində müvafiq icra hakimiyyəti orqanına (AzR Kənd Təsərrüfatı Nazirliyi yanında Fitosanitar Nəzarəti Xidməti) müraciətinə əsasən fitosanitar nəzarəti və baxışının keçirilməsi və fitosanitar nəzarətində olan karantin obyektlərinin və ya bitki mühafizə vasitələrinin təqdim edilməsi üçün lazımi şərait yaratmaq;

12.1.2. bitki mühafizə vasitələrinin saxlanmasında, daşınmasında, istifadə edilməsində və zərərsizləşdirilməsində qanunvericiliklə müəyyən edilmiş qaydalara riayət etmək, ətraf mühitin zəhərli kimyəvi maddələrlə çirklənməsinə yol verməmək;

12.1.3. karantin tətbiq edilən zərərli orqanizmlərin yayılmasının qarşısını almaq və ya məhdudlaşdırmaq üçün fitosanitar tədbirlərin qanunvericiliyə uyğun yerinə yetirilməsini təmin etmək;

12.1.4. fitosanitar tədbirlərin yerinə yetirilməsi üçün dövlət fitosanitar müfəttişləri tərəfindən verilmiş qərarlara və göstərişlərə əməl etmək;

12.1.5. fəaliyyət göstərdikləri ərazilərdə və digər yerlərdə karantin tətbiq edilən zərərli orqanizmlərin mövcudluğu barədə dövlət fitosanitar nəzarəti xidmətinə vaxtında məlumat vermək;

12.1.6. karantin nəzarətində olan materialların xüsusi təyin edilmiş yerlərdən kənarda zərərsizləşdirilməsinə yol verməmək;

12.1.7. fitosanitar nəzarətində olan karantin obyektlərinin zərərsizləşdirilməsi və təmizlənməsi zərurəti yarandığı hallarda bu tədbirlərin görülməsi üçün köməkçi işçilər ayırmaq;

12.1.8. Azərbaycan Respublikasının qanunvericiliyi ilə fitosanitar nəzarəti sahəsində nəzərdə tutulan digər vəzifə və öhdəlikləri yerinə yetirmək.

12.2. Hüquqi və fiziki şəxslər fitosanitar tədbirlərin həyata keçirilməsinə köməklik göstərilməsi üçün öz vəsaitləri hesabına məqsədli fondlar yarada bilərlər.

## III fəsil.
## Fitosanitar tədbirlər

Maddə 13. **İdxal olunmuş məhsullara tətbiq edilən fitosanitar tədbirlər**

13.1. Azərbaycan Respublikasının ərazisinə başqa dövlətlərdən zərərli orqanizmlərin

daxil olmasının və yayılmasının qarşısını almaq məqsədi ilə qanunvericilikdə nəzərdə tutulmuş qaydada fitosanitar nəzarəti məntəqələri təşkil edilir. Fitosanitar nəzarəti məntəqələrinin yerləşdirilməsi və fəaliyyəti müvafiq icra hakimiyyəti orqanı (AzR Nazirlər Kabineti) tərəfindən müəyyən edilmiş qaydada həyata keçirilir. Bu məntəqələr öz fəaliyyətini qanunvericiliklə müəyyən edilmiş qaydada aidiyyəti orqanlarla əlaqələndirir.

13.2. Zərərli orqanizmlərin ölkə ərazisinə daxil olmasının və yayılmasının qarşısının alınması məqsədi ilə bitki və bitkiçilik məhsullarının idxalı ilə bağlı dövlət fitosanitar nəzarəti xidməti tərəfindən aşağıdakı fitosanitar tədbirləri həyata keçirilir:

13.2.1. analiz (test), müayinə, məhsulun saxlanması və məhv edilməsi məqsədi ilə bitki və bitkiçilik məhsullarını, digər karantin nəzarətində olan materialları və yükləri fitosanitar nəzarəti məntəqələrində saxlamaq, geri qaytarmaq və onların idxalına məhdudiyyətlər qoymaq;

13.2.2. zərərli orqanizmlərin əraziyə daxil olması təhlükəsi yarandığı hallarda bitki və bitkiçilik məhsullarının respublikaya gətirilməsini qadağan etmək və ya məhdudlaşdırmaq.

13.3. Azərbaycan Respublikasının ərazisindən tranzit kimi istifadə edildikdə, bu qanunun 11.1.1-ci maddəsində göstərilən tədbirlər o halda tətbiq edilə bilər ki, onlar texniki cəhətdən əsaslandırılsın və zərərli orqanizmlərin əraziyə daxil olmasının və yayılmasının qarşısının alınması zərurəti yaranmış olsun.

13.4. Azərbaycan Respublikasının ərazisi üçün ciddi təhlükə yaradan karantin tətbiq edilən zərərli orqanizmlər aşkar edildikdə, müvafiq təxirəsalınmaz tədbirlər görülür və bu barədə əlaqədar beynəlxalq təşkilatlara məlumat verilir.

13.5. İdxal olunan yükün müvafiq sənədlərlə müşayiət olunmadığı və zərərli orqanizmlərlə sirayətlənməsi riskinin mövcud olduğu müəyyən edildiyi halda dövlət fitosanitar nəzarəti xidməti tərəfindən idxal edənə aşağıdakılar barədə yazılı bildiriş verilir:

13.5.1. yüklərin fitosanitar nəzarəti məntəqəsinə aparılaraq, karantin rejiminin tətbiq olunması;

13.5.2. yüklərdən ekspertiza və analiz aparmaq məqsədi ilə nümunələr götürülməsi və nəticələr əldə olunanadək yükün saxlanılması;

13.5.3. zərərsizləşdirmə zərurəti yarandığı hallarda yükün götürülməsi və zərərsizləşdirmə prosesindən sonra sahibinə qaytarılması;

13.5.4. zərərsizləşdirmə məqsədi ilə yükün boşaldılıb yenidən yüklənməsi;

13.5.5. yükün məhv edilməsinin zəruriliyi.

13.6. Karantin tətbiq edilən zərərli orqanizmlərlə sirayətlənmiş yük zərərsizləşdirildikdən sonra müəyyən olunmuş vaxt ərzində sahibi tərəfindən geri götürülmədikdə, dövlət fitosanitar nəzarəti xidməti yükün məhv edilməsi barədə qanunvericilikdə nəzərdə tutulmuş qaydada qərar qəbul edə bilər.

13.7. Fitosanitar nəzarəti zamanı həyata keçirilən fitosanitar tədbirlərin xərci və məhv edilən yükün dəyərinin məsuliyyəti idxal edənin üzərinə düşür.

13.8. Poçtamtlar vasitəsilə gətirilən bitki və bitkiçilik məhsulları, bitki mühafizə vasitələri və digər yüklər müvafiq icra hakimiyyəti orqanı (AzR Kənd Təsərrüfatı Nazirliyi yanında Fitosanitar Nəzarəti Xidməti) müəyyən etdiyi məntəqələrdən qəbul edilir. Bu məntəqələrin siyahısı müvafiq icra hakimiyyəti orqanı ( AzR Kənd Təsərrüfatı Nazirliyi AzR Rabitə və İnformasiya Texnoloqiyaları Nazirliyi ilə razılaşdırmaqla) tərəfindən razılaşdırılaraq təsdiq edilir və bitki mühafizəsi və karantini üzrə beynəlxalq təşkilatlara və yük göndərən ölkələrə sorğu əsasında

məlumat verilir.

Maddə 14. **İxrac edilən məhsulların sertifikatlaşdırılması**

14.1. Azərbaycan Respublikasından ixrac edilən bitki və bitkiçilik məhsullarının beynəlxalq standartların tələblərinə uyğunluğunu təmin etmək məqsədi ilə fitosanitar sertifikatlaşdırılması aparılır.

14.2. Fitosanitar sertifikatlar və ya onların elektron əvəzediciləri beynəlxalq standartların tələbləri nəzərə alınmaqla tərtib edilməli və verilməlidir. Fitosanitar sertifikatlarda təsdiq edilməmiş dəyişiklik və düzəlişlərin aparılmasına yol verilmir.

14.3. İxrac edilən bitki və bitkiçilik məhsullarına fitosanitar sertifikatları dövlət fitosanitar nəzarəti xidməti tərəfindən aşağıdakı hallarda verilir:

14.3.1. sertifikatın verilməsi üçün müraciət edildikdə və xidmət haqqı ödənildikdə;

14.3.2. qanunvericiliklə müəyyən edilmiş qaydada tələb olunan müvafiq sənədlər təqdim olunduqda;

14.3.3. sertifikat verilməsi nəzərdə tutulan yüklər, baxış keçirilməsi və digər tədbirlərin aparılması üçün təqdim edildikdə;

14.3.4. göndərilən yüklər beynəlxalq standartların tələblərinə cavab verdikdə.

Maddə 15. **Tranzit daşınan məhsullara tətbiq edilən fitosanitar tədbirlər**

15.1. Karantin nəzarətində olan materialların Azərbaycan Respublikasının ərazisindən açılmadan, bölünmədən, digər yüklərlə qarışdırılmadan və yenidən qablaşdırılmadan başqa ölkələrə daşınması zamanı həmin yüklər üzərində qanunvericilikdə nəzərdə tutulmuş qaydada fitosanitar nəzarəti həyata keçirilir.

15.2. Dövlət fitosanitar nəzarəti xidməti tranzit daşınan bitki və bitkiçilik məhsullarına fitosanitar sertifikatı tələb edir və zəruri hallarda karantin nəzarətində olan materiallara və yüklərə fitosanitar tədbirləri tətbiq edilir.

15.3. Azərbaycan Respublikasının ərazisindən tranzit daşınan karantin nəzarətində olan materiallara aşağıdakı hallarda fitosanitar tədbirləri tətbiq olunmur:

15.3.1. bitki və bitkiçilik məhsulları zərərli orqanizmlərin yayılmaması üçün plomblanmış nəqliyyat vasitələri ilə və ya konteynerlərlə daşındıqda və beynəlxalq standartların tələblərinə uyğun qablaşdırıldıqda;

15.3.2. məhsul ixrac edən ölkə tərəfindən fitosanitar sertifikatı ilə təmin edildikdə.

## IV fəsil.
## Zərərli orqanizmlərlə mübarizə

Maddə 16. **Ərazidə karantin elan olunması**

16.1. Ölkə ərazisində karantin tətbiq edilən zərərli orqanizmlərin mövcudluğu təsdiq edildikdə, onlarla mübarizə aparmaq məqsədi ilə dövlət fitosanitar nəzarəti xidməti həmin ərazidə karantin elan olunması barədə müvafiq icra hakimiyyəti orqanına (AzR Nazirlər Kabineti və AzR Kənd Təsərrüfatı Nazirliyi öz səlahiyyətləri daxilində) təklif verir.

16.2. Karantin rejiminin tətbiq olunduğu ərazinin hüdudları zərərli orqanizmlərin yayılma dərəcəsindən asılı olaraq müvafiq icra hakimiyyəti orqanı (AzR Nazirlər

Kabineti və AzR Kənd Təsərrüfatı Nazirliyi öz səlahiyyətləri daxilində) tərəfindən müəyyən edilir.

16.3. Ərazidə karantin rejiminin tətbiq edildiyi barədə məlumat dərhal rəsmi elan olunur və həmin ərazidə olan hüquqi şəxslərə və əhaliyə xəbərdarlıq edilir.

16.4. Ərazidə karantin elan olunması barədə müvafiq icra hakimiyyəti orqanının (həmin qanunun 162-ci maddəsinin tələbləri nəzərə alınmaqla, öz səlahiyyətləri daxilində - AzR Nazirlər Kabineti və AzR Kənd Təsərrüfatı Nazirliyi ) qərarında aşağıdakı məlumatlar əks olunur:

16.4.1. karantin elan olunmasının səbəbləri;

16.4.2. karantin elan olunan ərazinin yeri və hüdudları;

16.4.3. karantin məhdudiyyətləri və fitosanitar tədbirlərinin siyahısı.

Maddə 17. **Karantin elan olunan ərazilərdə tətbiq edilən məhdudiyyətlər və fitosanitar tədbirlər**

17.1. Karantin elan olunan ərazilərdə aşağıdakı məhdudiyyətlər və fitosanitar tədbirləri tətbiq edilir:

17.1.1. zərərli orqanizmlərə qarşı dövlət fitosanitar nəzarəti xidmətinin müəyyən etdiyi bitki mühafizəsi tədbirlərinin həyata keçirilməsi;

17.1.2. karantin elan olunan ərazidən və ya həmin əraziyə, habelə ərazi daxilində bitki və bitkiçilik məhsullarının daşınmasına məhdudiyyətlərin qoyulması;

17.1.3. karantin tətbiq edilən zərərli orqanizmlərə həssas bitkilərin həmin ərazidə yenidən əkilməsinə qadağa qoyulması.

17.2. Dövlət fitosanitar nəzarəti xidməti məqsədəuyğun hesab etdiyi halda karantin elan olunan əraziyə bitişik ərazidə olan torpaq sahəsinin mülkiyyətçisinə (istifadəçisinə), müəyyən vaxt ərzində, öz ərazisində fitosanitar tədbirlərin həyata keçirilməsi barədə rəsmi bildiriş verir və onun qarşısında qanunvericilikdə nəzərdə tutulmuş tələblər qoyur.

17.3. Torpaq sahəsinin mülkiyyətçisi (istifadəçisi) bu tələblərə əməl etmədiyi halda dövlət fitosanitar nəzarəti xidməti bildirişdə tələb olunan fitosanitar tədbirləri həyata keçirmək məqsədi ilə bu ərazidə olan bitkilərin, bitkiçilik məhsullarının və zərərli orqanizmlərin məhv edilməsi barədə qərar qəbul edir.

17.4. Karantin elan olunan ərazilərdə məhdudiyyətlərin qoyulması və fitosanitar tədbirlərin aparılması xərcləri qanunvericiliklə müəyyən olunmuş hallarda dövlət büdcəsinin vəsaiti, digər hallarda isə torpaq sahəsinin mülkiyyətçisinin (istifadəçisinin) vəsaiti hesabına həyata keçirilir.

Maddə 18. **Zərərli orqanizmlərin məhdud dairədə yayıldığı ərazilərin elan olunması**

18.1. Müvafiq icra hakimiyyəti orqanı (AzR Kənd Təsərrüfatı Nazirliyi) tərəfindən zərərli orqanizmlərin məhdud dairədə yayıldığı ərazilər aşağıdakı hallarda elan olunur:

18.1.1. ərazidə zərərli orqanizmlərin məhdud dairədə yayıldığı müəyyən edildikdə;

18.1.2. zərərli orqanizmlərin yayılmasının məhdud dairədə qalması üçün müvafiq fitosanitar tədbirləri həyata keçirildikdə və lazımi nəzarət sistemi tətbiq edildikdə.

18.2. Zərərli orqanizmlərin məhdud dairədə yayıldığı ərazilərdən bitki və bitkiçilik məhsullarının kənara daşınmasına yol verilmir.

Maddə 19. **Ərazinin zərərli orqanizmlərdən azad elan olunması**

19.1. Dövlət fitosanitar nəzarəti xidməti karantin elan olunan ərazini müntəzəm olaraq tədqiq edir və karantin tətbiq edilən zərərli orqanizmlərin ərazidə mövcudluğunu daim nəzarətdə saxlayır.
19.2. Fitosanitar tədbirlərin aparılmasından sonra dövlət fitosanitar nəzarəti xidməti zərərli orqanizmlərlə sirayətlənmiş ərazidə və ya onun bir hissəsində karantin rejiminin götürülməsi barədə müvafiq icra hakimiyyəti orqanı (AzR Kənd Təsərrüfatı Nazirliyi) təklif verir.
19.3. Müvafiq icra hakimiyyəti orqanı (həmin qanunun 16.2-ci maddəsinin tələbləri nəzərə alınmaqla öz səlahiyyətləri daxilində - AzR Nazirlər Kabineti və AzR Kənd Təsərrüfatı Nazirliyi ) karantin elan olunmuş ərazini, o cümlədən məhsulun istehsal yerini və sahələrini zərərli orqanizmlərdən aşağıdakı hallarda azad elan edir:
19.3.1. karantin tətbiq edilən zərərli orqanizmlərin ərazidə mövcud olmamasına əmin olduqda;
19.3.2. ərazinin zərərli orqanizmlərdən azad olunması məqsədi ilə nəzərdə tutulmuş fitosanitar tədbirlər tam həyata keçirildikdə;
19.3.3. zərərli orqanizmlərdən azad ərazinin statusunun saxlanılmasına əmin olmaq məqsədi ilə müşahidələr keçirildikdə.
19.4. Bitki və bitkiçilik məhsullarının karantin elan olunmuş ərazilərdən daşınmasına yalnız zərərli orqanizmlərdən azad elan olunduqdan sonra yol verilir.

## V fəsil.
## Bitki mühafizəsi ilə bağlı fitosanitar tələblər

Maddə 20. **Pestisidlərin, bioloji preparatların və aqrokimyəvi maddələrin dövlət sınağının və qeydiyyatının aparılması**

20.1. Pestisidlərin, bioloji preparatların və aqrokimyəvi maddələrin dövlət sınağı və qeydiyyatı onların bioloji, gigiyena-toksikoloji və ekoloji cəhətdən qiymətləndirilməsi və istifadə reqlamentlərinin işlənib hazırlanması məqsədi ilə aparılır.
20.2. Pestisidlərin, bioloji preparatların və aqrokimyəvi maddələrin dövlət sınağı müvafiq icra hakimiyyəti orqanı (AzR Nazirlər Kabineti) tərəfindən müəyyən edilmiş qaydaya uyğun olaraq elmi-tədqiqat müəssisələrində aparılır.
20.3. İstehsalatda sınaqdan keçirmək, qeydiyyata almaq və elmi-tədqiqat işlərində istifadə etmək məqsədi ilə xarici ölkələrdən gətirilən pestisidlərin, bioloji preparatların və aqrokimyəvi maddələrin miqdarı müvafiq icra hakimiyyəti orqanına (AzR Kənd Təsərrüfatı Nazirliyi) tərəfindən müəyyən edilir.
20.4. Dövlət sınağından keçmiş, insan, heyvan və bitki orqanizmləri, habelə ətraf mühit üçün təhlükəsizliyi təsdiq edilmiş pestisidlər, bioloji preparatlar və aqrokimyəvi maddələr müvafiq icra hakimiyyəti orqanı (AzR Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Fitosanitar Nəzarəti Xidməti) tərəfindən qeydiyyata alınır və Azərbaycan Respublikasında istifadəsinə icazə verilmiş preparatlar siyahısına daxil edilir.
20.5. Pestisidlərin, bioloji preparatların və aqrokimyəvi maddələrin dövlət qeydiyyatının məcburi şərti onların mənşəyi və keyfiyyəti barədə sertifikatların, təhlükəsiz tətbiqi, bitki və bitkiçilik məhsullarında, torpaqda, suda və ətraf mühit obyektlərində həmin

preparatların qalıq miqdarının müəyyən edilməsi metodikası üzrə təlimatların olmasıdır.

20.6. Pestisidlərin, bioloji preparatların və aqrokimyəvi maddələrin qeydiyyat müddəti 5 ildir və bu müddət başa çatdıqdan sonra onlar müəyyən edilmiş qaydada yenidən qeydiyyatdan keçirilirlər. Preparatların təhlükəsizliyi barədə yeni məlumatlar daxil olduğu hallarda müvafiq icra hakimiyyəti orqanı (AzR Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Fitosanitar Nəzarəti Xidməti) onların tətbiqini tamamilə və ya müvəqqəti dövr üçün qadağan edə bilər.

Maddə 21. **Zəhərli kimyəvi maddələrin qalıq miqdarına dövlət nəzarəti**

21.1. Bütün növ bitki və bitkiçilik məhsullarında və torpaqda pestisidlərin, bioloji preparatların və onların birləşmələrinin qalıq miqdarına dövlət nəzarəti müvafiq icra hakimiyyəti orqanı (AzR Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Fitosanitar Nəzarəti Xidməti) tərəfindən həyata keçirilir.

21.2. Bitki və bitkiçilik məhsullarının tərkibində pestisidlərin, bioloji preparatların və onların birləşmələrinin qalıq miqdarının yol verilən normadan artıq olmamasını təsdiq edən müvafiq sertifikat olduqda, onların satışına icazə verilir.

21.3. Məhsulun tərkibində pestisidlərin, bioloji preparatların və onların birləşmələrinin qalıq miqdarı yol verilən normadan artıq olduqda, onun satışına icazə verilmir və bu məhsul qanunvericiliklə müəyyən olunmuş qaydada dövriyyədən çıxarılır.

Maddə 22. **İstifadəyə yararsız zəhərli kimyəvi maddələrin məhv edilməsi**

22.1. İstifadəyə yararsız və istifadəsi qadağan olunmuş pestisidlər, bioloji preparatlar, onların birləşmələri və qabları müvafiq icra hakimiyyəti orqanı (AzR Nazirlər kabineti) tərəfindən müəyyən edilmiş qaydada onların sahibindən geri alınaraq qanunvericilikdə nəzərdə tutulmuş qaydada zərərsizləşdirilir və ya məhv edilir.

22.2. Pestisidlərin, bioloji preparatların və onların birləşmələrinin zərərsizləşdirilməsi və ya məhv edilməsi müvafiq icra hakimiyyəti orqanı (AzR Nazirlər Kabineti) müəyyən etdiyi qaydada xüsusi anbarlarda (qəbiristanlıqlarda) aparılır.

22.3. Xüsusi anbarların (qəbiristanlıqların) sayını və onların yerləşdirilməsini müvafiq icra hakimiyyəti orqanı (AzR Nazirlər Kabineti) müəyyən edir.

Maddə 23. **Karantin nəzarətində olan materialların zərərsizləşdirilməsi**

23.1. Azərbaycan Respublikasının ərazisinə idxal olunan karantin nəzarətində olan materiallarda karantin tətbiq edilən zərərli orqanizmlər aşkar olunduqda, onlar fitosanitar nəzarəti məntəqələrində və ya yükün təyinat yerlərində qanunvericilikdə nəzərdə tutulmuş qaydada zərərsizləşdirilir.

23.2. Bitki və bitkiçilik məhsullarının daşınması üçün istifadə edilən nəqliyyat vasitələri məcburi təmizlənir və zərurət yarandığı hallarda fitosanitar tələblərə uyğun olaraq zərərsizləşdirilir.

23.3. Karantin nəzarətində olan materialların zərərsizləşdirilməsi hüquqi və fiziki şəxslərlə bağlanan müqavilə əsasında dövlət fitosanitar nəzarəti xidməti tərəfindən həyata keçirilir.

Maddə 24. **Pestisidlərin ehtiyatının yaradılması və saxlanması**

24.1. Pestisidlərin ehtiyatı, fövqəladə hallarda karantin tətbiq edilən və xüsusi təhlükəli zərərli orqanizmlərin kütləvi yayılmasının qarşısını almaq məqsədi ilə müvafiq icra hakimiyyəti orqanı (AzR Nazirlər Kabineti) müəyyən etdiyi qaydada, dövlət büdcəsi vəsaiti hesabına yaradılır.

24.2. Pestisidlərin növlər üzrə ehtiyat normaları və istifadə qaydaları müvafiq icra hakimiyyəti orqanı (AzR Nazirlər Kabineti) tərəfindən müəyyən edilir.

24.3. Pestisidlərin ehtiyatı müntəzəm olaraq təzələnir və istifadəsi müvafiq icra hakimiyyəti orqanı (AzR Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Fitosanitar Nəzarəti Xidməti) nəzarəti altında həyata keçirilir.

## VI fəsil.
## Fitosanitar xidməti

Maddə 25. **Fitosanitar xidmətinin təşkili**

25.1. Azərbaycan Respublikasında fitosanitar xidməti dövlət və qeyri-dövlət fitosanitar xidmətləri vasitəsilə həyata keçirilir.

25.2. Bu qanunla müəyyən edilmiş bitki mühafizəsi tədbirlərinin həyata keçirilməsi dövlət fitosanitar xidmətinin fəaliyyəti ilə təmin edilir.

25.3. Dövlət fitosanitar xidmətinin vəzifələri (Azərbaycan Respublikasının Prezidenti) tərəfindən müəyyən edilir.

25.4. Dövlət fitosanitar xidməti qeyri-dövlət fitosanitar xidmətinin funksiyalarını yerinə yetirə bilər.

Maddə 26. **Qeyri-dövlət fitosanitar xidmətinin subyektləri**

26.1. Qeyri-dövlət fitosanitar xidmətinin subyektləri qanunvericiliklə müəyyən olunmuş qaydada kənd təsərrüfatına aqrokimyəvi xidmət və pestisidlərin, bioloji preparatların və aqrokimyəvi maddələrin istehsalı, idxalı, ixracı, daşınması, saxlanması, satışı və tətbiqi sahəsində sahibkarlıq fəaliyyəti göstərən hüquqi və fiziki şəxslərdir.

26.2. Qeyri-dövlət fitosanitar xidmətinin subyektləri dövlət fitosanitar nəzarəti funksiyalarını yerinə yetirə bilməzlər.

26.3. Qeyri-dövlət fitosanitar xidmətinin subyektləri qanunvericiliklə müəyyən olunmuş qaydada dövlət fitosanitar nəzarəti xidmətində uçota durduqdan sonra fəaliyyət göstərirlər.

Maddə 27. **Qeyri-dövlət fitosanitar xidməti subyektlərinin hüquq və vəzifələri**

27.1. Qeyri-dövlət fitosanitar xidməti subyektlərinin aşağıdakı hüquqları vardır:

27.1.1. istehsal etdikləri və xaricdən gətirdikləri preparatların qanunvericiliklə müəyyən edilmiş qaydada sənədləşdirilməsi üçün müvafiq icra hakimiyyəti orqanlarına müraciət etmək;

27.1.2. Müvafiq icra hakimiyyəti orqanı (AzR Kənd Təsərrüfatı Nazirliyi) tərəfindən təsdiq edilmiş fitosanitar tədbirlərinin nümunəvi uçot və hesabat sənədlərindən və blanklarından istifadə etmək;

27.1.3. dövlət, regional və yerli proqramlar əsasında kənd təsərrüfatına aqrokimyəvi xidmət, bitki mühafizəsi və bitkilərin məhsuldarlığının artırılması tədbirlərinin həyata keçirilməsi məsələlərində tətbiq edilən maliyyə güzəştlərindən istifadə

etmək;

27.1.4. qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

27.2. Qeyri-dövlət fitosanitar xidməti subyektlərinin vəzifələri aşağıdakılardır:

27.2.1. fitosanitar nəzarəti qanunvericiliyinə əməl etmək və müəyyən olunmuş qaydada dövlət fitosanitar nəzarəti xidmətində uçota durmaq;

27.2.2. kənd təsərrüfatı məhsulları istehsalçılarına və bağçılıq təsərrüfatlarına aqrokimyəvi xidmətlər göstərmək;

27.2.3. bitki mühafizə vasitələrinin tətbiqinə dair dövlət standartlarının, fitosanitar və texnoloji normaların, reqlamentlərin və digər normativ sənədlərin tələblərini yerinə yetirmək;

27.2.4. istehsal etdikləri və xaricdən gətirdikləri bitki və bitkiçilik məhsullarının, pestisidlərin, bioloji preparatların və digər bitki mühafizə vasitələrinin keyfiyyət göstəricilərinə və təhlükəsizliyinə zəmanət vermək və məsuliyyət daşımaq;

27.2.5. istifadəyə yararsız pestisidlərin, bioloji preparatların və aqrokimyəvi maddələrin zərərsizləşdirilməsini və ya məhv edilməsini qanunvericiliklə müəyyən olunmuş qaydada təmin etmək;

27.2.6. dövlət fitosanitar müfəttişlərinin qanunvericiliklə müəyyən edilmiş qaydada qəbul etdikləri qərarlara və göstərişlərə əməl etmək;

27.2.7. xidmət etdikləri obyektlərdə zərərli orqanizmlər aşkar edildikdə, dövlət fitosanitar nəzarəti xidmətinə məlumat vermək və onların yayılmasının qarşısını alan ilkin tədbirlər görmək;

27.2.8. fitosanitar tədbirlərin həyata keçirilməsində dövlət fitosanitar nəzarəti xidmətinə lazımi köməklik göstərmək və fitosanitar xidməti sahəsində həyata keçirdikləri işlər barədə müvafiq icra hakimiyyəti orqanı (AzR Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Fitosanitar Nəzarəti Xidməti) qanunvericiliklə müəyyən olunmuş qaydada məlumat vermək;

27.2.9. xidmət etdikləri obyektlərdə istehsal edilən bitki və bitkiçilik məhsullarının fitosanitar normalara uyğunluğunun və təhlükəsizliyinin təmin edilməsi üçün müvafiq tədbirlər görmək;

27.2.10. bitki mühafizəsi sahəsində mütəxəssislərin hazırlanması, elmi-tədqiqat işlərinin aparılması, habelə bitki mühafizəsi üzrə dövlət proqramlarının həyata keçirilməsində iştirak etmək;

27.2.11. qanunvericiliklə müəyyən olunmuş qaydada və formada pestisidlərin, bioloji preparatların və aqrokimyəvi maddələrin uçot və hesabatını aparmaq;

27.2.12. qanunvericiliklə müəyyən olunmuş digər vəzifələri yerinə yetirmək.

## VII fəsil.
## Zəhərli kimyəvi maddələrin istehsalı, tətbiqi və dövriyyəsinə tələblər

Maddə 28. **Pestisidlərin, bioloji preparatların və aqrokimyəvi maddələrin dövriyyəsi sahəsində dövlətin vəzifələri**

28.1. Pestisidlərin, bioloji preparatların və aqrokimyəvi maddələrin dövriyyəsi sahəsində dövlətin vəzifələri aşağıdakılardır:

- Azərbaycan Respublikasında pestisidlərin və bioloji preparatların istehsalı üzrə dövlət proqramı hazırlayıb təsdiq etmək və onun həyata keçirilməsini təmin etmək;

- bitki mühafizə vasitələrinin istehsalına, daşınmasına və saxlanmasına dair standartları və müvafiq normativ-texniki tələblərə aid sənədləri hazırlamaq və təsdiq etmək (müvafiq icra hakimiyyəti orqanı -AzR Kənd Təsərrüfatı Nazirliyi);

28.1.2. pestisidlərin, bioloji preparatların və aqrokimyəvi maddələrin dövlət sınağının aparılması, qeydiyyata alınması və istifadəsinə icazə verilmiş preparatların siyahısına daxil edilməsi qaydalarını müəyyən etmək ( AzR Nazirlər Kabineti);

28.1.3. yüksək toksiki-ekoloji təhlükəli pestisidlərin, bioloji preparatların və aqrokimyəvi maddələrin siyahısını təsdiq etmək və müstəsna hallarda onların tətbiqinə razılıq vermək;

28.1.4. fövqəladə ekoloji şərait zonalarında zəhərli kimyəvi maddələrin tətbiqini məhdudlaşdırmaq;

28.1.5. pestisidlərin, bioloji preparatların və aqrokimyəvi maddələrin dövriyyəsinin bütün mərhələlərində onların keyfiyyətinə və tətbiqinə dövlət nəzarətini təşkil etmək;

28.1.6. təbiəti mühafizə, sağlamlaşdırma, istirahət və turizm zonalarında, su fondu torpaqlarında, suqoruyucu və xüsusi qorunan digər ərazilərdə pestisidlərin və digər zəhərli kimyəvi maddələrin tətbiqini qadağan etmək;

28.1.7. yüksək keyfiyyətli, ekoloji cəhətdən təmiz pəhriz və uşaq qida məhsullarının istehsalı üçün əlverişli fitosanitar və texnoloji şərait yaratmaq məqsədi ilə xüsusi xammal istehsalı bölgələri təşkil etmək, onların hüdudları, hüquqi və texnoloji rejimlərini müəyyən etmək;

28.1.8. əkin sahəsində və digər kənd təsərrüfatına yararlı torpaqlarda aqrokimyəvi tədqiqat işlərinin aparılması, sahələrə aqrokimyəvi pasportların verilməsi və kartoqramların hazırlanması qaydalarını müəyyən etmək (AzR Nazirlər Kabineti);

28.1.9. bitki və bitkiçilik məhsullarını karantin tətbiq edilən və xüsusi təhlükəli zərərli orqanizmlərdən qorumaq üçün lazım olan bitki mühafizə vasitələrinin tədarükünə dövlət sifarişi vermək;

28.1.10. pestisidlərin, bioloji preparatların və aqrokimyəvi maddələrin dövriyyəsinə dair vahid statistik hesabat formasını və təqdim edilməsi qaydasını müəyyən etmək (AzR Nazirlər Kabineti);

28.1.11. pestisidlərin, bioloji preparatların və aqrokimyəvi maddələrin istehsalı, idxalı, ixracı və tətbiqi sahəsində beynəlxalq əməkdaşlığı həyata keçirmək.

28.2. Qanunvericiliyə uyğun olaraq istehsal mənşəyinə görə adlar verilən və yüksək keyfiyyətli (markalı) bitkiçilik məhsullarının istehsalı məqsədi ilə becərilən bitkilərə pestisidlərin, bioloji preparatların və aqrokimyəvi maddələrin tətbiqinə yol verilmir.

28.3. Pestisidlərin, bioloji preparatların və aqrokimyəvi maddələrin tətbiqinin vacibliyi əsaslandırıldıqda, dövlət sanitariya və ekoloji ekspertizasının müsbət rəyi əsasında bu qanunun 28.1.7-ci maddəsində göstərilən ərazilərdə müvafiq icra hakimiyyəti orqanın (AzR Kənd Təsərrüfatı Nazirliyi) ciddi nəzarəti altında onların məhdud çeşidlərinin tətbiqinə qanunvericiliklə müəyyən olunmuş qaydada icazə verilir.

28.4. Pestisidlərin, bioloji preparatların və aqrokimyəvi maddələrin istehsalı, daşınması, saxlanması, tətbiqi, zərərsizləşdirilməsi və məhv edilməsi ilə bağlı işləri bilavasitə yerinə yetirən və bu sahədə nəzarət müayinəsi aparan işçilərə Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə uyğun olaraq güzəştlər tətbiq edilir.

Maddə 29. **Zəhərli kimyəvi maddələrin istehsalı, satışı və tətbiqi**

29.1. Azərbaycan Respublikasında pestisidlərin və bioloji preparatların istehsalı insanların sağlamlığının və ətraf mühitin təhlükəsizliyinin təmin edilməsi şərti ilə qanunvericiliklə müəyyən olunmuş qaydada mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq hüquqi şəxslər tərəfindən həyata keçirilir.

29.2. Pestisidlər və bioloji preparatlar istehsal edən müəssisə istehsal etdiyi preparatların keyfiyyətinə zəmanət vermək üçün nəzarət xidməti təşkil edir, satışa buraxdığı hər bir partiya (seriya) preparata dair müvafiq sertifikat alır və onun keyfiyyəti və tətbiqi üçün məsuliyyət daşıyır.

29.3. İstehsal olunan hər hansı preparat qanunvericiliklə müəyyən olunmuş qaydada dövlət sınağından keçirilir və qeydiyyata alınır, onun texniki şərtləri və standartlaşdırma üzrə normativ sənədləri hazırlanır.

29.4. Pestisidlərin və bioloji preparatların standartlaşdırılmasını və sertifikatlaşdırılmasını qanunvericiliklə müəyyən olunmuş qaydada müvafiq icra hakimiyyəti orqanları həyata keçirirlər.

29.5. Azərbaycan Respublikasının dövlət standartlarının tələblərinə və ya Azərbaycan Respublikasının ərazisində rəsmi tanınan beynəlxalq standartlara uyğun olmayan, habelə dövlət sınağından keçməmiş, qeydiyyata alınmamış və istifadəsi qadağan olunmuş zəhərli kimyəvi maddələrin istehsalına, satışına və tətbiqinə yol verilmir.

29.6. Yüksək toksiki-ekoloji təhlükəli preparatların siyahısının təsdiq edilməsi və tətbiqi qaydaları müvafiq icra hakimiyyəti orqanı (AzR Kənd Təsərrüfatı Nazirlər Kabineti) tərəfindən müəyyən edilir.

29.7. Fövqəladə ekoloji şərait zonasında pestisidlərin və bioloji preparatların tətbiqi müvafiq icra hakimiyyəti orqanı (AzR Kənd Təsərrüfatı Nazirliyi) tərəfindən məhdudlaşdırılır.

Maddə 30. **Zəhərli kimyəvi maddələrin idxalı və ixracı**

30.1. Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış, istifadəsinə icazə verilmiş preparatlar siyahısına daxil edilmiş, mənşəyi və keyfiyyəti barədə sertifikatları olan və müvafiq qaydada qablaşdırılmış və etiketləşdirilmiş pestisidlər və bioloji preparatlar idxal və ixrac oluna bilər.

30.2. Mənşəyi və keyfiyyəti barədə sertifikatları olmayan pestisidlərin və bioloji preparatların idxalı, satışı, tətbiqi və reklam edilməsi qadağan edilir.

30.3. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə başqa şərtlər nəzərdə tutulmamışdırsa, pestisidlərin və bioloji preparatların idxal və ixrac edilməsində beynəlxalq sertifikatların göstəriciləri qəbul edilir.

30.4. Dövlət qeydiyyatına alınmamış pestisidlərin və bioloji preparatların idxal və ixracına aşağıdakı hallarda yol verilə bilər:

30.4.1. elmi-tədqiqat işlərində istifadə olunduqda və satış hüququ olmadan sərgilərdə nümayiş etdirildikdə;

30.4.2. bitki mühafizə vasitələri ilə işlənmiş toxum və əkin materialları ilə birlikdə idxal və ixrac edildikdə;

30.4.3. fövqəladə hallarda karantin tətbiq edilən və xüsusi təhlükəli zərərli orqanizmlərin kütləvi yayılmasının qarşısının alınması məqsədi ilə onların istehsalçı ölkədə qeydiyyatını və istifadəsini təsdiq edən sənədlər olduqda müvafiq icra hakimiyyəti orqanın (AzR Nazirlər Kabinetinin) qərarı əsasında.

30.5. Dövlət qeydiyyatına alınmamış pestisidlərin və bioloji preparatların qanunvericilikdə nəzərdə tutulan qaydada idxalı və tətbiqi yalnız müvafiq icra hakimiyyəti orqanının (AzR Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Fitosanitar Nəzarəti Xidməti) nəzarəti altında həyata keçirilir.

Maddə 31. **Zəhərli kimyəvi maddələrin qablaşdırılması, saxlanması və daşınması**

31.1. Azərbaycan Respublikasında istehsal olunmuş və tətbiqinə icazə verilmiş pestisidlər və bioloji preparatlar müvafiq standartlara və texniki şərtlərə uyğun olaraq qablaşdırılmalı, markalanmalı və müşayiətedici sənədlərində və istifadə təlimatlarında Azərbaycan dilində və zəruri hallarda başqa dillərdə hazırlanma tarixi, saxlanma müddəti, şəraiti barədə və digər məlumatlar göstərilməlidir.

31.2. Zəhərli kimyəvi maddələrin ölkə daxilində daşınması və saxlanması müəyyən olunmuş texniki şərtlərə və tələblərə riayət edilməklə, müvafiq icra hakimiyyəti orqanı (AzR Nazirlər Kabineti) müəyyən etdiyi qaydalara uyğun həyata keçirilir.

## VIII fəsil.
## Fitosanitar xidmətinin elmi və kadr təminatı və maliyyələşdirilməsi

Maddə 32. **Fitosanitar nəzarəti sahəsində Elmi-Texniki Şura**

32.1. Fitosanitar nəzarəti sahəsində aparılan elmi tədqiqatların istiqamətləri üzrə məsələlərə baxmaq, müasir elmi-texniki nailiyyətlərin tətbiqinə dair təklif və tövsiyələr hazırlamaq məqsədi ilə dövlət fitosanitar nəzarəti xidmətinin nəzdində, tərkibi alim və yüksək ixtisaslı mütəxəssislərdən ibarət Elmi-Texniki Şura yaradılır.

32.2. Elmi-Texniki Şura aşağıdakı məsələlərə baxıb rəy verir:

32.2.1. bitki mühafizəsi və karantini sahəsində elmi nailiyyətlərin istehsalatda tətbiqinin yekunlarına;

32.2.2. zərərli orqanizmlərin risk analizinin nəticələrinə;

32.2.3. pestisidlərin, bioloji preparatların və aqrokimyəvi maddələrin normativ-texniki tələblərə uyğunluğuna;

32.2.4. bitki mühafizəsi və karantini sahəsində hazırlanmış təlimatların, qaydaların, tövsiyələrin və digər normativ sənədlərin elmi cəhətdən əsaslandırılmasına;

32.2.5. bitki mühafizəsi sahəsində elmi və kadr təminatının planlaşdırılmasına və həlli vacib olan digər məsələlərə.

32.3. Fitosanitar nəzarəti sahəsində Elmi-Texniki Şura müvafiq icra hakimiyyəti orqanı (AzR Kənd Təsərrüfatı Nazirliyi) tərəfindən yaradılır.

Maddə 33. **Bitki mühafizəsi sahəsində mütəxəssislərin hazırlanması və ixtisaslarının artırılması**

33.1. Bitki mühafizəsi sahəsində mütəxəssislərin hazırlanması və ixtisaslarının artırılması Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə müəyyən olunmuş qaydada həyata keçirilir.

33.2. Bitki mühafizəsi sahəsində mütəxəssislərin hazırlanması və ixtisaslarının artırılmasının planlaşdırılması və həyata keçirilməsi proqramı müvafiq icra

hakimiyyəti orqanı (AzR Kənd Təsərrüfatı Nazirliyi) ilə qanunvericiliklə müəyyən edilmiş qaydada razılaşdırılmalıdır.

Maddə 34. **Fitosanitar xidmətinin maliyyələşdirilməsi**

34.1. Dövlət fitosanitar nəzarəti xidmətinin maliyyə mənbəyi dövlət büdcəsindən ayrılan, hüquqi və fiziki şəxslərə göstərilən fitosanitar xidmətlərə görə ödənilən vəsaitlər, könüllü ödənişlər və donor təşkilatların texniki maliyyə yardımlarından ibarətdir.
34.2. Fitosanitar nəzarəti sahəsində aşağıdakı xərclər Azərbaycan Respublikasının dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilir:
34.2.1. dövlət fitosanitar nəzarəti xidmətinin və onun tabeliyində olan təşkilatların saxlanılması xərcləri və maddi-texniki təminatı;
34.2.2. qanunvericiliyə müvafiq olaraq bitki mühafizəsi və karantini sahəsində tədbirlərin həyata keçirilməsi;
34.2.3. pestisidlərin ehtiyatının yaradılması və saxlanması;
34.2.4. bitki mühafizəsi sahəsində elmi-tədqiqat işlərinin aparılması, mütəxəssislərin hazırlanması və ixtisaslarının artırılması;
34.2.5. məqsədli dövlət və regional proqramlar əsasında fitosanitar və aqrokimyəvi tədbirlərin aparılması;
34.2.6. fitosanitar nəzarəti sahəsində Azərbaycan Respublikasının üzv olduğu beynəlxalq təşkilatlara üzvlük haqlarının ödənilməsi;
34.2.7. qanunvericilikdə nəzərdə tutulmuş digər fitosanitar tədbirlər.
34.3. Qanunvericiliklə müəyyən olunmuş qaydada hüquqi və fiziki şəxslərə göstərilən aşağıdakı fitosanitar xidmətləri həmin şəxslərin vəsaiti, könüllü ödənişlər və donor təşkilatların texniki-maliyyə yardımı hesabına ödənilir:
34.3.1. pestisidlərin, bioloji preparatların və aqrokimyəvi maddələrin dövlət sınağı, qeydiyyatı və ekspertizası;
34.3.2. Müvafiq icra hakimiyyəti orqanı (AzR Nazirlər Kabineti) tərəfindən müəyyən edilmiş qaydada karantin nəzarətində olan materialların zərərsizləşdirilməsi;
34.3.3. fitosanitar sertifikatların, idxal karantin icazələrinin, vahid uçot və hesabat formalarının və digər fitosanitar sənədlərin verilməsi;
34.3.4. fitosanitar karantin baxışının, müayinəsinin və ekspertizasının aparılması;
34.3.5. bitki və bitkiçilik məhsullarında, torpaqda və suda, bitki mühafizə vasitələrində toksikoloji analizlərin aparılması;
34.3.6. karantin tətbiq edilən və xüsusi təhlükəli zərərli orqanizmlərə qarşı mübarizə tədbirləri istisna olmaqla, digər bitki mühafizə tədbirlərinin aparılması;
34.3.7. qanunvericilikdə nəzərdə tutulan digər xidmətlər.

## IX fəsil.
## Fitosanitar nəzarəti haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət və mübahisələrin həlli

Maddə 35. **Fitosanitar nəzarəti haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət**

35.1. Fitosanitar nəzarəti haqqında qanunvericiliyin pozulmasında təqsirkar olan şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş

qaydada məsuliyyət daşıyırlar.

35.2. Fitosanitar nəzarəti haqqında qanunvericiliyin pozulması nəticəsində hüquqi və fiziki şəxslərə dəymiş ziyanın əvəzi Azərbaycan Respublikasının qanunvericilik aktlarında nəzərdə tutulmuş qaydada ödənilir.

Maddə 36. **Mübahisələrin həlli**

Fitosanitar nəzarəti haqqında qanunvericiliyin pozulması ilə əlaqədar mübahisələr Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq, o cümlədən məhkəmə qaydasında həll edilir.

## X fəsil.
## Beynəlxalq əməkdaşlıq və yekun müddəaları

Maddə 37. **Fitosanitar nəzarəti sahəsində beynəlxalq əməkdaşlıq**

Fitosanitar nəzarəti sahəsində beynəlxalq əməkdaşlıq Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə əsasən həyata keçirilir.

Maddə 38. **Qanunun qüvvəyə minməsi**

38.1. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

38.2. Bu Qanun qüvvəyə mindiyi gündən "Btki karantini haqqında" Azərbaycan Respublikasının Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997-ci il, № 2, maddə 103; 1998-ci il, № 2, maddə 83; 2002-ci il, № 5, maddə 241, №12, maddə 706; 2004-cü il, № 2, maddə 57), "Bitki mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997-ci il, № 4, maddə 274; 2002-ci il, № 5, maddə 241) və "Pestisidlər və aqrokimyəvi maddələr haqqında" Azərbaycan Respublikasının Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997-ci il, №5, maddə 396; 2003-cü il, № 1, maddə 7) qüvvədən düşmüş hesab edilsin.

*Azərbaycan Respublikasının Prezidenti* *İlham ƏLİYEV*

Bakı şəhəri, 12 may 2006-cı il
№ 102-IIIQ
«Azərbaycan» qəzetində dərc edilmişdir (4 avqust 2006-cı il, № 172)

## Toxumçuluq haqqında
## Azərbaycan Respublikasının Qanunu

Bu Qanun Azərbaycan Respublikasında toxum istehsalının, tədarükünün və istifadəsinin hüquqi əsaslarını müəyyən edir.

### I fəsil.
### Ümumi müddəalar

Maddə 1. **Əsas anlayışlar**

Bu Qanunda istifadə edilən terminlər və anlayışlar aşağıdakı mənaları ifadə edir:

- **«toxumçuluq»** — kənd təsərrüfatı, meşə, dərman və bəzək bitkilərinin çoxaldılması məqsədilə istifadə edilən toxumların istehsalı, tədarükü və istifadəsinə yönəldilmiş elmi, aqrotexniki və təşkilati tədbirlər sistemi;
- **«toxum»** — sortun təkrar istehsalı üçün istifadə edilən bitkilərin generativ (toxum) və vegetativ (çilik, ting, şitil, soğanaq, kök yumruları və s.) orqanı;
- **«orijinal toxum»** — ilkin toxumçuluq mərhələlərində bitki nəsillərinin seleksiya yolu originatorun nəzarəti altında ilə seçilməsi və qiymətləndirilməsi nəticəsində alınmış toxum;
- **«super elit toxum»** — orijinal toxumun çoxaldılmasından alınmış toxum;
- **«elit toxum»** — super elit toxumun çoxaldılmasından alınmış toxum;
- **«reproduksiyalı toxum»** — elit toxumun ardıcıl çoxaldılmasından alınmış toxum;
- **«sort»** — eyni genotip, genotiplər qrupu və fenotiplərin əlamətlərini səciyyələndirən, həmin botaniki taksona aid digər bitki qruplarından ən azı bir əlamətlə fərqlənən oxşar bitkilər qrupu;
- **«sortdəyişmə»** — bitki sortlarının yeni, daha məhsuldar və keyfiyyətli sortlarla əvəz olunması;
- **«sorttəzələmə»** — sorttəmizliyi və bioloji keyfiyyətləri pisləşmiş toxumların həmin sortun yüksək reproduksiyalı və keyfiyyətli toxumları ilə əvəz edilməsi;
- **«aprobasiya»** — toxumluq əkinlərin sorttəmizliyinin, xəstəliyə yoluxmasının, ziyanvericilər tərəfindən zədələnməsinin və alaqlanma dərəcəsinin təyini;
- sortluq və səpin keyfiyyətləri — toxumun sorta məxsus genetik təmizliyi və səpinə yararlılığının kompleks göstəriciləri;
- **«ticarət dövriyyəsinə daxil olma»** — satış məqsədilə tədarük olunan, saxlanılan və mübadilə üçün istifadə edilən toxumlar;
- **«dövlət reyestri»** — müəlliflik və patent hüququ mühafizə olunan bitki sortlarının dövlət qeydiyyat siyahısı;
- **«toxum istehsalçılarının reyestri»** — toxumçuluq fəaliyyəti ilə məşğul olmaq üçün attestasiyadan keçmiş fiziki və hüquqi şəxslərin qeydiyyat siyahısı (kənd bitkiləri toxumçuluğu sahəsində müvafiq olaraq - AzR Kənd Təsərrüfatı Nazirliyi).
- toxum partiyası—mənşəyinə və keyfiyyətinə görə eyni olan toxum kütləsi;
- originator—mühafizə olunan sortun əlamətlərinin qorunmasını təmin edən hüquqi və ya fiziki şəxs;
- aprobator—bitkilərin sortluq və toxumluq əkinlərində aprobasiya aparmaq hüququ olan fiziki şəxs;
- toxum istehsalçıları—dövlət reyestrinə daxil edilmiş sortların toxumunun istehsalı ilə məşğul olan hüquqi və fiziki şəxslər;

- qrunt nəzarəti—bitkilərin və onların toxumlarının konkret sorta mənsub olmasını müəyyənləşdirmək üçün xüsusi sahələrdə toxum səpməklə bitkilərin sortluq təmizliyinin müqayisəli təyini;
- laboratoriya üsulu ilə sortluq nəzarəti—laboratoriya müayinələrinin aparılması vasitəsilə toxumun sortluq təmizliyinin və onun müəyyən sorta mənsub olmasının təyin edilməsi.

Maddə 2. **Toxumçuluq haqqında Azərbaycan Respublikasının qanunvericiliyi**

Toxumçuluq haqqında Azərbaycan Respublikasının qanunvericiliyi bu Qanundan "Seleksiya nailiyyətləri haqqında" Azərbaycan Respublikasının Qanunundan və Azərbaycan Respublikasının digər qanunvericilik aktlarından ibarətdir.

Azərbaycan Respublikasının beynəlxalq müqavilələrində toxumçuluq üzrə müəyyən edilmiş qaydalar bu Qanunda nəzərdə tutulmuş qaydalara uyğun gəlmədikdə beynəlxalq müqavilələrin qaydaları tətbiq olunur.

Maddə 3. **Toxumçuluğun məqsəd və vəzifələri**

Toxumçuluğun məqsədi yüksək məhsuldarlığa və sabit irsi əlamətlərə malik, xəstəliyə, ziyanvericilərə və müxtəlif iqlim şəraitini dözümlü bitki sortları yetişdirmək və onların çoxaldılmasını təmin etməkdir.

Toxumçuluğun vəzifəsi dövlət reyestrinə daxil edilmiş bitki sortlarının sorttəmizliyini, bioloji və məhsuldarlıq keyfiyyətlərini saxlamaq üçün sortdəyişmə və sorttəzələməni həyata keçirməklə toxumların kütləvi artırılmasıdır.

Maddə 4. **Toxumçuluğun obyektləri və subyektləri**

Toxumçuluqda istifadə edilən bitki materialları, onların hibridləri, populyasiyaları, klonları, xətləri, toxumçuluğun obyektləridir.

Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada toxum istehsalı, tədarükü, ticarəti və istifadəsi ilə məşğul olan hüquqi və fiziki şəxslər toxumçuluğun subyektləridir.

Maddə 5. **Toxumçuluq subyektlərinin uçotu və qeydiyyatı**

Toxumçuluqla məşğul olan fiziki şəxslərin uçotu və hüquqi şəxslərin dövlət qeydiyyatı Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə uyğun olaraq həyata keçirilir.

Maddə 6. **Toxumçuluğun əsas prinsipləri**

Toxumçuluq fəaliyyəti aşağıdakı prinsiplər əsasında həyata keçirilməlidir:

- sortun səciyyəvi xüsusiyyətlərini təyin etməyə imkan verən fərqlilik, oxşarlıq, sabitlik və digər əlamətlərin qorunub saxlanması;
- toxum istehsalında təsdiq edilmiş becərilmə sxemlərinə riayət olunması;
- istifadə olunan sort üzərində müəllifin və patent sahibinin hüquqlarının qorunması;
- istifadə olunan toxumların sertifikatlaşdırılmasının məcburiliyi;
- sortun rayonlaşma qaydalarına əməl edilməsi.

## II fəsil.

## Toxumçuluğun dövlət idarəçiliyi

Maddə 7. **Dövlət toxumçuluq xidməti**

Azərbaycan Respublikasında dövlət toxumçuluq xidməti toxumçuluğun idarə edilməsindən və toxumçuluğa dövlət nəzarətindən ibarətdir və müvafiq icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilir.( Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi həyata keçirirlər)

Dövlət toxumçuluq xidmətinin fəaliyyəti və vəzifəli şəxslərin səlahiyyətləri müvafiq qaydada təsdiq olunmuş əsasnamələr və təlimatlarla müəyyən olunur.

Maddə 8. **Dövlət toxumçuluq xidmətinin hüquqları**

Dövlət toxumçuluq xidməti aşağıdakı hüquqlara malikdir :

- toxumçuluq subyektlərinin müvafiq qanunvericiliyə riayət etmələrinə nəzarəti həyata keçirmək;
- toxumlara sortluq və səpin keyfiyyətlərini təsdiq edən uyğunluq sertifikatları vermək;
- sortluq və səpin keyfiyyətlərini təyin etmək üçün toxum və bitki mənşəli məhsullardan nümunələr götürmək və onları təhlil etmək;
- dövlət standartlarına, texniki şərtlərə uyğun gəlməyən və keyfiyyət sənədləri olmayan toxumları çıxdaş etmək və onların toxumluq məqsədilə satılmasını qadağan etmək;
- toxumçuluq subyektlərini attestasiyadan keçirmək və qeydiyyata almaq;
- qanunvericilikdə nəzərdə tutulmuş qaydada toxumçuluq subyektlərindən sortun patent sahibi ilə lisenziya müqaviləsi bağlanmasını tələb etmək;
- toxumçuluq haqqında qanunvericiliyin pozulması barədə akt və təqdimatları təqsirli şəxslərin Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada məsuliyyətə cəlb edilməsi üçün prokurorluğa , məhkəməyə və ya müvafiq icra hakimiyyəti orqanlarına göndərmək;
- toxum istehsalı üzrə əlverişli şəraiti olan ərazilər müəyyən etmək;
- toxumçuluq sahəsində beynəlxalq təşkilatlarda Azərbaycan Respublikasının maraqlarını müdafiə etmək;
- müəyyən edilmiş qaydada toxumçuluq üzrə müəssisələr, idarələr və təşkilatlar yaradılması üçün təkliflər vermək;
- aprobatorların hazırlanmasını, onların ixtisasının artırılmasını və attestasiya edilməsini təşkil etmək;
- dövlət reyestrinə daxil edilmiş sortların orijinal, super elit, elit və reproduksiyalı toxumları ilə qrunt nəzarəti aparmaq;
- ölkə ərazisində seleksiya nailiyyətlərinin dövlət reyestrini aparmaq;
- qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

(«dövlət toxumçuluq xidməti»nin kənd təsərrüfatı, meşə və dərman bitkiləri toxumçuluğu sahəsində səlahiyyətlərini müvafiq olaraq Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi həyata keçirirlər)

Maddə 9. **Dövlət toxumçuluq xidmətinin vəzifələri**

Dövlət toxumçuluq xidməti aşağıdakı vəzifələri daşıyır:

- toxumçuluq subyektlərinin fəaliyyətini əlaqələndirmək;

- tələb və təkliflər nəzərə alınmaqla, dövlət yerli və sığorta toxum fondlarının yaradılması üçün təkliflər hazırlamaq;
- toxumçuluğa dair standartlar, normativlər, əsasnamələr və təlimatlar hazırlamaq, təsdiq etmək və ya onları səlahiyyətli orqanların təsdiqinə vermək;
- toxumçuluqda tətbiq edilən rəsmi dövlət sənədlərinin, kataloqların, sertifikatların, uçot-hesabat formalarının nəşrini təşkil etmək;
- toxumçuluq üzrə sərgilər və hərraclar keçirmək;
- toxumçuluq sahəsində beynəlxalq əməkdaşlığın və kooperasiyanın inkişaf etdirilməsini əlaqələndirmək;
- toxum bazarının konyukturunu öyrənmək və təhlil etmək;
- toxumçuluq ixtisası üzrə mütəxəssislər hazırlanmasını təşkil etmək;
- toxum istehsalçılarını standartlar, təlimatlar və digər normativ sənədlərlə təmin etmək;
- qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

(«dövlət toxumçuluq xidməti»nin kənd təsərrüfatı, meşə və dərman bitkiləri toxumçuluğu sahəsində səlahiyyətlərini müvafiq olaraq Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi həyata keçirirlər)

## III fəsil.
## Toxumçuluğun təşkili

Maddə 10. **Toxumçuluq sistemi**

Toxumçuluq sistemi orijinal, super elit, elit və reproduksiyalı toxumlar istehsalından, sığorta fondunun və dövlət toxum ehtiyatlarının yaradılmasından ibarətdir.

Müxtəlif bitki sortlarının toxum istehsalının xüsusiyyətləri toxumçuluq sisteminin yaradılması zamanı nəzərə alınır və müvafiq icra hakimiyyəti orqanların normativ aktları ilə tənzimlənir (nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanları»nın və «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir).

Maddə 11. **Toxum istehsalı**

Mühafizə olunan sortların toxumlarının istehsalı toxumçuluğun əsas prinsiplərinə riayət edilməsi şərtilə həyata keçirilir.

Orijinal, super elit və elit toxumların istehsalı sortun müəllifinin və ya patent sahibinin nəzarəti altında elmi-tədqiqat və tədris müəssisələrinin təcrübə təsərrüfatlarında, reproduksiyalı toxumların istehsalı dövlət və bu fəaliyyət növü ilə məşğul olan ixtisaslaşdırılmış özəl toxumçuluq subyektlərində həyata keçirilir. Sort müəllifləri qanunvericiliyə uyğun olaraq fərdi qaydada super elit və elit toxumların istehsalı ilə məşğul ola bilərlər.

Calaqaltı və calaqüstü» ağaclıqların yaradılması üçün xəstəliklərə və zərərvericilərə davamlı əkin materialları müvafiq elmi-tədqiqat müəssisələrində və ya müqavilə şərtləri ilə elmi-tədqiqat müəssisələrinin nəzarəti altında ixtisaslaşdırılmış təsərrüfatında istehsal olunur

Maddə 12. **Toxumçuluq subyektlərinin attestasiyası**

Toxumçuluqla məşğul olan hüquqi və fiziki şəxslər müvafiq qaydada təsdiq edilmiş əsasnaməyə uyğun olaraq dövlət toxumçuluq xidmətində attestasiyadan keçirlər və toxum

istehsalçılarının reyestrinə daxil edilirlər (nəzərdə tutulmuş «dövlət toxumçuluq xidməti»nin kənd təsərrüfatı, meşə və dərman bitkiləri toxumçuluğu sahəsində səlahiyyətlərini müvafiq olaraq Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi həyata keçirirlər).

Toxum istehsalçılarının reyestrinə daxil edilməmiş hüquqi və fiziki şəxslərin istehsal etdikləri toxumlara sortluq və səpin keyfiyyətlərini təsdiq edən uyğunluq sertifikatları verilmir.

Maddə 13. **Sorttəzələmə müddəti**

İstehsal edilən toxumların sorttəzələmə müddətini müəllifin və ya patent sahibinin tövsiyyəsinə əsasən müəyyən edir.

Maddə 14. **Toxumçuluq üzrə qapalı rayonlar**

Yüksək keyfiyyətli toxumlar yetişdirməyə əlverişli fitosanitar və texnoloji şərait yaratmaq məqsədilə razılığı ilə toxum istehsalı üzrə qapalı rayonlar müəyyən edə bilər.

Maddə 15. **Toxum fondları, onların yaradılması və istifadəsi**

Məhsul istehsalçılarını təmin etmək, dövlətin beynəlxalq müqavilələrini yerinə yetirmək, habelə təbii fəlakətə məruz qalmış bölgələrə köməklik göstərmək məqsədilə dövlət, yerli və sığorta toxum fondları yaradılır.

Toxum fondlarına dövlət reyestrinə daxil edilmiş sortların dövlət standartlarının tələblərinə cavab verən toxumları tədarük edilir.

Toxum fondlarının həcmi, tədarük, saxlanma və istifadə qaydaları müvafiq icra hakimiyyəti orqanları (AzR Nazirlər Kabineti) tərəfindən müəyyən edilir.

Toxum fondlarına toxum tədarükü müvafiq icra hakimiyyəti orqanları ilə toxumçuluq subyektləri arasında bağlanmış müqavilələr əsasında həyata keçirilir (nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanları»nın səlahiyyətlərini müvafiq olaraq Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi həyata keçirirlər).

Dövlət sığorta və yerli toxum fondlarına sifariş müvafiq icra hakimiyyəti orqanları tərəfindən verilir (nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanları»nın səlahiyyətlərini müvafiq olaraq Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi həyata keçirirlər).

Naxçıvan Muxtar Respublikasında dövlət və sığorta toxum fondlarının yaradılması və istifadəsi Naxçıvan Muxtar Respublikasının müvafiq icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilir («Naxçıvan Muxtar Respublikasının müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti həyata keçirir).

Dövlət, sığorta və yerli toxum fondları müvafiq icra hakimiyyəti orqanlarının sərəncamında olur(nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanları»nın səlahiyyətlərini müvafiq olaraq Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi həyata keçirirlər).

Sığorta toxum fondu hər il təzələnir.

Sığorta toxum fondunun müəyyən edilmiş müddətdə başqa məqsədlər üçün istifadəsi qadağandır.

Toxum fondlarının əmtəəlik məhsuldan yaradılmasına bir qayda olaraq yol verilmir. Müstəsna hallarda toxum fondlarının əmtəəlik məhsuldan yaradılması müvafiq icra hakimiyyəti orqanlarının qərarı ilə həyata keçirilə bilər («müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir).

## IV fəsil.
## Toxumçuluq müəssisələri və toxumçuluqda sahibkarlıq fəaliyyəti

Maddə 16. **Dövlət toxumçuluq müəssisələri**

Dövlət toxumçuluq müəssisələri öz fəaliyyətlərini təsərrüfat hesabı və özünümaliyyələşdirmə prinsipi ilə həyata keçirirlər. Toxumçuluğun inkişafını dəstəkləmək üçün dövlət büdcəsindən bu sahəyə məqsədli vəsaitlər ayrıla bilər. Dövlət toxumçuluq xidməti belə müəssisələrə yalnız onların əsas fəaliyyət istiqamətlərinə aid məhsullara sifariş müəyyən edir, digər məhsullara müəssisə sərbəst sərəncam verir.

Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş hallar istisna olmaqla dövlət toxumçuluq müəssisələrinin fəaliyyətinə və idarə edilməsinə dövlət bələdiyyə və digər orqanların qarışmasına yol verilmir.

Aqrar islahatı zamanı dövlət toxumçuluq müəssisələrinin təşkilati-hüquqi formasının dəyişdirilməsi “Aqrar islahatının əsasları haqqında” və “Sovxoz və kolxozların islahatı haqqında” Azərbaycan Respublikasının Qanunları ilə tənzimlənir.

Maddə 17. **Qeyri-dövlət toxumçuluq müəssisələri**

Qeyri-dövlət toxumçuluq müəssisələrinin təşkilati-hüquqi formalarını təsisçilər müstəqil müəyyən edir, onların yaradılması və fəaliyyəti Azərbaycan Respublikasının qanunvericiliyi ilə tənzimlənir.

Maddə 18. **Fərdi toxumçuluq fəaliyyəti**

Fərdi toxumçuluq fəaliyyəti ilə məşğul olmaq istəyən fiziki şəxslər bu qanunda nəzərdə tutulmuş hal istisna olmaqla, yalnız reproduksiyalı toxumların istehsalı və satışı ilə məşğul ola bilərlər.

Maddə 19. **Toxumçuluq subyektlərinin hüquqları**

Mülkiyyət formasından asılı olmayaraq toxumçuluq fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslər aşağıdakı hüquqlara malikdirlər:

- sahibkarlıq fəaliyyətini müstəqil qurmaq;
- qanunvericilikdə nəzərdə tutulmuş hallar istisna olmaqla, istehsal edilən məhsullara sahiblik, istifadə və sərəncam hüquqlarını sərbəst həyata keçirmək;
- dövlət toxumçuluq xidmətindən güzəştli şərtlərlə toxum, uçot-hesabat sənədləri almaq, istehsal etdikləri məhsullara keyfiyyət sənədləri verilməsini tələb etmək;
- toxumçuluq sahəsində keçirilən konfranslarda, simpoziumlarda, sərgilərdə və hərraclarda iştirak etmək;
- toxumçuluqda tətbiq edilən maliyyə-kredit, gömrük və başqa güzəştlərdən istifadə etmək;
- qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

Maddə 20. **Toxumçuluq subyektlərinin vəzifələri**

Toxumçuluq subyektlərinin vəzifələri aşağıdakılardır:

- toxumçuluğa dair Azərbaycan Respublikasının qanunvericiliyinə əməl etmək;
- toxumçuluğun əsas prinsiplərinə riayət etmək;
- patent sahibi ilə müəyyən edilmiş qaydada bitki sortlarının toxumlarından istifadəyə görə haqq ödənilməsini nəzərdə tutan lisenziya müqaviləsi bağlamaq;
- ticarət dövriyyəsinə daxil edilən toxumların sənədlərində göstərilmiş sortluq və səpin keyfiyyətlərinə təminat vermək;
- dövlət standartları ilə müəyyən edilmiş müddətdə toxum nümunələrini saxlamaq;
- hər bir sort üzrə, müəyyən edilmiş formada, toxumların sortluq və səpin keyfiyyətlərinin sənədləşdirilməsini aparmaq və onları bir il müddətində saxlamaq;
- bitki karantini tələblərinə əməl etmək;
- müəyyən edilmiş qaydada uçot-hesabat işləri aparmaq və müvafiq orqanlara məlumat vermək;
- qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

## V fəsil.
## Toxumların dövriyyəsi

Maddə 21. **Toxumların dövriyyəyə daxil edilməsi**

Azərbaycan Respublikasında dövlət reyestrində qeydiyyata alınmış, sortluq və səpin keyfiyyətləri dövlət standartlarının tələblərinə cavab verən bitki sortlarının toxumları dövriyyəyə daxil edilir.

Maddə 22. **Toxumların sortluq və səpin keyfiyyətlərinin sertifikatlaşdırılması**

Toxumların sortluq və səpin keyfiyyətlərinin normaları müvafiq dövlət standartları ilə müəyyən edilir.

Toxumluq əkinlərin tarla müayinəsi, aprobasiyası, toxum nümunələrinin təhlili müvafiq qaydada təsdiq edilmiş, təlimatlar əsasında dövlət toxumçuluq xidməti tərəfindən aparılır («dövlət toxumçuluq xidməti»nin kənd təsərrüfatı, meşə və dərman bitkiləri toxumçuluğu sahəsində səlahiyyətlərini müvafiq olaraq Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi həyata keçirirlər).

Toxumların laboratoriya təhlili dövlət toxumçuluq xidməti laboratoriyalarında aparılır(«dövlət toxumçuluq xidməti»nin kənd təsərrüfatı, meşə və dərman bitkiləri toxumçuluğu sahəsində səlahiyyətlərini müvafiq olaraq Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi həyata keçirirlər).

Dövlət standartlarının tələblərinə cavab verən toxumlara dövlət toxumçuluq xidməti tərəfindən sortluq və səpin keyfiyyətlərini təsdiq edən uyğunluq sertifikatları verilir («dövlət toxumçuluq xidməti»nin kənd təsərrüfatı, meşə və dərman bitkiləri toxumçuluğu sahəsində səlahiyyətlərini müvafiq olaraq Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi həyata keçirirlər).

Dövlət standartlarına cavab verməyən toxumlara təhlillərin nəticəsini əks etdirən vəsiqələr verilir.

Maddə 23. **Toxumların qablaşdırılması və etiketləşdirilməsi**

Ticarət dövriyyəsinə daxil edilmiş toxumlar müvafiq qaydada qablaşdırılır və etiketləşdirilir.

Etiketdə toxumun keyfiyyəti haqqında tam məlumatlar verilir.

Kimyəvi və bioloji preparatlarla işlənmiş toxumların qablarında müvafiq xəbərdarlıq yazıları olur.

Etiketdə və ya müşayiətedici sənədlərdə toxumların istifadəsi üzrə təhlükəsizlik qaydaları haqqında məlumatlar olur.

Maddə 24. **Toxumların ticarət dövriyyəsinə daxil edilməsi**

Azərbaycan Respublikasında rayonlaşmış, sortluq və səpin keyfiyyətlərini təsdiq edən uyğunluq sertifikatı və fitosanitar sertifikatı olan bitki sortlarının toxumları ticarət dövriyyəsinə daxil edilir.

Aşağıdakı toxumların ticarət dövriyyəsinə daxil edilməsinə yol verilmir:

- rayonlaşmamış sortların;
- sortluq və səpin keyfiyyətlərini təsdiq edən uyğunluq sertifikatı və fitosanitar sertifikatı olmayan toxumların;
- qablaşdırılmamış və etiketləşdirilməmiş toxumların;
- sortluq və səpin keyfiyyətlərini təsdiq edən uyğunluq sertifikatının müddəti qurtarmış toxumların;
- sort qarışığı olan toxumların.

Maddə 25. **Toxumların karantin mühafizəsi**

Toxumların karantin obyektlərindən mühafizəsi Azərbaycan Respublikasının fitosanitar nəzarəti haqqında qanunvericilik aktlarına uyğun həyata keçirilir.

Maddə 26. **Toxumların əldə edilməsi, istifadəsi və satışı**

Toxumların əldə edilməsi, istifadəsi və satışı mühafizə olunan sortun patent sahibi ilə bağlanmış lisenziya müqaviləsi əsasında həyata keçirilir.

Bitki sortlarının toxumlarından istifadəyə görə patent sahibi ilə bağlanmış lisenziya müqaviləsində patent sahibinə ödəniləcək haqqın miqdarı, müqavilənin şərtləri və tərəflərin məsuliyyəti göstərilməlidir. Sort müəllifinə və patent sahibinə toxumdan istifadəyə görə müvafiq olaraq mükafatın və haqqın ödənilməsi qaydası müvafiq icra hakimiyyəti organı (AzR Nazirlər Kabineti) tərəfindən müəyyən edilir.

Dövlət reyestrinə daxil edilməmiş bitki sortlarının toxumları aşağıdakı hallarda istifadə oluna bilər:

- beynəlxalq müqavilələr əsasında becərilərək Azərbaycan Respublikasından kənara ixrac edilməsi məqsədilə;
- müvafiq icra hakimiyyəti organın (AzR Nazirlər Kabinetinin) qərarına əsasən;
- seleksiya, tədqiqat, sınaq və sərgilərdə nümayiş etdirmək məqsədilə;
- ~~əmtəəlik məhsul emalı məqsədilə;~~
- ~~istehsalçıların daxili ehtiyaclarını ödəmək məqsədilə (kənara satmamaq şərtilə).~~

Maddə 27. **Toxumların idxal və ixracı**

Dövlət reyestrində qeydiyyatdan keçmiş sortluq və səpin keyfiyyətlərini təsdiq edən uyğunluq sertifikatı və fitosanitar sertifikatı olan toxumlar Azərbaycan Respublikasına idxal oluna bilər.

Dövlət reyestrində qeydiyyata alınmamış sortların toxumları yalnız seleksiya, tədqiqat, sınaq və sərgilərdə nümayiş etdirmək məqsədilə idxal oluna bilər. Gen mühəndisliyi əsasında alınmış bitki toxumlarının (genetik dəyişdirilmiş və ya genetik modifikasiya edilmiş orqanizmlərin) Azərbaycan Respublikasına idxalına icazə verilmir. Bu toxumların gətirilməsinə yalnız müvafiq icra hakimiyyəti organı (AzR Nazirlər Kabineti) müəyyən etdiyi müstəsna hallarda və qaydada yol verilə bilər.

Toxumların karantin icazəsi olmayan vasitələrlə idxal və ixracına yol verilmir.

Əməkdaşlıq müqavilələrində başqa şərtlər nəzərdə tutulmamışdırsa, toxumların ixrac və idxal edilməsində beynəlxalq sertifikatların göstəriciləri qəbul edilir.

İxrac edilən toxumların sortluq və səpin keyfiyyətlərinin ekspertizası Beynəlxalq Toxum Assosiasiyasının (İSTA) qəbul etdiyi qaydalara uyğun aparılır.

## VI fəsil.
## Toxumçuluğa dövlət himayəsi və qanunvericiliyin pozulmasına görə məsuliyyət

Maddə 28. **Toxumçuluğun stimullaşdırılması**

Azərbaycan Respublikasının qanunvericilik aktlarında güzəştli investisiya, qiymət, kredit və vergi siyasəti vasitəsilə toxumçuluğa dövlət himayəsi həyata keçirilir.

Toxum fondlarının yaradılması üçün qanunvericilikdə nəzərdə tutulmuş qaydada lazımi maliyyə ehtiyatları ayrılır.

Toxum fondlarının dəyərinin 50 faizi istehsalçılara qabaqcadan ödənilir.

Müvafiq icra hakimiyyəti organı (AzR Nazirlər Kabineti) tərəfindən müəyyən edilmiş kvota əsasında elmi-tədqiqat və tədris müəssisələrinin təcrübə təsərrüfatlarında tələb olunan miqdarda orijinal, super elit və elit toxumların istehsalına çəkilən xərclər dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilir.

Toxumçuluq və tinglik təsərrüfatlarından satılan 1-ci və 2-ci reproduksiyalı toxumlara və tinglərə görə dövlət büdcəsindən təsərrüfatlara subsidiya ödənilir. Subsidiyanın ödənilməsi qaydası müvafiq icra hakimiyyəti organı (AzR Nazirlər Kabineti) tərəfindən müəyyən edilir.

Toxumluq bitkilər qanunvericiliyə uyğun olaraq dövlət tərəfindən sığortalanır.

Karantin obyektlərinin yayılmasının qarşısını almaq üçün profilaktiki və ləğvedici tədbirlərin aparılması nəticəsində məhv edilən toxumlara və toxumluq əkinlərə çəkilən xərclər dövlət tərəfindən kompensasiya edilir.

Maddə 29. **Toxumçuluğun elmi təminatı**

Azərbaycan Respublikasında toxumçuluğun elmi təminatı müvafiq elmi-tədqiqat və ali tədris müəssisələri tərəfindən həyata keçirilir və məqsədli proqramlar əsasında dövlət tərəfindən maliyyələşdirilir.

Maddə 30. **Toxumçuluq haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət**

Karantin obyekti ilə yoluxmuş, dövlət standartlarına uyğun gəlməyən toxumların əkini, səpini, tədarükü və satışı:

- sortluq və səpin keyfiyyətlərini təsdiq edən uyğunluq sertifikatı və fitosanitar sertifikatı olmayan toxumların idxalı, ixracı və ticarət dövriyyəsinə daxil edilməsi;
- toxum partiyasının keyfiyyətinin qiymətləndirilməsi qaydalarına əməl edilməməsi, yaxud keyfiyyət göstəricilərinin bilərəkdən təhrif olunması;
- lisenziya müqaviləsi bağlanmadan bitki sortlarının toxumlarından istifadə edilməsi;
- toxumçuluğun əsas prinsiplərinə riayət edilməməsi;
- toxumçuluqda tətbiq edilən uçot-hesabat sənədlərinin aparılmasında saxtakarlığa yol verilməsi və qanunvericiliyin pozulmasına yönəldilmiş digər hallar Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən məsuliyyətə səbəb olur.

Toxumçuluq haqqında qanunvericiliyin pozulmasında təqsirkar olan vəzifəli şəxslər və vətəndaşlar Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

*Azərbaycan Respublikasının Prezidenti* *Heydər ƏLİYEV.*

Bakı şəhəri, 11 mart 1997-ci il.
№ 257-IQ.
«Azərbaycan» qəzetində dərc edilmişdir (15 aprel 1997-ci il, № 72)

## Heyvanlar Aləmi Haqqında

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDAN ÇIXARIŞ

Heyvanlar aləmi təbii mühitin və müxtəlifliyin əsas komponentlərindən biri, ölkənin milli sərvəti, əhalinin mənəvi və estetik tələbat mənbəyi olaraq elmi-tədqiqat obyekti, xammal və yeyinti məhsulları kimi istifadə edilir və qorunur.

Bu qanun Azərbaycan Respublikasında heyvanlar aləminin mühafizəsinin və istifadəsinin hüquqi əsaslarını müəyyən edir.

### I fəsil
### ÜMUMİ MÜDDƏALAR

Maddə 1. **Əsas termin və anlayışlar**

Bu qanunda istifadə edilən termin və anlayışlar aşağıdakı mənaları ifadə edir:

heyvanlar aləmi - Azərbaycan Respublikasının bütün ərazisində, o cümlədən Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində, quruda, suda, torpaqda və havada təbii olaraq sərbəst, yarımsərbəst və qeyri-sərbəst şəraitdə daimi, müvəqqəti və köçəri yaşayan vəhşi heyvan növlərinin kəmiyyət və keyfiyyət məcmusu;

populyasiya - heyvan növünün sərbəst nəsil verə bilən coğrafi, ekoloji və elementar fərdlər qrupu;

heyvanlar aləminin yaşayış mühiti - heyvanların suda, quruda, torpaqda və havada təbii sərbəstlik şəraitində məskunlaşdığı mühit;

heyvanlar aləmindən istifadə - insanların maddi və mənəvi tələbatının ödənilməsi məqsədilə heyvanlar aləmi obyektlərinin təbii mühitdən ayrılmaqla və ya ayrılmamaqla öyrənilməsi, yetişdirilməsi, artırılması, ovlanması və digər fəaliyyət növləri;

heyvanlar aləminin mühafizəsi - heyvanlar aləmi obyektlərinin bioloji müxtəlifliyinin və həyat fəaliyyətinin qorunub saxlanması;

heyvanlar aləminin istifadəçiləri - Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş qaydada heyvanlar aləmi obyektlərindən istifadə edən fiziki və hüquqi şəxslər.

Maddə 2. **Heyvanlar aləmi haqqında Azərbaycan Respublikasının qanunvericiliyi**

Heyvanlar aləmi haqqında Azərbaycan Respublikasının qanunvericiliyi bu qanundan, Azərbaycan Respublikasının təbiəti mühafizə qanunvericiliyindən və digər qanunvericilik aktlarından ibarətdir.

Kənd təsərrüfatı və ev heyvanlarının, başqa əhilləşdirilmiş heyvanların mühafizəsi və istifadəsi qaydaları Azərbaycan Respublikasının müvafiq qanunvericilik aktları ilə tənzimlənir.

Heyvanlar aləminin və onların yaşayış mühitinin mühafizəsi və istifadəsi ilə əlaqədar meydana çıxan su, torpaq, meşə, mülkiyyət, təbiəti mühafizə və digər münasibətlər bu qanun nəzərə alınmaqla Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə tənzimlənir.

Maddə 5. **Heyvanlar aləminin obyektləri üzərində mülkiyyət**

Azərbaycan Respublikasının ərazisində heyvanlar aləmi hər hansı fiziki və ya hüquqi şəxslərin hüquqlarına və mənafelərinə xələl gətirmədən dövlətə mənsubdur və onun mülkiyyətidir.

Azərbaycan Respublikasının xüsusi mühafizə olunan təbiət ərazilərində və obyektlərində, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində, digər su obyektlərində, ov yerlərində və meşə fondu sahələrində təbii sərbəstlik şəraitində olan heyvanlar aləminin obyektləri dövlət əhəmiyyətli təbii sərvətlərə aid edilir.

Dövlət əhəmiyyətli təbii sərvətlərə aid edilən heyvanlar aləmi obyektlərinin növləri müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Təbii sərbəstlik şəraitində və ya təbii mühitdən ayrılıb, yarımsərbəst və ya qeyri-sərbəst şəraitdə yetişdirilmiş (alınmış), yaxud qanunvericiliklə icazə verilən digər yollarla əldə edilmiş vəhşi heyvanlar və heyvanlar aləminin digər obyektləri bələdiyyə mülkiyyətində və ya xüsusi mülkiyyətdə ola bilərlər.

Heyvanlar aləmi obyektlərinin bələdiyyə mülkiyyəti və ya xüsusi mülkiyyət üçün əldə edilməsinin (ümumi istifadə qaydasında əldə edilməsindən başqa) qanuniliyi müvafiq sənədlərlə rəsmiləşdirilməlidir.

Bələdiyyə və ya xüsusi mülkiyyət hüququnda ola bilən heyvan növlərinin sənədlərinin forması və siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Heyvanlar aləminin obyektləri üzərində bələdiyyə və ya xüsusi mülkiyyət hüququ qanunvericilik aktlarında nəzərdə tutulmuş qaydada heyvanlar aləminin mühafizəsinin xeyrinə məhdudlaşdırıla bilər.

Xüsusi təbii mühafizə, elmi və estetik dəyərli heyvanlar aləminin obyektləri, habelə Azərbaycan Respublikasının Qırmızı kitabına daxil edilmiş heyvan növləri (qeyri-sərbəst şəraitdə yetişdirilmiş (alınmış) və ya Azərbaycan Respublikasının hüdudlarından kənarda qanunvericilikdə nəzərdə tutulmuş qaydada bələdiyyə mülkiyyəti və ya xüsusi mülkiyyət üçün əldə edilmiş heyvanlardan başqa) bələdiyyə mülkiyyətinə və ya xüsusi mülkiyyətə aid edilə bilməzlər.

Maddə 6. **Heyvanlar aləminin mühafizəsi və istifadəsi ilə bağlı hüquq münasibətlərinin iştirakçıları**

Heyvanlar aləminin mühafizəsi və istifadəsi ilə bağlı hüquq münasibətlərinin iştirakçıları Azərbaycan Respublikası, Naxçıvan Muxtar Respublikası, bələdiyyələr, Azərbaycan Respublikasının və xarici dövlətlərin hüquqi şəxsləri, vətəndaşları və vətəndaşlığı olmayan şəxslərdir.

Heyvanlar aləminin mühafizəsi və istifadəsi ilə bağlı hüquq münasibətlərində Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası adından öz səlahiyyətləri daxilində müvafiq icra hakimiyyəti orqanları iştirak edirlər.

Bələdiyyələr heyvanlar aləminin mühafizəsi və istifadəsi ilə bağlı hüquq münasibətlərində, onların statusunu müəyyən edən qanunvericilik aktları ilə verilən səlahiyyətlər daxilində iştirak edirlər.

Azərbaycan Respublikasının və xarici dövlətlərin hüquqi şəxsləri, vətəndaşları və vətəndaşlığı olmayan şəxslər heyvanlar aləminin mühafizəsi və istifadəsi ilə bağlı hüquq münasibətlərində heyvanlar aləminin subyektləri kimi iştirak edirlər.

## II fəsil
## HEYVANLAR ALƏMİNİN MÜHAFİZƏSİ VƏ İSTİFADƏSİ SAHƏSİNDƏ İDARƏETMƏ

Maddə 7. **Heyvanlar aləminin mühafizəsi və istifadəsi sahəsində idarəetmənin əsas prinsipləri**

Heyvanlar aləminin mühafizəsi və istifadəsi sahəsində idarəetmə aşağıdakı prinsiplərə əsaslanır:

heyvanlar aləminin mühafizəsi, artırılması və istifadəsi üzərində dövlət nəzarətinin zəruriliyi;

vəhşi heyvanların yaşayış mühitinin, miqrasiya yollarının, qışlama yerlərinin, nəsilartırma və çoxalma şəraitinin mühafizəsi;

heyvanlar aləmindən istifadənin humanist prinsiplərə uyğun olaraq həyata keçirilməsi;

heyvanlar aləmindən istifadə hüququnun su obyektlərindən, meşələrdən və digər təbii sərvətlərdən istifadə hüququndan ayrılması;

heyvanlar aləminin və onların yaşayış mühitinin mühafizəsi istiqamətində fəaliyyət növlərinə dövlət himayəsi;

heyvanlar aləmindən istifadənin ödənişli olması və limitləşdirilməsi;

heyvanlar aləminin mühafizəsi və istifadəsi üzərində nəzarət funksiyaları ilə istifadə fəaliyyəti funksiyalarının ayrılması;

əhalinin sağlamlığına, təbiətə və iqtisadiyyata ziyan vurulmasının qarşısının vaxtında alınması məqsədilə heyvanların sayının tənzimlənməsi;

heyvanlar aləminin və onların yaşayış mühitinin vəziyyətinə zərərli təsir göstərə bilən müəssisə və obyektlərin ekoloji ekspertizasının aparılması.

Maddə 8. **Heyvanlar aləminin mühafizəsi və istifadəsi sahəsində idarəetmə sistemi**

Heyvanlar aləminin mühafizəsi və istifadəsi sahəsində idarəetmə sisteminə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları, Naxçıvan Muxtar Respublikasının müvafiq icra hakimiyyəti orqanı, bələdiyyələr və ictimai təşkilatlar daxildir.

## III fəsil
## HEYVANLAR ALƏMİNDƏN İSTİFADƏ

Maddə 12. **Heyvanlar aləmindən istifadə formaları**

Heyvanlar aləmindən istifadə mülkiyyət, ümumi və xüsusi istifadə hüquqları əsasında həyata keçirilir.

Heyvanlar aləmindən ümumi istifadə, idman və həvəskar balıq ovu istisna olmaqla, vəhşi heyvanları təbii mühitdən ayırmadan insanların həyati vacib tələbatlarını (estetik, sağlamlıq, turizm və rekreasiya və s.) təmin etmək məqsədilə ödənişsiz həyata keçirilir.

Heyvanlar aləmindən ümumi istifadə zamanı vəhşi heyvanlar məhv edilməməli, onların yaşayış mühitinə və nəsilartırma yerlərinə ziyan vurulması qadağan edilir.

Heyvanlar aləmindən xüsusi istifadəyə vəhşi heyvanları təbii mühitdən ayırmaqla həyata keçirilən bütün istifadə növləri aid edilir.

Heyvanlar aləmindən xüsusi istifadə ödənişlidir və müvafiq icra hakimiyyəti orqanları tərəfindən verilən xüsusi icazə sənədləri əsasında həyata keçirilir.

Bu tələblər su obyektlərinin, torpaq və meşə mülkiyyətçilərinin və istifadəçilərinin ərazilərində məskunlaşan heyvanlar aləminin obyektlərinə də şamil edilir.

Heyvanlar aləmindən ümumi və xüsusi istifadə qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Maddə 13. **Heyvanlar aləmindən istifadə növləri**

Bu qanunun, Azərbaycan Respublikasının digər qanunvericilik aktlarının tələblərinə əməl etmək şərtilə heyvanlar aləminin obyektlərindən istifadənin aşağıdakı növləri həyata keçirilə bilər:
ovçuluq;
balıq ehtiyatlarından istifadə;
heyvanlar aləmi obyektlərindən elmi-tədqiqat, estetik, mədəni-maarif, təlim-tərbiyə, digər məqsədlər üçün istifadə;
vəhşi heyvanların yarımsərbəst və qeyri-sərbəst şəraitdə saxlanması, yetişdirilməsi və artırılması məqsədilə tutulması;
heyvanlar aləmi obyektlərinin faydalı funksiyalarından istifadə edilməsi (bitkilərin tozlanması, ətraf mühitin təbii sanitarı və s.);
heyvanlar aləmindən onların həyat fəaliyyətini təşkil edən məhsulların əldə edilməsi məqsədilə istifadə olunması.
Azərbaycan Respublikasının qanunvericiliyi ilə heyvanlar aləmi obyektlərinin digər istifadə növləri də müəyyən oluna bilər.

Maddə 14. **Heyvanlar aləmindən istifadə hüququnun əldə edilməsi**

Heyvanlar aləmindən istifadə hüququ Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada əldə edilir.
Heyvanlar aləmindən istifadənin xüsusi icazə tələb edən növləri müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Maddə 15. **Ovçuluq**

Əhalinin maddi və mənəvi, iqtisadiyyatın xammal, material və digər tələbatlarının ödənilməsi məqsədilə təbii sərbəstlik və ya yarımsərbəst şəraitində daimi, müvəqqəti və köçəri yaşayan, habelə təsərrüfat subyektləri tərəfindən yetişdirilib ov yerlərinə buraxılan ovçuluq obyektlərinə aid edilmiş vəhşi heyvanların izlənilməsi, təqib edilməsi, tutulması və vurulması ovçuluq hesab olunur.
Ov ödənişlidir və müvafiq icra hakimiyyəti orqanları tərəfindən verilmiş icazə və ovçuluq biletləri əsasında həyata keçirilir. Ov icazələrinin verilməsi üçün dövlət rüsumu ödənilir.
Ovçuluq fəaliyyəti Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada müvafiq icra hakimiyyəti orqanı tərəfindən ovçuluq cəmiyyətləri, fiziki və hüquqi şəxslər üçün ayrılmış ov yerlərində həyata keçirilir.
Ovçuluq təsərrüfatının təşkili və aparılması məqsədilə vəhşi heyvanların yaşadığı, miqrasiya etdiyi və nəsil artırdığı ərazilər ovçuluq yerləri kimi istifadə edilir.
Vəhşi heyvanların ov obyektlərinə aid edilməsi, ov yerlərinin ayrılması, ovçuluq təsərrüfatının təşkili və onun həyata keçirilməsi qaydaları Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə tənzimlənir.

Maddə 17. **Ov və balıqçılıq obyektlərinə aid edilməyən vəhşi heyvanların tutulması və vurulması**

Ov və balıqçılıq obyektlərinə aid edilməyən vəhşi heyvanların tutulması və vurulması müvafiq icra hakimiyyəti orqanlarının xüsusi icazəsi ilə həyata keçirilə bilər.

Ov və balıqçılıq obyektlərinə aid edilməyən vəhşi heyvanların növləri, tutulması, vurulması və digər istifadə qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

## IV fəsil
## HEYVANLAR ALƏMİNİN MÜHAFİZƏSİ

Maddə 27. **Heyvanlar aləminin mühafizəsinin mahiyyəti**

Heyvanlar aləminin mühafizəsi heyvanlar aləmi obyektlərinin qorunub saxlanmasına, törəyib artmasına və səmərəli istifadəsinə yönəldilmiş hüquqi, iqtisadi, təşkilati və digər tədbirlər sisteminin məcmusudur. Heyvanlar aləminin mühafizəsini öz səlahiyyətləri daxilində heyvanlar aləminin mühafizəsi və istifadəsi sahəsində idarəetmə sisteminə daxil olan orqanlar həyata keçirirlər.

Maddə 28. **Heyvanlar aləminin obyektlərindən istifadə edilməsinə məhdudlaşdırmalar və qadağanlar**

Heyvanlar aləminin obyektlərindən istifadənin ayrı-ayrı növlərinin həyata keçirilməsi və heyvanların təbii mühitdən götürülməsi, onların qorunub saxlanması və törəyib artması məqsədilə bu qanunda və Azərbaycan Respublikasının digər qanunvericilik aktlarında nəzərdə tutulmuş qaydada müəyyən ərazidə və ya müəyyən müddətlər üçün məhdudlaşdırıla və ya qadağan edilə bilər.

Bu qanunun 15, 16, 17, 18, 21, 22-ci maddələrində nəzərdə tutulmayan məqsədlər üçün vəhşi heyvanların əldə edilməsinə yol verilmir.

Maddə 29. **Vəhşi heyvanların yaşayış mühitinin, çoxalma şəraitinin və miqrasiya yollarının mühafizəsi**

Fiziki və hüquqi şəxslər heyvanlar aləminin vəziyyətinə zərərli təsir göstərən və göstərə bilən hər hansı fəaliyyəti həyata keçirərkən heyvanların yaşayış mühitinin, çoxalma şəraitinin və miqrasiya yollarının mühafizəsini təmin etməlidirlər.

Yaşayış məntəqələri, müəssisələr, qurğular, boru kəmərləri, nəqliyyat magistralları, elektrik və rabitə-xətləri və başqa obyektlər yerləşdirilərkən, layihələşdirilərkən və tikilərkən, xam torpaqlar, bataqlıqlar, sahilboyu və kol-koslu ərazilər təsərrüfat dövriyyəsinə daxil edilərkən, meliorasiya, meşə-təsərrüfat, geoloji kəşfiyyat işləri aparılarkən, kənd təsərrüfatı heyvanlarının örüş və köç yerləri müəyyənləşdirilərkən, turist marşrutları, əhalinin istirahət yerləri təşkil edilərkən vəhşi heyvanların yaşayış mühitinin, çoxalma şəraitinin və miqrasiya yollarının qorunmasını təmin edən tədbirlər nəzərdə tutulmalı, həyata keçirilməli və zooekoloji dəyərli sahələrin toxunulmazlığı təmin edilməlidir.

Heyvanların və onların yaşayış mühitinin mühafizəsi tədbirləri müəyyən edilmədən belə obyektlərin istismara verilməsi və texnologiyanın tətbiq edilməsi qadağandır.

Heyvanların çoxalma yerlərində yüksək səs-küy mənbəyi olan partlayış və başqa işlərin görülməsi qanunvericiliklə məhdudlaşdırılır.

Qurumuş bitkilərin və ya onların qalıqlarının heyvanlar aləminin məskunlaşdığı yerlərdə yandırılmasına yalnız təsərrüfat zərurəti yarandığı hallarda müvafiq icra hakimiyyəti orqanının razılığı ilə yol verilir.

Nadir və nəsli kəsilmək təhlükəsi qarşısında olan vəhşi heyvan növlərinin yayıldığı ayrı-ayrı ərazilərin ekoloji vəziyyətinin qorunub saxlanması və yaxşılaşdırılması məqsədilə müvafiq icra hakimiyyəti orqanı Azərbaycan Respublikasının bütün ərazisi üçün müəyyən edilmiş normativlərdən daha ciddi ekoloji normalar tətbiq edə bilər.

Su obyektlərində vəhşi heyvanların yaşayış mühitinin vəziyyətinə zərərli təsir göstərə bilən hidrotexniki qurğuların istismarı, hidroloji və su sərfi rejiminin müəyyən edilməsi, habelə heyvanlar aləminin mühafizəsinə yönəlmiş digər tələblər, ovçuluq və balıqçılıq təsərrüfatlarının mənafeyi nəzərə alınmaqla həyata keçirilməlidir.

Maddə 36. **Bitki mühafizəsi vasitələrinin tətbiqi zamanı heyvanlar aləminin mühafizəsi**

Pestisidlər, herbisidlər, aqrokimyəvi maddələr, mineral gübrələr və kənd, meşə və su təsərrüfatında istifadə edilən başqa bitki mühafizəsi vasitələri tətbiq edilərkən heyvanların və onların yaşayış mühitinin mühafizəsi tələbləri nəzərə alınmalıdır.

Bitki mühafizəsi vasitələrinin tətbiq edilməsi, üsulları və siyahısı müvafiq icra hakimiyyəti orqanları ilə razılaşdırılmalıdır.

Heyvanların tələf olmasının və yaşayış mühitinin pisləşməsinin qarşısının alınması məqsədilə müvafiq icra hakimiyyəti orqanları bitki mühafizəsi vasitələrinin tətbiqi məhdudlaşdırılan və ya qadağan edilən ayrı-ayrı ərazilər müəyyən edə bilərlər.

Mikroorqanizmlərin yeni ştamlarının, bioloji aktiv maddələrin yaradılması, genetik dəyişilmiş orqanizmlərin yetişdirilməsi, başqa biotexnoloji məhsulların istehsalı yalnız dövlət ekoloji ekspertizasının müsbət rəyləri əsasında həyata keçirilir.

Heyvanlar aləminin məskunlaşdığı ərazilərdə göstərilən orqanizmlərin və maddələrin tətbiqi müvafiq icra hakimiyyəti orqanının icazəsi olmadan qadağan edilir.

Maddə 44. **Heyvanlar aləminin mühafizəsinə və istifadəsinə dövlət nəzarətini həyata keçirən müvafiq icra hakimiyyəti orqanlarının hüquqları**

Heyvanlar aləminin mühafizəsinə və istifadəsinə dövlət nəzarətini həyata keçirən müvafiq icra hakimiyyəti orqanlarının aşağıdakı hüquqları vardır:

qoruq və ov yerlərində heyvanlar aləminin obyektlərindən istifadə hüququna dair sənədləri yoxlamaq, nəqliyyat (üzən) vasitələrini saxlamaq, nəqliyyat vasitələrini və gəmiləri, ov alətlərini, əldə edilmiş məhsulları və başqa əşyaları yoxlamaq;

heyvanlar aləminin mühafizəsi və istifadəsi sahəsində pozuntu hallarını aradan qaldırmaq haqqında icrası məcburi olan göstərişlər vermək;

(Çıxarılıb)

heyvanlar aləmi haqqında qanunvericiliyi pozmuş şəxslərdən heyvanları əldə etmək üçün istifadə edilən nəqliyyat vasitələrini müvəqqəti saxlamaq, hüquqpozmaya səbəb olmuş alətləri, cihazları və əşyaları, qanunsuz əldə edilmiş məhsulları, habelə müvafiq sənədləri götürmək;

heyvanlar aləmi haqqında qanunvericiliyin pozulmasının qarşısının alınması və açılması üçün köməkçi vasitə kimi şəkilçəkmə, səsyazma, kino və video çəkilişləri aparmaq;

heyvanlar aləmi haqqında qanunvericiliyin pozulması ilə əlaqədar vətəndaşlardan və vəzifəli şəxslərdən şifahi və ya yazılı məlumatlar almaq;

heyvanlar aləminin mühafizəsi və istifadəsi sahəsində inzibati xəta haqqında protokollar tərtib etmək, cərimələmək və digər tədbirlər görmək.

Heyvanlar aləminin mühafizəsinə və istifadəsinə dövlət nəzarətini həyata keçirən müvafiq icra hakimiyyəti orqanlarının vəzifəli şəxslərinə xidməti vəzifəni yerinə yetirərkən xüsusi

geyim forması daşımaqla Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq xidməti silahı saxlamaq və gəzdirmək hüququ verilir.

Maddə 45. **Heyvanlar aləminin mühafizəsinə və istifadəsinə bələdiyyə nəzarəti**

Heyvanlar aləminin mühafizəsinə və istifadəsinə bələdiyyə nəzarəti təbiəti və mühafizə və bələdiyyələr haqqında Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilir.

Maddə 46. **Heyvanlar aləminin mühafizəsinə və istifadəsinə ictimai nəzarət**

Heyvanlar aləminin mühafizəsinə və istifadəsinə ictimai nəzarət Azərbaycan Respublikasının təbiəti mühafizə qanunvericiliyində nəzərdə tutulmuş qaydada həyata keçirilir.

*Azərbaycan Respublikasının Prezidenti* *HEYDƏR ƏLİYEV*

Bakı şəhəri, 4 iyun 1999-cu il
№ 675-IQ

## Ovçuluq haqqında
## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDAN
## ÇIXARIŞ

Bu Qanun Azərbaycan Respublikasının ərazisində ovçuluğun və ovçuluq təsərrüfatlarının təşkilinin, onların fəaliyyətinin həyata keçirilməsinin, habelə ov obyektlərinin mühafizəsinin, artırılmasının və istifadəsinin hüquqi əsaslanın müəyyən edir.

## I fəsil
## ÜMUMİ MÜDDƏALAR

Maddə 1. **Əsas termin və anlayışlar**

1.0. Bu Qanunda istifadə edilən termin və anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.0.1. ovçuluq - quruda və suda təbii sərbəstlik və yarımsərbəst şəraitində daimi, müvəqqəti və köçəri yaşayan, habelə təsərrüfat subyektləri tərəfindən yetişdirilib ov yerlərinə buraxılan suda-quruda yaşayanların, xəzdərililərin, sürünənlərin, quşların və məməlilərin (bundan sonra - vəhşi heyvanların) izlənilməsi, təqib edilməsi, tutulması və vurulması üzrə fəaliyyət növü;

1.0.2. ovçuluq təsərrüfatı - təbii sərbəstlik və yarımsərbəst şəraitində yaşayan və ya yetişdirilən vəhşi heyvanların ayrı-ayrı növlərinin qorunması və artırılması, habelə onların yetişdirilib ov yerlərinə buraxılması və ovçuluq məqsədilə təşkil edilmiş mühafizə rejimli təsərrüfat subyekti;

1.0.3. ov obyekti - qanunvericiliklə müəyyən edilmiş qaydada ovlanmasına icazə verilmiş təbii sərbəstlik və yarımsərbəst şəraitində xüsusi ayrılmış yerlərdə yaşayan, habelə ayrı-ayrı hüquqi və fiziki şəxslər tərəfindən yetişdirilib artırılan vəhşi heyvan növləri;

1.0.4. ov yerləri - ovçuluğun həyata keçirilməsinə və ovçuluq təsərrüfatlarının aparılmasına aid edilən, təbii sərbəstlik və yarımsərbəst şəraitində yaşa-yan, habelə ayrı-ayrı hüquqi və fiziki şəxslər tərəfindən yetişdirilib artırılan vəhşi heyvanların məskunlaşdığı torpaq sahələri, meşə, digər bitki və su ilə örtülü olan təbiət əraziləri;

1.0.5. təsərrüfat subyektləri - ovçuluq təsərrüfatlarının təşkilində və fəaliyyətində iştirak edən hüquqi və fiziki şəxslər;

1.0.6. ovçu - ovçuluq fəaliyyətini həyata keçirmək üçün müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada ovçuluq bileti və ov etmək üçün icazəsi olan fiziki şəxs;

1.0.7. ov aləti - həvəskar və idman ovunu həyata keçirmək üçün istifadə edilən ov silahları, ov itləri, ovçu quşları və başqa ov vasitələri;

1.0.8. həvəskar və idman ovu - ov məhsullarının əldə edilməsindən gəlir məqsədi daşımayan ov növü;

1.0.9. brakonyerlik - qanunvericiliklə müəyyən edilmiş qaydaların pozulması ilə ov aparılması və təbii sərbəstlik və yarımsərbəst şəraitində yaşayan vəhşi heyvanların hər hansı vasitə ilə icazəsiz ovlanması.

Maddə 2. **Ovçuluq haqqında Azərbaycan Respublikasının qanun-vericiliyi**

2.1. Ovçuluq haqqında Azərbaycan Respublikasının qanunvericiliyi bu Qanundan, «Heyvanlar aləmi haqqında» və «Ətraf mühitin mühafizəsi haqqında» Azərbaycan Respublikasının qanunlarından və onlara uyğun qəbul edilmiş digər normativ hüquqi aktlardan ibarətdir.

2.2. Ovçuluq təsərrüfatlarında vəhşi heyvanların yaşayış mühitinin mühafizəsi və istifadəsi ilə əlaqədar meydana çıxan su, torpaq, meşə, mülkiyyət, təbiəti mühafizə və digər münasibətlər bu Qanun nəzərə alınmaqla Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə tənzimlənir.

2.3. Su hövzələrində balıqların və digər su heyvanlarının sənaye, idman və həvəskar ovu, habelə elmi tədqiqat, nəzarət, təbii mühitə uyğunlaşdırılması üçün ovlanması balıqçılıq haqqında Azərbaycan Respublikasının qanunvericiliyi ilə tənzimlənir.

Maddə 3. **Ovçuluq haqqında qanunvericiliyin məqsədi**

Ovçuluq haqqında qanunvericiliyin məqsədi Azərbaycan Respublikasının ərazisində dövlət ov fondunu qoruyub saxlamaqla ovçuluq fəaliyyətini səmərəli təşkil etmək, təbii sərbəstlik və yarımsərbəst şəraitində daimi, müvəqqəti və köçəri yaşayan vəhşi heyvan növlərinin sayının tənzimlənməsini, mühafizəsini və artırılmasını, habelə onların yetişdirilib ov yerlərinə buraxılmasını və yaşayış yerlərinin qorunub saxlanmasını təmin etməkdir.

Maddə 4. **Ov obyektləri üzərində mülkiyyət və dövlət ov fondu**

4.1. Ovçuluq təsərrüfatlarında və digər ərazilərdə olan, habelə qanunvericilikdə nəzərdə tutulmuş qaydada ayrı-ayrı hüquqi və fiziki şəxslər tərəfindən istifadə olunan ov obyektləri dövlətə mənsubdur və onun mülkiyyətidir.

4.2. Vəhşi heyvan növlərinin ov obyektinə aid edilməsi və ovlanma limitləri müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

4.3. Azərbaycan Respublikasının ərazisində ov obyektinə aid edilmiş vəhşi heyvanlar dövlət ov fondunu təşkil edir. Dövlət ov fondunda vəhşi heyvanların növlərini və normasını (sayını) müvafiq icra hakimiyyəti orqanı elmi müəssisələrin rəyini nəzərə almaqla müəyyən edir.

4.4. Dövlət ov fondunun artırılması üçün ov obyektinə aid edilmiş vəhşi heyvanların təsərrüfat subyektləri tərəfindən yetişdirilib ov yerlərinə buraxılması qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

## II fəsil
## OVÇULUQ VƏ OVÇULUQ TƏSƏRRÜFATI SAHƏSİNDƏ İDARƏETMƏ

Maddə 7. **Ovçuluğun və ovçuluq təsərrüfatlarının təşkili və idarə edilməsi sahəsində dövlətin səlahiyyətləri**

7.1. Ovçuluğun və ovçuluq təsərrüfatlarının təşkili və idarə edilməsi sahəsində dövlətin səlahiyyətləri aşağıdakılardır:

7.1.1. ovçuluq təsərrüfatlarının, ov yerlərinin və ov obyektlərinin mühafizəsi və istifadəsi sahəsində dövlət siyasətini həyata keçirmək, müvafiq normativ hüquqi aktlar qəbul etmək, dövlət proqramlarını hazırlayıb təsdiq etmək;

7.1.2. ovçuluq və ovçuluq təsərrüfatlarının mühafizəsi və istifadəsi üzərində idarəetməni

və dövlət nəzarətini həyata keçirmək;

7.1.3. dövlət ov fondunun artırılması üçün ov obyektinə aid edilmiş vəhşi heyvanların təsərrüfat subyektləri tərəfindən yetişdirilib ov yerlərinə buraxılması qaydasını müəyyən etmək;

7.1.4. respublika və ya yerli əhəmiyyətli ovçuluq təsərrüfatlarını müəyyən etmək, onların təşkili və ləğv edilməsi barədə qərar qəbul etmək;

7.1.5. ovçuluq təsərrüfatlarının inkişafı və yerləşdirilməsi sxemlərini təsdiq etmək;

7.1.6. ov obyektinə aid edilmiş vəhşi heyvanların dövlət uçotunun, ovçuluq təsərrüfatlarının dövlət qeydiyyatının, dövlət ovçuluq kadastrının və ov obyektlərinin monitorinqinin aparılması qaydalarını müəyyən etmək;

7.1.7. ovçuluq biletinin formasını, qeydiyyatı və ovçuluq fəaliyyəti ilə məşğul olmaq istəyən şəxslərə verilməsi qaydalarını müəyyən etmək;

7.1.8. əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində ov etmək üçün icazənin verilməsi qaydasını müəyyən etmək;

7.1.9. ovçuluq təsərrüfatlarında vəhşi heyvanlardan istifadə limitlərini, istifadəyə görə ödəmə növlərini və dərəcələrini müəyyən etmək, ovçuluq işlərinin tənzimlənməsini həyata keçirmək;

7.1.10. ovçuluq təsərrüfatlarının mühafizəsi üzrə tədbirlərə yardım göstərmək;

7.1.11. təbii fəlakət və digər səbəblər nəticəsində dağılmış və ya məhv olmuş ovçuluq təsərrüfatlarının və ov yerlərinin bərpasını təşkil etmək;

7.1.12. ovçuluq və ovçuluq təsərrüfatı sahəsində beynəlxalq əməkdaşlığı həyata keçirmək.

7.2. Ovçuluq və ovçuluq təsərrüfatı sahəsində idarəetməni müvafiq icra hakimiyyəti orqanı həyata keçirir.

7.3. Ovçuluq və ovçuluq təsərrüfatı sahəsində idarəetməni həyata keçirən müvafiq icra hakimiyyəti orqanı ovçuluq təsərrüfatlarının təşkili, mühafizəsi, istifadəsi və bərpası işlərində hüquqi və fiziki şəxslərin, o cümlədən ictimai birliklərin rəy və təkliflərinə baxmalıdır.

Maddə 10. **Dövlət ovçuluq kadastrı və ov obyektlərinin monitorinqi**

10.1. Dövlət ovçuluq kadastrı ov yerlərinin statusu, onların coğrafi mövqeyi və sərhədləri, həmin ərazilərin və obyektlərin mühafizə rejimi, istifadəçiləri, ekoloji, elmi, iqtisadi, tarixi və mədəni əhəmiyyəti barədə zəruri məlumatların məcmusudur.

10.2. Dövlət ovçuluq kadastrı dövlət ov fondunun vəziyyətinin qiymətləndirilməsi və proqnozlaşdırılması, ovçuluq təsərrüfatlarının perspektiv inkişafı şəbəkəsinin müəyyən edilməsi, mühafizə rejiminə riayət olunmasına dövlət nəzarətinin gücləndirilməsi məqsədilə aparılır.

10.3. Ov obyektlərinin monitorinqi heyvanlar aləmi obyektlərinin dövlət monitorinqinin tərkib hissəsi olub, ov yerlərində vəhşi heyvanların yayılmasında, sayında, fiziki vəziyyətində və yaşayış mühitində baş verən dəyişikliklərin vaxtında aşkara çıxarılması və qiymətləndirilməsi məqsədilə həyata keçirilir.

10.4. Dövlət ovçuluq kadastrının və ov obyektlərinin monitorinqinin aparılması qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Maddə 18. **Ovçuların hüquq və vəzifələri**

18.1. Ovçular aşağıdakı hüquqlara malikdir:

18.1.1. ovçuluq təsərrüfatlarından və ov obyektlərindən qanunvericilikdə nəzərdə

tutulmuş qaydada istifadə etmək;

18.1.2. ovçular cəmiyyətinə üzv olmaq;

18.1.3. ov yerlərində ov alətlərindən istifadə etmək;

18.1.4. qanuni əldə edilən ov məhsullarına sahiblik etmək;

18.1.5. heyvanlar aləmi obyektlərinin istifadəsi üzrə Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

18.2. Ovçuların vəzifələri aşağıdakılardır:

18.2.1. ovu həyata keçirmək üçün müəyyən olunmuş qaydalara, normalara, limitlərə və müddətlərə əməl etmək;

18.2.2. hər il üçün ovçular cəmiyyətinə üzvlük haqqım vaxtında ödəmək;

18.2.3. ovçuluq bileti və ov etmək üçün verilən icazə əsasında ovçuluq təsərrüfatlarında qeydiyyatdan keçmək;

18.2.4. ov silahından qanunvericilikdə nəzərdə tutulmuş qaydada təyinatı üzrə istifadə etmək;

18.2.5. ov yerlərində ekoloji və sanitariya-gigiyena norma və qaydalarına riayət etmək;

18.2.6. ov yerlərində vəhşi heyvanların yaşayış mühitinin ekoloji vəziyyətinin pisləşməsinə yol verməmək;

18.2.7. ovçuluq təsərrüfatlarının mühafizəsi məsələləri üzrə ekoloji proqramların yerinə yetirilməsində iştirak etmək;

18.2.8. vəhşi heyvanlar arasında xəstəlik müşahidə edildikdə, onların yaşayış mühiti pisləşdikdə, heyvanların məhv olmaq təhlükəsi yarandıqda və tələf olması hallarında dərhal ovçuluq təsərrüfatlarına və müvafiq icra hakimiyyəti orqanlarına məlumat vermək;

18.2.9. Azərbaycan Respublikasının Qırmızı kitabına daxil edilmiş və xüsusi mühafizə olunan vəhşi heyvan növlərinin mühafizə rejiminə əməl etmək;

18.2.10. Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş digər vəzifələri yerinə yetirmək.

*Azərbaycan Respublikasının Prezidenti* *İlham ƏLİYEV*

Bakı şəhəri, 20 aprel 2004-cü il
№ 637-IIQ

## Azərbaycan Respublikasının Torpaq Məcəlləsindən çıxarış

Maddə 31. **Meşə fondu torpaqları**

1. Meşə bitkiləri ilə örtülü olan, habelə bu bitkilərlə örtülü olmayan, lakin meşə təsərrüfatının ehtiyacları üçün nəzərdə tutulan meşə və qeyri-meşə torpaqları meşə fondunun torpaqları hesab edilir.
2. Meşə fondu torpaqları əsasən meşə təsərrüfatının aparılması və genişlənməsi (meşələrin bərpası, meşələr salınması və i.a.) məqsədləri üçün istifadə edilir.
3. Meşə fondu torpaqlarından meşə təsərrüfatını aparmaq üçün meşə təsərrüfatı orqanları, habelə öz nizamnamə fəaliyyətinin həyata keçirilməsini təmin etmək üçün meşə fondu torpaqlarının təhkim olunduğu digər dövlət və qeyri-dövlət müəssisələri, idarələri və təşkilatları istifadə edirlər.
4. Meşə fondu torpaqlarından qanunvericiliklə müəyyən olunmuş qaydada, meşədə oduncaq və digər meşə materialları tədarük edən və ya başqa işlər görən (binalar və digər qurğuların tikilməsi, yolların salınması, elektrik xətlərin çəkilməsi və i.a.) müəssisələrin, idarələrin, təşkilatların istehsal və digər ehtiyaclarının təmin edilməsi üçün istifadə edilir.
5. Meşə fondu torpaqlarının özgəninkiləşdirilməsinə gətirən və gətirə bilən alqı-satqısına, girov qoyulmasına (ipotekasına) və digər əqdlərə, habelə başqa məqsədlər üçün istifadəsinə yol verilmir.
6. Meşə fondu torpaqları meşələrin bərpası məqsədilə təyinatı üzrə Azərbaycan Respublikasının Meşə Məcəlləsində nəzərdə tutulmuş qaydada icarəyə verilə bilər.
7. Meşə fondu torpaqları ilə həmsərhəd torpaqların istifadəçiləri öz torpaq sahələrində meşələrin yanğından və digər fəlakətdən mühafizə edən tədbirlər görməlidirlər.
8. Meşəsi olmayan və meşəsi az olan rayonlarda meşə salmaq, dərə və yarğanların böyüməsinin qarşısını almaq, qoruyucu meşə zolaqları salmaq, şəhərlərin və sənaye mərkəzlərinin ətrafında yaşıllıq zonaları yaratmaq məqsədilə meşə fondu torpaqlarının tərkibinə müəyyən olunmuş qaydada, başqa təyinatlı torpaqlar, ilk növbədə kənd təsərrüfatına yararsız və ya az yararlı yerlərdən torpaqlar verilə bilər.
9. Meşə fondu torpaqlarının verilməsi, geri alınması və istifadə qaydaları bu Məcəllə, Azərbaycan Respublikasının Meşə Məcəlləsi və digər normativ-hüquqi aktlarla müəyyən edilir.

Maddə 46. **Dövlətin torpaq üzərində mülkiyyət hüququ**

1. Dövlət mülkiyyətində olan torpaqlara aşağıdakılar daxildir:
   dövlət hakimiyyət orqanlarının yerləşdiyi torpaqlar;
   dövlət obyektlərinin — dağ-mədən sənayesinin, təsdiq edilmiş faydalı qazıntı yataqlarının, vahid energetika sisteminin, magistral boru kəmərlərinin, nəqliyyat, rabitə və müdafiə obyektlərinin, dövlət sərhəd zolaqlarının, mühüm meliorasiya və su təsərrüfatı obyektlərinin yerləşdiyi torpaqlar;
   yay və qış otlaqlarının, mal-qara düşərgələrinin və köç yollarının torpaqları;
   meşə fondu torpaqları (dövlət kənd təsərrüfatı müəssisələrinin meşələri də daxil olmaqla);
   Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsinin su fondu torpaqları;
   Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsinin sahilboyu 20-50 metrlik zolağının altında olan torpaqlar; [25]

təbiəti mühafizə, təbii-qoruq, sağlamlaşdırma, turizm və rekreasiya, tarix-mədəniyyət təyinatlı torpaqlar, habelə üzərində təsərrüfat fəaliyyəti qadağan edilmiş qanunla qorunan digər ərazilərin torpaqları;[26]
dövlət elmi-tədqiqat və tədris müəssisələrinin, onların təcrübə bazalarının, maşın-sınaq stansiyalarının, dövlət sort-sınaq xidmətinin, toxumçuluq və damazlıq təsərrüfatlarının torpaqları;
dövlət müəssisə, idarə və təşkilatlarının daimi istifadəsində olan və ya dövlət obyektlərinin tikintisi layihələşdirilmiş torpaqlar;
dövlət ehtiyat fondu torpaqları.

2. Göstərilən torpaqlar dövlətin müstəsna mülkiyyətindədir, həmin torpaqlar bu məcəllədə və digər normativ-hüquqi aktlarda müəyyən olunmuş qaydada istifadəyə və icarəyə verilə bilər.

2.1. [27]Xəzər dənizinin, (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsinin sahilboyu 20-50 metrlik zolağının altında olan torpaq sahələri dövlətin mülkiyyətində qalmaqla özgəninkiləşdirilə bilməz və yalnız müvafiq icra hakimiyyəti orqanının qərarı ilə istifadəyə və icarəyə verilə bilər. Bu maddənin birinci cümləsinə uyğun olaraq istifadəyə və ya icarəyə verilməsi barədə qərar qəbul edilmiş Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsinin sahilboyu 20-50 metrlik zolağının altında olan torpaq sahəsi müvafiq icra hakimiyyəti orqanının icazəsi əsasında dənizin sahilinə gediş-gəlişi məhdudlaşdırmamaq şərti ilə hasara alınma yolu ilə və ya digər üsullarla bağlanıla bilər. Yalnız dövlətin iqtisadi və ya təhlükəsizlik mənafelərinin təmin edilməsi ilə əlaqədar müvafiq icra hakimiyyəti orqanının qərarı ilə həmin torpaq sahələrinə gediş-gəliş məhdudlaşdırıla bilər. Göstərilən sahilboyu zolağın qrafiki təsviri müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir. Sahilboyu zolaq Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsinin su səthinin quru ilə bu qanun qüvvəyə mindikdən sonra mövcud olan təmas xəttindən hesablanır. [28]

3. Dövlət mülkiyyətində olan torpaqların bələdiyyə və xüsusi mülkiyyətə verilməsi qanunla müəyyən edilir.

4. Dövlət mülkiyyətində olan torpaqların istifadəsi və mühafizəsi sahəsində dövlət idarəetməsini öz səlahiyyətləri daxilində müvafiq icra hakimiyyəti orqanları həyata keçirirlər.

Maddə 47. **Bələdiyyənin torpaq üzərində mülkiyyət hüququ**

1. Torpaq üzərində bələdiyyə mülkiyyəti “Torpaq islahatı haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, bələdiyyə mülkiyyətinə ayrılan torpaqlar, habelə qanunvericiliklə müəyyən edilmiş qaydada, başqa torpaq mülkiyyətçilərindən bələdiyyələrə keçən torpaqlar hesabına yaranır.

2. Bələdiyyə mülkiyyətinə aid torpaqlar:
ümumi istifadədə olan torpaqlara;
hüquqi və fiziki şəxslərin istifadəsində olan torpaqlara;
ehtiyat fondu torpaqlarına ayrılır.

3. Ümumi istifadədə olan torpaqlara, bir qayda olaraq, şəhərlərin, qəsəbələrin və kənd yaşayış məntəqələrinin — küçələrinin, meydanlarının, yerli əhəmiyyətli və təsərrüfatdaxili yolların, parkların, meşə-parkların, sututarların, stadionların, idman meydançalarının altındakı torpaqlar, habelə tarlaqoruyucu meşə zolaqlarının, yerli əhəmiyyətli su təsərrüfatı obyektlərinin, hidrotexniki qurğuların, ümumi istifadədə olan digər yerli əhəmiyyətli obyekt və qurğuların yerləşdiyi torpaqlar və əhalinin mal-

qarası üçün istifadə olunan örüş sahələrinin torpaqları aiddir.

4. Hüquqi və fiziki şəxslərin istifadəsində olan torpaqlara onların qanuni istifadəsində və icarəsində olan bələdiyyə torpaqları daxildir.
5. Bələdiyyə ehtiyat fondu torpaqları aşağıdakılardır:
   yaşayış məntəqələrinin perspektiv inkişafı üçün cəlb olunan torpaqlar;
   hüquqi və fiziki şəxslərin istifadə və icarə hüququna xitam verilən bələdiyyə torpaqları;
   ehtiyat məqsədləri daşıyan digər bələdiyyə torpaqları.
6. Bələdiyyə mülkiyyətində olan torpaqlar bu Məcəllə ilə, bələdiyyələr haqqında qanunlarla və digər normativ-hüquqi aktlarla müəyyən edilmiş qaydada mülkiyyətə, istifadəyə və icarəyə verilə bilər.
7. Bələdiyyə mülkiyyətində olan torpaqlara sərəncam verilməsini, həmin torpaqların istifadəsi və mühafizəsi sahəsində idarəetməni bələdiyyələr həyata keçirirlər. Bələdiyyələr bələdiyyə mülkiyyətinə torpaq alınması zəruriyyəti yarandığı hallarda dövlət mülkiyyətindən torpaq almaq barədə müvafiq icra hakimiyyəti orqanları qarşısında vəsatət qaldırır. [29]

[25] 20 iyun 2003-ci il tarixli 483-IIQD nömrəli "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu (Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2003-ci il, №8, maddə 423) ilə 46-cı maddənin 1-ci bəndinə 7-ci abzas əlavə edilmişdir.
2 dekabr 2008-ci il tarixli 728-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ("Azərbaycan" qəzeti, 18 fevral 2009-cu il, № 38, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, №02, maddə 36) ilə 46-cı maddəsinin 1-ci bəndinin yeddinci abzasında "80-130" rəqəmləri "20-50" rəqəmləri ilə əvəz edilmişdir.

[26] 2 iyun 2008-ci il tarixli 615-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 6, maddə 460) ilə 46-cı maddənin 1-ci bəndinin səkkizinci abzasında "istirahət (rekreasiya)" sözləri "turizm və rekreasiya" sözləri ilə əvəz edilmişdir.

[27] 2 dekabr 2008-ci il tarixli 728-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ("Azərbaycan" qəzeti, 18 fevral 2009-cu il, № 38, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, №02, maddə 36) ilə 46-cı maddəsinin 2-1-ci bəndinin birinci cümləsində "80-130" rəqəmləri "20-50" rəqəmləri ilə əvəz edilmişdir.

[28] 20 iyun 2003-ci il tarixli 483-IIQD nömrəli "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu (Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2003-ci il, № 8, maddə 423) ilə 46-cı maddəyə 2-1-ci bənd əlavə edilmişdir.

2 dekabr 2008-ci il tarixli 728-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ("Azərbaycan" qəzeti, 18 fevral 2009-cu il, № 38, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, №02, maddə 36) ilə 46-cı maddəsinin 2-1-ci bəndinin birinci cümləsindən "dövlət məqsədləri üçün" sözləri çıxarılmışdır, ikinci cümləsi yeni redaksiyada verilmişdir.
Əvvəlki redaksiyada deyilirdi:
İstifadəyə və icarəyə verilən Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsinin sahilboyu 80-130 metrlik zolağının altında olan torpaq

sahələri hasara alınma yolu ilə və ya digər üsullarla bağlanıla bilməz və dənizin sahilinə gediş-gəliş məhdudlaşdırıla bilməz.

[29] 3 dekabr 2002-ci il tarixli 393-IIQD nömrəli "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarına dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikasının Qanunu (Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2003-ci il, № 1, maddə 11) ilə 47-ci maddənin 7-ci bəndinə ikinci cümlə əlavə edilmişdir.

## Azərbaycan Respublikasının Su Məcəlləsindən çıxarış

Maddə 35. **Su obyektlərindən istifadə növləri**

Su obyektləri aşağıdakı məqsədlər üçün istifadə edilə bilər:
içməli su və məişət təchizatı;
müalicə, kurort və sağlamlaşdırma;
istirahət və idman;
sənaye, tikinti və energetika;
kənd təsərrüfatı;
meşə təsərrüfatı;
hidroenergetika;
nəqliyyat;
balıqçılıq;
ovçuluq;
tullantı suların axıdılması;
yanğından mühafizə və digər məqsədlər üçün.

Su obyekti və ya onun bir hissəsi eyni zamanda bir və ya bir neçə məqsəd üçün istifadəyə verilə bilər.

Maddə 57. **Meşə zolağı və meşə tingliyi salınmış sahələrin suvarılması**

Meşə zolağı və meşə tingliyi salınmış sahələrin suvarılması su obyektlərindən kənd təsərrüfatı ehtiyacları üçün istifadə qaydasında həyata keçirilir.

Maddə 86. **Suqoruyucu meşə zolaqlarının müəyyən edilməsi**

Çayların, göllərin, su anbarlarının, kanalların, kollektorların, yeraltı suların və digər su obyektlərinin əlverişli su rejimini saxlamaq, torpaqların su və külək eroziyasının, sututarların lilləşməsinin, su heyvanlarının məskunlaşma şəraitinin pisləşməsinin qarşısını almaq, lazımsız yerüstü su axımını azaltmaq və digər məqsədlər üçün Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulan qaydada bu obyektlərin ətrafında susaxlayıcı və torpaqqoruyucu meşə zolaqları müəyyən edilir.

Suqoruyucu meşə zolaqlarının qorunması üzərində nəzarəti müvafiq icra hakimiyyəti orqanları həyata keçirir və onların su obyektlərinin vəziyyətinə zərərli təsir edən işləri dayandırmaq və ya qadağan etmək hüquqları vardır.

## Bələdiyyələrin statusu haqqında

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olaraq bu qanun yerli özünüidarəni həyata keçirən bələdiyyələrin yaradılması prinsiplərini, rolunu, yerli özünüidarənin hüquqi, iqtisadi və maliyyə əsaslarını, onun həyata keçirilməsi üçün dövlət təminatlarını müəyyənləşdirir.

### I fəsil
### ÜMUMİ MÜDDƏALAR

Maddə 1. **Yerli özünüidarə anlayışı**

Azərbaycan Respublikasında yerli özünüidarə vətəndaşların fəaliyyətinin təşkilinin elə bir sistemidir ki, bu sistem onlara qanun çərçivəsində yerli əhəmiyyətli məsələləri müstəqil və sərbəst şəkildə həll etmək hüququnu həyata keçirmək və yerli əhalinin mənafeyi naminə Azərbaycan Respublikası Konstitusiyasının 144-cü maddəsinin II hissəsinə uyğun olaraq dövlət işlərinin bir hissəsini yerinə yetirmək imkanı verir. Bu hüquqları qanunla müəyyən edilmiş qaydada ümumi, bərabər, birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi və gizli səsvermə yolu ilə seçilmiş bələdiyyə üzvlərindən ibarət nümayəndəli kollegial orqanlar (bələdiyyələr) və ya vətəndaşların yığıncaqları həyata keçirirlər. Bələdiyyələr öz vəzifələrini yerinə yetirmək məqsədi ilə onların qarşısında məsuliyyət daşıyan, daimi fəaliyyət göstərən icra strukturları yarada bilərlər.

Maddə 4. **Yerli sosial müdafiə və sosial inkişaf proqramları**

1. Yerli sosial müdafiə proqramları bələdiyyə tərəfindən müəyyən edilən vətəndaşlar kateqoriyasına dövlət sosial təminatından əlavə sosial təminatlar müəyyən edir. Həmin təminatlar mütəmadi və birdəfəlik ola bilər.
2. Yerli sosial müdafiə və sosial inkişaf proqramlarından məqsəd dövlətin həyata keçirdiyi sosial inkişaf proqramlarında nəzərdə tutulmayan və ya onlara əlavə olaraq yerli əhəmiyyətli sosial inkişaf məsələlərini həll etməkdir. Həmin proqramlar məktəbəqədər tərbiyə, təhsil, səhiyyə, mədəniyyət, yaşayış və qeyri-yaşayış binalarının saxlanılması və istifadə edilməsi, sanitariya müəssisələrinin təşkili, saxlanılması və inkişafı, mənzil tikintisi, yerli əhəmiyyətli su mənbələrindən istifadə, su təchizatının və kanalizasiya təsərrüfatının təşkili, saxlanılması və inkişafı, yanacaq təchizinin və satışının təşkili, yerli əhəmiyyətli yolların tikilməsi və saxlanılması, mərasim xidmətlərinin təşkili və qəbiristanların qorunması, yerli nəqliyyat və rabitə xidmətinin təşkili, ticarət, ictimai iaşə və məişət xidmətinin təşkilinə şərait yaradılması, mədəniyyət müəssisələrinin inkişafına yardım göstərilməsi, tarix və mədəniyyət abidələrinin saxlanılması, informasiya xidmətinin təşkili, kütləvi informasiya vasitələrinin fəaliyyəti üçün şərait yaradılması, kimsəsizlərə, xəstələrə, qocalara, maddi imkansızlara, valideyn himayəsindən məhrum olmuş, həmçinin istedadlı uşaqlara əlavə yardım, fiziki tərbiyə və idmanın inkişafına yardım göstərilməsi, əhalinin məşğulluğuna, adamların peşələri üzrə işlə təmin olunmasına gənclərin sosial hüquqi müdafiəsinə, ailə kəndli təsərrüfatının inkişafına kömək göstərilməsi və yerli infrastrukturun digər sahələrini

əhatə edə bilər.

Yerli sosial müdafiə və sosial inkişaf proqramlarında mütəmadi olaraq mövcud qəbiristanlıqların qorunması, abadlaşdırılması, yeni qəbiristanlıq sahələrinin ayrılması, yas mərasimlərinin keçirilməsi üçün nəzərdə tutulmuş tikililərin təmiri və yenilərinin inşası, mərasim xidmətlərinin, o cümlədən bələdiyyənin ərazisində yaşayan əhalinin aztəminatlı təbəqəsindən olan mərhumların dəfn və yas mərasimlərinin təşkilinə yardım göstərilməsi nəzərdə tutulmalıdır.

Bədən tərbiyəsi və idman sahəsində bələdiyyələrin səlahiyyətləri Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə tənzimlənir.

3. Yerli sosial müdafiə və sosial inkişaf proqramlarını həyata keçirərkən bələdiyyələr bu maddənin 2-ci bəndində göstərilən məsələlər üzrə dövlət orqanlarının müvafiq proqramlarının həyata keçirilməsinə müdaxilə edə bilməzlər.

Maddə 5. **Yerli iqtisadi inkişaf proqramları**

1. Yerli iqtisadi inkişaf proqramlarından məqsəd dövlətin həyata keçirdiyi iqtisadi inkişaf proqramlarında nəzərdə tutulmayan və ya onlara əlavə olaraq yerli əhəmiyyətli iqtisadi inkişaf məsələlərini həll etməkdir. Həmin proqramlar aqrar, sənaye, rabitə, nəqliyyat və digər sahələri əhatə edə bilər.

   Yerli iqtisadi inkişaf proqramlarında bələdiyyə torpaqlarında və dövlətin bələdiyyələrə verdiyi əmlakdan səmərəli istifadə yolları göstərilir.
2. Yerli iqtisadi inkişaf proqramlarını həyata keçirərkən bələdiyyələr dövlət orqanlarının səlahiyyətlərinin həyata keçirilməsinə müdaxilə edə bilməzlər.

Maddə 6. **Yerli ekoloji proqramlar**

1. Yerli ekoloji proqramlardan məqsəd dövlətin həyata keçirdiyi ekoloji proqramlarda nəzərdə tutulmayan və ya onlara əlavə olaraq yerli əhəmiyyətli ekoloji təmizlik məsələlərinin həllinə yerli əhalinin hamılıqla cəlb edilməsidir. Həmin proqramlara yerli şəraitdə mövcud olan ekoloji tarazlığın qorunub saxlanılması, bələdiyyə ərazisinin yaxşılaşdırılması və abadlaşdırılması, məişət tullantılarının yığılması, nəql edilməsi, zərərsizləşdirilməsi, emalı və bu sahədə başqa məsələlərin həlli üçün tədbirlər görülməsi, suyun, havanın, torpağın hər cür çirklənmədən qorunması, qonşu bələdiyyələrlə birgə ekoloji tədbirlərin həyata keçirilməsi və yerli əhəmiyyətli digər tədbirlər daxil edilə bilər.
2. Bələdiyyələr dövlətin ekoloji proqramları ilə yerli ekoloji proqramların əlaqələndirilməsinə, müəyyən hallarda birgə tədbirlərin həyata keçirilməsinə yardım göstərirlər.

Maddə 259. **Qanunsuz ağac kəsmə**

259.1. Meşələrdə və ya qoruqlarda, milli və ya təbii parklarda ağacların və ya kolların, eləcə də meşə fonduna aid olmayan ağacların və ya kolların qanunsuz kəsilməsi xeyli miqdarda ziyan vurduqda - iki min beş yüz manatdan üç min beş yüz manatadək miqdarda cərimə və ya iki ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.
259.2. Eyni əməllər:
259.2.1. təkrar törədildikdə;
259.2.2. qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə;
259.2.3. şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə;
259.2.4. külli miqdarda ziyan vurmaqla törədildikdə - üç min beş yüz manatdan beş min manatadək miqdarda cərimə və ya iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Qeyd:** Bu Məcəllənin 259.1-ci maddəsində «xeyli miqdar» dedikdə, üç yüz manatdan min manatadək olan məbləğ, 259.2.4-cü maddəsində «külli miqdar» dedikdə isə min manatdan artıq olan məbləğ başa düşülür.

Maddə 260. **Meşələri məhv etmə və ya korlama**

260.1. Odla və ya digər yüksək təhlükə mənbələri ilə ehtiyatsız davranma üzündən meşələri və ya meşə fonduna aid olmayan ağac və ya kol əkililərini məhv etmə və ya korlama - yüz manatdan beş yüz manatadək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.
260.2. Yandırma və ya digər ümumi təhlükəli üsulla və ya zərərli maddələrlə, tullantılarla çirklənməsi nəticəsində, meşələri və ya meşə fonduna aid olmayan ağac və ya kol əkililəri məhv etmə və ya korlama - iki ildən yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Maddə 261. **Xüsusi mühafizə olunan təbiət ərazilərinin və təbiət obyektlərinin mühafizə rejimini pozma**

Qoruqların, milli parkların, təbiət abidələrinin və ya dövlət tərəfindən xüsusi mühafizə olunan təbiət ərazilərinin mühafizə rejiminin pozulması əhəmiyyətli zərər vurulmasına səbəb olduqda - yüz manatdan beş yüz manatadək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri ilə və ya altı ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Qeyd:** Bu Məcəllənin 261-ci maddəsində «əhəmiyyətli zərər» dedikdə iki yüz manatdan artıq olan məbləğ başa düşülür.

## Azərbaycan Respublikasının İnzibati xətalar Məcəlləsindən çıxarış

Maddə 86. **Torpaqların (meşə fondu torpaqlarının) zibillənməsi və korlanması**

86.1. Torpaqların (meşə fondu torpaqlarının) istehsalat və məişət tullantıları ilə zibilləndirilməsinə və ya kimyəvi, radioaktiv maddələrlə, çirkab suları ilə çirkləndirilməsinə, yaxud bakterial-parazitik və zərərli karantin orqanizmlərlə yoluxdurulmasına görə - fiziki şəxslər beş yüz manatdan səkkiz yüz manatadək miqdarda, vəzifəli şəxslər iki min manatdan iki min beş yüz manatadək miqdarda, hüquqi şəxslər yeddi min beş yüz manatdan on min manatadək miqdarda cərimə edilir.

86.2. Torpaqların (meşə fondu torpaqlarının) münbit qatının korlanmasına görə - fiziki şəxslər altı yüz manatdan min manatadək miqdarda, vəzifəli şəxslər iki min manatdan üç min manatadək miqdarda, hüquqi şəxslər altı min manatdan səkkiz min manatadək miqdarda cərimə edilir.

Maddə 91. **Meşəqırma fondundan istifadənin, oduncağın tədarük edilib daşınmasının müəyyən edilmiş qaydasının pozulması**

Meşəqırma fondundan istifadənin, oduncağın tədarük edilib daşınmasının müəyyən edilmiş qaydasının pozulmasına görə - fiziki şəxslər üç yüz manatdan doqquz yüz manatadək miqdarda, vəzifəli şəxslər iki min yeddi yüz manatdan üç min altı yüz manatadək miqdarda, hüquqi şəxslər beş min beş yüz manatdan səkkiz min manatadək miqdarda cərimə edilir.

Maddə 92. **Meşəqırma bileti (orderi) olmadan kötüstə yaş ağacların və kolların qanunsuz kəsilməsi və zədələnməsi, meşə bitkilərinin və cavan ağacların məhv edilməsi və zədələnməsi**

92.1. Meşəqırma bileti (orderi) olmadan meşə fondunda kötüstə yaş ağacların və kolların qanunsuz kəsilməsinə və ya onların zədələnməsinə və ya meşə əkinlərində, tingliklərində, böyümə və plantasiya sahələrində toxmacarların və tinglərin, yaxud meşənin bərpa edilməsi üçün müəyyən olunmuş sahələrdə təbii əmələ gəlmiş cavan ağacların və cücərtilərin məhv edilməsinə və ya zədələnməsinə görə - fiziki şəxslər yeddi yüz manatdan min manatadək miqdarda, vəzifəli şəxslər dörd min beş yüz manatdan beş min manatadək miqdarda cərimə edilir.

92.2. Meşə fonduna aid olmayan ağac və ya kol əkililərinin zədələnməsinə, kəsilməsinə və ya məhv edilməsinə görə - fiziki şəxslər iki min iki yüz manatdan iki min beş yüz manatadək miqdarda, vəzifəli şəxslər doqquz yüz manatdan on min manatadək miqdarda, hüquqi şəxslər qırx min manatdan əlli min manatadək miqdarda cərimə edilir.

92.3. eyni inzibati xəta

92.3.1. şəhərlərdə və digər yaşayış məntəqələrində yerləşən yaşıllıq sahələrində tikinti işləri aparılarkən lazımi icazə olmadan törədildikdə, hər bir ağacın və ya kol əkililərinin zədələnməsinə və ya məhv edilməsinə, habelə qanunvericiliklə nəzərdə tutulmuş qaydada lazımi icazə olmadan kəsilməsinə görə - fiziki şəxslər min iki yüz manatdan min beş yüz manatadək miqdarda, vəzifəli şəxslər üç min beş yüz manatdan dörd min manatadək miqdarda, hüquqi şəxslər iyirmi min

manatdan iyirmi beş min manatadək miqdarda cərimə edilir.

92.3.2. magistral avtomobil yollarının və dəmir yolunun mühafizə zolaqlarında yerləşən yaşıllıq sahələrində lazımi icazə olmadan törədildikdə, hər bir ağacın və ya kol əkililərinin zədələnməsinə və ya məhv edilməsinə, habelə qanunvericiliklə nəzərdə tutulmuş qaydada lazımi icazə olmadan kəsilməsinə görə - fiziki şəxslər min manatdan min üç yüz manatadək miqdarda, vəzifəli şəxslər iki min beş yüz manatdan üç min manatadək miqdarda, hüquqi şəxslər on beş min manatdan iyirmi min manatadək miqdarda cərimə edilir.

92.3.3. su obyektlərinin və su təsərrüfatı obyektlərinin (su anbarları da daxil olmaqla) mühafizə zolağında yerləşən yaşıllıq sahələrində lazımi icazə olmadan törədildikdə, hər bir ağacın və ya kol əkililərinin zədələnməsinə və ya məhv edilməsinə, habelə qanunvericiliklə nəzərdə tutulmuş qaydada lazımi icazə olmadan kəsilməsinə görə - fiziki şəxslər iki min manatdan iki min beş yüz manatadək miqdarda, vəzifəli şəxslər beş min manatdan altı min manatadək miqdarda, hüquqi şəxslər otuz min manatdan qırx min manatadək miqdarda cərimə edilir.

92.3.4. müvafiq icra hakimiyyəti orqanı tərəfindən tərtib edilmiş yaşıllıq ərazilərinin kadastrında olan ağac və ya kol əkililərinin zədələnməsinə və ya məhv edilməsinə, habelə qanunvericiliklə nəzərdə tutulmuş qaydada lazımi icazə olmadan kəsilməsinə görə - fiziki şəxslər iki min manatdan iki min beş yüz manatadək miqdarda, vəzifəli şəxslər altı min manatdan yeddi min manatadək miqdarda, hüquqi şəxslər qırx min manatdan qırx beş min manatadək miqdarda cərimə edilir.

Maddə 93. **Meşəqırma biletində (orderində) və ya meşə biletində nəzərdə tutulmuş məqsədləri və ya tələbləri gözləmədən meşədən istifadə etmə**

Meşəqırma biletində (orderində) və ya meşə biletində nəzərdə tutulmuş məqsədləri və ya tələbləri gözləmədən meşədən istifadəyə görə - fiziki şəxslər üç yüz manatdan altı yüz manatadək miqdarda, vəzifəli şəxslər iki min beş yüz manatdan üç min manatadək miqdarda, hüquqi şəxslər altı min manatdan səkkiz min manatadək miqdarda cərimə edilir.

Maddə 94. **Meşələrin bərpası, məhsuldarlığının artırılması, cins tərkibinin yaxşılaşdırılması və yetişmiş oduncaq ehtiyatlarından istifadə qaydalarının pozulması**

Meşələrin bərpasına, vəziyyətinin və cins tərkibinin yaxşılaşdırılmasına, məhsuldarlığının artırılmasına və yetişmiş oduncaq ehtiyatlarından istifadəyə dair qaydaların pozulmasına görə - fiziki şəxslər beş yüz manatdan min manatadək miqdarda, vəzifəli şəxslər iki min beş yüz manatdan üç min manatadək miqdarda, hüquqi şəxslər səkkiz min manatdan doqquz min manatadək miqdarda cərimə edilir.

Maddə 95. **Meşə fondu torpaqlarında biçənəklərin və otlaq sahələrinin zədələnməsi və ya korlanması**

Meşə fondu torpaqlarında biçənəklərin və ya otlaq sahələrinin zədələnməsinə və ya korlanmasına görə - fiziki şəxslər üç yüz manatdan altı yüz manatadək miqdarda, vəzifəli şəxslər iki min beş yüz manatdan üç min beş yüz manatadək miqdarda, hüquqi şəxslər altı min beş yüz manatdan səkkiz min manatadək miqdarda cərimə edilir.

Maddə 96. **Meşə fondu sahələrində özbaşına ot biçilməsi və ya mal-qara otarılması, özbaşına yabanı meyvə, qoz-fındıq, göbələk, giləmeyvə yığılması**

Meşə fondu sahələrində özbaşına ot biçilməsinə və ya mal-qara otarılmasına və ya yabanı meyvə, qoz-fındıq, göbələk, giləmeyvə və sair yığılması qadağan edilən və ya buna ancaq meşə biletləri üzrə yol verilən sahələrdə onların özbaşına yığılmasına görə - fiziki şəxslər dörd yüz manatdan altı yüz manatadək miqdarda, vəzifəli şəxslər iki min manatdan iki min beş yüz manatadək miqdarda, hüquqi şəxslər beş min manatdan altı min beş yüz manatadək miqdarda cərimə edilir.

Maddə 97. **Meşə fondu torpaqlarında meşələrə zərərli təsirin qarşısını alan qurğuları olmayan istehsal obyektlərinin tikilməsi və ya istifadəyə verilməsi**

Meşə fondu torpaqlarında meşələrə zərərli təsirin qarşısını alan qurğuları olmayan istehsal obyektlərinin və ya digər obyektlərin tikilməsinə və ya istifadəyə verilməsinə görə - fiziki şəxslər yeddi yüz manatdan min manatadək miqdarda, vəzifəli şəxslər min beş yüz manatdan iki min beş yüz manatadək miqdarda, hüquqi şəxslər doqquz min manatdan on iki min manatadək miqdarda cərimə edilir.

Maddə 98. **Meşə fondu torpaqlarında meşəsuvarma şəbəkələrinin, drenaj sistemlərinin və yolların məhv edilməsi və ya korlanması**

Meşə fondu torpaqlarında meşəsuvarma şəbəkələrinin, drenaj sistemlərinin və yolların məhv edilməsinə və ya korlanmasına görə - fiziki şəxslər üç yüz manatdan altı yüz manatadək miqdarda, vəzifəli şəxslər iki min beş yüz manatdan üç min beş yüz manatadək miqdarda, hüquqi şəxslər altı min manatdan yeddi min beş yüz manatadək miqdarda cərimə edilir.

Maddə 99. **Meşə fondu torpaqlarında məhdudlaşdırıcı nişanların (sərhəd, kvartal və sairə göstərici dirəklərin) məhv edilməsi və zədələnməsi**

Meşə fondu torpaqlarında məhdudlaşdırıcı nişanların (sərhəd, kvartal və sairə göstərici dirəklərin) məhv edilməsinə və zədələnməsinə görə - fiziki şəxslər üç yüz manatdan altı yüz manatadək miqdarda, vəzifəli şəxslər iki min beş yüz manatdan üç min manatadək miqdarda, hüquqi şəxslər beş min beş yüz manatdan altı min beş yüz manatadək miqdarda cərimə edilir.

Maddə 100. **Meşə üçün faydalı faunanın məhv edilməsi**

Meşə üçün faydalı faunanın məhv edilməsinə görə - fiziki şəxslər iki yüz manatdan beş yüz manatadək miqdarda, vəzifəli şəxslər iki min manatdan üç min manatadək miqdarda, hüquqi şəxslər altı min manatdan yeddi min beş yüz manatadək miqdarda cərimə edilir.

## Vergi məcəlləsindən çıxarış

Maddə 1. **Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə tənzimlənən münasibətlər**

1.1. Azərbaycan Respublikasının Vergi Məcəlləsi Azərbaycan Respublikasında vergi sistemini, vergitutmanın ümumi əsaslarını, vergilərin müəyyən edilməsi, ödənilməsi və yığılması qaydalarını, vergi ödəyicilərinin və dövlət vergi orqanlarının, habelə vergi münasibətlərinin digər iştirakçılarının vergitutma məsələləri ilə bağlı hüquq və vəzifələrini, vergi nəzarətinin forma və metodlarını, vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyəti, dövlət vergi orqanlarının və onların vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) şikayət edilməsi qaydalarını müəyyən edir.

1.2. Bu Məcəllə ilə Naxçıvan Muxtar Respublikasında və bələdiyyələrdə vergitutmanın ümumi əsasları və vergilər müəyyən edilir.

1.3. Bu Məcəllə ilə müəyyən olunan anlayışlar və qaydalar vergitutma məqsədi ilə müəyyən edilir və müstəsna olaraq bu Məcəllə və onun əsasında qəbul edilmiş digər normativ hüquqi aktlar ilə tənzimlənən vergitutma və vergi nəzarəti ilə bağlı münasibətlər hüdudlarında tətbiq olunur.

Maddə 6. **Dövlət vergiləri**

6.1. Dövlət vergilərinə aşağıdakılar aiddir:

6.1.1. fiziki şəxslərin gəlir vergisi;

6.1.2. hüquqi şəxslərin mənfəət vergisi (bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlardan başqa);

6.1.3. əlavə dəyər vergisi;

6.1.4. aksizlər;

6.1.5. hüquqi şəxslərin əmlak vergisi;

6.1.6. hüquqi şəxslərin torpaq vergisi;

6.1.7. yol vergisi;

6.1.8. mədən vergisi;

6.1.9. sadələşdirilmiş vergi;

6.2. Bu Məcəllə ilə bütün dövlət vergilərinin dərəcələrinin ən yüksək hədləri müəyyən edilir.

6.3. Dövlət vergilərinin hər il üçün tətbiq olunan dərəcələri bu Məcəllədə müəyyən edilən dərəcələrdən yüksək ola bilməz və hər il Azərbaycan Respublikasının dövlət büdcəsi haqqında qanunu qəbul edilən zaman həmin dərəcələrə yenidən baxıla bilər.

Maddə 203. **Torpaq vergisi**

203.1. Torpaq vergisi torpaq mülkiyyətçilərinin və ya istifadəçilərinin təsərrüfat fəaliyyətinin nəticələrindən asılı olmayaraq torpaq sahəsinə görə hər il sabit tədiyə şəklində hesablanır.

203.2. Rezident və qeyri-rezident fiziki şəxslər, habelə rezident və qeyri-rezident müəssisələr torpaq sahələri barədə özlərinin mülkiyyət və istifadə hüquqlarını təsdiq edən sənədləri aldıqdan sonra fiziki şəxslər və bələdiyyə müəssisələri bələdiyyələrdə, digər müəssisələr isə vergi orqanında 1 ay ərzində uçota

durmalıdırlar.

Maddə 207. **Vergi güzəştləri**

207.1. Aşağıdakı torpaqlar torpaq vergisinə cəlb edilmir:

207.1.1. yaşayış məntəqələrinin ümumi istifadədə olan torpaqları;

207.1.2. Dövlət hakimiyyəti orqanlarının, büdcə təşkilatlarının və yerli özünü idarəetmə orqanlarının, Azərbaycan Respublikası Mərkəzi Bankının və onun qurumlarının, habelə Azərbaycan Respublikasının Dövlət Neft Fondunun mülkiyyətində və ya qurumlarının istifadəsində olan torpaqlar;

207.1.3. istehsal fəaliyyətinə cəlb edilməmiş dövlət, meşə və su fondu torpaqları, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına məxsus olan sektorunun altında yerləşən torpaqlar;

207.1.4. dövlət sərhəd zolaqları və müdafiə təyinatlı torpaqlar.

207.2. Bu Məcəllənin 102.2-ci maddəsində göstərilən şəxslərin mülkiyyətində olan torpaqlara görə torpaq vergisinin məbləği 10 manat azaldılır.

# III. Meşə münasibətlərini tənzimləyən beynəlxalq müqavilələr

## Bitki karantini sahəsində əməkdaşlıq haqqında Sazişə Azərbaycan Respublikasının qoşulması barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Azərbaycan Respublikası Müstəqil Dövlətlər Birliyi iştirakçısı olan dövlətlərin Hökumət Başçıları Şurasının 1992-ci il noyabrın 13-də Moskva şəhərində keçirilmiş iclasında imzalanmış «Bitki karantini sahəsində əməkdaşlıq haqqında» Sazişə aşağıdakı qeyd-şərtlə qoşulsun:
   «Azərbaycan Respublikası «Bitki karantini sahəsində əməkdaşlıq haqqında» Sazişi onun 4-cü maddəsində «Elmi-metodik rəhbərlik» sözləri istisna və «Ümumrusiya bitki karantini elmi-tədqiqat institutu» sözlərindən sonra «müvafiq Tərəfin Hökuməti ilə razılaşdırmaqla» sözləri əlavə olunmaqla tətbiq edəcəkdir».
2. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

*Azərbaycan Respublikasının Prezidenti* *Heydər ƏLİYEV.*

Bakı şəhəri, 17 fevral 1998-ci il.№ 441-IQ.
«Azərbaycan» qəzetində dərc edilmişdir (15 mart 1998-ci il, № 60).

## «Kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna və yabanı flora növlərinin beynəlxalq ticarəti haqqında» Konvensiyaya (CITES) və həmin Konvensiyanın iştirakçı dövlətlərinin «Nərə balıqlarının qorunmasına dair» Qətnaməsinə qoşulmaq barədə Azərbaycan Respublikasının Qanunu

Milli Məclisi qərara alır:

1. Azərbaycan Respublikası 1973-cü il martın 3-də Vaşinqton şəhərində imzalanmış «Kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna və yabanı flora növlərinin beynəlxalq ticarəti haqqında» Konvensiyaya (CITES) və həmin Konvensiyanın iştirakçı dövlətlərinin 1997-ci il iyunun 9-20-də Harare şəhərində keçirilən 10-cu konfransında qəbul olunmuş «Nərə balıqlarının qorunmasına dair» 10.12 nömrəli Qətnaməsinə qoşulsun.
2. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

*Azərbaycan Respublikasının Prezidenti* *Heydər ƏLİYEV.*

Bakı şəhəri, 23 iyun 1998-ci il.№ 507-IQ.
«Azərbaycan» qəzetində dərc edilmişdir (28 avqust 1998-ci il, № 197)

## «Avropanın canlı təbiətinin və təbii mühitinin qorunması haqqında» Avropa Konvensiyasına qoşulmaq barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

1. Azərbaycan Respublikası «Avropanın canlı təbiətinin və təbii mühitinin qorunması haqqında» 1979-cu il 19 sentyabr tarixli Avropa Konvensiyasına qoşulsun.
2. Bu qanun dərc edildiyi gündən qüvvəyə minir.

*Azərbaycan Respublikasının Prezidenti* *Heydər ƏLİYEV.*

Bakı şəhəri, 28 oktyabr 1999-cu il. № 730-IQ.
«Azərbaycan» qəzetində dərc edilmişdir (12 noyabr 1999-cu il, № 260).

## Avropanın canlı təbiətinin və təbii mühitinin qorunması haqqında Avropa Konvensiyası
## Bern, 19.IX.1979

### Giriş

Avropa Şurasına üzv olan Dövlətlər və bu sənədi imzalayan digərləri, Avropa Şurasının məqsədinin təbiətin qorunması sahəsində onun üzvləri arasında birliyin yaradılması olduğunu nəzərə alaraq;

Avropa Şurasının təbiətin qorunması sahəsində başqa dövlətlərlə əməkdaşlıq etmək arzusunu nəzərə alaraq;

yabanı bitkilərin və vəhşi heyvanların gələcək nəsillərə çatdırılmalı və qorunmasına ehtiyacı olan estetik, elmi, mədəni, əyləndirici, iqtisadi və daxili dəyərlərdən ibarət təbii nəsil təşkil etdiyini başa düşərək;

yabanı bitkilərin və vəhşi heyvanların bioloji balansın saxlanılmasında əhəmiyyətli rol oynadığını başa düşərək;

yabanı bitkilərin və vəhşi heyvanların bir çox növlərinin ciddi şəkildə azalmaqda olduğunu və onların bəzilərinin nəslinin kəsilməsi qorxusu olduğunu qeyd edərək;

təbii məskunlaşma yerlərinin qorunmasının yabanı bitkilərin və vəhşi heyvanların müdafiəsi və qorunmasının mühüm tərkib hissəsi olduğunu bilərək;

yabanı bitkilərin və vəhşi heyvanların qorunmasının dövlətlər tərəfindən öz milli məqsəd və proqramlarında nəzərə alınmalı olduğunu və xüsusilə onların yerli köçəri növlərini qorumaq üçün beynəlxalq əməkdaşlıq yaratmaq lazım olduğunu başa düşərək;

dövlətlər və ya beynəlxalq orqanlar tərəfindən ümumi fəaliyyət üçün edilən geniş yayılmış tələblər, xüsusilə 1972-ci ildə İnsanların Ətraf Mühiti mövzusuna həsr edilən Birləşmiş Millətlər Konfransı və Avropa Şurasının Məsləhətçi Assambleyası tərəfindən ifadə edilən tələbləri nəzərə alaraq;

ətraf mühitin qorunması üzrə İkinci Avropa Hökumətləri Konfransının qəbul etdiyi 2 №-li qərarın tələblərinə, xüsusilə canlı təbiətin qorunması sahəsində, riayət etməyi arzulayaraq,

aşağıda göstərilən məsələlər üzrə razılığa gəlmişlər:

### I fəsil.
### Ümumi müddəalar

Maddə 1

1. Bu Beynəlxalq Sazişin məqsədi yabanı bitkiləri və vəhşi heyvanları və onların təbii məskunlaşmış yerlərini, xüsusilə qorunması bir neçə Hökumətin əməkdaşlığını tələb edən növlərini və məskunlaşma yerlərini qorumaq və bu cür əməkdaşlığa kömək etməkdən ibarətdir.
2. Təhlükə altında olan və zəif növlərə, bu cür köçəri növlər daxil olmaqla, xüsusi diqqət yetirilir.

Maddə 2

Razılaşan Tərəflər iqtisadi və əyləndirici tələbləri və riskli yerlərdə vəhşi heyvanları və yabanı bitkiləri, onların subnövlərini, müxtəlifliyini və ya formalarını nəzərə alarkən, yabanı

bitkilərin və vəhşi heyvanların populyasiyasını və ya onu, xüsusilə ekoloji, elm və mədəniyyət tələblərinə uyğun səviyyədə qorumaq və ya həmin səviyyəyə uyğunlaşdırmaq üçün lazımi tədbirlər görür.

Maddə 3

1. Hər bir Razılaşan Tərəf bu Beynəlxalq Sazişin müddəalarına uyğun olaraq, təhlükə altında olan və zəif növlərə, xüsusilə endemik növlərə və təhlükə altında olan məskunlaşma yerlərinə xüsusi diqqət yetirərək vəhşi heyvanlar və yabanı bitkilər və təbii məskunlaşma yerlərinin qorunması üçün dövlət siyasətinə kömək etmək üçün addımlar atır.
2. Hər bir Razılaşan Tərəf öz işinin planlaşdırılmasında və inkişaf prinsiplərində və ətraf mühitin çirkləndirilməsinə qarşı nəzərdə tutulan tədbirlərdə yabanı bitkilərin və vəhşi heyvanların qorunması istiqamətində iş aparacağına öhdəlik götürür.
3. Hər bir Razılaşan Tərəf yabanı bitkilər və vəhşi heyvanların növləri və onların məskunlaşdığı yerlərə dair biliklər əldə edilməsinə kömək edir və onların qorunmasına olan ehtiyac barədə ümumi məlumat yayır.

## II fəsil.
## Məskunlaşma yerlərinin qorunması

Maddə 4

1. Hər bir Razılaşan Tərəf yabanı bitkilərin və vəhşi heyvanların növlərinin, xüsusilə I və II Əlavələrdə müəyyənləşdirilən növlərin məskunlaşdığı yerlərin qorunmasını və təhlükə altında olan təbii məskunlaşma yerlərinin qorunmasını təmin etmək üçün müvafiq və lazımi qanunvericilik və inzibati tədbirlər görür.
2. Razılaşan Tərəflər öz işlərinin planlaşdırılması və inkişaf prinsiplərində əvvəlki bənddə nəzərdə tutulan sahələrin qorunması tələblərinin həyata keçirilməsini nəzərə alır ki, bu cür sahələrin pisləşməsini aradan qaldırsın və ya bu vəziyyəti mümkün qədər minimuma endirsin.
3. Razılaşan Tərəflər II və III Əlavələrdə müəyyənləşdirilən heyvanların köçəri növləri üçün əhəmiyyətli olan və müvafiq olaraq onların qışlaması, yerləşməsi, artması və ya tük tökmək/qabıqdan çıxması üçün istifadə etdikləri köçmə marşrutları ilə əlaqəli olan ərazilərin qorunmasına xüsusi diqqət yetirəcəyinə öhdəlik götürür.
4. Razılaşan Tərəflər bu maddədə nəzərdə tutulan təbii məskunlaşma yerləri sərhəd zonalarında yerləşdiyi halda onları qorumaq üçün öz səylərini müvafiq şəkildə əlaqələndirməyi öhdəsinə götürür.

## III fəsil.
## Flora və fauna növlərinin qorunması

Maddə 5

Hər bir Razılaşan Tərəf I Əlavədə müəyyənləşdirilən yabanı bitki növlərinin xüsusi olaraq qorunmasını təmin etmək üçün müvafiq və lazımi qanunvericilik və inzibati tədbirlər görür. Bu cür bitkilərin bilə-bilə yığılması, toplanması, kəsilməsi, kökündən çıxarılması qadağan

edilir. Hər bir Razılaşan Tərəf müvafiq şəkildə həmin növlərə malik olmağı və ya onların satışını qadağan edir.

Maddə 6

Hər bir Razılaşan Tərəf II Əlavədə müəyyənləşdirilən vəhşi heyvan növlərinin xüsusi olaraq qorunmasını təmin etmək üçün müvafiq və lazımi qanunvericilik və inzibati tədbirlər görür. Həmin növlər üçün aşağıda göstərilənlər xüsusilə qadağan edilir:

a) bütün növlərin bilərəkdən ovlanması və saxlanması və bilərəkdən öldürülməsi;
b) nəsil artırma və istirahət sahələrini bilə-bilə zədələmək və ya dağıtmaq;
v) vəhşi heyvanların, xüsusilə nəsil artırma, böyütmə və qış yuxusu/yay yuxusu zamanı bilə-bilə narahat edilməsi;
q) vəhşi heyvanların yumurtalarının bilə-bilə sındırılıb-dağıdılması və ya onlardan götürülməsi və ya onların hətta boş olmasına baxmayaraq saxlanması;
ğ) bu maddənin müddəalarının səmərəliliyini artıra bilən hallarda, heyvanlara, canlı və ya ölü halda, içi doldurulmuş və canlıya oxşadılmış heyvanlar, onların hissə və ya törəmələri daxil olmaqla, sahib olmaq və ya onlardan daxili ticarət məqsədi ilə istifadə etmək.

Maddə 7

1. Hər bir Razılaşan Tərəf III Əlavədə müəyyənləşdirilən vəhşi heyvan növlərinin xüsusi olaraq qorunmasını təmin etmək üçün müvafiq və lazımi qanunvericilik və inzibati tədbirlər görür.
2. III Əlavədə müəyyənləşdirilən hər hansı vəhşi heyvanlardan istifadə 2-ci maddənin tələblərini nəzərə alaraq heyvan populyasiyasını təhlükədən uzaq etmək məqsədi ilə tənzimlənir.
3. Görüləcək tədbirlərə aşağıdakılar daxildir:
    a) istifadəni tənzimləyən qadağan edilmiş fəsillər və/və ya başqa üsullar;
    b) artım səviyyəsinin lazımi dərəcədə bərpa edilməsi məqsədi ilə istifadənin müvafiq olaraq müvəqqəti və ya qismən qadağan edilməsi;
    v) müvafiq olaraq canlı və ya ölü heyvanların satışı, satış üçün saxlanması, satış üçün daşınması və ya satış üçün təklif edilməsinin tənzimlənməsi.

Maddə 8

III Əlavədə müəyyənləşdirilən vəhşi heyvan növlərinin ovlanması və ya öldürülməsi ilə əlaqədar və 9-cu maddəyə uyğun olaraq II Əlavədə göstərilən növlərə istisnalar tətbiq edilən hallarda, Razılaşan Tərəflər heyvanların ovlanması və ya öldürülməsinin bütün hüquq bərabərliyinin pozulması vasitələrinin, heyvan növləri populyasiyasının qismən yox olmasına və ya onların narahatçılığına təsir edən vasitələrin və xüsusilə IV Əlavədə göstərilən vasitələrin istifadəsini qadağan edir.

Maddə 9

1. Hər bir Razılaşan Tərəf 4, 5, 6, 7-ci maddələrin müddəalarına və ya 8-ci maddədə göstərilən vasitələrin istifadəsinə qoyulan qadağanlara istisnalar edə bilər, bir şərtlə ki, bu məsələnin başqa kifayətləndirici həlli yoxdur və bu istisna nəzərdə tutulan populyasiyanın yaşamasına təsir etmir. Həmin istisnalar aşağıdakı məqsədlər üçün

edilə bilər:

- flora və faunanın qorunması üçün;
- məhsul, ev heyvanları, meşələr, balıq vətəgələri, əmlakın su və digər formalarının ciddi zərərlərdən qorunması;
- insanların sağlamlığı və təhlükəsizliyi, atmosferin təhlükəsizliyi və ya ictimaiyyətin başqa artan maraqları üçün;
- tədqiqat və təhsil, populyasiyanın yenidən artırılması, yenidən törədilməsi və lazımi şəkildə nəslini artırmaq məqsədi ilə;
- ciddi nəzarət şəraitində, seçmə ilə və məhdud dərəcədə müəyyən vəhşi heyvanların və bitkilərin az sayda götürülməsi, saxlanması və ya başqa məqsədəuyğun istifadəsinə icazə vermək üçün.

2. Hər bir Razılaşan Tərəf hər iki ildən bir Rəhbər Komitəyə əvvəlki bəndlərdə edilən istisnalar barədə məlumat verir. Həmin məlumatlarda aşağıdakılar göstərilməlidir:
   - istisnalara məruz qalan və ya artıq məruz qalmış populyasiyalar və lazımi vaxtda cəlb edilən nümunələrin sayı;
   - öldürülməsi və ya ovlanması üçün icazə verilmiş vasitələr;
   - bu cür istisnaların verildiyi risk şəraiti, vaxt və yer ilə əlaqədar şərtlər;
   - bu şərtlərin yerinə yetirildiyi barədə elan etmək, istifadə edilə bilən vasitələr, onlarla əlaqədar mövcud məhdudiyyətlər və onların həyata keçirilməsi ilə əlaqədar qərarların qəbul edilməsi üçün verilən səlahiyyət;
   - həyata keçirilən nəzarət.

## IV fəsil.
## Köçəri növlər üçün nəzərdə tutulan xüsusi müddəalar

Maddə 10

1. Razılaşan Tərəflər 4, 6, 7 və 8-ci maddələrdə müəyyənləşdirilən tədbirlərə əlavə olaraq II və III Əlavələrdə göstərilən, onların ərazilərində yayılan köçəri növlərin qorunması üçün səylərini əlaqələndirmək üzrə öhdəlik götürür.
2. Razılaşan Tərəflər 7-ci maddənin 3a bəndində müəyyənləşdirilmiş qadağan edilmiş fəsillər və/və ya digər istifadəni tənzimləyən qaydaların III Əlavədə müəyyənləşdirilən köçəri növlərə dair tələblərinə uyğun olduğu və müvafiq olaraq həmin qaydaların hazır olmasını təmin etmək barədə öhdəlik götürür.

## V fəsil.
## Əlavə müddəalar

Maddə 11

1. Razılaşan Tərəflər bu Beynəlxalq Sazişin müddəalarını həyata keçirərkən aşağıda göstərilənlər üzrə öhdəlik götürür:
   a) müvafiq vaxtlarda, xüsusilə bu Beynəlxalq Sazişin digər maddələrinə uyğun olaraq nəzərdə tutulan tədbirlərin səmərəliliyini artırmağın mümkün olduğu hallarda əməkdaşlıq etmək;
   b) bu Beynəlxalq Sazişin məqsədləri ilə əlaqədar olan tədqiqat işlərinin aparılmasını stimullaşdırmaq və ya əlaqələndirmək.

2. Hər bir Razılaşan Tərəf aşağıda göstərilənlər üzrə öhdəlik götürür:
   a) təhlükə altında olan növlərin qorunmasına kömək edə biləcək hallarda yabanı bitki və vəhşi heyvanların yerli növlərinin yenidən yaradılmasını stimullaşdırmaq, o şərtlə ki, bu cür tədqiqat hər şeydən əvvəl yenidən yaradılmanın səmərəli və qəbul edilməsi mümkünlüyünü müəyyənləşdirmək sahəsində digər Razılaşan Tərəflərin təcrübəsinə əsasən aparılsın;
   b) yerli olmayan növlərin yaradılması üzərində ciddi nəzarətin həyata keçirilməsi.
3. Hər bir Razılaşan Tərəf öz ərazisində tam şəkildə qorunan və I və II Əlavələrə daxil edilməmiş növləri barədə Rəhbər Komitəyə məlumat verir.

Maddə 12

Razılaşan Tərəflər bu Beynəlxalq Sazişdə flora və faunanın və onların məskunlaşdığı yerlərin qorunması ilə əlaqədar nəzərdə tutulan tədbirlərə nisbətən daha ciddi tədbirlər görə bilər.

## VI fəsil.
## Rəhbər komitə

Maddə 13

1. Bu Beynəlxalq Sazişin həyata keçirilməsi məqsədi ilə Rəhbər Komitə yaradılır.
2. Hər bir Razılaşan Tərəf Rəhbər Komitədə bir və ya daha artıq nümayəndə ilə təmsil oluna bilər. Hər bir nümayəndə bir səsə malikdir. Avropa İqtisadi Birliyi özünün səlahiyyəti olan sahələrdə özünün bu Beynəlxalq Sazişin Razılaşan Tərəfləri olan üzv Dövlətlərinin sayına bərabər miqdarda səslə səs vermək hüququnu həyata keçirir.
3. Avropa Şurasına üzv olan, lakin Beynəlxalq Sazişin Razılaşan Tərəfi olmayan hər hansı Dövlət Rəhbər Komitədə müşahidəçi kimi təmsil oluna bilər.
   Rəhbər Komitə birgə qərarla Avropa Şurasına üzv və Beynəlxalq Sazişin Razılaşan Tərəfi olmayan hər hansı Dövləti öz iclaslarının birində müşahidəçi tərəfindən təmsil olunmağa dəvət edə bilər.
   Yabanı bitkilər və vəhşi heyvanlar və onların məskunlaşdığı ərazilərin müdafiəsi, qorunması və ya idarə edilməsi sahəsində texniki hazırlığı olan və aşağıda göstərilən kateqoriyaların birinə aid olan hər hansı orqan və ya idarələr:
   a) beynəlxalq idarə və ya orqanlar, hökumət və ya qeyri-hökumət və milli hökumət idarələri və orqanları;
   b) onların yerləşdiyi Hökumət tərəfindən bu məqsədlə təsdiq edilən milli qeyri-dövlət idarələri və orqanları,
   
   Avropa Şurasının Baş katibinə Komitə iclasından ən azı üç ay əvvəl həmin iclasda müşahidəçi kimi təmsil olunmağı arzu etdiyi barədə məlumat verə bilər. Onlar Razılaşan Tərəflərin üçdə bir hissəsinin iclasdan ən azı bir ay əvvəl Baş katibə öz etirazı barədə məlumat verilmədiyi halda qəbul edilirlər.
4. Rəhbər Komitəni Avropa Şurasının Baş katibi təşkil edir. Onun birinci iclası Beynəlxalq Sazişin qüvvəyə mindiyi tarixdən bir il müddətində keçirilir. Rəhbər Komitə sonralar ən azı iki ildə bir dəfə və Razılaşan Tərəflərin əksəriyyətinin tələb etdiyi hər hansı bir vaxtda görüşür.
5. Razılaşan Tərəflərin əksəriyyəti Rəhbər Komitə iclasının keçirilməsi üçün kvorum yaratmalıdır.

6. Rəhbər Komitə bu Beynəlxalq Sazişin müddəalarına uyğun olaraq öz İş Qaydalarını hazırlayır.

Maddə 14

1. Rəhbər Komitə bu Beynəlxalq Sazişin aşağıda göstərildiyi kimi həyata keçirilməsi üçün məsuliyyət daşıyır.
   O, xüsusilə bunları edə bilər:
   - bu Beynəlxalq Sazişin bütün müddəalarının həyata keçirilməsini, onun əlavələri daxil olmaqla, nəzarət altında saxlamaq və lazımi hər hansı dəyişiklikləri yoxlamaq;
   - bu Beynəlxalq Sazişin məqsədləri üçün tədbirlərin görülməsi ilə əlaqədar Razılaşan Tərəflərə təkliflər vermək;
   - ictimaiyyəti bu Beynəlxalq Saziş çərçivəsində öhdəyə götürülən işlər haqqında məlumatla təmin etmək məqsədi ilə müvafiq tədbirləri təklif etmək;
   - Bu Beynəlxalq Sazişə dəvət olunmalı Avropa Şurasına üzv olmayan Dövlətlərə dair təklifləri Nazirlər Komitəsinə təqdim etmək;
   - Bu Beynəlxalq Sazişin səmərəliliyini artırmaq üçün, Beynəlxalq Sazişin Razılaşan Tərəfləri olmayan Dövlətlərlə yabanı bitkilər və vəhşi heyvanların və ya onların növ qruplarının qorunması səmərəliliyini artıra bilən sazişlərin bağlanmasına dair təkliflər daxil olmaqla, hər hansı təklifləri irəli sürmək.
2. Rəhbər Komitə öz funksiyalarını yerinə yetirmək üçün xüsusi təşəbbüsü ilə ekspert qruplarının iclaslarını təşkil edir.

Maddə 15

Rəhbər Komitə hər bir iclasdan sonra Avropa Şurasının Nazirlər Komitəsinə öz işi və Beynəlxalq Sazişin həyata keçirilməsi vəziyyəti barədə hesabat verir.

## VII fəsil.
## Düzəlişlərin edilməsi

Maddə 16

1. Razılaşan Tərəf və ya Nazirlər Komitəsi tərəfindən bu Beynəlxalq Sazişin hər hansı maddəsinə edilən düzəlişlər Avropa Şurasının Baş katibinə təqdim edilir və onun tərəfindən Rəhbər Komitə iclasından ən azı iki ay əvvəl 19-cu maddənin müddəalarına uyğun olaraq Avropa Şurasının üzv olan Dövlətlərə, hər hansı imzaçıya, hər hansı Razılaşan Tərəfə, bu Beynəlxalq Sazişi imzalamaq məqsədi ilə təklif olunan hər hansı Dövlətə və 20-ci maddəyə uyğun olaraq bu Sazişə daxil edilməsi üçün dəvət olunan hər hansı Dövlətə göndərilir.
2. Əvvəlki paraqrafın müddəalarına uyğun olaraq təklif edilən hər hansı düzəliş Rəhbər Komitə tərəfindən yoxlanılır. Rəhbər Komitə:
   a) 1 və 12-ci maddələrə edilən düzəlişlər üçün Razılaşan Tərəflərin dörddə üç səs çoxluğu ilə qəbul edilən mətni bəyənilməsi üçün Razılaşan Tərəflərə təqdim edir;
   b) 13 və 24-cü maddələrə edilən düzəlişlər üçün dörddə üç səs çoxluğu ilə qəbul etdiyi mətni təsdiq edilmək üçün Nazirlər Komitəsinə təqdim edir; mətn təsdiq ediləndən sonra qəbul edilmək üçün Razılaşan Tərəflərə göndərilir.

3. Hər hansı düzəliş bütün Razılaşan Tərəflər onu qəbul etdiyi barədə Baş katibə məlumat verəndən sonra 30-cu gün qüvvəyə minir.
   1, 2a və 3-cü maddələrin müddəaları bu Beynəlxalq Sazişə yeni əlavələr qəbul etmək üçün tətbiq edilir.

Maddə 17

1. Razılaşan Tərəf və ya Nazirlər Komitəsi tərəfindən bu Beynəlxalq Sazişin əlavələrinə edilən düzəlişlər Avropa Şurasının Baş katibinə göndərilir və onun tərəfindən Rəhbər Komitənin iclasından ən azı iki ay əvvəl 19-cu maddənin müddəalarına uyğun olaraq Avropa Şurasına üzv olan Dövlətlərə, hər hansı imzaçıya, hər hansı Razılaşan Tərəfə, bu Beynəlxalq Sazişi imzalamaq məqsədi ilə təklif edilən hər hansı Dövlətə və 20-ci maddəyə uyğun olaraq bu Sazişə daxil edilməsi üçün dəvət olunan hər hansı Dövlətə göndərilir.
2. Əvvəlki bəndin müddəalarına uyğun olaraq təklif edilən, Razılaşan Tərəflər tərəfindən onların üçdə iki səs çoxluğu ilə qəbul edilə bilən düzəliş Rəhbər Komitə tərəfindən yoxlanılır. Qəbul edilən mətn Razılaşan Tərəflərə göndərilir.
3. Rəhbər Komitə tərəfindən qəbul edildikdən üç ay sonra və Razılaşan Tərəflərin üçdə bir hissəsi öz etirazlarını bildirmədiyi halda hər hansı düzəliş həmin düzəlişə etiraz etməyən Razılaşan Tərəflər üçün qüvvəyə minir.

## VIII fəsil.
## Mübahisələrin həlli

Maddə 18

1. Rəhbər Komitə bu Beynəlxalq Sazişdən irəli gələ bilən hər hansı çətinliyin səmimi həllini sürətləndirmək üçün bütün imkanlardan istifadə edir.
2. Razılaşan Tərəflər arasında bu Beynəlxalq Sazişin şərhi və ya tətbiqi ilə əlaqədar mövcud olan, əvvəlki bəndin müddəalarına əsasən və ya aidiyyəti olan tərəflər arasında danışıqlar yolu ilə həllini tapmamış hər hansı mübahisə, tərəflər başqa şəkildə razılaşa bilmədiyi halda, onların birinin tələbi ilə arbitraj məhkəməsinə verilir. Hər bir tərəf bir hakim müəyyən edir və həmin iki hakim üçüncü bir hakimi müəyyənləşdirir. Bu maddənin 3-cü bəndinin müddəalarına uyğun olaraq tərəflərdən biri arbitraj məhkəməsinə verilməsi barədə təklif veriləndən sonra üç ay müddətində öz hakimi təyin etmədiyi halda həmin hakim sonrakı üç ay müddətində digər tərəfin tələbi ilə İnsan Hüquqları üzrə Avropa Məhkəməsi tərəfindən müəyyənləşdirilir. Seçilən iki hakim onların müəyyənləşdirildiyi vaxtdan sonra üç ay müddətində üçüncü hakimin müəyyənləşdirilməsi ilə əlaqədar razılığa gələ bilmədiyi halda eyni qayda tətbiq edilir.
3. Razılaşan Tərəflər arasında, biri Avropa İqtisadi Birliyinin üzv Dövləti və ikincisi özü Razılaşan Tərəf olaraq, mübahisə yarandığı təqdirdə Razılaşan Tərəflərdən biri arbitraj məhkəməsinin işə cəlb edilməsi tələbi ilə həm üzv Dövlətə, həm də Birliyə müraciət edir. Onların hər ikisi birlikdə tələb aldıqdan sonrakı iki ay müddətində üzv Dövlətin və ya Birliyin və ya həm üzvün, həm də Birliyin bu mübahisədə iştirak edib-etməməsi barədə məlumat verir. Göstərilən vaxt hüdudunda bu cür bildiriş olmadığı təqdirdə həm üzv Dövlət, həm də Birlik arbitraj məhkəməsinin qanun və qaydalarını rəhbər tutan müddəaların tətbiqi ilə əlaqədar mübahisənin həllində iştirak edən bir və

eyni tərəf hesab edilir. Üzv Dövlət və Birliyin hər ikisi birlikdə özlərini mübahisənin həllində iştirak edən tərəf kimi təqdim etdiyi halda onlar yenə də bir və eyni tərəf hesab edilir.

4. Arbitraj məhkəməsi özünün şəxsi Fəaliyyət Qaydalarını hazırlayır. Onun qərarları səs çoxluğu ilə qəbul edilir. Məhkəmənin qərarı son və məcburidir.
5. Mübahisədə iştirak edən tərəflərin hər ikisi onlar tərəfindən təyin edilən hakimlərə aid xərcləri özləri çəkir və tərəflər üçüncü hakimin xərclərini, həmçinin arbitraj məhkəməsi ilə əlaqədar yaranmış ödənişləri bərabər şəkildə bölüşdürürlər.

## IX fəsil.
## Son müddəalar

Maddə 19

1. Bu Beynəlxalq Sazişi onun hazırlanmasında iştirak edən Avropa Şurasına üzv Dövlətlər, üzv olmayan Dövlətlər və Avropa İqtisadi Birliyi imzalaya bilər.
   Beynəlxalq Sazişin qüvvəyəminmə tarixinə qədər ona Nazirlər Komitəsi tərəfindən dəvət olunan hər hansı digər Dövlətlər də imza ata bilər.
   Beynəlxalq Saziş ratifikasiya, qəbul və təsdiq edilməlidir. Ratifikasiya, qəbul edilmə və ya təsdiq edilmə barədə sənədləri Avropa Şurasının Baş katibi təqdim edir.
2. Beynəlxalq Saziş Avropa Şurasına üzv olan ən azı dörd Dövlət daxil olmaqla beş Dövlətin əvvəlki bəndin müddəalarına uyğun olaraq Beynəlxalq Saziş barədə öz razılığını ifadə etdiyi tarixdən üç aylıq müddət keçdikdən sonra gələn ayın birinci günü qüvvəyə minir.
3. Bu Beynəlxalq Sazişlə əlaqədar sonralar razılığını bildirən hər hansı imzaçı Dövlət və ya Avropa İqtisadi Birliyi üçün bu Saziş onun ratifikasiya, qəbul edilməsi və təsdiq edilməsi barədə sənədlər təqdim edildiyi tarixdən üç aylıq müddət keçdikdən sonra gələn birinci günü qüvvəyə minir.

Maddə 20

1. Bu Beynəlxalq Saziş qüvvəyə mindikdən sonra Avropa Şurasının Nazirlər Komitəsi Razılaşan Tərəflərlə razılaşdıqdan sonra 19-cu maddənin müddəalarına uyğun olaraq Sazişi imzalamaq üçün dəvət edilmiş, lakin bunu hələ etməmiş Şuranın üzvü olmayan hər hansı Dövləti və hər hansı digər qeyri-üzv Dövləti dəvət edə bilər.
2. Beynəlxalq Saziş razılaşan hər hansı Dövlət üçün Avropa Şurasının Baş Katibi tərəfindən daxil olma barədə sənəd təqdim edilən tarixdən üç aylıq müddət keçdikdən sonra gələn ayın birinci günü qüvvəyə minir.

Maddə 21

Hər hansı Dövlət Sazişin imzalanması vaxtı və ya onun ratifikasiyası, təqdim edilməsi, təsdiq edilməsi və ya qəbul edilməsi ilə əlaqədar sənədi təqdim edəndə həmin bənddə bu Beynəlxalq Sazişin tətbiq ediləcəyi ərazi və ya ərazilərini göstərir.

Hər hansı Razılaşan Tərəf Sazişin ratifikasiyası, təqdir edilməsi, təsdiq edilməsi və ya qəbul edilməsi ilə əlaqədar sənədi təqdim edəndə və ya hər hansı sonrakı tarixdə Avropa Şurasının Baş katibinə müraciət edilən bəyannamə vasitəsi ilə bu Beynəlxalq Sazişi bəyannamədə göstərilən hər hansı başqa əraziyə tətbiq edə bilər, belə ki, həmin ərazilər o ərazilərdir ki,

Razılaşan Tərəf onların beynəlxalq əlaqələri üçün məsuliyyət daşıyır və ya onların adından öhdəliklər götürmək səlahiyyətinə malik olur.

Əvvəlki bəndə uyğun olaraq verilən hər hansı bəyannamə həmin bəyannamədə göstərilən hər hansı ərazi ilə əlaqədar Baş katibə ünvanlanan bildirişlə geri alına bilər. Bu cür geri alınma Baş katib tərəfindən bildiriş alınan tarixdən altı aylıq müddət keçdikdən sonra gələn ayın birinci günü qüvvəyə minir.

Maddə 22

1. Hər hansı Dövlət Sazişi imzaladığı vaxt və ya onun ratifikasiyası, təqdir edilməsi, təsdiq edilməsi və ya qəbul edilməsi ilə əlaqədar sənədi təqdim edəndə I və II Əlavələrdə göstərilən müəyyən növlər üçün bir və ya daha çox yerlər ayıra və/və ya həmin yer və yerlərdə IV Əlavədə göstərilən heyvanların öldürülməsi, ovlanması və başqa cür istifadə yolları və ya metodlarını qeyd edə bilər.
2. 21-ci maddənin 2-ci bəndinə aid olan bəyannamədə göstərilən ərazi ilə əlaqədar bu Beynəlxalq Sazişin tətbiqini genişləndirən hər hansı Razılaşan Tərəf aidiyyəti olan ərazi ilə əlaqədar əvvəlki bəndin müddəalarına uyğun olaraq əvvəlcədən bir və ya daha artıq yer ayıra bilər.
3. Digər yer ayırmaları həyata keçirilə bilməz.
4. Bu maddənin 1 və 2-ci bəndlərinə uyğun olaraq qabaqcadan yer ayırmış hər hansı Razılaşan Tərəf onu Avropa Şurasının Baş katibinə ünvanlanan bildiriş vasitəsi ilə tam və ya qismən geri ala bilər. Bu cür geri alma Baş katib bildiriş alan gündən qüvvəyə minir.

Maddə 23

1. Hər hansı Razılaşan Tərəf istənilən vaxt Avropa Şurasının Baş katibinə ünvanlanan bildiriş vasitəsi ilə bu Beynəlxalq Sazişi ləğv edə bilər.
2. Bu cür ləğvetmə Baş katib tərəfindən bildiriş alınan tarixdən altı aylıq müddət keçdikdən sonra gələn ayın birinci günü qüvvəyə minir.

Maddə 24

Avropa Şurasının Baş katibi Avropa Şurasına üzv Dövlətlərinə, hər hansı imzaçı Dövlətə, bu Beynəlxalq Sazişin imzaçısı olduğu halda Avropa İqtisadi Birliyinə və hər hansı Razılaşan Tərəfə aşağıda göstərilənlər barədə məlumat verir:

a) hər hansı imza;
b) hər hansı ratifikasiya, təqdir etmə, təsdiq etmə və ya qəbul etməyə dair sənədin verilməsi;
v) 19 və 20-ci maddələrə uyğun olaraq bu Beynəlxalq Sazişin qüvvəyə mindiyi hər hansı tarix;
q) 13-cü maddənin 3-cü bəndinin müddəalarına uyğun olaraq təqdim edilən hər hansı məlumat;
ğ) 15-ci maddənin müddəalarına uyğun olaraq hazırlanmış hər hansı hesabat;
d) 16 və 17-ci maddələrə uyğun olaraq qəbul edilmiş hər hansı düzəliş və ya hər hansı yeni əlavə və düzəliş və yeni əlavənin qüvvəyə mindiyi tarix;
e) 21-ci maddənin 2 və 3-cü paraqraflarına uyğun olaraq edilən hər hansı bəyannamələr;
ə) 22-ci maddənin 1 və 2-ci bəndlərinə uyğun olaraq edilən hər hansı yer ayırma;
j) 22-ci maddənin 4-cü bəndinin müddəalarına uyğun olaraq həyata keçirilən hər hansı

ayrılmış yeri geri almaq;

z) 23-cü maddənin müddəalarına uyğun olaraq edilən hər hansı bildiriş və ləğv etmənin baş verdiyi tarix.

Deyilənləri nəzərə alaraq aşağıda imza edənlər buna lazımi səlahiyyətə malik olan şəxslər kimi həmin Beynəlxalq Sazişi imzalamışlar.

1979-cu il sentyabr ayının 19-u günü Berndə ingilis və fransız dillərində tərtib edilən bərabər hüquqlu hər iki mətn bir nüsxədə Avropa Şurasının arxivində saxlanılır. Avropa Şurasının Baş katibi Sazişin təsdiq edilmiş nüsxələrini Avropa Şurasına üzv Dövlətlərin hər birinə, hər hansı Dövlətə, imzaçı olduğu təqdirdə Avropa İqtisadi Birliyinə və bu Beynəlxalq Sazişi imzalamaq və ya onu qəbul etmək üçün dəvət edilmiş hər hansı Dövlətə göndərir.

## Birləşmiş Millətlər Təşkilatının «Bioloji müxtəliflik haqqında» Konvensiyasının təsdiq edilməsi barədə

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

1. Azərbaycan Respublikasının Hökuməti tərəfindən 1992-ci il iyunun 12-də Rio-de-Janeyro şəhərində imzalanmış Birləşmiş Millətlər Təşkilatının «Bioloji müxtəliflik haqqında» Konvensiyası təsdiq edilsin.
2. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

*Azərbaycan Respublikasının Prezidenti* *HEYDƏR ƏLIYEV*

Bakı şəhəri, 14 mart 2000-ci il
№ 829-IQ

## Bioloji müxtəliflik haqqında
## KONVENSİYA

## (5 iyun 1992-ci il)

## PREAMBULA

Razılaşan Tərəflər

Bioloji müxtəlifliyin əbədi dəyər olduğunu, həmçinin bioloji müxtəlifliyin və onun komponentlərinin ekoloji, genetik, sosial, iqtisadi, elmi, tərbiyəvi, mədəni, rekreasiya və estetik əhəmiyyətini dərk edərək,

habelə biosferaya həyat verən sistemlərin təkamülü və qorunması üçün bioloji müxtəlifliyin böyük əhəmiyyətə malik olduğunu dərk edərək,

bioloji müxtəlifliyin qorunmasının bütün bəşəriyyətin ümumi vəzifəsi olduğunu təsdiq edərək,

dövlətlərin öz bioloji resursları üzərində suveren hüquqlara malik olduqlarını bir daha təsdiq edərək,

habelə dövlətlərin öz bioloji müxtəlifliklərinin qorunması və öz bioloji resurslarının davamlı istifadəsi üçün məsuliyyət daşıdıqlarını təsdiq edərək,

insan fəaliyyətinin bəzi növləri nəticəsində bioloji müxtəlifliyin ciddi surətdə azaldığının qeydinə qalaraq,

bioloji müxtəlifliyə dair informasiyanın və biliklərin ümumi çatışmazlığının, bu problemin hamılıqla başa düşülməsini təmin etmək məqsədi ilə elmi, texniki və təşkilati potensialı inkişaf etdirməyin hədsiz zəruriliyini və bunun müvafiq tədbirlər planlaşdırılıb həyata keçirilməsindən ötrü təməl olacağını dərk edərək,

bioloji müxtəlifliyin öz mənbələrində xeyli azalmasının və ya yox olmasının səbəblərini qabaqcadan görməyin, qarşısını almağın, aradan qaldırmağın zəruriliyini qeyd edərək,

habelə bioloji müxtəlifliyin azalması və ya çoxalması təhlükəsi yarandığı hallarda şəksiz elmi faktların olmamasının bu cür təhlükəni aradan qaldırmaq və ya minimuma endirmək üçün tədbirlər görülməsini təxirə salmağa səbəb sayıla bilməyəcəyini qeyd edərək,

daha sonra, in-situ ekosistemlərinin və təbii məskənlərin mühafizəsinin həyat qabiliyyətli populyasiyalarını dəstəkləməyin və bərpa etməyin bioloji müxtəlifliyi qorumağın əsas şərti olduğunu qeyd edərək,

daha sonra, yarandığı ölkədə ex-situ tədbirləri görməyin üstün tutulmasının böyük əhəmiyyətə malik olduğunu qeyd edərək,

ənənəvi həyat tərzinə malik bir çox yerli icmaların və yerli əhalinin bioloji resurslardan xeyli və ənənəvi asılılığını, bioloji müxtəlifliyin qorunmasına və komponentlərin davamlı istifadəsinə aid olan ənənəvi biliklərin, yeniliklərin, praktikanın tətbiqindən ədalətli əsasda birgə faydalanmağın arzu olunduğunu etiraf edərək,

habelə bioloji müxtəlifliyin qorunması və komponentlərinin davamlı istifadəsi işində qadınların mühüm həyati rolunu etiraf edərək və bioloji müxtəlifliyin qorunmasına yönəldilən siyasətin bütün səviyyələrdə hazırlanmasında və həyata keçirilməsində qadınların geniş miqyasda iştirakının zəruriliyini təsdiq edərək,

bioloji müxtəlifliyin qorunması və onun komponentlərinin davamlı istifadəsi işində dövlətlər və hökumətlərarası təşkilatlar ilə qeyri-dövlət sektoru arasında beynəlxalq, məhəlli və qlobal əməkdaşlığın əhəmiyyətini və zəruriliyini qeyd edərək,

bioloji müxtəlifliyin yoxlanması probleminin həlli üçün dünyadakı imkanları yeni və əlavə maliyyə resursları verməklə və texnologiyaların lazımi qaydada əldə olunmasını təmin

etməklə xeyli genişləndirməyin mümkün olacağını etiraf edərək,

daha sonra, inkişaf edən ölkələrin tələbatını ödəmək, o cümlədən yeni və əlavə maliyyə resursları vermək, müvafiq texnologiyaları vermək və müvafiq texnologiyaların lazımi qaydada əldə olunmasını təmin etmək üçün xüsusi əsasnamə tələb olunduğunu etiraf edərək,

bununla əlaqədar az inkişaf etmiş ölkələrin və kiçik ada dövlətlərinin xüsusi şəraitini qeyd edərək,

bioloji müxtəlifliyin qorunmasının çoxlu kapital qoyuluşu tələb etdiyini və bu cür kapital qoyuluşlarından xeyli ekoloji, iqtisadi və sosial fayda əldə olunmasının gözlənilmədiyini etiraf edərək,

iqtisadi, sosial inkişafın və yoxsulluğu ləğv etməyin inkişaf edən ölkələr üçün ümdə və başlıca vəzifələr olduğunu etiraf edərək,

yer kürəsinin getdikcə artan əhalisinin ərzaq mallarına və səhiyyəyə tələbatını və digər tələbatlarını ödəmək üçün bioloji müxtəlifliyin qorunmasının və davamlı istifadəsinin həlledici əhəmiyyətə malik olduğunu və bu vəzifələrin həllindən ötrü istər genetik resursların, istərsə də texnologiyaların öyrənilməsinin və onlardan birgə istifadə edilməsinin böyük əhəmiyyətə malik olduğunu dərk edərək,

bioloji müxtəlifliyin qorunmasının və davamlı istifadəsinin nəticə etibarı ilə dövlətlər arasında dostluq münasibətlərini möhkəmləndirəcəyini və bütün bəşəriyyət üçün sülhün möhkəmləndirilməsinə kömək göstərəcəyini qeyd edərək,

bioloji müxtəlifliyin qorunması və komponentlərinin davamlı istifadəsi haqqında mövcud beynəlxalq sazişləri möhkəmlətmək və ona əlavələr etmək istəyərək,

və bioloji müxtəlifliyi indiki və gələcək nəsillər naminə qorumaq və ondan davamlı istifadə etmək əzmində olduqlarını bildirərək,

aşağıdakılar haqqında razılığa gəlmişlər:

**Maddə 1. Məqsədlər**

Bu Konvensiyanın müvafiq maddələrinə uyğun olaraq, əldə edilməsi üçün səy göstərməyin vacib olduğu məqsədləri bioloji müxtəlifliyi qorumaqdan, onun komponentlərindən davamlı istifadə etməkdən və genetik resursların istifadəsi, o cümlədən genetik resursların lazımi dərəcədə öyrənilməsinə imkan yaratmaq yolu ilə bu cür resurslar və texnologiyalar üzərində bütün hüquqları nəzərə almaqla müvafiq texnologiyaları lazımi qaydada vermək yolu ilə, həmçinin lazımi maliyyələşdirmə yolu ilə istifadəsi nəticəsində ədalət və bərabərlik əsasında birgə fayda götürməkdən ibarətdir.

Maddə 2. **Terminlərdən istifadə**

Bu Konvensiyanın məqsədləri üçün:

«Bioloji müxtəliflik» bütün mənbələrdə əmələ gələn canlı orqanizmlərin rəngarəngliyi, o cümlədən onların bir hissəsi olduqları yerüstü, dəniz və digər ekosistemlər və ekoloji komplekslər və s. deməkdir; bu məfhum növ çərçivəsində, növlər arasında müxtəlifliyi və ekosistemlərin müxtəlifliyini ehtiva edir.

«Bioloji resurslar» genetik resursları, orqanizmləri və ya onların hissələrini, populyasiyaları, yaxud ekosistemlərin bəşəriyyət üçün faktik və ya potensial faydası və ya qiyməti olan hər hansı digər biotik komponentlərini ehtiva edir.

«Biotexnologiya» konkret istifadə məqsədi ilə məhsul və ya proses hazırlanması, yaxud dəyişdirilməsi üçün bioloji sistemlərdən, canlı orqanizmlərdən və ya onların törəmələrindən istifadə ilə bağlı hər hansı texnologiya növü deməkdir.

«Genetik resursların mənşə ölkəsi» in-situ şəraitində bu genetik resurslara malik olan ölkə

deməkdir.

«Genetik resursları verən ölkə» istər vəhşi, istərsə də əhliləşdirilmiş populyasiya növlərinin daxil olduğu in-situ mənbələrindən yığılmış, yaxud mənşəcə bu ölkəyə mənsubiyyətindən asılı olmayaraq ex-situ mənbələrindən əldə edilmiş genetik resursları verən ölkə deməkdir.

«Əhliləşdirilmiş və ya yetişdirilən növlər» elə növlər deməkdir ki, insan öz tələbatını ödəmək məqsədi ilə onların təkamül prosesinə təsir göstərir.

«Ekosistem» bitki, heyvan, mikroorqanizm birliklərinin, həmçinin onların qeyri-canlı ətraf mühitinin vahid funksional bütövlük şəklində qarşılıqlı təsir göstərdiyi dinamik kompleks deməkdir.

«Ex-situ-nun qorunması» bioloji müxtəlifliyin komponentlərinin öz təbii məskənlərindən kənarda qorunması deməkdir.

«Genetik material» tərkibində vahid funksional irsiyyət vahidləri olan hər hansı bitki, heyvan, mikrob və ya digər mənşəli materiallar deməkdir.

«Genetik resurslar» faktik və ya potensial qiyməti olan genetik material deməkdir.

«Məskənlər» bu və ya digər orqanizmlərin, yaxud populyasiyanın təbii məskəni olan ərazi tipi və ya müəyyən yer deməkdir.

«İn-situ şəraiti» ekosistemlər və təbii məskənlər hüdudlarında genetik resursların mövcud olduğu şərait, əhliləşdirilmiş və yetişdirilən növlərə aid ediləndə isə onların öz fərqlənmə əlamətlərini kəsb etdikləri mühit deməkdir.

«İn-situ-nun qorunması» ekosistemlərin və təbii məskənlərin qorunması, həmçinin növlərin həyat qabiliyyətli populyasiyalarının öz təbii mühitində, əhliləşdirilmiş və ya yetişdirilən növlərə aid ediləndə isə onların öz fərqlənmə əlamətlərini kəsb etdikləri mühitdə dəstəklənməsi və bərpa olunması deməkdir.

«Mühafizə edilən rayon» təbiəti mühafizənin konkret məqsədlərinə nail olmaq üçün ayrılan tənzimlənən və istifadə edilən coğrafi ərazi deməkdir.

«İqtisadi inteqrasiyanın məhəlli təşkilatı» konkret regionun suveren dövlətləri tərəfindən yaradılmış, üzv dövlətlərin bu Konvensiya ilə tənzim edilən məsələlər barəsində səlahiyyətlər verdikləri və öz daxili prosedurlarına uyğun olaraq Konvensiyanı imzalamaq, ratifikasiya etmək, qəbul etmək, bəyənmək və ya ona qoşulmaq üçün lazımi səlahiyyətlər almış təşkilat deməkdir.

«Davamlı istifadə» bioloji müxtəlifliyin komponentlərindən elə yolla və sürətlə istifadə olunması deməkdir ki, bunlar uzun müddətli perspektivdə bioloji müxtəlifliyin tükənməsinə gətirib çıxarmır, beləliklə, onun indiki və gələcək nəsillərin tələbatını və arzularını ödəmək qabiliyyətini saxlayır.

«Texnologiya» biotexnologiyanı ehtiva edir.

Maddə 3. **Prinsip**

Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə və beynəlxalq hüquq prinsiplərinə uyğun olaraq dövlətlər ətraf mühit sahəsində öz siyasətlərinə müvafiq surətdə öz resurslarının işlənməsində suveren hüquqa malikdirlər və onların yurisdiksiyası çərçivəsində, yaxud nəzarəti altında aparılan fəaliyyətin digər dövlətlərin və ya milli yurisdiksiyanın təsiri hüdudlarından kənardakı rayonların ətraf mühitinə ziyan vurulmasının təmin edilməsi üçün məsuliyyət daşıyırlar.

Maddə 4. **Yurisdiksiya dairəsi**

Digər dövlətlərin hüquqlarına riayət edilməsi şərti ilə və əgər bu Konvensiyada başqa hallar aydın şəkildə nəzərdə tutulmamışdırsa, bu Konvensiyanın müddəaları Razılaşan

Tərəflərin hər birinə aşağıdakılara aid olanda tətbiq edilir:

a) onun milli yurisdiksiyası hüdudlarında bioloji müxtəlifliyin komponentlərinə aid olanda; və
b) istər milli yurisdiksiyası hüdudlarında, istərsə də milli yurisdiksiyanın hüdudlarından kənarda onun yurisdiksiyası və ya nəzarəti altında həyata keçirilən proseslərə və fəaliyyətə aid olanda bunların nəticələrinin harada təzahür etdiyindən asılı olmayaraq.

Maddə 5. **Əməkdaşlıq**

Razılaşan Tərəflərin hər biri bioloji müxtəlifliyin qorunması və davamlı istifadəsi məqsədi ilə milli yurisdiksiyanın hüdudlarından kənardakı rayonlar və digər məsələlər barəsində başqa Razılaşan Tərəflərlə imkan və məqsədəuyğunluq daxilində bilavasitə, yaxud məqsədəuyğundursa, səlahiyyətli beynəlxalq təşkilatlar vasitəsi ilə əməkdaşlıq edir.

Maddə 6. **Qorunma və davamlı istifadə üzrə ümumi tədbirlər**

Razılaşan Tərəflərin hər biri özünün konkret şəraitinə və imkanlarına uyğun olaraq:

a) bioloji müxtəlifliyin qorunması və davamlı istifadəsinin milli strategiyalarını, planlarını işləyib hazırlayır və ya proqramlarını, yaxud məsələn, bu Konvensiyada müvafiq Razılaşan Tərəfə aid tədbirlərin əks etdirildiyi mövcud strategiyaları, planları və ya proqramları bu məqsədə uyğunlaşdırır.
b) müvafiq sektor və ya sektorlararası planlarda, proqramlarda və siyasətdə bioloji müxtəlifliyin qorunması və davamlı istifadəsi üçün imkan və məqsədəuyğunluq daxilində tədbirlər nəzərdə tutur.

Maddə 7. **Müəyyənləşdirmə və monitorinq**

Hər Razılaşan Tərəf, xüsusən 8-10-cu maddələrin məqsədləri üçün imkan və məqsədəuyğunluq daxilində:

a) bioloji müxtəlifliyin qorunması və davamlı istifadəsi üçün böyük əhəmiyyəti olan komponentlərini, 1-ci Əlavədə göstərilən kateqoriyaların təqribi siyahısını nəzərə almaqla, müəyyənləşdirir;
b) nümunələr götürmək vasitəsi ilə və digər metodlarla bioloji müxtəlifliyin yuxarıdakı a) yarımbəndinə uyğun olaraq müəyyənləşdirilmiş komponentlərinin monitorinqini aparır, bu zaman qorunması təxirəsalınmaz tədbirlər görməyi tələb edən, həmçinin davamlı istifadəsi üçün daha geniş imkanlar açan komponentlərə xüsusi diqqət yetirilir;
c) bioloji müxtəlifliyin qorunmasına və davamlı istifadəsinə çox mənfi təsir göstərən və ya göstərə biləcək fəaliyyət proseslərini və kateqoriyalarını müəyyənləşdirir və onların nəticələrinin nümunələr götürmək vasitəsi ilə və digər metodlarla monitorinqini həyata keçirir; və
d) yuxarıdakı a), b) və c) yarımbəndlərinə uyğun olaraq müəyyənləşdirmə və monitorinq tədbirləri nəticəsində əldə edilən məlumatları toplayır və sistemləşdirir.

Maddə 8. **İn-situ-nun qorunması**

Hər Razılaşan Tərəf imkan və məqsədəuyğunluq daxilində:

a) mühafizə edilən rayonlar və ya bioloji müxtəlifliyin qorunması üçün xüsusi tədbirlər görülməsi zəruri olan rayonlar sistemi yaradır;

b) lazım gələrsə, mühafizə edilən rayonların və bioloji müxtəlifliyin qorunması üçün xüsusi tədbirlər görülməsi zəruri olan rayonların seçilməsinin, yaradılmasının rəhbər tutulan prinsiplərini işləyib hazırlayır;
c) mühafizə edilən rayonlarda və ya onların hüdudları xaricində bioloji müxtəlifliyin qorunmasından ötrü onun qorunmasının və davamlı istifadəsinin təmin edilməsi üçün böyük əhəmiyyəti olan bioloji resursları tənzimləyir və ya onlardan səmərəli istifadə edir;
d) ekosistemlərin, təbii məskənlərin mühafizəsinə, təbii şəraitdə növlərin həyat qabiliyyətli populyasiyalarının qorunmasına kömək edir;
e) mühafizə edilən rayonların qorunmasına kömək məqsədi ilə həmin rayonlara bitişik rayonların ekoloji cəhətdən əsaslandırılan davamlı inkişafını həvəsləndirir;
f) tənəzzülə uğramış ekosistemlərin reabilitasiyası və bərpası üçün tədbirlər görür və təhlükə altındakı növlərin, məsələn, səmərəli istifadəsi planları və digər strategiyalar hazırlamaq və həyata keçirmək vasitəsi ilə bərpasına kömək edir;
q) biotexnologiyadan əmələ gələn, bioloji müxtəlifliyin qorunması və davamlı istifadəsinə təsir göstərməyə qadir zərərli ekoloji nəticələr verə bilən dəyişmiş canlı orqanizmlərin üzə çıxarılması və istifadə olunması, həmçinin insanın sağlamlığı üçün təhlükə törətməsi ilə bağlı riski tənzimləmək, nəzarət altında saxlamaq və ya məhdudlaşdırmaq vasitələrini müəyyənləşdirir və ya dəstəkləyir;
h) ekosistemlər, məskənlər və ya növlər üçün təhlükə törədən yad növlərin introduksiyasının qarşısını alır, bu cür yad növləri nəzarət altında saxlayır və ya məhv edir;
i) mövcud istifadə üsullarının bioloji müxtəlifliyin qorunması və onun komponentlərinin davamlı istifadəsi ilə uzlaşmasını təmin etmək üçün lazımi şərait yaratmağa çalışır;
j) öz milli qanunvericiliyinə uyğun olaraq yerli əhalinin və icmaların, bioloji müxtəlifliyin qorunması və davamlı istifadəsi üçün əhəmiyyətə malik ənənəvi həyat tərzini əks etdirən biliklərinə, yeniliklərinə və praktikalarına hörmət bəslənilməsini, onların qorunmasını və dəstəklənməsini təmin edir, bu cür biliklərin, yeniliklərin və praktikaların daşıyıcılarının təşviqi və iştirakı ilə daha geniş tətbiq olunmasına kömək göstərir, həmçinin bu cür biliklərin, yeniliklərin və praktikanın tətbiqindən faydalanmalardan ədalətlə birgə istifadə olunmasını həvəsləndirir;
k) təhlükə altında olan növlərin və populyasiyaların mühafizəsi üçün lazımi qanunvericilik normaları və/və yaxud digər tənzimləyici əsasnamələr işləyib hazırlayır və həyata keçirir;
l) bioloji müxtəlifliyə mənfi təsir göstərilməsi faktı 7-ci maddəyə uyğun olaraq müəyyən edildiyi hallarda müvafiq fəaliyyət proseslərini və kateqoriyalarını müəyyənləşdirir və ya tənzimləyir; və
m) xüsusən inkişaf edən ölkələrdə yuxarıdakı a)-l) yarımbəndlərində göstərilən in-situ-nun qorunması tədbirlərinə maliyyə yardımı və digər yardım göstərilməsində əməkdaşlıq edir.

Maddə 9. **Ex-situ-nun qorunması**

Hər Razılaşan Tərəf imkan və məqsədəuyğunluq daxilində, ən əvvəl əlavə in-situ tədbirləri görmək məqsədi ilə:
a) bioloji müxtəlifliyin komponentlərinin ex-situ-sunu qorumaq üçün tədbirlər görür, əsas etibarilə bu cür komponentlərin əmələ gəldiyi ölkədə;
b) bitkilərin, heyvanların və mikroorqanizmlərin ex-situ-larının qorunması və tətbiqi üçün şərait yaradır və möhkəmləndirir əsas etibarilə genetik resursların əmələ gəldiyi

ölkədə;
c) təhlükə altında olan növlərin bərpa və reabilitasiyası üçün və onların təbii məskunlaşdığı yerlərdəki müvafiq şəraitdə reintroduksiyası üçün tədbirlər görür;
d) ex-situ-nun qorunması məqsədləri üçün bioloji resursların öz təbii məskənlərində toplanmasını müəyyənləşdirir və tənzimləyir ki, yuxarıdakı c) yarımbəndinə uyğun olaraq xüsusi müvəqqəti ex-situ tədbirləri görülməsinin tələb edildiyi hallar istisna olunmaqla, ekosistemlər və in-situ növlərinin populyasiyaları üçün təhlükə yaranmasın.
e) yuxarıdakı a)-d) yarımbəndlərində şərh edilən ex-situ-nun qorunması tədbirlərinə maliyyə yardımı və digər yardım göstərilməsində əməkdaşlıq edir.

Maddə 10. **Bioloji müxtəlifliyin komponentlərinin davamlı istifadəsi**

Hər Razılaşan Tərəf imkan və məqsədəuyğunluq daxilində:
a) milli səviyyədə qərarlar qəbul edilməsi prosesində bioloji resursların qorunması və davamlı istifadəsi məsələlərinə baxılmasını nəzərdə tutur;
b) bioloji müxtəlifliyə mənfi təsir göstərilməsinin qarşısını almaqdan və ya onu minimuma endirməkdən ötrü bioloji resurslardan istifadə sahəsində tədbirlər görür;
c) qorunma və ya davamlı istifadə tələbləri ilə uzlaşan mövcud mədəni adətlərə uyğun olaraq bioloji resurslardan istifadənin ənənəvi üsullarını qoruyur və həvəsləndirir;
d) bioloji müxtəlifliyin azalmasından zərər çəkən rayonlarda vəziyyəti düzəltməkdən ötrü tədbirlər hazırlanmasında və həyata keçirilməsində yerli əhaliyə kömək edir; və
e) bioloji resurslardan davamlı istifadə metodlarının hazırlanmasında öz ölkəsinin hökumət orqanları ilə fərdi sektor arasında əməkdaşlığı həvəsləndirir.

Maddə 11. **Stimullaşdırma tədbirləri**

Hər Razılaşan Tərəf imkan və məqsədəuyğunluq daxilində bioloji müxtəlifliyin qorunmasını və onun komponentlərindən səmərəli istifadəni stimullaşdıran və sosial baxımdan özünü doğruldan tədbirlər görür.

Maddə 12. **Tədqiqatlar və kadrların hazırlanması**

Razılaşan Tərəflər inkişaf edən ölkələrin xüsusi tələblərini nəzərə almaqla:
a) bioloji müxtəlifliyin və onun komponentlərinin müəyyənləşdirilməsi, qorunması və davamlı istifadəsi tədbirlərini həyata keçirməkdən ötrü kadrların elmi-texniki təlimi və hazırlığı proqramları tərtib edib həyata keçirir və inkişaf edən ölkələrin konkret tələblərini ödəmək üçün kadrların bu cür təliminə və hazırlığına kömək göstərirlər;
b) xüsusən inkişaf edən ölkələrdə, məsələn, Tərəflərin Konfransının elmi-texniki və texnoloji məsləhətlər üzrə yardımçı orqanının tövsiyələri əsasında qəbul edilən qərarlara uyğun olaraq bioloji müxtəlifliyin qorunmasına və davamlı istifadəsinə kömək edən tədqiqatları həvəsləndirir və stimullaşdırırlar; və
c) 16-cı, 18-ci və 20-ci maddələrin müddəalarına uyğun olaraq bioloji müxtəlifliyin tədqiqi gedişində əldə edilən elmi nəticələrdən bioloji resursların qorunması və davamlı istifadəsi metodlarının işlənib hazırlanmasında istifadə olunmasını həvəsləndirir və bu nəticələrdən istifadə olunmasında əməkdaşlıq edirlər.

Maddə 13. **İctimaiyyətin maarifləndirilməsi və məlumatlılığının artırılması**

Razılaşan Tərəflər:

a) bioloji müxtəlifliyin qorunmasının və bunun üçün tələb edilən tədbirlərin böyük əhəmiyyətinin dərk olunmasını, həmçinin kütləvi informasiya vasitələrində onun təbliğini və bu məsələlərin tədris proqramına salınmasını həvəsləndirir və stimullaşdırırlar; və
b) bioloji müxtəlifliyin qorunması və davamlı istifadəsi məsələləri üzrə tədris proqramlarının və ictimaiyyətin məlumatlılığını artırmaq barəsində proqramların hazırlanmasında müvafiq hallarda digər dövlətlərlə və beynəlxalq təşkilatlarla əməkdaşlıq edirlər.

Maddə 14. **Təsirin qiymətləndirilməsi və mənfi nəticələrin minimuma endirilməsi**

1. Hər Razılaşan Tərəf imkan və məqsədəuyğunluq daxilində:
   a) təklif etdikləri və bioloji müxtəlifliyə ciddi surətdə mənfi təsir göstərə bilən layihələrin bu cür nəticələrə yol verməmək və ya onları minimuma endirmək məqsədi ilə ekoloji ekspertizadan keçirilməsini tələb edən müvafiq prosedurlar tətbiq edir və məqsədəuyğun hallarda bu cür prosedurlarda ictimaiyyətin iştirakı üçün imkan yaradır;
   b) bioloji müxtəlifliyə ciddi surətdə mənfi təsir göstərə bilən öz proqramlarının və siyasətinin ekoloji nəticələrinin lazımi uçotunu təmin etmək üçün müvafiq tədbirlər görür;
   c) öz yurisdiksiyası çərçivəsində və ya nəzarəti altında aparılan, digər dövlətlərdə, yaxud milli yurisdiksiyanın hüdudlarından kənardakı rayonlarda bioloji müxtəlifliyə ciddi mənfi təsir göstərə bilən fəaliyyət haqqında müvafiq hallarda ikitərəfli məhəlli və ya çoxtərəfli sazişlər bağlanmasını həvəsləndirmək yolu ilə qarşılıqlı şəkildə bildiriş göndərilməsinə, informasiya mübadiləsinə və məsləhətləşmələr aparılmasına kömək göstərir;
   d) onun yurisdiksiyası altında və ya nəzarəti altında olan mənbələrdən digər dövlətlərin yurisdiksiyası altındakı rayonda və ya milli yurisdiksiyanın hüdudlarından kənardakı rayonlarda bioloji müxtəliflik üçün labüd, yaxud ciddi təhlükə yarandıqda və ya ziyan vurulduqda bu cür təhlükədən, yaxud ziyandan zərər çəkə bilən dövlətlərə dərhal məlumat verir, həmçinin bu cür təhlükənin və ya ziyanın qarşısını almaqdan və ya onu minimuma endirməkdən ötrü tədbirlər görür; və
   e) bioloji müxtəlifliyə ciddi və labüd təhlükə yaradan təbii, yaxud digər səbəblərin doğurduğu hərəkətlər və ya hadisələrlə bağlı təcili surətdə görülən milli tədbirləri dəstəkləyir, bu cür milli səylərə kömək edən beynəlxalq əməkdaşlığı həvəsləndirir, məqsədəuyğun sayılan və iqtisadi inteqrasiyanın bu işdə mənafeyi olan dövlətləri, yaxud məhəlli təşkilatları ilə razılaşdırılmış yerlərdə yarana biləcək fövqəladə vəziyyətlər barədə birgə planlar işləyib hazırlayır.
2. Tərəflərin Konfransı aparılan tədqiqatlar əsasında məsuliyyət və vəziyyətin düzəldilməsi, o cümlədən bu cür məsuliyyət sırf daxili məsələ olduğu hallar istisna edilməklə, bioloji müxtəlifliyin bərpası və vurulan ziyanın kompensasiyası məsələsini müzakirə edir.

Maddə 15. **Genetik resursların öyrənilməsi**

1. Dövlətlərin öz təbii sərvətləri üzərində suveren hüquqlara malik olduqları etiraf edildiyinə görə genetik resursların öyrənilməsi qaydasını müəyyən etmək hüququ

milli hökumətlərə məxsusdur və milli qanunvericiliklə tənzimlənir.

2. Hər Razılaşan Tərəf genetik resurslardan digər Razılaşan Tərəflərin ekoloji cəhətdən təhlükəsiz şəkildə istifadə etmələri məqsədi ilə onların öyrənilməsini asanlaşdırmaqdan ötrü şərait yaratmağa və bu Konvensiyanın məqsədlərinə zidd olan məhdudiyyətlər qoymamağa çalışır.
3. Bu Konvensiyanın məqsədləri üçün Razılaşan Tərəfin verdiyi, 16-cı və 19-cu maddələrdə göstərilən genetik resurslara ancaq bu cür resursların əmələ gəldiyi ölkələr olan Tərəflərin, yaxud bu Konvensiyaya uyğun olaraq həmin genetik resursları öyrənmiş tərəflərin verdikləri genetik resurslar aiddir.
4. Öyrənməyə razılıq verilirsə, bu öyrənmə qarşılıqlı surətdə razılaşdırılmış şərtlərlə təmin edilir və bu maddənin müddəaları ilə tənzim olunur.
5. Genetik resursların öyrənilməsi, bu cür resurslar verən Tərəf başqa qərar qəbul etmirsə, ilkin razılıq əsasında tənzimlənir.
6. Hər Razılaşan Tərəf digər Razılaşan Tərəflərin verdikləri genetik resurslara əsaslanan elmi tədqiqatları onların tam iştirakı ilə və əgər mümkünsə, həmin Razılaşan Tərəflərdə hazırlayıb aparmağa çalışır.
7. Hər Razılaşan Tərəf genetik resurslar verən Tərəflə bu cür resursların tədqiqinin və işlənməsinin nəticələrindən, eləcə də onların kommersiya və başqa tətbiqi nəticəsində faydalanmalardan ədalətli və bərabərhüquqlu əsasda birgə istifadə etmək məqsədi ilə 16-cı və 19-cu maddələrə uyğun olaraq lazımi qanunvericilik tədbirləri, inzibati və ya siyasi tədbirlər, həm də 20-ci və 21-ci maddələrə uyğun olaraq yaradılmış maliyyələşdirmə mexanizmi vasitəsi ilə tədbirlər görür. Bu cür istifadə qarşılıqlı surətdə razılaşdırılmış şərtlərlə həyata keçirilir.

### Maddə 16. **Texnologiyanın öyrənilməsi və verilməsi**

1. Hər Razılaşan Tərəf texnologiyaya biotexnologiyanın da daxil olduğunu və istər texnologiyanın öyrənilməsinin, istərsə də Razılaşan Tərəflər arasında verilməsinin bu Konvensiyanın məqsədlərinə çatmağın mühüm ünsürləri olduğunu dərk edərək, bu maddənin müddəalarına uyğun şəkildə digər Razılaşan Tərəflərin bioloji müxtəlifliyin qorunmasına və davamlı istifadəsinə dəxli olan, yaxud genetik resurslardan istifadə edilməsini nəzərdə tutan və ətraf mühitə ciddi ziyan vurmayan texnologiyaları digər Razılaşan Tərəflərin öyrənilməsini təşkil etməyi və/ və yaxud öyrənməyi asanlaşdırmağı öhdəsinə götürür.
2. Yuxarıdakı 1-ci bənddə göstərilən texnologiyanın öyrənilməsi və inkişaf edən ölkələrə verilməsi ədalətli və ən əlverişli, o cümlədən, əgər qarşılıqlı razılaşma varsa, güzəştli və imtiyazlı şəkildə və lazım gələrsə 20-ci və 21-ci maddələrə uyğun olaraq yaradılan maliyyələşdirmə mexanizminə müvafiq surətdə təmin edilir və/ və yaxud asanlaşdırılır. Patentlərlə və digər intellektual mülkiyyət hüquqları ilə müdafiə edilən texnologiyaya aid olanda öyrənmə və verilmə intellektual mülkiyyət hüquqlarının kifayət dərəcədə və səmərəli mühafizəsi nəzərə alınan və ona uyğun olan şərtlərlə təmin edilir. Bu bənd aşağıdakı 3-cü, 4-cü və 5-ci bəndlərə müvafiq olaraq tətbiq edilir.
3. Hər Razılaşan Tərəf genetik resurslar vermiş Razılaşan Tərəflərin, xüsusilə inkişaf edən ölkələrin bu resurslardan istifadə edilməsi nəzərdə tutulan texnologiyaları öyrənmələrinin təmin edilməsi və bu texnologiyaların, o cümlədən patentlərlə və digər intellektual mülkiyyət hüquqları ilə müdafiə olunan texnologiyanın qarşılıqlı surətdə razılaşdırılmış şərtlərlə, lazım gələrsə, 20-ci və 21-ci maddələrin müddəalarına əsasən və beynəlxalq hüquq normalarına, həmçinin aşağıdakı 4-cü və 5-ci bəndlərə uyğun

şəkildə verilməsi üçün zəruri qanunvericilik tədbirləri, inzibati və ya siyasi tədbirlər görür.

4. Hər Razılaşan Tərəf inkişaf edən ölkələrdə istər hökumət orqanlarının, istərsə də fərdi sektorun mənafeyi naminə fərdi sektorun yuxarıdakı bənddə göstərilən texnologiyaları öyrənməsini, bu texnologiyaların birgə işlənməsini və verilməsini asanlaşdırması üçün lazımi qanunvericilik tədbirləri, inzibati və ya siyasi tədbirlər görür və bununla əlaqədar olaraq yuxarıdakı 1-ci, 2-ci və 3-cü bəndlərdə göstərilən öhdəlikləri yerinə yetirir.
5. Razılaşan Tərəflər bu Konvensiyanın həyata keçirilməsinə patentlərin və digər intellektual mülkiyyət hüquqlarının təsir göstərə biləcəyini etiraf edərək, həmin hüquqların Konvensiyanın məqsədlərinə zidd olmayıb kömək göstərməsini təmin etmək məqsədi ilə bu sahədə milli qanunvericiliyi və beynəlxalq hüquq normalarını rəhbər tutmaqla əməkdaşlıq edirlər.

Maddə 17. **İnformasiya mübadiləsi**

1. Razılaşan Tərəflər inkişaf edən ölkələrin xüsusi tələbatını nəzərə alaraq, bütün ümumi istifadə mənbələrindən bioloji müxtəlifliyin qorunmasına və davamlı istifadəsinə dair informasiya mübadiləsinə kömək edirlər.
2. Bu cür informasiya mübadiləsinə texniki, elmi və sosial-iqtisadi tədqiqatların nəticələrinin, həmçinin peşə hazırlığına və araşdırmalara dair proqramlar haqqında informasiyanın, xüsusi biliklərin-həm sırf yerli və ənənəvi biliklərin, həm də onların 16-cı maddənin 1-ci bəndində göstərilən texnologiyalarla birlikdə mübadiləsi daxildir. Bundan başqa, mübadiləyə mümkün olan zaman informasiya repatriasiya da daxildir.

Maddə 18. **Elmi-texniki əməkdaşlıq**

1. Razılaşan Tərəflər bioloji müxtəlifliyin qorunması və davamlı istifadəsi sahəsində zəruri hallarda müvafiq beynəlxalq elmi-texniki əməkdaşlığa kömək edirlər.
2. Hər Razılaşan Tərəf bu Konvensiyanın həyata keçirilməsində digər Razılaşan Tərəflərlə, xüsusən inkişaf edən ölkələrlə, məsələn, milli siyasətin işlənib hazırlanması vasitəsi ilə elmi-texniki əməkdaşlığa kömək edir, bu cür əməkdaşlığa kömək göstərilərkən insan resurslarını inkişaf etdirmək və müvafiq qurumlar yaratmaq yolu ilə milli imkanların genişləndirilməsinə və möhkəmləndirilməsinə xüsusi diqqət yetirmək gərəkdir.
3. Tərəflərin Konfransı elmi-texniki əməkdaşlığı həvəsləndirmək və asanlaşdırmaq məqsədi ilə özünün ilk müşavirəsində vasitəçilik mexanizmi yaradılması yollarını müəyyənləşdirir.
4. Razılaşan Tərəflər bu Konvensiyanın məqsədlərinə uyğun olaraq texnologiyalar, o cümlədən yerli və ənənəvi texnologiyalar yaradılması və istifadəsi sahəsində milli qanunvericiliyə və siyasətə müvafiq əməkdaşlıq formalarını həvəsləndirir və işləyib hazırlayırlar.
5. Razılaşan Tərəflər bu Konvensiyanın məqsədlərinə aid olan texnologiyalar hazırlanması üçün qarşılıqlı razılaşma əsasında birgə elmi tədqiqat proqramları və birgə müəssisələr yaradılmasına kömək göstərirlər.

Maddə 19. **Biotexnologiyanın tətbiqi və onunla bağlı faydaların bölüşdürülməsi**

1. Hər Razılaşan Tərəf biotexnoloji tədqiqatlar üçün genetik resurslar verən Razılaşan

Tərəflərin, xüsusilə inkişaf edən ölkələrin, mümkün olan zaman həmin Razılaşan Tərəflərdə bu cür tədqiqatlar aparılması sahəsindəki fəaliyyətdə səmərəli iştirakının təmin edilməsi üçün lazımi qanunvericilik tədbirləri, inzibati və siyasi tədbirlər görürlər.
2. Hər Razılaşan Tərəf ədalət və bərabərlik əsasında Razılaşan Tərəflərin, xüsusilə inkişaf edən ölkələrin bu Razılaşan Tərəflərin verdikləri genetik resurslara əsaslanan biotexnologiyaların nəticələrinin və faydalarından üstün qaydada istifadə etmələrinin təmin olunmasına kömək və yardım göstərməkdən ötrü bütün mümkün tədbirləri görür. Bu cür istifadə qarşılıqlı surətdə razılaşdırılmış şərtlərlə həyata keçirilir.
3. Tərəflər görüləcək tədbirlərin, o cümlədən məsələn, biotexnologiya nəticəsində yaranan, bioloji müxtəlifliyin qorunmasına və davamlı istifadəsinə mənfi təsir göstərməyə qadir olan hər hansı dəyişmiş canlı orqanizmin təhlükəsiz verilməsi, istifadəsi və tətbiqi sahəsində müvafiq prosedurların hazırlanmasına dair tədbirlərin, o cümlədən ilkin əsaslandırılmış razılaşmanın zəruriliyini və şərtlərini, mümkünsə, protokol formasında nəzərdən keçirirlər.
4. Hər Razılaşan Tərəf 3-cü bənddə göstərilən orqanizmlərlə iş zamanı həmin Razılaşan Tərəfin müəyyənləşdirdiyi istifadə və təhlükəsizlik texnikası qaydaları haqqında hər hansı mövcud informasiyanı, həmçinin müvafiq konkret orqanizmlərin potensial zərərli təsiri haqqında hər hansı mövcud informasiyanı bu orqanizmlərin gətirildiyi Razılaşan Tərəfə bilavasitə verir, yaxud öz yurisdiksiyası altında olan və həmin orqanizmləri təqdim edən fiziki və ya hüquqi şəxsdən onların verilməsini tələb edir.

Maddə 20. **Maliyyə resursları**

1. Hər Razılaşan Tərəf bu Konvensiyanın məqsədlərinə nail olmaq üçün öz milli planlarına və üstün proqramına uyğun olaraq milli səviyyədə aparılan fəaliyyət növlərini imkan daxilində maliyyələşdirməyi və stimullaşdırmağı öhdəsinə götürür.
2. İnkişaf etmiş ölkələr olan Tərəflər yeni və əlavə maliyyə resursları verirlər ki, inkişaf edən ölkə olan Tərəflərin bu Konvensiya üzrə öhdəliklərini yerinə yetirmək tədbirlərinin həyata keçirilməsi gedişində çəkəcəkləri razılaşdırılmış əlavə xərclərin hamısının əvəzini ödəmələri və Konvensiyanın müddəalarına əməl olunmasından fayda götürmələri üçün imkan yaratsınlar; bu cür xərclər inkişaf edən ölkə olan Tərəf ilə 21-ci maddədə göstərilən təşkilat qurumu arasında texnologiya əldə edilməsi tədbirlərinə, strategiyasına, proqram üstünlüklərinə, meyarlarına və Tərəflərin Konfransının müəyyənləşdirdiyi əlavə xərclərin təqribi siyahısına uyğun surətdə razılaşdırılır. Digər Tərəflər, o cümlədən bazar iqtisadiyyatına keçid prosesində olan ölkələr inkişaf etmiş ölkələr olan Tərəflərin öhdəliklərini könüllü surətdə öz üzərlərinə götürə bilərlər. Tərəflərin Konfransı vaxtaşırı siyahılar xülasəsi hazırlayır və lazım gələrsə, ona dəyişikliklər keçirir. Digər ölkələrdən və digər mənbələrdən könüllülük əsasında vəsait verilməsi də həvəsləndiriləcəkdir. Bu öhdəliklər yerinə yetirilərkən adekvatlığa, vəziyyəti qabaqcadan görməyə, vəsaitin vaxtlı-vaxtında axınına tələbat və maliyyələşdirmədə iştirak edən Tərəflərin siyahıya salınmış xərclərin ağırlığını birgə çəkməyin vacibliyi nəzərə alınmalıdır.
3. İnkişaf etmiş ölkə olan Tərəflər bu Konvensiyanın həyata keçirilməsi ilə əlaqədar olaraq ikitərəfli, məhəlli və çoxtərəfli kanallarla da maliyyə resursları verə, inkişaf edən ölkələr sayılan Tərəflər isə həmin resurslardan istifadə edə bilərlər.
4. İnkişaf edən dövlətlər olan Tərəflərin Konvensiya üzrə öz öhdəliklərini uğurla yerinə yetirmək qabiliyyəti inkişaf etmiş ölkələr olan Tərəflərin Konvensiya üzrə maliyyə resursları və texnologiya verilməsi ilə bağlı öhdəliklərini uğurla yerinə yetirmələrindən

asılı olacaq və tam şəkildə belə bir faktla müəyyən ediləcəkdir ki, sosial-iqtisadi inkişaf və yoxsulluğun ləğv edilməsi inkişaf edən ölkələr olan Tərəflərin ən mühüm və üstün vəzifələridir.

5. Texnologiyanın maliyyələşdirilməsi və verilməsi ilə bağlı hərəkətlərində Tərəflər ən az inkişaf edən ölkələrin konkret tələbatını və xüsusi vəziyyətini tam şəkildə nəzərə alırlar.
6. Razılaşan Tərəflər inkişaf edən və Tərəflər sayılan ölkələrdə, xüsusilə ən kiçik ada dövlətlərində bioloji müxtəlifliyin bölüşdürülməsindən və məskənindən asılılığın nəticələri olan xüsusi şəraiti də nəzərə alırlar.
7. İnkişaf edən ölkələrin, o cümlədən quraqlıq və yarımquraqlıq zonalara, sahil və dağ rayonlarına malik ölkələr kimi ekoloji cəhətdən çox zəif ölkələrin xüsusi vəziyyəti də nəzərə alınacaqdır.

Maddə 21. **Maliyyələşdirmə mexanizmi**

1. İnkişaf edən ölkələr olan Tərəflərə bu Konvensiyanın məqsədləri üçün qaytarılmamaq şərti ilə və ya güzəştlə maliyyə resursları verməkdən ötrü əsas ünsürləri bu maddədə göstərilən müvafiq mexanizm yaradılır. Bu Konvensiyanın məqsədləri üçün həmin mexanizm Tərəflərin Konfransının rəhbərliyi altında və onun tövsiyələri nəzərə alınmaqla işləyir və Konfransa tabedir. Mexanizmin fəaliyyəti Tərəflərin Konfransının, ola bilər, ilk müşavirəsində qərar verib yaradacağı təşkilati strukturun köməyi ilə həyata keçirilir. Bu Konvensiyanın məqsədləri üçün Tərəflərin Konfransı bu cür resursların əldə edilməsini və istifadəsini tənzimləyən tədbirləri, strategiyanı, proqram üstünlükləri və meyarları müəyyənləşdirir. Pul payı 20-ci maddədə haqqında danışılan, məbləği vaxtaşırı olaraq Tərəflərin Konfranslarında müəyyənləşdirilən resursların tələbatına uyğun gələn, qabaqcadan güman edilən, adekvat şəkildə və vaxtlı-vaxtında maliyyə vəsaitləri axınının təmin edilməsi zəruriliyi, həmçinin maliyyələşdirmədə iştirak edən Tərəflərin 20-ci maddənin 2-ci bəndində göstərilən siyahıya salınmış xərclərin ağırlığını birgə çəkmələrinin vacibliyi nəzərə alınmaqla verilir. Könüllü pul payları inkişaf etmiş ölkələr olan Tərəflərdən, habelə digər ölkələrdən və digər mənbələrdən də daxil ola bilər. Mexanizm demokratik və açıq idarəetmə sistemi əsasında işləyir.
2. Bu Konvensiyanın məqsədlərinə uyğun olaraq Tərəflərin Konfransı özünün ilk müşavirəsində maliyyə resurslarının öyrənilməsini və istifadəsini, o cümlədən bu cür istifadə və onun qiymətləndirilməsi üzərində müntəzəm nəzarət qoyulmasını tənzimləyən tədbirləri, strategiyanı, proqram üstünlüklərini, həmçinin müfəssəl meyarları və rəhbər prinsipləri müəyyənləşdirir. Maliyyələşdirmə mexanizminin işini idarə etməyin həvalə olunduğu müvafiq təşkilati strukturla məsləhətləşdikdən sonra Tərəflərin Konfransı yuxarıdakı 1-ci bəndin müddəalarını yerinə yetirməkdən ötrü lazım olan tədbirlərə dair qərar qəbul edir.
3. Tərəflərin Konfransı bu Konvensiya qüvvəyə mindiyi gündən sonra iki ildən tez olmayaraq, sonra isə müntəzəm qaydada bu maddəyə müvafiq surətdə yaradılan maliyyələşdirmə mexanizminin səmərəliliyi xülasəsini, o cümlədən yuxarıdakı 2-ci bənddə göstərilən meyarları və rəhbər prinsipləri hazırlayır. O bu cür xülasəni nəzərə alaraq, lazım gələndə, mexanizmin işinin səmərəliliyinin yüksəldilməsinə yönəldilən müvafiq tədbirlər görür.
4. Razılaşan Tərəflər bioloji müxtəlifliyin qorunması və davamlı istifadəsi üçün maliyyə resursları verilməsi məqsədi ilə mövcud maliyyə qurumlarını möhkəmlətmək məsələsini nəzərdən keçirirlər.

Maddə 22. **Digər beynəlxalq konvensiyalarla əlaqə**

1. Bu Konvensiyanın müddəaları hər hansı Razılaşan Tərəfin hər hansı beynəlxalq sazişdən irəli gələn hüquq və vəzifələrinə xələl gətirmir — bu hüquq və vəzifələrin həyata keçirilməsi nəticəsində bioloji müxtəlifliyə ciddi ziyan vurulması halları istisna edilməklə.
2. Dəniz mühitinə gəlincə, Razılaşan Tərəflər bu Konvensiyanın müddəalarını dövlətlərin dəniz hüququnda nəzərdə tutulan hüquq və vəzifələri ilə ziddiyyətə girmədən həyata keçirirlər.

Maddə 23. **Tərəflərin Konfransı**

1. Bununla Tərəflərin Konfransı təsis edilir. Tərəflərin Konfransı bu Konvensiya qüvvəyə mindikdən sonra bir ildən gec olmayaraq Birləşmiş Millətlər Təşkilatı Ətraf mühit üzrə proqramının İcraçı direktoru tərəfindən çağırılır. Sonralar Tərəflərin Konfransı özünün ilk müşavirəsində Tərəflərin Konfransının müəyyən ediləcəyi vaxtaşırılıqla çağırılır.
2. Tərəflərin Konfransının növbədənkənar müşavirələri Konfransın bunu zəruri saydığı hallarda və ya hər hansı Tərəfin yazılı xahişi ilə çağırılır, bu şərtlə ki, həmin xahiş katiblik tərəfindən onların ünvanına göndərildikdən sonrakı altı ay ərzində Tərəflərin azı üçdə biri onu müdafiə etsin.
3. Tərəflərin Konfransı özünün prosedur qaydalarını və təsis edə biləcəyi hər hansı yardımçı orqanlarının prosedur qaydalarını, habelə katibliyin maliyyələşdirilməsini tənzimləyən maliyyə qaydalarını konsensusla razılaşdırır və qəbul edir. O hər növbəti müşavirədə gələn növbəti müşavirəyədək olan maliyyə dövrü üçün büdcə təsdiq edir.
4. Tərəflərin Konfransı bu Konvensiyanın yerinə yetirilməsini müntəzəm surətdə izləyir və bu məqsədlə:
   a) 26-cı maddəyə müvafiq surətdə təqdim edilməli olan informasiyanın forması və verilməsi vaxtaşırılığını müəyyənləşdirir və bu informasiyanı, həmçinin hər hansı yardımçı orqanın təqdim etdiyi məruzələri nəzərdən keçirir;
   b) 25-ci maddəyə müvafiq şəkildə bioloji müxtəlifliyə dair təqdim edilən elmi, texniki və texnoloji tövsiyələri nəzərdən keçirir;
   c) lazım gələndə, 28-ci maddəyə uyğun olaraq protokolları nəzərdən keçirir və qəbul edir;
   d) lazım gələndə, 29-cu və 30-cu maddələrə uyğun olaraq bu Konvensiyaya və ona əlavələrə düzəlişləri nəzərdən keçirir və qəbul edir;
   e) hər hansı protokola, həmçinin ona hər hansı əlavələrə düzəlişləri nəzərdən keçirir, qəbul edir və müvafiq qərar olduqda Tərəflərə bu protokolu qəbul etməyi məsləhət görür;
   f) 30-cu maddəyə uyğun olaraq bu Konvensiyaya yeni əlavələri nəzərdən keçirir və lazım gəldikdə qəbul edir;
   g) bu Konvensiyanın həyata keçirilməsi üçün zəruri hesab edilən yardımçı orqanlar, məsələn, elmi və texniki məsələlər üzrə məsləhət orqanları təsis edir;
   h) bu Konvensiyanın əhatə etdiyi məsələlərə aid konvensiyaların icra orqanları ilə müvafiq əməkdaşlıq formaları işləyib hazırlamaqdan ötrü katiblik vasitəsi ilə həmin orqanlarla əlaqə yaradır; və
   i) bu Konvensiyanın həyata keçirilməsi gedişində toplanan təcrübənin köməyi ilə onun məqsədlərinə nail olmaq üçün tələb edilən hər hansı əlavə tədbirləri

nəzərdən keçirir və qəbul edir.

5. Birləşmiş Millətlər Təşkilatı, onun ixtisaslaşdırılmış və atom enerjisi üzrə beynəlxalq agentlik, həmçinin bu Konvensiyanın tərəfi olmayan hər hansı dövlət Tərəflərin Konfransının müşavirələrində müşahidəçi sifəti ilə təmsil edilə bilərlər. Bioloji müxtəlifliyin qorunmasına və davamlı istifadəsinə aid sahələrdə iş təcrübəsinə malik olub, Tərəflərin Konfransının müşavirəsində müşahidəçi sifəti ilə təmsil edilmək istədiyini katibliyə bildirən hər hansı digər hökumət və ya qeyri-hökumət orqanları və ya idarələri, əgər müşavirədə iştirak edən Tərəflərin heç olmazsa, üçdə biri etiraz etmirsə, müşavirəyə buraxıla bilərlər. Müşahidəçilərin buraxılışı və iştirakı Tərəflərin Konfransının qəbul etdiyi prosedur qaydaları ilə tənzimlənir.

Maddə 24. **Katiblik**

1. Bununla katiblik təsis edilir, ona aşağıdakı funksiyalar həvalə olunur:
   a) Tərəflərin Konfransının müşavirələrini 23-cü maddədə nəzərdə tutulduğu kimi təşkil etmək və xidmət göstərmək;
   b) hər hansı protokolla ona tapşırılan vəzifələri yerinə yetirmək;
   c) bu Konvensiyaya uyğun olaraq ona tapşırılan vəzifələrin yerinə yetirilməsi haqqında məruzələr hazırlamaq və onları Tərəflərin Konfransına təqdim etmək;
   d) digər müvafiq beynəlxalq orqanlarla fəaliyyəti əlaqələndirmək, məsələn, onun funksiyalarının daha səmərəli şəkildə yerinə yetirilməsi üçün tələb oluna bilən inzibati sazişlər və razılaşma sazişləri bağlamaq; və
   e) Tərəflərin Konfransının müəyyən edə biləcəyi digər bu cür vəzifələri yerinə yetirmək.
2. Özünün ilk müşavirəsində Tərəflərin Konfransı katiblik funksiyalarını bu Konvensiyaya uyğun qaydada yerinə yetirməyə hazır olduqlarını bildirmiş səlahiyyətli beynəlxalq təşkilatlar sırasından katiblik təyin edir.

Maddə 25. **Elmi, texniki və texnoloji məsləhətlər üzrə yardımçı orqan**

1. Bununla bu Konvensiyanın həyata keçirilməsindən ötrü Tərəflərin Konfransını və lazım gələrsə, onun digər yardımçı orqanlarını vaxtlı-vaxtında məsləhətlərlə təmin etmək məqsədi ilə elmi, texniki və texnoloji məsləhətlər üzrə yardımçı orqan təsis edilir. Bu orqan bütün Tərəflərin iştirakı üçün açıqdır və çoxsahəli xarakterə malikdir. Oraya müvafiq bilik sahələrində səlahiyyətli hökumət nümayəndələri daxildirlər. Bu orqan öz işinin bütün aspektləri üzrə məruzələr hazırlayıb Tərəflərin Konfransına təqdim edir.
2. Tərəflərin Konfransının rəhbərliyi altında və müəyyənləşdirdiyi prinsiplərə uyğun olaraq, həmçinin onun xahişi ilə bu orqan:
   a) bioloji müxtəlifliyin vəziyyətinə dair elmi və texniki rəylər verir;
   b) bu Konvensiyanın müddəalarına uyğun olaraq görülmüş tədbir növlərinin nəticələri haqqında elmi və texniki rəylər hazırlayır;
   c) bioloji müxtəlifliyin qorunması və davamlı istifadəsi sahəsində yeni, səmərəli və ən müasir texnologiyaları və «nou-hau»ları aşkara çıxarır, bu cür texnologiyaların işlənməsinə və/ və yaxud verilməsinə kömək göstərməyin yollarına və vasitələrinə dair məsləhətlər verir;
   d) bioloji müxtəlifliyin qorunması və davamlı istifadəsi ilə bağlı tədqiqatlar və araşdırmalar sahəsində elmi proqramlara və beynəlxalq əməkdaşlığa dair məsləhətlər verir; və

e) Tərəflərin Konfransının və onun yardımçı orqanlarının bu orqan qarşısında qoya biləcəkləri elmi, texniki, texnoloji və metodoloji xarakterli suallara cavab verir.
3. Tərəflərin Konfransı bu orqanın funksiyalarını, fəaliyyət dairəsini, təşkilini və xarakterini dəqiqləşdirə bilər.

Maddə 26. **Məruzələr**

Hər Razılaşan Tərəf bu Konvensiyanın müddəalarını həyata keçirmək üçün gördüyü tədbirlər və bu Konvensiyanın məqsədlərinə nail olmaq baxımından onların səmərəliliyi haqqında məruzələr hazırlayıb Tərəflərin Konfransının müəyyən edəcəyi vaxtaşırılıqla Tərəflərin Konfransına təqdim edir.

Maddə 27. **Mübahisələrin nizama salınması**

1. Razılaşan Tərəflər arasında bu Konvensiyanın təfsiri və ya tətbiqi barəsində mübahisə yarananda mənafeyi olan tərəflər mübahisəni danışıqlar yolu ilə nizama salmağa çalışırlar.
2. Mənafeyi olan tərəflər danışıqlar yolu ilə razılıq əldə etməyə nail olmayanda onlar birlikdə üçüncü tərəfin xeyirxah xidmətlərindən istifadə edə və ya ona vasitəçi olması xahişi ilə müraciət edə bilərlər.
3. İqtisadi inteqrasiyaya girmiş dövlət və ya məhəlli təşkilat bu Konvensiyanı ratifikasiya edərkən, bəyənərkən və ya ona qoşularkən depozitariyə belə bir yazılı ərizə göndərə bilərlər ki, yuxarıdakı 1-ci bəndin və ya 2-ci bəndin müddəalarına uyğun şəkildə həll edilməyən mübahisə məsələsində onlar mübahisənin nizama salınmasının aşağıdakı vasitələrindən birini və ya hər ikisini icbari vasitə kimi qəbul edirlər:
   a) II Əlavənin 1-ci hissəsində verilmiş iş qaydasına uyğun olaraq arbitraj araşdırmasını;
   b) mübahisənin Beynəlxalq Məhkəməyə verilməsini.
4. Əgər mübahisə tərəfləri yuxarıdakı 3-cü bəndə uyğun olaraq eyni proseduru və ya onlardan hər hansı birini seçmirlərsə, mübahisəyə, tərəflər başqa razılığa gəlməyiblərsə, II Əlavənin 2-ci hissəsinə müvafiq olaraq razılaşma proseduru əsasında baxılır.
5. Bu maddənin müddəaları hər hansı protokol barəsində tətbiq edilir-əgər həmin protokolda başqa hal nəzərdə tutulmayıbsa.

Maddə 28. **Protokolların qəbul edilməsi**

1. Razılaşan Tərəflər bu Konvensiyaya dair protokolların hazırlanmasında və qəbul olunmasında əməkdaşlıq edirlər.
2. Protokollar Tərəflərin Konfransının müşavirəsində qəbul edilir.
3. Katiblik təklif edilən hər hansı protokolun mətnini bu cür müşavirə keçirilməsindən çoxu altı ay əvvəl Razılaşan Tərəflərə göndərir.

Maddə 29. **Konvensiyaya və ya protokollara düzəlişlər**

1. Hər hansı Razılaşan Tərəf bu Konvensiyaya düzəlişlər təklif edə bilər. Protokolun hər hansı Tərəfi bu protokola düzəlişlər təklif edə bilər.
2. Bu Konvensiyaya düzəlişlər Tərəflərin Konfransının müşavirəsində qəbul edilir. Hər hansı protokola düzəlişlər müvafiq protokolun Tərəflərinin müşavirəsində qəbul edilir. Katiblik bu Konvensiyaya və ya hər hansı protokola düzəlişin mətnini, bu protokolda

başqa hal nəzərdə tutulmamışdırsa, qəbul olunması təklif edilən müşavirənin keçirilməsinə azı altı ay qalmış baxılan sənədin Tərəflərinə göndərir. Katiblik təklif olunan düzəlişlərin mətnini bu Konvensiyanı imzalamış Tərəflərə də məlumat üçün göndərir.

3. Tərəflər bu Konvensiyaya və ya hər hansı protokola təklif olunan hər hansı düzəliş barəsində konsensus əsasında razılıq əldə edilməsi üçün bütün səyləri göstərirlər. Əgər konsensus əldə edilməsi üçün bütün imkanlar tükənəndən sonra da razılığa gəlmək mümkün olmamışdırsa, sonuncu vasitə kimi, düzəliş müşavirədə olub səsvermədə iştirak edənlərin səslərinin üçdə iki çoxluğu ilə qəbul edilir.
4. Depozitari düzəlişlərin ratifikasiyası, qəbul edilməsi və ya bəyənilməsi haqqında düzəlişi yazılı şəkildə alır. Yuxarıdakı 3-cü bəndə uyğun olaraq qəbul edilən düzəlişlər onunla razılaşan Tərəflər üçün bu Konvensiyanın Razılaşan Tərəflərinin və ya müvafiq protokolun Tərəflərinin, əgər bu protokolda başqa hal nəzərdə tutulmamışdırsa, azı üçdə iki hissəsinin ratifikasiya etməsinə, qəbul etməsinə və ya bəyənməsinə dair sənədlər saxlanmağa verəndən sonra doxsanıncı gün qüvvəyə minir. Bundan sonra düzəlişlər hər hansı digər Tərəf üçün bu düzəlişlərin ratifikasiyası, qəbul edilməsi və ya bəyənilməsi haqqında sənədləri həmin Tərəf saxlanmağa təhvil veriləndən sonra doxsanıncı gün qüvvəyə minir.
5. Bu maddənin məqsədi üçün «müşavirədə olub səsvermədə iştirak edənlər» ifadəsi orada olub «lehinə» və «əleyhinə» səs verən Tərəflər deməkdir.

Maddə 30. **Əlavələrin qəbul edilməsi və onlara düzəlişlər keçirilməsi**

1. Bu Konvensiyaya və ya hər hansı protokola əlavələr müvafiq surətdə bu Konvensiyanın və ya həmin protokolun ayrılmaz hissəsidir və əgər açıq-aydın başqa hal nəzərdə tutulmamışdırsa, bu Konvensiyaya və ya ona aid protokollara istinad eyni zamanda bunların hər hansı əlavələrinə istinad deməkdir. Bu cür əlavələr prosedur, elmi, texniki və inzibati məsələlərlə məhdudlaşdırılır.
2. Əgər hər hansı protokolda ona əlavəyə dair başqa hal nəzərdə tutulmursa, bu Konvensiyaya yeni əlavələrin və ya hər hansı protokola əlavələrin təklif olunmasının, qəbul edilməsinin və qüvvəyə minməsinin aşağıdakı prosedurları tətbiq edilir:
   a) bu Konvensiyaya və ya hər hansı protokola əlavələr 29-cu maddədə göstərilən prosedura uyğun şəkildə təklif olunur və qəbul edilir;
   b) bu Konvensiyaya yeni əlavəni və ya Tərəf olduğu hər hansı protokola əlavə qəbul edə bilməyən hər hansı Tərəf depozitarinin onu təhvil götürməsi haqqındakı bildirişi göndərdiyi gündən sonra bir il ərzində bu barədə depozitariyə yazılı şəkildə məlumat verir. Depozitari hər hansı bu cür məlumat aldığı barədə dərhal bütün Tərəflərə xəbər verir. Hər hansı Tərəf əvvəllər göndərdiyi etiraz ərizəsini istənilən vaxt geri götürə bilər, bundan sonra aşağıdakı c) yarımbəndinin müddəalarına əməl edilməklə, əlavə həmin Tərəf üçün qüvvəyə minir;
   c) təhvil götürüldüyü barəsində depozitarinin xəbər verdiyi gündən bir il keçəndən sonra əlavə bu Konvensiyanın və ya hər hansı müvafiq protokolun yuxarıdakı b) yarımbəndinin müddəasına uyğun şəkildə məlumat təqdim etməyən bütün Tərəflər üçün qüvvəyə minir.
3. Bu Konvensiyaya və ya hər hansı protokola əlavələrə düzəlişlərin təklif olunması, qəbul edilməsi və qüvvəyə minməsi Konvensiyaya əlavələrin və ya hər hansı protokola əlavələrin təklif olunması, qəbul edilməsi və qüvvəyə minməsi üçün müəyyənləşdirilmiş prosedurun eyni olan prosedurla tənzimlənir.
4. Əgər yeni əlavə və ya əlavəyə düzəliş bu Konvensiyaya və ya hər hansı protokola

düzəliş keçirilməsi ilə bağlıdırsa, bu cür yeni əlavə və ya düzəliş yalnız o vaxt qüvvəyə minir ki, bu Konvensiya və ya müvafiq protokola düzəliş ondan əvvəl qüvvəyə minmiş olsun.

Maddə 31. **Səsvermə hüququ**

1. Aşağıdakı 2-ci bənddə nəzərdə tutulan hal istisna olmaqla, bu Konvensiyanın və ya hər hansı protokolun hər Razılaşan Tərəfi bir səsə malikdir.
2. İqtisadi inteqrasiyanın məhəlli təşkilatları öz səlahiyyətlərinə aid məsələlərdə Konvensiyanın və ya müvafiq protokolun Razılaşan Tərəfləri olan üzv dövlətlərin sayına bərabər səslərə malik olmaqla özlərinin səsvermə hüququndan istifadə edirlər. Əgər üzv dövlətlər özləri səsvermə hüququndan istifadə edirlərsə, bu təşkilatlar səsvermə hüquqlarından istifadə etmirlər və əksinə.

Maddə 32. **Bu Konvensiya ilə ona aid protokollar arasında əlaqə**

1. İqtisadi inteqrasiya dövləti və ya məhəlli təşkilatı yalnız o halda hər hansı protokolun Tərəfi ola bilər ki, eyni zamanda bu Konvensiyanın Razılaşan Tərəfi olsun və ya belə bir Tərəfə çevrilsin.
2. Hər hansı protokola müvafiq qərarları ancaq bu protokolun Tərəfləri qəbul edirlər. Protokolu ratifikasiya etməmiş, qəbul etməmiş və ya bəyənməmiş Razılaşan Tərəf həmin protokolun Tərəflərinin hər hansı müşavirəsində müşahidəçi sifəti ilə iştirak edə bilər.

Maddə 33. **İmzalanma**

Bu Konvensiya 1992-ci il iyunun 5-dən 1992-ci il iyunun 14-dək Rio-de-Janeyroda, habelə 1992-ci il iyunun 15-dən 1993-cü il iyunun 4-dək Nyu-Yorkda, Birləşmiş Millətlər Təşkilatının Mərkəzi idarələrində iqtisadi inteqrasiyanın bütün dövlətlərinin və hər hansı məhəlli təşkilatının imzalanması üçün açıqdır.

Maddə 34. **Ratifikasiya, qəbul və ya bəyənmə**

1. Bu Konvensiya və hər hansı protokol iqtisadi inteqrasiyanın dövlətləri və məhəlli təşkilatları tərəfindən ratifikasiya olunmalı, qəbul edilməli və ya bəyənilməlidir. Ratifikasiya, qəbul və ya bəyənmə haqqında sənədlər saxlanmaq üçün depozitariyə təhvil verilir.
2. Konvensiyanın üzvü olan dövlətlərdən heç biri Razılaşan Tərəf olmadığı zaman yuxarıdakı 1-ci bənddə göstərilən və bu Konvensiyanın Razılaşan Tərəfinə çevrilən hər hansı təşkilat müvafiq surətdə Konvensiyadan və ya protokoldan irəli gələn bütün öhdəliklərlə bağlıdır. Bu cür təşkilatın üzvü olan bir və ya bir neçə dövlət Konvensiyanın və ya müvafiq protokolun Razılaşan Tərəfidirsə, həmin təşkilat və onun üzvü olan dövlətlər özlərinin müvafiq surətdə Konvensiyadan və ya protokoldan irəli gələn öhdəliklərinin yerinə yetirilməsinə dair müvafiq vəzifələri barəsində qərar qəbul edirlər. Belə hallarda təşkilat və üzv olan dövlətlər Konvensiyadan və ya müvafiq protokoldan irəli gələn hüquqlardan eyni zamanda istifadə edə bilməzlər.
3. Yuxarıdakı 1-ci bənddə göstərilən təşkilatlar özlərinin ratifikasiya, qəbul və ya bəyənmə barəsindəki sənədlərindən Konvensiyanın və ya müvafiq protokolun tənzimlədiyi məsələlərdə özlərinin səlahiyyət dairəsi haqqında məlumat verirlər.

Bu təşkilatlar özlərinin səlahiyyət dairəsindəki hər hansı müvafiq dəyişiklikləri də depozitariyə bildirirlər.

Maddə 35. **Qoşulma**

1. Bu Konvensiya və ya hər hansı protokol Konvensiyanın və ya müvafiq protokolun imzalanmaq üçün bağlandığı gündən sonra iqtisadi inteqrasiyaya girən dövlətlərin və məhəlli təşkilatların qoşulması üçün açıqdır.
2. Yuxarıdakı 1-ci bənddə göstərilən təşkilatlar özlərinin qoşulma barəsindəki sənədlərində Konvensiyanın və ya müvafiq protokolun tənzimlədiyi məsələlərdə özlərinin səlahiyyət dairəsi haqqında məlumat verirlər. Bu təşkilatlar özlərinin səlahiyyət dairəsindəki hər hansı müvafiq dəyişiklikləri də depozitariyə bildirirlər.
3. 34-cü maddənin 2-ci bəndinin müddəaları iqtisadi inteqrasiyanın bu Konvensiyaya və ya hər hansı protokola qoşulan məhəlli təşkilatlarına tətbiq edilir.

Maddə 36. **Qüvvəyə minmə**

1. Bu Konvensiya ratifikasiya, qəbul, bəyənmə və ya qoşulma haqqında otuzuncu sənəd saxlanmaq üçün təhvil veriləndən sonrakı doxsanıncı gün qüvvəyə minir.
2. Hər hansı protokol ratifikasiya, qəbul, bəyənmə və ya qoşulma haqqındakı sənədlərin həmin protokolda göstərilən gün təhvil verildiyindən sonrakı doxsanıncı gün qüvvəyə minir.
3. Bu Konvensiyanı ratifikasiya edən, qəbul edən, bəyənən, yaxud ratifikasiya, qəbul, bəyənmə və ya qoşulma haqqındakı sənəd saxlanmaq üçün təhvil veriləndən sonra ona qoşulan hər Razılaşan Tərəf üçün Konvensiya həmin Razılaşan Tərəfin ratifikasiya, bəyənmə və ya qoşulma haqqında öz sənədini saxlanmaq üçün təhvil verəndən sonrakı doxsanıncı gün qüvvəyə minir.
4. Razılaşan Tərəf üçün hər hansı protokol, əgər onda başqa hal nəzərdə tutulmamışdırsa, bu protokolu ratifikasiya edən, qəbul edən və ya bəyənən, yaxud yuxarıdakı 2-ci bəndə uyğun olaraq, həmin Razılaşan Tərəfin ratifikasiya, qəbul, bəyənmə və ya qoşulma haqqında öz sənədini saxlanmaqdan ötrü təhvil verdikdən sonrakı doxsanıncı gün və ya Konvensiyanın bu Razılaşan Tərəf üçün qüvvəyə mindiyi gün, hansının sonra baş verməsindən asılı olaraq, qüvvəyə minir.
5. Yuxarıdakı 1-ci və 2-ci bəndlərin məqsədləri üçün iqtisadi inteqrasiyanın məhəlli təşkilatına saxlanmaqdan ötrü təhvil verilən hər hansı sənədə bu təşkilatın üzvü olan dövlətlərin saxlanmaqdan ötrü təhvil verdikləri sənədlərə əlavə kimi baxılmır.

Maddə 37. **Qeyd-şərtlər**

Bu Konvensiyaya heç bir qeyd-şərtə yol verilmir.

Maddə 38. **Konvensiyadan çıxış**

1. Bu Konvensiyanın hər hansı Razılaşan Tərəf üçün qüvvəyə mindiyi gündən iki il keçəndən sonra istənilən vaxt həmin Razılaşan Tərəf depozitariyə yazılı bildiriş göndərib Konvensiyadan çıxa bilər.
2. Hər hansı bu cür çıxış depozitarinin bildirişi aldığı gündən bir il keçəndən sonra və ya çıxış haqqında bildirişdə göstərilən daha sonrakı vaxt qüvvəyə minir.
3. Hər hansı Razılaşan Tərəf bu Konvensiyadan çıxırsa, Tərəfi olduğu hər hansı

protokoldan da çıxmış sayılır.

Maddə 39. **Maliyyələşdirmənin müvəqqəti qaydası**

21-ci maddənin müddəalarına müvafiq şəkildə tam yenidən qurulması şərti ilə, Birləşmiş Millətlər Təşkilatının İnkişaf proqramının qlobal ətraf mühit Fondu, Birləşmiş Millətlər Təşkilatının ətraf mühit üzrə Proqramı və Beynəlxalq Rekonstruksiya və İnkişaf Bankı bu Konvensiyanın qüvvəyə minməsi ilə Tərəflərin Konfransının ilk müşavirəsi arasındakı dövrdə və ya 21-ci maddəyə uyğun olaraq, Tərəflərin Konfransı bu cür təşkilat strukturunu müəyyənləşdirənədək 21-ci maddədə nəzərdə tutulan müvəqqəti təşkilat strukturu kimi çıxış edirlər.

Maddə 40. **Katiblik barəsindəki müvəqqəti tədbirlər**

Birləşmiş Millətlər Təşkilatının ətraf mühit üzrə Proqramının icraçı direktoru bu Konvensiyanın qüvvəyə minməsi ilə Tərəflərin Konfransının ilk müşavirəsi arasındakı dövrdə 24-cü maddənin 2-ci bəndində nəzərdə tutulan müvəqqəti katiblik yaradır.

Maddə 41. **Depozitari**

Bu Konvensiyanın və hər hansı protokolun depozitarisi funksiyalarını Birləşmiş Millətlər Təşkilatının Baş katibi yerinə yetirir.

Maddə 42. **Mətnlərin tam uyğunluğu**

İngilis, ərəb, ispan, çin, rus və fransız dillərindəki mətnlərinin bir-birinə tam uyğun olduğu bu Konvensiyanın əsli saxlanmaq üçün Birləşmiş Millətlər Təşkilatının Baş katibinə təhvil verilir.

BUNLARI TƏSDİQ EDƏRƏK, lazımi səlahiyyətlər verilmiş nümayəndələr bu Konvensiyanı imzaladılar.

Bir min doqquz yüz doxsan ikinci il iyunun beşində Rio-de-Janeyroda imzalanmışdır.

## ƏLAVƏ 1

## MÜƏYYƏNLƏŞDİRMƏ VƏ MONİTORİNQ

1. Ekoloji sistemlər və məskənlər: miqrasiya edən növlər üçün zəruri sayılan, yüksək dərəcədə müxtəlifliklə, endemik və təhlükə altında olan növlərin çoxluğu və ya vəhşi canlı təbiəti ilə səciyyələnir; sosial, iqtisadi, mədəni və ya elmi əhəmiyyətə malikdir; yaxud reprezentativ və ya nadir xarakterlidir; yaxud əsas təkamül prosesi ilə və ya digər bioloji proseslərlə bağlıdır;
2. Növlər və birliklər: təhlükə altındadır; əhliləşdirilmiş və ya yetişdirilən növlərin vəhşi qohum növləridir; tibbi, kənd təsərrüfatı və digər iqtisadi qiyməti vardır; yaxud sosial, elmi və ya mədəni əhəmiyyətə malikdir; yaxud bioloji müxtəlifliyin qorunması və davamlı istifadəsi sahəsində tədqiqatlar üçün, məsələn, indikator növləri kimi mühüm rol oynayır; və
3. Təsvir edilən genomlar və genlər sosial, elmi və ya iqtisadi əhəmiyyətə malikdir.

## ƏLAVƏ 1
## 1-ci hissə
## ARBİTRAJ ARAŞDIRMASI PROSEDURU

Maddə 1

İddiaçı Tərəf Katibliyə bildirir ki, Tərəflər 27-ci maddəyə uyğun olaraq mübahisəni arbitraj araşdırmasına verirlər. Bildirişdə arbitraj araşdırmalarının predmeti, o cümlədən Konvensiyanın və ya protokolun təfsiri, yaxud tətbiqi mübahisə doğuran maddələri göstərilir. Əgər Tərəflər məhkəmə sədri təyin olunanadək mübahisənin predmeti haqqında razılığa gəlmirlərsə, predmet arbitraj məhkəməsi tərəfindən müəyyən edilir. Katiblik bu minvalla aldığı informasiyanı bu Konvensiyanın və ya müvafiq protokolun mənafeyi olan bütün Razılaşan Tərəflərinə göndərir.

Maddə 2

1. İki tərəf arasında mübahisə zamanı arbitraj məhkəməsi üç üzvdən ibarət olur. Mübahisə tərəflərinin hərəsi bir arbitr təyin edir və bu minvalla təyin olunan iki arbitr qarşılıqlı razılıq əsasında məhkəmənin sədri funksiyasını yerinə yetirən üçüncü arbitr təyin edir. Üçüncü arbitr mübahisə tərəflərindən birinin vətəndaşı ola bilməz, bu tərəflərdən birinin ərazisində gündəlik yaşayış yerinə malik ola bilməz və ya onun bu işə hər hansı digər şəkildə dəxli ola bilməz.
2. İkidən çox tərəf arasında mübahisə zamanı mübahisədə ümumi mənafeyi olan tərəflər qarşılıqlı razılaşma əsasında bir məhkəmə üzvü təyin edirlər.
3. Hər hansı vakansiya ilkin təyinat üçün nəzərdə tutulan prosedura müvafiq qaydada doldurulur.

Maddə 3

1. Əgər ikinci arbitr təyin ediləndən sonra iki ay keçənədək arbitraj məhkəməsinin sədri təyin olunmursa, Tərəflərin xahişi ilə onu sonrakı iki ay ərzində Birləşmiş Millətlər Təşkilatının Baş katibi təyin edir.
2. Əgər mübahisənin tərəflərindən biri xahişi alandan sonra iki ay ərzində arbitr təyin etmirsə, digər tərəfin ixtiyarı var ki, bu barədə Baş katibə məlumat versin; Baş katib sonrakı iki ay ərzində arbitr təyin edir.

Maddə 4

Arbitraj məhkəməsi öz qərarlarını bu Konvensiyanın, hər hansı müvafiq protokolun müddəalarına və beynəlxalq hüquq normalarına uyğun şəkildə çıxarır.

Maddə 5

Əgər bu mübahisənin tərəfləri başqa razılığa gəlməyiblərsə, arbitraj məhkəməsi öz prosedur qaydalarını müəyyən edir.

Maddə 6

Arbitraj məhkəməsi Tərəflərdən birinin xahişi ilə lazımi müvəqqəti müdafiə tədbirləri tövsiyə edə bilər.

Maddə 7

Mübahisənin tərəfləri arbitraj məhkəməsinin işinə kömək göstərirlər və məsələn, özlərinin sərəncamında olan bütün imkanlardan istifadə edirlər:

a) işə aid bütün sənədlər, informasiya və materialları məhkəməyə təqdim edirlər; və
b) lazım gələndə ona şahidlər, yaxud ekspertlər çağırmaq və onların ifadələri ilə tanış olmaq imkanı yaradırlar.

Maddə 8

Tərəflər arbitraj məhkəməsinin araşdırması gedişində məxfi qaydada aldıqları hər hansı informasiyanın məxfiliyini təmin etməyə borcludurlar.

Maddə 9

Əgər arbitraj məhkəməsi işin konkret hallarını əsas götürməklə başqa qərar qəbul etmirsə, məhkəmə xərcləri Tərəflər arasında tən bölünür. Məhkəmə özünün bütün xərclərinin qeydiyyatını aparır və bu xərclər barəsində yekun hesabatını Tərəflərə təqdim edir.

Maddə 10

Mübahisə predmetindən işə dair qərarın toxuna biləcəyi hüquq xarakterli mənafeyi olan hər hansı Razılaşan Tərəf məhkəmənin razılığı ilə işə baxılmasında iştirak etmək hüququna malikdir.

Maddə 11

Məhkəmə bilavasitə mübahisə predmetində doğan qarşılıqlı iddialara baxıb onların barəsində qərar qəbul edə bilər.

Maddə 12

Arbitraj məhkəməsi prosedur məsələləri və işin mahiyyətinə dair məsələlər barəsində öz üzvlərinin səs çoxluğu ilə qərar qəbul edir.

Maddə 13

Əgər mübahisənin tərəflərindən biri arbitraj məhkəməsinə gəlmirsə və ya öz işi barəsində müdafiə məqsədi ilə çıxış edə bilmirsə, digər tərəf məhkəmədən araşdırmanı davam etdirməyi və qəti qərar çıxarmağı xahiş edə bilər. Bir tərəfin olmaması və ya onun öz işi barəsində müdafiə məqsədi ilə çıxış edə bilməməsi araşdırma üçün əngəl ola bilməz. Özünün qəti qərarını qəbul edənədək arbitraj məhkəməsi iddianın faktik və hüquqi cəhətdən əsaslandırılmasına əmin olmalıdır.

Maddə 14

Məhkəmə özünün tam şəkildə təsis olunduğu tarixdən sonra beş ay ərzində, əgər o bu müddəti çoxu beş aylıq yeni müddətə azaltmağı lazım bilmirsə, qəti qərar qəbul edir.

Maddə 15

Arbitraj məhkəməsinin qəti qərarı mübahisəsinin predmeti ilə məhdudlaşdırılır və qərarın əsaslandırıldığı motivlər şərh edilir. Qərarda onun qəbul olunmasında iştirak etmiş üzvlərin adları və qəti qərarın qəbul edildiyi tarix göstərilir.

Maddə 16

Qərar mübahisə tərəfləri üçün məcburidir. Tərəflər şikayət vermək proseduru haqqında qabaqcadan razılığa gəlməyiblərsə, qərardan şikayət vermək olmaz.

Maddə 17

Tərəflər arasında məhkəmənin qəti qərarının şərhi və ya yerinə yetirilməsi qaydası haqqında yarana bilən hər hansı fikir ayrılığı məsələsini hər hansı tərəf bu qərarı çıxarmış arbitraj məhkəməsində baxılmağa verə bilər.

## 2-ci hissə
## RAZILAŞDIRMA PROSEDURU

Maddə 1

Razılaşdırıcı komissiya mübahisə tərəflərindən birinin xahişi ilə yaradılır. Əgər tərəflər başqa razılığa gəlməyiblərsə, komissiya beş üzvdən ibarət olur; mənafeyi olan hər tərəf onların ikisini təyin edir, sədri isə bu üzvlər birlikdə seçirlər.

Maddə 2

İkidən çox tərəfin iştirak etdiyi mübahisə zamanı ümumi mənafeyi olan tərəflər qarşılıqlı razılığa gələrək, özlərinin komissiyadakı üzvlərini birlikdə təyin edirlər. Mənafeləri fərqlənən iki və ya daha çox tərəf varsa, yaxud onların mənafelərinin eyni olduğu barədə razılıq yoxdursa, Tərəflər üzvləri ayrılıqda təyin edirlər.

Maddə 3

Əgər razılaşdırıcı komissiya yaradılması haqqında xahişin təqdim edildiyi tarixdən sonra iki ay ərzində tərəflər öz nümayəndələrini təyin etmirlərsə, Birləşmiş Millətlər Təşkilatının Baş katibi, bu cür xahişi təqdim edən tərəfin müvafiq müraciəti olduqda, sonrakı iki ay ərzində komissiyanın üzvlərini təyin edir.

Maddə 4

Əgər komissiyanın sonuncu üzvləri təyin edildikdən sonra iki ay ərzində ra-zılaşdırıcı komissiyanın sədri seçilmirsə, Birləşmiş Millətlər Təşkilatının Baş katibi tərəflərdən birinin

xahişi olduqda sonrakı iki ay ərzində sədri təyin edir.

Maddə 5

Razılaşdırıcı komissiya öz qərarlarını üzvlərinin səs çoxluğu ilə qəbul edir. Əgər mübahisənin tərəfləri başqa razılığa gəlməyiblərsə, o öz prosedurunu müəyyən edir. Komissiya mübahisənin həlli üçün təklif irəli sürür və tərəflər bu təklifi can-başla müzakirə edirlər.

Maddə 6

Razılaşdırıcı komissiyanın səlahiyyəti haqqında fikir ayrılığı yarandıqda məsələ bu komissiya tərəfindən həll edilir.

## «Bitki mühafizəsi haqqında» Beynəlxalq Konvensiyaya qoşulmaq barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Azərbaycan Respublikası «Bitki mühafizəsi haqqında» 1951-ci il dekabrın 6-da Roma şəhərində qəbul edilmiş Beynəlxalq Konvensiyaya qoşulsun.
2. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

*Azərbaycan Respublikasının Prezidenti* *Heydər ƏLİYEV*

Bakı şəhəri, 14 mart 2000-ci il № 831-IQ
«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir
(30 iyun 2000-ci il, № 6, maddə 393)

## Bitki mühafizəsi haqqında Beynəlxalq Konvensiya

## Preambula

Razılığa gələn Hökumətlər bitkilərin və bitkiçilik məhsullarının xəstəlik və ziyanvericiləri ilə mübarizə işində beynəlxalq əməkdaşlığın və bu xəstəlik və ziyanvericilərin milli sərhədlərdən kənara çıxarılmasının qarşısının alınmasının faydalılığını nəzərə alaraq və buna istiqamətləndirilmiş tədbirlərin sıx əlaqələndirilməsinin təmin olunmasını arzu edərək aşağıdakılar barədə razılığa gəlmişlər.

Maddə 1. **Məqsəd və öhdəliklər**

1. Bitki və bitkiçilik məhsullarının xəstəlik və ziyanvericilərinin gətirilməsi və yayılmasının qarşısını almaqdan ötrü birgə və səmərəli fəaliyyəti təmin etmək və bunlarla mübarizə tədbirlərinə kömək etmək üçün Razılığa gələn Hökumətlər bu Konvensiyada və III maddəyə əsasən qəbul olunmuş əlavə sazişlərdə nəzərdə tutulan qanunvericilik tədbirləri, texniki və inzibati tədbirlər görməyi öhdələrinə götürürlər.
2. Razılığa gələn hər bir hökumət öz ərazisində bu Konvensiyanın bütün tələblərinin yerinə yetirilməsi üçün öz üzərinə məsuliyyət götürür.

Maddə 2. **Tətbiq sahəsi**

1. Bu Konvensiyada «bitki» termini Razılığa gələn Hökumətlərin bu Konvensiyanın VI maddəsinə əsasən idxalına nəzarət olunmasını və ya bu Konvensiyanın IV maddəsinin 1-ci paraqrafının («a» bəndinin) iv yarımbəndinə və V maddəsinə əsasən fitosanitar vəziyyətinin təsdiq olunmasını lazım bildikləri canlı bitkiləri və toxum da daxil olmaqla, bitki hissələrini bildirir.
   «Bitkiçilik məhsulları» termini «bitki» tərifinin əhatə etmədiyi emal olunmamış məhsulları və toxum da daxil olmaqla, bitki mənşəli üyüdülmüş məhsulları bildirir.
2. Razılığa gələn Hökumətlər faydalı hesab edərlərsə, bu Konvensiyanın müddəaları bitki və bitkiçilik məhsullarının beynəlxalq daşımalarında tətbiq olunan anbarlara, rezervuarlara, nəqliyyat vasitələrinə, taraya və torpaq da daxil olmaqla, hər cür başqa qablaşdırma materiallarına tətbiq edilə bilər.
3. Bu Konvensiya xüsusən beynəlxalq ticarətdə böyük əhəmiyyət verilən bitki xəstəlikləri və ziyanvericilərini nəzərdə tutur.

Maddə 3. **Əlavə sazişlər**

1. Ayrı-ayrı rayonlara, müəyyən xəstəliklərə və ya ziyanvericilərə, müəyyən bitkilərə və bitkiçilik məhsullarına, bitkilərin və bitkiçilik məhsullarının müəyyən beynəlxalq daşınma üsullarına tətbiq olunan və ya bu Konvensiyanın müddəalarını başqa cür tamamlayan əlavə Sazişləri Birləşmiş Millətlərin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (bundan sonra «FAO» adlandırılacaqdır) Razılığa gələn Hökumətlərdən birinin tövsiyəsi və ya təşəbbüsü ilə bitki mühafizəsi sahəsində ayrıca diqqət və ya ayrıca tədbirlər tələb edən xüsusi problemlərin həll olunması məqsədilə təklif edə bilər.
2. Hər hansı belə əlavə saziş FAO-nun Nizamnaməsinin, Qaydalarının və Prosedurunun müddəalarına uyğun olaraq qəbul edildikdən sonra Razılığa gələn hər bir Hökumət üçün qüvvəyə minir.

Maddə 4. **Bitki mühafizəsi üzrə milli təşkilat**

1. Razılığa gələn hər bir Hökumət ən qısa müddətdə öz imkanları daxilində tədbirlər görür ki:
   a) bitki mühafizəsi sahəsində aşağıdakı əsas funksiyaları olan rəsmi təşkilat yaradılsın:
      1) xüsusən bitki xəstəlikləri və ziyanvericilərinin olmasını, əmələ gəlməsini və yayılmasını aşkara çıxarmaq məqsədilə kök üstə bitkilərin, becərilmiş torpaqların (o cümlədən tarlaların, plantasiyaların, şitilliklərin, tingliklərin, bağların və oranjereyaların), anbarlarda və daşınma prosesində bitkilərin və bitkiçilik məhsullarının müayinəsi;
      2) beynəlxalq ticarət obyekti olan bitkilərin və bitkiçilik məhsullarının müayinəsi, bitkilərin və bitkiçilik məhsullarının xəstəlik və ziyanvericilərinin təsadüfən yayıcılarına çevrilə biləcək şəraitdə olan idxalat və ixracat şeyləri və mallarının imkan daxilində müayinəsi, beynəlxalq mübadilədə həm bitkilərin və bitkiçilik məhsulları, həm də başqa məhsullar üçün, xüsusən bitkilərin və bitkiçilik məhsullarının xəstəlikləri və ziyanvericilərinin milli sərhədlərdən kənara çıxıb yayılmasına yol verməmək üçün istifadə olunan anbar binalarının və hər növ nəqliyyat vasitələrinin müayinəsi və onlara nəzarət edilməsi;
      3) beynəlxalq ticarət obyekti olan bitkilərin və bitkiçilik məhsullarının, eləcə də taranın, anbar binalarının və daşınma üçün istifadə olunan bütün nəqliyyat vasitələrinin dezinseksiya və dezinfeksiyasının aparılması;
      4) ixrac olunan bitkilərin və bitkiçilik məhsullarının fitosanitar vəziyyəti və mənşəyi barədə vəsiqələrin (bundan sonra «fitosanitar vəsiqələri» adlandırılacaqdır) verilməsi;
   b) bitkilərin və bitkiçilik məhsullarının xəstəlik və ziyanvericiləri haqqında, onlara qarşı profilaktik tədbirlər və onlarla mübarizə tədbirləri haqqında məlumatın dövlət daxilində yayılması;
   c) bitki mühafizəsi sahəsində axtarış və araşdırmaların aparılması.
2. Hər bir Razılığa gələn Hökumət FAO-nun Baş Direktoruna bitki mühafizəsi üzrə öz milli təşkilatını təsvir edən məlumat təqdim edir və bu təşkilatda olan dəyişiklikləri ona bildirir; FAO-nun Baş Direktoru bu məlumatı Razılığa gələn bütün Hökumətlərə çatdırır.

Maddə 5. **Fitosanitar vəsiqələri**

1. Razılığa gələn hər bir Hökumət Razılığa gələn başqa Hökumətlərin bitki mühafizəsi sahəsində müəyyən etdikləri qaydalara, habelə aşağıdakı müddəalara uyğun olaraq fitosanitar vəsiqələrinin verilməsi üçün tədbirlər görür:
   a) müayinə aparılması və fitosanitar vəsiqələrinin verilməsi elə şəraitdə fəaliyyət göstərən, elə bilik və məlumatlara malik olan, texniki cəhətdən səriştəli və müvafiq qaydada vəkil edilmiş vəzifəli şəxslər tərəfindən (və ya onların rəhbərliyi altında) həyata keçirilir ki, bu idxalatçı ölkənin hakimiyyət orqanlarına həmin vəsiqələri etibar edilési sənədlər kimi qəbul etmək imkanı versin;
   b) əkilmək və ya çoxaldılmaq üçün nəzərdə tutulan bitkilər barədə vəsiqələr bu Konvensiyaya Əlavədə verilmiş forma üzrə tərtib edilir və onlarda idxalçı ölkənin hakimiyyət orqanları tərəfindən tələb olunan başqa əlavə məlumatlar

olur. Bu vəsiqə nümunəsindən digər bitkilər və bitkiçilik məhsulları barəsində də istifadə etmək olar; bir şərtlə ki, bu, məqsədəuyğun olsun və idxalçı ölkənin tələblərinə zidd olmasın;

c) vəsiqələrdə heç bir düzəliş və natamamlığa yol verilmir.

2. Razılığa gələn hər bir Hökumət öhdəsinə götürür ki, əkilmək və ya çoxaldılmaq üçün ölkəsinə idxal olunan bitkilərdən ötrü bu Konvensiyaya Əlavədə verilən nümunəyə uyğun gəlməyən fitosanitar vəsiqələr tələb etməyəcəkdir.

Maddə 6. **İdxal olunan yüklərə dair tələblər**

1. Razılığa gələn Hökumətin tam ixtiyarı var ki, öz ərazisinə bitki xəstəlikləri və ziyanvericilərinin gətirilməsinə qarşı mübarizə aparmaq məqsədilə bitkilərin və bitkiçilik məhsullarının idxalını nizamlasın və bundan ötrü aşağıdakı tədbirləri həyata keçirsin:
   a) bitkilərin və bitkiçilik məhsullarının idxalı üçün məhdudiyyətlər və ya müəyyən şərtlər qoysun;
   b) müəyyən bitkilərin və ya bitkiçilik məhsullarının, yaxud müəyyən bitki və ya bitkiçilik məhsulları partiyalarının idxalını qadağan etsin;
   c) müəyyən bitki və ya bitkiçilik məhsulları partiyalarını müayinə etsin və ya onlara karantin qoysun;
   d) müəyyən bitki və ya bitkiçilik məhsulları partiyalarını zərərsizləşdirsin və ya məhv etsin, yaxud onların zərərsizləşdirilməsini və ya məhv olunmasını tələb etsin.
2. Razılığa gələn hər bir Hökumət beynəlxalq ticarətə mümkün qədər az əngəl törətmək üçün bu maddənin 1-ci bəndinin müddəalarını aşağıdakılara müvafiq surətdə yerinə yetirməyi öhdəsinə götürür:
   a) Razılığa gələn Hökumətlər bitki mühafizəsi haqqında öz qanunvericiliklərinə uyğun olaraq, fitosanitariya baxımından zərurət yaranmadığı hallarda bu maddənin 1-ci bəndində göstərilən tədbirlərdən heç birini görməyəcəklər;
   b) əgər Razılığa gələn Hökumət öz ərazisinə bitkilərin və bitkiçilik məhsullarının gətirilməsinə hər hansı bir məhdudiyyət və ya müəyyən şərtlər qoyursa, bu məhdudiyyətləri və ya şərtləri dərc edir və Razılığa gələn başqa Hökumətlərin bitki mühafizəsi üzrə təşkilatlarına və FAO-ya dərhal bu məhdudiyyətlər və ya şərtlər barədə məlumat verir;
   c) əgər Razılığa gələn Hökumət bitki mühafizəsi haqqında öz qanunvericiliyinin müddəalarına uyğun olaraq hər hansı bitkilərin və bitkiçilik məhsullarının idxalını qadağan edirsə, öz qərarını və bu qərarın əsaslandırılmasını dərc edir və Razılığa gələn başqa Hökumətlərin bitki mühafizəsi üzrə təşkilatlarına və FAO-ya dərhal bu barədə məlumat verir;
   d) əgər Razılığa gələn Hökumət müəyyən bitkilərin və bitkiçilik məhsullarının yalnız təyin olunmuş idxal məntəqələrindən gətirilməsini tələb edirsə, bu məntəqələr elə seçilir ki, zərurət olmadıqda beynəlxalq ticarətə əngəl törətməsin. Razılığa gələn həmin Hökumət bu məntəqələrin siyahısını dərc edir və bunu Razılığa gələn başqa Hökumətlərin bitki mühafizəsi üzrə təşkilatlarına və FAO-ya çatdırır. İdxal məntəqələri barədə belə məhdudiyyət yalnız o halda qoyulur ki, həmin bitkilərin və bitkiçilik məhsullarının fitosanitar vəsiqələri ilə müşayiət olunması, yaxud müayinə edilməsi və ya zərərsizləşdirilməsi tələb olunsun;
   e) Razılığa gələn Hökumətin bitki mühafizəsi üzrə təşkilatı tərəfindən idxalı nəzərdə tutulmuş bitkilərin və bitkiçilik məhsullarının hər hansı müayinəsi,

onların korlana biləcəyi nəzərə alınaraq, mümkün qədər qısa müddətdə aparılır. Əgər idxal olunan bitkilərin və bitkiçilik məhsullarının hər hansı bir partiyasının idxalatçı dövlətin bitki mühafizəsi haqqında qanunvericiliyinin tələblərinə uyğun gəlmədiyi müəyyən edilərsə, bu, ixracatçı dövlətin bitki mühafizəsi üzrə təşkilatına bildirilir. Əgər bitki və ya bitkiçilik məhsulları partiyası tam və ya qismən məhv edilərsə, bu barədə dərhal ixracatçı ölkənin bitki mühafizəsi üzrə təşkilatına rəsmi məlumat verilir;

f) Razılığa gələn Hökumətlər öz bitkiçilik məhsullarını təhlükə altına qoymadan əkilmək üçün nəzərdə tutulmamış idxalat bitkiləri və bitkiçilik məhsulları (məsələn, taxıl, meyvə, tərəvəz və kəsilmiş güllər) üçün fitosanitar vəsiqələrinin tələb olunduğu halları minimuma endirməkdən ötrü tədbirlər görürlər;

g) Razılığa gələn Hökumətlər bitkilərin və ya bitkiçilik məhsullarının, ziyanverici və xəstəlik törədən orqanizm nümunələrinin elmi məqsədlərlə gətirilməsi üçün tədbirlər görə bilərlər; bu şərtlə ki, əvvəlcə həmin bitki xəstəliklərinin və ziyanvericilərinin yayılmasına yol verməyən ehtiyat tədbirlərinin görülməsini təmin etsinlər.

3. Bu maddədə göstərilən tədbirlər həmin dövlətlərin bitkilərinin mühafizəsi üçün zəruri olmadıqda, Razılığa gələn Hökumətlərin bütün ərazisində tranzit yüklərə tətbiq edilmir.

Maddə 7. **Beynəlxalq əməkdaşlıq**

Razılığa gələn Hökumətlər bu Konvensiyanın məqsədlərinə, o cümlədən aşağıdakılara nail olmaq üçün bir-biri ilə mümkün qədər geniş əməkdaşlıq edirlər:

a) Razılığa gələn hər bir Hökumət öz imkanlarından və müvafiq təşkilatların bu sahədə xidmətlərindən tam istifadə edərək bitki xəstəlikləri və ziyanvericiləri məsələsi üzrə beynəlxalq sorğu şöbəsinin təşkili məqsədilə FAO ilə əməkdaşlıq etməyə və onun təşkilindən sonra vaxtaşırı olaraq aşağıdakı məlumatları FAO-ya təqdim etməyə razılıq verir:
   1) öz ərazisində bitkilərin və bitkiçilik məhsullarının iqtisadi baxımdan birbaşa və ya potensial təhlükə törədən xəstəlik və ziyanvericilərinin aşkar edilməsi, əmələ gəlməsi və yayılması barədə məruzələr;
   2) bitkilərin və ya bitkiçilik məhsullarının xəstəlik və ziyanvericilərinə qarşı səmərəli mübarizə üsulları haqqında məlumatlar;

b) Razılığa gələn hər bir Hökumət məhsul üçün ciddi təhlükə törədə bilən və fəlakətin qarşısını almaq üçün beynəlxalq miqyasda tədbirlər görülməsini tələb edən müəyyən bitki xəstəlikləri və ziyanvericiləri ilə mübarizə sahəsində hər hansı xüsusi kampaniyada imkanı daxilində geniş iştirak edir.

Maddə 8. **Bitki mühafizəsi üzrə regional təşkilatlar**

1. Razılığa gələn Hökumətlər müvafiq rayonlarda bitki mühafizəsi üzrə regional təşkilatların yaradılması məqsədilə bir-biri ilə əməkdaşlıq etməyi öhdələrinə götürürlər.
2. Bitki mühafizəsi üzrə regional təşkilatlar bu Konvensiyanın məqsədlərinin həyata keçirilməsi üçün öz səlahiyyət rayonlarında əlaqələndirici rol oynayır və müxtəlif tədbirlərdə iştirak edirlər.

Maddə 9. **Mübahisələrin həlli**

1. Bu Konvensiyanın təfsiri və ya tətbiqi məsələləri barədə mübarizə yaranarsa, yaxud Razılığa gələn Hökumətlərdən biri Razılığa gələn digər Hökumətin gördüyü tədbirlərin bu Konvensiyanın V və VI maddələri üzrə sonuncunun öhdəliklərinə, xüsusən onun ərazisindən bitkilərin və bitkiçilik məhsullarının idxalının qadağan edilməsi və ya məhdudlaşdırılması səbəbi barədə həmin öhdəliklərinə zidd olduğunu hesab edərsə, əlaqədar hökumət və ya hökumətlər FAO-nun Baş Direktorundan bu mübahisəyə baxılması üçün komitə təyin etməyi xahiş edə bilərlər.
2. Bu tədbirdə FAO-nun Baş Direktoru əlaqədar hökumətlərlə məsləhətləşmələrdən sonra yuxarıda göstərilən hökumətlərin nümayəndələrinin daxil olduğu ekspertlər komitəsi təyin edir. Bu komitə əlaqədar hökumətlərin həmin məsələyə dair təqdim etdiyi bütün sənədləri və başqa sübut formalarını nəzərə alaraq mübahisəli məsələni öyrənir. Bu komitə FAO-nun Baş Direktoruna həmin məsələ barədə məruzə təqdim edir və FAO-nun Baş Direktoru onu əlaqədar hökumətlərə və Razılığa gələn digər Hökumətlərə çatdırır.
3. Razılığa gələn Hökumətlər razılaşırlar ki, bu komitənin icbari xarakter daşımayan tövsiyələri mübahisə doğurmuş məsələnin əlaqədar hökumətlər tərəfindən aparılacaq yeni müzakirəsinin əsasında duracaqdır.
4. Əlaqədar hökumətlər ekspertlərin işi ilə bağlı eyni məbləğdə xərc çəkirlər.

Maddə 10. **Keçmiş sazişlərin əvəz olunması**

Bu Konvensiya 1889-cu il aprelin 15-də Berndə imzalanmış Filloksera haqqında məsələyə dair 1881-ci il tarixli Beynəlxalq Konvensiyanı və 1929-cu il aprelin 16-da Romada imzalanmış Bitki mühafizəsi haqqında Beynəlxalq Konvensiyanı Razılığa gələn Hökumətlər arasında ləğv edir və əvəz edir.

Maddə 11. **Ərazi tətbiqi**

1. Hər hansı Hökumət bu Konvensiyanı təsdiq edərkən və ya ona qoşularkən, yaxud ondan sonrakı istənilən vaxtda FAO-nun Baş Direktoruna ərizə göndərib bəyan edə bilər ki, bu Konvensiya beynəlxalq münasibətləri üçün məsuliyyət daşıdığı bütün ərazilərə və ya onların bir hissəsinə tətbiq edilir. Bu Konvensiya ərizədə göstərilən bütün ərazilərə həmin ərizənin Baş Direktor tərəfindən alınmasından sonra otuzuncu gündən başlayaraq tətbiq olunur.
2. Bu maddənin 1-ci bəndinə uyğun olaraq FAO-nun baş Direktoruna ərizə göndərmiş hər hansı Hökumət hər vaxt hər hansı əvvəlki ərizənin məzmununu dəyişdirən və ya hər hansı ərazi barədə bu Konvensiyanın müddəalarının tətbiqinə xitam verən yeni ərizə göndərə bilər. Belə dəyişiklik və ya xitamvermə ərizənin Baş Direktor tərəfindən alınmasından sonra otuzuncu gündən qüvvəyə minir.
3. FAO-nun Baş Direktoru bu maddəyə uyğun olaraq, aldığı hər hansı ərizə barədə bu Konvensiyanı imzalamış və ya ona qoşulmuş bütün hökumətlərə xəbər verir.

Maddə 12. **Təsdiq etmə və qoşulma**

1. Bu Konvensiya 1952-ci il mayın 1-dək bütün hökumətlər tərəfindən imzalanmaq üçün açıqdır və mümkün qədər qısa müddətdə təsdiq edilməlidir. Təsdiqnamələr saxlanmaq üçün Baş Direktora verilir və o, bu Konvensiyanı imzalamış hər bir hökumətə həmin təsdiqnamələrin depozitə qoyulma tarixi barədə xəbər verir.
2. Bu Konvensiya XIV maddəyə uyğun olaraq qüvvəyə minəcəyi andan onu

imzalamamış hər hansı hökumətin qoşulması üçün açıq olacaqdır. Qoşulma bu barədə sənədin saxlanmaq üçün FAO-nun Baş Direktoruna verilməsi yolu ilə həyata keçirilir və Baş Direktor bu Konvensiyanı imzalamış və ona qoşulmuş bütün hökumətlərə bu barədə xəbər verir.

Maddə 13. **Dəyişikliklər**

1. Razılığa gələn Hökumətin bu Konvensiyaya dəyişikliklər barədə hər hansı təklifi FAO-nun Baş Direktoruna göndərilir.
2. FAO-nun Baş Direktorunun Razılığa gələn Hökumətdən bu Konvensiyaya dəyişikliklər barədə aldığı hər hansı təklif FAO-nun növbəti konfransında və ya xüsusi sessiyasında təsdiq edilir və əgər təklif mühüm texniki dəyişikliklərə səbəb olursa, yaxud Razılığa gələn Hökumətlərin üzərinə əlavə öhdəliklər qoyursa, ona konfrans keçirilənədək FAO-nun çağırdığı mütəxəssislərin Məsləhət Komitəsi tərəfindən baxılır.
3. Dəyişikliklər barədə hər hansı təklifi FAO-nun Baş Direktoru Razılığa gələn Hökumətlərə həmin məsələnin baxılacağı sessiyanın və Konfransın gündəliyindən gec olmayaraq bildirir.
4. Konvensiyaya dəyişikliklər barədə hər hansı belə təklif FAO-nun Konfransı tərəfindən bəyənilməlidir və Razılığa gələn Hökumətlərin üzvlərinin üçdə ikisi tərəfindən qəbul edildikdən sonra otuzuncu gündən qüvvəyə minir.
   Lakin Razılığa gələn Hökumətlər üçün yeni öhdəliklərə səbəb olan dəyişikliklər Razılığa gələn hər bir Hökumət üçün yalnız onun tərəfindən bəyənildikdən sonra və belə bəyənilmədən sonra otuzuncu gündən başlayaraq qüvvəyə minir.
5. Yeni öhdəliklərə səbəb olan dəyişikliklərin təsdiqi barədə sənədlər saxlanmaq üçün FAO-nun Baş Direktoruna verilir və o, həmin sənədlərin alındığı və düzəlişlərin qüvvəyə mindiyini Razılığa gələn bütün Hökumətlərə xəbər verir.

Maddə 14. **Qüvvəyə minmə**

Bu Konvensiya onu imzalayan üç Hökumət tərəfindən imzalandığı andan onlar üçün qüvvəyə minəcəkdir. Konvensiya bundan sonra onu təsdiq etmiş və ona qoşulmuş hər bir Hökumət üçün təsdiq və ya qoşulma haqqında sənədlər depozitə qoyulduğu gündən qüvvəyə minir.

Maddə 15. **Etibarsız elan etmə**

1. Razılığa gələn hər hansı Hökumət FAO-nun Baş Direktoruna xəbər vermək yolu ilə bu Konvensiyanı hər vaxt etibarsız elan edə bilər. FAO-nun Baş Direktoru Konvensiyanı imzalamış və ona qoşulmuş bütün Hökumətlərə dərhal bu barədə xəbər verir.
2. Etibarsız elan etmə FAO-nun Baş Direktoru tərəfindən bu barədə məlumat alındıqdan bir il sonra qüvvəyə minir.
   1951-ci il dekabrın 6-da Romada (İtaliya) ingilis, fransız və ispan dillərində bir nüsxədə tərtib edilmişdir, mətnlərdən hər biri tam eynidir.
   Bu sənəd Birləşmiş Millətlərin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının arxivlərində saxlanılacaqdır.
   Təsdiqlənmiş surətlər bu Konvensiyanı imzalamış və ona qoşulmuş hər bir Hökumətə Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının Baş Direktoru tərəfindən göndəriləcəkdir.
   Bunun təsdiqi olaraq aşağıda imza edənlər lazımi qaydada vəkil edilərək, bu

Konvensiyanı müvafiq Hökumətləri adından imzalarının qabağında göstərildiyi gün imzalamışlar.

---

*(imzalar)*

Sovet İttifaqı bu Konvensiyaya 1956-cı il aprelin 24-də qoşulmuşdur.

## ƏLAVƏ

### Fitosanitar vəsiqənin nümunəsi

________________________ bitki mühafizəsi xidməti № ________________________
(ölkə)

Bununla təsdiq edilir ki, aşağıda göstərilən bitkilər, bitki hissələri və ya bitkiçilik məhsulu,

habelə onların seçmə nümunələri ______________________________________________

________________________________________________________________________
(xidmətin adı)

səlahiyyətli əməkdaşı________________________________________________tərəfindən
(adı, atasının adı, soyadı)

__________________________ əsaslı surətdə müayinə edilərək, onlarda heç bir zərər vuran
(tarix)

xəstəlik və ziyanvericinin olmadığı hesab edilmişdir. Həmin yük idxalçı ölkənin cari fitosanitar qaydalarına, habelə əlavə deklarasiyanın tələblərinə uyğundur.

Fumiqasiya və ya dezinfeksiya (idxalçı ölkə tərəfindən tələb edilərsə):

Tarix _________________________ İşləmə üsulu ___________________________

Saxlama müddəti ______________ Kimyəvi preparat və onun qatılığı ___________________

### Əlavə deklarasiya

_____________________________ 19____ il

____________________________________
(imza)

____________________________________
(vəzifə)

*(xidmətin möhürü)*

### Yükün təsviri

İxracatçı və onun ünvanı: ____________________________________________________

Yükü alan və onun ünvanı: ___________________________________________________

Bağlamanın nömrəsi və təsviri: _______________________________________________

Markalama (fərq. nişanları): _________________________________________________

Mənşəyi (idxalçı ölkə tərəfindən tələb edilərsə): ____________________________

Daşınma vasitəsi: __________________________________________________________

İdxal məntəqəsi: ___________________________________________________________

Məhsulun adı və miqdarı: ____________________________________________________

Botaniki adı (idxalçı ölkə tərəfindən tələb edilərsə): _________________________

## «Birləşmiş Millətlər Təşkilatının «İqlim dəyişmələri haqqında» Çərçivə Konvensiyasına dair» Kioto Protokoluna qoşulmaq barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

I. Azərbaycan Respublikası «Birləşmiş Millətlər Təşkilatının «İqlim dəyişmələri haqqında» Çərçivə Konvensiyasına dair» 1997-ci il dekabrın 11-də Kioto şəhərində qəbul olunmuş Protokoluna qoşulsun.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

*Azərbaycan Respublikasının Prezidenti* *Heydər ƏLİYEV*

Bakı şəhəri, 18 iyul 2000-ci il. № 912-IQ
«Azərbaycan» qəzetində dərc edilmişdir (17 avqust 2000-ci il, № 186)

## BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası Kioto Protokolu

## Müqəddimə

1992-ci ildə Birləşmiş Millətlər Təşkilatının İqlim dəyişmələri haqqında Çərçivə Konvensiyasını qəbul edərək hökumətlər gələcəkdə onun daha fəal tədbirlərin həyata keçirilməsi üçün əsas olacağını təsdiq etdilər. Daimi informasiya mübadiləsi, araşdırmalar və müzakirələr nəzərdə tutan bu Konvensiya siyasi idarə və elmi biliklərin inkişafı nəzərə alınmaqla əlavə öhdəliklər götürməyə imkan verir.

İnkişaf etmiş ölkələrin öhdəliklərinin məqsədə uyğunluğu, ilk dəfə 1995-ci ildə Berlində keçirilən Tərəflər Konfransının (TK-1) birinci sessiyasında nəzərdən keçirilmişdir. Tərəflər, inkişaf etmiş ölkələrin 2000-ci il üçün tullantı səviyyələrinin 1990-cı il səviyyəsinə endirilməsinə yönəlmiş öhdəliklərinin Konvensiyanın «İqlim sisteminə təhlükəli antropogen təsirə» yol verməməkdən ibarət olan uzunmüddətli məqsədlərə nail olmaq üçün müvafiq olması qərarına gəlmişlər.

Bunu nəzərə alaraq nazirlər və digər yüksək vəzifəli şəxslər Berlin mandatının qəbul etmiş və inkişaf etmiş ölkələrin öhdəliklərini gücləndirmək məqsədi ilə yeni danışıqlar mərhələsinə başlamışlar. Razılaşmanın işlənməsi üçün Berlin mandatı üzrə xüsusi qrup təsis edilmiş, hansı ki, özünün 8 sessiyasını keçirərək Tərəflər Konfransının 3-cü sessiyasına yekun danışıqları üçün mətn təqdim etmişdir.

1997-ci ilin dekabrında Yaponiyanın Kioto şəhərində keçirilən bu mühüm müşavirədə təqribən 10000 nümayəndə, müşahidəçi və jurnalist iştirak etmişdir. Konsensus əsasında qəbul olunmuş qərarda /I/T.KZ/ Konfrans inkişaf etmiş sənaye ölkələrinin 2008-2012-ci illər üçün parnik qazlarının ümumi tullantısını 1990-cı il səviyyəsi ilə müqayisədə ən azı 5% ixtisar edəcəkləri haqqında Protokol qəbul etmək qərarına gəlmişdi. Bu hüquqi öhdəlik təxminən 150 il əvvəl başlamış tullantıların artırılması istiqamətində tarixi dönüş olacağına ümid verir.

Kioto Protokolu 16 mart 1998-ci ildə imzalanmaq üçün açılmışdır. O, Konvensiya Tərəflərinin ən azı 55 tərəfi, hansı ki, payına ümumi karbon dioksidi tullantılarının minimum 55%-i düşən inkişaf etmiş sənaye ölkələri qrupuna daxil olan ölkələr tərəfindən təsdiq edildikdən 90 gün sonra qüvvəyə minir. Buna baxmayaraq, Konvensiya Tərəfləri öz öhdəliklərini yerinə yetirməkdə və gələcəkdə Protokolun həyata keçirilməsinə hazırlaşacaqlar.

## Mündəricat

İqlim dəyişmələri haqqında Birləşmiş Millətlər Təşkilatının Çərçivə Konvensiyasının Kioto Protokolunun maddələri sərlövhəsizdir, aşağıda göstərilən ümumi xarakterli sərlövhələr yalnız mətnlə işi yüngülləşdirmək üçün nəzərdə tutulmuş və 3-cü səhifədə başlanan rəsmi mətnin bir hissəsi hesab olunmur.

## Preambula:


1. Qərarlar.
2. Siyasət və tədbirlər.
3. Tullantıların məhdudlaşdırılması və ixtisara salınması üzrə müəyyən kəmiyyət öhdəlikləri.
4. Öhdəliklərin birgə yerinə yetirilməsi.

5. Metodoloji məsələlər.
6. Tullantıların azaldılması, vahidlərinin təhvili və əldə edilməsi /birgə həyata keçirmə.
7. İnformasiyanın ötürülməsi.
8. İnformasiyanın nəzərdən keçirilməsi.
9. Protokolun nəzərdən keçirilməsi.
10. Mövcud öhdəliklərin yerinə yetirilməsinə sonrakı yardım.
11. Maliyyə mexanizmi.
12. Təmiz inkişaf mexanizmi.
13. Tərəflər Konfransı kimi fəaliyyət göstərən Tərəflər müşavirəsi.
14. Katiblik.
15. Köməkçi orqanlar.
16. Çoxtərəfli məşvərət prosesi.
17. Tullantılar ticarəti.
18. Riayətsizlik.
19. Mübahisələrin nizama salınması.
20. Düzəlişlər.
21. Onlara əlavə və düzəlişlərin qəbul edilməsi.
22. Səs hüququ.
23. Depozit.
24. İmzalanma, təsdiqləmə, qəbul etmə, bəyənmə və ya qoşulma.
25. Qüvvəyə minmə.
26. Təshihlər.
27. Çıxış.
28. Əslinə uyğun mətnlər.

Əlavə A: Parnik qazları və sahə/mənbə kateqoriyaları
Əlavə B: Tullantılar üzrə Tərəflərin öhdəlikləri
Aşağıda göstərilən cədvəl və Tərəflər Konvensiyasının üç qərarı Kioto Protokolunun tərkib hissəsi deyildir və Protokolun qəbulu və həyata keçirilməsi ilə bağlı informasiya mənbəyi kimi buraya daxil edilmişdir.
Qərar 1/T.K.3: Birləşmiş Millətlər Təşkilatının İqlim dəyişmələri üzrə Çərçivə Konvensiyasına Kioto Protokolunun qəbul edilməsi.
Qərar 2/T.K.3: Kioto Protokolu ilə bağlı olan metodoloji məsələlər.
Qərar 3/T.K.3: Konvensiyanın 4-cü maddəsinin 8 və 9-cu bəndlərinin yerinə yetirilməsi.
Cədvəl: Kioto Protokolunun 25-ci maddəsinin məqsədlərinə uyğun olaraq 1990-cı ildə 1-ci əlavəyə daxil edilmiş Tərəflərin ümumi karbon dioksid tullantıları.

## Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri Haqqında Çərçivə Konvensiyasının Kioto Protokolu

Hazırki Protokolun Tərəfləri, Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəfləridirlər.

2-ci maddədə göstərildiyi kimi, Konvensiyanın son məqsədinə nail olmaq məramı ilə Konvensiya nizamnaməsinə istinad edərək, Konvensiyanın 3-cü maddəsini əldə rəhbər tutaraq, Tərəflər Konvensiya Konfransının 1-ci sessiyası qərarı ilə 1/T.K.1, qəbul olunmuş Berlin mandatının yerinə yetirilməsi üçün, aşağıdakılar haqqında razılığa gəlmişlər:

Maddə 1

Hazırki Protokolun məqsədləri üçün Konvensiyanın 1-ci maddəsində rast gəlinən Tərəflər istifadə olunur. Bundan başqa:

1. «Tərəflər Konfransı» dedikdə Konvensiyanın Tərəflər Konfransı nəzərdə tutulur.
2. «Konvensiya» Birləşmiş Millətlər Təşkilatının 9 may 1992-ci ildə Nyu-Yorkda qəbul edilmiş İqlim dəyişmələri üzrə Çərçivə Konvensiyası deməkdir.
3. «İqlim dəyişmələri üzrə hökumətlərarası ekspertlər qrupu» Ümumdünya meteorologiya Təşkilatı və Birləşmiş Millətlər Təşkilatının ətraf mühitin mühafizəsi üzrə 1988-ci il Proqramı tərəfindən birgə təsis olunmuş İqlim dəyişmələri üzrə hökumətlərarası ekspertlər qrupu deməkdir.
4. «Monreal Protokolu» sonralar edilmiş dəyişiklik və güzəştlərlə 16 sentyabr 1987-ci ildə Monrealda qəbul edilmiş, ozon qatını dağıdan maddələr üzrə Monreal Protokolu deməkdir.
5. «Səsverməyə gələn və iştirak edən Tərəflər» lehinə və ya əleyhinə səs verən və iştirak edən Tərəflər deməkdir.
6. Əgər ümumi mətndən başqa məna alınmırsa, «Tərəf» hazırkı Protokolun Tərəfi deməkdir.
7. 1-ci əlavəyə daxil edilmiş Tərəf, düzəlişlər edilə biləcək Konvensiyaya olan birinci əlavəyə daxil edilmiş Tərəf, ya da Konvensiyanın 4-cü maddəsinin 2/q bəndinə uyğun olaraq bildiriş təqdim edən Tərəf deməkdir.

Maddə 2

1. Əlavə 1-ə daxil edilmiş hər bir Tərəf, maddə 3-ə müvafiq olaraq tullantıların məhdudlaşdırılması və ixtisar edilməsi üzrə müəyyən say öhdəliklərini yerinə yetirdiyi müddətdə stabil inkişafa nail olmaq məqsədi ilə:
   a) öz milli xüsusiyyətlərinə uyğun olaraq bu cür siyasət və tədbirlər planı həyata keçirir və yaxud sonralar işləyib hazırlayır:

1) Milli İqtisadiyyatının müvafiq bölmələrində enerjinin istifadəsində effektivliyin artırılması;
2) Təbiətin mühafizəsi üzrə müvafiq beynəlxalq razılaşmalara əsasən öhdəliklərini nəzərə alaraq Monreal Protokolu ilə nizama salınmayan uducu və yığıcıların mühafizəsi və keyfiyyətinin yüksədilməsi; meşə təsərrüfatı idarəçiliyi, meşələrin qırılması və stabil zəmində meşələrin bərpası üzrə səmərəli metodların rəğbətləndirilməsi;
3) İqlim dəyişmələri ilə bağlı fikir və mülahizələr baxımından kənd təsərrüfatının sabit formalarının genişləndirilməsi;
4) Tədqiqat işlərinin aparılması, onların tətbiqinə köməklik göstərilməsi, yeni və yenidən bərpa olunan enerji növləri, karbon dioksidinin udulması texnologiyaları və ekoloji

baxımdan təmiz innovasiya texnologiyalarının hazırlanması və daha geniş istifadə olunması;

5) Bazar uyğunsuzluqları, fiskal stimulları, vergi və rüsumlardan azad edilmə halları, Konvensiyanın məramına zidd olan subsidiyalar və bütün tullantı mənbələri olan bölmələrdə parnik qazlarının tədricən ixtisar edilməsi və ya aradan qaldırılması və bazar əməliyyatlarının tətbiqi;
6) Monreal Protokolu ilə nizama salınmayan parnik qazı tullantılarını məhdudlaşdıran və ya ixtisara salan siyasət və tədbirlərin həyata keçirilməsinə kömək məqsədi ilə müvafiq bölmələrdə lazımi müvafiq islahatların geniş tətbiqi;
7) Monreal Protokolu ilə nizama salınmayan nəqliyyatda daşınan parnik qazı tullantılarının məhdudlaşdırılması və yaxud ixtisar edilməsi üzrə tədbirlər;
8) Tullantıların ayrılması, həmçinin enerjinin istehsalı, daşınması və paylaşdırılması zamanı rekuperasiya yolu ilə metan qazı tullantılarının məhdudlaşdırılması və/yaxud ixtisarı;
   b) Konvensiyanın 4-cü maddəsinin 2/c/1/ bəndinə uyğun olaraq hazırki maddə əsasında həyata keçirilən siyasət və tədbirlərin şəxsi və ümumi səmərəliliyinin artırılması məqsədi ilə digər bu cür Tərəflərlə əməkdaşlıq edir. Bu məqsədlə Tərəflər müqayisə olunma dərəcəsi, şəffaflıq və səmərəliliyi nəzərə alınmaqla bu tədbirlər haqqında informasiya mübadiləsi və təcrübələrinin yayılması üçün addımlar atırlar. Hazırki Protokolun Tərəflər müşavirəsi sifəti ilə fəaliyyət göstərən tərəflər Konfransı bütün müvafiq informasiya nəzərə alınmaqla (birinci sessiyasında və yaxud sonralar, praktiki cəhətdən mümkün ola biləcək vaxtda) belə bir əməkdaşlığın genişləndirilməsi yollarını nəzərdən keçirəcək.

2. Əlavə 1-ə daxil edilmiş Tərəflər, müvafiq surətdə Beynəlxalq Mülki Aviasiya və Beynəlxalq Dəniz təşkilatları ilə fəaliyyət göstərərək, hava və dəniz yolu ilə daşınma zamanı bunker yanacağının istifadə olunması nəticəsində Monreal Protokolu ilə nizama salınmayan parnik qazı tullantılarının məhdudlaşdırılması və ya ixtisarına çalışırlar.
3. Əlavə 1-ə daxil edilmiş Tərəflər, digər Tərəflər xüsusi ilə inkişaf etməkdə olan ölkələr hesab edilən Tərəflər və o cümlədən Konvensiyanın 3-cü maddəsi nəzərə alınmaqla, Konvensiyanın 4-cü maddəsinin 8 və 9-cu bəndlərində sadalanan Tərəflər üçün xoşagəlməz nəticələri, həmçinin İqlim dəyişmələrinin xoşagəlməz nəticələri, beynəlxalq ticarətə təsir edən sosial, ekoloji və iqtisadi nəticələrin minimuma endirilməsi üçün hazırki maddəyə uyğun siyasət və tədbirlər həyata keçirməyə çalışırlar. Hazırki Protokolun Tərəfləri müşavirəçi sifəti ilə fəaliyyət göstərən Tərəflər Konfransı, hazırki bəndin əsasnaməsini həyata keçirməyə şərait yaradılması məqsədi ilə zəruri vaxtlarda müvafiq addımlar ata bilər.
4. Hazırki Protokolun Tərəfləri müşavirəçi sifəti ilə fəaliyyət göstərən Tərəflər Konfransı müxtəlif milli xüsusiyyət və potensial nəticələri nəzərə alaraq: 1 a) bəndində göstərilən istənilən icra və tədbirlərin əlaqələndirilməsinin səmərəliliyi haqqında qərar çıxararsa, bu zaman o, bu cür icra və tədbirlərin koordinasiyasını nizamlama yollarını və vasitələrini nəzərdən keçirir.

Maddə 3

1. Əlavə 1-ə daxil edilmiş Tərəflər, A əlavəsində adı çəkilən parnik qazlarının ümumi antropogen tullantılarının karbon dioksidlə ekvivalentdə Q əlavəsində qeydə alınmış tullantıların məhdudlaşdırılması və ixtisar edilməsi üzrə müəyyən say öhdəliklərinin yerinə yetirilməsini nəzərdə tutaraq onlar üçün təyin olunmuş miqdarı müəyyən

etməməsi və hazırki maddənin əsasnaməsinə uyğun olaraq, öhdəliklərin qüvvədə qaldığı 2008-2012-ci illərdə 1990-cı il səviyyəsi ilə müqayisədə belə qazların ümumi tullantılarının ən azı 5% azadılmasına ayrı-ayrılıqda və ya birgə təminat verirlər.

2. Əlavə 1-ə daxil edilmiş hər Tərəf, hazırki Protokol üzrə öhdəliklərinin yerinə yetirilməsində 2005-ci il üçün əhəmiyyətli uğurlar qazanmağa çalışır.
3. Əlavə 1-ə daxil edilmiş hər Tərəfin hazırki maddə üzrə öz öhdəliklərini yerinə yetirməsi üçün 1990-cı ildən başlayaraq meşəsalma, meşələrin yenidən bərpası və meşələrin qırılması ilə məhdudlaşan meşə təsərrüfatı və torpaqdan istifadədə baş verən dəyişikliklər sahəsində insan fəaliyyətinin birbaşa nəticəsi olan parnik qazlarının uducularla absorbsiyası və mənbələrdən atılan tullantılar həcmində təmiz dəyişdiricilərdən istifadə edilir. Bunlar öhdəliklərin qüvvədə qaldığı hər bir dövrdə karbon tullantılarında baş verən dəyişikliklərin yoxlanılması ilə ölçülür. Fəaliyyətin bu növləri ilə bağlı olan mənbələrdən edilən tullantılar və parnik qazlarının uducularla absorbsiyası haqqında məruzələr diqqətlə yoxlanılaraq təqdim edilir, 7 və 8-ci maddələr əsasında nəzərdən keçirilir.
4. Hazırki Protokolun Tərəflər müşavirəsi sifəti ilə fəaliyyət göstərən Tərəflər Konfransının birinci sessiyasına qədər, əlavə 1-ə daxil edilmiş hər Tərəf 1990-cı ildə karbon tullantıları səviyyəsinin müəyyənləşdirilməsi və sonrakı illərdə karbon tullantı ehtiyatlarında gedən dəyişikliklərin qiymətləndirilməsi üçün Köməkçi orqana elmi və texniki aspektlə məşvərətlər aparmaq məqsədi ilə göstəricilər təqdim edir. Hazırki Protokolun Tərəflər müşavirəsi sifəti ilə fəaliyyət göstərən Tərəflər Konfransı, ilk sessiyasında və yaxud sonralar mümkün olduqda kənd təsərrüfatı torpaqlarının istifadəsi, torpaqdan istifadə və meşə təsərrüfatında baş verən dəyişiklik kateqoriyalarında parnik qazlarının uducularla absorbsiyası və mənbələrdən axan tullantılardakı dəyişmələrlə bağlı insanın hansı əlavə fəaliyyət sahəsinin, əlavə 1-ə daxil edilərək Tərəflər üçün müəyyən edilmiş kəmiyyət göstəricilərinin üstünə gəlməsi və yaxud məruzələrin təqdimatı zamanı qeyri-müəyyənlilik, şəffaflıq, yoxlamaların aparılmasının mümkünlüyü, İqlim dəyişmələri üzrə hökumətlərarası ekspertlər qrupunun metodoloji işi, Tərəflər Konfransının 5-ci maddəsi və qərarlarına uyğun olaraq elmi-texniki aspektdə məsləhətləşmələr aparmaq məqsədi ilə köməkçi orqan tərəfindən təqdim edilən və keçirilən konsultasiyalar amilini nəzərə alaraq onlardan çıxılması ilə bağlı rəhbər prinsiplər, şərtlər və qaydalar haqqında qərar çıxaracaq. Bu cür qərar öhdəliklərin ikinci və sonrakı fəaliyyət dövrlərində həyata keçirilir. Tərəf, öhdəliklərinin ilk fəaliyyət dövrü ərzində, fəaliyyət növlərinin 1990-cı ildən mövcud olması şərti ilə insan fəaliyyətinin bu əlavə növləri haqqında əsasnaməni həyata keçirmək qərarına gələ bilər.
5. Əlavə 1-ə daxil edilmiş və bazar iqtisadiyyatına keçid prossesini həyata keçirən Tərəflər Konvensiyanın Tərəflər Konfransının 2-ci sessiyasının 9/T.K. 2-li qərarı ilə əsas fəaliyyətlərini və ya mərhələlərini müəyyən edən, bu fəaliyyətləri və ya mərhələsini hazırki maddə üzrə öhdəliklərinin yerinə yetirilməsinə həsr edirlər. Bazar iqtisadiyyatına keçid prossesini həyata keçirən və Konvensiyanın 12-ci maddəsinə uyğun olaraq hələ özünün birinci milli məruzəsini təqdim etməyən, əlavə 1-ə daxil edilmiş, istənilən başqa Tərəf, hazırki Protokolun Tərəflər müşavirəsi sifəti ilə fəaliyyət göstərən Tərəflər Konfransını hazırki maddə üzrə öhdəliklərini yerinə yetirmək üçün o, 1990-cı ildəkindən fərqli fəaliyyət ili və ya mərhələsi istifadə etmək niyyətində olduğu barədə məlumatlandıra bilər. Hazırki Protokolun Tərəflər müşavirəsi sifəti ilə fəaliyyət göstərən Tərəflər Konfransı bu bildirişin qəbulu haqqında məsələni həll edir.
6. Öhdəliklərin yerinə yetirilməsi zamanı Konvensiyanın 4-cü maddəsinin 6-cı bəndi nəzərə alınmaqla, hazırki maddədə göstərilən öhdəliklərlə yanaşı, hazırki Protokolun

Tərəflər müşavirəsi sifəti ilə fəaliyyət göstərən Tərəflər Konfransı tərəfindən, əlavə 1-ə daxil edilmiş və bazar iqtisadiyyatına keçid prosesini həyata keçirən Tərəflərə müəyyən elastiklik imkanı verilir.

7. 2008-2012-ci illərdə tullantıların məhdudlaşdırılması və ixtisari üzrə müəyyən say öhdəliklərinin ilk fəaliyyət dövrü ərzində əlavə 1-ə daxil edilmiş hər Tərəf üçün müəyyən olunmuş miqdar, təkcə parnik qazlarının ümumi antropogen tullantıları B əlavəsində göstərilən faizlə paya bərabər olub, A əlavəsində sadalanmış və 1998-ci il və ya fəaliyyət ili, ya da mərhələsi üçün 5-ci maddəyə uyğun olaraq müəyyən edilmiş göstəricidən karbon-dioksidlə müqayisədə 5 dəfə artıqdır. Əlavə 1-ə daxil edilmiş Tərəflər 1990-cı ildən torpaq istifadəsi və meşə təsərrüfatında baş verən dəyişikliklər parnik qazlarının tullantısı üçün təmiz mənbə hesab edilən əlavə 1-ə daxil edilmiş Tərəflər, müəyyən edilmiş miqdarın hesablanması məqsədilə 1990-cı baza ili və mərhələsi üçün öz tullantılarına torpaqların istifadə olunmasından gedən dəyişikliklər nəticəsində 1990-cı ildə uducuların absorbsiyasını çıxmaq şərtilə karbon-dioksidlə müqayisədə mənbələrdən edilən ümumi antropogen tullantılarını da daxil edirlər.
8. Əlavə 1-ə daxil edilmiş hər Tərəf, 7-ci bənddə qeyd olunduğu kimi, ödəniş məqsədi ilə 1995-ci il karbon hidroftor, karbon perftor və kükürd heksaftoridlər üçün fəaliyyət ili kimi istifadə edə bilər.
9. Əlavə 1-ə daxil edilmiş Tərəflər üçün sonrakı mərhələlər üzrə öhdəliklər, 21-ci maddənin 7-ci bəndinin əsasnaməsinə uyğun olaraq qəbul edilən hazırkı Protokola B əlavəsinin düzəlişləri ilə müəyyənləşdirilir. Hazırki Protokolun Tərəflər müşavirəsi sifəti ilə fəaliyyət göstərən Tərəflər Konfransı yuxarıda göstərilən 1-ci bənddə qeyd olunduğu kimi öhdəliklərin birinci fəaliyyət dövrünün sonuna ən azı 7 il qalmış bu öhdəlikləri nəzərdən keçirməyə başlayacaq.
10. Tullantı ixtisarının istənilən vahidi və ya hər hansı Tərəfin digər Tərəfdən əldə etdiyi müəyyən edilmiş miqdarın istənilən hissəsi 6-cı və ya 17-ci maddənin qərarına uyğun olaraq, qazanan Tərəfin müəyyən edilmiş miqdarına artırılır.
11. 6-cı və 17-ci maddələrin qərarlarına uyğun olaraq, hər hansı bir Tərəfin digər Tərəfə verdiyi tullantı ixtisarının istənilən vahidi və ya müəyyən edilmiş miqdarın istənilən hissəsi ötürən tərəfin müəyyən edilmiş miqdarından çıxarılır.
12. 12-ci maddənin qərarına əsasən hər hansı bir Tərəfin digər Tərəfdən qəbul etdiyi tullantı ixtisarının istənilən sertifikatlı vahidləri qəbul edən Tərəfin müəyyən edilmiş miqdarına artırılır.
13. Əgər əlavə 1-ə daxil edilmiş Tərəflərin tullantıları öhdəliklərin bu və ya digər fəaliyyət dövründə hazırki maddəyə uyğun olaraq onun üçün müəyyən edilmiş miqdardan az olarsa, bu fərq həmin Tərəfin xahişilə öhdəliklərin sonrakı fəaliyyət dövründə onun müəyyən edilmiş miqdarına artırılır.
14. Əlavə 1-ə daxil edilmiş hər Tərəf, inkişaf etməkdə olan ölkələr hesab edilən Tərəflər, xüsusi ilə Konvensiyanın 4-cü maddəsinin 8 və 9-cu bəndlərində adı çəkilən Tərəflər üçün xoşagəlməz sosial, ekoloji və iqtisadi nəticələri minimuma endirmək üçün 1-ci bənddə qeyd olunan öhdəliklərin həyata keçirilməsinə çalışır. Bu bəndlərin həyata keçirilməsi haqqında Tərəflər Konfransının müvafiq qərarlarına uyğun olaraq, hazırki Protokolu Tərəflər müşavirəsi sifəti ilə fəaliyyət göstərən Konvensiyanın Tərəflər Konfransı İqlim dəyişmələrinin xoşagəlməz nəticələrinin minimuma endirilməsi üçün hansı zəruri tədbirlərin həyata keçirilməsi və ya yuxarıda göstərilən bəndlərdə Tərəflər üçün sadalanan cavab tədbirlərinin nəticələri üzrə məsələləri 1-ci sessiyasında nəzərdən keçirəcək.

Maddə 4

1. Maddə 3 üzrə öhdəliklərinin birgə yerinə yetirilməsi haqqında razılığa gəlmiş, əlavə 1-ə daxil edilmiş istənilən Tərəflərə A-əlavəsində göstərildiyi kimi, parnik qazlarının ümumi antropogen tullantılarının karbon dioksidlə ekvivalentdə müəyyən olunmuş və 3-cü maddənin qərarlarına əsasən B-əlavəsində göstərildiyi kimi, tullantılarının məhdudlaşdırılması və ixtisari üzrə onların müəyyən say öhdəliklərinin yerinə yetirilməsini nəzərdə tutan miqdarı aşmayacağı təqdirdə, bu öhdəlikləri yerinə yetirmiş Tərəflər kimi baxılır. Bu cür razılaşma Tərəflərin hər biri üçün təyin edilmiş tullantıların müvafiq səviyyəsi bu razılaşmada müəyyən edilir.
2. İstənilən bu cür razılaşma Tərəfləri hazırki Protokolun təsdiqi, qəbulu və bəyənilməsi haqqında sənədlərin mühafizə edilməyə təqdim etdikləri gün razılaşmanın şərtləri haqqında katibliyə bildiriş göndərirlər. Öz növbəsində katiblik Konvensiyanın tərəfləri və imza edən iştirakçıları razılaşmanın şərtləri ilə məlumatlandırır.
3. Hər hansı belə razılaşma 3-cü maddənin 7-ci bəndində göstərildiyi kimi, öhdəliklərin fəaliyyəti dövrü ərzində qüvvədə qalır.
4. Əgər birgə fəaliyyət göstərən Tərəflər bunu iqtisadi inteqrasiya üzrə regional təşkilat çərçivəsində və ya onunla birgə həyata keçirirlərsə, bu zaman hazırki Protokolun qəbulundan sonra bu təşkilatın tərkibində baş verən hər hansı bir dəyişiklik hazırki Protokol üzrə mövcud öhdəliklərə təsir göstərmir. Təşkilatın tərkibində baş verən istənilən dəyişiklik yalnız bu dəyişiklikdən sonra qəbul edilmiş 3-cü maddə üzrə öhdəliklərin yerinə yetirilməsi məqsədi ilə istifadə edilə bilər.
5. Bu cür razılaşma Tərəflərin tullantıların səviyyəsinin yekun ixtisarına nail olmadıqları təqdirdə, bu razılaşmanın Tərəfləri razılaşmada müəyyən edilmiş tullantı səviyyəsi üçün məsuliyyət daşıyır.
6. Əgər birgə fəaliyyət göstərən Tərəflər bunu hazırki Protokolun Tərəfi hesab edilən iqtisadi inteqrasiya üzrə regional təşkilat çərçivəsində və yaxud onunla birgə həyata keçirilsə, bu zaman iqtisadi inteqrasiya üzrə bu cür regional təşkilatın üzvü olan hər bir dövlət ayrı-ayrılıqda və 24-cü maddəyə uyğun olaraq fəaliyyət göstərən iqtisadi inteqrasiya üzrə regional təşkilatla birgə tullantıların yekun ixtisarının yerinə yetirilmədiyi təqdirdə hazırki maddəyə əsasən haqqında bildiriş təqdim edilən tullantı səviyyəsi üçün məsuliyyət daşıyır.

Maddə 5

1. Əlavə 1-ə daxil edilmiş hər Tərəf öhdəliklərin birinci fəaliyyət dövrünün başlanmasına ən azı bir il qalmış Monreal Protokolu ilə nizamlanmayan mənbələrdən çıxan antropogen tullantılarının və bütün parnik qazlarının uducularla absorbsiyasının qiymətləndirilməsi məqsədi ilə milli sistem yaradır. Aşağıdakı 2-ci bənddə göstərilən metodologiyaları özündə cəmləşdirən bu cür milli sistem üçün hazırki Protokolun Tərəflər müşavirəsi sifəti ilə fəaliyyət göstərən Tərəflər Konfransının 1-ci sessiyasında rəhbər prinsiplər Konfrans tərəfindən qəbul edilir.
2. Monreal Protokolu ilə nizamlanmayan bütün parnik qazlarının uducularla absorbsiyası və mənbələrdə çıxan antropogen tullantıların qiymətləndirilməsi üçün İqlim dəyişmələri üzrə hökumətlərarası ekspertlər qrupu tərəfindən qəbul edilən və Konvensiyanın Tərəflər Konfransının 3-cü sessiyasında bəyənilən metodologiyalar əsas götürülməlidir. Bu cür metodologiyalar istifadə olunmadığı təqdirdə hazırki Protokolun Tərəflər müşavirəsi sifəti ilə fəaliyyət göstərən Tərəflər Konfransının 1-ci sessiyasında bəyənilən metodologiyalara müvafiq olaraq lazımi düzəlişlər edilir.
İqlim dəyişmələri üzrə hökumətlərarası ekspertlər qrupunun apardığı iş və elmi-

texniki aspektlər üzrə konsultasiyaların aparılması üçün köməkçi orqan tərəfindən təşkil olunan məsləhətləşmələr əsasında hazırki Protokolun Tərəflər müşavirəsi sifəti ilə fəaliyyət göstərən Tərəflər Konfransı mütamadi olaraq bü cür metodologiya və düzəlişlərin şərhini verir və lazım olduqda onları yenidən nəzərdən keçirir və Tərəflər Konfransının istənilən müvafiq qərarını tam dolğunluğu ilə nəzərə alır. Metodologiya və düzəlişlərin istənilən nəzərdən keçirilmə prosesi yalnız öhdəliklərin istənilən fəaliyyət dövrü baxımından 3-cü maddə üzrə öhdəliklərin yerinə yetirilməsinin nizamlanması məqsədi ilə tətbiq olunur.

3. Mənbələrdən çıxan antropogen tullantıları və A əlavəsində göstərilən parnik qazlarının uducularla absorbsiyasının karbon dioksidlə ekvivalentdə hesablanması üçün istifadə olunan qlobal istiləşmə potensialı İqlim dəyişmələri üzrə hökumətlərarası ekspertlər qrupu tərəfindən qəbul edilən və Konvensiyanın Tərəflər Konfransının 3-cü sessiyasında bəyənilən potensial hesab olunur. İqlim dəyişmələri üzrə hökumətlərarası ekspertlər qrupunun əməli işi və elmi texniki aspektdə konsultasiyaların aparılması üçün köməkçi orqan tərəfindən təşkil olunan məsləhətləşmələr əsasında hazırki Protokolun Tərəflər müşavirəsi sifəti ilə fəaliyyət göstərən Tərəflər Konvensiyası bu cür parnik qazlarının hər birinin potensial qlobal istiləşmə həcmini mütamadi olaraq nəzərdən keçirir və zərurət yarandıqda onları nəzərdən keçirir və Tərəflər Konfransının istənilən müvafiq qərarını tam dolğunluğu ilə nəzərə alır. Bu və ya digər qlobal istiləşmə potensialı həcminin hər bir halda nəzərdən keçirilməsi öhdəliklərin istənilən fəaliyyət dövrü baxımından yalnız 3-cü maddə üzrə öhdəliklərə tətbiq edilir.

Maddə 6

1. Əlavə 1-ə daxil edilmiş istənilən Tərəf 3-cü maddə üzrə öz öhdəliklərini yerinə yetirmək məqsədi ilə mənbələrdən çıxan antropogen tullantılarının ixtisarına və ya iqtisadiyyatın istənilən bölməsində parnik qazlarının uducularla absorbsiyasının artırılmasına yönələn layihələr nəticəsində əldə olunan tullantıların ixtisar vahidlərini istənilən bu cür Tərəfə ya verə, ya da qəbul edə bilər, bir şərtlə ki:
   a) istənilən bu cür layihə iştirakçı Tərəflər tərəfindən təsdiq edilsin;
   b) digər halda ola biləcəklərə əlavə olaraq, istənilən bu cür liyihə mənbələrdən çıxan tullantıların ixtisarını və ya uducularla absorbsiyanın artırılmasını nəzərdə tutur;
   c) 5 və 7-ci maddələr üzrə öhdəliklərini yerinə yetirmədiyi təqdirdə o, heç bir tullantı ixtisarı vahidi əldə etmir;
   d) 3-cü maddə üzrə öhdəliklərin yerinə yetirilməsi məqsədi ilə tullantıların ixtisar vahidinin əldə olunması daxili fəaliyyəti nizamlayır.
2. Hazırki Protokolun Tərəflər müşavirəsi sifəti ilə fəaliyyət göstərən Tərəflər Konfransı əməli cəhətdən mümkün olduqda özünün 1-ci sessiyasında və yaxud sonralar hazırkı maddənin həyata keçirilməsi, o cümlədən məruzələrin yoxlanılması və təqdim edilməsi üçün sonrakı rəhbər prinsipləri hazırlaya bilər.
3. Əlavə 1-ə daxil edilmiş Tərəf hazırki maddəyə uyğun olaraq tullantıların ixtisar vahidlərinin əldə olunması, təqdim olunması və ya qəbuluna gətirib çıxaran fəaliyyətlərdə hüququ şəxsləri öz nəzarəti altında səlahiyyətləndirə bilər.
4. Əlavə 1-ə daxil edilmiş bu və ya digər Tərəf tərəfindən hazırkı maddədən göstərilən tələblərin yerinə yetirilməsinə aid olan, 8-ci maddənin qərarlarına müvafiq olaraq məsələ meydana çıxarsa, öhdəliklərə riayət etmək haqqında məsələ həll olunana qədər heç bir Tərəfin 3-cü maddə üzrə öhdəliklərin yerinə yetirilməsi üçün bu cür vahidlərdən istifadə etməməsi şərti ilə, tullantıların ixtisar vahidinin qəbulu, əldə

olunması və ötürülməsi prosesi bu məsələ aşkar olunduqdan sonra da davam edə bilər.

Maddə 7

1. Əlavə 1-ə daxil edilmiş hər Tərəf aşağıda göstərilən 4-cü bəndə əsasən müəyyən edilən Konvensiyanın Tərəflər Konfransının müvafiq qərarlarına uyğun olaraq, təqdim edilən Monreal Protokolu ilə nizama salınmayan mənbələrdən çıxan antropogen tullantıları və parnik qazlarının uducularla absorbsiyasının illik kadastrına 3-cü maddənin qərarlarına əməl olunması məqsədi ilə zəruri əlavə informasiyanı daxil edir.
2. Əlavə 1-ə daxil edilmiş hər Tərəf aşağıda göstərilən 4-cü bəndə müvafiq olaraq müəyyən edilən Konvensiyanın 12-ci maddəsinə müvafiq olaraq təqdim edilən öz milli məruzəsinə hazırki Protokol üzrə öhdəlikləri yerinə yetirdiyini nümayiş etdirmək məqsədi ilə zəruri olan əlavə informasiyanı daxil edir.
3. Əlavə 1-ə daxil edilmiş hər Tərəf öhdəliklərin fəaliyyət dövrü ərzində həmin Tərəf üçün hazırkı Protokolun qüvvəyə minməsindən sonra Konvensiyaya uyğun olaraq təqdim edilməsi nəzərdə tutulan ilk kadastrdan başlayaraq, hər il yuxarıda göstərilən 1-ci bəndə uyğun olaraq tələb olunan informasiyanı təqdim edir. Aşağıda göstərilən 4-cü bənddə nəzərdə tutulduğu kimi, hazırkı Protokolun mövcud Tərəf üçün qüvvəyə minməsi və rəhbər prinsiplərin qəbul edilməsindən sonra hər bir belə Tərəf yuxarıda göstərilən 2-ci bəndə uyğun olaraq tələb olunan informasiyanı təqdim edir. Tərəflər Konfransı tərəfindən milli məruzələrin təqdim olunması üçün qəbul edilmiş istənilən cədvəli nəzərə almaqla hazırki maddəyə uyğun olaraq tələb olunan informasiyanın dövriolaraq sonrakı təqdimatı hazırkı Protokolun Tərəflər müşavirəsi sifəti ilə fəaliyyət göstərən Tərəflər Konfransı müəyyənləşdirir.
4. Hazırkı Protokolun Tərəflər Konfransı müşavirəsi sifəti ilə fəaliyyət göstərən Tərəflər Konfransı 1-ci sessiyasından və mütamadi olaraq əlavə 1-ə daxil edilmiş, Tərəflərin milli məruzələrinin hazırlanması üçün Tərəflər Konfransı tərəfindən qəbul edilmiş rəhbər prinsipləri nəzərə alaraq, hazırki maddəyə uyğun olaraq tələb olunan informasiyanın hazırlanması üçün aparıcı prinsipləri nəzərdən keçirir. Hazırki Protokolun Tərəflər müşavirəsi sifəti ilə fəaliyyət göstərən Tərəflər Konfransı müəyyən olunmuş miqdarın nəzərə alınması qaydası haqqında öhdəliklərin birinci fəaliyyət dövrünün başlanmasınadək də qərar qəbul edir.

Maddə 8

1. Əlavə 1-ə daxil edilmiş Tərəflər tərəfindən 7-ci maddəyə uyğun olaraq, təqdim olunan informasiya Tərəflər Konfransının müvafiq qərarlarının həyata keçirilməsi üzrə ekspertlər qrupu tərəfindən və aşağıda göstərilən 4-cü bəndə uyğun olaraq hazırki Protokolun Tərəflər müşavirəsi sifəti ilə fəaliyyət göstərən Tərəflər Konfransı tərəfindən bu məqsədlə qəbul edilən rəhbər prinsiplərə uyğun olaraq nəzərdən keçirilir. Əlavə 1-ə daxil edilmiş Tərəflərin 7-ci maddənin 1-ci bəndinə uyğun olaraq təqdim etdiyi informasiya tullantılar və müəyyən edilmiş miqdarın illik kompilyasiyası və kadastr hesabının bir hissəsi kimi nəzərdən keçirilir. Buna əlavə olaraq Əlavə 1-ə daxil edilmiş Tərəflər tərəfindən 7-ci maddənin 2-ci bəndinə uyğun olaraq təqdim edilən informasiya nəzərdən keçirilən məlumatların bir hissəsi kimi qəbul edilir.
2. Araşdırma üzrə ekspertlər qrupu katiblik tərəfindən koordinasiya olunur və Tərəflər Konvensiyası tərəfindən nümayəndələr irəli sürülən nümayəndələrdən seçilən ekspertlərdən ibarət olur və lazım olduqda Tərəflər Konvensiyası tərəfindən bu

məqsədlə qəbul edilən rəhbər göstərişlərə uyğun olaraq hökumətlərarası təşkilatlar tərəfindən nümayəndəliyi irəli sürülən ekspertlərdən ibarət olur.

3. Araşdırma prosesi ərzində mövcud Protokolun bütün aspektlərinin bu və ya digər Tərəf tərəfindən dəqiq və hərtərəfli texniki qiymətləndirilməsi aparılır. Tərəflərin öhdəliklərinin həyata keçirilməsinə təsir göstərən istənilən potensial problem və amilləri aşkar çıxaran hazırki Protokolun Tərəflər müşavirəsi sifəti ilə fəaliyyət göstərən Tərəflər Konvensiyası üçün araşdırma üzrə ekspertlər qrupu məruzə hazırlayır. Bu cür məruzələr katiblik Tərəfindən Konvensiyanın bütün Tərəfləri arasında yayılır. Katiblik hazırkı Protokolu Tərəflər müşavirəsi sifəti ilə fəaliyyət göstərən Tərəflər Konvensiyasının gələcək araşdırmaları üçün bu cür məruzələrdə meydana çıxan və öhdəliklərin yerinə yetirilməsinə aid olan məsələlərin siyahısını tutur.
4. Hazırkı Protokolu tərəflər müşavirəsi sifəti ilə fəaliyyət göstərən Tərəflər Konfransının müvafiq qərarlarını nəzərə alaraq araşdırma üzrə ekspertlər qrupunu hazırkı Protokolun yerinə yetirilməsinin nəzərdən keçirilməsi məqsədi ilə 1-ci sessiyasında rəhbər prinsipləri qəbul edir və sonralar mütəmadi olaraq onları nəzərdən keçirir.
5. Hazırkı Protokolun Tərəflər müşavirəsi sifəti ilə Tərəflər Konfransı (köməkçi orqanın) öhdəliklərin yerinə yetirilməsi üzrə köməkçi orqanın iştirakı ilə və elmi-texniki akspektlər üzrə məsləhətləşmələrin aparılması üçün köməkçi orqanın imkanlarından asılı olaraq nəzərdən keçirir:
   a) 7-ci maddəyə uyğun olaraq Tərəflər tərəfindən təqdim edilən informasiya və hazırkı maddə əsasında aparılan araşdırmalar haqqında ekspertlərin məruzəsi; və
   b) yuxarıda göstərilən 3-cü bəndə uyğun olaraq katiblik tərəfindən siyahıya daxil edilmiş öhdəliklərin yerinə yetirilməsi haqqında məsələlər və o cümlədən Tərəflər tərəfindən qaldırılan istənilən məsələlər.
6. Yuxarıda göstərilən 5-ci bənddə qeyd olunan informasiya nəzərdən keçirildikdən sonra hazırkı Protokolun Tərəflər müşavirəsi sifəti ilə fəaliyyət göstərən Tərəflər Konfransı hazırki Protokolun yerinə yetirilməsi üçün zəruri olan istənilən məsələlər üzrə qərar qəbul edir.

Maddə 9

1. Hazırki Protokolun Tərəflər müşavirəsi sifəti ilə fəaliyyət göstərən Tərəflər Konfransı hazırkı Protokolun mövcud olan ən müasir elmi informasiya və İqlim dəyişmələri və onun nəticələrinin qiymətləndirilməsi, o cümlədən bu amillərlə bağlı olan texniki, sosial və iqtisadi informasiyanı mütamadi olaraq nəzərdən keçirir. Bu cür araşdırmalar Konvensiya Çərçivəsindən müvafiq müzakirələr və xüsusi ilə Konvensiyanın 4-cü maddəsinin 2 (d) bəndi və 7-ci maddəsinin 2 (a) bəndində nəzərdə tutulan müzakirələr ilə koordinasiya edilir. Bu cür müzakirələr əsasında hazırkı Protokolun Tərəflər müşavirəsi sifəti ilə fəaliyyət göstərən Tərəflər Konfransı müvafiq qərarlar qəbul edir.
2. İlk müzakirə hazırkı Protokolun Tərəflər müşavirəsi sifəti ilə fəaliyyət göstərən Tərəflər Konfransının 2-ci sessiyasında keçirilir. Növbəti müzakirələr mütamadi olaraq vaxtlı-vaxtında təşkil olunur.

Madə 10

Öz ümumi, lakin fərqli, məsuliyyətli, səciyyəvi, milli və regional üstünlükləri, inkişaf sahəsində məqsəd və məramları nəzərə alaraq, əlavə 1-ə daxil edilmiş Tərəflər üçün yeni öhdəlikləri işə salmadan, lakin Konvensiyanın 4-cü maddəsinin 1-ci bəndi üzrə mövcud

öhdəlikləri yenidən təsdiqləyərək və konvensiyanın 4-cü maddəsininin 3, 5, 7-ci bəndlərini nəzərə alaraq sabit inkişafa nail olmaq üçün bu öhdəliklərin yerinə yetirilməsinə köməklik məqsədi ilə bütün Tərəflər:

a) Tərəflər Konfransı tərəfindən qəbul edilmiş milli məruzələrin hazırlanması üçün rəhbər prinsiplərə uyğun olaraq Tərəflər Konfransı bəyəniləcək müqayisəli metodologiyaları istifadə edərək, Monreal Protokolu ilə nizama salınmayan mənbələrdən çıxan antropogen tullantıları və parnik qazları uducularla absorbsiyasının milli kadastırın mütamadi olaraq yeniləşməsi və tərtib olunması məqsədi ilə, hər bir Tərəfin sosial iqtisadi göstəriciləri əks edilən fəaliyyət növləri və yaxud modelləri lazım gəldikdə və iqtisadi nöqteyi nəzərdən mümkün qədər səmərəli, milli və müvafiq hallarda tullantıların yerli göstəricilərin keyfiyyətinin yüksəldilməsi üzrə regional proqramlar formalaşdırır;

b) İqlim dəyişmələrin nəticələrinin mülayimləşdirilməsi və iqlim dəyişilmələrinə uyğun adaptasiya üzrə tədbirlərin keçirilməsini nəzərdə tutan milli və regional proqramları tərtib edir, həyata keçirir, nəşr etdirir və mütamadi olaraq yeniləşdirir;

1. Belə proqramlar əsasən energetika, nəqliyyat və sənaye, o cümlədən kənd təsərrüfatı, meşə təsərrüfatı və tullantıların ayrılması sahələrinə aid olur. Bununla yanaşı, iqlim dəyişmələrinə olan adaptasiyanı ərazi, məkan planlaşdırılması təkmilləşdirmə metodları və adaptasiya texnologiyaları sahəsində təkmilləşdirmək mümkündür.

2. Əlavə 1-ə daxil edilmiş tərəflər 7-ci maddəyə uyğun olaraq milli proqramlar da daxil olmaqla hazırkı Protokola əsasən fəaliyyət öhdəlikləri haqqında informasiya təqdim edir. Digər Tərəflər isə müvafiq hallarda parnik qazı tullantılarının artması və uducuların absorbsiyasının yüksəldilməsi, potensialın möhkəmləndirilməsi və adaptasiya tədbirləri daxil olmaqla müvafiq Tərəfin fikrincə, iqlim dəyişmələri və onun xoşagəlməz nəticələrinin aradan qaldırılması problemi həllinə şərait yaradan tədbirləri nəzərdə tutan proqramlar haqqında öz milli məruzələrinə informasiya daxil edirlər.

c) ekoloji cəhətdən təhlükəsiz olan texnologiyaların tətbiq olunması və yayılması, nou-hau, İqlim dəyişmələrinə aidiyyatı olan proseslərin araşdırılması üçün əlverişli şəraitin yaradılmasında əməkdaşlıq edir və dövlətin mülkiyyətində olan və yaxud ictimai əmlak sayılan ekoloji cəhətdən təhlükəsiz texnologiyaların səmərəli şəkildə ötürülməsi, proqram və layihələrinin hazırlanmasını nəzərə alaraq xüsusən inkişaf etməkdə olan ölkələr üçün mövcud şəraitdən asılı olaraq bu cür texnologiyanın nou-hau, tətbiqi proseslərinin genişləndirilməsi, asanlaşdırılması, maliyyələndirilməsi məqsədi ilə əməli cəhətdən mümkün ola biləcək tədbirlər ekoloji cəhətdən təhlükəsiz texnologiyadan istifadənin genişləndirilməsi və yayılması ilə bağlı özəl sektor üçün əlverişli şəraitin yaradılması yolunda addımlar atır;

d) elmi-texniki tədqiqatların aparılmasında əməkdaşlıq edir və mütamadi müşahidə sisteminin mühafizəsi və inkişafına, iqlim sistemi, iqlim dəyişmələrinin xoşagəlməz nəticələri və müxtəlif reaksiya strategiyalarının iqtisadi və sosial nəticələri ilə bağlı olan qeyri-müəyyənliklərin azaldılması üçün arxiv məlumatlarının inkişafına şərait yaradır, o cümlədən Konvensiyanın 5-ci maddəsini nəzərə alaraq, elmi-tədqiqatlar və mütamadi müşahidələr sahəsi üzrə beynəlxalq və hökumətlərarası proqram və şəbəkələrdə iştirak etmək imkanının əldə olunması və daxili potensialın inkişafı və möhkəmləndirilməsini təmin edir;

e) insan ehtiyatları və təşkilati imkanlar timsalında milli potensialın möhkəmləndirilməsi yolunda fəaliyyətini nəzərə alaraq kadrların hazırlanması və maarifləndirilməsi üzrə proqramların işlənilməsi və həyata keçirilməsi

sahəsində yeri gəldikdə mövcud orqanların qüvvəsindən istifadə edərək beynəlxalq səviyyədə əməkdaşlıq üzrə tədbirlər həyata keçirir, xüsusi ilə inkişaf etməkdə olan ölkələrin bu sahə üzrə ekspertlərin hazırlanması üçün əməkdaşların mübadiləsi və yaxud onların ezamiyyətə göndərilməsi həyata keçirilir və o cümlədən İqlim dəyişmələri haqqında informasiyanın ictimaiyyətə çatdırılması və ictimaiyyətin milli səviyyədə məlumatlandırılmasına şərait yaradır. Konvensiyanın müvafiq orqanları çərçivəsində həyata keçiriləcək bu fəaliyyəti uyğun şərtlərə Konvensiyanın 6-cı maddəsini nəzərə almaqla araşdırılmalıdır.

f) Tərəflər Konvensiyasının müvafiq qərarlarına uyğun olaraq, hazırki maddənin həyata keçirilməsi üçün proqram və fəaliyyət haqqında informasiyanı öz milli məruzələrinə daxil edirlər; və

g) hazırkı maddə üzrə öhdəliklər yerinə yetirilərkən Konvensiyanın 4-cü maddəsinin 8-ci bəndi tam dolğunluğu ilə nəzərə alınır.

Maddə 11

1. 10-cu maddəni həyata keçirərkən Tərəflər Konvensiyanın 4-cü maddəsinin 4, 5, 7, 8 və 9-cu bəndlərinin qərarlarını nəzərə alırlar.
2. Konvensiyanın 4-cü maddəsinin 1-ci bəndinin həyata keçirilməsi kontekstində Konvensiyanın 11-ci maddəsi və 4-cü maddəsinin 3-cü bəndinin qərarlarına uyğun olaraq və Konvensiyanın maliyyə mexanizminin idarəçiliyi ilə məşğul olan bir orqan və ya orqanlar vasitəsi ilə, inkişaf etmiş ölkələr olan Tərəflər və Konvensiyanın 2-ci əlavəsinə daxil edilmiş digər inkişaf etmiş Tərəflər:
   a) 10-cu maddənin (a) bəndində göstərilən Konvensiyanın 4-cü maddəsinin 1 (a) bəndi üzrə öhdəliklərin yerinə yetirilməsində inkişaf etməkdə olan ölkələri təmsil edən Tərəflər tərəfindən sərf olunan bütün razılaşdırılmış xərclərin ödənilməsi üçün yeni və əlavə maliyyə ehtiyatları təqdim edir; və
   b) inkişaf etməkdə olan ölkəni təmsil edən Tərəf və Konvensiyanın göstərilən 11-ci maddəsinə uyğun olaraq qeyd olunan beynəlxalq orqan və ya orqanlar arasında razılaşdırılmış və 10-cu maddə ilə haşiyələnən Konvensiyanın 4-cü maddəsinin 1-ci bəndi üzrə öhdəliklərin yerinə yetirilməsi ilə bağlı olan razılaşdırılmış bütün əlavə xərclərin ödənilməsi üçün inkişaf etməkdə olan ölkələri təmsil edən Tərəflər üçün zəruri hesab edilən texnologiyaların təqdim olunması üçün belə maliyyə vəsaitini həmçinin təqdim edir.

   Mövcud öhdəlikləri yerinə yetirərkən müvafiq və proqnozlaşdırılan və sair axınına yaranan tələbat və inkişaf etmiş ölkələr hesab olunan Tərəflər arasında bu yükün müvafiq şəkildə bölüşdürülməsinin mühümlüyü nəzərə alınır. Konvensiyanın maliyyə mexanizmi və idarə olunması ilə məşğul olan bir orqan və orqanlar üçün Tərəflər Konvensiyasının müvafiq qərarlarında göstərilən və o cümlədən hazırkı Protokolun qəbuluna qərar razılaşdırılan rəhbər göstərişlər hazırkı bəndin qərarlarına tətbiq olunur.
3. İnkişaf etmiş ölkələr sayılan Tərəflər və Konvensiyanın 2-ci əlavəsinə daxil edilmiş digər inkişaf etmiş Tərəflər 10-cu maddənin həyata keçirilməsi üçün ikitərəfli regional və digər çoxşaxəli kanallar üzrə maliyyə vəsaiti verə, inkişaf etməkdə olan ölkələr hesab edilən Tərəflər isə maliyyə vəsaiti ala bilər.

Maddə 12

1. Hazırki maddə ilə təmiz inkişaf mexanizmi müəyyənləşdirilir.

2. Təmiz inkişaf mexanizminin məqsədi stabil inkişafın təmin olunması və Konvensiyanın son məqsədinə nail olmaq üçün köməklik göstərilməsində əlavə 1-ə daxil edilməmiş Tərəflərə yardım etmək, 3-cü maddəyə uyğun olaraq tullantıların məhdudlaşdırılması və ixtisarı üzrə müəyyən say öhdəliklərin yerinə yetirilməsinin təmin olunmasında Əlavə 1-ə daxil edilməmiş Tərəflərə köməklik göstərilməsindən ibarətdir.
3. Təmiz inkişaf mexanizmi çərçivəsində:
   a) Əlavə 1-ə daxil edilməmiş Tərəflər tullantıların sertifikatlaşdırılmış ixtisarına gətirib çıxaran layihələr üzrə fəaliyyətin həyata keçirilməsi nəticəsində alınan gəlirdən istifadə edirlər; və
   b) Əlavə 1-ə daxil edilmiş Tərəflər hazırki Protokolun Tərəflər müşavirəsi sifəti ilə fəaliyyət göstərən Tərəflər Konfransının müəyyən etdiyi kimi 3-cü maddəyə uyğun olaraq tullantıların məhdudlaşdırılması və ixtisari üzrə müəyyən say öhdəliklərinin bir qisminin yerinə yetirilməsinə köməklik məqsədi ilə layihələr üzrə bu cür fəaliyyət nəticəsində tullantıların sertifikatlaşdırılmış ixtisarını istifadə edə bilərlər.
4. Təmiz inkişaf mexanizmi hazırki Protokolun Tərəflər müşavirəsi sifəti ilə fəaliyyət göstərən Tərəflər Konfransı tərəfindən təyin ediləcək operativ orqanlar vasitəsilə sertifikatlaşdırılır.
5. Layihələr üzrə hər bir fəaliyyət növü nəticəsində tullantıların ixtisarını hazırki Protokolun Tərəflər müşavirəsi sifəti ilə fəaliyyət göstərən Tərəflər Konfransı tərəfindən təyin ediləcək operativ orqanlar vasitəsi ilə sertifikatlaşdırılır:
   a) hər bir iştirakçı Tərəf tərəfindən bəyənilən könüllü iştirak əsasında;
   b) İqlim dəyişmələri nəticələrinin yüngülləşdirilməsi ilə bağlı olan real ölçülə biləcək və uzun müddətli üstünlüklər; və
   c) Layihələr üzrə sertifikatlaşdırılmış fəaliyyət növü mövcud olmadığı təqdirdə, ola biləcək istənilən ixtisarlara əlavə edilən tullantı ixtisarları əsasında.
6. Təmiz inkişaf mexanizmi lazım gəldikdə, layihələr üzrə sertifikatlaşdırılmış fəaliyyət növlərinin maliyyələşdirilməsi üçün təşkilat daxili köməklik göstərir.
7. Hazırki Protokolun Tərəflər müşavirəsi sifəti ilə fəaliyyət göstərən Tərəflər Konfransı layihələr üzrə fəaliyyətin yoxlanılması və azad təftiş vasitəsi ilə şəffaflıq, səmərəlilik və hesabatların verilməsi məqsədi ilə 1-ci sessiyasında müvafiq üsul və şərtləri hazırlayır.
8. Hazırki Protokolun tərəflər müşavirəsi sifəti ilə fəaliyyət göstərən Tərəflər Konfransı layihələr üzrə sertifikatlaşdırılmış fəaliyyət növlərində alınan gəlirin bir hissəsinin inzibati xərclərin ödənilməsi üçün, o cümlədən adaptasiya ilə bağlı xərclərin ödənilməsində və İqlim dəyişmələri xoşagəlməz təsirlərinə qarşı xüsusən həssas olan inkişaf etməkdə olan ölkələrlə təmsil olunan Tərəflər köməklik göstərilməsi məqsədi ilə istifadə edilməsini təmin edir.
9. Təmiz inkişaf mexanizmində, o cümlədən yuxarıda qeyd olunan 3 (a) bəndində göstərilən fəaliyyətdə və tullantıların sertifikatlaşdırılmış ixtisarının alınmasında özəl və/ və ya dövlət subyektləri iştirak edə bilər, bu iştirak təmiz inkişaf mexanizminin icra şurasının verəcəyi istənilən göstərişə müvafiq olaraq həyata keçirilir.
10. 2000-ci ildən öhdəliklərin 1-ci fəaliyyət dövrünün başlanmasınadək olan mərhələdə tullantıların sertifikatlaşdırılmış ixtisarı öhdəliklərin 1-ci fəaliyyət dövründə yerinə yetirilməsinin təmin olunması məqsədi ilə köməklik göstərilməsində istifadə edilə bilər.

Maddə 13

1. Konvensiyanın ali orqanı olan tərəflər Konfransı hazırkı Protokolun Tərəflər müşavirəsi sifəti ilə fəaliyyət göstərir.
2. Hazırkı Protokolun Tərəfləri olmayan Konvensiyanın Tərəfləri hazırkı Protokolun Tərəflər müşavirəsi sifəti ilə fəaliyyət göstərən Tərəflər Konfransının istənilən sessiyanın işində müşahidəçi sifəti ilə iştirak edə bilər. Tərəflər Konfransı hazırkı Protokolun Tərəflər müşavirəsi sifəti ilə fəaliyyət göstərdiyi təqdirdə hazırkı Protokol haqqında qərarlar yalnız hazırkı Protokolun Tərəfləri tərəfindən qəbul edilir.
3. Tərəflər Konfransı hazırkı Protokolun Tərəflər müşavirəsi sifəti ilə fəaliyyət göstərdiyi təqdirdə hal-hazırkı Protokolun Tərəfi olmayan və Konvensiya Tərəfini təmsil edən Tərəflər Konfransı Rəyasət heyətinin istənilən üzvü hazırkı Protokol Tərəflərinin öz aralarından seçdiyi əlavə üzvlə əvəz olunur.
4. Hazırki Protokolun Tərəflər müşavirəsi sifəti ilə fəaliyyət göstərən Tərəflər Konfransı hazırkı Protokolun həyata keçirilməsini mütəmadi olaraq nəzərdən keçirir və Protokolun səmərəli iştirakının yerinə yetirilməsi üçün zəruri olan qərarları öz mandatı çərçivəsində verir. Hazırkı Protokola müvafiq olaraq Konfrans öz üzərinə düşən funksiyaları yerinə yetirir; və
   a) Hazırkı Protokolun qərarlarına müvafiq olaraq ona təqdim edilən bütün informasiyanı, Tərəflər tərəfindən hazırkı Protokolun həyata keçirilməsi prosesini, hazırkı Protokolun yerinə yetirilməsi üçün keçirilən tədbirlərin ümumi və xüsusən də ekoloji iqtisadi və sosial səmərəliliyi, o cümlədən Konvensiyanın məqsədlərinə nail olunmasına onların kumulyativ təsiri və inkişaf səviyyəsini qiymətləndirir;
   b) Konvensiyanın 7-ci maddəsinin 2-ci bəndi və 4-cü maddəsinin 2 (d) bəndinə uyğun olaraq nəzərdə tutulan istənilən məsələləri Konvensiyanın məqsədi və yerinə yetirilməsi müddətində əldə olunan təcrübə, elmi-texniki biliklərin inkişafı baxımından lazımi səviyyədə hazırkı Protokol üzrə Tərəflərin öhdəliklərini mütəmadi olaraq nəzərdən keçirir və bununla əlaqədar olaraq hazırkı Protokolun yerinə yetirilməsi haqqında daimi məruzələr qəbul edir və onları araşdırır.
   c) Tərəflərin mövcud şərait, məsuliyyət və imkanlarında meydana çıxan mövcud fərqli və hazırkı Protokol üzrə onların müvafiq öhdəliklərini nəzərə alaraq İqlim dəyişmələri və onun nəticələri probleminin həlli üçün Tərəflərin həyata keçirdiyi tədbirlər haqqında informasiya mübadiləsinə şərait yaradır və onu genişləndirir;
   d) İki və daha artıq Tərəfin xahişi ilə Tərəflərin mövcud imkan, şərait və məsuliyyət sahəsində meydana çıxan fərqləri hazırki Protokol üzrə onların müvafiq öhdəliklərini nəzərə alaraq İqlim dəyişmələri və onun nəticələri problemin həll olunması üçün Tərəflərin həyata keçirdiyi tədbirlərin koordinasiyası köməklik göstərir;
   e) Konvensiyanın məqsədləri və hazırkı Protokolun qərarlarına uyğun olaraq, Konvensiyanın Tərəflər Konfransının müvafiq qərarlarının, hazırkı Protoklun Tərəflər müşavirəsi sifəti ilə fəaliyyət göstərən Tərəf Konfransı tərəfindən bəyəniləcək hazırkı Protokolun səmərəli həyata keçirilməsi üçün müqayisəli metodologiyaların işlənməsi və mütəmadi olaraq dəqiqləşdirilməsini tam dolğunluğu ilə nəzərə alaraq fəaliyyəti genişləndirir və istiqamətləndirir;
   f) Hazırkı protokolun yerinə yetirilməsi üçün zəruri olan istənilən məsələlər üzrə tövsiyyələr verir;
   g) 11-ci maddənin 2-ci bəndinə uyğun olaraq əlavə maliyyə vəsaitinin səfərbərliyə alınması üçün tədbirlər həyata keçirir;
   h) Hazırkı Protokolun yerinə yetirilməsi üçün tələb olunan köməkçi orqanları təsis edir.

i) Lazım gəldikdə səlahiyyətli beynəlxalq təşkilatlar hökumətlərarası və qeyri-hökumət orqanlarının xidmət və əməkdaşlığını və onların təqdim etdiyi informasiyanı sorğu və istifadə edir;
j) Hazırkı Protokolun yerinə yetirilməsi üçün tələb olunan digər funksiyaları yerinə yetirir və Tərəflər Konfransının qərarlarının nəticəsi olan istənilən məsələni nəzərdən keçirir.

5. Konvensiyaya uyğun olaraq, həyata keçirilən Tərəflər Konfransının prosedur qaydaları və maliyyə prosedurları mutatis mutandis Protokoluna tətbiq edilir. Hazırkı Protokolun Tərəflər müşavirəsi sifəti ilə fəaliyyət göstərən Tərəflər Konfransının konsensus əsasında digər bir qərara gəldiyi hallar istisna olmaqla;
6. Katiblik hazırkı Protokolun Tərəflər müşavirəsi sifəti ilə fəaliyyət göstərən Tərəflər Konfransının birinci sessiyasını hazırkı Protokolun qüvvəyə mindiyi vaxtdan etibarən başlanılması nəzərdə tutulan Tərəflər Konfransının 1-ci sessiyası ilə eyni vaxtda çağırılır. Hazırkı Protokolun Tərəflər müşavirəsi sifəti ilə fəaliyyət göstərən Tərəflər Konfransının növbəti sessiyaları hər il və hazırkı Protokolun Tərəflər müşavirəsi sifəti ilə fəaliyyət göstərən Tərəflər Konfransı digər qərar çıxarmadığı təqdirdə Tərəflər Konfransının növbəti sessiyaları ilə eyni vaxtda keçirilir.
7. Hazırkı Protokolun Tərəflər müşavirəsi sifəti ilə fəaliyyət göstərən Tərəflər Konfransının növbədənkənar sessiyaları hazırkı Protokolun Tərəflər müşavirəsi sifəti ilə fəaliyyət göstərən Tərəflər Konfransının bunu zəruri hesab etdiyi təqdirdə və yaxud katibliyin bu tələbnaməni Tərəflərə göndərdiyi vaxtdan keçən altı ay ərzində əgər bu tələb Tərəflərin ən azı 1/3-i tərəfindən dəstəklənərsə, bu zaman Tərəflərdən 1-in yazılı tələbnaməsi əsasında çağırılır.
8. Birləşmiş Millətlər Təşkilatı, Atom Enerjisi üzrə beynəlxalq agentlik, BMT-in ixtisaslaşmış müəssisələri və o cümlədən Konvensiyanın Tərəflərin hesab olunmayan belə təşkilatların üzvü olan və yaxud onlarda müşahidəçi sifəti ilə iştirak edən istənilən dövlət hazırkı Protokolun Tərəflər müşavirəsi sifəti ilə fəaliyyət göstərən Tərəflər Konfransının sessiyalarında müşahidəçi sifəti ilə təmsil oluna bilər. Hazırkı Protoklun fəaliyyət dairəsinə aid olan məsələlər üzrə səlahiyyət daşıyan və hazırkı Protokolun Tərəflər müşavirəsi sifəti ilə fəaliyyət göstərən Tərəflər Konfransının sessiyalarında müşahidəçi sifəti ilə təmsil olunmaları haqqında öz arzularını katibliyə bildirmiş, milli və yaxud beynəlxalq hökumət və yaxud qeyri-hökumət olmaqla istənilən orqan və yaxud təşkilatlar yalnız iştirakçı Tərəflərin ən azı 1/3-nin narazılığı istisna olunmaqla Konfransın bütün sessiyalarında iştirak etməyə icazə verilir. Müşahidəçilərin buraxılması və iştirakı yuxarıda göstərilən 5-ci bənddə nəzərdə tutulduğu kimi prosedur qaydaları ilə nizamlanır.

Maddə 14

1. Konvensiyanın 8-ci maddəsinə uyğun olaraq təsir edilmiş katiblik hazırkı Protokolun katibliyi sifəti ilə fəaliyyət göstərir.
2. Konvensiyanın katibliyinin funksiyaları haqqında 8-ci maddəsinin 2-ci bəndi və katibliyin fəaliyyətinin təşkili haqqında Konvensiyanın 8-ci maddəsinin 3-cü bəndi mutatis mutandis Protokoluna tətbiq edilib. Bununla yanaşı katiblik hazırkı Protokola uyğun olaraq, üzərinə qoyulan funksiyaları da yerinə yetirir.

Maddə 15

1. Konvensiyanın 9 və 10-cu maddələri əsasında təsis olunmuş elmi-texniki aspektlər

üzrə məsləhətləşmələrin aparılması üzrə köməkçi orqan və onların həyata keçirilməsi üzrə köməkçi orqan hazırkı Protokolun yerinə yetirilməsi üzrə köməkçi orqan kimi müvafiq olaraq fəaliyyət göstərir. Konvensiyaya uyğun olaraq bu iki orqanın fəaliyyətinə aid olan qərarlar mutatis mutandis Protokoluna tətbiq edilir. Elmi-texniki aspektlər üzrə məsləhətləşmələr aparan köməkçi orqan və hazırkı Protokolun həyata keçirilməsi üzrə köməkçi orqanın sessiya iclasları elmi-texniki aspekt üzrə məsləhətləşmələr aparan köməkçi orqan və Konvensiyanın yerinə yetirilməsi üzrə köməkçi orqanın iclaslarına müvafiq olaraq həyata keçirilir.

2. Hazırki Protokolun Tərəfləri sayılmayan Konvensiya Tərəfləri köməkçi orqanların istənilən sessiyasının işində müşahidəçi sifəti ilə iştirak edə bilər. Köməkçi orqanların hazırki Protokolun köməkçi orqanlar sifəti ilə fəaliyyət göstərdiyi tədbirdə hazırki Protokolla bağlı qərarlar yalnız bu Protokolun Tərəfləri hesab olunan Tərəflər vasitəsi ilə qəbul edilir.
3. Konvensiyanın 9 və 10-cu maddələrinə uyğun olaraq təsis edilmiş köməkçi orqanlar hazırkı Protokola aid olan məsələlər üzrə öz funksiyalarını həyata keçirərkən, hazırki Protokolun hal-hazırda tərəfi hesab edilməyən Tərəflər Konvensiyasını təmsil edən köməkçi orqanlar Bürosunun istənilən üzvü hazırkı Protokolun Tərəfləri tərəfindən öz sırasından seçilmiş əlavə üzvlə əlavə olunur.

Maddə 16

Hazırkı Protokolun Tərəflər müşavirəsi sifəti ilə fəaliyyət göstərən Tərəflər Konfransı Konvensiyasının 13-cü maddəsində göstərilən çoxtərəfli məsləhətləşmələrin hazırkı Protokola tətbiq olunması məsələsi Tərəflər Konfransı tərəfindən qəbul edilə biləcək müvafiq qərarlar baxımından lazım gəldikdə bu prosesin modifikasiyası məsələsini mümkün olan kimi nəzərdən keçirəcək. Hazırkı Protokola tətbiq oluna biləcək istənilən çoxtərəfli məsləhətləşmə prosesi 18-ci maddəyə uyğun olaraq təsis edilmiş prosedur və mexanizmlərə xələl gətirmədən fəaliyyət göstərir.

Maddə 17

Tərəflər Konfransı tullantıların satış hesabatı və məruzələrin araşdırılması və təqdim olunması üçün müvafiq prinsip, şərt, qayda və rəhbər prinsipləri müəyyənləşdirir. B əlavəsinə daxil edilmiş Tərəflər 3-cü maddəyə əsasən öhdəlikləri yerinə yetirmək məqsədi ilə tullantıların satışında iştirak edə bilərlər. İstənilən bu cür satış forması hazırkı maddəyə uyğun olaraq tullantıların məhdudlaşdırılması və ixtisarı üzrə müəyyən say öhdəliklərinin yerinə yetirilməsi məqsədi ilə daxili fəaliyyəti tamamlayır.

Maddə 18

Hazırkı Protokolun Tərəflər müşavirəsi sifəti ilə fəaliyyət göstərən Tərəflər Konfransı 1-ci sessiyasında hazırkı protokol qərarlarının yerinə yetirilməsi hallarının aşkara çıxarılması üçün müvafiq səmərəli prosedur və mexanizmləri və riayət etməmək hallarının səbəb, növ, dərəcə və tezliyini nəzərə alaraq baş verəcək nəticələrin təxmini sadalanmasının işlənib hazırlanması yolu ilə bu cür qərarlara riayət etməmə hallarına müvafiq reaksiyalar verir. Hazırkı maddəyə uyğun olaraq icbari xarakter daşıyan nəticələrlə bitən istənilən prosedur və mexanizmlər hazırkı Protokola düzəlişlər vasitəsi ilə daxil edilir.

Maddə 19

Konvensiyanın mübahisələri nizama salınması haqqında 14-cü maddəsinin qərarları mutatis mutandis protokoluna tətbiq edilir.

Maddə 20

1. İstənilən Tərəf hazırkı Protokola düzəlişlər etmək təklifini verə bilər.
2. Hazırkı Protokola düzəlişlər hazırkı Protokolun Tərəflər müşavirəsi sifəti ilə fəaliyyət göstərən Tərəflər Konfransının növbəti sessiyasında həyata keçirilir. Katibliyə qəbul olunmaq üçün təqdim edilən və müşavirənin başlamasına ən azı 6 ay qalmış hazırkı Protokola təklif olunan istənilən düzəlişin mətnini Tərəflərə bildirir. Katiblik Konvensiyanın Tərəfləri və imza edən Tərəflərinə və məlumatlandırmaq üçün depozitor Tərəfə təklif olunan düzəlişlərin mətnini də bildirir.
3. Tərəflər hazırkı Protokola təklif olunan istənilən düzəlişlər üzrə razılıq əldə olunması üçün konsensus əsasında mümkün olan hər bir işi görür. Konsensusun əldə olunmasına yönələn bütün cəhdlərin boşa çıxdığı və razılaşmanın əldə olunmadığı təqdirdə, düzəliş son çıxış yolu kimi Tərəflərin qeyd olunan müşavirəsində səsvermədə iştirak edənlərin 3/4 hissəsinin əksəriyyət səsi ilə qəbul edilir. Katiblik qəbul olunmaq üçün onu bütün Tərəflərə müşayiət edən depozitor Tərəfə qəbul olunmuş düzəliş mətnini bildirir.
4. Düzəlişlərin qəbul olunması haqqında sənədlər mühafizə olunmaq üçün depozitor Tərəfə təhvil verilir. Yuxarıda göstərilən 3-cü bəndə uyğun olaraq qəbul edilmiş düzəliş hazırki Protokolun Tərəflərin ən azı 3/4 hissəsi Tərəfindən qəbulu haqqında sənədin depozitor Tərəfindən qəbul edildiyi 90-cı gün bu sənədi qəbul edən Tərəflər üçün qüvvəyə minir.
5. Düzəliş göstərilən Tərəfin söz gedən düzəlişin qəbul edilməsi haqqında sənədin depozitor Tərəfə mühafizə üçün təqdim olunduğu təhvil gününün 90-cı günü bütün Tərəflər üçün qüvvəyə minir.

Maddə 21

1. Hazırkı Protokola əlavə onun ayrılmaz hissəsini təşkil edir və əgər digər məsələlər nəzərdə tutulmursa, mövcud Protokola əsasən eyni zamanda ona edilən istənilən əlavələrə iqtibas deməkdir. Mövcud Protokolun qüvvəyə minməsindən sonra qəbul edilmiş istənilən əlavələr elmi, texniki, prosedur və yaxud inzibati məsələlərə aid olan təsviri xarakter daşıyan sadalama, forma və ya hər hansı digər materialla məhdudlaşır.
2. Hər bir Tərəf hazırkı Protokla əlavənin qəbul edilməsi haqqında təklif irəli sürə bilər və hazırkı Protokola olan əlavələrə düzəliş etmək təklifini verə bilər.
3. Hazırkı Protokola əlavələr və protokol əlavələrinə edilən düzəlişlər hazırkı Protokolun Tərəflər müşavirəsi sifəti ilə fəaliyyət göstərən Tərəflər Konfransının növbəti sessiyasında qəbul edilir. Katiblik iclasın başlanmasına ən azı 6 ay qalmış təklif olunan istənilən əlavənin və yaxud əlavəyə edilən istənilən düzəlişin mətnini Tərəflərə bildirir. Katiblik həm də istənilən təklif olunana əlavə və yaxud əlavələrə edilən istənilən düzəlişin mətnini Tərəflərə Konvensiyanı imza edən Tərəflərinə və məlumatlandırmaq üçün depozitor Tərəfə bildirir.
4. Tərəflər təklif olunan istənilən əlavə və yaxud istənilən düzəliş üzrə konsensus əsasında razılıq əldə etmək üçün əlindən gələni əsirgəmir.
5. Konsensusa yönəlmiş bütün cəhdlər boşa çıxdıqda, razılaşma əldə olunmadıqda bu zaman əlavə və yaxud əlavəyə düzəliş son çıxış yolu kimi Tərəflərin qeyd olunan

iclasında səs vermədə iştirak edənlərin 3/4 hissəsinin böyük əksəriyyət səsi ilə qəbul edilir. Katiblik qəbul olunmuş əlavə və yaxud əlavəyə düzəlişin mətninin qəbul olunması üçün bütün Tərəflərə müşayiət edən depozitor Tərəfə bildirir.

6. Yuxarıda göstərilən 3 və 4-cü bəndlərə müvafiq olaraq qəbul edilmiş (a) və (b) bəndlərindən başqa əlavə və yaxud əlavəyə düzəliş hazırkı Protokolun bütün Tərəfləri üçün depozitor tərəfindən qeyd olunan əlavə, yaxud əlavəyə düzəlişin qəbul olunması haqqında Tərəflərə göndərdiyi bildirişdən yalnız 6 ay sonra qüvvəyə minir, bu müddət ərzində qeyd olunan əlavə və yaxud əlavəyə edilən düzəlişi qəbul etmələri haqqında depozitor tərəfə yazılı şəkildə öz bildirişini göndərən Tərəflər istisna olmaqla. Əlavə və yaxud əlavəyə düzəliş onları qəbul etmək haqqında öz bildirişini ləğv edən Tərəflər üçün yalnız depozitor Tərəfin bu bildirişin ləğvi barədə aldığı xəbərin 90-cı günü qüvvəyə minir.
7. Qəbul edilmiş əlavələr və yaxud əlavələrə düzəlişlər hazırkı Protokola düzəlişlərin edilməsi ilə bağlı olduğu təqdirdə bu cür əlavə və yaxud əlavəyə düzəliş hazırkı Protokola edilən düzəliş qüvvəyə minənədək fəaliyyət göstərmir.
8. Hazırki Protokolun (a) və (b) əlavələrinə edilən düzəlişlər, (b) əlavəsinə istənilən düzəlişin yalnız sözü gedən Tərəfin yazılı şəkildə yazıldıqdan sonra qəbul edilməsi şərti ilə 20-ci maddədə göstərilən proseduralara uyğun olaraq qəbul edilir və qüvvəyə minir.

Maddə 22

1. Aşağıda göstərilən 2-ci bənddə nəzərdə tutulan hallar istisna hər bir Tərəf bir səsə malikdir.
2. İqtisadi inteqrasiya üzrə regional təşkilatlar hazırkı Protokolun Tərəfləri hesab olunan üzv olan dövlətlərin ümumi miqdarına bərabər olan səs çoxluğu ilə onların səlahiyyətinə aid olan məsələlər üzrə səsvermədə iştirak edirlər. Bu cür təşkilat onun üzvü olan hər hansı bir dövlət öz səs hüququnun istifadə etməsindən asılı olaraq səs hüququndan istifadə etmir və əksinə.

Maddə 23

Hazırkı Protokolun depozitor funksiyalarını Birləşmiş Millətlər Təşkilatının Baş Katibi yerinə yetirir.

Maddə 24

1. Hazırkı Protokol Konvensiyanın Tərəfləri hesab olunan iqtisadi inteqrasiya üzrə regional təşkilatlar və dövlətlər tərəfindən qəbul edilməsi və yaxud bəyənilməsi, təsdiq edilməsi və imza olunması üçün açıq hesab olunur. O, 1998-ci ilin 16 mart tarixindən 15 mart 1999-cu ilədək Birləşmiş Millətlər Təşkilatının Nyu-Yorkda yerləşən mərkəzi idarəsində imzalanmaq üçün açıq hesab olunur. Hazırkı Protokol imzalanması üçün bağlanıldığı tarixin növbəti günü birləşmək üçün açılır. Təsdiq olunma, qəbul, bəyənilmə və yaxud birləşdirilmə haqqında sənədlər mühafizə olunmaq üçün depozitora təhvil verilir.
2. Hazırkı Protokolun Tərəfi hesab olunan, lakin bununla yanaşı heç bir üzv dövləti Protokolun tərəfi hesab olunmayan iqtisadi inteqrasiya üzrə istənilən regional təşkilat bu Protokolda göstərilən bütün öhdəlikləri daşıyır. Bir və ya bir neçə üzv dövləti hazırkı Protokolun Tərəfləri hesab olunan bu cür təşkilatlar və onun üzv dövlətləri

hazırkı Protokol üzrə götürdükləri öhdəliklərin yerinə yetirilməsi üçün müvafiq vəzifələrin həyata keçirilməsini qərara alır. Bu cür hallarda göstərilən təşkilat və onun üzv dövlətləri hazırkı Protokola uyğun olaraq eyni zamanda müvafiq hüquqlardan istifadə etmək hüququna malik olmur.

3. Təsdiq, qəbul, bəyənilmə və yaxud birləşdirmə haqqında olan sənədlərində iqtisadi inteqrasiya üzrə regional təşkilatlar hazırkı Protokolla nizama salınan məsələlərə münasibətdə öz səlahiyyət hüdudlarını bildirir. Bu təşkilatlar həmçinin depozitor Tərəfini məlumatlandırır, o isə öz növbəsində səlahiyyətləri çərçivəsində hər hansı mühüm dəyişikliklər haqqında Tərəfləri xəbərdar edir.

Maddə 25

1. Hazırkı Protokol Konvensiyanın ən azı 55 Tərəfi, o cümlədən karbon dioksid qazlarının ümumi tullantısının ən azı 55%-nin öhdəsinə düşdüyü, Əlavə 1-ə daxil edilmiş Tərəflər və 1990-cı il üçün Əlavə 1-ə daxil edilmiş Tərəflər tərəfindən təsdiq, qəbul, bəyənilmə və ya birləşmə haqqında sənədlərini mühafizə etmək üçün təhvil verdikdən 90 gün sonra qüvvəyə minir.
2. Hazırkı maddənin məqsədlərinə görə 1990-cı il üçün Əlavə 1-ə daxil edilmiş Tərəflərin karbon dioksidin ümumi tullantıların hazırkı Protokolun qəbul olunduğu gün və yaxud Konvensiyanın 12-ci maddəsinə uyğun olaraq təqdim olunan ilk milli məruzələrdən əvvəllər Əlavə 1-ə daxil edilmiş Tərəflərin bildirdiyi miqdar deməkdir.
3. Yuxarıda göstərilən 1-ci bəndə uyğun olaraq, Protokolun qüvvəyə minməsi üçün lazım olan şərtlərin yerinə yetirilməsindən sonra hazırkı Protokolu təsdiqləyən, qəbul edən, bəyənən və yaxud ona qoşulan iqtisadi inteqrasiya üzrə hər bir regional təşkilat və yaxud dövlət üçün hazırkı Protokol təsdiq, qəbul, bəyənilmə və yaxud qoşulma haqqında sənədlərin mühafizəyə təqdim edilməsindən 90 gün sonra qüvvəyə minir.
4. İqtisadi inteqrasiya üzrə regional təşkilat tərəfindən mühafizə olunmağa təqdim edilən heç bir sənəd hazırkı maddənin məqsədləri üçün bu təşkilatın üzv dövlətləri tərəfindən qorunmaq üçün təhvil verilmiş sənədlərə əlavə kimi nəzərdən keçirilmir.

Maddə 26

Hazırkı Protokola düzəlişlərə yol verilmir.

Maddə 27

1. Bu və ya digər Tərəf üçün Hazırkı Protokolun qüvvəyə mindiyi 3 il ərzində istənilən vaxt bu Tərəf depozitor tərəfə yazılı bildiriş göndərərək Protokoldan çıxa bilər.
2. İstənilən bu cür çıxış depozitor tərəfindən çıxış haqqında bildirişin alınmasından keçən bir il ərzində və yaxud Protokoldan çıxış haqqında bildirişdə göstərilə biləcək daha sonrakı dövr ərzində qüvvəyə minir.
3. Konvensiyadan çıxan istənilən Tərəf hazırkı Protokoldan da çıxmış hesab olunur.

Maddə 28

1. Mətn ingilis, ərəb, ispan, çin, rus və fransız dillərində yazılıb. Əslinə müvafiq olan hazırkı Protokolun əsli Birləşmiş Millətlər Təşkilatının Baş Katibinə mühafizə üçün təhvil verilir.

Kioto şəhərində 1997-ci ilin 11 dekabrında bağlanmışdır.

Göstərilən günlərdə hazırkı Protokola öz imzalarını qoyan kifayət qədər salahiyyətli, aşağıda imza edənlər onu təsdiqləyir.

## «Bitki sortlarının hüquqi mühafizəsi haqqında» Sazişin təsdiq edilməsi barədə

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

I. 2001-ci il martın 16-da Moskva şəhərində Müstəqil Dövlətlər Birliyinin İqtisadi Şurasının iclasında imzalanmış «Bitki sortlarının hüquqi mühafizəsi haqqında» saziş təsdiq edilsin.

II. Bu qanun dərc edildiyi gündən qüvvəyə minir.

*Azərbaycan Respublikasının Prezidenti* *Heydər ƏLİYEV*

Bakı şəhəri, 1 sentyabr 2003-cü il
№ 498-IIQ

## Bitki sortlarının hüquqi mühafizəsi haqqında
## SAZİŞ

Bu Sazişdə sonradan Tərəflər adlandırılacaq iştirakçı-dövlətlərin Hökumətləri:

kənd təsərrüfatı istehsalının səmərəliliyini artırmaq məqsədi ilə seleksiya və toxumçuluq sahəsində iqtisadi və elmi-texniki əməkdaşlığı saxlamaq və inkişaf etdirməyən obyektiv gercəkliyindən çıxış edərək;

bitki sortlarının səmərəli mühafizəsinə təsir göstərməyən vacibliyini nəzərə alaraq;

yüksək məhsuldar və yüksək keyfiyyətli bitki sortlarının yaradılmasına və birgə dövlət sınağından keçirilməsinə mühüm əhəmiyyət verərək;

dövlətlərin seleksiya nailiyyətlərinin qorunması sahəsində Tərəflərin əməkdaşlığının vacibliyini qəbul edərək;

kənd təsərrüfatı bitkilərinin əkin materialları və toxumu ilə qarşılıqlı sərfəli ticarətin inkişafına cəhd edərək;

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Bu Sazişin məqsədləri üçün istifadə edilən terminlər və anlayışlar aşağıdakı mənaları daşıyır:

**bitki sortu (sort)** - ibtidailər çərçivəsində məlum botaniki taksonlardan olan və aşağıdakılara:

eyni genotipin və genotiplər kombinasiyasının həyata keçirilməsi nəticəsində əlamətlərin büruzə verilməsi dərəcəsinin müəyyən olunmasına;

istənilən digər başqa qrup bitkilərdən bu əlamətlərdən ən azı birinə görə fərqlənmə dərəcəsinə;

onun təkrar istehsal üçün dəyişdirilməmiş formada bitki sortu baxımından bütöv vahid kimi baxılmasına malik bitki qrupları

**qorunan sort** - Tərəflərin dövlət reyesterlərində qeydiyyata alınmış bitki sortu;

**müştərək bitki sortu** - müqavilələr, sazişlər, kontraktlar və ya digər razılaşmalar çərçivəsində beynəlxalq proqramlar əsasında birgə yaradılmış bitki sortu;

**ərizəçi** - bitki sortuna müəlliflik hüququnu təsdiq edən sənədin ona təqdim edilməsi üçün ərizə verən hüquqi və ya fiziki şəxs;

**mühafizə olunan sanəd** - sorta müəlliflik hüququnu təsdiq edən səlahiyyətli orqanın sənədi;

**hüquqlu şəxs** - mülkiyyət hüququ mühafizə olunan sənədə əsaslanan hüquqi və yaxud fiziki şəxs;

Maddə 2

Tərəflər əmədaşlığı istehsalçı və istehlakçının xeyri üçün bitki sortlarının mühafizəsi, istifadəsi, ötürülməsi və yayılmasına daha əlverişli şərait yaratmaq məqsədilə həyata keçirirlər.

Maddə 3

Bitki sortlarına hüququn mühafizəsi Tərəflərin milli qanunvericiliklərinə uyğun həyata keçirməklə bitki sortuna verilmiş mühafizə olunan sənədlə təsdiqlənir.

Mühafizə həmçinin Tərəflərin qarşılıqlı qəbul etdiyi mühafizə olunan sənədlər əsasında digər tərəflərin səlahiyyətli orqanlarının ikitərəfli və çoxtərəfli razılaşmalarına uyğun aparılan ekspertiza nəticələri nəzərə alınmaqla da həyata keçirilə bilər.

Maddə 4

Hər bir tərəf bitki sortlarına hüququn mühafizəsi sahəsində özünün hüquqi və fiziki şəxslərinə yaratdığı hüquqi rejimi eynilə digər Tərəfin hüquqi və fiziki şəxslərinə də təqdim edir.

Maddə 5

Tərəflər bitki sortlarına hüququn mühafizəsini mühafizəyə ərizənin verildiyi və ya onun nəşr olunduğu andan verirlər.

Mühafizənin həcm meyarı və bitki sortlarının hüquqi mühafizə müddətləri mühafizə təqdim edən Tərəfin qanunvericiliyinə uyğun müəyyənləşdirilir.

Maddə 6

Bir neçə Tərəfin ərazisində mühafizə olunmasına ərizə verilmiş bitki sortunun adı eyni olmalıdır.

Tərəflərdən hər hansı birinin ərazisində həmin ərazidə mühafizə olunan sortun toxum materialını kommersiya dövriyyəsinə çıxaran və ya satışa təqdim edən hüquqi və fiziki şəxs əgər üçüncü tərəfin hüquqları buna əngəl yaratmırsa, sorta müəlliflik hüququ verən vəsiqənin müddəti bitmiş olsa belə bu sortun adından istifadə etməyə borcludur.

Maddə 7

Bitki sortlarının mühafizəsi üçün ərizə, milli qanunvericiliyinə uyğun mühafizəni üzərinə götürən Tərəfin səlahiyyətli orqanına verilir. Ərizə müraciət olunan Tərəfin dilində və ya rus dilində təqdim edilir.

Bitki sortlarına hüququn mühafizəsi ilə bağlı hüquqi fəaliyyətə görə, miqdarı və ödənilmə müddəti mühafizə edən Tərəfin qanunvericiliyinə uyğun müəyyən edilmiş rüsumlar alınır.

Rüsumlar ərizəçi, hüquqlu şəxs, həmçinin digər maraqlı fiziki və ya hüquqi şəxs tərəfindən ödənilir.

Maddə 8

Bitki sortlarının istifadəsində müstəsna hüquq və hüquqlu şəxsin hüququnun verilməsi Tərəflərin milli qanunvericilikləri ilə tənzimlənir.

Maddə 9

Mühafizə olunan bitki sortu aşağıdakı hallarda hüquqlu şəxsin razılığı olmadan istifadə oluna bilər:

sınaq məqsədlərilə;

yeni sortların yaradılması məqsədilə;

şəxsi qeyri-kommersiya məqsədilə.

Maddə 10

Mühafizə olunan bitki sortlarının toxum materialından aşağıdakı hallarda istifadədə hüquqlu şəxsin icazəsi tələb olunur: istehsal və ya təkrar istehsal; artırmaq məqsədilə əkin kondisiyasına çatdırmaq; satış üçün təqdim etmək;

satmaq və ya digər kommersiya əməliyyatına çıxarmaq; ixrac; idxal; yuxarıda göstərilən məqsədlər üçün saxlamaq.

Maddə 11

Müştərək bitki sortlarının qorunması üçün ərizə mühafizə üçün müraciət olunan Tərəfin qanunvericiliynə uyğun olaraq onun səlahiyyətli orqanına verilir.

Ərizəçilər ilk ərizənin verilməsi üçün Tərəfin seçilməsində öz seçim hüquqlarını saxlayırlar.

Müştərək seleksiya nailiyyətlərindən istifadə hüququnun şərtləri xüsusi müqavilələr, sazişlər, kontraktlar və digər razılıqlarla tənzimlənir.

Maddə 12

Sortun kommersiya məqsədi ilə istifadəsi insanların həyatına və sağlamlığına, bitki və heyvanlara, həmçinin ətraf mühitə ziyan vura biləcəyi halda Tərəflər sortun mühafizəsindən imtina edə bilərlər.

Maddə 13

Tərəflər mühafizə olunan bitki sortlarının qanunsuz istifadəsinin əleyhinə yönəlmiş tədbirlər görürlər.

Maddə 14

Tərəflər öz milli qanunvericiliklərində Saziş iştirakçıları olan ölkələrin hüquqlu şəxslərinin hüquqlarının bərabərlik şəraitində qorunmasını təmin edən müddəalar nəzərdə tuturlar.

Maddə 15

Tərəflər yeni bitki sortlarının mühafizəsi üzrə 1961-ci ildə qəbul edilmiş və 1972, 1978 və 1991-ci illərdə yenidən baxılmış Beynəlxalq Konvensiyanın tələblərini nəzərə alaraq bitki sortlarının hüquqi mühafizəsi sahəsində milli qanunvericiliklərinin hazırlanması və təkmilləşdirilməsi üzrə lazımi tədbirlər görürlər.

Maddə 16

Tərəflər bitki sortlarının mühafizəsi hüququ sahəsində milli təşkilatların səmərəli fəaliyyətinə, həmçinin bu təşkilatlar arasında əməkdaşlığa dair razılaşmaların bağlanmasına imkan yaradırlar.

Maddə 17

Tərəflər maraqlı fiziki və hüquqi şəxslərin Tərəflərin qorunan bitki sortlarının milli siyahıları ilə tanış olmağa icazəni təmin edir, həmçinin qorunan və istifadəsinə icazə verilən

bitki sortlarının müştərək məlumatlar bankının təşkilinə və istifadəsinə imkan yaradırlar.

Maddə 18

Tərəflər, bu Sazişin tələblərinin yerinə yetirilməsi üzrə bitki sortlarının mühafizəsi sahəsində koordinasiya fəaliyyətini, Tərəflərin təşkilatlarının iştirakı da təmin olunmaqla toxumçuluq məsələləri üzrə MDB hökumətlərarası koordinasiya şurasını səlahiyyətləndirirlər.

Maddə 19

Bu Sazişin istifadəsi və şərhi ilə əlaqədar meydana çıxan mübahisələr maraqlı Tərəflərin məsləhətləşməsi və danışıqlar yolu ilə həll olunur.

Maddə 20

Bu Saziş, Tərəflərin iştirakçısı olduqları digər beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərinə toxunmur.

Maddə 21

Bu Saziş onun məqsəd və prinsiplərinə şərik olan başqa dövlətlərin hökumətlərinin qoşulması üçün açıqdır. Qoşulmaq istəyən hökumətlər üçün bu Saziş onların qoşulmağa dair depozitar sənədlərinin saxlanmaya verildiyi vaxtdan qüvvəyə minir.

Maddə 22

Bu Sazişə əlavə və dəyişikliklər Tərəflərin ümumi razılığı ilə, ayrıca protokol tərtib etməklə aparılır və onlar Sazişin 23-cü maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minirlər.

Maddə 23

Bu Sazişi imza edən Tərəflərin bütün vacib dövlətdaxili qaydaların yerinə yetirilməsini təsdiq edən üçüncü xəbərdarlığın depozitariyaya saxlanmağa verildiyi gündən qüvvəyə minir.

Tələb olunan qaydaları (prosedurları) gec yerinə yetirən Tərəflər üçün isə, o müvafiq sənədlərin depozitariyaya verildiyi gündən qüvvəyə minir.

Maddə 24

Bu Saziş beş il müddətinə bağlanır və Tərəflər başqa qərarlar qəbul etmədiyi halda avtomatik olaraq növbəəri beş ilə uzadılır.

Maddə 25

Hər hansı Tərəf bu Sazişdən çıxmaq üçün altı ay öncə bu barədə depozitariyaya yazılı xəbərdarlıq göndərməklə çıxa bilər.

Mümkün mübahisələrin və iradların, eyni zamanda əmlak xarakterli məsələlərin həlli məqsədilə bu Sazişin müddəaları qoyulmuş tələblərin tam tənzimlənməsinə qədər öz qüvvəsini saxlayır.

2001-ci il martın 16-da Moskva şəhərində rus dilində bir həqiqi nüsxədə tərtib edilmişdir.

Həqiqi nüsxə Müstəqil Dövlətlər Birliyi İcraiyyə Komitəsində saxlanılır və onun təsdiq edilmiş surəti bu Sazişə imza atan dövlətlərə göndərilir.

| | |
|---|---|
| *Azərbaycan Respublikası Hökuməti tərəfindən* | *A.ABBASOV* |
| *Ermənistan Respublikası Hökuməti tərəfindən* | *S.SAAKYAN* |
| *Belarus Respublikası Hökuməti tərəfindən* | *D.KOZİK* |
| *Gürcüstan Hökuməti tərəfindən* | *L.DZİNELADZE* |
| *Qazaxstan Respublikası Hökuməti tərəfindən* | *D.AXMEDOV* |
| *Qırğızıstan Respublikası Hökuməti tərəfindən* | *A.SÜLEYMANOV* |
| *Moldava Respublikası Hökuməti tərəfindən* | *A.KUKU* |
| *Tacikistan Respublikası Hökuməti tərəfindən* | *X.TURADCANZADƏ* |
| *Ukrayna Hökuməti tərəfindən* | *Y.EXANUROV* |

Saziş Moldova Respublikası tərəfindən xüsusi rəylə imzalanmışdır. Saziş Ukrayna tərəfindən qeyd şərtlə imzalanmışdır «Ukrayna bitki sortuna mühafizə hüququnu mühafizə üçün ərizənin nəşr edilməsi vaxtından həvalə edir».

Saziş Rusiya Federasiyası və Özbəkistan Respublikası tərəfindən imzalanmadı.

## «Yeni bitki sortlarının mühafizəsi haqqında» Beynəlxalq Konvensiyaya qoşulmaq barəsində

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

I. Azərbaycan Respublikası 1961-ci il dekabrın 2-də qəbul edilmiş və 1972-ci il noyabrın 10-da, 1978-ci il oktyabrın 23-də və 1991-ci il martın 19-da Cenevrə şəhərində yenidən baxılmış «Yeni bitki sortlarının mühafizəsi haqqında» Beynəlxalq Konvensiyaya qoşulsun.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

*Azərbaycan Respublikasının Prezidenti* *İlham ƏLİYEV*

Bakı şəhəri, 5 dekabr 2003-cü il
№ 534-IIQ

## Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Meşələrin İnkişafı Departamentinin strukturu

*Azərbaycan Respublikasının*
*Ekologiya və Təbii Sərvətlər Nazirliyinin*
*«24 » dekabr 2002- ci il tarixli*
*2580/ü nömrəli Əmri ilə təsdiq edilmişdir.*

## Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Meşələrin İnkişafı Departamenti haqqında

## ƏSASNAMƏ

## I. ÜMUMİ MÜDDƏALAR

1. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Meşələrin İnkişafı Departamenti (bundan sonra – «Departament») Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (bundan sonra – «Nazirlik») 23 dekabr 2002-ci il tarixli 2578/ü Əmri ilə yaradılmışdır.
2. Departament Dövlət meşə fondunun ərazisində meşələrin qorunub mühafizə olunmasını, meşəbərpa və meşəsalma işlərinin, əkin materiallarının yetişdirilməsinin, meşə ağac və kol cinslərinin toxumlarının tədarükünün, meşə fondu torpaqlarının dövlət uçotunun və meşə kadastrının aparılmasını, meşələrə xidmət işlərini (aralıq istifadə qırmalarını) və digər meşə təsərrüfatı tədbirlərini , o cümlədən fəaliyyət zamanı meşə qanunvericiliyinin icrasına nəzarəti həyata keçirən orqandır.
3. Departament öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikasının Meşə Məcəlləsini, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Nazirliyin Əsasnaməsini, əmr, sərəncam və göstərişlərini, bu Əsasnaməni və həmin sahədə olan digər normativ – hüquqi aktları rəhbər tutur.
4. Departament öz səlahiyyətlərinə aid olan məsələlərlə əlaqədar məhkəmələrdə çıxış edir, müvafiq prosessual hüquq və vəzifələri həyata keçirir.
5. Departamentin fəaliyyətinin maliyyələşdirilməsi Azərbaycan Respublikasının Dövlət büdcəsi, habelə qanunvericilikdə nəzərdə tutulmuş digər mənbələr hesabına həyata keçirilir.
6. Departament müstəqil balansa, Nazirlik tərəfindən onun operativ idarəçiliyinə verilən Dövlət mülkiyyətində olan əmlaka, üzərində Azərbaycan Respublikasının Dövlət Gerbinin təsviri, Nazirliyin və öz adı əks olunmuş möhürə, müvafiq blank və ştamplara, bank hesabına malikdir.
7. Departament öz fəaliyyətini bilavasitə və Nazirliyin Meşə Mühafizəsi və Bərpası Müəssisələri, Meşə Tingliyi Müəssisələri, Əlaqələndirmə Mərkəzi, Zərərvericilərə və Xəstəliklərə Qarşı Mübarizə Mərkəzi və Meşəsalma Müəssisələri vasitəsi ilə həyata keçirir və onların işini tənzimləyir, təhlil edir, həmçinin fəaliyyətlərinə nəzarət edir.
8. Departament Bakı şəhəri Yasamal r-nu B.Ağayev 100 A ünvanında yerləşir.

## II. DEPARTAMENTİN ƏSAS VƏZİFƏLƏRİ

9. Departamentin əsas vəzifələri aşağıdakılardır:

9.1. Meşə fondunun qorunub mühafizə olunması və bərpası sahəsində tədbirlərin həyata keçirilməsini təmin etmək və meşələrin mühafizəsi sahəsində qanunvericiliyə riayət olunmasına nəzarəti həyata keçirmək;

9.2. Meşə fondundan səmərəli və məqsədyönlü istifadənin təmin olunması, meşələrin torpaq qoruyucu, susaxlayıcı, mühit tənzimedici, sanitar gigiyenik və digər faydalı funksiyalarının artırılması istiqamətində tədbirlər görmək;

9.3. Ətraf mühit üçün xüsusi əhəmiyyəti olan elmi, mədəni və rekreasiya məqsədli, təbiət komplekslərinin və obyektlərinin, bioloji müxtəlifliyin, eləcə də Dövlət meşə fondunda yayılmış faunanın növlərinin qorunub mühafizə edilməsini təmin etmək;

9.4. Meşə təsərrüfatının aparılmasının səmərəliliyinin artırılmasına nail olmaq;

9.5. Meşə Mühafizəsi və Bərpası Müəssisələri, habelə fiziki və hüquqi şəxslər tərəfindən meşə fondundan istifadə olunması qaydalarına, eləcə də Azərbaycan Respublikasının meşə qanunvericiliyinin digər tələblərinə riayət olunmasına nəzarəti həyata keçirmək;

9.6. Meşə fondunun qorunub mühafizə olunması və bərpasına dair normativ – hüquqi aktların layihələrini hazırlayıb Nazirliyə təqdim etmək;

9.7. Meşələrin yanğından və meşə pozuntularından qorunmasını, zərərvericilərdən və xəstəliklərdən mühafizəsini təşkil etmək;

9.8. Meşələrdən, meşədən kənar ərazilərdən və meşəparklarından, yüksək genetik xüsusiyyətlərə malik, meşəəmələgətirici cinslərdən müsbət və elit ağac və ağaclıqların seleksiya əsasında seçilməsini, onlardan toxumların tədarükünü, uçotunu, analiz olunub yoxlanılmasını, eləcə də onların saxlanılmasını, nəqlini və mübadiləsini təşkil etmək;

9.9. Meşəyə göstərilən xidmət işləri zamanı əldə olunan oduncaqdan, yerli meşə xammalından xalq istehlakı malları və digər sənaye məhsulları istehsal olunması barədə Nazirliyə əsaslandırılmış təkliflər vermək;

9.10. İkinci dərəcəli meşə məhsullarından istifadəni, meşədən əlavə istifadə və yardımçı kənd təsərrüfatı sahələrinin genişləndirilməsini təşkil etmək;

9.11. Meşə təsərrüfatı tədbirlərinin aparılmasına dair statistik və daxili hesabatların vaxtında və dolğun tərtib olunmasını təşkil etmək, Nazirliyin Meşə Mühafizəsi və Bərpası Müəssisələri tərəfindən bütün meşə təsərrüfatı tədbirlərinin aparılmasına daxili nəzarəti həyata keçirmək;

9.12. Nazirlik tərəfindən ona həvalə edilmiş qanunvericiliyə uyğun digər vəzifələri yerinə yetirmək.

## III. DEPARTAMENTİN FUNKSİYALARI

10. Departament, onun qarşısına qoyulmuş vəzifələrə uyğun olaraq aşağıdakı funksiyaları həyata keçirir:

10.1. Meşələrin qorunub mühafizə olunması sahəsində həyata keçiriləcək tədbirlərin müəyyənləşdirilməsi və proqnozlaşdırılması barədə təkliflər hazırlayır və Nazirliyə təqdim edir;

10.2. Dövlət meşə fondunda meşə zərərvericilərinin və xəstəliklərinin mənbələrinin aşkar edilməsini, meşəpotoloji müayinələrin aparılmasını, zərərvericilərin və xəstəliklərin yayılması barədə vaxtında məlumatların alınmasını və onlara qarşı mübarizə tədbirlərinin həyata keçirilməsini təşkil edir;

10.3. Dövlət meşə fondunun ərazilərində meşə qanunvericiliyinin pozulması hallarının qarşısının alınması məqsədi ilə Nazirliyin Meşə Mühafizəsi və Bərpası Müəssisələrinin meşə dolayılarında növbəti, nəzarəti, qəfləti və növbədənkənar təftişlərin aparılmasını təşkil edir, eləcə də meşə dolaylarının müəyyən hissəsində nəzarəti yoxlamalar aparır;

10.4. Yanğına qarşı, yanğın təhlükəsizliyi qaydalarına uyğun olaraq profilaktiki tədbirlərin həyata keçirilməsini təşkil edir;

10.5. Meşə mühafizə işçilərinin geyim forması, nəqliyyat və rabitə vasitələri, tabel silahı və digər zəruri vasitələrlə təmin olunması barədə Nazirliyə təkliflər verir;

10.6. Nazirliyin Meşə Mühafizəsi və Bərpası Müəssisələrində meşə qanunvericiliyinin pozulması hallarının, meşə yanğınlarının, meşə zərərvericilərinin və xəstəliklərinin mənbələrinin, yanğın təhlükəsizliyi qaydalarının pozulmasının uçot kitablarının aparılmasını, onların tələb olunan qaydada və dolğun tərtib edilməsini təşkil edir.

10.7. Tinglik təsərrüfatlarında əkin materiallarının seleksiya əsasında seçilmiş yüksək genetik xüsusiyyətlərə malik olan ağac və kol cinslərindən tədarük edilmiş toxumlar hesabına yetişdirilməsinə, genefondun, endemik, relikt ağac və kol cinslərinin qorunub mühafizə edilməsinə və onların areallarının genişləndirilməsinə, meşə bərpa və meşə meliorasiya tədbirlərinin həyata keçirilməsinə dair təkliflər hazırlayır;

10.8. Meşəbərpaya və meşə sahələrinin artırılmasına dair, respublika və regional əhəmiyyətli proqramların, layihələrin hazırlanmasında iştirak edir və öz səlahiyyətləri daxilində həyata keçirilməsini təşkil edir;

10.9. Meşə təsərrüfatının təşkili planına və texniki layihələr əsasında, meşəbitmə şəraitinə uyğun olaraq müasir texnologiya əsasında meşəbərpa və meşəsalma tədbirlərinin həyata keçirilməsini təmin etmək üçün aşağıdakıları təşkil edir:

- Ekoloji və iqtisadi cəhətdən meşə təsərrüfatında daha effektli hesab edilən, tez böyüyən cinslərdən ibarət qısa qırma dövriyyəli plantasiya tipli ağaclıqların salınıb yetişdirməsini;
- Meşə fondu torpaqlarından səmərəli istifadəni;
- Meşələrin cins tərkibinin yaxşılaşdırılmasını və məhsuldarlığının yüksəldməsini;
- Respublikanın meşəlik faizinin optimal həddə (20-22 faizə) çatdırılmasını;
- Meşələrin mühit yaradıcı, susaxlayıcı, torpaqqoruyucu, sanitar gigiyenik, rekreasiya və digər faydalı funksiyalarının yaxşılaşdırılmasını.

10.10. Meşəbərpa və yeni meşəsalma işlərinin qeydiyyat və uçot kitablarının tələb olunan qaydada və vaxtında aparılmasını, onların düzgün tərtib edilməsini təşkil edir;

10.11. Azərbaycan Respublikasının hökuməti tərəfindən təsdiq edilmiş hesablanmış meşəqırma həcminə müvafiq olaraq meşəyə xidmət işlərinin (aralıq istifadə və sanitar qırmalarının) aparılmasını, tədarük edilmiş oduncaqdan səmərəli istifadəni təşkil edir;

10.12. Hesablanmış meşəqırma həcminə uyğun olaraq meşəyə xidmət işlərinin (aralıq istifadə və sanitar qırmalarının) aparılması üçün Dövlət meşə fondu sahələrinin ayrılıb səmərəli istifadə olunması məqsədi ilə aşağıdakıları təşkil edir:

- qırma sahələrinin düzgün seçilib ayrılmasını;
- kəsiləcək ağacların düzgün seçilməsini;
- taksassiya hesabatlarının kefiyyətlə aparılmasını;
- texnoloji xəritələrin tərtib olunmasını və texnologiyaya əməl edilməsini.

10.13. Qırıntı sahələrinin müayinə olunmasını və müvafiq qaydada sənədləşdirilməsini təşkil edir;

10.14. Respublikanın ərazisində meşə fondunun Dövlət uçotunun və meşə kadastrının aparılmasını təşkil edir;

10.15. Dövlət meşə fondu torpaqlarından meşə qanunvericiliyində nəzərdə tutulmuş məqsədlər üçün istifadəyə dair müqavilələrin qeydiyyatını aparır;

10.16. Meşədən əlavə istifadə (ot biçilməsi, arı ailələrinin yerləşdirilməsi, yabanı meyvələrin, göbələklərin, giləmeyvələrin, dərman bitkilərinin və sair məhsulların tədarük edilib toplanması) olunması və yardımçı kənd təsərrüfatı sahələrinin inkişafı üzrə təkliflər hazılayır;

10.17. Oduncaqdan, ikinci dərəcəli meşə məhsullarından və meşədən əlavə istifadə zamanı tədarük edilmiş, sənaye və yardımçı kənd təsərrüfatı sahələrində istehsal olunan məhsullardan istifadəni qanunvericilikdə nəzərdə tutulmuş qaydada tənzimləyir;

10.18. İkinci dərəcəli meşə məhsullarından (meyvə, göbələk, giləmeyvə və dərman bitkiləri, tökülmüş yarpaq, ayıdöşəyi və s.), ikinci dərəcəli meşə ehtiyatları tədarükündən (kötük, lif, qabıq və s.), meşə sahələrindən əlavə gəlir məqsədi ilə (ot tədarükü, arı ailələrinin yerləşdirilməsi və s.) istifadə olunmasında, habelə meşə sahələrindən təsərrüfat işləri, turizm və istirahət (rekreasiya) məqsədi ilə istifadə edilərkən mövcud qanunvericiliyə və qaydalara əməl edilməsinə nəzarət edir;

10.19. Meşə fondu torpaqlarının zibillənmə, çirklənmə, bataqlıqlaşma, su altında qalma və yandırılma hallarının qarşısının alınması, yararlı hala gətirilməsi (bərpa edilməsi), məhsuldarlığının artırılması, meşə quruluşunda xüsusi texnoloji layihələrə və planlaşdırılmış meşə təsərrüfatı tədbirlərinə uyğun olaraq meşələrin saxlanması və səmərəli istifadəsi, onların susaxlayıcı, mühit tənzimləyici, sanitar-gigiyenik və digər əhəmiyyətli təbii funksiyalarının gücləndirilməsi məqsədi ilə görülən tədbirlərin vaxtında və keyfiyyətlə həyata keçirilməsinə nəzarət edir;

10.20. Meşə fondunda rüblük ayırmaların, meşə cığırlarının, sərhədlərin, meşə quruluşu və meşə təsərrüfatı göstəricilərinin tələblərinə əməl edilməsinin vəziyyətinə nəzarət edir;

10.21. Meşə məxarici, meşəyə xidməti qırmaların aparılması və meşədən əlavə istifadə barədə uçot kitablarının vəziyyətinə, onların doldurulmasında qanunauyğunluğun gözlənilməsinə, meşədən istifadə haqqında hesabatların düzgün aparılmasına nəzarət edir;

10.22. Meşə fondu sahələrinin icarəçiləri tərəfindən bu sahələrin icarəyə verilməsinə dair müqavilələrin tələblərinə əməl edilməsinə nəzarət edir;

10.23. Sanitariya və xidməti qırmaların həcminin meşə quruluşu layihəsində nəzərdə tutulmuş həcmlə uyğunluğuna, meşə quruluşu layihələrindən kənara çıxma hallarının əsaslandırılmasına, bu işlərin aparılmasında mövcud təlimatların və qanunvericiliyin tələblərinə əməl edilməsinə nəzarət edir;

10.24. Meşə fondundan istifadə zamanı meşə fondunun istifadəçiləri tərəfindən meşə qanunvericiliyinin tələblərinə əməl edilməsinə nəzarət edir;

10.25. Meşə fondundan səmərəli istifadə edilməsi və onun məhsuldarlığının artırılması barədə milli proqramların yerinə yetirilməsinə, habelə istifadə haqlarının vaxtında və düzgün ödənilməsi qaydalarının yerinə yetirilməsinə nəzarət edir;

10.26. Meşəbərpa və meşələrin inkişaf etdirilməsi məqsədi ilə tinglik sahəsində kübrələrin, herbisidlərin və digər kimyəvi vasitələrin işlədilməsinin, aqromeşə-meliorasiya işlərinin aparılmasının, qoruyucu meşə zolaqlarının inventarlaşması və istismara verilməsi işlərinin müvafiq qaydalara uyğun vaxtında və düzgün həyata keçirilməsinə nəzarət edir;

10.27. Meşə ziyanvericilərinin və xəstəliklərinin mənbələrinin qeydiyyat kitabının vəziyyətinə, onun aparılmasına, vaxtında və tam doldurulmasına, meşə mühafizəsi haqqında hesabat göstəricilərinin düzgünlüyünə nəzarət edir;
10.28. Meşə patoloji monitorinqinin aparılması, meşələrdə zərərvericilərin və xəstəliklərin yaranması və yayılması, habelə meşənin digər xoşagəlməz vəziyyəti barədə xəbərdarlıq işinin təşkilinə nəzarət edir;
10.29. Meşənin sanitar vəziyyətinə, seçmə və sanitar qırma sahələrinin təyin edilməsinin düzgünlüyünə nəzarət edir;
10.30. Meşələrin xəstəliklər və ziyanveri cilərdən mühafızəsi üzrə dövlət proqramlarının yerinə yetirilməsinə nəzarət edir;
10.31. Nazirlik tərəfindən ona həvalə olunmuş qanunvericiliyə uyğun digər funksityaları həyata keçirir.

## IV. DEPARTAMENTİN HÜQUQLARI

11. Departament, öz vəzifə və funksiyalarını həyata keçirmək üçün aşağıdakı hüquqlara malikdir:
11.1. Meşə təsərrüfatının aparılması, meşələrin qorunub mühafizə edilməsi, bərpası və artırılması, onlardan istifadə edilməsi, həmçinin meşə fonduna aid olan binaların, tikililərin və torpaqların icarəyə verilməsi, eləcə də meşələrdə turizm və istirahətin təşkili ilə əlaqədar Nazirliyin Meşə Mühafizəsi və Bərpası Müəssisələrindən Dövlət meşə fondunda həyata keçirilən işlərə dair məlumatlar tələb etmək;
11.2. Dövlət meşə fondunun meşələrində hüquqi və fiziki şəxslərin fəaliyyətləri zamanı meşə qanunvericiliyinin pozulmasının qarşısını almaq məqsədi ilə Nazirliyin Meşə Mühafizəsi və Bərpası Müəssisələrinə müvafiq tapşırıqlar vermək;
11.3. Ətraf mühitin mühafizəsi, təbiətdən istifadə və ekoloji təhlükəsizlik qaydaları əleyhinə olan inzibati xətalar haqqında işlər üzrə icraata başlamaq, inzibati araşdırma aparmaq, inzibati xətalar haqqında işlərə baxmaq və təqsirkarların inzibati və ya cinayət məsuliyyətinə cəlb edilməsi barədə materialları müvafiq orqanlara göndərmək;
11.4. Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada hüquqi və fiziki şəxslərin Dövlət meşə fondunda fəaliyyətlərinin, həmçinin Dövlət meşə fondu torpaqlarından istifadə hüququnun məhdudlaşdırılması və ya dayandırılması barədə Nazirliyə təkliflər vermək;
11.5. Yanğın təhlükəsi dövründə, zəruri hesab edilən hallarda vətəndaşların meşə ərazilərində gəzintilərinə və nəqliyyat vasitələri ilə keçmələrinə, habelə ayrı - ayrı meşə sahələrində fəaliyyət göstərmələrinə qadağalar qoylması barədə Nazirliyə təkliflər vermək;
11.6. Meşələrin qorunub mühafizə edilməsi, bərpası, artırılması, meşə fondu torpaqlarından məqsədyönlü istifadə olunması və meşə təsərrüfatının aparılması işlərinin həyata keçirilməsi barədə, həmçinin bu işlərin formalaşması, bir formadan digər formaya keçirilməsinin təşkili və ləğv edilməsi barədə rəy vermək və təkliflər hazırlamaq;
11.7. Meşələrin mühafizəsi və onlardan səmərəli istifadə sahəsində qanunvericiliyin pozuntularının aradan qaldırılmasına dair fiziki və hüuqi şəxslərə tələblər irəli sürmək;
11.8. Meşə qanunvericiliyinin pozulmasında istifadə olunan əşya, alət, ləvazimatları və digər vasitələri, qanunsuz əldə edilmiş məhsulları qanunvericiliyə uyğun

olaraq götürmək və inzibati qanunvericiliklə müəyyən edilmiş digər hərəkətləri həyata keçirmək;

11.9. Meşə qanunvericiliyinin pozulması nəticəsində vurulmuş zərərin həcmlərini müəyyən etmək (müəyyən edilməsində iştirak etmək) və bunun əsasında təqsirkar olan şəxslərə bu zərərin könüllü ödənilməsi barədə tələblər irəli sürmək və ya iddiaları məhkəməyə təqdim etmək;

11.10. Dövlət meşə fondunun inkişafı ilə əlaqədar müvafiq layihələrin hazırlanması və həyata keçirilməsi barədə Nazirliyə təkliflər vermək;

11.11. Nazirliyin Ətraf Mühit və Təbii Sərvətlər üzrə Dövlət İnformasiya - Arxiv Fondunun materiallarından müəyyən olunmuş qaydada pulsuz istifadə etmək;

11.12. Qanunvericiliyə uyğun olaraq digər hüquqlara malik olmaq.

## V. DEPARTAMENTİN FƏALİYYƏTİNİN TƏŞKİLİ

12. Departamentə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Naziri tərəfindən vəzifəyə təyin olunan və vəzifədən azad edilən direktor rəhbərlik edir.

12.1. Direktor Departamentə həvalə edilmiş vəzifə və funksiyaların həyata keçirilməsinə görə şəxsən məsuliyyət daşıyır.

13. Direktor aşağıdakı səlahiyyətlərə malikdir:

13.1. Departamentin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

13.2. Müəyyən edilmiş əməyin ödənilməsi fondu daxilində Departamentin xərclər smetasını və ştat cədvəlini hazırlayır, təsdiq olunmaq üçün Nazirliyə təqdim edir;

13.3. Öz səlahiyyətləri daxilində Departamentin fəaliyyətinə dair icrası məcburi olan əmr, sərəncam və göstərişlər verir, onların icrasını təşkil edir və yoxlayır;

13.4. Departamentin nomenklaturasına daxil olan işçiləri vəzifəyə təyin edir və vəzifədən azad edir, onların barəsində qanunvericiliklə müəyyən edilmiş qaydada həvəsləndirmə və intizam tənbeh tədbirləri görür.

13.5. Ətraf mühitin mühafizəsi, təbiətdən istifadə və ekoloji təhlükəsizlik qaydaları pozulduqda inzibati xətalar haqqında işlər üzrə icraata başlayır, inzibati araşdırma aparır, inzibati xətalar haqqında işlərə baxır, təqsirkar şəxslər barəsində Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə müvafiq olaraq tədbirlər görür və inzibati tənbehin tətbiq edilməsi barədə qərar verir, təqsirkarların inzibati və ya cinayət məsuliyyətinə cəlb edilməsi barədə materialları müvafiq orqanlara göndərir.».

14. Departamentin kadr, hüquq, maliyyə – mühasibatlıq və kargüzarlıq xidmətləri Nazirliyin müvafiq qurumlarının funksional tabeliyində fəaliyyət göstərir, öz işlərini Nazirliyin aidiyyəti idarələrinin göstərişləri, qaydaları, təlimatları və digər rəhbər sənədləri əsasında qururlar.

15. Departamentin Azərbayjan Respublikasının Ekologiya və Təbii Sərvətlər Naziri tərəfindən vəzifəyə təyin edilən və vəzifədən azad olunan, səlahiyyətləri Nazir tərəfindən müəyyənləşdirilən bir direktor müavini vardır.

## VI. DEPARTAMENTİN YENİDƏN TƏŞKİLİ VƏ LƏĞV EDİLMƏSİ

16. Departament qanunvericilikdə nəzərdə tutulmuş qaydada, o cümlədən Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirinin Əmri ilə yenidən təşkil olunur və ləğv edilir.

## Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Meşələrin İnkişafı Departamentinin strukturu



# MEŞƏ TOXUMÇULUGU HAQQINDA TÖVSİYƏLƏR

Yeni salınan meşələrin məhsuldarlığının, keyfıyyətimn davamlılığının yüksəldilməsinin imkanlarından biri meşə təsərrüfatında seleksiya üsullarının geniş tətbiq olunmasıdır. Bu, ilk növbədə, toxumçuluğa və mcşə əkinlərinə aıddir.

Azərbaycanda bütün meşəbitmə bölgələrində meşələrin ırsi xassələri güclü surətdə dəyişikliyə uğramışdır, bununla belə yüksək məhsuldarlığlı və keyfiyyətli ağaclıqlar (müsbət ağaclıqlar) qalmaqdadır. Onlar təsərrüfatlar üçün mühüm əhəmiyyətə malikdirlər. Xüsusilə, özlərinin irsi göstəricilərinə, gövdəsinin keyfiyyətinə, ziyanvericilərə və xəstəliklərə qarşı davamlılığına görə daha qıymətlidirlər. Ona görə də meşə toxumçuluğu üzrə əsas tövsiyənin hazırlanması əsas ağac cinslərinin (palıd, fıstıq, vələs, qoz, çökə, saqqız və s.) toxumçuluğunun təşkili və genetık-toxumçuluq əsasında aparılmasının vahid texniki siyasətinin təmin olunmasına yönəlmişdir.

Tövsıyələrin yazılınası üçün keçmiş SSRİ-də toxumçuluq üzrə hazırlanmış normativ sənədlərdən, tövsiyələrdən, normativlərdən, nazirliklər və təşkilatlar tərəfindən təsdiq olunmuş digər sənədlərdən istifadə olunmuşdur.

## 1. Ümumi vəziyyət

1.1. Meşə toxumçuluğu-meşə təsərrüfatının bir hissəsidır, onun məqsədi qiymətli irsi xüsusiyətli, səpin üçün yüksək keyfıyyəti olan toxumları əldə etməkdir. Meşə toxumçuluğuna daimi meşə toxumçuluğu bazası yaratmaq üçün, genetık-toxumçuluq əsasında kompleks tədbirlər daxil olur və əkilən meşələrin məhsuldarlığını, keyfıyyətni və davamlılığını artırmaq məqsədləri güdür.

1.2. Daimi meşə toxumçuluğu bazası klonlardan və yaxud müsbət və elit ağaclardan ibarət olur. Daimi Meşə Toxumçuluq Sahələri isə (DMTS) yüksək məhsuldar təbii meşələrdə yaradılan müvafiq bitmə şəraiti olan sahələrdə və meşə əkinlərində, eyni zamanda miisbət ağaclıqlarda (toxumluq sahələrdə) yaradılır. DMTS yaratmaq üçün müxtəlif seleksiya obyektlərindən, o cümlədən müsbət (elit) ağaclardan, ana plantasiyalardan, klon arxivlərindən, müsbət ağacların müşahidə (yoxlama) əkinlərindən, coğrafı və populyasiya- ekoloji əkinlərdən istıfadə olunur.

Meşə toxumluq rayonları nəzərə alınmaqla, daimi meşə toxumluq bazasının bir və ya bir neçəsi təşkil edilir və genetik baxımdan meşə əmələgətirən vo introduksiya olunmuş qiymətli cinslərin toxumlarını tədarük etmək məqsədini güdür.

1.3. Daimi meşə toxumçuluq bazasının təşkilində aşağıdakılar nəzərə alınır: ağaclığın seleksiya inventarlaşması, eyni zamanda meşə təsərrüfatı üçün perspektivli olan introduksiya olunmuş müsbət ağac nüsxələri və ağaclıqları; yerli və digər yerlərdən gətirilmiş ağacların genetik qiymətləndirilməsi; müsbət ağacların (və ya onların klonlarının) genctik qiymətləndirilməsi; kolleksiya sahələri yaratmaqla genetık fondun saxlanması; müsbət (elit) ağacların toxumla və vegetativ yollarla artırılması vasıtəsilə toxumluq plantasiyasının yaradılması.

1.4. DMTS yaradılarkən meşə toxumçuluq obyektlərinin cəmləşməsi nəzərə alınmalıdır (bırinci növbə meşə toxumçuluq plantasiyası - MTP). MTP layihə əsasında yaradılmalıdır.

1.5. Meşə toxumları aşağıdakı əsas seleksiya kateqoriyalarına bölünür: çeşidli, yaxşılaşdırılmış və normal.

Çeşidli - o toxumlardır ki, onlar meşə toxumçuluğu obyektlərindən (MTP, DMTS

populyasiya) daha doğrusu, irsiliyinə görə nəzarətdən keçmişdir. Yaxşılaşdırılmış toxumlar- irsiliyinə görə yoxlamadan keçməyən və fenoloji tipinə görə seçilən obyektlərdən toplanmışdır, o cümlədən birinci növbədə MTP-dən, mənfi ağacları götürülmüş müsbət ağaclıqdan və DMTS-dən, yəni müsbət ağaclıqdan tədarük edilmiş toxumlardan yetişdirilmiş meşə əkinlərindən, toplanmışdır. Normal toxumlar- DMTS, MMTS (müvəqqəti meşə toxumçuluq sahəsindən) və həm də normal seleksıya kateqoriyasına aıd olan ağaclıqlardan tədarük edilmişdir.

Genetik cəhətdən daha qiymətli çeşidli toxumların əldə olunması daim genişləndirilməlidir. Mənfi ağaclıqdan və mənfi ağaclardan toxumun tədarük ediməsi və o cümlədən mənşəyi bilinməyən toxumlardan meşə yetişdirmək qadağan edilir.

Çeşidli və yaxşılaşdırılmış toxumlara yalnız çeşidləşdirilmiş populyasiyalı, müsbət və elit ağaclardan, DMTS və MTS-dən tədarük edilmiş və müvafıq qaydada pasportlaşdırılmış olan toxumlar aid olunurlar.

1.6. Toxumların səpin keyfıyyəti mövcud DÜST ilə və texniki şərait şərtləri ilə uyğun olmalıdır.

Toxumlarm qiyməti differensial şəkıldə, onların seleksiya kateqoriyası və səpin keyfıyyəti ilə təyin olunur.

## 2. Fenoloji müşahidə və barvermənin hesabatının aparılması

Ağacların meyvə (toxum) verməsinin miqdarını təyin etmək (onların meyvəsinin, qozalarının, toxumunun) və onların tədarükünü təşkil etmək üçün meşə təsərrüfatı müəssisəsi hər il fenoloji müşahidələr və barvermənin vəziyyəti üzrə hesabat aparır.

Müxtəlif ağac və kol cinsləri üzrə barvermənin vəziyyəti öyrənildikdə aşağıdakılar müəyyənləşdirilməlidir:

- respublika üzrə toxum yığılacaq əsas cinslər;
- digər cinslər üzrə(əgər lazım olarsa).

Bu halda toplanmış məlumatlar onlara xidmət edən zona meşə toxumçuluq stansiyasına göndərilməlidir.

2.1. Fenoloji müşahidə aparılması və barvermə mövsümünün vaxtında, keyfıyyətlə başa çatdırılması işinə məsul şəxs kimi müəssisənin baş meşəçisi hesab olunur.

İcraçıları isə müəssisənin direktoru tərəfındən əmrlə təyin olunmuş meşəçiliyin mütəxəssisləri olur.

Barvermə üzərində hesabatın və fenoloji müşahidənin aparılması meşə toxumçuluq obyektində təşkil olunmuş nümunə sahələrində icra edilir. Bu işlərin təşkil olunmasını və keyfıyyətinə nəzarəti nazirliyin mütəxəssisləri aparır.

Hər bir meşə toxumçuluq obyektləri üçün qoyulan nümunə sahəsi meşə toxumçuluq plantasiyaları üçün daimi nümunə sahəsi 0,25 hektar olmalıdır. Dıgər meşə toxumçuluq obyektlərində isə müvəqqəti nümunə sahəsi qoyulur (o hesabla ki, hər miişahidə olunacaq ağacların sayı sahədə 100-dən az olmasın).

2.2. Ağac qozalarının, meyvəsinin və toxumlarının toplanması, işlənməsi (hazırlanınası), saxlanması və nəql edilməsi.

2.2.1. Toxumun tədarükünün planlaşdırılması və təşkili.

Meşə toxumunun tədarükünün həcmi meşə əkini, tinglik yetişdırmək, qoruyucu meşələrin salınması və s. üçün tələbatların toxumla təmin etmək məqsədilə planlaşdırılır. Meşə toxumlarını tədarük etmək planı (iynəyarpaqlı, enliyarpaqlı) əsas cinsləri seçib ayırmaqla təyin edilir. Toxum tədarükünün dəqiq həcmi meşə

təsərrüfatı, müəssisələri və təşkilatları arasında paylanır.

Toxumu tədarük etməzdən qabaq bütün tədarükçii müəssisələr aşağıdakıları yerinə yetinnəyə borcludurlar:

- tədarükçülərin brıqadasını təşkil etmək (lazımi sayda)
- meşə mühafızəçilərini və toxum tədarük edənləri yığılacaq toxumun planı ilə tanış etməli;
- hər briqada toxum tədarükü planı ilə tanış edilməlidir;
- tədarük olunan toxumu qəbul edən məntəqənın təşkil olunması qabaqcadan başa çatdınlmalıdır.
- toxum anbarları dezinfeksiya edilməlidir.
- tədarük edilmiş toxum üçün pasport blanklar hazırlanmalıdır.

2.2.2. Meşə toxumçuluğu obyektləri ilə toxum tədarükündən qabaq tanışlıq aparmaq.

Qüvvədə olan dövlət standartlarının tələbinə uyğun olaraq meşə təsərriifatı müəssisəsi toxumun tədarükünə kütləvi, yetişmədən qabaq yoxlama axtarış işləri aparır. Bu da meşə toxumçuluq plantasiyalarını, meşə əkini sahələrini, parklar, xiyabanlar və s. toxum verən obyektləri əhatə edir.

2.2.3. Toxumların, meyvələrin, qozaların yığılması

Ağac və kolların toxumları daimi meşə toxunıçuluğu bazasından - DMTC-dən baş istifadə qırmaları sahəsindən, tək-tək ağaclardan, həm də qoruyucu meşələrdən tədarük edilir.

Toxum, meyvə və qozalar fizioloji cəhətdən yetişmiş vaxtı, toxumların rüşeyminin cücərmə qabiliyyətinə çatan zamanda toplanılır.

2.2.4. Enliyarpaqlı ağac və kolların meyvələrinin işlənməsi (hazırlanması).

Quru, açılmamış toxumların tədarükündən sonra (palıd, qarağac, şabalıd, ağcaqayın, göyrüş, cökə və s.) toxumlar hava quraqlığı vəziyyətınə qədər kölgədə, yağışlı havada isə çadır (örtük) altında qurudulur. Həddən çox qurumaya yol vermək olmaz. Kifayət qədər qurumayan və ya həddən çox qurudulan toxumlar çıxdaş hesab edılir.

2.2.5. Toxumların saxlanması.

Ağac və kol toxumlarının qorunub saxlanması xiisusı anbarlarda həyata keçirilir. Belə anbarlar olmadıqda isə quru uyğunlaşdırılmış əlverişli toxum saxlama yerlərindən istifadə olunur. Kifayət qədər yararlı otaqlarda adətən toxum az saxlanıır, daha doğrusu, ilin axırına qədər və yaxud, gələn ilin yaz fəslınə qədər (toxum yetişdiyi vaxta qədər).

2.2.6. Toxum ehtiyatı fondu

Toxumun az məhsul verdiyi illərdə meşə təsərrüfatı müəssisələrini iynəyarpaqlılar və digər toxumlar ilə təmin etmək üçün ehtiyat fondu yaradılır. Ehtiyat fondu üçün toxum tədarükü Meşələrinin İnkişaf Departamenti tərəfındən planlaşdırılır. Ehtiyat toxum fondu adətən, bol məhsul illərındə hazırlanır.

Ehtiyat toxum fondu onu tam dəyişmək şərtilə üç il müddətındə daima təzələnir. Anbara daxil olan toxum nümunəsinın pasportu yazılmalıdır.

Ehtiyat fondunda yalnız 1 və 2 keyfıyyət sinfı olan toxumlar saxlanılır və onlar yüksək cücərmə qabiliyyətinə malik olmalıdır.

## 3. Ağacların və ağaclıqların seleksiya üzrə qiymətləndirilməsi

3.1. Seleksiya üzrə inventarlaşdırma yetişmiş, yetişməkdə olan və onlar olmadığı (çatışmadığı halda) orta yaşlı ağaclıqlarda aparılır.

Ağacları seleksiya üzrə qiymətləndirərkən onları əsas üç kateqoriyaya bölürlər: müsbət, normal və mənfı.

Müsbət ağaclar - o ağaclardır ki, təsərrüfat göstəricilərinə görə bir və ya bir neçə kompleks göstəricilərinə görə onların ətrafında bitən eyni yaşlı ağaclardan xeyli üstün olsunlar. Onları müxtəlif bitmə şəraitindən yetişmiş, yetişməkdə olan ağaclıqlarda, onların çatışmazlığı olan yerlərdə orta yaşlı təbii ağaclardan, meşə əkinlərindən, eyni zamanda infroduksiya olmuş yüksək məhsuldar cinslərdən seçib ayırırlar.

Meşələrin məhsuldarlığını və keyfiyyətini artırmaq üçün aparılan seleksiya işində müsbət ağaclar kateqoriyasına birinci növbədə, müsbət ağaclıqlardan boyuna və diametrinə görə ən yüksək olan ağaclar seçilir. Onlar düzgövdəli, sağlam oduncaqlı, haçalanmayan, qol-budaqdan yaxşı təmizlənmiş, əlverışsiz mühitə, xəstəliyə və ziyanvericilərə davamlı olan ağaclar olmalıdır. Eyni yaşlı, tərkibinə görə təmiz, yüksək sıxlıqlı ağaclıqlarda müsbət ağaclann boyu ümumi ağaclığın hündürlüyündən 10%, diametri 30%-dən çox olmalıdır.

Əgər ağaclıq müxtəlif yaşlıdırsa, onda müsbət ağaclar hər yaş sinfından ayrıldıqda seçilməlidir.

İntroduksiya olmuş ağaclıqlarda, müsbət ağac kimi meyvə cinsləri, yeni bitmə şəraitinə yaxşı uyğunlaşmış, boy inkişafına, gövdəsinin keyfiyyətinə və digər seleksiya göstəricilərinə görə üstün nüsxələr seçilırlər.

Müsbət ağaclar zədələnmədən qorunurlar. Normal ağaclıqda əgər qırıntı aparılacaqsa, onda müsbət ağac kimı seçilən nüsxələrin ətrafındakı ağacları və 20-25 metr zolaq enində yerləşən ağacları kəsmirlər.

Normal ağaclar - ağaclığın əsas hissəsini təşkil edən, boyuna, keyfıyyətinə və vəziyyətinə görə yaxşı və orta olan ağaclar hesab olunurlar.

Mənfi ağaclar - o ağaclar hesab olunur ki, onların müxtəlif çatışmazlığı və fəsadları vardır (gövdəsi əyri, haçalanmış, mexaniki zədələnmiş və s.). Yuxarı mərtəbəni (yarusu) tutan, boy inkışafına görə geri qalan və ağaclıqda aşağı mərtəbədə yerləşən (eyniyaşlı ağaclıqda diametri orta göstəricidən 80% aşağı olan) ağac nüsxələri mənfı ağaclar hesab olunurlar.

3.2. Ağachğın seleksiya üzrə inventarlaşdırılması da üç kateqoriyaya ayrılır: müsbət, normal və mənfı.

Müsbət ağaclıq - bu və ya digər bitmə şəraitinə görə ən məhsuldar, yüksək keyfiyyətli və davamlı ağaclıqdır. Müsbət ağaclıqlarda (toxum sahələrində) başdan-başa seleksion inventarlaşması aparılır və müsbət ağaclar seçilir. Onlara qulluq məqsədilə baş cinslərin mənfı ağac nüsxələri seçilib qırıiır, eyni zamanda müsbət ağaclara mane olan köməkçi cinslər də kəsilirlər.

Normal ağaclıqlara - yüksək və orta məhsuldarlığı və bitmə şəraiti yaxşı və orta keyfıyyətli olan ağachqlar daxildir.

Mənfi ağaclıqlar - bu və ya digər meşəbitmə şəraiti üçün aşağı məhsuldarlıqlı və pis keyfıyyətli ağaclıqlar daxil cdilirlər.

## 4. Müsbət ağacların və ağaclıqların genetik qiymətləndirilməsi

4.1. Xarici və daxili göstəricilərinə görə seçilmiş müsbət ağaclar, dövlət reyestrinə daxil edilmişdir. Digər meşə toxum rayonlarda qeydiyyata alınmış ağaclar mütləq irsi cəhətdən qiymətləndirilməlıdir (məhsuldarlığına, gövdəsinin keyfıyyətinə və digər seleksiya əlamətlərinə görə).

Müsbət ağacların genetik qiymətləndirilməsi onların seleksiyalaşdırmada nəzərə

alınan əlamətlərini saxlamaq (toxumla və vegetativ artırılması vaxtı) qabiliyyətləri əsasında təyin olunur.

4.2. Elitliliyinə görə qabaqcadan qiymət vermək yoxlama əkinləri vaxtı aparılır: tezböyüyən cinslər üçün 8-12 yaşında, gecböyüyən cinslər üçün 15-25 yaşında.
Müsbət ağaclann yetişdirilən yeni nəsli nəzarət əkinlərinin boyuna, gövdəsinin keyfıyyətinə və digər əlamətlərınə (göstəricılərinə) görə qiymətləndirilir.

4.3. Yoxlama (müşahidə) üçün aparılan əkinlər eyni vaxtda bir neçə bitmə şəraitində aparılır. Məqsəd müsbət ağaclardan alınan toxum nəslinin yeni mühitə uyğunlaşması qabiliyyətini müəyyən etmək və əkinlər üçün onların yararlılığını təyin etməkdir.

4.4. Müsbət (elit) ağacların genofondunu saxlamaq üçün xüsusi proqram üzrə kolleksiya sahəsi (klonların arxivi) yaradılır. Klon arxivlərində müsbət (elit) ağacların iş aparılan rayon üçün vegetativ nəsil cəmləşdirilir.

4.5. Yetişdırilən meşələrin keyfiyyətini yaxşılaşdırmaq üçün əsas yollardan biri də meşə əmələgətirən növlərın coğrafı və ekoloji dəyişməsidir. Coğrafı və populyasiya - ekoloji əkinlərin öyrənilməsinin nəticələrində meşə toxumları bazasımn təşkilində, meşə toxumçuluq rayonlarının öyrənilməsi və elmi əsaslarla müəyyənləşdirilməsi işində də istifadə edilir.

## 5. Meşə toxumçuluğu plantasiyası

5.1. Meşə toxumçuluğu plantasiyası - yerli və infroduksiya olmuş cinslərin toxumlarının qiymətli irsi xüsusiyyətlərini uzun müddət ərzində öyrənmək məqsədilə xüsusi olaraq yaradılan ağaclıqdır. Onlar müsbət (elit) ağaclardan toxumla və ya vegetativ yolla yaradılır.

5.2. İlkin materialın yetışdırmə qaydasına görə aşağıdakı Meşə Toxumçuluq Plantasiyaları (MTP) ayrılır.
Vegetativ ınənşəli MTP (və ya klounu), o cümlədən müsbət (elit) ağacları calaq olmuş nüsxələr və kökdən alınan çubuqlarla yaradılır.
Toxum mənşəli MTP, müsbət (elit) ağacların toxumlarından yetişdirilən tinglər və toxumlardan yaradılan və yaxud da bu ağacların toxumlarından yetişdirilir.

5.3. Yaradılan MTP-də birinci illərdə mütəmadi olaraq sahədə qulluq işləri (kultivasıya, suvarma) aparılmalıdır. Lazım gələrsə cərgələrdə qulluq qırmaları aparmaqla ağaclıq seyrəldilir.

5.4. Meşə toxumçuluq plantasiyasında lazım gəldikdə kompleks tədbirlər aparılır:
intensiv inkişaf edən qol-budağın kəsilməsi, kübrə vermək və s. (mövcud metodikalar əsasmda).

5.5. MTP-də toxumları ziyanvericilərdən və xəstəliklərdən qorumaq üçün qoruyucu tədbirlər sistemi həyata keçirilir.

5.6. MTP-ni vəhşi və ev heyvanlarından qorumaq üçün çəpər çəkilməli, zolaqlarla şum aparılmalıdır.

## 6. Daimi meşə toxumçuluq sahəsi

6.1. Daimi Meşə Toxumçuluq sahəsi - yüksək məhsuldar və yüksək keyfiyyətli təbii meşə və ya irsiyyəti məlum olan meşə əkini sahəsidir. Belə sahələrdə uzun müddət toxum tədarük etmək üçün xüsusi torpaq formalaşdırır. DMTS-nin yaranmasına əsas tələb intensiv toxum toplamaq və toxumu rahat yığmaqdır.

6.2. DMTS üçün ağaclıq yaradarkən müxtəlif meşəbitmə şəraiti tipində yer seçilir və məqsədli ağaclıq yaratmaq üçün bu tədbir aparılır.
6.3. DMTS üçün ayrılan ağaclığın yaşı aşağıdakı kimi olmalıdır:
Şam üçün 10 yaşdan aşağı; palıd, fıstıq, vələs üçün 20-60 il.
6.4. DMTS-i üçün ayrılmış ağaclığın sıxlığı 0,6-0,7 həddində olmalıdır. Ağaclıq təmiz və qarışıq cinslərdən ola bilər. Bu halda baş hıssədə (yarışda) hakim cinslər əsas yer tutmalıdır.
Sıxlığı normal saxlamaq üçün ağaclıqda seyrəltmə qırmaları aparılmalı və bu halda müsbət ağaclara namizəd nüsxələr saxlanmalıdır.

## 7. Müvəqqəti meşə toxumçuluq sahəsi

7.1. Müvəqqəti Meşə Toxumçuluq Sahəsı (MMTS) - yetışmiş və yetişməkdə olan normal seleksiya kateqoriyasına aid edilən, toxum tədarükü üçün ayrılan və hazırlanan meşə sahəsidir.
7.2. MMTS üçün ayrılan sahə hər bir təsərrüfat müəssisəsinin toxuma olan ehtiyacını nəzərə alaraq müəyyənləşdirilir.

## 8. Daimi meşə toxumçuluq bazasının yaradılmasının təşkili və planlaşdırılması

8.1. Yüksək irsi və səpin keyfıyyəti olan meşə toxumlarının tədarükünü müntəzəm və planlı şəkildə aparmaq üçün meşə müəssisəlırı elmi-tədqiqat və layihə təşkilatları ılə birlikdə meşə toxuınçuluğunun aparılması üçün plan hazırlayırlar, onların aparılması vaxtını, eyni zamanda ehtiyat toxum fondunu yaratmaq işlərini nəzərə alırlar.
8.2. MTS, DMTS, ana plantasiyası, yoxlama məqsədilə aparılan əkinlər, Klon arxivləri, aparılan qulluq ışləri planlaşdırılmalı və qəbul olunmuş qaydada hesaba alınmalıdır.
8.3. Meşə toxumçuluğunu genetik-seleksion əsasa keçırmək üçün bölgədə aparılan təşkilatı işlər əsasında seleksiya-toxumçuluq mərkəzi yaradılmalıdır.
8.4. Tədarük olunan və işlədilən meşə toxumlarının hesabatı ayrı-ayrılıqda seleksion qiyməti üzrə hesabat kitabında vahid formada aparılır. Tədarükçünün apardığı toxum yığımının seleksion kateqorıya üzrə düzgün təyin olunmasına nəzarət və həm də onların meşə əkınlərində istifadəsinin düzgünlüyünü yoxlamaq meşə toxumçuluğuna nəzarət laboratoriyası tərəfindən həyata keçirilir.

## NƏTİCƏLƏR

Azərbaycan Respublikasında hələ də düzgiin olmayan yol verilməyəcək halda meşə toxumçuluğu sahələri ayrılır. Nəzərə almaq lazımdır ki, Müvəqqəti Meşə Toxumçuluq Sahələrini (MMTS) cavan ağaclıqda, mənşəyı məlum olmayan meşə əkinlərində seçmək olmaz. Daimi Meşə Toxumçuluq Sahələrini güclü rekreasiyaya məruz qalan yerlərdə, mənşəyi ağaclıq sahələrinə yaxın yerləşib, vəziyyəti çox pozulmuş, yaşlı, sanitar vəziyyəti qeyri-qənaətbəxş və s. olan yerlərdə aparmaq düzgün deyildir. Toxumluq sahələrini istismar edərkən xüsusilə diqqət yetirmək lazımdır ki, vəhşı ev heyvanları tərəfındən zədələnməmiş olsun. Toxumluq sahələrinin ətrafı hasara alınmalı və ətrafları 3-4 metr enində zolaqlarla şumlanmalıdır. Toxumluq sahələrə pasport tərtib olunmalıdır.

**Meşə təsərrüfatı**
**Daimi meşə toxumçuluğu sahəsinin pasportu N**

1. Ağaclığın yaşı (əkin ili) ________________________________
2. Sahənın olduğu yer____________________________________
3. Meşəçilik _____________________________________________
4. Kvartal N _____________________________________________
5. Bölmə N _______________________________________________
6. Bölmənin səciyyəsi _____________________________________
7. Relyef_________________________________________________
8. Yamacın cəhəti, maillik __________________________________
9. Torpağı ________________________________________________
10. Meşənin tipı ___________________________________________
11. Bitmə şəraitinin tipi _____________________________________
12. Bonitet _______________________________________________
13. Əsas cins (fenoloji, morfoloji forma)_______________________
14. Ağacın meşənin tərkibində yeri% __________________________

Sahənin taksasiya təsviri

15. Tərkibi ________________________________________________
16. Mənşəyi _______________________________________________
17. Yaşı (sinfi) _____________________________________________
18. Orta hündürlük _________________________________________
19. Orta diametr ___________________________________________
20. Bonitet ________________________________________________
21. Toxumluq ağacların bir-birindən məsafəsi___________________
22. Toxumluq ağacların çətirlərının orta eni ____________________
23. Bir hektarda toxumluq ağacların sayı_______________________
24. Gövdənın canlı çətirinə qədər orta məsafəsi _________________
25. Toxumluq ağacların vəziyyəti və keyfıyyəti _________________
26. Ətrafdakı ağaclığın qısa səciyyəsi __________________________
27. Meşə toxumluq sahəsi və daimi meşə toxumçuluğu sahəsinə aşağıdakı tərkibdə komissiya tərəfmdən təyin edilmişdir;

1. ______________________________________________________
2. ______________________________________________________
3. ______________________________________________________

Tarix ____________________________________________________

Meşə toxumçuluq sahələrinin ətrafı ağac dirəklərlə qəbul olunmuş qaydada sərhədlənir. Dirəklərdə trafaretlə sahənın adı, nömrəsi, ağac cinsinin adı, yaradılma tarixi və sahənin ölçüsü (ha) göstərilir.

Qeyd olunmahdır ki, keyfiyyətli toxumlardan yetişdirilən ağaclıq (toxumluq sahələrindən tədarük olan toxumlarla) meşələrin məhsuldarlığını artırır, onların bıolojı davamlılığını, qoruyucu, rekreasiya və sanitar-gigiyenık funksiyalarını yaxşılaşdırır, yetişmə müddətini qısaldır. Yeni yetişdirilən ağaclığın məhsuldarlığının təkcə 10% artırılması hər il milyon manatlarla iqtisadi səmərə verə bilər. Ona görə də meşə təsərriifatında inkişaf əldə etmək üçün meşə əkinlərini tez bır zamanda keyfıyyətli toxumluq və əkin materıaları (ting, şitil) ilə təmin etmək vacib şərtdir (Xüsusilə, uzunsaplaq palıdının, Araz palıdının, saqqız ağacının, fıstığın, dağdağanın, Eldar şamının, cökənin və s azalmaqa olan ağac cinslərinin).

## ƏSAS TERMİNLƏR

**Genotop** - orqanizmin genetik (irsi) konstruksiyası. Onun bir-birinə vahid təsir edən genidir.

**Coğrafi əkin** - hər hansı növün və ya növ müxtəlifliyinin təcrübə əkinidir. Əkin müxtəlif coğrafı mənşəyi olan toxumlarla eyni mühit şəraitində və yaxud bir mənşəli toxum müxtəlif coğrafı rayonlarda əkilir.

**Getorozis** - ana nüsxələri ilə müqayisədə birinci nəslin möhkəmliyini və həyatı davamlılığını artırır.

**Klon** - bir vegetativ üsulla artırılan bitkının nəslidir.

**Populyasiya** - bir növ bıtkinin birliyinin müəyyən ərazidə yayılması, onların azad çarpaz olaraq bir-biri ilə tozlanması (bu və digər dərəcədə başqa birgə yaşayan bitkilərdən aralı olan).

**Ailə** - bir bitkinin toxum nəsli.

**Bitki çeşidi** - əkin üçün istifadə olunan birgə yaşadığı kənd və ya meşə təsərrüfatı üçün vacib olan əlamətlərinə görə seçilən (morfoloji, biokimyəvi və s.). Onlar artırılanda (cinsi və qeyri-cinsi) üzvlərinin seçilmiş xüsusiyyətlərini saxlayırlar.

**Elita** - təsərrüfat baxımından qiymətli əlamətləri və xüsusiyyətləri özündə əks etdirən yüksək səviyyədə özünü göstərən bitkı nəslidir.

## MEŞƏLƏRDƏ XİDMƏTİ QIRMALARIN APARILMASI

Respublikanın meşə ilə örtülü sahəsinin əksər hissəsini cavan və orta yaşlı ağaclıqlar əhatə edir, onlar müxtəlif cins tərkibinə aiddır və meşənin məhsuludurlar. Ona görə də xidməti qırmaların aparılması çox vacib təsərrüfatı tədbirdir və onlar meşələrin yetişdirilməsinə və təsərrüfat baxımından qiymətli, davamlı və yüksək məhsuldar ağaclıqların formalaşdırılmasına istiqamətləndirilir, meşələrin xeyirli funksiyalarını gücləndirir və oduncağından vaxtında istifadə etrnəyə şərait yaradır.

Xıdməti qırmalar vasitəsilə vaxtaşırı arzuolunmaz ağac nüsxələrı qırılır və sahədən çıxarılır, baş cinslərin müsbət nüsxələrinin saxlanılıb yetişdirilməsi üçün əlverişli şərait yaranır. Azmeşəli rayonlarda xidməti qırmaların əhəmiyyəti böyükdür. Bundan əlavə, xidməti qırıntılar suqoruyucu, tarlaqoruyucu meşə zolaqlarında, yaşıllıqlarda böyük əhəmiyyət kəsb edir.

Xidməti qırıntılar aparmaq üçün konkret şəraitlərdə meşə təsərrüfatı orqanları «xidməti qırmalar haqda göstəriş»dən (Azərbaycan üçün tərtib olunmuş) istifadə edirlər (Ə.M.Hüseynov, L.M.Hüseynova, 1974). Bu göstəriş Azərbaycan Elmi Tədqiqat Meşə Təsərrüfatı İnstitutunun əməkdaş F.Ə.Əmirov (1991-ci il) tərəfından təkmilləşdirilmiş və respublikanın rəhbər orqanları tərəfındən təsdiq edilmişdir.

Xidməti qırmaların əsas vəzifəsi bunlardır:

- ağaclığın cins tərkibini yaxşılaşdırmaq;
- ağaclığın məhsuldarlığını, keyfıyyətini və davamlılığını artırmaq;
- meşələrin qoruyucu və digər xeyirli xüsusiyyətini saxlamaq və yüksəltmək;
- oduncağın istifadəsinin vahid sahədən ölçüsünü artırmaq və oduncağın texniki yetişkənliyini qısaltmaq.

Yaşından və xidmətin məqsədindən asılı olaraq ağaclar aşağıdakı əsas qırma növünə ayrılır, tərkibə görə işıqlandırma aparılır, ağaclığın sıxlığı nizamlanır, ağacların (xüsusən baş cinslərin) boy inkişafı yaxşılaşdırılır.

**Təmizləmə** - Baş cinslərin sahədə yerləşməsini nizamlamaq, onların boy artımına kömək etmək, eyni zamanda ağaclığın formalaşdırmasını davam etdirir.

**Seyrəltmə** - Bu növ qırmada ağacların gövdəsinin və çətirlərinin fonnalaşmasını davam etdirmək; keçid qınnaları keyfıyyətli ağac nüsxələrinin boy artımının inkişafınaköməklik məqsədilə aparılır.

Xidməti qırmaların müxtəlif cinslər üzrə yaşları:

Cədvəl 1

| **Xidməti qırmaların növü** | **Ağaclığın yaşı** | | | | |
|---|---|---|---|---|---|
| | **iynəyar- paqlı** | **Palıd, fısdıq, vələs, qoz, görüş to- xumun- dan əmələ gələn** | **qalan yarpaqlı cinslər və pöhrəli ağaclar** | | |
| İşıqlandırma | 10-a qədər | 10-q qədər | 10-q qədər | 5-ə qədər | - |
| Təmizləmə | 11-20 | 11-20 | 11-20 | 11-20 | 5 -ə qədər |
| Seyrəltmə | 21-40 | 21-40 | 21-30 | 21-30 | 6-10 |
| Keçid | 41 və çox | 41 və çox | 31 və çox | 31 və çox | 11-15 |

Bütün xidməti qırmalar aparıldıqda mütləq qurumuş, güclü zədələnmiş və boy gedişi zəifləmiş ağac nüsxələri kəsilib götürülür.

Əgər xidməti qırmalar nəzərdə tutulmayıbsa, lakin ağaclığın sanitar vəziyyəti bunu tələb edirsə belə sahələrdə seçmə sanitar qırmalar aparılır. Hər bir xidməti qırma apardıqda müxtəlıf yaşlı və mürəkkəb ağaclıqda eyni vaxtda icra edilir (kompleks bitmiş və bir neçə növ xidməti qırmanın vəzifəsi yerinə yetirilir). Xidməti qırmalar aparılarkən əsas etibarilə təsərrüfat birliyinə klassifıkasiya tətbiq edilir və bütün ağaclar 3 kateqoriyaya bölünürlər:

I - yaxşı nüsxələr,
II - köməkçi nüsxələr (yararlı),
III - arzu olunmayan nüsxələr (kosilib götürüləcək)

Yaxşı nüsxə ağaclar sağlam olmalı, gövdəsi düz, kifayət qədər qol-budağı təmizlənmiş, çətiri yaxşı formalaşmış, əsasən, toxumadan mənşəli olmalıdır. Yaxşı keyfıyyətli ağaclardan xidməti qırmalar caxu məqsədli ağaclar və yaxud gələcəyin ağacları ayırırlar.

Köməkçi nüsxə ağaclara o ağaclar aid olunur ki, onlar yaxşı nüsxələrin qol-budaqdan təmizlənməsinə kömək edir, torpaqqoruyu- cu, su mühafızəedici funksiyanı yerinə yetirir.

Qırılacaq ağaclara aid olunur:

- qurumuş küləklə yıxılan, ölməkdə olan, göbələk xəstə liyinə tutulmuş, həşəratlarla zədələnmiş nüsxələri.
- arzuolunmayan ağac qarışığı, əgər onlar yaxşı nüsxələrə mane olurlarsa;
- gövdəsi iki, üç olan, pöhrədən əmələ gələn ağac nüsxələri.

Qeyd etmək lazımdır ki, xidməti qırmalarla nəinki cins tərkibi
yaxşılaşır, artım da çoxalır, meşədən istıfadənin ölçüsü 30-50% artır (vahid sahədən).

Ağaclığı daim olaraq (vaxtaşırı) seyrəltməklə (xidməti qırmalarla) ağacların məhv olmasının qarşısı alınır, qırılan ağaclar isə səmərəli olaraq xalq təsərrüfatında istifadə olunur.

Yaddan çıxarmaq olmaz ki, sumühafızəedici, torpaqqoruyucu meşələrdə xidmətı qırıntı, meşələrin suqoruyucu və digər qoruyucu xüsusiyyətlərini gücləndirmək üçün aparılır. Yaşıl zonanın meşələrində xidməti qırmalarla meşələrin sanitar-gigiyenik keyfiyyəti yaxşılaşır, qərzəkli ağaclıqlarda onların irsi keyfıyyəti və məhsul verməsi yüksəlir.

Bütün hallarda dəqiq olaraq cavan ağaclığın tərkibini təyin etmək lazımdır, bundan əlavə tərkibdə iştirak edən ağacların sayı və eyni zamanda daha üstün yetişdirilməsi məsləhət bilinən ağaclar təyin olunur.

Nəzərə almaq lazımdır ki, enliyarpaq cinslərin çoxu işığa tələbkar olur və işıq çatışmadıqda ağaclar zəifləyir. Ona görə də lazımdır ki, xidməti qırmalarla ağaclığın 5-8 yaşından cavan nüsxələri təyin olunsun və 60-70% tərkibdə enliyarpaqlı ağaclar müəyyənləşdirilsin. 30-40 yaşında enlıyarpaq cinslər tərkibdə 70-80% yer tutmalıdır.

Eyni zamanda vahid sahədə ağacların optimal sayının böyük həmiyyəti vardır. Ağacların sayı «Xidmətı qırmal üzrə əsasnamə»də verilir. Onlara diqqətlə əməl olunmalıdır.

## AZƏRBAYCAN RESPUBLİKASININ MEŞƏ FONDUNUN İSTİFADƏ ÜZRƏ BÖLÜNMƏSİ (1 yanvar 1988-ci ilə)

Cədvəl 2

| Meşə fondunu saxlayanlar | Ümumi sahə, min hektar | Meşə ilə örtülü sahə, min. ha | Meşə nin odun caq ehtiyab milyon m3 | Sahələ rinə görə %-lə | Ehtiya tına görə %-lə |
|---|---|---|---|---|---|
| Dövlət əhəmiyyətli meşələr | 1159,2 | 935,5 | 124,54 | 94,9 | 97,8 |
| Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 1085,2 | 863,9 | 121,31 | 89,4 | 95,1 |
| Sovxoz və kolxoz | 131,5 | 12.6 | 61,3 | 10,6 | 4,9 |
| Cəmi : | 1213,7 | 989,5 | 127,44 | 100 | 100 |

Meşələrin ümumi sahəsinin 95%-i Böyük və Kiçik Qafqazda və Talış dağ bölgələrində yerləşir.

Burada meşəlilik az-çox yüksəkdir (18-59% təşkil edir). Lakin Kür-Araz ovalığında və ona yaxın ərazi bölgələrində (Neftçala, Salyan rayonlarında) demək olar ki, heç yoxdur, ona görə də bu ərazilərin ekoloji vəziyyəti çox gərgindir. Belə vəziyyət bir daha təsdiq edir ki, Azərbaycan özünün yaşıl sərvətini böyük sahələrdə artıq itirmişdir və bu vəziyyət davam etməkdədir.

Meşə fondunun 1988-ci ilə olan hesabatında verilən məlumata görə respublika ərazisinin meşəliliyi 11,4 % olmuşdur.

Ona görə də burada düzən və dağətəyi sahələrdə ekoloji əmin- amanlıqdan söhbət aparmaq əbəsdir. Meşəliliyi nisbətən çox olan rayonlarda isə onların sosial-iqtisadi əhəmiyyəti hələlik az-çox qalmaqdadır. Meşələrin oduncağı universal xammal olsa da onların çox hissəsi yanacaq vasitəsi kimi istifadə olunur.

XX əsrin əvvəllərinden meşələrin etraf mühiti sabitləşdirici, o cümlədən hidroloji və tarlaqoruyucu əhəmiyyəti hamı tərefindən qəbul edilmişdir.

Son onilliklərdə meşələrin sanitar-gigiyenik, sağlamlıqgətirici və rekreasiya roluna daha çox əhəmiyyət verilir. Ona görə də

xalq təsərrüfatı baxımından respublikanın meşələri I qrupa aid edilmişdir və ciddi qorunurdu (cədvəl 2).

Bu kateqoriyaya qoruq, milli park və təbii parkların meşələri və eyni zamanda, elmi və tarixi əhəmiyyəti olan meşələr, meşə-parklar, meşə-meyvə ağaclıqları, sabalp çəmənliklərinə yaxın olan və digər kateqoriyaya aid olan, yüksək səviyyədə qorunmalı olan meşələr daxildir.

Birinci qrup meşələrin artmaqda rolunu (təbiət qoruyucu və rekreasiya amili kimi) mövcud və eyni şəhərlərin, sənaye mərkəzlərinin tikildiyini, respublika əhalisinin yüksək templə artdığmı nəzərə alaraq, gələcəkdə birinci qrup meşələrin sahələrinin artacağı gözlənilir.

Qeyd olunduğu kimi, Azərbaycan azmeşəli ölkədir. Ayrı-ayrı rayonların ərazisinin meşəliliyi müxtelifdir. Bu müxtəliflik ərazinin təbii şəraiti və insanların uzunmüddətli təsərrüfat fəaliyyəti ilə sıx surətdə bağlıdır.

Respublikada hər adambaşına orta hesabla çox az - 0,14 ha meşə sahəsi və 17,5 m3 oduncaq düşür. Dünya miqyasında bu göstəricilər müvafıq olaraq 3,14 ha və 3,7 m3, Ukraynada -4,8 ha ve 15 m3, Gürcüstanda 0,52 ha və 69 m3, Moldovada 0,7 ha və 5,5 m3-ə berabərdir. Azərbaycan Respublikasının meşə fondunun ümumi sahəsinin 1 yanvar 1988-ci ilə ölçüsü 1213,7 min hektardır.

Bu tərkibdə 989,5 min ha meşə ilə örtülü, 224,2 min ha isə meşə ilə örtülü olmayan sahələr: seyrəkliklər, açıq sahələr, çöllüklər, otlaq və biçənəklər, yollar, dərəliklər, şum və su sahələri vardır.

Respublikanın meşə fondu xalqımızın qiymətli, yaşıl sərvəti kimi indi də dağlıq ərazilərdə qalmaqdadır. Meşələr sənaye və kənd təsərrüfatının inkişaf tempinə əsaslı surətdə təsir edir. Bu isə öz növbəsində bizim qarşımızda məhsuldar meşələr yetişdirmək problemini qoyur.

Bilməliyik ki, hazırkı dövrə bizə nə qədər və hansı keyfıyyətdə meşələr miras qalmışdır, onlardan səmərəli istifadə etmək və təkrarən bərpası üçün hansı imkanlardan istifadə edə bilərik. Onların mühitəmələgətirici rolu nə vəziyyətdədir?

Göründüyü kimi, bir-birini əvəz edən tarixı dövrlərdə meşə ilə örtülü sahələr daim azalmaqda davam etmişdir. Xüsusilə kolxoz (54.5 min ha) və sovxoz meşələri (98,0 min ha) get-gedə sahələrini azaltmışdır. Onların vəziyyəti bizi daha çox narahat edir. Belə ki, meşələr ilə təsərrüfatın birgə aparılması praktiki olaraq heç vaxt lazımi səviyyədə olmamışdır. Dövlət meşə fonduna qaytarılıb verilən kolxoz-sovxoz meşələri adətən qırılmış və pöhrədən əmələ gələn, aşağı məhsuldarlığı olan vələs, qovaq, dəmirqara ağaclıq və kolluqlardır.

Meşə fondunun əsas və vacib göstəricilərindən birı onların yaş quruluşudur. Bu amil meşə sərvətlərinə qiymət verərkən istifadə olunur. Bu göstərici meşələrin yaş qrupu üzrə sahələrini və oduncaq ehtiyatını araşdırarkən istifadə edilir.

Respublika meşələrinin yaşına görə vəziyyətinə nəzər salsaq (cədvəl 2) onda görərik ki, cavan ağaclıqlar burada az sahəni tuturlar (11,3%), orta yaşlı meşələr 546,9 ha (64%), yetışmiş və yaşı ötmüş meşələr 104,5 ha (12%)-dir.

Meşələrin yaşa görə fonnalaşması bir çox amillərin təsiri (təbii və antropogen) nəticəsində olmuşdur (cədvəl 3).

Meşə fondunun vacib göstəricisi, eyni zamanda onlarm orta yaşıdır.

Cədvəl 3.

| Təsərrüfat | Dövlət meşə fon- dunda meşə ilə ör- tülü sahə, min hektar | Meşə ilə örtülü sahənin yaş sinfinə görə bölünməsi, min hektar | | | | Meşə ehtiyatı, min m3 | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | cavan meşələr | orta yaş meşələr | Yetişməkdə olan meşələr | Yetişmiş və yaşı ötmüş meşələr | Cəmi | Yetişmiş və yaşı ötmüş | Ümumi orta artım, min m? | Orta yaş, il |
| İynəyarpaqlılar % | 13,7 100 | 3,1<br>22,6 | 6,3<br>46,0 | 1,6<br>11,7 | 2,7<br>19,7 | 0,35<br>0.3 | 0,07<br>0,4 | 0,0 | 79 |
| Bərkyarpaqlılar % | 758,3<br>100 | 71,3<br>9,4 | 495,7<br>65,4 | 102,2<br>13,5 | 89,1<br>11,7 | 114,85<br>94,7 | 18,1<br>90,5 | 1,24<br>93,1 | 186 |
| Yumşaq yarpaqlılar % | 18,9 100 | 0,7<br>3,7 | 6,0<br>86,3 | 5,7<br>30.2 | 5,6<br>29,6 | 2,02<br>1.6 | 0,76<br>3,8 | 0,04<br>2,7 | 50 |
| Digər ağac cinsləri və kollar, % | 72,8 | 21,9 | 38,0 | 5,8 | 7,1 | 4,09 | 1,07 | 0,06 | 68 |
| Cəmi: | 863,7 | 97,0 | 546,9 | 115,3 | 104,5 | 121,31 | 20,03 | 1,44 | 84 |
| % | 100 | 11,2 | 63,3 | 13,4 | 12,1 | 100 | 100 | 100 | |

Araşdırmalar göstərir ki, dağ meşələri ərazilərində, xüsusilə hövüş (rütubətli), təzə tip palıd və fıstıq meşələrində qırma yerlən 95-100% təbii bərpa yolu ilə getməlidir. Aşağı dağ-meşə qurşağında (600-1000 m dəniz səviyyəsindən hündürlüyə qədər) meşənin təbii bərpası ilə süni bərpanın nisbətinin 50%-in 50%-ə olması vacibdir. Arid və düzən ərazilərdə əksinə, süni yolla bərpa üsulu 95-100% təşkil etməlidir. Bu müxtəlif tip meşəbitmə şəraitlərinin tələbidir. Bu tələbləri pozmaq meşələrin bərpasında həmişə uyğunsuzluqlarla nəticələnir.

Meşələrin təbii bərpasının maksimum istifadəsi necə olmalıdır?

Uzun illərin təcrübəsi göstərir ki, təbii bərpa yolu ilə əsas (qiy- mətli) meşə cinslərinin yüksək məhsuldar meşələrinin yetişdirilməsi hələlik lazımı tərzdə getmir.

Təbii bərpanın maksimum istifadə olunması məqsədilə «meşəbərpa qırmaları qaydalarına tam riayət olunmalıdır. Meşəbərpa işinin növbələşdirilməsi meşənin çətirləri altında yeniyetmələrin və pöhrələrin olub - olmamasından (mövcudluğundan) asılı olaraq müəyyən edilməlidir. Daha doğrusu, qırıntıya birinci növbədə o meşə sahələri ayrılmalıdır ki, onların çətirləri altında əsas və köməkçi cinslərin bərabər şəkildə yayılmış və hər hektarda sayı 12-14 mindən az olmayan yeniyetmə ağaclar və pöhrələr olsun. Onlardan 25-50%-dən çoxu palıd, fısdıq və digər qiymətli cinslər təşkil etməlidirlər.

Maksimum təbii bərpaya nail olmaq üçün meşələrin qırılması, toxum ilində və həm də toxumların yetişib yerə tökülməsindən sonra aparılması vacibdir. Qırıntıdan 1-3 il qabaq təbii bərpaya köməklik məqsədilə meşə çətirləri altında torpaqlar 1 x 1 ölçüsündə yumşaldılmalı, oraya qiymətli cinslərin 20-25 ədəd toxumları səpilməli və sahə mal-qaradan qorunmalıdır. Bu halda təbii bərpa yüksək səmərəli olur, yaxşı nəticə alınır.

Lazımı kəmiyyətdə və keyfiyyətdə yeniyetmə ağaclar əldə olunmazsa və yaxud qırıntı yerlərində müxtəlif yüksək otlar, kollar (böyürtkən, gəndəlaş, ayıdöşəyi və s.) inkişaf edərsə və ağacların yeniyetmələrinin ınkişafına mane olarsa, meşə altlığının seyrəldilməsi yolu ilə pöhrələrin işıq rejimi yaxşılaşdırılmalı və lazım gələrsə, ağac cinslərinin tinklri əkilməlidir.

Əgər qiymətli cinslər hesab olunan fıstığın, palıdın təbii bərpası kifayət deyildirsə və yaxud onlar ərazidə qeyri-bərabər yerləşirlərsə, onda bu cinslərin peykləri (onlarla bahəm bitən boy qovucları) olan göyrüş, ağcaqayın, cökə, azadağacı, tozağacı və s. cinslərin yeniyetmələri də nəzərə alınmaqla qarışıq ağaclıqlar formalaşdırmalıdır.

# Mündəracət:

Giriş ............................................................5

**I. Meşə qanunvericiliyi:**

1. Azərbaycan Respublikasının Konstitusiyasından çıxarış ............7
2. "Azərbaycan Respublikası Meşə Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının № 424-IQ saylı 30 dekabr 1997-ci il tarixli Qanunu ..........8
3. Azərbaycan Respublikasının Meşə Məcəlləsi ............9
4. Azərbaycan Respublikasının 1997-ci il 30 dekabr tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikası Meşə Məcəlləsinin tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin № 693 saylı 30 mart 1998-ci il tarixli Fərmanı ............31
5. "Azərbaycan respublikasının meşələrində əsas meşə cinslərinin köküstü buraxılış nırxları haqqında"Azərbaycan Respublikasi Nazirlər Kabinetinin № 548 saylı 26 oktyabr 1993-ci il tarixli Qərarı ............34
6. Meşə Təsərrüfatına dəymiş ziyana görə maddi məsuliyyətə cəlb edilmə qaydaları haqqında Azərbaycan Respublikasi Nazirlər Kabinetinin № 636 saylı 27 dekabr 1993-ci il tarixli Qərarı və 8 (səkkiz) əlavələr ............36
7. "Respublika meşələrində əsas meşə və kol cinslərinin yeni köküstə buraxılış nırxlarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasi Nazirlər Kabinetinin № 312 saylı 24 avqust 1994-ci il tarixli Qərarı ............47
8. Azərbaycan Respublikasi Nazirlər Kabinetinin "Meşə Təsərrüfatına dəymiş ziyana görə maddi məsuliyyətə cəlb edilmə qaydaları haqqında" № 636 saylı 27 dekabr 1993-ci il tarixli Qərarına dəyişiklik və əlavələr edilməsi barədə Azərbaycan Respublikasi Nazirlər Kabinetinin № 259 saylı 01 dekabr 1995-ci il tarixli Qərarı ............50
9. Meşə fondu torpaqlarının icarəyə verilməsi qaydası haqqında Azərbaycan Respublikasi Nazirlər Kabinetinin № 214 saylı 17 oktyabr 1998-ci il tarixli Qərarı ............52
10. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 17 oktyabr tarixli 214 nömrəli qərarı ilə Təsdiq Edilmiş "Meşə fondu torpaqlarının icarəyə verilməsi Qaydası" ............53
11. "Meşə fondu sahələrindən elmi-tədqiqat, mədəni-sağlamlaşdırma, turizm və idman məqsədləri, ovçuluq təsərrüfatının ehtiyacları üçün istifadə qaydaları haqqında" Azərbaycan Respublikasi Nazirlər Kabinetinin № 219 saylı 30 oktyabr 1998-ci il tarixli Qərarı ............55
12. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 30 oktyabr tarixli 219 nömrəli qərarı ilə Təsdiq Edilmiş "Meşə fondu sahələrindən elmi-tədqiqat, mədəni-sağlamlaşdırma, turizm və idman məqsədləri, ovçuluq təsərrüfatının ehtiyacları üçün istifadə Qaydaları" ............56
13. "Meşə təsərrüfatı ilə bağlı normativ-hüquqi aktlar haqqında" Azərbaycan Respublikasi Nazirlər Kabinetinin № 230 saylı 7 dekabr 1998-ci il tarixli Qərarı ............58
14. Azərbaycan Respublikasi Nazirlər Kabinetinin № 230 saylı 7 dekabr 1998-ci il tarixli Qərarı ilə Təsdiq Edilmiş "Meşə fondu sahələrinin bir ilə qədər qısamüddətli istifadəyə verilməsi Qaydası" ............59

15. Azərbaycan Respublikasi Nazirlər Kabinetinin № 230 saylı 7 dekabr 1998-ci il tarixli Qərarı ilə Təsdiq Edilmiş “Meşələrin monitorinqinin həyata keçirilməsi Qaydası” ....................60
16. Azərbaycan Respublikasi Nazirlər Kabinetinin № 230 saylı 7 dekabr 1998-ci il tarixli Qərarı ilə Təsdiq Edilmiş “Meşə quruluşu işlərinin aparılması Qaydası” ....................61
17. Azərbaycan Respublikasi Nazirlər Kabinetinin № 230 saylı 7 dekabr 1998-ci il tarixli Qərarı ilə Təsdiq Edilmiş “Meşə fondu haqqında məlumatın fiziki və hüquqi şəxslərə verilməsi Qaydası” ....................62
18. Meşə fondunun zərərvericilərdən və xəstəliklərdən mühafizəsi üzrə fitosanitar Qaydalarının təsdiq edilməsi haqqında Azərbaycan Respublikasi Nazirlər Kabinetinin № 16 saylı 9 fevral 1999-cu il tarixli Qərarı ....................63
19. Azərbaycan Respublikasi Nazirlər Kabinetinin № 16 saylı 9 fevral 1999-cu il tarixli Qərarı ilə Təsdiq Edilmiş “Meşə fondunun zərərvericilərdən və xəstəliklərdən mühafizəsi üzrə fitosanitar Qaydaları” ....................64
20. “Azərbaycan Respublikası meşələrində köküstü oduncaq buraxılışı Qaydalarının təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasi Nazirlər Kabinetinin № 38 saylı 15 mart 1999-cu il tarixli Qərarı....................66
21. Azərbaycan Respublikasi Nazirlər Kabinetinin № 38 saylı 15 mart 1999-cu il tarixli Qərarı ilə Təsdiq Edilmiş “Azərbaycan Respublikası meşələrində köküstü oduncaq buraxılışı Qaydaları” ....................67
22. “Meşə təsərrüfatına dair bəzi normativ-hüquqi aktlar barədə” Azərbaycan Respublikasi Nazirlər Kabinetinin № 70 saylı 26 aprel 1999-cu il tarixli Qərarı ....................73
23. Azərbaycan Respublikasi Nazirlər Kabinetinin № 70 saylı 26 aprel 1999-cu il tarixli Qərarı ilə Təsdiq Edilmiş “Meşələrin qoruyucu kateqoriyalara aid edilməsi, meşələrin bir qoruyucu kateqoriyadan başqa qoruyucu kateqoriyaya keçirilməsi Qaydası”....................74
24. Azərbaycan Respublikasi Nazirlər Kabinetinin № 70 saylı 26 aprel 1999-cu il tarixli Qərarı ilə Təsdiq Edilmiş “Meşəqırma qaydaları” ....................76
25. Azərbaycan Respublikasi Nazirlər Kabinetinin № 70 saylı 26 aprel 1999-cu il tarixli Qərarı ilə Təsdiq Edilmiş “Meşə fondunun dövlət uçotu göstəricilərinin Siyahisı” ....................80
26. “Meşələrin qorunub saxllanması və təkrar istehsalı fondunun istifadə Qaydalarının təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasi Nazirlər Kabinetinin № 83 saylı 21 may 1999-cu il tarixli Qərarı....................92
27. Azərbaycan Respublikasi Nazirlər Kabinetinin № 83 saylı 21 may 1999-cu il tarixli Qərarı ilə Təsdiq edilmiş “Meşələrin qorunub saxllanması və təkrar istehsalı fondunun istifadə Qaydaları” ....................93
28. “Meşə təsərrüfatı sahəsinə dair bəzi normativ-hüquqi aktların təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasi Nazirlər Kabinetinin № 116 saylı 09 iyul 1999-cu il tarixli Qərarı....................95
29. Azərbaycan Respublikasi Nazirlər Kabinetinin № 116 saylı 09 iyul 1999-cu il tarixli Qərarı ilə Təsdiq Edilmiş “Meşə təsərrüfatı sahəsinə dair bəzi normativ-hüquqi aktların təsdiq edilməsi Qaydaları”....................96
30. Azərbaycan Respublikasi Nazirlər Kabinetinin № 116 saylı 09 iyul 1999-cu il tarixli Qərarı ilə Təsdiq Edilmiş “Meşə yanğınlarının söndürülməsinə fiziki və hüquqi şəxslərin cəlb olunması Qaydası ” ....................97

31. “Meşə təsərrüfatı ilə bağlı bəzi məsələlər haqqında” Azərbaycan Respublikasi Nazirlər Kabinetinin № 161 saylı 04 oktyabr 1999-cu il tarixli Qərarı ........................... 98
32. Azərbaycan Respublikasi Nazirlər Kabinetinin № 161 saylı 04 oktyabr 1999-cu il tarixli Qərarı ilə Təsdiq Edilmiş “Meşəqırma biletinin, orderin və meşə biletinin uçotu, saxlanılması, doldurulması və verilməsi Qaydaları” .............................. 99
33. Azərbaycan Respublikasi Nazirlər Kabinetinin № 161 saylı 04 oktyabr 1999-cu il tarixli Qərarı ilə Təsdiq Edilmiş “Meşə təsərrüfatına dəyən zərərin və itkilərin ödənilməsi Qaydası” ........................................................... 102
34. “Meşə təsərrüfatı sahəsinə dair bəzi normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasi Nazirlər Kabinetinin № 174 saylı 08 noyabr 1999-cu il tarixli Qərarı ........................................................................................ 107
35. Azərbaycan Respublikasi Nazirlər Kabinetinin № 174 saylı 08 noyabr 1999-cu il tarixli Qərarı ilə Təsdiq Edilmiş “Meşə fondu torpaqlarının geri alınması ilə əlaqədar meşə istifadəçilərinə dəyən ziyanın ödənilməsi Qaydası” .......................................................................... 108
36. Meşə fondu torpaqlarının geri alınması ilə əlaqədar meşə istifadəçilərinə dəyən ziyanın ödənilməsi Qaydasına Əlavə olunmuş Nümunə “Meşə fondu torpaqlarının geri alınması ilə əlaqədar meşə istifadəçilərinə dəyən ziyanın ödənilməsi üçün komissiyanın AKT” ............................. 110
37. Azərbaycan Respublikasi Nazirlər Kabinetinin № 174 saylı 08 noyabr 1999-cu il tarixli Qərarı ilə Təsdiq Edilmiş “Köküstə buraxılan oduncaq və ikinci dərəcəli meşə ehtiyatlarının məcburi sertifikatlaşdırılmasının təşkili və aparılması Qaydası” ................................................ 111
38. “Meşə fondunun vəziyyətinə, istifadəsinə, mühafizəsinə, qorunmasına və meşələrin bərpasına dövlət nəzarətinin həyata keçirilməsi Qaydası”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin № 15 saylı 03 fevral 2000-ci il tarixli Qərarı ............................................................. 112
39. “Meşə təsərrüfati sahəsinə dair bəzi normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin № 45 saylı 15 mart 2000-ci il tarixli Qərarı ........................................................................................ 116
40. Azərbaycan Respublikası Nazirlər Kabinetinin № 45 saylı 15 mart 2000-ci il tarixli Qərarı ilə təsdiq edilmiş “Dövlət meşə kadastrı göstərilməsinin siyahısı Meşələrin iqtisadi qiymətləndirilməsinin metodikası və Dövlət meşə kadastrının aparılması qaydası” ........................................ 117
41. Azərbaycan Respublikası Nazirlər Kabinetinin № 45 saylı 15 mart 2000-ci il tarixli Qərarı ilə təsdiq edilmiş “Meşələrin iqtisadi qiymətləndirilməsinin metodikası” ................................................................... 118
42. Azərbaycan Respublikası Nazirlər Kabinetinin № 45 saylı 15 mart 2000-ci il tarixli Qərarı ilə təsdiq edilmiş “ Dövlət meşə kadastrının aparılması qaydası” ........................................................... 121
43. Meşə Fondunun mühafizəsi, qorunması və meşələrin bərpası Qaydalarının təsdiq edilməsi haqqında Azərbaycan Respublikasi Nazirlər Kabinetinin № 78 saylı 01 may 2000-ci il tarixli Qərarı ................................. 123
44. Meşəqırma həcminin təstiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin № 99 saylı 09 iyun 2000-cu il tarixli Qərarı ................................ 130
45. “Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişikliklər edilməsi barədə” AzərbaycaN RespublikasI NazirləR Kabinetinin № 941 saylı 23 oktyabr 2003-cu il tarixli Qərarı ....................................... 131

46. “Meşə qanunvericiliyinin pozulması hallarının qarşısının alınması tədbirlər haqqında” Azərbaycan Respublikasi Nazirlər Kabinetinin № 145 saylı 30 sentyabr 2004-ci il tarixli Qərarı ......137
47. Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarına və sərəncamlarına əlavə və dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin № 159 saylı 10 dekabr 2004-cü il tarixli Fərmanı ......138
48. “Azərbaycan Respublikasının meşə fonduna daxil olmayan ağac-kol bitkilərinin istifadəsi, mühafizəsi və qorunması qaydaları haqqında” Azərbaycan Respublikasi Nazirlər Kabinetinin № 173 saylı 19 sentyabr 2005-ci il tarixli Qərarı ......139
49. Azərbaycan Respublikasi Nazirlər Kabinetinin № 173 saylı 19 sentyabr 2005-ci il tarixli Qərarı ilə Təsdiq Edilmiş “Azərbaycan Respublikasının meşə fonduna daxil olmayan ağac-kol bitkilərinin istifadəsi, mühafizəsi və qorunması Qaydaları” ......140
50. «Toxumçuluq və tinglik təsərrüfatlarından satılan 1-ci və 2-ci reproduksiyalı toxumlara və tinglərə görə dövlət büdcəsindən təsərrüfatlara subsidiyanın ödənilməsi Qaydası»nın təsdiq edilməsi barədə Azərbaycan Respublikasi Nazirlər Kabinetinin № 103 saylı 25 iyun 2007-ci il tarixli Qərarı......142
51. Azərbaycan Respublikasi Nazirlər Kabinetinin № 103 saylı 25 iyun 2007-ci il tarixli Qərarı ilə Təsdiq Edilmiş «Toxumçuluq və tinglik təsərrüfatlarından satılan 1-ci və 2-ci reproduksiyalı toxumlara və tinglərə görə dövlət büdcəsindən təsərrüfatlara subsidiyanın ödənilməsi Qaydası» ......143
52. “Azərbaycan Respublikasında yaşıllıqların salınması sahəsində idarəetmənin təkmilləşdirilməsi tədbirləri haqqında” Azərbaycan Respublikası Prezidentinin 13 iyun 2008-ci il tarıxli 2868 saylı sərəncamı ......148
53. Azərbaycan Respublikası meşələrində yanğın təhlükəsizliyi Qaydaları. Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən 08 may 2003-ci il tarixində qeydiyyata alınıb qeydiyyat N 2976. ......150
54. “Azərbaycan Respublikasının meşə fondu torpaqlarında Meşəbərpa və meşə yetişdirilməsinə dair” əsas müddəalar - 1999-ci il. ......157
55. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Meşələrin inkişafı departamentinin “Meşə ağac və kol cinsləri toxumlarının tədarükü, saxlanması və səpinə hazırlanması qaydaları barədə” tövsiyyələri -2005-ci il......NNN
56. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Meşələrin inkişafı departamentinin “Meşələrin qanunsuz qırıntılardan və dəgər meşə pozuntularından mühafizəsinin vəziyyətinə operativ nəzarətin təşkili barədə” təlimatı -2006-ci il......170
57. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Meşələrin inkişafı departamentinin “Əkin materiallarının növlərindən asılı olaraq standartların tələblərinə üyqun olması şərtləri barədə” tövsiyyələri -2007-ci il. ......174

**II. Meşə münasibətlərini tənzimləyən digər qanunverici aktlar**

1. Fitosanitar nəzarəti haqqında Azərbaycan Respublikasının Qanunu ......181

2. Toxumçuluq haqqında Azərbaycan Respublikasının Qanunu ....................................... 202
3. "Heyvanlar aləmi haqqında" Azərbaycan Respublikasının Qanunu ............................ 212
4. "Ovçuluq haqqında" Azərbaycan Respublikasının Qanunu ........................................... 219
5. Azərbaycan Respublikasının Torpaq Məcəlləsindən çıxarış ......................................... 223
6. Azərbaycan Respublikasının Su Məcəlləsindən çıxarış ................................................ 227
7. "Bələdiyyələrin Statusu Haqqında" Azərbaycan Respublikasının Qanunundan çıxarış ................................................................................................. 228
8. Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin "Meşə fondunun saxlanılması ekoloji, hidrometeoroloji və geoloji xidmətlərin müvəqqəti xərc normaları"nın təsdiq edilməsi barədə İ-35 saylı 07.04.2006-ci il tarixli əmri. ................................................................ NNN
9. Azərbaycan Respublikasının Cinayət Məcəlləsindən çıxarış ......................................... 230
10. Azərbaycan Respublikasının İnzibati xətalar Məcəlləsindən çıxarış ............................ 231

**III. Meşə münasibətlərini tənzimləyən beynəlxalq müqavilələr**

1. Bitki karantini sahəsində əməkdaşlıq haqqında Sazişə Azərbaycan Respublikasının qoşulması barədə Azərbaycan Respublikasının 17 fevral 1998-ci il tarixli № 441-IQ saylı Qanunu ........................................................................ 236
2. «Kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna və yabanı flora növlərinin beynəlxalq ticarəti haqqında» Konvensiyaya (CITES) qoşulmaq barədə Azərbaycan Respublikasının 23 iyun 1998-ci il tarixli № 507-IQ saylı Qanunu ........................................................................ 237
3. «Avropanın canlı təbiətinin və təbii mühitinin qorunması haqqında» 1979-cu il 19 sentyabr tarixli Avropa Konvensiyasına qoşulması barədə Azərbaycan Respublikasının 28 oktyabr 1999-cu il tarixli № 730-IQ saylı Qanunu ........................................................................ 238
4. «Avropanın canlı təbiətinin və təbii mühitinin qorunması haqqında» 1979-cu il 19 sentyabr tarixli Avropa Konvensiyası ..................................................... 239
5. Birləşmiş Millətlər Təşkilatının «Bioloji müxtəliflik haqqında» Konvensiyasının təsdiq edilməsi barədə Azərbaycan Respublikasının 14 mart 2000-ci il tarixli № 829-IQ saylı Qanunu ....................................................... 249
6. Birləşmiş Millətlər Təşkilatının «Bioloji müxtəliflik haqqında» Konvensiyası ........................................................................................................ 250
7. «Bitki mühafizəsi haqqında» 1951-ci il dekabrın 6-da Roma şəhərində qəbul edilmiş Beynəlxalq Konvensiyaya qoşulması barədə Azərbaycan Respublikasının 14 mart 2000-ci il tarixli № 831-IQ saylı Qanunu ........................................................................ 272
8. «Bitki mühafizəsi haqqında» Beynəlxalq Konvensiya .................................................. 273
9. Birləşmiş Millətlər Təşkilatının «İqlim dəyişmələri haqqında» Çərçivə Konvensiyasına dair» 1997-ci il dekabrın 11-də Kioto şəhərində qəbul olunmuş Protokoluna qoşulması barədə Azərbaycan Respublikasının 18 iyul 2000-ci il tarixli № 912-IQ saylı Qanunu ........................................................................ 281
10. Birləşmiş Millətlər Təşkilatının «İqlim dəyişmələri haqqında» Çərçivə Konvensiyası Kioto Protokolu və Qərarlar ..................................................... 282
11. «Bitki sortlarının hüquqi mühafizəsi haqqında» sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının 1 sentyabr 2003-ci il tarixli № 498-IQ saylı Qanunu ........................................................................ 302

12. «Bitki sortlarının hüquqi mühafizəsi haqqında» Sazişi ....303
13. «Yeni bitki sortlarının mühafizəsi haqqında» Beynəlxalq Konvensiyaya qoşulması barədə Azərbaycan Respublikasının 05 dekabr 2003-ci il tarixli № 534-IQ saylı Qanunu....308

**IV. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Meşələrin İnkişafı Departamentinin strukturu**

1. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Meşələrin İnkişafı Departamenti haqqında əsasnamə ....309
2. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Meşələrin İnkişafı Departamentinin strukturu....315
3. Meşə təsərrüfatı ilə bağlı bəzi məsələlərinə dair verilən izah....NNN

## Qeydlər üçün

## Qeydlər üçün